2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Böyük Qarabağ Zəfərindən sonra postkonflikt ərazilərdə yeni obyektiv reallıqlar formalaşmışdır. Azərbaycan özünün milli iqtisadi inkişaf modelini və regional inkişaf prioritetlərini təkmilləşdirmək, yeni hədəflər qarşıya qoymaq kimi tarixi şans əldə etmişdir. 30 ilə qədər çəkmiş işğal dövründə torpaqlarımız deqradasiyaya uğramış, milli sərvətlərimiz talan olunmuş, kənd, qəsəbə və şəhərlərimiz viran edilmişdir. İctimai binalar və müəssisələr, o cümlədən sənaye müəssisələri dağıdılmış, infrastruktur yerlə yeksan edilmişdir. Belə bir şəraitdə işğaldan azad olunmuş ərazilərin bərpasına başlanılmış və bu işlər hazırda intensiv xarakter almaqdadır. Qeyd edək ki, dövlət başçısının təşəbbüsü və müvafiq sərəncamı ilə iqtisadi rayonların yeni bölgüsü aparılmış və işğaldan azad olunmuş ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır [3]. Bu iqtisadi rayonların hər biri yaradılarkən coğrafi və tarixi xüsusiyyətlər, məskunlaşma prinsipləri və məşğulluq problemlərinin həlli məsələləri, sənaye və xüsusilə aqrar sektorun inkişaf etdirilməsi prioritetləri nəzərə alınmışdır [5, s. 69]. Hesab edirik ki, strateji əhəmiyyət kəsb edən fəaliyyət istiqamətlərindən biri məhz sənaye sahələrinin inkişaf etdirilməsi və rəqabət qabiliyyətli müəssisələr şəbəkəsinin yaradılmasıdır. Bunun üçün hər iki iqtisadi rayonda münbit şərait və zəruri resurslar vardır.

Qarabağ iqtisadi rayonunda hələ sovetlər birliyi dövründə Ağdam və Füzulidə orta və iri sənaye müəssisələri fəaliyyət göstərmişdir. Xüsusilə, dəzgahqayırma və cihazqayırma, tikinti materialları istehsalı, pambıq və üzüm məhsulları emal edən müəssisələr, yağ-pendir zavodları daha geniş fəaliyyət şəbəkəsinə malik olmuşlar. Bu rayonlarda analoji fəaliyyət istiqamətləri üzrə müəssisələrin olması istehsal olunan məhsulların emalına və bununla əlaqədar olaraq istehsalçıların stimullaşdırılmasına əlavə motivasiyalar vermişdir. Lakin keçmiş SSRİ-nin süqutundan sonra torpaqlarımız erməni silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra bu müəssisələrin hamısı dağıdılmışdır. Ağdam və Füzuli şəhərlərində bir salamat obyekt və ictimai bina belə qalmamışdır. Şərqi Zəngəzur iqtisadi rayonunda əsasən aqrar-sənaye emal müəssisələri fəaliyyət göstərmişdir. Burada prioritet olaraq aqrar sahənin inkişafı, o cümlədən üzümçülük və tütünçülük, heyvandarlıq və arıçılıq əsas götürülmüşdür. Bu iqtisadi rayonun resursları da işğal dövründə virana və talançılığa məruz qalmışdır. Xüsusilə Zəngilan və Kəlbəcər rayonunda mövcud olan qiymətli resurslarımız, o cümlədən qızıl yataqlarımız istismar edilmişdir.

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının hər ikisində bərpa və quruculuq işləri intensiv olaraq həyata keçirilir. Böyük Qayıdışla bağlı I Dövlət Proqramı reallaşdırılır [4]. Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlərin əsas problemlərindən biri müvafiq və layiqli işlə təmin olunmaqdır. Bu mühüm məsələlər nəzərə alınmaqla artıq istehsal infrastrukturunun yaradılmasına və sənaye müəssisələrinin təşkili üçün maddi-texniki bazanın formalaşdırılmasına, inkişaf etdirilməsinə başlanılmışdır.

Regionun ən iri sənaye parkı məhz Ağdam rayonunda ərsəyə gətirilməkdədir. Ağdam Sənaye

Parkı ölkə prezidentinin 28 may 2021-ci il tarixli fərmanına uyğun olaraq yaradılmışdır [1]. Bu çoxfunksiyalı sənaye parkı özündə müxtəlif funksiyalı yerinə yetirəcək innovativ texnologiyaları, rəqabət qabiliyyətli müəssisələri bir araya yığmaqdadır. Sənaye parkında qeydiyyata düşən rezidentlər üçün 10 il müddətinə güzəştlər müəyyənləşdirilmişdir və onlar gəlir və ya mənfəət vergisindən azaddırlar. Eyni zamanda, burada fəaliyyət göstərən rezident – firmalar, torpaq və əmək vergisindən, idxal etdikləri texnologiyalar və qurğular, həmçinin texniki vasitələr üçün vergilərdən azaddırlar. Bunlarla bərabər, Sənaye Parkının rezidentləri güzəştli şərtlərlə bank kreditləri əldə etmək və subsidiya mexanizmindən bəhrələnmək imkanlarına malikdirlər. Dövlət tərəfindən sənaye parkının sürətlə inkişaf etməsi üçün müvafiq tədbirlər görülüb, təminat xarakterli problemlər həll olunub və artıq bir sıra rezident-firmalar fəaliyyətə başlamışlar. Sənaye parkının ümumi ərazisi 190 hektardan ibarətdir və rezidentlər tərəfindən bu vaxta qədər 12 milyon manat investisiya yönəldilib. Qeydiyyata düşən rezidentlərin sayı 25-ə çatmışdır və 175 milyon manatlıq ümumi investisiya layihələrinin həyata keçirilməsi, bunların sayəsində 1600 iş yerinin təşkili planlaşdırılıb. İlk qeydiyyata düşən rezidentlərdən biri olan "Yüksəl Beton" QSC-nin istehsal etdiyi beton məhsulları işğaldan azad olunmuş ərazilərdə aparılan tikinti-quraşdırma layihələrində fəal şəkildə istifadə olunmağa başlamışdır. Bunlarla bərabər, yaxın vaxtlarda havalandırma sistemləri üzrə avadanlıqların və inventarların, dəmir yol xətlərindən ötrü siqnallar, həmçinin mikrosxemlərin istehsalı, eyni zamanda ayaqqabı və ölkəmizdə ilk dəfə olmaqla divar kağızlarının istehsalı istiqamətlərində sənaye müəssisələrində fəaliyyətə başlaması gözlənilir. Maraqlı bir məqam isə hazırda Sumqayıtda fəaliyyət göstərən İtaliyanın "Tabaterra" şirkətinin perspektivdə öz fəaliyyətinə əsasən Ağdam Sənaye Parkında həyata keçirilməsi hədəfləridir. Nəzər alsaq ki, işğaldan azad olunmuş ərazilərdə, əsas etibarı ilə Qubadlı və Laçın rayonlarında tütünçülüyün inkişafı üçün güclü resurs potensialı vardır və bu baxımdan həmin müəssisənin xammal təminatında əsaslı potensialın olmasını qeyd etmək mümkündür. Fikrimizcə postkonflikt ərazilərin minalardan təmizlənməsi təmin edildikcə, burada rəqabət qabiliyyətli və müasir texnologiyalar əsaslı müəssisələr şəbəkəsinin yaradılması prosesləri daha da sürətlənəcəkdir.

Şərqi Zəngəzur iqtisadi rayonunda – Cəbrayılda yaradılan "Araz Vadisi İqtisadi Zonası" regionda sahibkarlığın inkişafında, biznes və investisiya mühitinin cəlbediciliyinin yüksəldilməsində müstəsna rol oynamaqdadır. Dövlət başçısının 4 oktyabr 2021-ci il tarixli fərmanı ilə yaradılan bu mütərəqqi iqtisadi zonanın inkişaf etdirilməsi regionun resurslarının təsərrüfat və maliyyə dövriyyəsinə cəlb edilməsinə əsaslı töhfə verəcəkdir [2]. Qeyd edək ki, bu iqtisadi zonanın ərazisi hazırda 200 hektardır və 19 milyon ABŞ dollarından çox investisiyaların yatırılması planlaşdırılmışdır, bunların sayəsində 421 yeni iş yerinin yaradılması proqnozlaşdırılır. "Araz Vadisi İqtisadi Zonası"nın təşkilində əsas vəzifələr sırasında postkonflikt ərazilərin daha sürətlə dirçəldilməsi, regionun sənaye potensialından səmərəli istifadə olunması və sahibkarlığın inkişaf etdirilməsi, ilk növbədə yüksək texnologiyalar əsaslı müasir rəqabətqabiliyyətli sənaye müəssisələrinin yaradılması və məşğulluğun gücləndirilməsidir. Artıq bu Sənaye Parkında qeydiyyata düşən rezidentlərin sayı 7-yə yüksəlmişdir, investisiya dəyəri 30 milyon manat olan 6 prioritet layihə dəstəklənmişdir. Hesab edirik ki, yaxın perspektivdə bu sənaye parkının genişləndirilməsi hesabına regionda nəqliyyat-logistika infrastukturunun imkanlarından və investisiya cəlbediciliyi amilindən daha səmərəli istifadə üçün güclü potensial formalaşdırılacaqdır.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə 2 böyük – Füzuli və Zəngilan beynəlxalq hava limanlarının fəaliyyətə başlaması və yaxın illərdə Laçın Beynəlxalq Hava Limanının istismara veriləcəyi, ümumilikdə 17 nəqliyyat layihəsinin reallaşdırılması və Zəngəzur Nəqliyyat-logistika

Dəhlizinin açılması regionda sənaye sahələrinin, ilk növbədə emal sənayesi sahələrinin geniş şəbəkəsinin yaradılmasına imkan verəcəkdir və bunlarla bağlı bir sıra məsələləri ümumiləşdirmişik:

–Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sahəvi iqtisadiyyat quruculuğunda önəmli yerləri ənənəvi iqtisadiyyat sahələri ilə yanaşı, müasir texnologiyalar əsaslı sənaye sahələrinin tutması daha məqsədəuyğundur;

–postkonflikt ərazilərdə kənd təsərrüfatının mühüm sahələri olan bitkiçilik və heyvandarlığın geniş inkişaf etdirilməsi perspektivləri əsas götürülməklə, aqrar-emal sənayesi müəssisələrinin daha çox prioritetlik təşkil edəcəyini proqnozlaşdırmaq olar və s.

**Ədəbiyyat:**


Ağdam Sənaye Parkının yaradılması haqqında AR Prezidentinin Fərmanı. 28 may 2021.

Araz Vadisi İqtisadi Zonası Sənaye Parkının yaradılması haqqında AR Prezidentinin Fərmanı. Bakı şəhəri, 4 oktyabr 2021-ci il.

Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında AR Prezidentinin Fərmanı. – Bakı, – 7 iyul 2021-ci il.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı. AR Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

Əliyev, Ş.T. (2021) Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri // Geostrategiya jurnalı, № 04 (64), – s. 67-72.

# THE ROLE OF INNOVATION-INVESTMENT POLICY IN MAINTAINING MACROECONOMIC SUSTAINABILITY

**Azimzadeh Aslan Javid**

**Baku Eurasian University**

**https://orcid.org/0000-0003-1441-440X**

**aslan.azimzadeh828@gmail.com**

**Aliyeva Aysel Sajaddin**

**Odlar Yurdu University**

**https://orcid.org/0000-0002-0720-4191**

**ayselaliyeva.999@mail.ru**

**Rəyçi:**

**Hümbətəliyeva Səadət Əsgər qızı,**

**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The main goal of this report is to determine the role of innovation-investment policy in ensuring macroeconomic sustainability. Ensuring macroeconomic sustainability is one of the strategic goals of every country. Experience shows that macroeconomic development in countries that provide progressive innovation-investment policy is taking a proactive nature. The fourth industrial revolution and the formation of the sixth technological order are changing the specifics of economic development. Thus, the emergence of new techno-economic paradigms against the background of the above reveals the need for the development of innovative fields. It is for this reason that the analysis of innovation-investment policy is becoming relevant. This policy characterizes the focus of investments on strategic and innovative areas with high added value capacity. On the other hand, the high profitability of the mentioned sector attracts new investments, which creates a closed circle effect and conditions macroeconomic sustainability.

**Key words:** macroeconomic sustainability, innovation, investment

# РОЛЬ ИННОВАЦИОННО-ИНВЕСТИЦИОННОЙ ПОЛИТИКИ В ПОДДЕРЖАНИИ МАКРОЭКОНОМИЧЕСКОЙ УСТОЙЧИВОСТИ

**Азимзаде Аслан Джавид**

**Бакинский евразийский университет**

**https://orcid.org/0000-0003-1441-440X**

**aslan.azimzadeh828@gmail.com**

**Алиева Айсель Саджаддин**

**Университет Одлар Юрду**

**https://orcid.org/0000-0002-0720-4191**

**ayselaliyeva.999@mail.ru**

## Резюме

Основная цель тезиса – определить роль инновационно-инвестиционной политики в обеспечении макроэкономической устойчивости. Обеспечение макроэкономической устойчивости является одной из стратегических целей каждой страны. Опыт показывает, что макроэкономическое развитие в странах, проводящих прогрессивную инновационно-инвестиционную политику, принимает опережающий характер. Четвертая промышленная революция и формирование шестого технологического уклада меняют специфику экономического развития. Таким образом, возникновение новых технико-экономических парадигм на фоне вышеизложенного обнажает необходимость развития инновационных сфер. Именно по этой причине анализ инновационно-инвестиционной политики становится актуальным. Данная политика характеризует направленность инвестиций на стратегические и инновационные направления с высокой добавленной стоимостью. С другой стороны, высокая рентабельность указанного сектора привлекает новые инвестиции, что создает эффект замкнутого круга и обусловливает макроэкономическую устойчивость.

**Ключевые слова:** макроэкономическая устойчивость, инновация, инвестиция

# MAKROİQTİSADİ DAYANIQLILIĞIN QORUNMASINDA İNNOVASİYA-İNVESTİSİYA SİYASƏTİNİN ROLU

**Əzimzadə Aslan Cavid**

**Bakı Avrasiya Universiteti**

**https://orcid.org/0000-0003-1441-440X**

**aslan.azimzadeh828@gmail.com**

**Əliyeva Aysel Sacəddin**

**Odlar Yurdu Universiteti**

**https://orcid.org/0000-0002-0720-4191**

**ayselaliyeva.999@mail.ru**

Y.Şumpeter ilk dəfə olaraq texnoloji proseslərin iqtisadi inkişafa müəyyən təsirlərinin olduğunu qeyd edərək, iqtisad elmində innovasiya anlayışını gətirmişdir. Daha sonra Q.Menş, K.Perez və S.Qlazyev kimi alimlər texnoloji amilin iqtisadi inkişafın mərkəzində durduğu nəticəsinə gəlmişlər (Mensch, 1979; Perez, 1983; Глазьев, 1999). Bu faktor isə iqtisadi inkişaf nəzəriyyəsində elmi-texniki tərəqqi proseslərinin də təhlilinin zəruriliyini səciyyələndirdi.

Altıncı texnoloji quruluşun yaratdığı müasir çağırışlar dünya ölkələrinin iqtisadi inkişaf strategiyasının spesifik xüsusiyyətlərinə birbaşa təsir etməkdədir. Belə ki, makroiqtisadi dayanıqlılığın təmin edilməsi onun qabaqlayıcı olması ilə səciyyələndirilə bilər. Qabaqlayıcı iqtisadi inkişafın təmin edilməsi isə məhz altıncı texnoloji quruluşun yaratdığı əsas sahələrə investisiyaların cəlb edilməsi ilə reallaşdırıla bilər. Texnoloji quruluşların biri birini əvəzləməsi milli iqtisadiyyatlara ciddi şəkildə təsir göstərməkdədir (Львов & Глазьев, 1986).




**Şəkil.** Texnoloji quruluşların əvəzlənməsi

**Mənbə: (**Глазьев, 2018)

Şəkildə görünən texnoloji quruluşların əvəzlənməsi nəzəriyyəsinin müəllifi Akademik S.Qlazyevə məxsusdur. Göründüyü kimi altıncı texnoloji quruluşun magistral texnologiyaları nanotexnologiyalar, helio və nüvə energetikasıdır. Bu texnologiyalar birbaşa olaraq sektorların rentabelliliyinə təsir etməkdədir. Belə ki, bu gün nano və biotexnologiyaların tətbiqi kənd təsərrüfatında məhsuldarlığı önəmli dərəcədə artıra bilər ki, bu da həm ərzaq təhlükəsizliyi

probleminin dayanıqlı həllinə həm də kənd təsərrüfatı məhsullarının ixracının genişlənməsinə şərait yarada bilər.

Hal-hazırda altıncı texnoloji quruluş özünün geniş yayılma dövrünü yaşayır. Hər bir texnoloji quruluş özünün inkişafının pik dövründə milli iqtisadiyyatının makroiqtisadi dayanıqlılığını şərtləndirən magistral istiqamətə çevrilir (Глазьев, 2012). Məhz bu səbəbdən innovasiya-investisiya siyasəti öz aktuallığını qorumaqdadır.

Bu modelin başlıca spesifik xüsusiyyətləri ondan ibarətdir ki, dövlət pul-kredit və büdcə-vergi siyasətlərinin müxtəlif interpretasiyalarından istifadə edərək daxili investisiyaları altıncı texnoloji quruluşun ana sahələri olan yüksək əlavə dəyər tutumlu texnoloji sahələrə istiqamətləndirir. Sözügedən sahələrdə əldə olunan yüksək rentabellik investorları bu istiqamətə reinvestisiya etməyə stimullaşdırır və qapalı çəmbər effekti formalaşaraq makroiqtisadi dayanıqlılığı səciyyələndirir (Məmmədov & Əzimzadə, 2021; Mammadov & Azimzadeh, 2022).

Burada önəmli istiqamət məhz daxili investisiyalar üçün ayrılan vəsaitin real iqtisadiyyata istiqamətlənməsi prosesinə nəzarət etməkdədir. Çünki, real iqtisadiyyata getməyən pul kütləsi maliyyə möhtəkirlərinin əlində əlavə qazanc əldə etmək üçün alətə çevrilə bilir. Sözügedən nəzarət mexanizmi və mütərəqqi idarəetmə mexanizmi ilə bağlı müxtəlif təkliflər mövcuddur ki, bu təkliflər növbəti elmi əsərlərin əsas tədqiqat mövzusudur.

**Ədəbiyyat:**

Mammadov, E., Azimzadeh, A. (2022) Efficiency of the innovation-investment model: Experience from China and prospects for Azerbaijan. The scientific and pedagogical news of Odlar Yurdu University, (60), 32-38

Mensch, G. (1979). Stalemate in technology: Innovations overcome the depression. Cambridge (Massachusetts).

Məmmədov, E.Y., & Əzimzadə, A.C. (2021). Çinin maliyyə sistemi: Qabaqlayıcı iqtisadi inkişafın stimullaşdırılması. Monoqrafiya. MSV nəşr

Perez, C. (1983). Structural change and assimilation of new technologies in the economic and social systems. Futures, 15(5), 357-375.

Глазьев, С. (1999). Управление развитием-фактор устойчивого экономического роста. Проблемы теории и практики управления, (4), 26-31.

Глазьев, С. Ю. (2012). Современная теория длинных волн в развитии экономики. Экономическая наука современной России, (2 (57)), 27-42.

Глазьев, С. Ю. (2018). Информационно-цифровая революция. Евразийская интеграция: экономика, право, политика, (1 (23)), 70-83.

Львов, Д. С., & Глазьев, С. Ю. (1986). Теоретические и прикладные аспекты управления НТП. Экономика и математические методы, 22(5), 793-804.

## A NEW VISION IN THE WINERY INDUSTRY BASED ON THE CIRCULAR ECONOMY CONCEPT

**Majnunlu Umide Khosrov**

**UNEC**

**https://orcid.org/0000-0002-6251-2330**

**kmecnunlu@mail.ru**

**Rəyçi:**

**Hüseynov Qalib Sirac oğlu,**

**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

### Abstract

In the global world, the negative impact of the wine industry on the natural ecosystem puts the sustainability of the socio-economic development model at risk. The circular economy concept equips us with the necessary tools to jointly combat global climate change, including the assessment of secondary waste generated during the processing process in the winery industry. In the world, the process of wine production is considered a large-scale waste generator, and every year producers prepare a plan of targeted measures for the rational management and high evaluation of waste due to the damage they cause to the environment. Grape skins, stems and also seeds, which are secondary wastes obtained during winemaking, contain phenolic compounds with antioxidant properties. In addition, the presence of complex phenolic mixtures in the obtained residues (seeds, peels and stems) makes possible their use in the field of medicine, as they are effective as chemotherapeutic agents. The main objective of the current study is to reveal what constitutes the proper recycling and evaluation of secondary waste.

**Keywords:** circular economy, environment, recycling, sustainability, bioactive substances.

# НОВЫЙ ВЗГЛЯД НА ВИНОДЕЛЬЧЕСКУЮ ПРОМЫШЛЕННОСТЬ, ОСНОВАННЫЙ НА КОНЦЕПЦИИ ЭКОНОМИКИ ЗАМКНУТОГО ЦИКЛА

**Меджнунлу Умида Хосров**

**UNEC**

**https://orcid.org/0000-0002-6251-2330**

**kmecnunlu@mail.ru**

## Резюме

В глобальном мире негативное воздействие винодельческой отрасли на природную экосистему ставит под угрозой устойчивость модели социально-экономического развития. Концепция экономики замкнутого цикла обеспечивает нас необходимыми инструментами для совместной борьбы с глобальным изменением климата, а также включая оценку вторичных отходов образующихся в процессе переработки в винодельческой промышленности. В мире процесс производства вина считается крупномасштабным источником отходов и производители ежегодно готовят план целенаправленных мер по рациональному управлению и высокой оценке отходов из-за ущерба который они наносят окружающей среде. Виноградные кожицы, гребни, а также семена, являющимся вторичными отходами виноделия содержат фенольные соединения обладающими антиоксидантными свойствами. Кроме того, наличие в полученных остатках (семенах, кожуре и гребнях) сложных фенольных соединений делает возможным их использование в области медицины, поскольку они эффективны в качестве химиотерапевтических средств. Основная цель настоящего исследования – выявить, что представляет собой правильная переработка и оценка вторичных отходов.

**Ключевые слова:** циркулярная экономика, окружающая среда, переработка, устойчивость, биоактивные вещества.

**DAİRƏVİ İQTİSADİYYAT KONSEPSİYASINA ƏSASLANARAQ ŞƏRABÇILIQ SƏNAYESİNDƏ YENİ BAXIŞ**

**Məcnunlu Ümidə Xosrov**

**UNEC**

**https://orcid.org/0000-0002-6251-2330**

**kmecnunlu@mail.ru**

Şərabçılıqla məşğul olan müəssisələr mütəmadi olaraq ekoloji nöqteyi-nəzərdən perspektiv təcrübələri təşviq etməyə istiqamətləniblər. Şərabçılıq sənayesində yaranan tullantılara qeyri-rasional yanaşma problemi son onillikdə böyük diqqət mərkəzindədir. Təbii ehtiyatların istismarı və həmçinin ekoloji irsin ciddi şəkildə məhv edilməsi, bununla yanaşı ətraf mühitin çirklənməsi faktorlarının olması şərabçılıq sənayesi ilə bağlı əsas istiqamətlərdən yalnız bir neçəsidir. Bu tədqiqatın ən ümdə məqsədi şərabçılıq sənayesində emal prosesi zamanı davamlılıq probleminin necə həll edildiyini təhlil etmək, "Dairəvi İqtisadiyyat" konsepsiyasına əsaslanaraq iqtisadi baxımdan və eləcə də, ekosistem nöqteyi-nəzərindən ən effektli həlləri ortaya qoymaqdır ki, bu da öz növbəsində iqlim dəyişikliyi ilə mübarizəyə gətirib çıxara bilsin (FAOStat, 2023) (Mateo & Maicas, 2015).

Xüsusilə vurğulamaq lazımdır ki, şərab istehsalı aqro-qida sənaye sahəsinin lazımi sektorudur və fərdi formada tədqiq edilməlidir. İqtisadi nöqteyi-nəzərdən yanaşılanda şərab qlobal dünyada gəlir baxımından ağır çəkiyə sahibdir. Bu aspektdən yanaşsaq, şərabçılıq sənayesi sahəsində hələ də xammal kimi zəif istifadə olunan geniş həcmdə üzüm cecəsi (qabıq, lətin qalığı, toxum), üzümün darağı və digər üzüm emalı qalıqları yaranır. Normalda bu tullantılar birbaşa torpağa atılır və ya yandırılır. Məsələn, bu qalıqlar ətraf mühitə buraxıldıqda yerüstü və yeraltı suların çirklənməsinə və o cümlədən də pis qoxulara səbəb ola bilər. Digər tərəfdən onlar milçəkləri və zərərvericiləri də özlərinə cəlb edirlər.

Üzüm cecəsi qida lifləri, mineral polifenollar, lipidlər və zülallar kimi əsas bioaktiv birləşmələri özündə cəmləşdirir (Səlimov, 2022). Üzüm cecəsinin tərkibində antioksidant və iltihab əleyhinə təsir göstərən bioaktiv birləşmələr və fenollar olduğu üçün heyvan yemi kimi istifadəsi əlçatandır (Demirkol & Tarakci, 2018). Əks halda bu cür tərkibə malik qalıqların torpaqda kompost kimi istismarı torpağın tərkibində olan azotun yuyulmasının artmasına və bununla yanaşı, taninlərin, eləcə də digər birləşmələrin olması səbəbindən oksigenin azalmasına gətirib çıxarda bilər.

Bu məqsədlə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Üzümçülük və Şərabçılıq ETİ-da şərabın emalı zamanı əldə olunan tullantılar - suvarma və dəmyə şəraitlərində yetişdirilən Mədrəsə, Həməşərə, Xındoqni üzüm sortlarından əldə olunan toxumların iqtisadi və təsərrüfat əhəmiyyətini müəyyənləşdirmək üçün onlar təkrar emal olunma prosesinə cəlb olundu. Soyuq pres üsulu ilə toxumlardan yağın əldə olunması prosesi həyata keçirildi. Daha sonra yağların tərkibində doymuş yağ turşuları, doymamış yağ turşuları, mono doymamış yağ turşuları, poli doymamış yağ turşuları, o cümlədən doymamış yağ turşularının doymuş yağ turşularına olan nisbəti də hesablanmışdır (Şəkil 1).




**Şəkil 1.** Yağ turşularının tərkibi, %

Toxumların tərkibindəki yağlarda qeyd olunan yağ turşularının mövcudluğu həmin yağın kosmetologiya, tibb və həmçinin də qida sənayesində istifadəsini mümkün edir.

Soyuq pres üsulu ilə üzüm toxumu yağını əldə etdikdən sonra üzüm toxumu hissəciklərin qalıqları əldə olunur ki, buna da yağsızlaşdırılmış qalıq deyilir. Yağsızlaşdırılmış qalıq əksər qiymətli üzüm polifenollarının daşıyıcısı kimi tanınır. Yağsızlaşdırılmış qalığın zəngin yüksək tərkibə malik olması onu heyvandarlıqda yem kimi istifadəsini əlçatan edir (Mikayılov və Fərzəliyev, 2018).

Şərabçılıq sənayesindən əldə olunan tullantılar funksional qidaların inkişafı ilə yanaşı həmçinin də kosmetologiya və əczaçılıq vasitələrinin inkişafı üçün olduqca ucuz alternativ rolunu oynaya bilər. İkinci dərəcəli məhsulların qiymətləndirilməsi ilə bağlı bir sıra geniş tədqiqatlardan asılı olmayaraq, təklif olunan istiqamətlər indiyədək şərabçılıq sahəsində rasional şəkildə tətbiq edilməmişdir. Bir sözlə, şərabçılıq tulantıları iqtisadi cəhətdən qazanc gətirən müəyyən bir inkişaf yolu əldə edənə qədər hələ çox işlər realizə olunmalıdır.

**Ədəbiyyat**

Demirkol, M., & Tarakci, Z. (2018). Effect of grape (Vitis labrusca L.) pomace dried by different methods on the physicochemical, microbiological and bioactive properties of yogurt. LWT, 97, 770-777. doi: 10.1016/j. lwt.2018.07.058.

FAOStat. Food and Agriculture Organization of the United Nations. 2022. [Accessed: August 20, 2023].

Mateo, J. and Maicas, S. (2015). Valorization of winery and oil mill wastes by microbial technologies. Food Research International, 73, 13–25.

Mikayılov, V.Ş., Fərzəliyev, E.B. (2018). Qida məhsullarının ümumi texnologiyası. Bakı: Kooperasiya.

Səlimov, V.S. (2022). Üzümün ampeloqrafik müayinəsi. Bakı: Zərdabi Nəşriyyat MMC.

**DIRECTIONS OF APPLICATION OF RISK-BASED APPROACH IN THE PROCESS OF SCREENING CLIENTS IN FINANCIAL INSTITUTIONS**

**Babazade Zohr Isa**

**Institute of economics of the Ministry of Science and education of AR**

**babazadezohr@gmail.com**

**Rəyçi:**

**Əhmədova Təranə Mütəllim qızı,**

**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The financial institutions conducting the screening process of the customers as part pf their know your customer policy according the risk based approached principles. Screening process of the customers is running periodically based on the sanction and PEP (Politically exposed person) lists to identify the matches. Process is being implemented through specialized compliance solutions and data provider (lists that contains information about sanctioned people or PEPs) tools. However, traditional ways to screen customers leads to the false positives either in international or domestic institutions` case. As the rise of the new technologies is becoming prevalent, optimizing the screening processes through machine learning or artificial intelligence can be the turning point. This article aims to find out the optimal scenarios of process with researching the traditional and new technologies application cases.

**Keywords:** financial institutions, customer screening, financial monitoring, artificial intelligence

# НАПРАВЛЕНИЯ ПРИМЕНЕНИЯ РИСК-ОРИЕНТИРОВАННОГО ПОДХОДА В ПРОЦЕССЕ СКРИНИНГА КЛИЕНТОВ В ФИНАНСОВЫХ УЧРЕЖДЕНИЯХ

**Бабазаде Зохр Иса**

**Институт экономики Министерства науки и образования АР**

**babazadezohr@gmail.com**

**Резюме**

Финансовые учреждения проводят процесс проверки клиентов в рамках своей политики «знай своего клиента» в соответствии с принципами риск-ориентированного подхода. Процесс проверки клиентов осуществляется периодически на основе санкционных списков и списков PEP (политически значимых лиц) для выявления совпадений. Этот процесс реализуется с помощью специализированных решений по соблюдению требований и инструментов, поставщик данных (списки, содержащие информацию о санкционированных лицах или PEP). Однако традиционные методы проверки клиентов приводят к ложным совпадениям как в международных, так и в национальных учреждениях. Поскольку развитие новых технологий становится все более распространенным, оптимизация процессов проверки с использованием машинного обучения или искусственного интеллекта может стать переломным моментом. В данной статье ставится цель найти оптимальные сценарии процесса, исследуя случаи применения традиционных и новых технологий

**Ключевые слова:** Финансовые учреждения, проверка клиентов, финансовый мониторинг, искусственный интеллект

# MALİYYƏ MÜƏSSİSƏLƏRİNDƏ MÜŞTƏRİLƏRİN SKRİNİNQİ PROSESİNDƏ RİSK ƏSASLI YANAŞMANIN TƏTBİQİ İSTİQAMƏTLƏRİ

**Babazadə Zöhr İsa**

**AR Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu**

**babazadezohr@gmail.com**

## Giriş

Çirkli pulların leqallaşdırılması və terrorizmin maliyyələşdirilməsi ilə mübarizə üzrə requlyativ tələblərin əsas prinsipi kimi qəbul edilən skrininq prossesi müştəri ilə işgüzar münasibətlər qurmazdan öncə müştəri uyğunluğu tədbirlərinə əsasən məlumatların yoxlanılmasıdır. Bu tələbə əsasən müştərinin maliyyə müəssisəsində əldə olunan şəxsi məlumatları (fiziki şəxslər üçün ad, soyad, doğum tarixi və yaxud hüquqi şəxslər üçün nizamnamə kapitalı detalları, benefisiar şəxslər və s.) qlobal səviyyədə sanksiya, interpol və ya digər axtarış siyahıları, həmçinin siyasi xadimlərin siyahısı ilə uzlaşdırılır (Financial Crime Academy, 2024). Maliyyə müəssisələri (bundan sonra: öhdəlik daşıyan şəxslər) qeyd edilən prosesləri effektiv şəkildə tətbiq edə bilmədikdə sonda böyük reputasiya risklərinə və requlyativ sanksiyalara məruz qala bilərlər. Həmçinin uyğunluq prosesi zamanı itirilən hər bir dəqiqə üçün müştəri təcrübələri də daxil olmaqla, işgüzar fəaliyyətdə bir sıra risklərə gətirib çıxarır (ComplyAdvantage).

Risk əsaslı yanaşma müasir dövrdə çirkli pulların leqallaşdırılması və terrorizmin maliyyələşdirilməsi ilə mübarizə istiqamətində mühüm mövqeyə malik olmaqla ənənəvi standart qayda əsaslı strategiyadan daha çox daha adaptiv olan müştəri yönümlü tədbirlər planını irəli sürür. Bu yanaşmaya əsasən, müştərilərin skrininqi və monitorinqi bütün müştərilər üzrə eyni meyara deyil, risk dərəcəsindən asılı olaraq adi və gücləndirilmiş müştəri uyğunluq tədbirlərinə malik olmalıdır (FATF, 2007).

## Effektiv müştəri skrininqinin əsas elementləri

**Sanksiya siyahısı skrininqi** – Sanksiya siyahıları ilə üzrə skrininq müştəri məlumatlarının hökümətlər və ya beynəlxalq təşkilatlar tərəfindən əvvəlcədən müəyyən edilmiş siyahılar üzrə uyğunluğunun yoxlanılmasıdır (LexisNexis). Azərbaycan Respublikası daxilində həmin siyahılar Maliyyə Monitorinqi Xidməti, Daxili İşlər Nazirliyi və s. tərəfindən tərtib oluna, elektron informasiya portallarında yerləşdirilə bilə və ya öhdəlik daşıyan şəxslərlə paylaşıla bilər. Beynəlxalq arenada isə OFAC (Office of Foreign Asset Control), EU (European Union), GB (United Kingdom), UN (United Nations) kimi təşkilatlar tərəfindən tərtib oluna və yoxlanılması üçün daxili sistemin qurulmasına tələb qoyula bilər.

**Əməliyyatların monitorinqi və açıq informasiya mənbələrində olan mənfi məlumatların yoxlanılması -** Müştəri əməliyyatlarının davamlı monitorinq prinsipinə əsaslanaraq, əməliyyatlar avtomatlaşdırılmış monitorinq sistemində real vaxt rejimində və ya post faktum əsasında yoxlanıla bilər. Real vaxt rejimində yoxlanılan əməliyyatlar zamanı, sanksiya siyahıları ilə uyğunluq aşkar edildikdə əməliyyat saxlanılır və komplayens əməkdaşı tərəfindən yoxlanılır. Uyğunluq təsdiqləndikdə əməliyyat bloklanır və lazımi tədbirlər və ya eskalasiya həyata keçirilir. Uyğunluq təsdiqlənmədikdə isə, əməliyyat davam edir. Bir sıra hallarda, müştəri məlumatları sanksiya siyahılarında deyil, açıq informasiya mənbələrində, xəbər portallarında və ya bir sıra jurnallarda

yüksək riskli olaraq qiymətləndirilir və bu halda risk əsaslı yanaşmanın prinsiplərinə əsasən həmin müştərinin risk dərəcəsinə mənfi olaraq təsir edə bilər (LSEG).

**PEP (Siyasi xadimlər) siyahılarının skrininqi** - PEP-lərin müəyyən edilməsi həm onların cəmiyyətdə olan nüfuzu, həm də korrupsiya halları riskinə daha çox məruz qalma riskinə əsasən, önəmli xarakter daşıyır. Yuxarıda qeyd edilən risklərə əsasən, maliyyə müəssisələri tərəfindən PEP-lər yüksək riskli müştərilər hesab olunur və gücləndirilmiş müştəri uyğunluğu tədbirləri keçirilməsi əsas qəbul edilir (Dataprotection). PEP siyahıları üzrə yoxlamalar zamanı yanlış uyğungəlmələrin (false positives) daha çox müşahidə olunmasının əsas səbəbi PEP siyahılarında olan şəxslərin saylarının həddən artıq çox olmasıdır. Bu səbəbdən maliyyə müəssisələri uyğunluq faizlərinin bu siyahılar üzrə tənzimlənməsinə xüsusi diqqət göstərməlidirlər.

**Effektiv skrininq sisteminin qurulmasında əsas maneələr**

**Yanlış uyğungəlmələr və məlumatların idarə olunması** – Beynəlxalq lüğətdə false positives kimi qəbul edilən yanlış uyğungəlmələr müştəri uyğunluğu olmadığı halda, avtomatlaşdırılmış sistem tərəfindən uyğunluq göstərilməsi hallarında müşahidə olunur. Bu banklar üçün həm resursların qeyri effektiv paylaşılmasına, əməliyyatlar xərclərinin artmasına, həmçinin müştəri təcrübələrinin mənfi xarakter almasına gətirib çıxarır. Belə ki, yanlış uyğungəlmə zamanı, real vaxt rejimində müştəri əməliyyatı və ya hesab açılması prossesi dayandırılır və optimal xidmət göstərmə müddəti uzanır. Araşdırmaya əsasən yanlış uyğungəlmələrin orta ümumi faizi 90-95% təşkil edir (U.G. Ketenci, 2021).

**Məlumatların dolğunluğu və əməliyyat xərcləri** – Məlumat bazası məlumatlarının keyfiyyətli olmaması yanlış uyğungəlmələrə gətirib çıxaran əsas səbəblərdən biridir. Belə ki, dəqiq və dolğun olmayan məlumatlar, əvvəlcədən müəyyən edilən ssenarilər tərəfindən şübhəli olaraq tanınır. Bu da öz növbəsində araşdırma və resursların yanlış uyğungəlmələrə cəmlənməsinə gətirib çıxarır (E.M. Halter et al, 2011).

**Süni intellekt və ənənəvi qayda metodlarının skrininq sisteminin təkmilləşdirilməsində birgə iştirakı**

Qayda əsaslı monitorinq rejimindən machine learning modeli ilə birgə nəzarətin həyata keçirilməsi hər gün daha geniş tətbiq edilməklə, bir sıra müəssisələr tərəfindən tətbiq edilməsinə başlanılıb və bir nöqtədə artıq əsas həll yoluna çevriləcəkdir (C.R.Alexandre, 2023).

Süni intellekt modelləri əsasında monitorinq rejiminin təşkili isə daha təkmilləşdirilmiş işlərin görülməsi üçün önəmli xarakter daşıyır. 2024-cü il üzrə aparılan Future Generation Computer Systems jurnalında aparılan araşdırmaya əsasən, uzun müddət maliyyə monitorinq sahəsində iş təcrübəsi olan mütəxəssislərdən süni intellektin tətbiqində hansı hallarda istifadə olunması ilə bağlı intervyu alınmışdır.

Araşdırmaya əsasən, əməliyyatların monitorinqi zamanı, ənənəvi qaydadan, süni intellekt modelinə keçid artıq başlanılmışdır. Bu həm də ənənəvi qaydaların daha təkmil variantlarını aşkar etməyə gətirib çıxarmaqla, qrafik analizlərin, risk skorinq modellərinin və ya şəbəkə analizi modellərinin daha geniş tətbiqinə gətirib çıxaracaqdır. Lakin əmək bazarında həm qeyd edilən süni intellekt və komplayens mütəxəssislərinin həmçinin infrastrukturun çatışmazlığı əsas problemlərdən biri olaraq qalır. Bəzi respondentlərin fikrincə məhz bu səbəblərə görə maliyyə müəssisələri süni intellektin tam tətbiqi üçün uzun bir yol qət etməlidirlər (B.Oztas, 2024).

**Nəticə**

Effektiv müştəri skrininqi sistemləri sanksiya siyahılarının skrininqi, əməliyyatların monitorinqi, açıq informasiya mənbələrində mənfi məlumatların yoxlanılması, və PEP siyahılarının skrininqi kimi əsas komponentlərə əsaslanır. Bu komponentlər, müştərilərin sanksiyalara uyğunluğunu təmin etmək, yüksək riskli müştəriləri müəyyənləşdirmək, və əməliyyatların şübhəli fəaliyyətlərini izləməklə risk əsaslı yanaşmanın tətbiqini dəstəkləyir.

Skrininq prosesinin effektivliyinə qarşı əsas maneələr isə "false positive" halları və məlumatların dolğunluğunun çatışmazlığıdır. Yanlış uyğungəlmələr müştəri əməliyyatlarının lüzumsuz dayandırılmasına səbəb olmaqla, resurs israfına və müştəri təcrübələrinin pisləşməsinə gətirib çıxarır. Eyni zamanda, qeyri-dəqiq məlumat bazaları da şübhəli əməliyyatların səhvən işarələnməsinə və əlavə əməliyyat xərclərinə səbəb olur. Süni intellektin skrininq sistemlərinə tətbiqi isə prosesi daha da təkmilləşdirə bilər. Machine learning modellərinin ənənəvi qayda metodları ilə birgə istifadəsi əməliyyatların daha dəqiq və sürətli monitorinqini təmin edərək, risk skorinq modellərinin və qrafik analizlərin daha geniş tətbiqinə yol açır. Lakin bu sistemlərin tam tətbiqi üçün ixtisaslı mütəxəssislər və infrastruktur hələ də inkişaf etdirilməli və gücləndirilməlidir.

**Ədəbiyyat:**


Financial crime academy (2024) What is customer screening? The important definition of customer screening — https://financialcrimeacademy.org/what-is-customer-screening/

ComplyAdvantage - What is customer screening & why is it important for AML? - https://complyadvantage.com/insights/what-is-aml-customer-screening/

FATF (2007) - FATF guidance on the risk-based approach to combating money laundering and terrorist financing - https://www.fatf-gafi.org/content/dam/fatf-gafi/guidance/High%20Level%20Principles%20and%20Procedures.pdf.coredownload.inline.pdf

LexisNexis - Sanctions Screening: A best practice guide – https://risk.lexisnexis.co.uk/corporations-and-non-profits/financial-crime-compliance/watchlist-screening/sanctions-list-screening/sanctions-screening-guide

LSEG - Adverse media screening –https://www.lseg.com/en/risk-intelligence/financial-crime-risk-management/adverse-media-screening

Dataprotection - What is Politically Exposed Person's (PEP) screening? – https://www.dataprotection.ie/en/faqs/banking-insurance-sector/what-politically-exposed-persons-pep-screening

Ketenci, U.G., Kurt, T., Onal, S., Erbil, C., Akturkoglu, S., Ilhan, H.S. (2021) A time-frequency based suspicious activity detection for anti-money laundering, IEEE Access 9 - http://dx.doi.org/10.1109/ACCESS.2021

Halter, E.M., Harrison, R.M. , Park, J.W., Sharman, J.C., Van Der Does De Willebois, E.J.M. (2011) - The puppet masters: how the corrupt use legal structures to hide stolen assets and what to do about it, in: Stolen Asset Recovery (StAR) Initiative, World Bank Group, Washington, D.C., - https://openknowledge.worldbank.org/entities/publication/ec364fd2-92f8-58a0-bd4e-155ac0f644d6

Alexandre, C.R., Balsa, J. (2023) Incorporating machine learning and a risk-based strategy in an anti-money laundering multiagent system - http://dx.doi.org/10.1016/j.eswa.2023.119500.

Oztas, B., Cetinkaya, D., s Adedoyin, F., Budka, M., Aksu, G., Dogan, H. (2024) Transaction monitoring in anti-money laundering: A qualitative analysis and points of view from industry – https://www.sciencedirect.com/science/article/pii/S0167739X24002607?ref=pdf_download&fr=RR-2&rr=8df4828459340ae0

# THE NECESSITY OF COMPUTING MANAGEMENT ACCOUNTING IN SERVICE SECTOR AND ITS INTERRELATIONSHIP WITH COMPUTER ACCOUNTING

**Alakbarov Tural Faig**

**UNEC**

**https://orcid.org/0000-0001-5145-0448**

**turalalekberov282@gmail.com**

**Rəyçi:**

**Hümbətəliyeva Səadət Əsgər qızı,**

**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

With the introduction of paperless technologies, accounting processes are automated and accurate and operational management of data is ensured. Computerized accounting systems contribute to accurate monitoring of activities in the service sector, reducing costs and increasing efficiency. Through these systems, data is collected and processed in real time, which allows enterprises to adapt more flexibly to changing market conditions. The purpose of this report is to provide directions for ensuring transparency and accuracy in the preparation of computerized accounting, as well as financial and management reports, and to contribute to the improvement of inventory accounting. The integration of management accounting with computer accounting facilitates the analysis of financial data and supports strategic decision-making. The study generally provides information on the positive and negative aspects of taking advantage of the development of modern technologies for enterprises. Thus, service enterprises can manage their activities more effectively and competitively using technology.

**Keywords**: accounting, inventory, technology, computer

# НЕОБХОДИМОСТЬ КОМПЬЮТЕРНОГО УПРАВЛЕНЧЕСКОГО УЧЕТА В СФЕРЕ УСЛУГ И ЕГО ВЗАИМОСВЯЗЬ С КОМПЬЮТЕРНЫМ УЧЕТОМ

**Алекперов Турал Фаиг**

**UNEC**

**https://orcid.org/0000-0001-5145-0448**

**turalalekberov282@gmail.com**

**Резюме**

С внедрением безбумажных технологий процессы учета автоматизируются и обеспечивается точное и оперативное управление данными. Компьютеризированные системы учета способствуют точному мониторингу деятельности в сфере услуг, снижению затрат и повышению эффективности. С помощью этих систем данные собираются и обрабатываются в режиме реального времени, что позволяет предприятиям более гибко адаптироваться к изменяющимся рыночным условиям. Целью данного отчета является предоставление указаний по обеспечению прозрачности и точности при составлении компьютеризированного учета, а также финансовых и управленческих отчетов, а также содействие совершенствованию учета запасов. Интеграция управленческого учета с компьютерным учетом облегчает анализ финансовых данных и поддерживает принятие стратегических решений. В исследовании в целом представлена информация о положительных и отрицательных аспектах использования преимуществ развития современных технологий для предприятий. Таким образом, предприятия сферы услуг могут управлять своей деятельностью более эффективно и конкурентоспособно, используя технологии.

**Ключевые слова:** учет, запасы, технологии, компьютер

# XİDMƏT SFERASI MÜƏSSİSƏLƏRİNDƏ İDARƏETMƏ UÇOTUNUN KOMPÜTERLƏŞDİRİLMƏSİNİN ZƏRURİLİYİ VƏ KOMPÜTER MÜHASİBATLIĞI İLƏ QARŞILIQLI ƏLAQƏSİ

**Ələkbərov Tural Faiq**

**UNEC**

**https://orcid.org/0000-0001-5145-0448**

**turalalekberov282@gmail.com**

## Giriş

Müasir biznes mühitində rəqabət qabiliyyətini artırmaq və idarəetmə proseslərini optimallaşdırmaq məqsədilə texnologiyanın tətbiqi və kompüter sistemlərinin inkişafı zərurət halını almışdır. Xüsusilə xidmət sektoru müəssisələrində idarəetmə uçotunun kompüterləşdirilməsi, fəaliyyətin daha dəqiq izlənilməsi və idarəedilməsini təmin edərək qərarların daha sürətli və əsaslı qəbul olunmasına şərait yaradır. Bu məqalədə, xidmət sferasında idarəetmə uçotunun kompüterləşdirilməsinin əhəmiyyəti və kompüter mühasibatlığı ilə qarşılıqlı əlaqəsi geniş şəkildə araşdırılacaq. Mühasibat uçotunun bu növü şirkətin struktur bölmələrinin, şöbələrinin və hissələrinin fəaliyyəti haqqında məlumat verməklə təşkilatın səmərəliliyinə təsir göstərir. Bu mövzuda tədqiqat aparan bir çox tədqiqatçıların fikrincə, idarəetmə uçotunun mahiyyətini araşdırarkən məlumatın analitik xarakterini nəzərə almaq lazımdır. İdarəetmə uçotunda struktur bölmələrinin fəaliyyətinin nəticələrini düzgün göstərmək, hər bir bölmənin müəssisənin mənfəətində payını düzgün müəyyən etmək üçün məlumatlar toplanır, işlənir, müəyyən edilir və nəhayət öyrənilir.

## İdarəetmə uçotunun kompüterləşdirilməsinin əhəmiyyəti

Xidmət sektoru müəssisələrində idarəetmə uçotunun kompüterləşdirilməsinin zəruriliyi bir neçə əsas səbəblə izah olunur. Fəaliyyətin dəqiq monitorinqi: Xidmət sahəsində fəaliyyətlər, digər sektorlardan fərqli olaraq, əsasən qeyri-maddi xidmətlərə əsaslanır. Bu fəaliyyətlər üzərində nəzarəti gücləndirmək və ehtiyatların səmərəli idarə edilməsini təmin etmək üçün uçot sisteminin kompüterləşdirilməsi vacibdir. Məlumatın operativ təqdimatı: Xidmət sahəsində işin tezliyinə və qərar qəbuluna böyük əhəmiyyət verilir. Kompüterləşdirilmiş idarəetmə uçotu sistemləri məlumatları real vaxtda toplayaraq, anında emal edir və operativlik təmin edir. Bu, müəssisənin dəyişən bazar şəraitinə daha tez uyğunlaşmasına imkan verir. Xərclərin azaldılması və effektivliyin artırılması: Kompüterləşdirilmiş idarəetmə uçotu vasitəsilə müxtəlif xərclər, o cümlədən xidmətlərə dair məsrəflər dəqiq izlənilir və maliyyə resursları daha səmərəli idarə olunur. Məlumatın təhlili və analitik hesabatların hazırlanması: Kompüterləşdirilmiş sistemlər vasitəsilə idarəetmə uçotu məlumatları daha asanlıqla təhlil edilə bilir.

Kompüterləşdirilmiş idarəetmə uçotu ilə kompüter mühasibatlığı arasında sıx qarşılıqlı əlaqə mövcuddur və bu əlaqə, idarəetmə uçotunun əsas funksiyalarını daha səmərəli şəkildə yerinə yetirməsinə imkan yaradır. Kompüter mühasibatlığı sistemi və idarəetmə uçotu məlumat axını ilə bağlı inteqrasiya olunmuş bir sistem yaratmaqla müəssisənin hər bir fəaliyyət istiqamətini əhatə edən məlumatları real vaxtda izləməyə imkan verir. Mühasibatlıq sistemlərində qeyd olunan maliyyə məlumatları avtomatik olaraq idarəetmə uçotuna yönləndirilir və bu, uçot məlumatlarının

dəqiqliyini artırır. Kompüter mühasibatlığı sistemi vasitəsilə toplanan məlumatlar idarəetmə uçotunda istifadə edilərək müxtəlif hesabatlar hazırlanır. Məsələn, xidmət xərclərinin uçotu, büdcələrin tərtibi və digər maliyyə göstəriciləri mühasibatlıqdan əldə edilən məlumatlarla təmin olunur. Beləliklə, idarəetmə uçotu, müəssisənin bütün maliyyə göstəricilərini daha dəqiq təhlil edə bilir. Kompüterləşdirilmiş sistemlər idarəetmə uçotu məlumatlarını avtomatlaşdırılmış hesabatlarla birləşdirərək daha geniş təhlil imkanları təqdim edir. Bu, müəssisə daxilində maliyyə və idarəetmə hesabatlarının hazırlanması zamanı böyük sürət və dəqiqlik təmin edir. Kompüter mühasibatlığı sistemindən əldə edilən məlumatlar idarəetmə uçotunda əsaslanaraq strateji qərarların qəbuluna dəstək verir. Mühasibatlıq və uçot sistemləri arasında qarşılıqlı məlumat paylaşımı müəssisə rəhbərliyinə xərcləri izləmək, gəlir və zərərləri analiz etmək və səmərəliliyi artırmaq üçün əsaslı məlumatlar təqdim edir. Müəssisənin maddi ehtiyatlarını idarə etmək üçün ənənəvi mexanizmlər artan bazar tələblərinə cavab vermir (Əliyeva, 2016). Kompüterləşdirilmiş idarəetmə uçotu sistemləri məlumatları vahid mərkəzdə saxlayaraq məlumat idarəçiliyini asanlaşdırır. Bu, məlumatların emalı, analizi və ehtiyatların idarə edilməsində effektivliyi artırır. Real vaxt məlumatlarına çıxış, idarəçilərə operativ qərarlar vermək üçün əsaslı dəstək verir. Kompüterləşdirilmiş idarəetmə uçotu, maliyyə və idarəetmə proseslərinin beynəlxalq standartlara uyğun aparılmasına kömək edir. Bu, xidmət müəssisələrinin şəffaflığını artıraraq maliyyə hesabatlarının doğru və etibarlı olmasını təmin edir. Kompüterləşdirilmiş idarəetmə uçotu sistemləri müəssisə daxilində xidmətlərin keyfiyyətini təhlil etməyə imkan verir. Müəssisədə mühasibat-maliyyə uçotu prosesləri ilə yanaşı, idarəetmə uçotunun da yüksək səviyyədə kompüterləşdirilməsini mühasibat uçotu proqramlarına xas olan müsbət hal kimi vurğulamaq lazımdır(Mehdiyev, 2014). Azərbaycanda ən çox istifadə edilən proqramlar “Microsoft Excel” və “1C mühasibatlıq” proqramıdır. “Microsoft Excel” proqramı, iqtisadi məlumatların işlənməsi və ötürülməsində əhəmiyyətli imkanlara sahib olan çoxsaylı elektron hüceyrələrdən ibarət cədvəllər təqdim edir. Bu proqramda müəssisənin idarəetmə prosesində vacib olan məlumatların toplanması, təqdim olunması, emal edilməsi və müxtəlif cədvəl formalarının hazırlanması üçün əlverişli vasitələr mövcuddur. Mühasibat uçotu informasiya sistemidir və daha çox insan öz işlərində informasiya texnologiyalarından istifadə etdikcə şirkətlərin fəaliyyət tərzi də dəyişmişdir(Emmanuel, 2022). Ümumilikdə dünya üzrə exceldən istifadə edən iqtisadi sahələrin statistikası qrafiki aşağıda təqdim edilmişdir.




**Diaqram 1**. Dünya üzrə Excel istifadəçilərinin sayını göstərən qrafik (https://scottmax.com/excel-statistics/)

Bu qrafikdən də göründüyü kimi Excel ümumilikdə dünya üzrə qlobal miqyasda istifadə edilən və əməliyyatların avtomatlaşdırılması üçün istifadə edilən əsas və ən çox təklif edilən proqramlardan biridir. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanunun 12-ci maddəsində (Maddə 12. Kommersiya təşkilatlarının maliyyə hesabatlarının təqdim və dərc edilməsi qaydası) göstərilir ki, bir sıra kommersiya təşkilatlarından onların internet səhifəsi olduğu halda illik maliyyə hesabatlarının internet səhifəsində yerləşdirilməsi tələb olunur (Azərbaycan Respublikası Maliyyə Nazirliyi, 2018). Müasir texnologiyalardan istifadə hesabatların tərtib edilməsi və təqdim edilməsi üçün sərf edilən resursların və xərclərin azaldılmasına kömək edir.

**Kompüter mühasibatlığı ilə inteqrasiya**

Müasir dövrdə təşkilatın konsolidasiya edilmiş mühasibat-maliyyə hesabatı formalarına dair işləmə çədvəllərinin tərtib edilməsi ücün "Excel" proqramından və yaxud, ixtisaslaşdırılmış kompüter mühasibatı proqramından istifadə edilir(Salahov və Mehdiyev, 2016). Ehtiyatların uçotunda kağızsız texnologiyaya keçid, ənənəvi kağız sənədlərin elektron sənədlərlə əvəz edilməsini nəzərdə tutur(Nəbiyeva, 2015). Bu yanaşma, ehtiyatların hərəkəti haqqında məlumatların toplanması, qeydiyyatı və emal edilməsini daha sürətli və səmərəli edir. Gəlin bu prosesi addım-addım izah edək. Ənənəvi uçot sistemlərində məlumatlar kağız üzərində qeyd olunurdu. Kağızsız texnologiya isə bu sənədlərin elektron formatda saxlanılmasını və emalını təmin edir. Elektron sənədlər xüsusi maşın daşıyıcıları üzərində saxlanılır. Bu, məlumatların serverlərdə və ya bulud texnologiyasında qorunmasını təmin edir. Bu sənədlər hər bir istifadəçi üçün nəzərdə tutulmuş parol və şifrə ilə mühafizə olunur. Bu üsul kağız sənədlərlə müqayisədə daha təhlükəsizdir, çünki məlumatlara yalnız hüququ olan şəxslər çıxış əldə edir. Maşın qeydləri və elektron sənədlər hüquqi gücə sahib olması üçün kodlaşdırılır və istifadəçilərin şəxsi parolları vasitəsilə təsdiqlənir. Bu, kağız sənədlərdəki imzaların elektron versiyası kimidir. Ehtiyatların hərəkətini və vəziyyətini kağızsız texnologiya vasitəsilə kompyuterdən izləmək mümkündür. Məsələn, bir məhsulun anbardan çıxışı və ya yeni ehtiyatların daxil olması kimi məlumatlar birbaşa sistemdə qeyd olunur və istənilən vaxt izlənə bilir. Avtomatlaşdırılmış sistem, uçotun bir ölçü bazası əsasında aparılmasına şərait yaradır(Səbzəliyev və Abbasov,2015). Kağızsız texnologiyanın tətbiqi prosesi sadələşdirir, kağız israfının qarşısını alır və məlumatların saxlanması üçün əlavə resurslara ehtiyac qalmır. Ümumilikdə, kağızsız texnologiya ehtiyatların uçotunu daha operativ, səmərəli və təhlükəsiz edir. Bu yanaşma müəssisələrə həm vaxt, həm də maliyyə resurslarına qənaət etmək imkanı verir və uçot sisteminin idarə edilməsini asanlaşdırır.

**Metodologiya**

Araşdırmada xidmət sektoru müəssisələrində idarəetmə uçotunun kompüterləşdirilməsinin üstünlükləri nəzəri əsaslar və tətbiqi nümunələr vasitəsilə analiz edilmişdir. Mənbə kimi müvafiq tədqiqatlar və statistik məlumatlardan istifadə olunmuşdur. Əsas diqqət idarəetmə uçotunun xidmət müəssisələrinə verdiyi faydaların qiymətləndirilməsinə yönəldilmişdir.

**Nəticə**

Xidmət sferasında idarəetmə uçotunun kompüterləşdirilməsi müəssisələrin fəaliyyətinin effektivliyini artırmaq, xərcləri azaltmaq və qərarların dəqiq verilməsinə dəstək olmaq baxımından mühüm əhəmiyyət daşıyır. Kompüter mühasibatlığı ilə inteqrasiya olunmuş idarəetmə uçotu sistemi müəssisə daxilində məlumat axınını sadələşdirir və uçotun operativ, etibarlı və dəqiq aparılmasını təmin edir. Texnologiyanın verdiyi imkanlar vasitəsilə xidmət sektorunda fəaliyyət göstərən müəssisələr rəqabət qabiliyyətlərini artıraraq bazarda daha möhkəm mövqe tuta bilərlər. Bundan

əlavə, kompüterləşdirilmiş idarəetmə uçotu, xərclərin izlənməsini və maliyyə resurslarının optimal paylanmasını təmin edərək müəssisələrin fəaliyyət effektivliyini artırır. Beləliklə, xidmət sferasında idarəetmə uçotunun kompüterləşdirilməsi rəqabət üstünlüyü təmin edir, müəssisələrin bazar dəyişikliklərinə çevik adaptasiya olmasına kömək edir və nəticədə daha şəffaf və dəqiq uçot prosesləri yaradır.

**Ədəbiyyat:**


Əliyeva, A.Q. (2016) Müəssisənin maliyyə potensialının qiymətləndirilməsi metodikaları. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri jurnalı. 139-146

Mehdiyev, V.M.(2014). Milli mühasibat uçotu standartları və kompüter mühasibatı. Bakı.46-48

Emmanuel, J. (2022). How Technology Has Changed the Field of Accounting. BSU Honors Program Theses and Projects. Bridgewater State University. 4-6

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu. 4 may 2018-ci ildə dəyişiklik edilmiş redaksiyası. Bakı, 2018

Salahov, Ə.S., Mehdiyev, V.M.(2016). Mühasibat Uçotu. Dərslik. Bakı, "3 saylı Bakı Mətbəəsi" ASC. 338-340

Nəbiyeva, G.İ. (2015) "Material ehtiyatlarından istifadənin uçotunun təkmilləşdirilməsi" adlı magistr dissertasiyası. 25-44

Səbzəliyev, S.M, Abbasov, Q.Ə (2015). "Xidmət sahələrində mühasibat (maliyyə) uçotu". Bakı. "Təknur nəşriyyat".134-140

https://scottmax.com/excel-statistics/

# GLOBAL AND LOCAL SUSTAINABILITY: EVALUATING ENTERPRISE PRACTICES IN AZERBAIJAN AND LEADING ECONOMIES

**Eminova Aysel Etibar**

**Sumgayit State University**

**https://orcid.org/0000-0003-3787-4409**

**aysel.eminova@sdu.edu.az**

**Rəyçi:**

**Hüseynov Qalib Sirac oğlu,**

**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

The article explores sustainability practices by examining the experiences of leading economies like the European Union (EU), the USA, and China, and compares them with those in Azerbaijan. The EU, recognized as a leader in sustainable development, introduced a comprehensive strategy in 2001 covering economic, environmental, and social dimensions with clear goals and monitoring procedures. The 2014 Non-Financial Reporting Directive (NFRD) requires large companies to disclose non-financial information, enhancing transparency and comparability. It mandates disclosures on environmental policies, social and employee issues, human rights, anti-corruption measures, and board diversity.

In the USA, sustainable businesses focus on renewable energy, eco-friendly products, waste reduction, and employee welfare. After rapid economic growth, China faces major environmental and social issues, such as pollution and resource scarcity. Chinese companies, especially in high-profile industries, are increasingly adopting sustainability practices in response to regulatory and public pressures.

The government of Azerbaijan promotes economic diversification and sustainable growth, supported by the "Azerbaijan 2030" Strategy and the State Program for Renewable Energy. Azerbaijani companies, particularly in oil and gas, are adopting cleaner technologies and engaging in corporate social responsibility. Despite challenges, such as financial constraints for SMEs and limited awareness of sustainability practices, Azerbaijan’s focus on non-oil sectors and international partnerships offers promising prospects for sustainable development.

**Key words:** sustainable enterprise, environmental and social activities, EU practices, economics

# ГЛОБАЛЬНАЯ И ЛОКАЛЬНАЯ УСТОЙЧИВОСТЬ: ОЦЕНКА ПРАКТИК ПРЕДПРИЯТИЙ В АЗЕРБАЙДЖАНЕ И ВЕДУЩИХ ЭКОНОМИКАХ

**Эминова Айсель Этибар**

**Сумгаитский государственный университет**

**https://orcid.org/0000-0003-3787-4409**

**aysel.eminova@sdu.edu.az**

## Резюме

В статье рассматриваются практики устойчивости путем изучения опыта ведущих экономик, таких как Европейский союз (ЕС), США и Китай, и сравнения их с опытом Азербайджана. ЕС, признанный лидером в области устойчивого развития, в 2001 году представил комплексную стратегию, охватывающую экономические, экологические и социальные аспекты с четкими целями и процедурами мониторинга. Директива о нефинансовой отчетности 2014 года (NFRD) требует от крупных компаний раскрывать нефинансовую информацию, повышая прозрачность и сопоставимость. Она требует раскрытия информации об экологической политике, социальных и кадровых вопросах, правах человека, мерах по борьбе с коррупцией и разнообразии совета директоров.

В США устойчивые предприятия сосредоточены на возобновляемых источниках энергии, экологически чистых продуктах, сокращении отходов и благосостоянии сотрудников. После быстрого экономического роста Китай сталкивается с серьезными экологическими и социальными проблемами, такими как загрязнение и дефицит ресурсов. Китайские компании, особенно в престижных отраслях, все чаще внедряют методы устойчивого развития в ответ на нормативное и общественное давление.

Правительство Азербайджана содействует экономической диверсификации и устойчивому росту, поддерживаемому стратегией «Азербайджан 2030» и государственной программой по возобновляемым источникам энергии. Азербайджанские компании, особенно в нефтегазовой отрасли, внедряют более чистые технологии и участвуют в корпоративной социальной ответственности. Несмотря на проблемы, такие как финансовые ограничения для МСП и ограниченная осведомленность о методах устойчивого развития, фокус Азербайджана на ненефтяных секторах и международных партнерствах открывает многообещающие перспективы для устойчивого развития.

**Ключевые слова:** устойчивое предпринимательство, экологическая и социальная деятельность, практика ЕС, экономика

# QLOBAL VƏ LOKAL DAYANIQLILIQ: AZƏRBAYCANDA VƏ APARICI İQTİSADİYYATLARDA MÜƏSSİSƏ TƏCRÜBƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Eminova Aysel Etibar**

**Sumqayıt Dövlət Universiteti**

**https://orcid.org/0000-0003-3787-4409**

**aysel.eminova@sdu.edu.az**

Dayanıqlılıq iqtisadi fəaliyyətin ətraf mühitə təsirini tam nəzərə alan, bərpa olunan və ya dəyişdirilə bilən, buna görə də sonsuz olan resurslardan istifadəyə əsaslanan iqtisadi artım kimi müəyyən edilir. Dayanıqlılığın ilkin təriflərinin əksəriyyəti iqtisadi istehsala və istehlaka nəzarətə və təbii ehtiyatlardan istifadənin davamlı səviyyələrinin proqnozlaşdırılmasına diqqət yetirməklə makro səviyyəli idi (Eminova, 2024). Lakin zaman keçdikcə, dayanıqlılığın əhatəsi bir tərəfdən genişlənərək sosial və ekoloji sahələri də əhatə etmiş, digər tərəfdən isə dövlət strategiyasından hətta kiçik və orta sahibkarlıq müəssisələrinin missiyalarına qədər gəlib çatmışdır. Bir sözlə, dayanıqlılıq kiçik şirkətlərdən tutumuş güclü iqtisadiyyatlara və təşkilatlara qədər bütün strukturların fokuslandığı anlayışa çevrilmişdir. Bu baxımdan dünya üzrə bu anlayışın ölkə səviyyəsində və müəssisələr baxımından təhlili xüsusi əhəmiyyət kəsb edir.

**Avropa İttifaqının** Dayanıqlı İnkişaf Strategiyası dayanıqlı inkişaf sahəsində qəbul edilmiş uğurlu beynəlxalq sənədlərdən hesab olunur. Strategiya 2001-ci ildə Avropa İttifaqının Sammitində qəbul edilmiş və dayanıqlı inkişafın bütün sahələrini – iqtisadi, ekoloji, sosial sahəni və onlar arasındakı qarşılıqlı əlaqəni əhatə etməklə yanaşı konkret məqsədlərə və monitorinq prosedurlarına malikdir. Strategiyada 4 əsas mövzu öz əksini tapmışdır : iqlim dəyişikliyi və təmiz enerji, nəqliyyat, insan sağlamlığı və təbii resurslar.

Aİ-nin Qeyri-Maliyyə Hesabatları Direktivi (Non-Financial Reporting Directive NFRD) Avropa İttifaqında iri şirkətlər və qruplar tərəfindən açıqlanan qeyri-maliyyə məlumatlarının şəffaflığını və müqayisəliliyini artırmaq məqsədi daşıyan qanunvericilik tədbiridir.

NFRD 2014-cü ildə qəbul edilmiş və 2017-ci ildə qüvvəyə minmişdir. Əsas məqsədi investorlar, istehlakçılar, siyasətçilər və vətəndaş cəmiyyəti daxil olmaqla maraqlı tərəfləri iri şirkətlərin sosial və ətraf mühitə təsirləri haqqında müvafiq məlumatlarla təmin etməkdir. Bu məlumat qeyri-maliyyə risklərinin və imkanlarının qiymətləndirilməsi və bununla da davamlı iqtisadiyyatın təşviqi üçün çox vacibdir.

NFRD-ə əsasən, 500-dən çox işçisi olan iri ictimai maraq kəsb edən təşkilatlardan illik hesabatlarına qeyri-maliyyə hesabatı daxil etmək tələb olunur. Bu bəyanat aşağıdakı sahələri əhatə etməlidir:

1. Ətraf Mühit Məsələləri:

- Ətraf mühitin mühafizəsi ilə bağlı siyasətlər;
- Bu siyasətlərin nəticələri;
- Şirkətin fəaliyyətinin ətraf mühitə əhəmiyyətli təsiri;

- Bərpa olunan və/və ya bərpa olunmayan enerjidən istifadə, istixana qazı emissiyaları, su istifadəsi və havanın çirklənməsi.

2. Sosial və işçilərlə əlaqəli məsələlər:

- Sosial və işçi məsələləri ilə bağlı siyasətlərin həyata keçirilməsi;

- Gender bərabərliyi, iş şəraiti, sağlamlıq və təhlükəsizlik və işçilərin işə cəlb edilməsini təmin etmək üçün görülən əsas təsirlər və tədbirlər;

3. İnsan hüquqları:

- İnsan hüquqlarına hörməti təmin etmək üçün siyasətlər və lazımi araşdırma prosesləri;

- İnsan hüquqlarının pozulmasının qarşısının alınması üçün əsas təsirlər və tədbirlər.

4. Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə:

- Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə siyasəti;

- Korrupsiya hallarının qarşısının alınması üçün həyata keçirilən tədbirlər və prosedurlar.

5. Şirkətin İdarə heyətində müxtəliflik:

**Amerika Birləşmiş Ştatlarında** dayanıqlı müəssisə dedikdə aşağıdakı məsələləri öz strategiyasına daxil etmiş şirkətlər nəzərdə tutulur:

- Alternativ və bərpa oluna bilən enerji mənbələrindən istifadə edir;

- Təbiətə zərər vurmayan məhsullar istehsal edir;

- Tullantıları minimuma endirir və təkrar emalını həyata keçirir;

- Təkrar istifadə oluna bilən mal və materiallardan istifadə edir;

- Təchizat zənciri başlanğıcdan istehlakçıya çatana qədər məhsul və xidmətlərin təbiətə vura biləcəyi mənfi təsirləri minimuma endirir;

- İşçilərin iş mühitində rahatlığını və sosial təminatını təmin edir

Son otuz il ərzində **Çin** sürətli iqtisadi inkişaf yolu keçərək dünyanın ən böyük iqtisadiyyatlarından birinə, həmçinin 1978-ci ildə həyata keçirdiyi iqtisadi islahatlardan sonra dünyanın qlobal istehsal mərkəzinə çevrilmişdir. Çinin artan iqtisadi inkişafı yüksək ekoloji və sosial xərclərlə müşayiət olunmuş,ətraf mühitin çirklənməsi, resurs çatışmazlığı, sosial məsuliyyətlə bağlı problemlərə gətirib çıxarmışdır. Bu problemlərə cavab olaraq və hökumətlərin, qeyri-hökumət təşkilatlarının (QHT-lər), müştərilərin, rəqiblərin və müxtəlif digər səhmdarların təzyiqləri səbəbindən bir çox şirkətlər dayanıqlılığın hər 3 aspektinin tətbiqi təcrübələrini mənimsəmişlər.

Çin şirkətlərində dayanıqlılıq çərçivəsində sosial və ekoloji fəaliyyətlərə daha çox təsir edən faktorlar - dövlət tənzimləmələri və beynəlxalq rəqabətdir. Bundan əlavə ictimai nəzarətə daha çox məruz qalan daha böyük və yüksək profilli sənayelərdəki firmalar, ictimaiyyətin gözləntilərini qarşılamaq üçün daha çox sosial və ekoloji fəaliyyətlə məşğul olur və bu fəaliyyətləri daim ictimaiyyətə açıqlayır.

**Azərbaycan** iqtisadiyyatını tarixən ÜDM-də və ixracda əhəmiyyətli dərəcədə neft-qaz sektorunun üstünlük təşkil etdiyi iqtisadiyyat kimi xarakterizə edə bilərik. Bununla belə, bu istiqamət ətraf mühitin çirklənməsi, istixana qazı emissiyaları və resursların tükənməsi də daxil olmaqla ekoloji problemlər yaratmışdır. Buna cavab olaraq Azərbaycan hökuməti öz iqtisadiyyatını

şaxələndirməyə və müxtəlif sektorlar üzrə davamlı inkişafı təşviq etməyə çalışır. Azərbaycan hökuməti davamlı inkişafı dəstəkləmək üçün bir sıra siyasət və qaydalar tətbiq edib. Bunların arasında iqtisadiyyatın şaxələndirilməsi, ətraf mühitin mühafizəsi və sosial inklüzivlik hədəflərini əks etdirən "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafın Milli Prioritetləri" planı əsas yer tutur. Bundan əlavə, "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" dünya təcrübəsindən geniş istifadə etməklə enerji kompleksində bərpa olunan mənbələrin payını artırmaq məqsədi daşıyır.

Getdikcə artan Azərbaycan müəssisələri davamlı təcrübələri öz fəaliyyətlərinə inteqrasiya edirlər. Neft və qaz sektorundakı şirkətlər daha təmiz texnologiyalara və çirklənmə ilə mübarizə tədbirlərinə sərmayə qoyur, müəssisələr cəmiyyətin inkişafı, təhsil və səhiyyəyə diqqət yetirərək, korporativ sosial məsuliyyət (KSM) təşəbbüslərində fəal iştirak edir.

Əhəmiyyətli irəliləyişlərə baxmayaraq, Azərbaycan müəssisələri davamlı inkişafın irəliləyişində bir sıra problemlərlə də üzləşirlər. Maliyyə məhdudiyyətləri bir çox müəssisələrin, xüsusən də KOB-ların davamlı texnologiyalara investisiya etmək imkanlarını məhdudlaşdırır. Davamlılıq təcrübələrində məlumatlılığın və təcrübənin olmaması əlavə maneələr yaradır.

Azərbaycanda davamlı inkişafın gələcəyi bir sıra perspektivli imkanlara malikdir. Hökumətin iqtisadiyyatın diversifikasiyasına diqqət yetirməsi qeyri-neft, kənd təsərrüfatı, turizm və bərpa olunan enerji kimi sektorlarda davamlı təcrübələr üçün yeni imkanlar açır. Dövlət və özəl sektorlar arasında inkişaf etmiş əməkdaşlıq davamlılığa innovasiya və sərmayə qoymağa təkan verə bilər. Bundan əlavə, beynəlxalq tərəfdaşlıqlar və ən yaxşı qlobal təcrübələrə çıxış tərəqqini sürətləndirə bilər.

**Nəticə.** Beynəlxalq təcrübəyə əsasən, hər bir ölkənin mədəniyyəti müəssisələrdə düşüncələri, hərəkətləri, davranışları və qərar qəbulunu formalaşdıran əsas kimi qəbul edilə bilər (Liu et al., 2014). Buna əsaslanaraq qeyd edə bilərik ki, hər bir ölkənin prioritet istiqamətləri və strategiyası fərqli olduğu kimi, dayanıqlılıq təcrübələri də müxtəliflik göstərir. Lakin ümumi olan dünya ölkələrinin iqtisadiyyatından, yerləşdiyi bölgədən, gücündən asılı olmayaraq, ümumi hədəf üzrə birgə fəaliyyətə olan meylindən gedir. Bu, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası olan COP 29-da bir araya gələrək ümumi maraqları müzakirə etməsi kontekstində bir daha öz əksini tapır.

**Ədəbiyyat:**

"Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri" Bakı "Azərbaycan" qəzeti, 03 fevral 2021-ci il.

"Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

https://president.az/az/articles/view/40894

Eminova, A. (2024). Is corporate social responsibility a tool used by companies to enhance their reputation or a contribution to sustainability? *International Journal of Innovative Technologies in Economy*, (3(47). https://doi.org/10.31435/rsglobal_ijite/30092024/8211

Liu, M. T., Wong, I. A., Shi, G., Chu, R., & Brock, J. L. (2014). The impact of corporate

social responsibility (CSR) performance and perceived brand quality on customer-based brand preference. *Journal of Services Marketing, 28*(3), 181-194. https://doi.org/10.1108/JSM-09-2012-0171.7

Sustainability Success. (n.d.). Sustainable business practices. Retrieved from

https://sustainability-success.com/sustainable-business-practices/

European Parliament. (2021). Briefing: Implementation Appraisal. Non-financial Reporting Directive. Retrieved from

https://www.europarl.europa.eu/RegData/etudes/BRIE/2021/654213/EPRS_BRI(2021)654213_EN.pdf

# ECO-MIGRATION: THE SYNTHESIS OF GREEN ECONOMY AND GLOBAL MIGRATION TRENDS

**Mardanli Fadai Mehman**

**UNEC**

**https://orcid.org/0009-0001-4044-8649**

**mardanli.fadai.mehman.2023@unec.edu.az**

**Rəyçi:**

**Rüstəmov İlham Şamil oğlu,**

**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

The article highlights the intricate relationships between these factors by examining how emigration from Germany to the US and Canada affects the development of the green economy and the socio-environmental integration of migrants. The results show that although migrants actively participate in environmental sustainability and technology adaptation, which favourably impact green economic growth, full labour market integration needs more assistance and training. The factorial analysis highlights the necessity of improving migrant social adaption in order to facilitate successful engagement in the green economy, with employee satisfaction turning out to be a crucial component of this process. Organisational efforts should concentrate on improving migrants' socioeconomic stability and technological proficiency if they want to continue participating in green economic sectors. In conclusion, this essay shows how migration and the green economy are closely related, which is important for encouraging sustainable growth and social and ecological adaptability.

**Keywords:** green economy, eco-migration, technological adaptation, labor market integration, social welfare.

# ЭКО-МИГРАЦИЯ: СИНТЕЗ ЗЕЛЕНОЙ ЭКОНОМИКИ И ГЛОБАЛЬНЫХ МИГРАЦИОННЫХ ТРЕНДОВ

**Марданлы Федаи Мехман оглу**

**UNEC**

**https://orcid.org/0009-0001-4044-8649**

**mardanli.fadai.mehman.2023@unec.edu.az**

**Резюме**

В статье освещаются сложные взаимосвязи между этими факторами путем изучения того, как эмиграция из Германии в США и Канаду влияет на развитие зеленой экономики и социально-экологическую интеграцию мигрантов. Результаты показывают, что хотя мигранты активно участвуют в экологической устойчивости и адаптации технологий, что благоприятно влияет на зеленый экономический рост, полная интеграция на рынке труда требует большей помощи и обучения. Факторный анализ подчеркивает необходимость улучшения социальной адаптации мигрантов для содействия успешному вовлечению в зеленую экономику, при этом удовлетворенность сотрудников оказывается важнейшим компонентом этого процесса. Организационные усилия должны быть сосредоточены на улучшении социально-экономической стабильности и технологической компетентности мигрантов, если они хотят продолжать участвовать в зеленых экономических секторах. В заключение в этом эссе показано, как тесно связаны миграция и зеленая экономика, что важно для поощрения устойчивого роста и социальной и экологической адаптивности.

**Ключевые слова:** зеленая экономика, экомиграция, технологическая адаптация, интеграция на рынке труда, социальное обеспечение.

**EKO-MİQRASİYA: YAŞIL İQTİSADİYYATIN QLOBAL MİQRASİYA TRENDLƏRİ İLƏ SİNTEZİ**

**Mərdanlı Fədai Mehman**

**UNEC**

**https://orcid.org/0009-0001-4044-8649**

**mardanli.fadai.mehman.2023@unec.edu.az**

**Mövzunun aktuallığı**

Eko-miqrasiya iqlim dəyişikliklərinin təsirini aradan qaldırmaq və yaşıl iqtisadiyyatın inkişafını sürətləndirmək məqsədilə qlobal miqrasiya dinamikasının yeni və aktuallığını qoruyan bir aspekti olaraq ortaya çıxmışdır. İqlim dəyişikliklərinin təsir etdiyi ərazilərdə yaşayış və iş imkanlarının azalması nəticəsində əhali daha yaşıl və davamlı iqtisadi imkanların mövcud olduğu regionlara miqrasiya etməyə başlayır ki, bu da iqtisadi, sosial və ekoloji inkişaf üçün yeni imkanlar və çətinliklər yaradır. Yaşıl iqtisadiyyatın təşviqi və eko-miqrasiya arasında formalaşan bu qarşılıqlı əlaqə, miqrantların yeni yaşayış yerlərində həm ekoloji təmiz texnologiyalar vasitəsilə iş tapmalarına, həm də ekoloji bilik və bacarıqlarını tətbiq edərək yerli iqtisadiyyata töhfə vermələrinə şərait yaradır. Beləliklə, yaşıl iqtisadiyyatın miqrasiya prosesləri ilə əlaqəsi təkcə iqtisadi inkişafı deyil, həm də daha dayanıqlı və ekoloji balanslı cəmiyyətlərin formalaşmasını dəstəkləyən bir proses kimi önəm qazanır.

**Problemin iqtisadi ədəbiyyatda qoyuluşu: nəzəriyyələr və elmi araşdırmalar**

Eko-miqrasiya və yaşıl iqtisadiyyatın qlobal miqrasiya trendləri ilə sintezi mövzusunda nəzəriyyələr iqlim dəyişikliyi, miqrasiya və iqtisadi artım arasında kompleks əlaqələri izah etmək üçün nəzərə alınır. **Ekoloji iqtisadiyyat nəzəriyyəsi**, iqtisadi fəaliyyətin ekoloji məhdudiyyətlərə uyğun şəkildə qurulmasını vurğulayaraq, miqrasiya və iqtisadi inkişafın davamlı olmasının yalnız təbii resursların səmərəli istifadəsi ilə mümkün ola biləcəyini bildirir (Costanza, 1997). Bu nəzəriyyəyə görə, ekoloji dəyişikliklər səbəbilə miqrasiya edən insanların yaşıl iqtisadiyyatda yeni resurslara töhfə verməsi və davamlı iş şəraitinin təmin olunması əhəmiyyətli rol oynayır. **Davamlı inkişaf nəzəriyyəsi** isə sosial, iqtisadi və ekoloji amillərin balansını qoruyaraq inkişaf proseslərinin miqrasiya axınları üzərində təsirli olduğunu vurğulayır (Brundtland, 1987). Bu nəzəriyyəyə əsasən, iqlim dəyişikliyi ilə əlaqəli miqrasiya prosesləri yaşıl iqtisadiyyatı dəstəkləyən siyasətlər və tədbirlər vasitəsilə daha dayanıqlı şəkildə idarə oluna bilər ki, bu da həm miqrantların rifahını artırır, həm də ekoloji dəyərləri qoruyur. **Miqrasiya sistemləri nəzəriyyəsi** isə miqrant axınlarının təbii resurslar və əmək bazarı ilə qarşılıqlı əlaqəsini vurğulayır, yəni miqrantların yerləşdiyi regionların sosial-iqtisadi strukturlarına olan təsirini qiymətləndirir (Massey et al, 1993). Bu nəzəriyyə miqrantların yaşıl iqtisadi fəaliyyətlərdə iş tapma potensialı ilə onların ekoloji qaynaqları səmərəli şəkildə idarə etməsinə imkan yaradan mexanizmləri izah edir.

**Sosial mübadilə nəzəriyyəsi**, miqrantların yeni iqtisadi sistemlərdə fəaliyyət göstərməsini, yerli cəmiyyətlər və miqrantlar arasında resurs və bilik mübadiləsi kimi təsvir edir (Blau, 1964). Bu nəzəriyyəyə görə, yaşıl iqtisadiyyata inteqrasiya olan miqrantlar həm özlərinə, həm də cəmiyyətə fayda verərək ekoloji rifaha müsbət təsir edir, çünki miqrantlar yeni resurslara və biliklərə sahib olurlar və bunu yaşıl iqtisadiyyata töhfə verən bir amil kimi istifadə edirlər. **Qlobal əmək bazarları**

**nəzəriyyəsi** isə miqrasiya, əmək bazarı və yaşıl iqtisadiyyatın inkişafı arasında mövcud olan əlaqələri vurğulayır və ekoloji dəyişikliklər fonunda miqrasiya axınlarının işçi qüvvəsi üçün yeni imkanlar yaradaraq eko-miqrasiya prosesini dəstəklədiyini bildirir (Sassen, 1988). Bu nəzəriyyə yaşıl iqtisadiyyatın formalaşdırılması ilə miqrantların uyğun sahələrdə iş tapmasını təmin etməklə onların sosial rifahını artırdığını və eyni zamanda ekoloji davamlılığı gücləndirdiyini iddia edir.

Eko-miqrasiya və yaşıl iqtisadiyyatın qlobal miqrasiya trendləri ilə sintezi mövzusunda aparılan tədqiqatlar, iqlim dəyişikliyinin miqrasiya dinamikasına təsirini və yaşıl iqtisadiyyatın inkişafında miqrantların rolunu araşdıraraq, bu iki fenomenin qarşılıqlı əlaqələrini və nəticələrini dərinləşdirir. **Barbier (2014)** öz tədqiqatında müəllif iqlim dəyişikliyinin iqtisadi miqrasiyaya təsirini iqtisadi modellər vasitəsilə araşdıraraq, ekoloji dəyişikliklərin miqrasiya qərarlarına təsirini və yaşıl iqtisadiyyatın inkişafında miqrantların rolunu vurğulamışdır. Nəticələr iqlim dəyişikliyi və iqtisadi miqrasiya arasında güclü əlaqənin yaşıl iqtisadiyyatın genişləndirilməsi üçün vacib bir katalizator ola biləcəyini göstərir (Barbier, 2014). **Kennet (2006)** isə iqtisadiyyatın əsas məqsədlərini və fəlsəfi əsaslarını təhlil edərək, ekoloji davamlılıq və sosial ədalət prinsiplərinin miqrasiya siyasətləri ilə inteqrasiyasını müzakirə etmişdir (Kennet, 2006). Nəticə göstərir ki, sosial ədalət və ekoloji prinsip əsaslı miqrasiya siyasətləri yaşıl iqtisadiyyatı daha ədalətli və davamlı edə bilər.

**Victor (2012)** öz məqaləsində iqtisadi artım, azalma və iqlim dəyişikliyi arasındakı əlaqələri ssenari analizi vasitəsilə araşdıraraq, yaşıl iqtisadiyyatın inkişafında miqrasiya proseslərinin rolunu qiymətləndirmişdir (Victor, 2012). Əldə olunan nəticələr iqtisadi inkişafda miqrasiya ilə əlaqəli yeni yaşıl yanaşmaların davamlılığı artırdığını göstərir. Ondan öncə isə **Thøgersen (2006)** öz elmi əsərində məhz ekoloji məsuliyyətli davranış normalarını genişləndirilmiş taksonomiya vasitəsilə təhlil edərək, miqrantların yaşıl iqtisadiyyata adaptasiyasında sosial normaların təsirini vurğulamış və demişdir ki, "sosial normaların güclü təsiri miqrantların yeni yaşıl iqtisadi sistemlərə adaptasiyasını asanlaşdırır (Thøgersen, 2006)". **Klaiber (2014)** şist enerjisi bumunun Pensilvaniyada yaxınlıqdakı sakinlərin mənzil dəyərlərinə təsirini empirik analiz vasitəsilə araşdıraraq, enerji sektorundakı dəyişikliklərin miqrasiya və yaşıl iqtisadiyyatla əlaqələrini qiymətləndirmişdir. Araşdırmanın nəticəsi şist enerjisi bumu kimi enerji dəyişikliklərinin əhalinin ekoloji miqrasiya qərarlarına təsir edə biləcəyini göstərir. **Ceesay (2020)** isə Qambiyada iqlim dəyişikliyi, qida təhlükəsizliyi və iqtisadi artım arasındakı əlaqələri ekonometrik analiz vasitəsilə araşdıraraq, ekoloji dəyişikliklərin miqrasiya və yaşıl iqtisadiyyatla əlaqələrini müzakirə etmişlər (Ceesay, 2020). Nəticələr göstərir ki, iqlim dəyişikliyinə qarşı miqrasiya yaşıl iqtisadiyyatda sabitliyi və qida təhlükəsizliyini təmin etmə potensialına malikdir.

Beləliklə, icmal göstərir ki, eko-miqrasiya və yaşıl iqtisadiyyatın qlobal miqrasiya trendləri ilə sintezi mövzusunda aparılan tədqiqatlar, iqlim dəyişikliyi, iqtisadi artım və sosial ədalət arasındakı kompleks əlaqələri dərinləşdirərək, davamlı inkişafın təmin edilməsində miqrantların potensial töhfələrini və yaşıl iqtisadiyyatın miqrasiya proseslərinə təsirlərini əhatəli şəkildə təhlil edir.

**Metodologiya**

Məqalədə eko-miqrasiya və yaşıl iqtisadiyyat arasındakı əlaqəni öyrənmək üçün faktor analizi metodu istifadə edilib. Burada Almaniyadan ABŞ və Kanada kimi yaşıl iqtisadiyyat yüksək inkişaf edən ölkələrə 2000-2023-cü illər arasında emiqrasiya statistikaları analiz edilib. Məqalədə Almaniyadan həmin ölkələrə emiqrant axınlarının miqyasları, yaşıl iqtisadiyyatda iştirak məqsədilə yerdəyişmə dinamikaları və əmək bazarında uyğunlaşma səviyyələri qiymətləndirilib. SPSS-də faktor analizi tətbiq olunaraq, Almaniyadan ABŞ və Kanadaya emiqrant axınlarının eko-miqrasiya

ilə yaşıl iqtisadiyyat arasında əlaqələrə necə təsir etdiyi öyrənilib. Model vasitəsilə miqrasiya dinamikaları, əmək bazarı tələbləri və texnoloji uyğunlaşma kimi dəyişənlər üzərində təhlillər aparılaraq, yaşıl iqtisadiyyatın miqrantlar üzərindəki təsirləri qiymətləndirilmişdir.

**Təcrübi hissə**

Almaniyadan ABŞ və Kanadaya emiqrant axınlarının yaşıl iqtisadiyyatla əlaqələrini araşdırmaq məqsədilə faktorial analiz aparılmışdır. Bu analizdə əsas diqqət miqrantların yaşıl iqtisadiyyata təsirləri, əmək bazarında uyğunlaşma səviyyələri və texnoloji inteqrasiyanın roluna yönəlmişdir.

***Cədvəl 1.***

*Faktorial analiz nəticələri.*

| **Dəyişənlər** | **Ortalama** | **Standart kənarlaşma** | **P-dəyəri** | **Faktor yükü** |
|---|---|---|---|---|
| **Emiqrant axını** | 3.7 | 1.2 | 0.03 | 0.66 |
| **Yaşıl iqtisadiyyata təsir** | 4.1 | 1.1 | 0.04 | 0.58 |
| **Əmək bazarı uyğunlaşması** | 2.8 | 1.5 | 0.12 | 0.49 |
| **Texnoloji inteqrasiya** | 3.5 | 1.3 | 0.05 | 0.71 |

**Mənbə:** praktiki araşdırma əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Bu nəticələr göstərir ki, emiqrant axınının yaşıl iqtisadiyyata təsirində müsbət əlaqə olsa da, faktorial analizdə faktor yükləri fərqli səviyyələrdə təzahür edir. Yaşıl iqtisadiyyata təsirin faktor yükünün yüksək olması, bu sahədə miqrantların potensialının və adaptasiya səviyyələrinin nəzərə çarpan olduğunu göstərir. Əmək bazarı uyğunlaşması ilə bağlı dəyərlər daha aşağı faktor yükləri ilə qeyd edilmişdir, bu da miqrantların əmək bazarına tam inteqrasiya olunma prosesində əlavə çətinliklərin olduğunu göstərir. Daha sonra eko-miqrasiyanın sosial uyğunlaşma, ekoloji davamlılıq və işçi məmnuniyyəti kimi dəyişənlər üzərindəki təsirləri faktorial analizlə qiymətləndirilmişdir. Bu hissədə miqrantların yeni ekoloji şəraitlərə adaptasiya səviyyəsi və sosial uyğunlaşma meyarları arasında olan əlaqələr təhlil olunmuşdur.

***Cədvəl 2.***

*Ekoloji və sosial uyğunluq üzrə faktorial analiz*

| **Dəyişənlər** | **Ortalama** | **Standart kənarlaşma** | **P-dəyəri** | **Faktor yükü** |
|---|---|---|---|---|
| **Əmək bazarı inteqrasiyası** | 4.0 | 1.0 | 0.02 | 0.73 |
| **Ekoloji davamlılıq** | 3.2 | 1.3 | 0.07 | 0.57 |
| **Sosial uyğunlaşma** | 3.6 | 1.2 | 0.05 | 0.62 |
| **İşçi məmnuniyyəti** | 2.9 | 1.1 | 0.03 | 0.55 |

**Mənbə:** praktiki araşdırma əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Əmək bazarı inteqrasiyası yüksək faktor yükü ilə əhəmiyyətli təsir göstərib və bu, miqrantların uyğunlaşma prosesində əsas amildir. Ekoloji davamlılıq və sosial uyğunlaşma meyarları müsbət faktor yükləri ilə təsdiq olunaraq, miqrantların ekoloji/sosial uyğunlaşmaya əhəmiyyətli dərəcədə töhfə verdiyini göstərir. İşçi məmnuniyyətinin daha aşağı faktor yükü ilə qeyd olunması isə

miqrantların yeni əmək şəraitlərinə adaptasiyada müəyyən çətinliklərlə üzləşə biləcəyini göstərir. Analiz nəticələri göstərir ki, Almaniyadan ABŞ və Kanadaya emiqrant axınlarının yaşıl iqtisadiyyatla əlaqəsində yüksək adaptasiya potensialı olmasına baxmayaraq, əmək bazarına tam inteqrasiyada müəyyən çətinliklər mövcuddur. Faktorial analizdə yüksək faktor yükləri ilə qeyd olunan yaşıl iqtisadiyyata təsir dəyişəni, miqrantların ekoloji fəaliyyətlərdə aktiv rol oynadığını və bu sektorların inkişafına töhfə verdiyini göstərir. Texnoloji inteqrasiya ilə bağlı müsbət, lakin orta səviyyədə faktor yükü, miqrantların müəyyən texnoloji bacarıqları mənimsəmə qabiliyyətində müxtəliflik olduğunu və bunun ekoloji fəaliyyətlərdə daha səmərəli iştirak etmələri üçün inkişaf etdirilməsi lazım olduğunu vurğulayır. Ekoloji davamlılıq və sosial uyğunlaşma kimi dəyişənlər isə miqrantların yeni sosial-ekoloji mühitə uyğunlaşmaqla yaşıl iqtisadiyyatda dayanıqlı fəaliyyət göstərmək istəklərini əks etdirir. Lakin işçi məmnuniyyəti nəticələrinin nisbətən aşağı faktor yükü ilə çıxması, miqrantların əmək şəraiti və sosial uyğunlaşma prosesində müəyyən əlavə dəstək və təlim tələbatı mövcudluğunu təsdiqləyir.

**Nəticə**

Beləliklə, Almaniyadan ABŞ və Kanadaya emiqrasiya edən miqrantların yaşıl iqtisadiyyata töhfələri ekoloji fəaliyyətlərin inkişafını dəstəkləsə də, sosial-iqtisadi adaptasiya proseslərini çətinləşdirir. Yaşıl iqtisadiyyatın genişləndirilməsi məqsədilə miqrantların ekoloji davamlılıq, texnoloji inteqrasiya və sosial uyğunlaşma sahələrində oynadığı rol mühüm olsa da, bu proseslərin səmərəliliyi onların əmək bazarına uyğunlaşmalarından və iş məmnuniyyətindən də asılıdır. Faktorial analiz nəticələrinə görə, miqrantlar yeni ekoloji və sosial mühitlərə uyğunlaşmaqda müəyyən dərəcədə uğur əldə etsələr də, tam mənimsəmə səviyyəsinə çatmaq üçün əlavə texnoloji bacarıqlar və təlimlərə ehtiyac duyurlar. Eyni zamanda, miqrantların yaşıl iqtisadiyyat sahəsində məhsuldarlığını artırmaq üçün işçi məmnuniyyəti və sosial rifah səviyyələrini yüksəltmək məqsədilə təşkilati dəstək təmin edilməlidir. Bu tədqiqat yaşıl iqtisadiyyatın miqrasiya prosesləri ilə əlaqəsinin həm sosial, həm də iqtisadi adaptasiya baxımından kompleks olduğunu və davamlı inkişaf üçün miqrantların sosial-ekoloji uyğunlaşmasına xüsusi diqqət yetirilməsinin vacib olduğunu göstərir. Beləliklə, yaşıl iqtisadiyyata keçid dövründə miqrasiya axınları bu iqtisadiyyatın inkişafına dəstək olmaqla yanaşı, həm də miqrantların fərdi və sosial ehtiyaclarını qarşılamaq üçün institusional dəstək tələb edir.

**References:**

Barbier, E. B. (2014). Climate change, economic migration and the environment. Environmental and Resource Economics, 55(4), 525-536.

Blau, P. M. (1964). Exchange and Power in Social Life. Wiley.

Brundtland, G. H. (1987). Our Common Future: Report of the World Commission on Environment and Development. Oxford University Press.

Ceesay, E. K. (2022). Climate change, food security and economic growth nexus in the Gambia: Evidence from an econometrics analysis. Research in Globalization, 5: 1-9.

Costanza, R. (1997). Ecological Economics: The Science and Management of Sustainability. Columbia University Press.

Kennet, M. (2006). Green Economics: setting the scene. International Journal of Green

Economics, 1(1-2), 68-102.

Klaiber, H. A. (2014). Is the shale energy boom a bust for nearby residents? Evidence from housing values in Pennsylvania. American Journal of Agricultural Economics, 96(1), 43-66.

Massey, D. S., Arango, J., Hugo, G., Kouaouci, A., Pellegrino, A., & Taylor, J. E. (1993). Theories of international migration. Population and Development Review, 19(3), 431-466.

Sassen, S. (1988). The Mobility of Labor and Capital: A Study in International Investment and Labor Flow. Cambridge University Press.

Thøgersen, J. (2006). Norms for environmentally responsible behaviour: An extended taxonomy. Journal of Environmental Psychology, 26(4), 247-261.

Victor, P. A. (2012). Growth, degrowth and climate change: A scenario analysis. Ecological Economics, 84, 206-212.

# DEVELOPMENT PERSPECTIVES OF GREEN TOURISM IN TERRITORIES LIBERATED FROM OCCUPATION

**Gasimli Haji Hajibala**

**Baku State University**

**https://orcid.org/0000-0001-8246-1959**

**haci_qasimli@list.ru**

**Rəyçi:**
**Vəliyev Cəbrayıl Xəlil oğlu,**
**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

The purpose of this report is to examine the development of green tourism in the liberated territories of the Republic of Azerbaijan and the ecological, social and economic potential of this area. Within this goal, the main goal is to analyze how green tourism can be used as a tool in terms of both the protection of natural resources and the development of local communities. It should be noted that these areas are of great importance both strategically and economically. Karabakh, Lachin, Kalbajar, Zangilan, Fuzuli and other liberated regions not only reflect the historical and cultural heritage of Azerbaijan, but are also attractive places for tourists with their natural beauty, green tourism, archaeological monuments and rich flora and fauna. The report covers an area of great importance from both an ecological and socio-economic perspective. The liberated territories are territories that have natural wealth both in terms of ecology and have great potential in terms of history and culture. Using the "green tourism" perspectives of these regions can serve both the protection of the ecosystem and the economic development of these areas. In this context, the article has conducted a comprehensive study and outlined the main tasks that need to be done in the field.

**Keywords:** Green tourism, development, perspective, restoration, ecosystem.

# ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ЗЕЛЕНОГО ТУРИЗМА НА ТЕРРИТОРИЯХ, ОСВОБОЖЕННЫХ ОТ ОККУПАЦИИ

**Гасымли Гаджи Гаджибала**

**Бакинский государственный университет**

**https://orcid.org/0000-0001-8246-1959**

**haci_qasimli@list.ru**

**Резюме**

Целью данного отчета является изучение развития зеленого туризма на освобожденных территориях Азербайджанской Республики и экологического, социального и экономического потенциала этой сферы. В рамках этой цели основной задачей является анализ того, как зеленый туризм может использоваться в качестве инструмента как с точки зрения защиты природных ресурсов, так и с точки зрения развития местных сообществ. Следует отметить, что эти направления имеют большое значение как со стратегической, так и с экономической точки зрения. Карабах, Лачин, Кельбаджар, Зангилан, Физулинский и другие освобожденные регионы не только отражают историческое и культурное наследие Азербайджана, но и привлекательные для туристов места своей природной красотой, зеленым туризмом, археологическими памятниками и богатой флорой и фауной. территория, имеющая большое значение с социально-экономической точки зрения. Оккупированные территории – это территории, которые обладают природными богатствами с точки зрения экологии, а также имеют большой потенциал с точки зрения истории и культуры. Использование перспектив «зеленого туризма» этих регионов может послужить как защите экосистемы, так и экономическому развитию этих территорий. В этом контексте в статье всесторонне исследованы и упомянуты основные задачи, которые необходимо решить в этой области.

**Ключевые слова:** Зеленый туризм, развитие, перспектива, восстановление, экосистема.

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ YAŞIL TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Qasımlı Hacı Hacıbala**

**Bakı Dövlət Universiteti**

**https://orcid.org/0000-0001-8246-1959**

**haci_qasimli@list.ru**

**Giriş.** İlk öncə onu qeyd edək ki, işğaldan azad edilmiş ərazilərin turizm potensialı, həm regionun sosial və iqtisadi inkişafına, həm də beynəlxalq aləmdə Azərbaycanın imicinin güclənməsinə əhəmiyyətli təsir göstərə bilər. Bu ərazilərin təbii gözəllikləri, tarixi abidələri və mədəni irsi, turizm sektorunun inkişafı üçün müstəsna imkanlar yaradır. Lakin, bu potensialın reallaşdırılması üçün genişmiqyaslı bərpa işləri, infrastruktur layihələri və mövcud turizm təcrübələrinin inkişaf etdirilməsi lazımdır.

Məruzənin əsas qayəsini təşkil edən "Yaşıl turizm" ekoturizmin bir növü olaraq, təbiəti qorumağa, yerli icmaların rifahını dəstəkləməyə və səmərəli ekoloji idarəetmə prinsiplərinə riayət etməyə yönələn bir turizm növüdür. Burada əsas məqsəd, təbiətə zərər vermədən turizmin inkişaf etdirilməsi və ekosistemlərin qorunmasıdır.

Apardığımız araşdırmalar zamanı müəyyən etdik ki, "Yaşıl turizm" ekoloji cəhətdən davamlı və təbiətə zərər vermədən həyata keçirilən turizm fəaliyyətlərini ifadə edən bir anlayışdır. Bu, ümumiyyətlə ekoturizmin bir növü olaraq qəbul edilir, lakin yaşıl turizm daha geniş bir çərçivədə ekosistemi qorumağa, təbii sərvətləri mühafizə etməyə və yerli icmaların iqtisadi rifahını dəstəkləməyə yönəlmiş turizm anlayışıdır (Məmmədov, 2024).

Yaşıl turzmin əsas xüsusiyyətlərindən biri ekoloji davamlılıqdır. Yəni, "Yaşıl turizm" təbiəti qorumağı əsas hədəf olaraq qəbul edir. Bunun üçün təbii sərvətlərin istifadəsi minimuma endirilir və təbii ekosistemlərə mümkün olan ən az ziyan vurulması məqsəd qoyulur. Turistlərin təbii ərazilərdə fəaliyyət göstərməsi zamanı ətraf mühitin qorunmasına xüsusi diqqət yetirilir.

**Yaşıl turizmin inkişaf perspektivləri**

İşğaldan azad edilmiş ərazilərimizdə yaşıl turizmin inkişaf perspektivləri, həm yerli əhalinin məşğulluğunun təmin olunmasına, həm də xarici turistlərin cəlb olunmasına yönəldilmiş bir strateji yanaşma tələb edir. Bu, təkcə iqtisadi fayda yaratmaqla qalmayacaq, həm də bölgədə sülhün və sabitliyin güclənməsinə, Azərbaycan mədəniyyətinin təbliğinə və yerli icmaların sosial rifahına müsbət təsir göstərəcəkdir. Məruzə, yalnız turizm sektorunun iqtisadi inkişaf üçün əhəmiyyətini müzakirə etmir, həm də bu sektorda yaranacaq iş yerləri, sosial faydalar və ekosistemin qorunması məsələlərini də ön plana çıxarır. Azad edilmiş ərazilərin bərpası və inkişafı, Azərbaycan dövlətinin strateji məqsədlərindən biri olaraq, yalnız daxili bazarda deyil, beynəlxalq turizm bazarında da ölkənin mövqeyini gücləndirmək potensialına malikdir. Turizm, dünya iqtisadiyyatında mühüm yer tutan və sürətlə inkişaf edən sektorlardan biridir. Azərbaycanda da turizm sənayesi son illərdə artan maraq və inkişafla müşahidə edilir (İsmayılov, 2022).

Bu ərazilərdə təbii ehtiyatlar və ekosistemlərlə çox zəngin ərazilər var. Yaşıl turizmin inkişafı ilə

bu bölgələrdə meşə təsərrüfatını, alpinizmi, canlı aləmi və flora/faunanı qorumaq mümkün ola bilər. Həmçinin təbiət abidələri və ekosistemləri turistlərə təqdim etməklə yanaşı, bu ərazilərdə yaşayan yerli xalqların iqtisadiyyatı da canlanacaq.

**Mədəni irsi və tarixi abidələr**

Azərbaycanın zəngin mədəni irsi, tarixi abidələri və UNESCO-nun dünya irsi siyahısına daxil olan obyektləri turizm sektorunun inkişafında mühüm rol oynayır (Qasımlı, 2022). İşğaldan azad edilmiş ərazilərimizdə tarixi yerlərin və mədəni abidələrin qorunması və təbliği həm də onu qeyd edə bilərik ki, ölkənin yaşıl turizm potensialını artıracaqdır (Hüseynov, 2021).

Xüsusilə onu qeyd etməliyik ki, işğaldan azad edilmiş ərazilərdə yaşıl turizmin inkişafını təmin etmək üçün öncə infrastrukturun bərpa edilməsi vacibdir. İşğaldan əvvəlki dövrdə ərazilərin inkişafı dayandırılmış, infrastruktur pozulmuş və yollar, elektrik, su təchizatı kimi əsas xidmətlər zəif vəziyyətdə olmuşdur. Bu gün, bu bölgələrdə bərpa işləri aparılır, yollar, yeni otel və mehmanxanalar, restoranlar və digər turizm obyektləri inşa edilir. Turizm xidmətləri və obyektlərinə gəldikdə isə onu qeyd edə bilərik ki, mövcud olan turizm xidmətlərinin keyfiyyətinin artırılması, yeni turizm obyektlərinin və otellərin inşası da vacibdir. Xüsusilə, ekoturizm, mədəniyyət turizmi və sağlamlıq turizmi kimi sahələrdə fəaliyyət göstərən müasir və sərfəli obyektlərin yaradılması, bu bölgələrin turistlər üçün daha cəlbedici olmasına səbəb olacaq (Qasımlı, 2023).

İşğaldan azad edilmiş ərazilərdə yaşıl turizmin inkişafı, Azərbaycanın iqtisadi və sosial həyatına müsbət təsir göstərə bilər. Bu ərazilər həm daxili, həm də xarici turistlər üçün cəlbedici olmaqla, həm də yerli icmaların rifahını yüksəldə bilər. Bununla yanaşı, infrastrukturların bərpası, təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və davamlı turizm təşəbbüsləri ilə bu bölgələrin tam potensialından faydalanmaq mümkündür (Soltanova, 2015). İşğaldan azad edilmiş ərazilərimizdə yaşıl turizmin inkişaf perspektivləri mövzusu ilə bağlı bir sıra təkliflər təqdim edilə bilər. Bu təkliflər həm dövlətin, həm də yerli icmaların və özəl sektorun yaşıl turizmin inkişafında aktiv rol oynamasını təmin etməyə yönəlmişdir. İşğaldan azad edilmiş ərazilərin yaşıl turizm potensialının həyata keçirilməsi, həm iqtisadi inkişaf, həm də regionun mədəniyyətini qorumaq baxımından mühüm əhəmiyyət kəsb edir.

**Yol və nəqliyyat infrastrukturunun gücləndirilməsi**

İşğaldan azad edilmiş ərazilərə turist axınının artması üçün regiona rahat və təhlükəsiz nəqliyyat əlaqələri qurulmalıdır. Füzuli, Laçın, Kəlbəcər kimi rayonlarda hava limanlarının şəbəkələrinin genişləndirilməsi, mövcud yolların yenidən qurulması və nəqliyyat vasitələrinin təkmilləşdirilməsi vacibdir. Bu, həmçinin daxili və xarici turistlərin regiona gəlişini asanlaşdıracaq. Turizm obyektləri və otellərin inşası: Qarabağ və ətraf bölgələrdə yeni otellərin, mehmanxanaların və turizm obyektlərinin tikilməsi lazımdır. Yerli və beynəlxalq standartlara uyğun, ekoloji təmiz və enerjiyə qənaət edən infrastruktur obyektləri turizm sektoru üçün vacibdir (Şəfiyeva, 2022).

**Məruzənin mövzusu ilə əlaqədar respublikanın kitabxana-informasiya müəssisələrində apardığımız araşdırma zamanı bir sıra xarici aktual ədəbiyyatları müəyyən etdik ki, bunlara nümunə olaraq aşağıdakıları göstərə bilərik.**

**Ecotourism: Principles and Practices-**David A. Fennell.

Bu kitab ekoturizm və yaşıl turizm konsepsiyalarını geniş şəkildə izah edir. Həmçinin, ekoturizm prinsip və praktikalarını ətraflı şəkildə analiz edir, hansı ki, işğaldan azad edilmiş ərazilərdə yaşıl turizmin inkişafına dair nəzəri əsaslar verə bilər.

**Sustainable Tourism: Theory and Practice**-David Weaver.

Bu əsər, davamlı turizmin əsas prinsiplərini və tətbiqlərini araşdırır. Kitabda yaşıl turizm ilə bağlı nəzəriyyələr, yanaşmalar və praktik nümunələr mövcuddur.

**Tourism and Sustainability: Development, Globalisation and New Tourism in the Third World**-Martin Mowforth və Ian Munt.

Turizmin davamlı inkişafı və ekoloji təsirləri haqqında danışan bu kitabda, ekoturizmin müxtəlif təcrübələri və inkişaf modelləri barədə geniş məlumat verilir.

**The Ecology of Sustainable Development**-Peter G. Brown.

Bu kitab ekosistemin qorunması və davamlı inkişaf arasındakı əlaqəni izah edir. Ekosistemlərin və təbii sərvətlərin qorunması məsələləri, işğaldan azad edilmiş ərazilərdə yaşıl turizmin tətbiqi baxımından vacib ola bilər.

**Environmental Management for Sustainable Development**-Michael Redclift

Ətraf mühitin qorunması və davamlı idarəetmə barədə praktiki təlimatlar təqdim edən bu kitab, ekoloji cəhətdən davamlı turizmin inkişafı üçün mühüm prinsipləri təqdim edir.

**Tourism, Environment and Development**-Richard Sharpley

Bu kitabda turizmin inkişafı ilə ətraf mühitin qorunması arasındakı əlaqələr ətraflı şəkildə təhlil olunur. Bu mövzu işğaldan azad edilmiş ərazilərdə yaşıl turizmin potensialını qiymətləndirmək üçün əhəmiyyətli ola bilər.

**Nəticə.** Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərin yaşıl turizm sahəsində inkişafı, yalnız ekoloji və iqtisadi cəhətdən deyil, həm də social və mədəniyyət baxımından əhəmiyyətli təsirə malik olacaqdır. Bu prosesin düzgün idarə edilməsi, təbiətə zərər vermədən və yerli əhalinin maraqlarını qoruyaraq, həm ölkənin turizm sektorunun inkişafına, həm də bu bölgələrin dünya turizm bazarında önəmli bir yer tutmasına səbəb ola bilər.

Yekun olaraq məruzə ilə bağlı müxəlif bir neçə **təklif** təqdim etmək olar. Bu **təkliflər,** həm ekoloji, həm sosial, həm də iqtisadi inkişaf baxımından bu ərazilərdə yaşıl turizmin inkişafına təkan verə bilər.

✓ **Ekoturizmin təşviqi.** İşğaldan azad edilmiş ərazilərdə ekoturizmə uyğun təbiət qoruqları və milli parklar yaradılmalıdır. Bu parklar, həm ekosistemi qorumağa, həm də turistlərə təbiətə qayğılı şəkildə təcrübə qazandırmağa imkan verəcəkdir. Həmçinin, təbiətə zərər vermədən turist fəaliyyətləri təşkil etmək, qorunan ərazilərdə bələdçilər və təbiət nümayişləri təşkil edərək turistlərə ətraf mühitin əhəmiyyətini izah etmək, yerli əhalini ekoturizm fəaliyyətlərinə cəlb etmək.

✓ **Yaşıl turizm infrastrukturunun inkişafı.** Yaşıl turizmin inkişafı üçün ekoloji cəhətdən təmiz və davamlı infrastruktur layihələri həyata keçirilməlidir. Bu, turistlərin təbii mühitə zərər vermədən əraziləri ziyarət etmələrinə şərait yaradacaq.

**Ədəbiyyat:**

Huseynov, M. (2021). Qarabağın turizm potensialı: Tarixi və iqtisadi perspektivlər. Azərbaycanın Sosial-iqtisadi İnkişafı Jurnalı, 25(2), 134-145.

İsmayılov, A. (2022). İşğaldan Azad Edilmiş Ərazilərin Turizm Sektoruna Təsiri: Perspektivlər və Çətinliklər. İqtisadiyyat və Turizm Araşdırmaları, 31(4), 78-91.

Məmmədov, Q. (2024). Ekoturizm və kənd "yaşıl turizm"inə əcnəbilərin böyük marağı var. Azərbaycan, 161, 12.

Qasımlı, H. (2022) İşğaldan azad edilmiş ərazilərimizdə yaradılmış yeni kitabxana- informasiya müəssisələrinin turizmin inkişafında rolu. Qarabağın tarixi: siyasi, iqtisadi, mədəni aspektlər mövzusunda beynəlxalq elmi konfrans, 339-341.

Qasımlı, H. (2023) Kitabxana + turizm: turizmin davamlı inkişaf üçün kitabxanaların yeni istiqaməti. Bakı Dövlət Universiteti, Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, 181-189.

Şəfiyeva, H. (2022) İşğaldan azad olunmuş ərazilərdə turizmin inkişafı. Azərbaycan, 13.

Soltanova, H.B. (2015) Azərbaycan Respublikasında turizm və onun inkişafı, 475.

# TRANSNATIONAL COMPANIES: NATURE, STRUCTURE AND HISTORICAL DEVELOPMENT OF IMPACT ON NATIONAL ECONOMIES

**Amiraslanov Khayal Turab**

**UNEC**

**https://orcid.org/0009-0009-9969-7832**

**khayalamiraslan@gmail.com**

**Rəyçi:**

**Hüseynov Qalib Sirac oğlu,**

**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The purpose of this study is to study the concept of Transnational Company more deeply and to study the history of creation, development and operation of these institutions in national economies. In addition to being the main actor of economic globalization, Transnational Companies that cross national borders and carry out profit-based operations by producing in more than one country have strong economic, political, social and environmental effects on the host countries in addition to the country or countries of origin. The first part of the study focused on the concept, structure, investment forms and integration directions of the Transnational company. In the next part, it is divided into 5 periods, the creation and rise of transnational companies, as well as the history of activity in national economies. The mentioned periods begin with the founding of the East India Company in 1600, which was considered an early Transnational Company and had a very strong influence in spreading British imperialism over India. And it spans our current era, when these companies, numbering over 100,000, are responsible for about 70-80% of global trade. Thus, these companies have a wide influence in the formation of economies.

**Keywords:** transnational company, national economy, investment, trade

# ТРАНСНАЦИОНАЛЬНЫЕ КОМПАНИИ: ПРИРОДА, СТРУКТУРА И ИСТОРИЧЕСКОЕ РАЗВИТИЕ ВЛИЯНИЯ НА НАЦИОНАЛЬНУЮ ЭКОНОМИКУ

**Амирасланов Хаял Тураб**

**UNEC**

**https://orcid.org/0009-0009-9969-7832**

**khayalamiraslan@gmail.com**

**Резюме**

Целью данного исследования является более глубокое изучение концепции транснациональной компании и изучение истории создания, развития и функционирования этих институтов в национальных экономиках. Помимо того, что они являются основным субъектом экономической глобализации, транснациональные компании, которые пересекают национальные границы и осуществляют прибыльные операции, производя продукцию в более чем одной стране, оказывают сильное экономическое, политическое, социальное и экологическое воздействие на принимающие страны в дополнение к стране или странам происхождения. Первая часть исследования была сосредоточена на концепции, структуре, формах инвестиций и направлениях интеграции транснациональной компании. В следующей части оно разделено на 5 периодов: создание и рост транснациональных компаний, а также история деятельности в национальных экономиках. Упомянутые периоды начинаются с основания Ост-Индской компании в 1600 году, которая считалась ранней транснациональной компанией и оказала очень сильное влияние на распространение британского империализма по Индии. И она охватывает нашу нынешнюю эпоху, когда эти компании, насчитывающие более 100 000, отвечают за около 70-80% мировой торговли. Таким образом, эти компании оказывают большое влияние на формирование экономики.

**Ключевые слова:** транснациональная компания, национальная экономика, инвестиции, торговля

**TRANSMİLLLİ ŞİRKƏTLƏR: MAHİYYƏTİ, STRUKTURU VƏ MİLLİ İQTİSADİYYATLARA TƏSİRİNİN TARİXİ İNKİŞAFI**

**Əmiraslanov Xəyal Turab**

**UNEC**

**https://orcid.org/0009-0009-9969-7832**

**khayalamiraslan@gmail.com**

**Transmilli Şirkətlərin Mahiyyəti və Sturkturu**

Birdən çox ölkədə fəaliyyət göstərərək mal və xidmətlər istehsal edən, mənşə ölkəsindən kənarda beynəlxalq istehsal ilə məşğul olan, çox millətli və ya millətlərüstü, yəni transmilli adlandırılan şirkətlər beynəlxalq bazarda ticarətin əsas lideri olmaqla günümüzdə yeni sərhədsiz qlobal iqtisadiyyatın qurulmasında ən önəmli aktor hesab olunur və sosial-iqtisadi sferanın hər bir sektoruna öz təsirini göstərir.

Transmilli şirkətlərin mahiyyəti ilə bağlı müxtəlif təriflər mövcuddur. UNCTAD-ın tərifinə əsasən transmilli şirkətlər elə müəssisələrdir ki, onlar digər iqtisadiyyatlardakı müəssisələrin aktivlərini müəyyən bir kapital payına sahiblik etməklə idarə edirlər. Bu aktivlərə nəzarət etməni şərtləndirən amil isə, yaradılmış müəssisə üzrə aktivlərin və ya səsvermə hüququnun ən azı 10 % hissəsinə bərabər olan səhm kapitalı payına sahib olmaqdır.

Birləşmiş Millətlər öz hesabatında transmilli şirkət terminini aşağıdakı şəkildə açıqlamaqdadır:

*“Transmilli şirkətlər fəaliyyət sahəsi və hüquqi formasından asılı olmayaraq iki və daha artıq ölkənin subyektlərini daxilində cəmləyən, qərarların qəbul edilməsi və davamlı siyasətin aparılmasına icazə verən sistemlə fəaliyyət göstərən müəssisələrdir. Şirkət vahidləri bir-birləri ilə mülkiyyət və ya digər vasitə ilə elə bir bağlılığa sahibdirlər ki, onlardan birinin fəaliyyəti digərlərinin fəaliyyətinə təsir edir və öz aralarında məsuliyyət, təcrübə və bilikərini bölüşdürürlər”*

(https://digitallibrary.un.org/record/204950?ln=zh_CN&v=pdf ).

Transmilli şirkətlərdə kapital əsasən milli xarakter daşısa da, fəaliyyətləri tamamilə beynəlmiləl səviyyədə baş tutur. Beynəlmiləl fəaliyətə sahib olan çoxmillətli şirkətlər də mövcuddur ki, baş şirkətin neçə ölkənin kapitalına sahiblik etməsindən asılı olaraq çoxmillətli şirkət ilə transmilli şirkət arasında fərq mövcuddur. Belə ki, transmilli şirkətlərdə baş şirkət sadəcə bir ölkənin kapitalına əsaslanır. Ölkə sərhədlərindən kənarda isə bir çox filialı fəaliyyət göstərir. Çoxmillətli şirkətlərdə də dünya üzrə fərqli bölgələrə səpələnmiş şəkildə mövcud olan filiallar olsa da, baş şirkət iki və daha artıq ölkənin kapitalına özündə cəmləmiş olur. Bütün bunlara baxmayaraq bir çox hallarda bu beynəlxalq şirkətlər eyni qəbul edilir, yəni transmilli şirkət ilə çoxmillətli şirkət anlayışı bir-birinə sinonim kimi işlədilir. Hətta çoxmillətli şirkət anlayışının transmilli şirkətlərin dağıdıcı xarakterini bir növ yumşaltmaq məqsədilə işlədilməyə başlanıldığına aid hipotezlər də mövcuddur.

Transmilli və çoxmillətli anlayışlarının bir-birləri əvəzinə işlədilməsi ilə yanaşı bəzi hallarda “firma” (firm), “müəssisə” (enterprie), “korporasiya” (corporation) və “şirkət” (company) terminləri eyni tərifə sahib qurumları adlandırmaq üçün istifadə olunur. Yəni bunların hər birinin ifadə etdiyi qurum eynidir (Ietto-Gillies, 2009). Dissertasiya boyunca şirkət termininin daha ümumi məna ifadə

etməsi səbəbilə bu termin əsas tutularaq korporasiya və şirkət terminlərinin əvəzli şəkildə istifadəsi planlaşdırılır. “Transmilli” təyinedicisinin “çoxmillətli”-dən fərqli olaraq bu tipli şirkətlərin bir neçə dövlətdə deyil də, dövlətlər arasında öz fəaliyyətlərini həyata keçirdiyini ifadə etməsi səbəbilə tədqiqat ərzində “transmilli” sifətindən istifadə nəzərdə tutulur.

Transmilli olmanı şərtləndirən əsas amillərdən biri sadəcə milli sərhədlərdən kənarda, xarici ticarətlə məşğul olmaq deyil. Çünki bu tip fəaliyyət ilə məşğul olmaq milli dövlətlərin var olma tarixindən daha əvvələ daynır və günümüzdə xarici ticarətlə məşğul olan hər qurum transmilli olaraq adlandırıla bilmir. Transmilli olaraq fəaliyyət güdmənin ən əsas şərti mənşə ölkənin sərhədlərindən kənarda, ən az bir ölkədə aktivlərə sahib olma şəklində birbaşa biznes və istehsal fəaliyyətinə malik olmaqdır (Ietto-Gillies, 2009). Qeyri-rezident sərmayə sahibi müəssisə üzərində 50 %-dən az paya sahibdirsə bu xarici müəssisə, yəni assosasiyalaşdırılmış şirkət olaraq adlandırılır. Bunun üçün transmilli şirkətin bu şirkət üzərində ən azı 10 %-dən yüksək səhmə sahib olması şərtdir. Pay 50%-i keçdiyi təqdirdə qız və ya digər adı ilə törəmə firmalar yaranmış olur. Xarici filialın yaranma şərti isə müəssisənin tam olaraq sərmayəçiyə məxsus olmasıdır.

**Sxem 1: Transmilli şirkətlərin strukturu**




**Mənbə:** Müəllif tərəfindən hazırlanmışdır

***“Mənşə ölkə”*** deyildikdə transmilli şirkətin qanuni şəkildə qeydiyyatda olduğu və baş ofisinin yerləşdiyi vətəni başa düşülür. Burada bir neçə mənşə ölkəsinin olma ehtimalı da mövcuddur. ***“Ev sahibi ölkə”*** deyildikdə isə birbaşa xarici investisiyaları qəbul edən ölkə nəzərdə tutulur. Ev sahibi ölkəyə yönləndirilən birbaşa xarici investisiyalar aşağıda qeyd olunan üç formada həyata keçirilə bilər:

1. ***Yaşıl sahə investisiyası (Greenfield investment).*** Bu investisiya elədir ki, nəticəsində tamamilə yeni bir törəmə müəssisə yaranır və daha riskli olmasına rəğmən şirkətə yeni resurslar və aktivlərin qazandırılmasında əsas rol oynayır (https://www.imf.org/-/media/Files/Data/Statistics/BPM6/DITT/d1-greenfield-investment-and-extension-of-capacity.ashx).

2. ***Qəhvəyi sahə investisiyası (Brownfield investment).*** İnvestisiyanın bu növündə hər hansı yeni bir müəssisənin yaradılması üçün yüksək və riskli başlanğıc xərclərinin ödənilməsi əvəzinə ev sahibi ölkədə olan hazır müəssisələrin 10 faizindən çoxunun əldə olunması yolu ilə yeni bazarlara çıxış təmin edilir (Ragoussis, 2020).

3. ***Birləşmə və satınalmalar (Merge and acquisitions).*** Konseptual olaraq qəhvəyi sahə investisiyaları və birləşmə və satınalmalar bir-birinə bənzəyirlər. Beləki, bu zaman şirkət ev sahibi ölkədəki qurumu qismən və ya tamamilə ala bilir. Bu zaman alınan qurum öz fəaliyyətini dayandırmış hesab olunmur. Birləşmələr zamanı isə hüquqi formada birləşən qurumlardan bir neçəsi öz mövcudluqlarını sonlandıra bilir (Ragoussis, 2020).

Trasnsmilli şirkətləri inteqrasiya istiqamətlərinə görə aşağıdakı kimi klassifikasiya etmək mümkündür:

1. ***Horizontal İnteqrasiya*** – Bənzər məhsul istehsalına sahib olan digər şirkətlərin əldə edilməsini özündə ethiva edən strategiyadır. Bu növ genişlənmə stratagiyası şirkətlərin satın alınması, birləşdirilməsi və ya ələ keçirilməsi nəticəsində baş tutur. Beləliklə şirkətin müyyən istehsal və satış üzrə bazar payı genişlənir. `

2. ***Vertikal İnteqrasiya*** - `Bazar üzərində gücün artırılması məqsədilə istehsal prosesinin müəyyən mərhələlərindən cavabdeh olan hər bir şirkətin satın alınaraq bütün istehsal prosesinə və satışa nəzarətin əldə olunması vertikal yəni şaquli inteqrasiya olaraq adlandırılır. Nümunə olaraq şirkətin onu xammal ilə təmin edən digər şirkəti öz tərkibinə qatmasını göstərə bilərik. Bunun nəticəsində istehsal və mənfəət üzərində tam nəzarət təmin edilmiş olur. Şaquli inteqrasiya özü də 3 növə ayrılır: *Geriyə Doğru İnteqrasiya* şirkətin istehsal üçün tələb olunan ilkin materialların tədarükçülərini öz tərkibində birləşdirməsi ilə baş verir. Geyim istehsalı ilə məşğul olan şirkətin pambıq istehsalı üzrə fəaliyyət göstərən şirkətə sahib olması geriyə doğru inteqrasiyaya nümunədir. *İrəli Doğru İnteqrasiya* şirkətin istehsaldan sonrakı paylanma və satış mərhələlərini öz nəzarətinə alması prosesidir. *Balans İnteqrasiyası* İrəli İnteqrsaiya və Geriyə Doğru İnteqrsaiyanın hər birini özündə cəmləyir

3. ***Konlomerativ İnteqrasiya*** **–** Bir-birindən fərqli biznes fəaliyyəti güdən şirkətlərin birləşməsi konglomerasiyaları əmələ gətirir. Bu prosesi nə şaquli nə də üfüqi inteqrasiya olaraq adlandıra bilərik.

**Transmilli Şirkətlərin Təkamülü**

Transmilli şirkətlərin yaranma və inkişafı ilə birgə milli iqtisadiyyatlarda fəaliyyət tarixini aşağıdakı ardıcıllıqla sıralamaq mümkündür:

**I. İlkin Dövr (XVII əsrin sonu XIX əsrin əvvəli).** Bu dövr erkən transmilli şirkət olaraq hesab edilən və Britaniya imperializmini Hindistan üzərində yaymaqda çox güclü təsirə malik olan Ost-Hind şirkətinin 1600-cü ildə əsasının qoyulması ilə başlayaraq sənaye inqilabına qədərki müddəti əhatə edir. Ticarət fəaliyyətinin sərhədlərini aşan bu şirkət imperiya qurucusu olaraq tarixə keçdi. Bu dövr ərzində şirkət ədviyyat, çay, ipək və digər məhsulların ticarətini həyata keçirməklə yanaşı Hindistanda ordusunu və donanmasını yaradaraq müharibələr vasitəsilə bölgəni tamamilə nəzarəti altına aldı. Şirkətə verilən səlahiyyətlər o qədər geniş idi ki, ticarətdən boyun qaçıran və xristian olmayan hər kəs ilə şirkət gəmilərinin müharibə etmək səlahiyyəti mövcud idi. Artıq XIX əsrin əvvəllərində Ost-Hind şirkəti Pakistan, Hindistan və Banqladeş ərazilərində siyasi və inzibati hakimiyyəti ələ keçirmişdi. Təsiri altında olan bölgələrdə ciddi müstəmləkə siyasəti yürüdərək qul ticarəti vasitəsilə həm yerliləri, həm də Afrikadan, əsasəndə Mozambik və Madaqaskardan gətirilən qulları öz obyektlərində işlədərək onların əməyindən istifadə edirdi. Şirkət bütün Hindistan üzərində yüksək mənfəətlər əldə edən ticarət həyata keçirməklə yanaşı Britaniyanın daxili və xarici ticarətində də monopoliya təşkil edirdi. Belə ki, 1600-cü illərdən başlayaraq 19-cu əsrin ortalarına qədər Britaniyada içilən hər fincan çayı bu şirkət təmin edirdi. 1874-cü ildə parlament aktı ilə

şirkətin bütün idarəçiliyi Britaniya İmperiyasına təhvil verildi və şirkət ləğv edildi. Beləliklə müstəmləkə Hindistan üzərində birbaşa imperiya idarəçiliyi olaraq Britaniya Racı dövrü başlamış oldu (https://www.parliament.uk/about/living-heritage/evolutionofparliament/legislativescrutiny/parliament-and-empire/parliament-and-the-american-colonies-before-1765/east-india-company-and-raj-1785-1858/). Yekun olaraq Ost-Hind şirkətinin fəaliyyət göstərdiyi dövr Hindistanda dəmiryolları və poçt kimi infrastrukturların yaradılması və Britaniya ilə Hindistan arasında bir sıra mədəni əlaqələrin qurulması kimi müsbət təsirləri ilə yanaşı mənfəət üçün tətbiq edilən müstəmləkə siyasəti, əmək istismarı, qul ticarəti, ağır vergilər, aclıq və ölümlər, həmçinin yerlilər ilə şirkətlər və şirkətlərin öz aralarında baş verən müharibələrlə tarixə keçdi.

**II. Sənaye İnqilabı Dövrü (XIX əsrin sonu XX əsrin əvvəlləri).** Birinci və ikinci sənaye inqilabının baş tutması ilə birlikdə malların istehsalı prosesi asandlaşdı və xaricə ixrac üçün miqdarları artdı. Bu Böyük Britaniya, Almaniya və Fransada şirkətlərin sayının çoxalması üçün stimul rolunu oynadı. İstehsalda və nəqliyyatda yeni texnologiyaların tətbiqi ilə xarici ticarətin, yeni satış bazarlarına çıxma imkanlarının və asılı ölkələrin xammalından istifadə edərək müstəmləkə fəaliyyətlərinin yüksəlişi nəticəsində genişlənməkdə olan kapitalist iqtisadiyyatda transmilli şirkətlər ən böyük rolu oynayırdı. (Zorska, 2012) Müasir transmilli şirkətlərin yaranması və yüksəlişi bu mərhələdə baş verib. İlkin şirkətlər əsasən neft və digər xammal materiallarının daşınması üçün dəmiryollarının tikilməsi ilə məşğul olaraq nəqliyyat sahəsində cəmləşmişdilər. Qısa bir müddət sonra neft-qaz və elektrik, yəni enerji və müxtəlif istehsalat sahələrində fəaliyyət göstərməyə başladılar (Green, 2016).

**III. Müharibələr Arası Dövr (XX əsrin əvvəlləri – 1945).** Bu dövr birinci və ikinci dünya müharibələri arası müddətdə milliyətçi cərəyanların və milli dövlətlərin yüksəlişə keçməsi, beynəlxalq sərmayeyə qarşı mövqenin tutulması, iqtisadi əlaqələrin və ticarətin müəyyən şəkildə sərhədləndirilməsi və neomerkantlist axının güclənməsi ilə özünü təcəssüm etdirir. Birinci Dünya Müharibəsi sonrası qlobal arenada hakim olan iqtisadi və siyasi gərginliklər, 1917-ci il Rus inqilabı və ən əsas da Almaniyada hakimiyyətə keçmiş Nasional Sosialistlərin şirkətləri milliləşdirmə siyasətləri və beynəlxalq sərmayeyə qarşı mənfi mövqe sərgiləmələri beynəlxalq sərmaye axışının ləngiməsi ilə nəticələndi. Neomerkantlistlər beynəlxalq sərmaye və transmilli şirkətlərə qarşı milli dövlətlərin və milli iqtisadiyyatların gücünün önəmini vurğulayırdılar. Neomerkantilism merkantlismin qoruyucu prinsiplərini saxlayaraq əsasən Böyük Depressiya nəticəsində meydana çıxan ticari problemlərin və borclanmaların həllini ölkələr arası ticarətin malları dəyişdirmə və kliring vasitəsilə həyata keçirilməsində görürdülər.

**IV. Modern Dövr (1945 – 1990).** İkinci dünya müharibəsinin bitməsi ilə birlikdə dünya qloballaşmanın yeni mərhələsinə qədəm qoydu. Müharibə sonrası iqtisadi bum ilə kapitalizm öz qızıl dövrünü yaşamağa başladı. Müharibədən sonrakı illər transmilli şirkətlərin inkişafı üçün geniş həcmli fürsətlər yaratdı. 1970-ci illərdən etibarən inkişaf etməkdə olan ölkə iqtisadiyyatlarına yüksək həcmli kapital axınları baş verdi. İnkişaf etməkdə oan ölkələrin hökümətləri dətərəfindən investisiyaları cəlb etmək üçün bəzi yumşaltma siyasətləri tətbiq edilməyə başlanıldı. 1980-ci illərdə kapital axınlarının tərkibini özündən əvvəlki on illikdən fərqli olaraq bank kreditləşməsi əvəzinə birbaşa xarici investisiyalar və portfel investisiyalar təşkil etməyə başladı. Kapital axınının böyük hissəsi birbaşa xarici investisiyalardan ibarət idi və əsasən Asiya və Latın Amerikasına yönəlmişdi. Xalis özəl kapital axınlarının tərkibində bank kreditləşməsinin payı 1970-ci illərdə təxminən 70 % olmasına rəğmən 1990-cı illərdə 20 %-ə qədər enmişdir. Bu dövrlər ərzində qloballaşma və beynəlxalq sərmayenin hegemonluğu ilə birlikdə milli dövlətlərin və

iqtisadiyyatların asılılıqları daha da artmışdır.

**V. Postmodern Dövr (1990 – Günümüz).** Sovet ittifaqının parçalanmasından başlayaraq günümüz də daxil olmaqla beynəlxalq sərmaye fəaliyyətləri ən pik həddə çatmışdır. 1990-cı illərdən başlayaraq inkişaf etməkdə olan ölkələrə yatırılan birbaşa xarici investisiyaların dinamikasında davamlı artım müşahidə olunur. Lakin regional və qlobal ticarət sazişləri və ikitərəfli investisiya müqavilələri milli dövlətlərin transmilli şirkətlərin fəaliyyətlərini tənzimləmə səlahiyyətlərini olduqca məhdudlaşdırır. Modern dövrdən fərqli olaraq artıq nəhəng şirkətlər yüksək fərqlə sadəcə qərbə məxsus deyillər. Rusiya, Çin, Braziliya, Hindistan kimi ölkələr, yəni BRİCS ölkələri də birbaşa xarici valyutanın mənşə ölkəsi olaraq bir çox transmilli şirkətlərə ev sahibliyi edirlər. Çin şirkətlər vasitəsilə Afrika üzərində hasilat sənayesinə yüksək həcmli sərmayelər qoymaqla yanaşı bir çox infrasturktur layihələrini də həyata keçirir. Hansı ki bu layihələri ABŞ və Avropa şirkətləri olduqca riskli hesab edirlər. Bununla yanaşı 2014-cü ildə Meksika, Çin, Hindistan, Rusiya və Braziliya inkişaf etməkdə olan ölkələrə yönləndirilən birbaşa xarici investisiyaların 52 %-ni qəbul edib (Green, 2016).

2014-cü il məlumatları göstərir ki, birbaşa xarici investisiyaların əsas hissəsi (63 %), xidmət sektoruna yönəldilmişdir. İstehsal və neft-mədən sənayesinin payı isə sırasıyla 26 % və 10 % təşkil etmişdir (Green, 2016). Həmin il qlobal birbaşa xarici investisiya həcmi 1.4 trilion ABŞ dolları təşkil etmişdir. Covid-19 pandemiyası nəticəsində qlobal birbaşa xarici investisiya axınında kəskin azalma müşahidə olunmuş, lakin növbəti iki ildə artım baş vermişdir. 2022-ci ildə qlobal birbaşa xarici investisiya həcmi 1.3 trilion ABŞ dolları bərabər idi. (https://unctad.org/data-visualization/global-foreign-direct-investment-flows-over-last-30-years ) İllər keçdikcə transmilli şirkətlərin sayında da artım müşahidə olunur. Beləki, 2015-ci ildə dünyada təxminən 82,000 transmilli şirkət fəaliyyət göstəirdisə, 2022-ci ildə bu rəqəm 100.000-dən çox olmuşdur. Bu trasnmilli şirkətlərin böyük hissəsi ABŞ, Aİ ölkələri, Çin, Yaponiya və Cənubi Koreyaya Məxsusdur. Qlobal ticarətin təxminən 70-80 %-i bu şirkətlər tərəfindən həyata keçirilməkdədir.

## Nəticə

Transmilli şirkətlərdə kapital əsasən milli xarakter daşısa da, fəaliyyətləri tamamilə beynəlmiləl səviyyədə baş tutur. Bu şirkətlər tərəfindən ev sahibi ölkəyə yönləndirilən birbaşa xarici investisiyalar 3 formada: Yaşıl Sahə İnvestisiyası (Greenfield İnvestment), Qəhvəyi Sahə İnvestisiyası (Brownfield İnvestment), Birləşmə və Satınalmalar (Merge and Acquisitions) formasında həyata keçirilir. İnteqrasiya istiqamətlərinə görə isə Horizontal İnteqrasiya, Vertikal İnteqrasiya, Konlomerativ İnteqrasiya şəklində klassifikasiya oluna bilər. Yaranma və inkişafını isə təsir dairəsinin genişlənməsinə əsasən 5 tarixi mərhələyə bölmək mümkündür. Modern Dövr ilk transmilli olaraq sayılan şirkətlərin yaranması və milli sərhədlərdən kənarda müstəmləkə fəaliyyətləri ilə səciyyələnir. Sənaye İnqilabı Dövründə istehsalda və nəqliyyatda yeni texnologiyaların tətbiqi ilə şirkətlərin fəaliyyətləri və sayı genişləndi. Müharibələr Arası Dövr millətçi hərəkatların genişlənməsi və bir sıra digər səbəblərdən şirkətlərin fəaliyyətlərində qismən daralmalar müşahidə olundu. Modern Və Postmodern Dövrlərdə müasir Transmilli Şirkətlərin geniş miqyaslı investisiya əməliyyatları və milli iqtisadiyyatlara siyasi, iqtisadi, sosioloji və ekoloji aspektlərdən ciddi təsirləri ilə səciyyələnir.

**Ədəbiyyat:**

Zorska, A. (2012). Activity of transnational corporations as a driver of changes in the world economy. *The Turning Point of World History*

Commission on Transnational Corporations, Report on the Special Session (7-18 March and 9-21 May 1983) Official Records of the Economic and Social Council, 1983, Supplement No. 7 (E/1983/17/Rev. 1), https://digitallibrary.un.org/record/204950?ln=zh_CN&v=pdf

Grazia Ietto-Gillies. *Transnational corporations and the globalization process. Globalization and Security*. An Encyclopedia, edited by G. Honor Fagan and Ronaldo Munck, 2009, Santa Barbara, California; Denver, Colorado and Oxford, England: Praeger Security International, ABC CLIO; vol 1, ch 22, pp. 410-28. https://www.amazon.com/Globalization-Security-volumes-Encyclopedia-International/dp/0275996921

Green Duncan, 'Transnational Corporations as Drivers and Targets of Change', *How Change Happens* (Oxford, 2016; online edn, Oxford Academic,20 Oct. 2016),

Ragoussis, A. (2020). *How Beneficial Are Foreign Acquisitions of Firms in Developing Countries? Evidence from Six Countries*. Washington, DC: World Bank.

https://www.parliament.uk/about/living-heritage/evolutionofparliament/legislativescrutiny/parliament-and-empire/parliament-and-the-american-colonies-before-1765/east-india-company-and-raj-1785-1858/

https://www.imf.org/-/media/Files/Data/Statistics/BPM6/DITT/d1-greenfield-investment-and-extension-of-capacity.ashx

https://unctad.org/data-visualization/global-foreign-direct-investment-flows-over-last-30-years

**GREEN WORLD POLICY IN INTERNATIONAL BUSINESS REGULATIONROLE**

**Aliyev Murad Shahrza**

**Azerbaijan Cooperation University**

**https://orcid.org/0009-0008-3162 -6985**

**muradali99@bk.ru**

**Rəyçi:**

**Hüseynov Qalib Sirac oğlu,**

**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The policy of a green world is playing an increasingly important role in regulating international business. Since issues such as climate change, depletion of natural resources and environmental pollution are in the spotlight of the whole world, States and international organizations are implementing green policies to ensure sustainable development and environmental protection. This policy also creates a new structure and regulatory standards for international business. Environmental laws and regulations Many countries adopt laws and regulations regarding emission limits, waste management, and energy use. These rules force international companies to adapt their activities to green standards. The requirements of sustainable development, as well as transparency and compliance with green policies, include reporting on transparency and sustainable development. Companies submit sustainability reports to show how committed they are to protecting the environment. Promotion of "green" technologies many countries, especially developed ones, support the development of clean technologies and alternative energy sources. This encourages the use of green technologies in international business and creates a competitive advantage. Companies operating internationally are strengthening their market positions by adapting to the "green world".

**Keywords:** green world, green technologies, international business, global trade

# РОЛЬ ЗЕЛЕНОЙ ГЛОБАЛЬНОЙ ПОЛИТИКИ В РЕГУЛИРОВАНИИ МЕЖДУНАРОДНОГО БИЗНЕСА

**Алиев Мурад Шахрза**

**Азербайджанский университет сотрудничества**

**https://orcid.org/0009-0008-3162-6985**

**muradalyv99@gmail.com**

**Резюме**

Политика зеленого мира играет все более важную роль в регулировании международного бизнеса. Поскольку такие проблемы, как изменение климата, истощение природных ресурсов и загрязнение окружающей среды, находятся в центре внимания всего мира, государства и международные организации реализуют зеленую политику для обеспечения устойчивого развития и защиты окружающей среды. Эта политика также создает новую структуру и нормативные стандарты для международного бизнеса. Экологические законы и правила Многие страны принимают законы и правила, касающиеся ограничений выбросов, управления отходами и использования энергии. Эти правила вынуждают международные компании адаптировать свою деятельность к зеленым стандартам. Требования устойчивого развития, а также прозрачность и соблюдение зеленой политики включают отчетность о прозрачности и устойчивом развитии. Компании представляют отчеты об устойчивом развитии, чтобы показать, насколько они привержены защите окружающей среды. Продвижение «зеленых» технологий многие страны, особенно развитые, поддерживают развитие чистых технологий и альтернативных источников энергии. Это стимулирует использование зеленых технологий в международном бизнесе и создает конкурентное преимущество. Компании, работающие на международном уровне, укрепляют свои позиции на рынке, адаптируясь к «зеленому миру».

**Ключевые слова:** зеленый мир, зеленые технологии, международный бизнес, глобальная торговля.

# BEYNƏLXALQ BİZNESİN TƏNZİMLƏNMƏSİNDƏ YAŞIL DÜNYA SİYASƏTİNİN ROLU

**Əliyev Murad Şahrza**

**Azərbaycan Kooperasiya Universiteti**

**https://orcid.org/009-0008-3162 -6985**

**muradali99@bk.ru**

Yaşıl dünya siyasəti beynəlxalq biznesin tənzimlənməsinə təsir etməklə yanaşı, bizneslərin davamlı inkişaf strategiyalarını formalaşdırır. Bu tendensiyalar yalnız ekoloji problemlərin həlli üçün deyil, eyni zamanda, qlobal bazarda rəqabət üstünlüyü əldə etmək üçün də mühüm əhəmiyyət kəsb edir.( Allahverdiyeva M.2022 ), ( ƏliyevA., 2022 ), (Lamben J., 2014 (Qasımlı V. 2022) , ( Quliyev M.2022 ) və digər alimlər yaşıl dünya siyasətinin əsas kompanentlərini araşdıraraq qlobal ticarət sazişlərində yaşıl tələblərin qoyulasını araşdırmışlar.

Yaşıl dünya siyasətinin mahiyyəti ətraf mühitin qorunması, təbii ehtiyatların səmərəli istifadəsi və davamlı inkişafı təmin etmək üçün qlobal səviyyədə tədbirlər görməkdir. Bu siyasətin əsas məqsədləri iqlim dəyişikliyi ilə mübarizə aparmaq, ekosistemləri qorumaq, ətraf mühitə olan mənfi təsirləri minimuma endirmək və sosial-iqtisadi inkişafı ətraf mühitə zərər vermədən dəstəkləməkdir. Ticarət maneələri və ekoloji standartlar qlobal ticarət sazişlərində yaşıl tələblər, ekoloji standartlara cavab verməyən məhsulların bazara girişini məhdudlaşdırır. Bu da şirkətləri daha davamlı və ekoloji cəhətdən uyğun məhsullar istehsal etməyə həvəsləndirir. İctimai nüfuz və şirkət imajı sahəsində istehlakçılar arasında ekoloji məsələlərə həssaslıq artdığı üçün, yaşıl siyasətlərə uyğun fəaliyyət göstərən şirkətlər daha müsbət imic qazanır. Yaşıl dünya siyasətinin əsas komponentləri bunlardır:

1. İqlim Dəyişikliyi ilə Mübarizə: Kükürd qazı emissiyalarının azaldılması, bərpa olunan enerji mənbələrinin istifadəsi və karbon neytrallığına nail olmaq əsas hədəflərdir. Bu siyasət Birləşmiş Millətlər Təşkilatının (BMT) Paris İqlim Sazişi kimi beynəlxalq razılaşmalarla dəstəklənir.

2. Davamlı İstehsal və İstehlak: Resursların səmərəli istifadəsini, tullantıların azaldılmasını və təkrar emal sistemlərini təşviq edir. Bu, məhsulun həyat dövrünü artırmaq və davamlı iqtisadiyyat qurmaq üçün vacibdir.

3. Biomüxtəlifliyin Qorunması: Ekosistemlərin və biomüxtəlifliyin qorunması, meşələrin məhv edilməsinin qarşısını almaq, heyvan və bitki növlərinin qorunması yaşıl siyasətin əsas məqsədlərindən biridir.

4. Davamlı Kənd Təsərrüfatı və Su İdarəetməsi: Su və torpaq ehtiyatlarının səmərəli istifadəsi, pestisid və kimyəvi maddələrdən istifadənin minimuma endirilməsi və kənd təsərrüfatının davamlı üsullarla aparılması nəzərdə tutulur.

5. Yaşıl Texnologiyaların İnkişafı: Yaşıl dünya siyasəti, ekoloji baxımdan təmiz texnologiyaların inkişafına dəstək verir. Bura elektrikli nəqliyyat vasitələri, bərpa olunan enerji texnologiyaları və tullantıların təkrar emalı üzrə yeniliklər daxildir.

**Yaşıl dünya siyasəti: əsas komponentlər , davamlı inkişaf strategiyaları**

Ümumilikdə, yaşıl dünya siyasəti həm dövlətlərə, həm də fərdi şəxslərə ətraf mühitə daha çox

hörmətlə yanaşmağı və gələcək nəsillər üçün sağlam planet qorumağı təşviq edir. Bu, ekoloji, sosial və iqtisadi maraqları birləşdirən və daha davamlı gələcək üçün fəaliyyətləri istiqamətləndirən bir yanaşmadır. (Bugden, K., Botten, C., Staheli, J., Cross, S., & Highmore, 2013), (S. Brain N., Nguyen L. 2019) və diər alimlər tərəfindən beynəlxalq bizneslə yaşıl dünya problemlərinin tənzimlənməsi məsələləri araşdırılmışdır.

1. Paris İqlim Sazişi- Bu, BMT-nin İqlim dəyişikliyi üzrə Çərçivə Konvensiyasına (UNFCCC) əsaslanır və iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün qlobal səviyyədə qəbul edilən əsas sənədlərdən biridir.

2. Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Məqsədləri – 2015-ci ildə BMT tərəfindən qəbul edilən bu məqsədlər, davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması və sosial rifahın yüksəldilməsi ilə əlaqədardır.

3. Avropa İttifaqının Yaşıl Razılaşması – Avropa İttifaqı tərəfindən 2019-cu ildə qəbul edilən bu proqram, 2050-ci ilədək Avropanın karbon emissiyasının neytral olmasına nail olmağı hədəfləyir və bu yaşıl iqtisadi keçid üçün əhəmiyyətlidir.

4. İqlim və Ətraf Mühit Üzrə Hökumətlərarası Panel (IPCC) Hesabatları – IPCC hesabatları iqlim dəyişikliyinin təsirlərini və qarşısını almaq üçün tədbirləri ətraflı şəkildə əhatə edir və elmi təməllərə əsaslanır.

5. Dünya Vəhşi Təbiət Fondu (WWF) və Biomüxtəlifliyin Qorunması Təşəbbüsləri – Bu və digər ekoloji təşkilatlar biomüxtəlifliyin qorunması və ekosistemlərin davamlılığı üçün müvafiq proqramlar həyata keçirirlər.

**Yaşıl dünya siasəti : tənzimləyici qurumlar**

Beynəlxalq ticarət və yaşıl dünya siyasəti arasında güclü əlaqə var. Yaşıl dünya siyasəti, ətraf mühitin qorunması, iqlim dəyişikliyi ilə mübarizə və davamlı inkişaf məqsədlərinə əsaslanır. Beynəlxalq ticarət isə bu siyasətin həyata keçirilməsində həm imkanlar, həm də çətinliklər yaradır. (Hümbətova S.,2024), (Gabriel R.,Benito G.,2024), (Mehdiyeva G.,2019) və bir cox alimlər beynəlxalq ticarət və yaşıl dünya siyasəti arasında güclü əlaqə olduğunu üəyyən etmiş və beynəlxalq ticarətlə yaşıl dünya siyasəti arasında əlaqəni aşağıdakı məqamlarla izah etmişlər:

1. Ətraf mühit standartları və ticarət: Yaşıl dünya siyasəti çərçivəsində qəbul edilən ətraf mühit standartları beynəlxalq ticarətə təsir göstərir. Məsələn, ixrac məhsullarına daha yüksək ekoloji standartlar tətbiq edildikcə, ölkələr bu standartlara uyğun istehsal etmək məcburiyyətində qalır.

2. Karbon emissiyası və ticarət tədbirləri: Beynəlxalq ticarət karbon izinin artırılmasına səbəb ola bilər, çünki məhsulların istehsalı və nəqliyyatında enerji sərf olunur. Buna görə də, karbon vergiləri və karbon tarifləri kimi tədbirlər, yaşıl dünya siyasətinin tərkib hissəsi olaraq tətbiq edilir.

3. Davamlı istehsal və istehlak: Beynəlxalq ticarət, davamlı istehsal və istehlak üçün imkanlar yaradır. Bəzi ölkələr davamlı enerji texnologiyaları ixrac edir və digər ölkələr isə bu texnologiyalara olan tələbatı artırır. Bu da yaşıl iqtisadiyyata keçidi dəstəkləyir.(V.Qasımlı,2022,s,95)

4. Resurs səmərəliliyi və dövrü iqtisadiyyat: Yaşıl dünya siyasətinin əsas məqsədlərindən biri resurs səmərəliliyini artırmaq və tullantıları azaltmaqdır. Beynəlxalq ticarət dövrü iqtisadiyyatın tətbiqinə dəstək verə bilər, məsələn, ölkələr təkrar emal texnologiyaları və yenilənə bilən resurslara əsaslanan məhsullar mübadiləsi edirlər.

Bu səbəblərə görə beynəlxalq ticarət və yaşıl dünya siyasəti bir-birini tamamlayan sahələrdir.

Beynəlxalq biznes bəzən yaşıl dünya üçün problemlər yarada bilər, çünki onun bəzi fəaliyyətləri ətraf mühitə mənfi təsir göstərir. Burada əsas problemlərdən bir neçəsi:

1. Karbon emissiyası və iqlim dəyişikliyi: Qlobal miqyasda məhsul istehsalı və daşınması çoxlu karbon emissiyasına səbəb olur. Xüsusilə, beynəlxalq nəqliyyat -gəmiçilik, hava yolları- karbon qazı yayır və bu, iqlim dəyişikliyini sürətləndirir. 2. Resurs İstismarı: Beynəlxalq biznes üçün lazım olan xammal, xüsusilə də metallər, minerallar və fosil yanacaqlar, təbii ehtiyatların sürətlə tükənməsinə və ekosistemlərin zədələnməsinə səbəb ola bilər.

3. Plastik tullantı problemi: Qlobal miqyasda istehlak mallarının geniş yayılması nəticəsində plastik tullantılar artır. Bu tullantılar çox vaxt düzgün idarə olunmur və dənizlərə, torpağa qarışaraq ekosistemləri zədələyir.

4. Meşələrin qırılması və ekosistemlərin zədələnməsi: Genişmiqyaslı kənd təsərrüfatı və mal-qara istehsalı üçün meşələrin qırılması beynəlxalq bizneslərin təsir etdiyi başqa bir sahədir. Meşələrin azalması nəticəsində bioloji müxtəliflik zədələnir və atmosferə karbonun yayılması artır. https://www.imf.org/ru/Publications/fandd/issues/2023/06/green-trade-tensions-kaufman-saha-bataille

Su istismarı: Beynəlxalq miqyasda fəaliyyət göstərən bəzi sənayelər su ehtiyatlarını həddindən artıq istifadə edir, xüsusilə su azlığı yaşayan bölgələrdə bu böyük problem yaradır.

Bu problemlər səbəbindən bir çox beynəlxalq şirkətlər, hökumətlər və təşkilatlar davamlı və ekoloji cəhətdən daha az ziyan vuran biznes modellərinə keçməyə çalışırlar. Yaşıl biznes layihələri, təmiz enerji texnologiyaları və resursların səmərəli istifadəsi kimi yanaşmalar bu problemlərin azaldılmasına kömək edir.

Bir necə beynəlxalq biznesin yaşıl dünya üçün yaratdığı problemlərə dair praktiki misallar göstərək:

1. Amazon yağış meşələrinin kəsilməsi: Qlobal miqyasda ət və soya tələbi, xüsusilə də mal əti və yemlik soya istehsalı üçün Amazon yağış meşələrinin qırılmasına səbəb olur. Şirkətlər yeni kənd təsərrüfatı sahələri açmaq üçün meşələri qırır ki, bu da atmosferdə karbon səviyyəsinin artmasına və bioloji müxtəlifliyin itirilməsinə gətirib çıxarır.

2. Plastik tullantı problemi - Coca-Cola Şirkəti: Coca-Cola kimi böyük içki şirkətləri məhsullarını plastik butulkalarda istehsal edir və qlobal miqyasda geniş yayır. Bu butulkalar çox vaxt lazımi qaydada təkrar emal olunmur və dənizlərə, çaylara atılaraq ekosistemləri zədələyir. Bu tullantılar dəniz canlılarına və qida zəncirinə mənfi təsir göstərir. www.thegef.org

3. Moda sənayesi və tez dəyişən moda (fast fashion): H&M və Zara kimi moda markaları "tez dəyişən moda" yanaşması ilə geyimləri çox sürətlə və ucuz istehsal edir. Bu da daha çox resurs istifadəsi, suyun və kimyəvi maddələrin həddindən artıq istifadəsi, eyni zamanda tekstil tullantılarının artmasına səbəb olur. Tekstil tullantılarının əksəriyyəti təkrar emal olunmur və zibilliklərdə toplanır.

4. Apple və elektronika istehsalı: Apple və digər texnologiya şirkətləri istehsal proseslərində nadir metallardan istifadə edir. Bu metalları çıxarmaq üçün çox enerji sərf olunur və böyük miqdarda tullantı yaranır. Bundan başqa, elektron cihazların qısa ömürlü olması nəticəsində çoxlu elektron tullantılar əmələ gəlir, bu isə təhlükəli kimyəvi maddələrin torpağa və suya qarışmasına gətirib çıxarır.

5. Palm yağı istehsalı: Bir çox qida və kosmetika şirkətləri palma yağından istifadə edir. Palma yağı istehsalı üçün tropik meşələrin qırılması ciddi bir problemdir. Bu, həm də heyvan növlərinin yox olması və atmosferə daha çox karbon yayılması ilə nəticələnir. https://greencommunities.com/

Bu kimi praktiki misallar beynəlxalq bizneslərin ətraf mühitə təsirini göstərir və eyni zamanda onların ekoloji zərərləri azaltmaq üçün daha davamlı metodlara keçməsinin vacibliyini vurğulayır.

"Yaşıl Dünya" konsepsiyası COP29 kimi beynəlxalq konfransların məqsədləri ilə sıx uyğunlaşdırılıb, burada müxtəlif qlobal təşəbbüslər davamlı iqtisadi artımı dəstəkləyərkən iqlim problemlərini həll etməyə yönəlib. COP29-da əsas xüsusiyyət iqlimə davamlılıq və yaşıl texnologiya üçün həllərin işlənib hazırlanmasında özəl sektorların, qeyri-hökumət təşkilatlarının və ictimaiyyətin iştirakını təşviq edən inklüziv məkan olan "Yaşıl Zona"dır. Bu, bərpa olunan enerji, davamlı maliyyə və digər iqlim-pozitiv tədbirlərdə innovasiyaları nümayiş etdirməklə biznesləri yaşıl məqsədlərlə uyğunlaşdırır.

Bundan əlavə, Dünya İqlimə Təsir Mərkəzi kimi forumlar vasitəsilə COP29 davamlı iqtisadiyyatları dəstəkləyən və biomüxtəlifliyi qoruyan layihələri maliyyələşdirmək üçün nüfuzlu maraqlı tərəfləri bir araya gətirərək investisiya axınlarına və təbiətə əsaslanan həllərə müraciət edir. Bu kollektiv fəaliyyət “Yaşıl Dünya” konsepsiyasının biznes və ətraf mühit məqsədlərini uyğunlaşdırmaq üçün birgə beynəlxalq səylər vasitəsilə praktiki olaraq necə tətbiq oluna biləcəyini göstərir.

**Yaşıl dünya siyasəti və beynəlxalq biznes: problemlər, əlaqəli proseslər, COD 29**

**Nəticə.**Yaşıl dünya siyasətinin beynəlxalq biznesə təsirləri aşağıakılarla üəyyən edilir

-ətraf mühit qanunları və tənzimləmələri: Bir çox ölkə emissiya hədləri, tullantıların idarə olunması və enerji istifadəsi ilə bağlı qanun və qaydalar qəbul edir. Bu tənzimləmələr beynəlxalq şirkətlərin əməliyyatlarını yaşıl standartlara uyğunlaşdırmağa məcbur edir.

-davamlılıq tələbləri və şəffaflıq: Yaşıl siyasətlərə riayət edilməsi şəffaflıq və davamlılıq hesabatlarını əhatə edir. Şirkətlər ətraf mühitin qorunmasına dair nə qədər ciddi öhdəlik götürdüklərini göstərmək üçün davamlılıq hesabatları təqdim edir.

- yaşıl texnologiyaların təşviqi: Bir çox ölkə, xüsusilə də inkişaf etmiş iqtisadiyyatlar, təmiz texnologiyaların və alternativ enerji mənbələrinin inkişafını dəstəkləyir. Bu isə beynəlxalq biznesdə yaşıl texnologiyalardan istifadəni stimullaşdırır və rəqabət üstünlüyü yaradır.

- ticarət maneələri və ekoloji standartlar: Qlobal ticarət sazişlərində yaşıl tələblər, ekoloji standartlara cavab verməyən məhsulların bazara girişini məhdudlaşdırır. Bu da şirkətləri daha davamlı və ekoloji cəhətdən uyğun məhsullar istehsal etməyə həvəsləndirir.

- ictimai nüfuz və şirkət imajı: İstehlakçılar arasında ekoloji məsələlərə həssaslıq artdığı üçün, yaşıl siyasətlərə uyğun fəaliyyət göstərən şirkətlər daha müsbət imic qazanır. Beynəlxalq səviyyədə fəaliyyət göstərən şirkətlər isə yaşıl dünyaya uyğunlaşaraq bazardakı mövqelərini gücləndirirlər.

Yaşıl dünya siyasəti beynəlxalq biznesin tənzimlənməsinə təsir etməklə yanaşı, bizneslərin davamlı inkişaf strategiyalarını formalaşdırır. Bu tendensiyalar yalnız ekoloji problemlərin həlli üçün deyil, eyni zamanda, qlobal bazarda rəqabət üstünlüyü əldə etmək üçün də mühüm əhəmiyyət kəsb edir.

**References:**


Azərbaycanda "Yaşıl investisiyalar"ın və maliyyələşmənin artırılması. EaP GREEN. https://www.green-economieseap.org/resources/Azerbaijan_Scaling%20up%20Finance_AZERI%20VERSION_Reduced.pdf 244

Allahverdiyeva, M.A. (2016) Transmilli biznesin tənzimlənməsi problemləri: nəzəriyyə və praktika, Monoqrafiya,–Bakı, -363 s.

Allahverdiyeva , M.A. (2022) Transmilli biznesin iqtisadi və hüquqi tənzimlənməsi, Monoqrafiya,-Bakı, -320 s.

Abbaszadə, F. Yaşıl iqtisadiyyat perspektivləri:struktur yanaşmalarıvə iqtisadi islahatlar,Elmi analitik jurnal №3(8) s.25

Əliyev, A. (2022, 25 noyabr) "Yaşıl iqtisadiyyat"- davamlı yaşıl inkişafın elmi əsası. Xalq qəzeti,- -s.5

Qasımlı, V. və b. (2022)Yaşıl iqtisadiyyat , Bakı, - 215 s.

Quliyev, M. (2022) Beynəlxalq istehsal sistemlərinin transformasiyası və müasir sənaye siyasəti modelləri. Monoqrafiya, -Bakı, -s.71

Lamben, J. (2015) Menecment orientirovannıy na rınok, -Piter, -s.58

Mehdiyeva, G. (2019) İqlim dəyişmələrinin qlobal sənaye siyasətinə təsirinin ümumi tendensiyası. AMEA-nın xəbərləri. -s.28

Gabriel, R., Benito, G. (2024) İndustrial policy,Green challenges,and international business,Jurnalof international business stadies. https://doi/org/101057/34121797-024-007

Hümbətova, S. (2024) Yaşıl iqtisadiyyatın modelləşməsi, Dissertasiya, Bakı, -s.81

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi veb saytı. www.eco.gov.az

https://www.imf.org/ru/Publications/fandd/issues/2023/06/green-trade-tensions-kaufman-saha-bataille

www.economy.gov.az

https://ereforms.gov.az

https://www.unescap.org

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası https://unfccc.int/

Beynəlxalq Ticarət Mərkəzi www.intracen.org

Dünya İqtisadi Forumu www.weforum.org

Green communities https://greencommunities.com/

Qlobal Ətraf Mühit Fondu www.thegef.org

# AZƏRBAYCANDA ALTERNATİV ENERJİ SEKTORUNUN POTENSİALININ STRUKTUR TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**Vəliyev Orxan Mübariz**

**UNEC**

**https://orcid.org/0009-0004-9323-0143**

**valiyev.orkhan@unec.edu.az**

**Rəyçi:**
**Rüstəmov İlham Şamil oğlu,**
**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

**Xülasə**

Bu araşdırmada Azərbaycanın alternativ enerji bazarının böyüməsi və davamlılığı məsələləri nəzər alınmaqla strukturlaşdırılmış təhlil aparılmışdır. Dünyada enerji ehtiyacları bərpa olunan enerji mənbələrinə doğru dəyişdiyindən, enerji istehsalında tarixən üzvi mənşəli yanacaqlardan istifadə olan bir ölkə olan Azərbaycan da öz növbəsində alternativ enerji mənbələri istifadə etmək üçün tədbirlər həyata keçirir. Tədqiqat işində infrastruktur, tənzimləmə və investisiyaları mövzuları araşdırılaraq günəş, külək, su bioenerji və geotermal enerjisi olmaqla alternativ enerji layihələrinin vəziyyətini təhlil edilmişdir. Həm keyfiyyət, həm də kəmiyyət yanaşmalarından istifadə edərək, hesabat texnologiya, maliyyə və ictimaiyyətin məlumatlandırılması baxımından sektorun çətinliklərini və imkanlarını müəyyən edilir. Tədqiqat işi həmçinin hökumət siyasətinin və beynəlxalq əməkdaşlığın alternativ enerjinin inkişafı üçün necə şərait yaratdığını vurğulayır. Nəticələr ondan ibarətdir ki, Azərbaycan strateji investisiyalar və daha yaxşı siyasətlərlə həm enerji təhlükəsizliyi, həm də davamlılıq naminə öz alternativ enerji potensialını əhəmiyyətli dərəcədə artıra bilər. İşin əhəmiyyəti təkcə sektorun vəziyyətinin təhlili ilə yekunlaşmır, həm də Azərbaycanın davamlı enerji gələcəyinə doğru regional aparıcı qüvvə kimi mövqe tutması üçün alternativ enerjidən istifadə ilə bağlı maraqlı tərəflərə təkliflər sürür.

**Açar sözlər:** struktur təhlili, alternativ enerji, davamlı inkişaf, potensialın qiymətləndirilməsi

# СТРУКТУРНЫЙ АНАЛИЗ И ОЦЕНКА ПОТЕНЦИАЛА АЛЬТЕРНАТИВНОЙ ЭНЕРГЕТИКИ В АЗЕРБАЙДЖАНЕ

**Валиев Орхан Мубариз**

**UNEC**

**https://orcid.org/0009-0004-9323-0143**

**valiyev.orkhan@unec.edu.az**

**Резюме**

Это структурированный анализ азербайджанского рынка альтернативной энергии с точки зрения роста и устойчивости. В то время как энергетические потребности во всем мире смещаются в сторону возобновляемых источников энергии, страна с исторической зависимостью от ископаемого топлива, Азербайджан, имеет уникальные возможности для добавления новых источников энергии. Исследование анализирует состояние проектов альтернативной энергии, начиная от солнечной, ветровой и гидроэнергетики, путем изучения инфраструктуры, регулирования и инвестиций. Используя как качественные, так и количественные подходы, отчет указывает на проблемы и возможности сектора с точки зрения технологий, финансирования и осведомленности общественности. В нем также подчеркивается, как государственная политика и международное сотрудничество создают условия для роста альтернативной энергии. Выводы заключаются в том, что с помощью стратегических инвестиций и лучших политических мер Азербайджан может значительно увеличить свой потенциал альтернативной энергии в интересах как энергетической безопасности, так и устойчивости. Это не только анализ состояния сектора, но и предложения заинтересованным сторонам по использованию альтернативной энергии, чтобы позиционировать Азербайджан как регионального пионера на пути к устойчивому энергетическому будущему.

**Ключевые слова:** структурный анализ, альтернативная энергетика, устойчивое развитие, оценка потенциала.

# STRUCTURAL ANALYSIS AND EVALUATION OF THE POTENTIAL OF THE ALTERNATIVE ENERGY SECTOR IN AZERBAIJAN

**Valiyev Orkhan Mubariz**

**UNEC**

**https://orcid.org/0009-0004-9323-0143**

**valiyev.orkhan@unec.edu.az**

## Introduction

Azerbaijan is an oil-based country that's realizing it must diversify its energy mix in order to maintain energy security, mitigate environmental degradation, and meet international climate targets. The analysis presented in this paper is a comprehensive overview of Azerbaijan's alternative energy industry including its law, policy incentives, environmental impacts and potential economic benefits of renewable energy. It identifies barriers to expansion of alternative energy projects and recommends strategies to ramp up investment and innovation. The report will inform policymakers and stakeholders in making sustainable energy a priority in an economy that balances development and the environment. Azerbaijan can make green energy more sustainable, integrate regulatory systems with sustainability objectives, and contribute to energy transition in local communities for greater energy security and economic growth. As Azerbaijan transitions from fossil fuels to clean energy, it is of paramount importance to explore alternative energy in order to make educated decisions for sustainable development. This change will not only boost energy independence but also position Azerbaijan at the forefront of the local renewable energy market, attracting foreign investment and new green tech jobs. In this paper, Azerbaijan's alternative energy market is studied through document analysis of laws, policies and literature using qualitative document analysis methods for solar, wind, hydro, geothermal and bioenergy. It will provide a brief on the current state of Azeri renewable energy development, investment prospects and analysis of current and planned projects. It puts strong emphasis on state support and international collaboration to encourage investment and create a green energy strategy. The research reveals how Azerbaijan can position itself as a regional innovator of clean energy that will promote economic diversification and environmental sustainability. It emphasizes communication, education and coordination of stakeholders to drive public adoption and bring projects in line with local needs. The shift to green energy is perceived as a pathway to the empowerment of local economies, jobs and living standards in order to combat the global climate crisis. Government, business and academia need to work together to stimulate innovation and research in renewable technologies so that our population is fully skilled for a green economy.

## Solar Energy

Azerbaijan receives approximately 2,200 hours of sunshine annually, making it an ideal candidate for solar energy development. The government has initiated several solar projects, including a 200 MW solar power plant in the Absheron region. However, further investments and technological advancements are required to harness this potential effectively (Huseynli, 2023).

Azerbaijan is estimated to possess resources of more than 18*10^7 million MWh annually in the form of solar cells. To put this into perspective, total energy use for economic activities in

Azerbaijan in 2017 was 11×10^7 MWh and energy use of households reached 3*10^7 MWh. That is to say, the capacity of an annual solar cell far outpaces the power needed by Azeri residents by more than a million times. SE national technical potential is far superior to the combined consumption. (Gulaliyev et al.,2020).

**Wind Energy**

Azerbaijan has been producing hydropower for years, and the dams are already connected to the national grid. But there's a whole lot more micro-hydro to go around. This has been identified by the government and small hydro projects are favoured by favorable policies. They're designed to attract private investment and make energy generation more sustainable in the region – all as part of a holistic energy portfolio. This focus on small hydro projects not only boosts local economies but transitions away from fossil fuels to a more sustainable energy system. When constructed, they will create new jobs and technology innovations, and ensure Azerbaijan's emergence as the regional leader in renewable energy. Renewable energy investment will not only boost the economy but will also increase energy security in order to ensure that Azerbaijan will meet its growing electricity needs at the lowest environmental cost.

(Abdullayev, 2023).

Onshore and offshore wind power too, huge swathes of land in play for wind farms to leverage on available assets to produce clean electricity is just as enormous. Such diversification in energy supplies adds value not only to energy security but also to world targets of reduction of carbon emissions and combatting climate change, and makes Azerbaijan a pioneer for transitioning to renewable energy. Using as much of this onshore and offshore wind as possible, Azerbaijan could bring in new technologies and policies to make wind energy part of the existing grid, at a fixed and reliable supply, and as green as possible. (Aliyev & Orujova, 2022).

**Hydro Energy**

Hydroelectric power production in Azerbaijan is already a historical feature, and current installations contribute to the grid. But mini hydro's a still in its infancy. Government already realised this potential, and is making incentives for small hydro projects with good policies. They are trying to attract private investment and build a more greener energy system in the region as part of a healthy energy portfolio. This sort of emphasis on small hydro generates regional economies and cuts fossil fuels off for a greener energy future. In their maturity, they will create employment and drive technological innovation to further establish Azerbaijan as a regional powerhouse of renewable energy. (Afandiyev et al., 2022).

Furthermore, putting sustainable solutions at the centre of its operations and in R&D will help Azerbaijan to lead the world's shift to renewable energy, thereby attracting foreign cooperation and stimulating the economy. This initiative is not only in the interests of the people of the country, but also aids the world in the fight against climate change and reveals yet again that Azerbaijan is on its way to become a world leader in the field of environmental conservation. If they can innovate and embrace these policies, then other nations will be encouraged to do so too, sparking a regional movement toward clean energy that we all could benefit from. (Hamidova et al., 2022).

**Geothermal Energy**

Azerbaijan's geothermal resource is still very nascent, and the Lesser Caucasus is the perfect site for the renewable energy source, because the geology is waiting to be mined. We have the ability to

produce electricity and heat with geothermal energy — the heat within the Earth. The exploration of geothermal deposits in Azerbaijan is only just getting off the ground, so it still needs more geological and geophysical studies to verify the economics of potentially useful geothermal resources. They get most of their heat from tectonic geothermal energy – the result is hot springs and wells. As these first experiments indicate, there are huge pockets of geothermal energy within volcanoes that can be exploited for clean energy. Even the International Renewable Energy Agency (IRENA) specifically selected geothermal as a constant-state energy source that could provide baseload power, as opposed to variable solar and wind. Azeri geothermal energy can be developed in different stages from technology, research and development, to regulations. EGS and binary cycle power stations are the technologies of the future to harvest as much energy from low temperature geothermal energy as possible, and scale up development. Furthermore, if you added geothermal to the equation, you'll have Azerbaijan's security and diversification of energy. (Abdrazakov, 2022).

**Bioenergy**

The Bioenergy is the very suitable option to be used in the waste and energy treatment in Azerbaijan. The government has even begun to encourage biomass energy, notably from plant waste. But public awareness and technical knowhow in the field are just beginning. The bioenergy Azeri renewable future appears bright, thanks to the country's agro-industries and massive quantities of biomass from agricultural waste. In biomass energy – which is produced from organic material such as crop residues, livestock manure and timber – it is an integrated solution to waste management, and a clean fuel. Research shows that, with the right kind of investment in technology and infrastructure, Azerbaijan could build a high-powered bioenergy industry not only to generate electricity but to generate jobs and develop rural areas. By anaerobic digestion of crop residues, for instance, biogas from agricultural manure could provide the countryside with a sustainable energy source and waste disposal. And bioenergy added to the renewable energy mix would make Azerbaijan's energy mix more inclusive, environmentally friendly and sustainable. Bioenergy, in this sense, can be an ideal vehicle not only for Azerbaijan to further pursue renewable energy projects, but also for the country to play its part in sustainable development.

(Demirel & Gürdil, 2023).

**Discussion**

Azerbaijan is trying to diversify its energy mix from fossil fuels and there is a great opportunity to expand renewable energy technologies, including solar, wind, hydroelectric, geothermal and bioenergy. The "Law on the Use of Alternative and Renewable Energy Sources" (2019) proposes to support renewable energy through tax incentives and subsidies, but government red tape and partial regulations stall the effort. Azerbaijan has good circumstances for solar energy with about 2,200 hours of sunlight per year, but it is costly and requires a new price mechanism. Wind energy has the potential to be a game changer, and small hydro schemes are being built to support local economies. More work and research are needed for geothermal power to stabilize as a reliable energy source, at least in the Lesser Caucasus. There may also be energy security through bioenergy based on agro-industrial biomass, though there remain gaps in awareness and technical knowledge. Azerbaijan can become a regional leader in renewable energy given the right support, research and public engagement, but this requires a whole policy that integrates regulatory architectures with sustainability objectives.

**Conclusion**

Azerbaijan is at an extreme moment and must shift from a fossil-fuel dependent economy to a clean energy force. The country is well-stocked with solar, wind, hydroelectric, geothermal and bioenergy, and there is an ocean of opportunity. But bureaucracy and partial rules hold up the door.

Azerbaijan will need:

1. Reduce Regulatory Noise: Make laws easy and contemporary so as to draw in-country and foreign capital.

2. Spendings on R&D: Invest in Research&Development to progress solar, wind, geothermal and bioenergy.

3. Create Public Awareness: Conduct public awareness campaigns and trainings to create a workforce.

4. Try New Financing Options: Apply green finance options such as bonds and public-private partnership to finance renewable energy.

5. Encourage Small-scale Solutions: Encourage regional renewable energy projects (mainly in the countryside) to help secure energy and boost economy.

6. Expand Local Relations: Build a relationship with the neighbors to share resources, knowledge and infrastructure.

7. Create Competitive Pricing: Develop attractive pricing policies to level the playing field for renewables.

Azerbaijan will be able to lock its energy future, curb fossil fuels, and join the global movement of sustainability by accepting these recommendations. Policymakers, industry partners and consumers will have to agree on the need for a ‘symbiotic environment for the development and deployment of renewable energy’.

**References:**

Abdullayev, J. S. (2023). On the use of solar energy in Azerbaijan. Azerbajdžanskoe Neftânoe Hozâjstvo.

Huseynli, B. (2023). Renewable Solar Energy Resources Potential and Strategy in Azerbaijan. International Journal of Energy Economics and Policy.

Gulaliyev, M. G., Mustafayev, E. R., & Mehdiyeva, G. Y. (2020). Assessment of Solar Energy Potential and Its Ecological-Economic Efficiency: Azerbaijan Case. Sustainability.

Afandiyev, S., Hamidov, M., & İsmailov, R. (2022). Development of priorities and prospects of renewable energy sources in azerbaijan. Proceedings of Azerbaijan High Technical Educational Institution.

Hamidova, L., Huseynov, A. I., & Samedova, E. (2022). Challenges in Implementing Renewable Energy Sources in Azerbaijan. International Journal of Energy Economics and Policy.

Abdrazakov, D. (2022, November 15). Geothermal Energy in Caspian Region: Study of Heat Extraction Methods from Deep Wells.

Demirel, B., & Gürdil, G. A. K. (2023). Assessment of Energy Production Potential from Agricultural Residues in Azerbaijan. Black Sea Journal of Engineering and Science.

# CONCEPTS ABOUT THE ECONOMIC AND SOCIAL NATURE OF FINANCIAL RESULTS


**Ahmadov Faiq Khalig**
**UNEC**
**https://orcid.org/0009-0008-4426-2076**

**faiq.ahmadov75@gmail.com**



**Rəyçi:**
**Abdullayev Loğman İmran oğlu,**
**İqtisad üzrə fəlsəfə doktoru, dosent**



## Abstract

The concept of economic-social nature of financial results is an approach that explains how the economy and financial activities are related to the social welfare and economic development of society. This concept emphasizes that economic and financial indicators cover not only the activities of companies and the state, but also the development of society in a broad sense and the principles of social justice.

Economic and financial outcomes are closely related to macroeconomic indicators such as gross domestic product (GDP), inflation, unemployment, wages and social security. These indicators show the overall health of the economy, how resources are distributed and income inequality. For example, high GDP growth may indicate growth in the economy, but if this growth is not distributed equally, it can lead to social injustice. At the same time, the increase in inflation and unemployment can also have a negative impact on large sections of the society.

Financial policies are an important tool for implementing social and economic strategies of the state. Through taxes, social transfers, subsidies and other financial measures, the state tries to ensure social equality. For example, taxing the rich higher and channeling that revenue to the poor contributes to social justice by reducing income inequality.

All this shows that the economic-social nature of financial results serves not only economic growth and financial stability, but also social well-being and justice. The state and enterprises try to balance both sides of economic development - economic and social - by directing financial results in accordance with social goals.



**Keywords:** financial results, economic development, social justice, equality

# ПОНЯТИЯ О СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЙ ПРИРОДЕ ФИНАНСОВЫХ РЕЗУЛЬТАТОВ

**Ахмедов Фаиг Халиг**
**UNEC**
**https://orcid.org/0009-0008-4426-2076**

**faiq.ahmadov75@gmail.com**

**Резюме**

Концепция экономико-социальной природы финансовых результатов представляет собой подход, объясняющий, как экономика и финансовая деятельность связаны с социальным благосостоянием и экономическим развитием общества. В этой концепции подчеркивается, что экономические и финансовые показатели охватывают не только деятельность компаний и государства, но и развитие общества в широком смысле и принципы социальной справедливости.

Экономические и финансовые результаты тесно связаны с макроэкономическими показателями, такими как валовой внутренний продукт (ВВП), инфляция, безработица, заработная плата и социальное обеспечение. Эти индикаторы показывают общее состояние экономики, распределение ресурсов и неравенство доходов. Например, высокий рост ВВП может свидетельствовать о росте экономики, но если этот рост распределяется неравномерно, это может привести к социальной несправедливости. В то же время рост инфляции и безработицы также может оказать негативное влияние на широкие слои общества.

Финансовая политика является важным инструментом реализации социальной и экономической стратегии государства. Посредством налогов, социальных трансфертов, субсидий и других финансовых мер государство пытается обеспечить социальное равенство. Например, повышение налогов на богатых и направление этих доходов бедным способствует социальной справедливости за счет сокращения неравенства доходов.

Все это показывает, что экономико-социальный характер финансовых результатов служит не только экономическому росту и финансовой стабильности, но и социальному благополучию и справедливости.

Государство и предприятия пытаются сбалансировать обе стороны экономического развития - экономическую и социальную - направляя финансовые результаты в соответствии с социальными целями.

**Ключевые слова:** финансовые результаты, экономическое развитие, социальная справедливость, равенство.

# MALİYYƏ NƏTİCƏLƏRİNİN İQTİSADİ-SOSİAL MAHİYYƏTİ HAQQINDA KONSEPSİYALAR

**Əhmədov Faiq Xaliq**

**UNEC**

**https://orcid.org/0009-0008-4426-2076**

**faiq.ahmadov75@gmail.com**

Maliyyə nəticələrinin iqtisadi-sosial mahiyyəti, təkcə iqtisadi göstəricilərin yox, həm də sosial aspektlərin və cəmiyyətin inkişafına olan təsirin dəyərləndirilməsini nəzərdə tutan geniş və çoxşaxəli bir anlayışdır. Bu anlayış iqtisadiyyatın yalnız bazar və ticarət prinsipinə əsaslanmadığını, həm də insanların həyat şəraiti, sosial ədalət, bərabərlik və cəmiyyətin rifahının əhəmiyyətini vurğulayır. Bu konsepsiyalar müxtəlif iqtisadi modellərin və dövlət siyasətlərinin sosial təsirlərinə də diqqət çəkir.

**1. İqtisadi Nəticələr və Sosial İnkişafın Qarşılıqlı Əlaqəsi**

İqtisadi nəticələr, bir ölkənin və ya təşkilatın maliyyə göstəricilərinin, o cümlədən ümumi daxili məhsulun (ÜDM), dövlətin büdcəsinin vəziyyətinin, müəssisələrin mənfəətinin və digər maliyyə göstəricilərinin müəyyənləşdirilməsidir. Bu göstəricilər iqtisadi artım və inkişafın əsasını təşkil edir, lakin bu göstəricilərin sosial inkişafla əlaqəsi də vacibdir.

Maliyyə nəticələrinin sosial təsirlərini anlamaq üçün, iqtisadi artımın yalnız mülkiyyətin artımına deyil, həm də sosial xidmətlərin yaxşılaşdırılmasına, cəmiyyətin müxtəlif təbəqələrinə paylanmasına necə təsir etdiyini nəzərə almaq lazımdır (Əliyev, İ. M. 2019).

Bununla yanaşı, iqtisadi nəticələr sosial sahədəki bərabərsizlikləri də əks etdirə bilər. Məsələn, yüksək gəlir artımları, əgər bərabər şəkildə bölüşdürülməzsə, sosial ziddiyyətlərə və gərginliklərə səbəb ola bilər. Buna görə də iqtisadi və sosial nəticələrin qarşılıqlı əlaqəsini düzgün şəkildə qiymətləndirmək və buna uyğun siyasətlər həyata keçirmək vacibdir.

**2. Korporativ Sosial Məsuliyyət və Maliyyə Nəticələri**

Korporativ sosial məsuliyyət (KSM) müəssisələrin yalnız mənfəət əldə etmək deyil, həm də sosial məsuliyyətlərini yerinə yetirmək məqsədilə fəaliyyət göstərmələrini nəzərdə tutur. Bu yanaşma, şirkətlərin fəaliyyətlərinin cəmiyyətə olan təsirlərini nəzərə alaraq daha geniş bir sosial məsuliyyət daşımasını təmin edir (Məmmədov, R. S., & Hüseynova, N. M. 2020).

Maliyyə nəticələri şirkətlərin biznes fəaliyyətinin ölçülməsi ilə yanaşı, onların cəmiyyətə təsirlərini də əhatə etməlidir. KSM-in maliyyə nəticələrinə təsiri müsbət və ya mənfi ola bilər:

Müsbət təsir: Şirkətlərin sosial məsuliyyətli fəaliyyətləri cəmiyyətin rifahını artırır, ekoloji problemlərin həlli, iş şəraitinin yaxşılaşdırılması və yerli cəmiyyətə dəstək verilməsi kimi addımlar uzunmüddətli dövrdə şirkətin imicini və maliyyə vəziyyətini yaxşılaşdıra bilər (Həsənov, F. X. 2021).

Mənfi təsir: Eyni zamanda, sosial məsuliyyət tədbirlərinə çox sərmayə qoyulması qısa müddətdə şirkətin mənfəətinə mənfi təsir göstərə bilər. Lakin uzunmüddətli perspektivdə bu tədbirlər işçi

məhsuldarlığını, müştəri loyallığını və cəmiyyətin dəstəyini artıraraq maliyyə nəticələrini müsbət təsir edə bilər.

**3. İqtisadi Bərabərlik və Sosial Ədalət**

Maliyyə nəticələrinin sosial mahiyyəti iqtisadi bərabərlik və sosial ədalət anlayışları ilə sıx bağlıdır. İqtisadi bərabərlik, bir ölkə və ya təşkilatın maliyyə resurslarını necə bölüşdürdüyü ilə əlaqəlidir. Əgər maliyyə nəticələri bərabər şəkildə paylanmazsa, bu, sosial gərginliklərə və iqtisadi böhranlara səbəb ola bilər (Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi 2022).

Dövlətlər və müəssisələr sosial siyasətləri inkişaf etdirərək zəif təbəqələrin rifahını yaxşılaşdırmağa çalışmalıdır. Məsələn, sosial kömək və sosial təminat proqramları, az gəlirli ailələrə təhsil, səhiyyə və digər sosial xidmətlərdən istifadə imkanı verir (Atkinson, A. B. 2015).

İş yerlərində bərabərlik: İşə qəbulda bərabər imkanların təmin olunması, işçilərin maaşlarının və əmək şəraitinin yaxşılaşdırılması, gender və etnik mənsubiyyətə görə diskriminasiyanın qarşısının alınması sosial ədalətin təmin olunmasına xidmət edir (Stiglitz, J. E. 2012).

İqtisadi və maliyyə göstəricilərinin yalnız əhali tərəfindən nə qədər və necə əldə edildiyinə diqqət yetirilməsi vacibdir. Əgər gəlirlər yalnız müəyyən bir təbəqəyə yönəlirsə və ya bazar sistemindəki qeyri-bərabər vəziyyətlər artarsa, bu cəmiyyətin sosial və iqtisadi sabitliyini poza bilər.

**4. İqtisadi Artımın Sosial Təsiri**

İqtisadi artım, yeni iş imkanlarının yaradılması, texnoloji inkişaf, infrastrukturun təkmilləşdirilməsi və sosial xidmətlərdə irəliləyiş kimi aspektləri ilə sosial inkişafı stimullaşdırır. Lakin iqtisadi artımın sosial təsiri müsbət və mənfi ola bilər:

Müsbət təsir: Yüksək iqtisadi artım dövründə cəmiyyətin həyat keyfiyyəti yüksəlir, işsizlik azalır, əhali daha yaxşı səhiyyə və təhsil xidmətlərindən faydalana bilir (Piketty, T. 2014).

Mənfi təsir: Bəzi hallarda iqtisadi artım yalnız müəyyən sahələrdə və ya regionlarda baş verir. Bu zaman iqtisadi artımın sosial təsirləri qeyri-bərabər olur və sosial gərginliklərə səbəb ola bilər. Məsələn, böyük şəhərlərdəki inkişaf kənar bölgələrdən olan əhali üçün faydalı olmaya bilər.

Bu baxımdan, iqtisadi artımın sosial təsirlərinin müsbət olmasını təmin etmək üçün iqtisadi siyasətlərin sosial sahədə bərabərsizlikləri aradan qaldırmağa yönəlməsi lazımdır.

**5. Maliyyə Nəticələrinin Davamlı Sosial İnkişafla Əlaqəsi**

Davamlı sosial inkişaf anlayışı, yalnız bugünkü nəsillərin rifahını təmin etməyi deyil, həm də gələcək nəsillərin iqtisadi və sosial imkanlarını qorumağı nəzərdə tutur. Bu yanaşma uzunmüddətli sosial rifah və ekoloji balansın təmin edilməsi məqsədini güdür.

Maliyyə nəticələri davamlı inkişaf prinsiplərinə uyğun olaraq:

Ətraf mühitin qorunması: İqtisadi fəaliyyətlərin ekoloji təsirlərini azaldan siyasətlər həyata keçirilməsi və bu fəaliyyətlərin maliyyə nəticələrinin müsbət və ya mənfi təsirlərinin qiymətləndirilməsi vacibdir (World Bank. 2020).

Gəl əcək nəsillər üçün resursların qorunması: Müasir iqtisadi fəaliyyətlərdə sosial və maliyyə göstəricilərinin qiymətləndirilməsi yalnız bugünkü gəlirlərlə bağlı olmamalıdır, həm də gələcəkdə resursların düzgün istifadəsi nəzərə alınmalıdır.

**Nəticə**

Maliyyə nəticələrinin iqtisadi-sosial mahiyyəti kompleks və qarşılıqlı əlaqəli bir anlayışdır. Bu konsepsiyalar iqtisadiyyatın yalnız maliyyə artımına deyil, həm də sosial bərabərlik, ətraf mühitin mühafizəsi və davamlı inkişafın təşviqinə yönəlmiş siyasətləri əhatə edir. İqtisadi nəticələrin sosial yönünü nəzərə alaraq, dövlətlər və müəssisələr maliyyə siyasətlərini daha inklüziv, ədalətli və uzunmüddətli sosial rifahı təmin edəcək şəkildə qurmalıdırlar.

**Ədəbiyyat:**


Əliyev, İ. M. (2019). *İqtisadiyyatın inkişafı və maliyyə siyasətinin sosial təsirləri*. Bakı: Elm və Təhsil Nəşriyyatı.

Məmmədov, R. S., & Hüseynova, N. M. (2020). Maliyyə nəticələrinin sosial və iqtisadi təsirləri: Azərbaycanda yanaşmalar. *Azərbaycan İqtisadiyyat Jurnalı*, 18(2), 45-59.

Həsənov, F. X. (2021). *Maliyyə nəticələrinin sosial inkişaf və iqtisadi bərabərlik üzərindəki təsirləri* (Doktorluq dissertasiyası). Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan.

**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi**. (2022). *Azərbaycan iqtisadiyyatında maliyyə nəticələrinin sosial təsiri: Dövlətin rolu*. İqtisadiyyat Nazirliyinin hesabatı. Bakı: İqtisadiyyat Nazirliyi.

Atkinson, A. B. (2015). *Inequality: What can be done?* Harvard University Press

Stiglitz, J. E. (2012). *The Price of Inequality: How Today's Divided Society Endangers Our Future*. W.W. Norton & Company.

Piketty, T. (2014). *Capital in the Twenty-First Century*. Harvard University Press.

**World Bank**. (2020). *World Development Report 2020: Trading for Development in the Age of Global Value Chains*. World Bank Publications.

# "YAŞIL KLASTERLƏRƏ" KEÇİDİN İQTİSADİYYATDA ROLU

**Cəfərova Vəfa Piri**

**Sumqayıt Dövlət Universiteti**

**vafa.cafarova@sdu.edu.az**

**Rəyçi:**

**Hümbətəliyeva Səadət Əsgər qızı,**

**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

**Xülasə**

Qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Bu, istilik effekti yaradan qaz emissiyasını beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə olacaqdır. Bu gün ölkələr iqtisadi klasterləri effektiv şəkildə idarə etməklə həm regional, həm də milli səviyyədə sosial və iqtisadi tərəqqini sürətləndirməyə nail ola bilmişlər. Buna baxmayaraq, iqtisadiyyat yeni bir aktual problemlə üz-üzədir: iqtisadi klasterləri yaşıl keçidə sürətlə uyğunlaşdırmaq və yaşıl klasterlərin gətirdiyi çətinliklər və imkanları effektiv şəkildə idarə etmək.

**Açar sözlər**: iqlim dəyişiklikləri, istilik effekti, iqtisadi klasterlər, yaşıl keçid

# РОЛЬ ПЕРЕХОДА К «ЗЕЛЕНЫМ КЛАСТЕРАМ» В ЭКОНОМИКЕ

**Джафарова Вафа Пири**

**Сумгаитский государственный университет**

**vafa.cafarova@sdu.edu.az**

**Резюме**

Учитывая масштабы глобальных климатических изменений, значительное место должно быть уделено применению экологически чистых технологий, должно поощряться использование чистых источников энергии, переработка отходов и восстановление загрязненных территорий. Это станет важным вкладом в усилия, предпринимаемые в направлении поддержания выбросов газов, создающих отопительный эффект, на уровне, соответствующем международным стандартам. Сегодня страны смогли ускорить социально-экономический прогресс как на региональном, так и на национальном уровне за счет эффективного управления экономическими кластерами. Тем не менее, перед экономикой стоит новая острая проблема: быстрая адаптация экономических кластеров к зеленому переходу и эффективное управление проблемами и возможностями, которые приносят зеленые кластеры.

**Ключевые слова**: изменение климата, тепловой эффект, экономические кластеры, зеленый переход

# THE ROLE OF THE TRANSITION TO "GREEN CLUSTERS" IN THE ECONOMY

**Jafarova Vafa Piri**

**Sumgait State University**

**vafa.cafarova@sdu.edu.az**

## Introduction

Green clusters contribute to the development of environmentally friendly energy. At the same time, they lighten the load of electrical systems by giving preference to advanced modern technologies. They are an important element of energy supply in underdeveloped areas and also support national initiatives. (Michael E. Porter, 1998)

They rationalize and minimize the management of natural resources in polluted areas by applying an ecologically clean cluster. Such clusters also protect residents and businesses in the area from the effects of power outages and mass power loss. Such a system is based on renewable energy technologies, does not require maintenance, and although it requires high investment, it quickly gives economic results.

## Economic benefits

The main idea of energy clusters is to ensure electricity supply due to Renewable Energy sources and regulate energy at the distribution network level. It refers to a limited space that contains all components for electricity supply (generation, transfer, storage, and consumption). (Sölvell, Ö. 2003) The main goal of creating these clusters is to flexibly coordinate the production process to avoid energy shortages, predict the unstable supply of renewable energy, and prevent the reduction of energy consumption as much as possible. The concept of clusters should ensure cooperation and exchange of electricity with other clusters.

Diversification of the energy cluster of the economy, building a competitive energy market, clean environment and "green development", clean energy projects, low carbon energy, green buildings, waste management, clean industry, natural climate solutions, developed, complementary and decarbonized energy and will help manage energy systems. Along with the perspective development of the country, the strengthening of environmental standards, restoration of greenery, water use, provision of sustainable energy sources are among the main issues. To achieve this development strategy, it is necessary to achieve two goals: (https://minenergy.gov.az/ )

- fully enclosed ecological environment;

- acquisition of green energy field.

## The role of the government

Governments should facilitate collaboration and coordination within clusters, develop new platforms that connect the private sector with research organizations and public sector stakeholders, and regulate regular public-private contacts to enable collaboration. Through such initiatives, governments have the opportunity to accelerate the diffusion of clean technologies and ensure that cutting-edge research is effectively transferred and implemented in real-world contexts across all types of clusters. Governments should deploy individual strategies to support each cluster. (World Economic Forum, 2024)

For economic growth, governments must create a new public-private partnership that is structured to support all economic clusters and help businesses of all kinds survive and thrive as we move towards a more sustainable future.

Governments have two main strategies:

*Conservation strategy*. With this tool, the state protects existing clusters, helps them to develop, and uses optimal tools for sustainability and changes.

*Spark Strategy*. States perform the function of creating new opportunities for economic clusters by supporting emerging green competition. (Christopher Daniel et al, 2004)

**Conclusion**

Efforts to ensure a green economy by the state can ensure sustainable development through strong environmental law and governance, by promoting effective integrated decision-making.Green clusters are an alternative to the real economic model that frowns on waste, limits resource scarcity, and creates huge impacts on the environment and human health. Emerging as part of the green economy concept over the last decade, green clusters are a strategic priority for many governments. Increasing energy efficiency reduces demand for carbon-intensive energy sources, while investments in renewable energy technologies continue to increase as they become more competitive.

Energy clusters can also be seen as a tool of sustainable development policy. By investing in renewable energy sources and optimizing electricity production, it is an intergenerational policy that allows active development on the one hand, and uses raw materials that do not deplete the energy resources available for future generations on the other hand.

**References:**


Michael, E. Porter (1998). “Clusters and the New Economics of Competition,” Harvard Business Review, November–December.

Daniel, Ch., Pande, V., Rafih, R., Morihara, M., Caines, Ch., Zuzek-Arden, T. (2004) “Are Economic Clusters Ready for the GreenTransition?” May

Sölvell, Ö. ()2003The cluster initiative greenbook / Ö. Sölvell, G. Lindqvist, C. Ketels. — Stockholm: Bromma tryck AB.

Ketels, C. (2006) Cluster initiatives in developing and transition economies / C. Ketels, Ö. Sölvell, G. Lindqvist. — Stockholm: Center for Strategy and Competitiveness.

World Economic Forum (2024)Transitioning Industrial Clusters, WEF website, January.

https://www.unep.org/regions/asia-and-pacific/regional-initiatives/supporting-resource-efficiency/green-economy

https://minenergy.gov.az/ “The Use of Renewable Energy Resources in Azerbaijan”

https://area.gov.az/en/page/yasil-texnologiyalar

# ASSESSMENT OF THE GAS TRADE POTENTIAL OF THE MIDDLE CORRIDOR IN THE RUSSIAN-CHINESE ENERGY CORRIDOR

**Heydarov Punhan**

**Odlar Yurdu University**

**https://orcid.org/0009-0005-8702-3292**

**punhanheyderov5@gmail.com**

**Rəyçi:**
**Rüstəmov İlham Şamil oğlu,**
**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

In the Russian-Chinese corridor, the Middle Corridor is an alternative energy transport corridor providing gas supplies to Europe from the countries of the Caspian region and Central Asia. This route is especially important for reducing the dependence of European countries on Russia and Iran for energy supply. For the European Union and other European countries, the Middle Corridor is of strategic importance in terms of ensuring energy security and diversifying supply sources.

Azerbaijan's rich natural gas reserves, a potential resource of Turkmenistan and Kazakhstan, will fulfill the task of turning the Middle Corridor into a safer alternative to traditional energy routes dominated by Russia. The transportation of gas from these countries is currently also carried out through the Southern Gas Corridor. This infrastructure opens up prospects and new opportunities for many countries, entering the energy markets of Europe and Southern Europe. Thus, the middle corridor is not only a transit route, but also has great potential in terms of diversifying gas supplies to Europe, ensuring economic development, effective in terms of integrating the energy resources of the Caspian and Central Asian countries into the world market, as well as providing these countries with economic benefits and meeting energy demand.

**Keywords**: gas, export, import, diversification, capital, infrastructure

# ОЦЕНКА ГАЗОТРАНСПОРТНОГО ПОТЕНЦИАЛА СРЕДНЕГО КОРИДОРА В РОССИЙСКО-КИТАЙСКОМ ЭНЕРГЕТИЧЕСКОМ КОРИДОРЕ

**Гейдаров Пюнхан**

**Университет Одлар Юрду**

**https://orcid.org/0009-0005-8702-3292**

**punhanheyderov5@gmail.com**

## Резюме

В Российско - Китайском коридоре Средний коридор-является альтернативным энергетическийм транспортным коридором, обеспечивающий поставки газа в Европу из стран Каспийского региона и Средней Азии. Этот маршрут особенно важен для снижения зависимости стран Европы от России и Ирана в энергоснабжении. Для Европейского союза и других европейских стран Средний коридор имеет стратегическое значение с точки зрения обеспечения энергетической безопасности и осуществления диверсификации источников поставок.

Богатые запасы природного газа Азербайджана, потенциальным ресурсом Туркменистана и Казахстана, будут выполнять задачу по превращению Среднего коридора в более безопасную альтернативу традиционным энергетическим маршрутам, на которых доминирует Россия. Транспортировка газа этих стран в настоящее время также осуществляется по Южному газовому коридору. Эта инфраструктура открывает перспективы и новые возможности для многих стран, выходя на энергетические рынки Европы и Южной Европы. Таким образом, средний коридор не только является транзитным маршрутом, но и обладает большим потенциалом в плане диверсификации поставок газа в Европу, обеспечения экономического развития, эффективного с точки зрения интеграции энергетических ресурсов стран Каспия и Центральной Азии на мировой рынок, а также предоставления этим странам экономических выгод и удовлетворения спроса на энергию.

**Ключевые слова**: *газ, экспорт, импорт, диверсификация, капитал, инфраструктура*

# RUSİYA-ÇİN ENERJİ DƏHLİZİNDƏ ORTA KORİDORUN QAZ TİCARƏTİ POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

**Heydərov Pünhan**

**Odlar Yurdu Universiteti Doktorantı**

**https://orcid.org/0009-0005-8702-3292**

**punhanheyderov5@gmail.com**

## Giriş

Orta Koridorda qaz ticarətinin inkişafı Sovet İttifaqının dağılması ilə başlayır. 1991-ci ildə SSRİ süqut etdikdən və ya dağıldıqdan sonra Orta Asiya və Xəzər hövzəsi ölkələri (xüsusən Azərbaycan, Türkmənistan və Qazaxıstan) öz təbii qazlarını müstəqil şəkildə dünya bazarlarına çıxarmaqla ölkələrinin valyuta ehtiyatının formalaşması və çoxalmasına əlverişli imkanlar əldə etdilər (Qasımov, 2021). Keçmiş SSRİ dövründə bu ölkələrin enerji resursları əsasən Rusiyadan keçən kəmərlərlə nəql etdirilirdi. Lakin müstəqillikdən sonra qeyd edilən ölkələrin Rusiya və İrandan asılı olmadan qaz ixracı üçün alternativ yollar axtarıldı və bu yolun layihələndirilməsinin vacibliyi qeyd edildi.

## Orta karidorun enerji təchizatında rolu

2000-ci illərdə Avropa İttifaqı, enerji təchizatını diversifikasiya etmək və Rusiyadan asılılığı azaltmaq məqsədilə Xəzər və Orta Asiya qazını Orta Koridor vasitəsilə Avropaya çatdırmağa maraq göstərdi (Məmmədov, 2023). Bu nöqteyi nəzərdən Azərbaycanın "Cənub Qaz Dəhlizi" kimi layihələrdə iştirak etməsi, Transxəzər Boru Kəməri təşəbbüsləri və Türkiyə üzərindən keçən qaz boru kəmərlərinin genişləndirilməsi məsələləri gündəmə gəldi (Abbasov, 2021). Bu cür təşəbbüslər Orta Koridoru getdikcə mühüm bir enerji dəhlizinə çevirdi və onun qaz ticarətindəki potensialını artırdı (Azərbaycan Respublikası Energetika Nazirliyi. 2024).

Cənub Qaz Dəhlizi hal-hazırda Azərbaycan qazının Türkiyə və Avropaya nəqlində əsas rol oynayır. Bu dəhliz "Şahdəniz" yatağının ehtiyatlarının Türkiyə ərazisindən keçərək Avropa bazarına çıxarılması məqsədini əhatə edir (Əsgərov, 2019). "Trans-Adriatik Boru Kəməri" (TAP) bu dəhlizin əsas hissələrindən biridir və TAP vasitəsilə Azərbaycan qazı artıq Avropaya nəql etdirilir. Bu dəhlizə Transxəzər Boru Kəmərinin qoşulması bilavasitə Orta Asiya qazının bu xətt üzərindən Avropaya ixracını təmin etməyə imkan verəcəkdir.

Ümumiyyətlə, Avropa ölkələri hazırda Ukrayna ərazisinin bütövlüyünü gözləmədiyi üçün və onlara qazın verilməyəcəyini bəyan etdiyi halda Rusiya qazından asılılığı azaltmaq məqsədilə Orta Asiya və Xəzər bölgəsindən enerji təchizatını diversifikasiya etməyə çalışır. Rusiyanın qeyd edilən ölkələrə qaz ixracında inhisarçılıq mövqeyi Avropa üçün enerji təhlükəsizliyi baxımından narahatlıq yaradır. Orta Koridor vasitəsilə tədarükün artırılması Avropa ölkələrinə daha təhlükəsiz və müstəqil enerji qaynaqlarına çıxış imkanı verir, bu da geosiyasi baxımdan Avropanın mövqeyini gücləndirir.

Orta Koridorun qaz ticarətində inkişafı bir sıra geosiyasi maneələrlə üzləşir. Rusiya bu layihələrin genişlənməsinə qarşı çıxış edir və bu cür alternativlərin onun enerji bazarında təsirini zəiflədə biləcəyindən narahatdır. İran da bu layihənin inkişafında risk faktorudur, çünki Transxəzər Boru Kəmərinin genişlənməsi üçün Xəzər dənizi üzərindəki anlaşmazlıqların həll edilməsi tələb olunur (SOCAR, 2024). Türkmənistan və Azərbaycanın Xəzər dənizindəki əməkdaşlığı Rusiya və

İran kimi böyük regional oyunçuların maraqlarına təsir edə bilər.

**Orta koridorun Azərbaycan və Türkmənistanın qaz ticarətinin inkişafına təsiri**

Bütövlükdə qaz ticarətinin inkişaf etdirilməsi olduqca böyük miqdarda valyuta kapitalını investisiya şəklində yatırmaqı tələb edir. Xüsusilə, boru kəmərlərinin, infrastrukturun genişləndirilməsi və yenilənməsi üçün böyük miqdarda xərclərin yatırılmasını şərtləndirir. İnfrastruktur layihələrinin uzunmüddətli iqtisadi faydaları olsa da, bu layihələrə düzgün maliyyə dəstəyi edilməsini və risklərin idarə edilməsini tələb edir ki, bu da layihələrin həllində mühüm rol oynayır. Bu kontekstdə Avropa Birliyinin, ABŞ-ın beynəlxalq təşkilatlarının dəstəyi olduqca əhəmiyyətlidir. Orta Koridorda qaz ticarətinin inkişafının xüsusilə Azərbaycan və Türkmənistan üçün vacibliyi danılmazdır (İsmayılov, 2021). Belə ki, Türkmənistan böyük qaz ehtiyatlarına malik olmaqla bərabər onun ərazisində yerləşən bu növ enerji resurslarını ixrac etməkdə bir sıra çətinliklərlə üzləşir (Əhmədov, Əliyev, 2020). Xəzər dənizindəki Transxəzər Boru Kəməri layihəsi Türkmənistan qazının Azərbaycan ərazisindən Türkiyəyə, oradan da Avropaya nəql etdirilməsini təmin edə bilər. Azərbaycan isə artıq Cənub Qaz Dəhlizi layihəsi ilə Avropaya qaz ixrac edən əsas ölkələrdən biridir və Transxəzər Boru Kəməri ilə ehtiyat qaz potensialı ixracının daha da artırılmasına malikdir (Süleymanov, 2018).

Orta Koridorda qaz ticarətinin genişləndirilməsinə töhfə verən ölkələr sırasında Azərbaycan, o cümlədən potensial olaraq Türkmənistan və Qazaxıstan ön sıradadır (Abdullayeva, 2022). Azərbaycan mövcud qaz ehtiyatlarından 2022-ci ildə Avropaya təxminən 11 milyard kubmetr qaz ixrac etməklə ölkənin valyuta ehtiyanı kifayət qədər artıra bilmişdir. Qeyd edək ki, gələcəkdə qaz həcminin artırılaraq 20 milyard kubmetrədək çatdırılması planlaşdırılır.

**Azərbaycanın Avropaya qaz ixracının potensial imkanları**

Azərbaycan öz potensial qaz ehtiyatlarını Əsas İxrac Marşrutları hesab edilən "Cənub Qaz Dəhlizi" (CQD) vasitəsilə Avropaya çatdırır. CQD üç əsas boru xəttini özündə birləşdirir (Hüseynli, 2020):

- Bakı-Tbilisi-Ərzurum Boru Kəməri (BTE) – Bu kəmər Azərbaycan qazını Gürcüstan və Türkiyəyə çatdırır, həmçinin "Şahdəniz" yatağının qaz ehtiyatlarını nəql etdirmək üçün əsas infrastruktur rolunu oynayır. Qeyd edək ki, Bakı-Tbilisi-Ərzurum kəməri "Cənub Qaz Dəhlizi"nin ilk mərhələsi sayılır.

- TANAP (Trans-Anadolu Boru Kəməri) – TANAP, Bakı-Tbilisi-Ərzurum kəmərinin davamı olaraq, Türkiyənin Gürcüstanla sərhədindən başlayır və Türkiyə ərazisindən keçərək Avropaya çatır. TANAP, Azərbaycan qazını Türkiyə və Avropaya daşımaq üçün mühüm bir infrastruktur layihəsidir.

- TAP (Trans-Adriatik Boru Kəməri) – TAP, TANAP-ın davamıdır və Türkiyə Yunanıstan və Albaniya ərazisindən İtaliyaya qədər uzanır. Bu kəmər vasitəsilə Azərbaycan qazı İtaliya və digər Avropa bazarlarına çıxarılır.

Türkmənistan dünyada dördüncü ən böyük qaz ehtiyatlarına malik olan ölkədir. Bu ğlkə ildə 80-90 milyard kubmetr qaz ixrac etmək qabiliyyətinə malikdir. Türkmənistanın əsas ixrac bazarları Çin və Rusiyadır. Lakin, Transxəzər Boru Kəməri layihəsi həyata keçirilərsə, bu qazın bir hissəsi Orta Koridor vasitəsilə Türkiyə və Avropaya göndərilə bilər. Bu boru kəməri Türkmənistan qazını Xəzər dənizi vasitəsilə Azərbaycana çatdırmaq üçün planlaşdırılıb. Bu kəmər reallaşarsa, Türkmənistanın illik 10-15 milyard kubmetr qazı Orta Koridor üzərindən Avropaya ixrac edə biləcəyi gözlənilir

(Əliyeva, 2023).

O cümlədən, Qazaxıstan da böyük qaz ehtiyatlarına malikdir. Lakin onun qaz ixrac etdirilməsi əsasən Rusiya və Çin marşrutlarına bağlıdır. Qazaxıstanın Türkmənistan kimi Orta Koridor üzərindən qaz ixracına qoşulması üçün Transxəzər Boru Kəmərinə qoşulması lazımdır. Əgər Qazaxıstan da bu marşruta qoşula bilərsə, ildə təxminən 5-10 milyard kubmetr qaz Orta Koridor vasitəsilə Avropa bazarlarına çatdırıla bilər.

Bu layihədə Türkiyə əsasən tranzit ölkə qismində çıxış edir. Türkiyə Azərbaycan qazını Avropaya çatdıran TANAP və TAP layihələrinin mərkəzində yerləşir. Həmçinin, bu layihədə regional qaz mərkəzinin rolu gücləndirilir. Türkiyə bu xətlə nəql etdirilən qazın tranziti və ticarətində aktiv rol oynayır.

Bu ölkələr və planlaşdırılan layihələr Orta Koridor vasitəsilə ümumilikdə il ərzində təxminən 30-40 milyard kubmetr qazın Avropaya çatdırılmasını təmin edə bilər. Lakin bu rəqəmlər yeni infrastrukturun tamamlanmasından və Transxəzər Boru Kəməri kimi layihələrin həyata keçirilməsindən asılıdır. Bu, həm də Avropaya qaz tədarükünün diversifikasiyasına və enerji təhlükəsizliyinə mühüm töhfə verə bilər.

Orta Koridor vasitəsilə qaz idxal edən əsas ölkələr isə Avropa İttifaqı ölkələridir. Bu ölkələr sırasında, xüsusilə, Cənub-Şərqi Avropa regionu ölkələri mühüm rol oynayır. Orta Koridorda qaz idxal edən əsas ölkələrdən biri də İtaliyadır. İtaliya TAP (Trans-Adriatik Boru Kəməri) vasitəsilə Azərbaycan qazını idxal edir. 2022-ci ildə TAP ilə İtaliyaya təxminən 7 milyard kubmetr Azərbaycan qazı nəql edilib. İtaliya, Cənubi Avropada Azərbaycan qazının ən böyük idxalçılarındandır.

Yunanıstan TAP boru kəməri vasitəsilə Azərbaycan qazını idxal edən digər ölkələrdən biridir. Yunanıstanın illik idxalı təxminən 1-2 milyard kubmetr təşkil edir və bu rəqəmin artması gözlənilir, çünki ölkə enerjidə Rusiya qazına alternativ mənbələr axtarır.

Türkiyə TANAP vasitəsilə ildə təxminən 6 milyard kubmetr Azərbaycan qazını idxal edir. Türkiyə həm tranzit ölkə, həm də əsas idxalçı ölkə kimi Orta Koridorda mühüm rol oynayır. Azərbaycan qazı Türkiyənin ümumi qaz təchizatında mühüm paya malikdir.

Bu ölkələr Azərbaycan və potensial olaraq Türkmənistandan qaz idxal etmək üçün Orta Koridoru istifadə edir. Orta koridor marşrutu ilə ölkələri təmin edən qazın həcmi onların Rusiya qazından asılılığının azaldılmasına, enerji təhlükəsizliyinin artırılmasına xidmət edir. Gələcəkdə Transxəzər Boru Kəməri həyata keçirilərsə, bu ölkələr Türkmənistan qazını da Orta Koridor vasitəsilə idxal edə bilərlər.

Orta Koridorun qaz ticarətindəki potensialı, gələcək perspektivdə Xəzər regionu və Orta Asiya qazının Avropaya çatdırılması üçün mühüm bir dəhliz kimi strateji əhəmiyyətini qorumaqla özünün ən əlverişli boru xətti olduğunu sübut edə biləcəkdir. Mövcud infrastruktur, xüsusilə də Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi (TANAP və TAP boru kəmərləri) Rusiya-Çin dəhlizində Orta Koridorun əhəmiyyətini artıran əsas amillərdəndir.

Beləliklə, gələcəkdə Türkmənistan qazının Transxəzər Boru Kəməri vasitəsilə dəhlizə qoşulması və əlavə layihələrin həyata keçirilməsi bu marşrutun ixrac imkanlarını genişləndirə bilər. Qazaxıstanın da bu ticarətə daxil edilməsi potensialı Orta Koridorun qaz tədarükündə strateji əhəmiyyətini daha da artıracaqdır.

**Nəticə**

Orta Koridorun inkişaf etdirilməsi yalnız tranzit ölkələr üçün deyil, həm də Avropa üçün böyük enerji təhlükəsizliyi və iqtisadi faydalar vəd edir. Bu dəhlizin tam potensialını reallaşdırmaq üçün bölgədəki ölkələr və Avropa İttifaqı arasında əməkdaşlıq, həmçinin onların koordinasiyası daha da gücləndirilməlidir. Beləliklə, Orta Koridor həm tədarük mənbələrinin diversifikasiyası, həm də Xəzər regionunun qlobal enerji bazarına inteqrasiyası baxımından mühüm və dayanıqlı bir strateji dəhliz rolunu oynayacaqdır.

**Ədəbiyyat:**


Abbasov, F. (2021). Cənub Qaz Dəhlizinin Avropa enerji təhlükəsizliyində rolu. Bakı: Nafta Press.

Abdullayeva, G. (2022). Azərbaycanın qaz ixrac potensialı və Orta Koridorda mövqeyi. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 124 s.

Əhmədov, M., və Əliyev, K. (2020). Xəzər dənizi və Orta Asiya regionunda enerji resurslarının nəqli. Bakı: Elm və Təhsil Nəşriyyatı, -s.1-8

Əliyeva, S. (2023). Transxəzər Boru Kəməri: Türkmənistanın Avropa bazarlarına çıxışı. Bakı: İqtisadiyyat və Enerji Araşdırmaları Mərkəzi, s. 35-43

Əsgərov, T. (2019). Azərbaycan-Türkiyə enerji əməkdaşlığı və TANAP layihəsi. Bakı: Diplomatiya Akademiyası Nəşriyyatı, s.76-87

Hüseynli, V. (2020). Cənub Qaz Dəhlizinin iqtisadi təsirləri və gələcək inkişaf perspektivləri. Bakı: Avrasiya Araşdırmaları Mərkəzi, s.1-10

İsmayılov, F. (2022). Orta Koridor: Qaz ticarətinin inkişafı və regional inteqrasiya imkanları. Bakı: ADA Universiteti Nəşriyyatı, s.124-132

Qasımov, A. (2021). Azərbaycanın enerji strategiyası və Avropaya qaz tədarükü. Bakı: Strateji Araşdırmalar Mərkəzi, s.53-62

Məmmədov, E. (2023). Orta Asiya qazının Avropaya nəqli: Çətinliklər və imkanlar. Bakı: Enerji Araşdırmaları Fondu, s.1-7

Süleymanov, R. (2018). Azərbaycanın enerji təhlükəsizliyi və Cənub Qaz Dəhlizinin rolu. Bakı: Qanun Nəşriyyatı, s.24-35

SOCAR rəqəmlərdə. SOCAR-ın statistik məlumatları. 2024

Azərbaycan Respublikası Energetika Nazirliyi. Statistik məlumatlar. 2024

# THE ROLE AND MANAGEMENT MECHANISM OF FINANCIAL FLOWS IN THE ACTIVITY OF INDUSTRIAL ENTERPRISES

**Talibli Sudeyif Natig**

**Sumgayit State University**

**https://orcid.org/0000-0002-2485-388X**

**abbasovasss_85@mail.ru**

**Rəyçi:**
**Abdullayev Loğman İmran oğlu,**
**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The development of commodity markets creates the need to optimize material and financial flows by improving the means and methods of timely and complete satisfaction of product demand, their structuring means. From the point of view of economic security, the financial flows affecting the financial situation of the enterprise, the concept of financial flows in modern foreign and domestic literature, the inseparability of financial flows from the flow of cash, the movement of financial flows, the composition of financial flows in the enterprise, efficient management of these flows, careful planning of their movement and attention was paid to the control requirement, the means of effective management of financial flows. As a result, the management of a company's financial flows is a complex and multifaceted process that requires consistency, analytical skills and the ability to make important financial decisions. Given that cash flow management plays an important role in ensuring the company's financial stability and success in a competitive market environment, the proper management of financial flows should be considered as a strategic tool that contributes to the stable development of enterprises and competitiveness in the market.

**Keywords:** financial flow, investment, management, security, control, external environment

# РОЛЬ И МЕХАНИЗМ УПРАВЛЕНИЯ ФИНАНСОВЫМИ ПОТОКАМИ В ДЕЯТЕЛЬНОСТИ ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЙ

**Талыблы Судеиф Натиг**

**Сумгаитский государственный университет**

**https://orcid.org/0000-0002-2485-388X**

**abbasovass_85@mail.ru**

## Резюме

Развитие товарных рынков порождает необходимость оптимизации материальных и финансовых потоков путем совершенствования средств и методов своевременного и полного удовлетворения спроса на продукцию, средств их структурирования. С точки зрения экономической безопасности финансовые потоки, влияющие на финансовое положение предприятия, понятие финансовых потоков в современной зарубежной и отечественной литературе, неотделимость финансовых потоков от движения денежных средств, движение финансовых потоков, состав финансовых потоков на предприятии, эффективное управление этими потоками, тщательное планирование их движения, а также внимание было уделено требованиям контроля, средствам эффективного управления финансовыми потоками. В результате управление финансовыми потоками компании представляет собой сложный и многогранный процесс, требующий последовательности, аналитических навыков и умения принимать важные финансовые решения. Учитывая, что управление денежными потоками играет важную роль в обеспечении финансовой устойчивости и успеха компании в конкурентной рыночной среде, правильное управление финансовыми потоками следует рассматривать как стратегический инструмент, способствующий стабильному развитию предприятия и конкурентоспособности на рынке.

**Ключевые слова:** финансовый поток, инвестиции, управление, безопасность, контроль, внешняя среда.

# SƏNAYE MÜƏSSİSƏLƏRİNİN FƏALİYYƏTİNDƏ MALİYYƏ AXINLARININ ROLU VƏ İDARƏ OLUNMASI MEXANİZMİ

**Talıblı Südeyif Natiq**

**Sumqayıt Dövlət Universiteti**

**https://orcid.org/0000-0002-2485-388X**

**abbasovasss_85@mail.ru**

**Giriş:** Ölkə iqtisadiyyatı hər bir müəssisənin davamlı inkişafından və xüsusən də böhran dövrlərində idarəetmə prosesinin təkmilləşdirilməsindən çox asılıdır. Ən aktual istiqamət mövcud maliyyə resurslarını, onların hərəkət vektorlarını və biznes strukturlarının iqtisadi təhlükəsizliyinə təsirini müəyyən etməklə istehsalın səmərəliliyinin artırılmasıdır.

Maliyyə axınlarının parametrləri həmişə xarici mühitlə sıx bağlıdır, çünki ətraf mühitin əlamətləri müəyyən növ resursların formalaşması üçün əsasdır. Xarici mühitin amilləri daxili amillərlə birlikdə maliyyə axınlarının formalaşmasının mümkün əlavə mənbələrini, istiqamətlərini, onların həcmlərini, qanunauyğunluqlarını və hərəkət sürətini müəyyən edir. Həmçinin konkret maliyyə alətlərindən istifadə şərtlərini və qaydalarını müəyyən edir, onları müəssisənin və onun komponentlərinin iqtisadi təhlükəsizlik səviyyəsinin diaqnostikasına təsirinin maliyyə axınlarının iqtisadi və riyazi modelləşdirilməsi prosesini səmərəli edir. (Ramanan, 2013).

**Əsas hissə:** İqtisadi təhlükəsizlik nöqteyi-nəzərindən maliyyə, kredit və investisiya təhlükəsizliyi həmişə müəssisənin maliyyə vəziyyətinə təsir edən qənaətbəxş və ya qeyri-qənaətbəxş maliyyə axınları ilə əlaqələndirilir və onun maliyyə müdafiəsinin dərəcəsində və ya səviyyəsində əks olunur. Hər hansı digər kateqoriya kimi, zaman baxımından dinamik olan və maliyyə axınlarının təsiri altında olan "iqtisadi kredit və investisiya təminatı" da lazımi diaqnostikanı, yəni sabit cərəyandan mühafizənin sapma miqyasını təyin etməyə yönəlmiş qiymətləndirmə tədbirləri sisteminin işlənib hazırlanmasını tələb edir (Khoma and Gaiduchok, 2023).

Xarici təcrübədə maliyyə axınları əvəzinə müəssisələrə münasibətdə “pul vəsaitlərinin hərəkəti” termini istifadə olunur. “Pul vəsaitlərinin hərəkəti” anlayışı mühasibat uçotunda 1973-cü ildən, müəssisələrin pul vəsaitlərinin hərəkəti haqqında məlumatların xarici hesabatlarda əks etdirilməsi zərurəti yarandığı vaxtdan istifadə olunmağa başlandı. Bu sahədə tədqiqatlar P. Manson tərəfindən aparılmışdır. O, 1961-ci ildə nəşr olunmuş “Pul vəsaitlərinin hərəkəti: Təhlil və fondların hesabatı” adlı əsərində vurğulayırdı ki, “pul vəsaitlərinin hərəkəti”nin nəticəsi fəaliyyət göstəricisi kimi xalis gəlir hesab edilməməlidir. P. Manson əsas maliyyə hesabatı kimi “Fond hesabatı”nın təqdim edilməsini tövsiyə etdi və kapitala müəssisənin bütün maliyyə resursları daxil edilməlidir.

Digər tərəfdən müasir xarici və yerli ədəbiyyatda maliyyə axınları anlayışından daha çox sahibkarlıq subyektləri səviyyəsində istifadə olunur. İdarəetmənin üç əsas sahəsinə görə qruplara bölünə bilən çoxsaylı şərhlər var: dövlət maliyyəsi, maliyyə idarəetməsi və maliyyə logistikası baxımından. Aparılan konseptual qiymətləndirmə maliyyə və pul vəsaitlərinin hərəkətinin vaxt intervalları və hərəkət istiqaməti ilə ölçülən, axınların davamlılığında yekunlaşan homojen mahiyyətini göstərdi. Maliyyə axınından pul vəsaitlərinin hərəkətinə və əksinə hərəkət müəyyən şərtlərdəki dəyişikliklər səbəbindən baş verir. Onların arasındakı fərq ondan ibarətdir ki, maliyyə axını maliyyə resurslarını, pul vəsaitlərinin hərəkəti isə pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkətini əks etdirir (Токарев, 2015).

Başqa sözlə, maliyyə axını pul vəsaitlərinin hərəkətindən ayrılmazdır, lakin axınlar arasında vaxt fərqi əhəmiyyətli ola bilər və axınların istiqaməti fərqli ola bilər (Butrin amd Ossik, 2014).

Əmtəə bazarlarının inkişafı, məhsula tələbatın vaxtında və tam ödənilməsi vasitələri və üsulları, onların strukturlaşma vasitələrinin təkmilləşdirilməsi yolu ilə maddi və maliyyə axınlarının optimallaşdırılması zərurətinə səbəb olur.

Maliyyə axınlarının hərəkəti, fəaliyyəti zamanı istənilən səviyyəli iqtisadi sistem tərəfindən başlanır. Məhz maliyyə axınları müəyyən şəkildə formalaşan maliyyə resurslarını bu iqtisadi sistem üçün müsbət və ya mənfi nəticə ilə xarakterizə olunan məqsədyönlü hərəkətə çevirir. Beləliklə, maliyyə axınları maliyyə resurslarının hərəkətinin dinamik forması kimi mikro, mezo, makro, mezo, makro və qlobal səviyyələrdə özünü göstərir (Pasinovych and Sych).

Müəssisədəki maliyyə axınlarına müxtəlif mənbələrdən ödənişlər və pul vəsaitlərinin daxilolmaları, məsələn, malların və ya xidmətlərin satışı, investisiyalar, kreditlər və s. daxildir. Bu axınların səmərəli idarə edilməsi onların hərəkətinə diqqətli planlaşdırma və nəzarət tələb edir.

Birincisi, pul vəsaitlərinin hərəkətinin planlaşdırılması müəyyən bir müddət üçün gözlənilən xərclərin və daxilolmaların müəyyən edilməsini əhatə edir. Bu, şirkətə öz maliyyə ehtiyaclarını adekvat qiymətləndirməyə və onları ödəmək üçün strategiyalar hazırlamağa imkan verir.

Məsələn, fasiləsiz istehsalı təmin etmək üçün dövriyyə kapitalına olan tələbləri qabaqcadan proqnozlaşdırmaq və ya yeni məhsulun hazırlanması üçün zəruri xərcləri hesablamaq.

İkincisi, maliyyə axınlarına nəzarət onların hərəkətini sistematik şəkildə izləmək və faktiki rəqəmləri planlaşdırılanlarla müqayisə etməkdən ibarətdir. Bu, vaxtında sapmaları müəyyən etməyə və maliyyə problemlərinin qarşısını almaq üçün düzəldici tədbirlər görməyə imkan verir. Məsələn, faktiki xərclər nəzərdə tutulandan çox olarsa, büdcəyə yenidən baxılması və resurslardan daha səmərəli istifadə edilməsi üçün tədbirlər görülməsi lazım gələ bilər.

Bundan əlavə, maliyyə axınlarının effektiv idarə edilməsinə kreditlər, investisiyalar və qarşı tərəflərlə müqavilə şərtlərinin optimallaşdırılması kimi maliyyə alətlərindən rasional istifadə də daxildir. Məsələn, əlverişli kredit şərtləri şirkətə qısa müddətdə ehtiyac duyduğu likvidliyi təmin etməyə kömək edə bilər. (Yaneer, Langlois-Meurinne, Kawakatsu and Rodolfo Garcia, 2017).

Xülasə, şirkətin maliyyə axınlarının idarə edilməsi ardıcıllıq, analitik bacarıqlar və mühüm maliyyə qərarları qəbul etmək bacarığı tələb edən mürəkkəb və çoxşaxəli prosesdir. Bu axınların səmərəli idarə olunması təkcə şirkətin maliyyə sabitliyini təmin etmir, həm də onun inkişaf etdirilməsinə və strateji məqsədlərinə çatmasına kömək edir. (Курбатова, 2014)

**Nəticə:** Pul vəsaitlərinin hərəkətinin idarə edilməsi rəqabətli bazar mühitində şirkətin maliyyə sabitliyinin və uğurunun təmin edilməsində mühüm rol oynayır. Effektiv planlaşdırma, maliyyə axınlarına nəzarət və optimallaşdırma yolu ilə şirkətlər daxili və xarici şəraitdəki dəyişikliklərə çevik reaksiya verə, resurslardan optimal istifadəni təmin edə və strateji məqsədlərə nail ola bilərlər. Maliyyə axınlarının düzgün idarə olunması müəssisələrin sabit inkişafına və bazarda rəqabət qabiliyyətinə töhfə verən strateji alət kimi nəzərdən keçirilməlidir.

**Ədəbiyyat:**

Management of financial flows in the supply chain of industrial [Text] : monograph / A.G.Butrin, Yu.I.Ossik, Z.S.Gelmanova. - Караганда: КарГУ, 2014. - 112 s.

Modeling the financial flows impact on the diagnosis of an enterprise’s economic security level

Khoma I. B., Gaiduchok O. V., Markovych Kh. M. Lviv Polytechnic National University, 12 S. Bandera Str., 79013, Lviv, Ukraine.

Pasinovych, I.I., Sych, O. A. (2020) Modern approaches to managing financial flows of business entities. P. 9. URL: https://financial.lnu.edu.ua/wp-content/uploads/2015/10/56.pdf .

Ramanan, V. (1.09.2013) Flow of funds and keynesian macroeconomics. [Электронный ресурс]. URL: http://www.concertedaction.com/2013/09/15/flow-of-funds-and-keynesian-macroeconomics

Yaneer Bar-Yam, Jean Langlois-Meurinne, Mari Kawakatsu, Rodolfo Garcia, Preliminary steps toward a universal economic dynamics for monetary and fiscal policy, arXiv:1710.06285 (October 10, 2017; Updated December 29, 2017.

Курбатова О.Р. (2014) Денежные потоки организации как объект управления // Вестник Владимирского государственного университета имени А.Г. и Н.Г. Столетовых. Серия: Экономические науки.. URL: http://vestnik-es.vlsu.ru

Токарев, Д.И. (2015) Финансовый поток: взгляд на сущность // Вестник Северо-Кавказского федерального университета. № 4(49) УДК 336.012.23.

https://C:/Users/User/Downloads/1341-1369-1-PB.pdf

https://ir.lib.vntu.edu.ua/bitstream/handle/123456789/42474/153393.pdf?sequence=2&isAllowed=y

https://necsi.edu/the-dynamics-of-financial-flows-and-their-significance-for-development

https://www.elibrary.imf.org/view/journals/007/2023/053/article-A001-en.xml

https://journals.openedition.org/poldev/6130

# ELEKTRON TİCARƏTDƏ MÜŞTƏRİYÖNÜMLÜ İDARƏETMƏYƏ DAVAMLI TƏCRÜBƏLƏRİN İNTEQRASİYASI: AZƏRBAYCANDA YAŞIL İSTEHLAKÇILIQ ÜZRƏ ARAŞDIRMA

**Abdullayev Abdulla İbrahim**
**Bakı Biznes Universiteti**
**https://orcid.org/0009-0006-1647-7358**
**abdullaabdullayev222@gmail.com**

**Rəyçi:**
**Abdullayev Loğman İmran oğlu,**
**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

**Xülasə**

Bu tədqiqat işi, elektron ticarət sektorunda müştəriyönümlü idarəetməyə dayalı davamlı təcrübələrin inteqrasiyasının müştəri məmnuniyyətini, sədaqətini və ümumi marka dəyərini necə artıracağını araşdırır, xüsusilə ekoloji həssas istehlakçılar arasında Azərbaycanda. Ətraf mühitə qarşı qlobal məlumatlılığın artması ilə e-ticarət müəssisələri, istehlakçıların gözləntilərini qarşılamaq üçün yaşıl qablaşdırma, karbon neytral göndərmə və etik mənbələrdən istifadə kimi davamlı təcrübələri qəbul etmək üçün artan təzyiqlərlə üzləşirlər. Cari ədəbiyyatı araşdıraraq və aparıcı qlobal şirkətlərin nümunələrini analiz edərək, bu iş davamlı, müştəri mərkəzli yanaşmaların müasir istehlakçı dəyərləri ilə necə uyğun gəldiyini göstərir. Tapıntılar, ekoloji cəhətdən dost təcrübələrin yalnız istehlakçıların ətraf mühitlə bağlı narahatlıqlarına cavab verməklə kifayətlənmədiyini, həm də marka nüfuzunu, müştəri sədaqətini və uzunmüddətli mənfəəti artırdığını göstərir. Bu tədqiqat göstərir ki, elektron ticarətdə davamlılıq qəbul edilməsi həm biznesə əhəmiyyətli üstünlüklər yaradır, həm də daha geniş ətraf mühit hədəflərinə töhfə verir, markaları korporativ məsuliyyət və davamlı inkişaf sahəsində liderlər kimi mövqeləndirir.

**Açar sözlər:** elektron ticarət, müştəriyönümlü idarəetmə, davamlılıq, yaşıl istehlakçılıq, Azərbaycan

# ИНТЕГРАЦИЯ УСТОЙЧИВЫХ ПРАКТИК В УПРАВЛЕНИЕ, ОРИЕНТИРОВАННОЕ НА КЛИЕНТА, В ЭЛЕКТРОННОЙ ТОРГОВЛЕ: ИССЛЕДОВАНИЕ ЗЕЛЕНОГО ПОТРЕБИТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ

**Абдуллаев Абдулла Ибрагим**
**Бакинский университет бизнеса**
**https://orcid.org/0009-0006-1647-7358**
**abdullaabdullayev222@gmail.com**

## Резюме

Данное исследование анализирует, как интеграция устойчивых практик в ориентированное на клиента управление в секторе электронной коммерции может улучшить удовлетворенность клиентов, лояльность и общую ценность бренда, особенно среди экологически сознательных потребителей в Азербайджане. С ростом глобальной осведомленности об окружающей среде, предприятиям электронной коммерции приходится сталкиваться с возрастающим давлением по внедрению устойчивых практик, таких как экологическая упаковка, углеродно-нейтральная доставка и этичное снабжение, чтобы соответствовать ожиданиям потребителей. Изучив текущую литературу и проанализировав кейс-стадии ведущих мировых компаний, это исследование демонстрирует, как устойчивые, ориентированные на клиента подходы соответствуют современным ценностям потребителей. Результаты показывают, что экологически чистые практики не только отвечают озабоченности потребителей по поводу окружающей среды, но и повышают репутацию бренда, лояльность клиентов и долгосрочную прибыльность. Это исследование подчеркивает, что принятие устойчивости в электронной коммерции создает значительные преимущества для бизнеса и способствует достижению более широких экологических целей, позиционируя бренды как лидеров в корпоративной ответственности и устойчивом развитии.

**Ключевые слова:** электронная коммерция, ориентированное на клиента управление, устойчивость, зеленое потребительство, Азербайджан

# INTEGRATING SUSTAINABLE PRACTICES IN CUSTOMER-ORIENTED MANAGEMENT FOR E-COMMERCE: A STUDY ON GREEN CONSUMERISM IN AZERBAIJAN

**Abdullayev Abdulla Ibrahim**
**Baku Business University**

https://orcid.org/0009-0006-1647-7358
abdullaabdullayev222@gmail.com

E-commerce has revolutionized the retail industry, providing consumers with convenience and accessibility. However, the environmental impact of e-commerce—from packaging waste to carbon emissions—has become a major concern. Today, customers increasingly expect brands to adopt sustainable practices that reflect environmental responsibility. A 2021 report by McKinsey & Company highlights that more than 60% of global consumers are willing to pay more for products from environmentally conscious brands (McKinsey & Company, 2021). In Azerbaijan, the trend towards green consumerism is also growing, driven by both local policies and global environmental campaigns.

This paper examines how customer-oriented management in e-commerce can incorporate sustainability to meet these dual demands of customer satisfaction and environmental responsibility. Specifically, it explores the role of sustainable practices such as eco-friendly packaging, reduced carbon footprint, and ethical sourcing, and their effects on customer loyalty and satisfaction within Azerbaijan's e-commerce market.

## Literature Review

Customer-oriented management is essential for building trust and loyalty in the e-commerce sector, where customers have a wide range of options and are highly responsive to brand values. A customer-focused approach prioritizes meeting and exceeding customer expectations through personalization, convenience, and reliable service (Grewal et al., 2017). In recent years, sustainability has become an integral part of customer satisfaction. Research by Sheth et al. (2020) demonstrates that sustainable practices enhance brand reputation, particularly among younger consumers, who are more environmentally aware.

Eco-friendly practices such as green logistics and minimal packaging are also linked to cost savings and operational efficiency. According to the Ellen MacArthur Foundation (2019), companies that adopt circular economy practices, including reusing and recycling materials, can reduce waste and cut production costs, benefiting both businesses and the environment. This trend is gaining traction worldwide, as seen in major e-commerce companies like Amazon, which has implemented the Frustration-Free Packaging program to minimize packaging waste and improve recyclability.

## Methodology

This research combines a literature review and case study analysis. A review of academic and industry sources was conducted to understand the impact of sustainable practices on customer satisfaction. Case studies of companies like Amazon and Alibaba, as well as Azerbaijani e-

commerce platforms, were examined to analyze practical implementations of sustainable, customer-centric strategies.

### Impact on Customer Satisfaction

The findings indicate that integrating eco-friendly practices into customer-oriented management significantly improves customer satisfaction. A study conducted by Deloitte (2021) revealed that 55% of global consumers consider sustainability in their purchase decisions, and companies that prioritize eco-friendly measures see higher customer loyalty. For instance, Amazon's use of biodegradable packaging has increased customer trust and satisfaction by addressing environmental concerns (Amazon, 2021).

### Economic Benefits of Sustainable Practices

While implementing green practices requires upfront investments, they often lead to long-term financial benefits. Reducing packaging, for example, not only cuts material costs but also reduces shipping expenses due to lighter packages. A report by the World Economic Forum (2022) estimates that adopting sustainable practices can boost brand value by up to 20%. By aligning business operations with consumer preferences for sustainability, companies can gain a competitive edge in the market.

### Challenges and Solutions

Adopting sustainable practices poses challenges, particularly for small and medium-sized e-commerce companies, due to increased costs of green materials and limited access to eco-friendly resources. However, solutions such as government incentives and partnerships with green suppliers can mitigate these barriers. In Azerbaijan, government support for sustainable business practices could be beneficial, such as offering tax breaks or grants to companies implementing eco-friendly solutions.

### Conclusion

Incorporating sustainable practices into customer-oriented management is both feasible and beneficial for e-commerce companies, especially in markets like Azerbaijan where consumer awareness of environmental issues is growing. The study demonstrates that eco-friendly practices resonate strongly with consumers, positively influencing brand reputation, customer loyalty, and long-term profitability. Sustainable, customer-centric strategies not only contribute to business success but also align with global efforts to mitigate environmental impact.

### Future Research

Further research could examine the long-term effects of sustainable practices on brand loyalty and analyze the evolving attitudes of Azerbaijani consumers towards green e-commerce practices. Additionally, studies focusing on the economic benefits of sustainable logistics and packaging could provide valuable insights for e-commerce businesses looking to adopt eco-friendly practices.

### References:

Amazon. (2021). Sustainability Initiatives. Retrieved from https://sustainability.aboutamazon.com

Deloitte. (2021). Global Consumer Trends Report. Deloitte Insights.

Ellen MacArthur Foundation. (2019). The Circular Economy Handbook.

Grewal, D., Roggeveen, A. L., & Nordfält, J. (2017). The future of retailing. Journal of Retailing, 93(1), 1-6.

McKinsey & Company. (2021). The Future of Retail and Sustainability. Retrieved from https://www.mckinsey.com

Sheth, J. N., Sethia, N. K., & Srinivas, S. (2020). Mindful consumption: A customer-centric approach to sustainability. Journal of the Academy of Marketing Science, 48(1), 5-23.

World Economic Forum. (2022). Sustainable Business Report. Retrieved from https://www.weforum.org

# RESEARCH OF PATIENT SATISFACTION WITH QUALITY OF SERVICE

**Sadiqova Nuranə Hidayat**

**UNEC**

**https://orcid.org/0009-0001-1679-1228**

**sadiqova.nurane@gmail.com**

**Mirzayev Maqsud Shahsuvar**

**UNEC**

**https://orcid.org/0000-0002-0369-3522**

**magsud-mirzeyev@unec.edu.az**

**Rəyçi:**

**Rüstəmov İlham Şamil oğlu,**

**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

This article is aimed at studying the main factors affecting patient satisfaction in the healthcare sector. In the context of the service economy, the healthcare sector is a critical area, and the relationship between service quality and patient satisfaction is examined here using the SERVQUAL model and the Likert scale. The study, which includes data from 136 respondents, was analyzed using correlation and regression analyses in the SPSS 27 program. The results indicate that Empathy and Responsiveness are the most influential factors for improving patient satisfaction, with Physical Attributes also playing a significant role. However, Reliability and Assurance are not considered impactful factors.

**Keywords:** patient satisfaction, service quality, healthcare sector

# ИССЛЕДОВАНИЕ УДОВЛЕТВОРЕННОСТИ ПАЦИЕНТОВ КАЧЕСТВОМ ОБСЛУЖИВАНИЯ

**Садыгова Нурана Хидаят**

**UNEC**

**https://orcid.org/0009-0001-1679-1228**

**sadiqova.nurane@gmail.com**

**Мирзоев Магсуд Шахсувар**

**UNEC**

**https://orcid.org/0000-0002-0369-3522**

**magsud-mirzeyev@unec.edu.az**

**Резюме**

Эта статья направлена на изучение основных факторов, влияющих на удовлетворенность пациентов в сфере здравоохранения. В контексте экономики услуг сектор здравоохранения является важной областью, и здесь рассматривается связь между качеством обслуживания и удовлетворенностью пациентов с использованием модели SERVQUAL и шкалы Лайкерта. Данные исследования, включающего 136 респондентов, были проанализированы с помощью корреляционного и регрессионного анализа в программе SPSS 27. Результаты показывают, что эмпатия и отзывчивость являются наиболее значимыми факторами для повышения удовлетворенности пациентов, также физические характеристики играют важную роль, однако надёжность и гарантия не считаются значимыми факторами.

**Ключевые слова:** удовлетворенность пациентов, качество обслуживания, здравоохранение

**PASİYENT MƏMNUNİYYƏTİNİN XİDMƏT KEYFİYYƏTİ İLƏ TƏDQİQİ**

**Sadıqova Nuranə Hidayət**

**UNEC**

**https://orcid.org/0009-0001-1679-1228**

**sadiqova.nurane@gmail.com**

**Mirzəyev Maqsud Şahsuvar**

**UNEC**

**https://orcid.org/0000-0002-0369-3522**

**magsud-mirzeyev@unec.edu.az**

Günümüzde səhiyyə sektorunda xidmət keyfiyyəti və müştəri məmnuniyyəti əlaqəsi artan əhəmiyyət daşımaqdadır. Səhiyyə sektoru üçün pasiyentin tibb məntəqəsinə müraciət etdiyi andan etibarən diaqnozun qoyulması, müalicə və baxım müddətini əhatə edən bütün fəaliyyətlər xidmət keyfiyyəti faktoru halına gəlməkdə və məmnuniyyət üçün önəmli rol oynamaqdadır. Bu müddətdə müştərilər müəssisədən dəqiq, təmiz və peşəkar bir xidmət göstərilməsini gözləyirlər (Hajiyeva, 2021). Xəstəxananın xidmətlərindən razı qalan müştərilər eyni xəstəxananı öz tanışlarına yönləndirəcək və tövsiyə edəcəklər (Hameed, 2023). Marketinq ədəbiyyatı müştəri məmnuniyyətinin yaxşılaşdırılmasına diqqət yetirir. Məmnuniyyət müxtəlif tədqiqatlarla müxtəlif yollarla müəyyən edilir. Məmnuniyyət nə gözlənildiyini bilməklə əldə oluna bilər. Əgər bir firmanın təchizatı müştərilərin gözləntilərinə görə olsaydı, onlar razı olacaqdı (Inamullah, 2012). Müştərilərin daima zaman keçdikcə məhsullardan daha yüksək keyfiyyət gözləntiləri olur. Xidmət firmalarının ən önəmli xüsusiyyəti keyfiyyətə, onun istehsalına və müştəriyə təqdim olunma üslubuna diqqət edilməsindədir. Bir şirkət müştərilərə göstərdiyi xidmətlə xidmət keyfiyyəti və şirkətə qarşı müştəri məmnuniyyəti arasındakı əlaqəni ifadə edir. İstehlakçıların xidmət keyfiyyəti haqqında təsəvvürlərini ölçmək üçün SERVQUAL adlı çox elementli alətin inkişafı və potensial tətbiqləri təsvir edilmişdir. Bu, 5 ölçüyə bölünmüş xidmət keyfiyyətinin bir çox elementlərinə müraciət edən 22 maddədən ibarət alətdir (Parasuraman, A; Zeithaml, Valarie A; Berry, Leonard L., 1988).

1. Fiziki xüsusiyyətlər: fiziki imkanlar, avadanlıqlar və personalın görünüşü
2. Etibarlılıq: vəd edilmiş xidməti etibarlı və dəqiq yerinə yetirmək bacarığı
3. Cavablandırılabilirlilik/Həssaslıq: müştərilərə kömək etmək və sürətli xidmətin təmin edilməsinə istəklilik.
4. Təminat: işçilərin biliyi və nəzakəti, onların inam və etimadı ilhamlandırmaq bacarığı
5. Empatiya: firma müştərilərinə qayğıkeş, fərdi diqqət göstərməsi

**Tədqiqatın hipotezləri**

**H1:** Pasiyent məmnuniyyəti və xidmət keyfiyyəti cinsə görə əhəmiyyətli fərqlər göstərir; qadınlar və kişilər arasında həm məmnuniyyət, həm də xidmət keyfiyyəti səviyyələri arasında statistik olaraq əhəmiyyətli fərqliliklər mövcuddur;

**H2:** Xidmət keyfiyyəti yaş qruplarına görə əhəmiyyətli dərəcədə fərqlənir;

**H3:** Xidmət keyfiyyətinin fərqli komponentlərinin (etibarlılıq, cavablandırılabilirlik, empatiya və fiziki xüsusiyyətlər) pasiyent məmnuniyyəti üzərində əhəmiyyətli təsir fərqlilikləri mövcuddur.

Etibarlılıq, ölçmə vasitələrinin və şkalaların eyni şərtlərdə təkrar tətbiqi zamanı əldə edilən nəticələrin uyğunluğu əsasında müəyyən edilir. Ölçmənin etibarlılıq səviyyəsi artdıqca, ondan əldə olunan məlumatların da etibarlılığı yüksəlmiş hesab edilir (Əhmədov və digərləri, 2023). Bu tədqiqatda etibarlılıq analizi Cronbach Alpha dəyəri ilə aparılmışdır.

***Cədvəl 1.***

*Etibarlılıq Analizi Nəticələri*

| **Ölçü** | **Dəyişənlərin sayı** | **Cronbach Alpha Dəyəri** |
|---|---|---|
| Xidmət Keyfiyyəti | 22 | 0.970 |
| Pasiyent məmnuniyyəti | 5 | 0.873 |

Bu etibarlılıq analizi nəticələrində iki əsas ölçü olan “Xidmət Keyfiyyəti” və “Pasiyent Məmnuniyyəti” üçün Cronbach Alpha dəyərləri təqdim olunmuşdur. Təhlil nəticələri göstərir ki, “Xidmət Keyfiyyəti” ölçüsü üzrə Cronbach Alpha dəyəri 0.970 kimi hesablanmışdır ki, bu da yüksək etibarlılıq səviyyəsini əks etdirərək, ölçünün sabitliyini təsdiq edir. “Pasiyent Məmnuniyyəti” ölçüsü üçün isə Cronbach Alpha dəyəri 0.873-dür və bu nəticə də yüksək etibarlılığı göstərir. Ümumiyyətlə, hər iki ölçü üzrə əldə olunan Cronbach Alpha dəyərləri etibarlılıq üçün qəbul edilən hədləri aşır və ölçülərin güvənilir olduğunu ifadə edir.

***Cədvəl 2.***

**Korrelyasiya Təhlili**

| Ölçülər | Ortalama | S.s | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Xidmət Keyfiyyəti (1) | 3.4128 | .82693 | 1 | | | | | | |
| Məmnuniyyət (2) | 3.2191 | .85855 | .824** | 1 | | | | | |
| Fiziki Xüsusiyyətlər (3) | 3.4467 | .92166 | .853** | .688** | 1 | | | | |
| Etibarlılıq (4) | 3.4176 | .88626 | .933** | .734** | .764** | 1 | | | |
| Cavablandırılabilirlik (5) | 3.4375 | .88021 | .929** | .777** | .721** | .851** | 1 | | |
| Təminat (6) | 3.4007 | .91403 | .943** | .779** | .742** | .833** | .874** | 1 | |
| Empatiya (7) | 3.3706 | .90252 | .930** | .800** | .710** | .814** | .833** | .886** | 1 |

Korrelyasiya təhlili nəticələri Xidmət Keyfiyyəti (X.K), Məmnuniyyət, Fiziki Xüsusiyyətlər, Etibarlılıq, Cavablandırılabilirlik, Təminat və Empatiya arasında olan əlaqələri göstərir. Təhlil nəticələrində ortalamalar (M) və standart sapmalar (S.s) verilmişdir və hər bir korrelyasiya əmsalı

0.01 əhəmiyyət səviyyəsində statistik cəhətdən əhəmiyyətlidir.

Xidmət Keyfiyyəti (X.K) ölçüsü digər dəyişənlərlə çox güclü müsbət korrelyasiya göstərir: Məmnuniyyətlə (0.824), Fiziki Xüsusiyyətlər ilə (0.853), Etibarlılıqla (0.933), Cavablandırılabilirliklə (0.929), Təminatla (0.943) və Empatiya ilə (0.930). Bu nəticələr, Xidmət Keyfiyyəti ilə bu dəyişənlər arasında güclü əlaqələrin mövcudluğunu təsdiqləyir.

Məmnuniyyət dəyişəni də digər dəyişənlərlə əhəmiyyətli pozitiv korrelyasiya göstərir: Fiziki Xüsusiyyətlərlə (0.688), Etibarlılıqla (0.734), Cavablandırılabilirliklə (0.777), Təminatla (0.779) və Empatiya ilə (0.800). Bu, məmnuniyyətin xidmət keyfiyyətinin müxtəlif komponentləri ilə əlaqəli olduğunu göstərir.

Fiziki Xüsusiyyətlər digər dəyişənlərlə müsbət korrelyasiya dəyərlərinə malikdir və Etibarlılıq (0.764), Cavablandırılabilirlik (0.721), Təminat (0.742) və Empatiya (0.710) ilə statistik cəhətdən əhəmiyyətli korrelyasiya göstərir.

Etibarlılıq, Cavablandırılabilirlik, Təminat və Empatiya də qarşılıqlı olaraq əhəmiyyətli və müsbət əlaqələr göstərir, bu dəyişənlər arasında olan korrelyasiya dəyərləri 0.814 ilə 0.933 arasında dəyişir.

Ümumiyyətlə, bu təhlil göstərir ki, Xidmət Keyfiyyəti və onun müxtəlif komponentləri olan Məmnuniyyət, Fiziki Xüsusiyyətlər, Etibarlılıq, Cavablandırılabilirlik, Təminat və Empatiya arasında güclü müsbət əlaqələr mövcuddur. Bu yüksək korrelyasiya göstəriciləri xidmət keyfiyyətinin müxtəlif aspektlərindəki yaxşılaşmaların pasiyent məmnuniyyətini və digər keyfiyyət komponentlərini əhəmiyyətli dərəcədə artıracağını göstərir.

***Cədvəl 3.***

*Çoxlu reqressiya təhlili nəticələri*

| Model | R | R2 | Düzəldilmiş R2 | Standart xəta |
|---|---|---|---|---|
| 1 | 0.833 | 0.694 | 0.682 | 0. 48430 |

**Müstəqil dəyişənlər:** Empatiya, Fiziki Xüsusiyyətlər, Cavablandırılabilirlik, Etibarlılıq, Təminat

R2 = 0.694 və Düzəldilmiş R2 = 0.682 dəyərləri, bu dəyişənlərin pasiyent məmnuniyyətini izah etmə gücünün yüksək olduğunu göstərir. Bu nəticələr, səhiyyə müəssisələrinin bu dəyişənləri təkmilləşdirməklə pasiyent məmnuniyyətini artırmağa yönəlik strateji qərarlar qəbul etmələrinə imkan verir.

Cədvəl 4-da çoxlu reqressiya təhlilinin nəticələri təqdim olunmuşdur. Nəticələr, Pasiyent Məmnuniyyəti (asılı dəyişən) ilə bir neçə müstəqil dəyişənin (Fiziki Xüsusiyyətlər, Etibarlılıq, Cavablandırılabilirlik, Təminat və Empatiya) əlaqəsini qiymətləndirir. Cədvəldən əldə edilən məlumatları aşağıdakı şəkildə təhlil etmək olar:

Fiziki Xüsusiyyətlər: Bu dəyişən, B = 0.147, Beta = 0.158 ilə məmnuniyyət üzərində müsbət təsir göstərir. t = 2.004 və p = 0.047 dəyərləri bu dəyişənin statistik əhəmiyyətli olduğunu göstərir, çünki p dəyəri 0.05-dən kiçikdir. Fiziki şəraitin yaxşılaşdırılması pasiyent məmnuniyyətini artıra bilər.

*Cədvəl 4.*

*Çoxlu Reqressiya Təhlili*

| Dəyişən | Standart olmayan əmsallar | | Standart əmsallar | | |
|---|---|---|---|---|---|
| | B | Std. Xəta | Beta | t | p |
| **Sabit** | 0.302 | 0.179 | | 1.688 | 0.094 |
| Fiziki Xüsusiyyətlər | 0.147 | 0.074 | 0.158 | 2.004 | 0.047 |
| Etibarlılıq | -0.005 | 0.103 | -0.006 | -0.052 | 0.959 |
| Cavablandırılabilirlik | 0.254 | 0.111 | 0.261 | 2.295 | 0.023 |
| Təminat | 0.076 | 0.120 | 0.081 | 0.635 | 0.526 |
| Empatiya | 0.384 | 0.106 | 0.404 | 3.633 | <0.001 |

**Asılı dəyişən:** Pasiyent Məmnuniyyəti

Etibarlılıq: Bu dəyişənin təsiri çox zəifdir, çünki B = -0.005, Beta = -0.006, t = -0.052, və p = 0.959 göstərir ki, Etibarlılıq məmnuniyyətə əhəmiyyətli təsir etmir. Bu, dəyişənin pasiyent məmnuniyyəti ilə əlaqəsinin çox zəif olduğunu göstərir.

Cavablandırıla bilirlik: B = 0.254, Beta = 0.261, t = 2.295, və p = 0.023 göstərir ki, Cavablandırılabilirlik dəyişəni pasiyent məmnuniyyətini müsbət şəkildə təsir edir və statistik əhəmiyyətlidir. Bu nəticə, pasiyentlərin suallarına və ehtiyaclarına cavab verilməsinin onların məmnuniyyətini artırdığını göstərir.

Təminat: B = 0.076, Beta = 0.081, t = 0.635, və p = 0.526 ilə təminatın pasiyent məmnuniyyətinə olan təsiri əhəmiyyətsizdir. Bu nəticə təminatın bu modeldə statistik olaraq əhəmiyyətli bir təsir yaratmadığını göstərir.

Empatiya: Bu dəyişən çox güclü və əhəmiyyətli bir təsirə malikdir. B = 0.384, Beta = 0.404, t = 3.633, və p < 0.001 dəyərləri göstərir ki, Empatiya pasiyent məmnuniyyətini yüksək dərəcədə təsir edir. Bu, pasiyentlərin həkim və ya tibb işçiləri tərəfindən göstərilən empatiya və qayğının onların ümumi məmnuniyyətini artırdığını göstərir.

B və Std. Xəta əmsalları, hər bir dəyişənin asılı dəyişəni (Pasiyent Məmnuniyyəti) necə təsir etdiyini göstərir. Beta əmsalları isə müstəqil dəyişənlərin pasiyent məmnuniyyəti ilə necə əlaqəli olduğunu göstərir və müstəqil dəyişənlər arasında müqayisə imkanı yaradır.

t dəyəri, hər bir dəyişənin məmnuniyyətə təsirinin statistik əhəmiyyətini test edir. p dəyəri isə bu təsirin əhəmiyyətli olub-olmaması barədə məlumat verir. Burada Empatiya və Cavablandırılabilirlik statistik olaraq əhəmiyyətli olduğu üçün, bu dəyişənlər məmnuniyyətə güclü təsir edir.

**Nəticə və Tövsiyələr:**

Empatiya və Cavablandırılabilirlik ən əhəmiyyətli faktorlar kimi ön plana çıxır və pasiyent məmnuniyyətini artırmağa kömək edən əsas dəyişənlərdir. Bu sahələrə diqqət yetirilməsi, pasiyentlər üçün daha müsbət təcrübə yaradılmasına imkan verir.

Fiziki Xüsusiyyətlər də əhəmiyyətli bir faktordur və xidmətin təqdim edildiyi mühitin yaxşılaşdırılması pasiyent məmnuniyyətini artıracaq.

Etibarlılıq və Təminat isə məmnuniyyət üzərində əhəmiyyətli təsir yaratmır və bu dəyişənlərə dair əlavə təhlil və ya fərqli yanaşmaların tətbiqi lazım ola bilər.

Bu nəticələrə əsaslanaraq, səhiyyə müəssisələri, pasiyent məmnuniyyətini artırmaq üçün xüsusilə Empatiya və Cavablandırılabilirlik sahələrinə fokuslanmalı, xidmət keyfiyyətini yaxşılaşdırmaq üçün bu amilləri gücləndirməlidir.

**Ədəbiyyat:**


Hameed A.Z. (2023). A hybrid Fifth Generation based approaches on extracting and analyzing customer requirement through online mode in healthcare industry. Computers and Electrical Engineering Volume 106, 108550.

Hajiyeva, S. (2021). Hizmet Kalitesinin Müşteri Memnuniyeti Üzerine Etkisi , Azerbaycan Bankacilik Sektoründe Bir Saha Çalişmasi. Yüksek Lisans Tezi. 48-50

Inamullah, K. (2012). Impact of Customers Satisfaction and Customers Retention on Customer Loyalty. International Journal of Scientific & Technology Research Volume 1, Issue

Parasuraman, A., Zeithaml, Valarie A; Berry, Leonard L. (1988). Servqual: A Multiple-Item Scale for Measuring Consumer Perceptions of Service Quality. Journal of Retailing; Greenwich Vol. 64, Iss. 1, 12.

Kui-Son Choia, Woo-Hyun Chob, Sunhee Leec, Hanjoon Leed, Chankon Kim (2004). The relationships among quality, value, satisfaction and behavioral intention in health care provider choice: A South Korean study. Journal of Business Research 57, 913–921

Əhmədov, F., Seyfullayev, İ., Guliyev, O., Məmmədov, A. (2023). Tədqiqat Metodları, dərslik, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı.

Akgül, A. ve Çevik, O. (2005). İstatiksel Analiz Teknikleri: SPSS’te İşletme Yönetimi Uygulamaları, Ankara.

Gürbüz, S., Şahin, F. (2017). Sosyal bilimlerde araştırma yöntemleri: Felsefe- yöntem-analiz (4. Baskı). Seçkin Yayınevi.

# CURRENT SITUATION OF AZERBAIJAN-KAZAKHSTAN TRADE-ECONOMIC RELATIONS

**Atakishiyev Farhad Fuad**

**Institute of Oriental Studies named after Academician Ziya Bunyadov**

**https://orcid.org/0009-0006-2952-0386**

**atakishiyevfarhad@gmail.com**

**Rəyçi:**

**Vəliyev Cəbrayıl Xəlil oğlu,**

**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

This thesis highlights the current state of trade and economic relations between Azerbaijan and Kazakhstan. In recent years, trade and economic relations between Azerbaijan and Kazakhstan have reached a strategic partnership level and continue to develop. In 2022, the "Declaration on Strengthening Strategic Relations and Deepening Allied Interaction" was signed, further solidifying these relations. In 2023, the trade turnover between the two countries reached 598.47 million USD, with significant developments in transport and logistics, particularly in cargo transportation along the Trans-Caspian International Transport Route. Cooperation in the energy sector has also expanded, with oil from the Tengiz field beginning to be transported via the Baku-Tbilisi-Ceyhan pipeline. An Intergovernmental Commission operates to promote the development of trade and economic cooperation, with regular meetings held between the two countries. Overall, relations are steadily advancing, promising mutually beneficial cooperation prospects.

**Key words:** trade-economic relations, strategic partnership, inter-country trade, cooperation, alliance.

# СОВРЕМЕННОЕ ПОЛОЖЕНИЕ В ТОРГОВО-ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЯХ АЗЕРБАЙДЖАН-КАЗАХСТАН

**Атакишиев Фархад Фуад**

**Институт востоковедения имени академика Зии Буньядова**

**https://orcid.org/0009-0006-2952-0386**

**atakishiyevfarhad@gmail.com**

**Резюме**

В тезисе освещается современное состояние торгово-экономических отношений между Азербайджаном и Казахстаном. В последние годы торгово-экономические отношения между Азербайджаном и Казахстаном вышли на уровень стратегического партнерства и продолжают развиваться. В 2022 году было подписано "Заявление о укреплении стратегических отношений и углублении союзнического взаимодействия", что еще больше укрепило эти отношения. В 2023 году товарооборот между двумя странами достиг 598,47 миллионов долларов США, значительные изменения произошли в сфере транспорта и логистики, особенно в перевозке грузов по Транскаспийскому международному транспортному маршруту. Сотрудничество в энергетическом секторе также расширилось, началась транспортировка нефти с месторождения Тенгиз по трубопроводу Баку-Тбилиси-Джейхан. Для содействия развитию торгово-экономического сотрудничества между двумя странами действует Межправительственная комиссия, проводящая регулярные заседания. В целом, отношения стабильно развиваются и обещают перспективы взаимовыгодного сотрудничества.

**Ключевые слова:** торгово-экономические отношения, стратегическое партнёрство, торговля между странами, сотрудничество, союзничество.

# AZƏRBAYCAN-QAZAXISTAN TİCARƏT-İQTİSADİ ƏLAQƏLƏRİNİN MÜASİR VƏZİYYƏTİ

**Atakişiyev Fərhad Fuad**

**Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu**

**https://orcid.org/0009-0006-2952-0386**

**atakishiyevfarhad@gmail.com**

Azərbaycan və Qazaxıstan arasında ticarət-iqtisadi əlaqələr uzun illərdir ki, hər iki ölkənin iqtisadi inkişafı və regional əməkdaşlıq üçün mühüm əhəmiyyət kəsb edən bir sahəyə çevrilmişdir. Həm coğrafi mövqeləri, həm də zəngin enerji resurslarına malik olmaları Azərbaycan və Qazaxıstanı iqtisadi cəhətdən bir-birini tamamlayan tərəfdaşlar kimi çıxış etməyə imkan verir.

**Azərbaycan və Qazaxıstan arasında ticarət-iqtisadi əlaqələr**

Azərbaycan və Qazaxıstan arasında ticarət-iqtisadi əlaqələr son illərdə güclü bir inkişaf yolu keçmişdir və bu əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır. Azərbaycan Prezidenti Heydər Əliyevlə Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin ilk görüşlərindən biri 19 oktyabr 1994-cü il tarixində baş tutmuşdur. Türk dövlət başçılarının ikinci zirvə görüşündə iştirak edən Heydər Əliyev və Nursultan Nazarbayev bir araya gələrək iki ölkə arasında əlaqələrin inkişaf perspektivlərini müzakirə etmişlər (Hüseynli, 2022: 151). Bu görüşdə Azərbaycan-Qazaxıstan münasibətlərinin həm türk dövlətləri arasındakı əlaqələr çərçivəsində, həm də ikitərəfli əsasda qurulması qərara alınmışdır. Heydər Əliyev bu görüşdə çıxış edərək vurğulamışdır ki, "*Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan respublikaları bu gün müstəqil dövlətlər sırasındadır. Bu respublikalarla Azərbaycan arasında tarixi ənənələrə, dostluq və qardaşlıq bağlarına əsaslanan əlaqələr əsrlər boyu mövcud olmuşdur. Biz əsrlər boyunca bir yerdə yaşamış, ortaq adət-ənənələrə malik olmuş və daim bir-birimizə yardım etmişik. Müstəqil olmadığımız 70 il ərzində, sovetlər birliyinin tərkibində olduğumuz dövrdə də Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında dostluq və qardaşlıq əlaqələri həmişə möhkəm və sıx olmuşdur; biz daim bir-birimizə dəstək olmuşuq*" (Əliyev, 1997: 224).

İki ölkə arasında 2022-ci ildə imzalanmış "Strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə" ilə əməkdaşlıq daha da möhkəmlənmişdir. Bu razılaşma ilə hər iki ölkə enerji, nəqliyyat, logistika və kənd təsərrüfatı sahələrində qarşılıqlı əlaqələri genişləndirməyə davam etmişdir (Egamberdiyev & Shaldarbekova, 2023).

Ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi üçün iki ölkə arasında Hökumətlərarası Komissiya fəaliyyət göstərir və bu komissiya müntəzəm iclaslar keçirərək iqtisadi və ticarət əməkdaşlığını daha da inkişaf etdirmək istiqamətində qərarlar qəbul edir.

**Müasir vəziyyət**

Azərbaycan və Qazaxıstan arasında iqtisadi əlaqələr xüsusilə dinamikdir, sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, ticarət və xidmətlər kimi əsas sektorlar üzrə Azərbaycanda Qazaxıstan sərmayəli 182 kommersiya qurumu qeydiyyatdan keçmişdir. 2023-cü ildə Azərbaycan və Qazaxıstan arasında ticarət dövriyyəsi 598,47 milyon ABŞ dolları təşkil etmişdir. Bu göstərici əvvəlki illərlə müqayisədə əhəmiyyətli artımı əks etdirir və iki ölkə arasında iqtisadi əməkdaşlığın

genişlənməsini göstərir (Abdul, 2024).

2024-cü ilin yanvar-fevral aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 138 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 84 ölkəyə məhsul ixrac olunmuş, 134 ölkədən idxal olunmuşdur. Bu dövrdə ölkənin xarici ticarət dövriyyəsi 6428,2 milyon ABŞ dolları təşkil etmişdir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2024).

İki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın inkişafında nəqliyyat və logistika sahələri xüsusi əhəmiyyət kəsb edir. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) vasitəsilə yüklərin daşınması sürətlənmiş və bu marşrutun imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir (Mustafayev, 2022).

Enerji sektorunda da əməkdaşlıq genişlənir. "SOCAR Midstream Operations" MMC 2023-cü ilin martında Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə Qazaxıstanın Tengiz yatağından ayda 125 min ton neft nəql etməyə başlamışdır. Qazaxıstan neftinin Aktau limanından 2023-cü il martın 21-də "Prezident Heydər Əliyev" tankerinə ilk yüklənməsi baş tutmuşdur, martın 28-də isə "Ş uşa" tankerinə ikinci yükləmə həyata keçirilmişdir. 2023-cü ilin mart ayından etibarən Qazaxıstanın Tengiz yatağından ayda 125 min ton həcmində neft Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə nəql olunur. Bu, iki ölkə arasında enerji sahəsində əməkdaşlığın dərinləşməsinin göstəricisidir (Abdul, 2024).

Azərbaycan və Qazaxıstan arasında ticarət-iqtisadi əlaqələrin inkişafı üçün Hökumətlərarası Komissiya fəaliyyət göstərir. Komissiyanın indiyədək 20 iclası keçirilmişdir ki, sonuncu iclas 2024-cü ilin mart ayında Astanada baş tutmuşdur.

Ümumilikdə, Azərbaycan-Qazaxıstan ticarət-iqtisadi əlaqələri yüksələn xətt üzrə inkişaf edir və qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş perspektivlər vəd edir.

**Ədəbiyyat:**


Abdul, N. (2024). Economic dynamism: Azerbaijan-Kazakhstan relations flourish across sectors. Elektron resurs: https://www.azernews.az/analysis/228474.html giriş tarixi: 05.11.2024.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2024.

https://www.stat.gov.az/news/source/PRESS_2024_01_xt.pdf giriş tarixi: 06.11.2024.

Əliyev, H. (1997). Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. *C*, *10*, 218-230.

Egamberdiyev, M., & Shaldarbekova, A. (2023). Relations between Kazakhstan and Azerbaijan in the Current Geopolitical Environment: Analysis and Perspectives for Development. *Вестник КазНУ. Серия международные отношения и международное право*, *103*(3), 4-14.

Huseynli, D. (2022). The Goals of Azerbaijan-Kazakhstan Cooperation During the Collapse of the Socialist System. *" Eastern Studies" scientific-theoretical journal*, *4*(1 (5)).

Mustafayev, M. (2022). Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun önəmi ildən-ilə artır. Elektron resurs: https://respublika-news.az/az/news/transxezer-beynelxalq-neqliyyat-marsrutunun-onemi-ilden-ile-artir giriş tarixi: 06.11.2024.

# PROSPECTS FOR THE DEVELOPMENT OF LIGHT INDUSTRY IN AZERBAIJAN WITHIN THE FRAMEWORK OF THE GREEN ECONOMY

**Hashimova Gunay Gnyaz**

**Baku Business University**

**https://orcid.org/0009-0002-7036-0020**

**gunay.hesimova07@gmail.com**

**Rəyçi:**
**Rüstəmov İlham Şamil oğlu,**
**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The light industry sector in Azerbaijan plays an important role in the country's economy and is important in terms of increasing employment, economic diversification and strengthening export potential. The development of this sector in accordance with the principles of the green economy can be made possible by the application of sustainable production technologies and the production of products with a minimal impact on the environment. The light industry, which includes areas such as textiles, shoes, leather and chemicals, has not yet been able to fully realize its potential and faces difficulties in competing in foreign markets. This area can be strengthened by implementing environmentally responsible production, expanding recycling processes and applying green technologies.

Application of modern technologies, production processes with minimal impact on the environment and state support are important for the development of light industry. In order to strengthen local production and increase export potential, there is a need to create both technological equipment and human resources suitable for the green economy. The development of the light industry sector in accordance with the principles of green economy with state support and the application of innovative technologies can create new opportunities for the economy of Azerbaijan.

**Keywords:** light industry, Azerbaijan, green economy, export potential, sustainable development

# ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ЛЕГКОЙ ПРОМЫШЛЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ В РАМКАХ ЗЕЛЕНОЙ ЭКОНОМИКИ

**Гашимова Гюнай Князь**

**Бакинский университет бизнеса**

**https://orcid.org/0009-0002-7036-0020**

**gunay.hesimova07@gmail.com**

**Резюме**

Сектор легкой промышленности в Азербайджане играет важную роль в экономике страны и важен с точки зрения увеличения занятости, диверсификации экономики и укрепления экспортного потенциала. Развитие этого сектора в соответствии с принципами зеленой экономики может стать возможным за счет применения технологий устойчивого производства и производства продукции с минимальным воздействием на окружающую среду. Легкая промышленность, включающая в себя такие отрасли, как текстильная, обувная, кожевенная и химическая, еще не смогла полностью реализовать свой потенциал и сталкивается с трудностями в конкурентной борьбе на внешних рынках. Эту область можно усилить за счет внедрения экологически ответственного производства, расширения процессов переработки и применения «зеленых» технологий.

Для развития легкой промышленности важное значение имеют применение современных технологий, производственных процессов с минимальным воздействием на окружающую среду и государственная поддержка. Для укрепления местного производства и повышения экспортного потенциала необходимо создать как технологическое оборудование, так и человеческие ресурсы, подходящие для зеленой экономики. Развитие сектора легкой промышленности в соответствии с принципами зеленой экономики при государственной поддержке и применении инновационных технологий может создать новые возможности для экономики Азербайджана.

**Ключевые слова:** легкая промышленность, Азербайджан, зеленая экономика, экспортный потенциал, устойчивое развитие.

# AZƏRBAYCANDA YÜNGÜL SƏNAYENİN YAŞIL İQTİSADİYYAT ÇƏRÇİVƏSİNDƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**Həşimova Günay Qnyaz**

**Bakı Biznes Universiteti**

**https://orcid.org/0009-0002-7036-0020**

**gunay.hesimova07@gmail.com**

Azərbaycanda yüngül sənaye sektoru yaşıl iqtisadiyyat çərçivəsində bəzi imkan və maneələrlə üzləşir. Tekstil sənayesi son illərdə müəyyən irəliləyişlərə nail olsa da, xarici bazarlarda rəqabət etməkdə çətinlik çəkir. Yerli tekstil məhsulları əsasən daxili bazara yönəldilir və bu sahədə ekoloji məsuliyyətə uyğun istehsal metodlarına ehtiyac duyulur. Təkrar emal olunmuş materialların və üzvi xammalın istifadəsi ilə bu sahədə ekoloji təsirləri minimuma endirmək mümkündür. Eyni zamanda, enerji səmərəliliyinin artırılması və tullantıların azalması üçün sektorda yaşıl texnologi-yaların tətbiqi əhəmiyyətlidir. (İsmayılov R.A. və Hacıyev Z.E., 2021).

Ayaqqabı və dəri sənayesi də müəyyən bir inkişaf göstərmişdir, lakin xammal mənbələrinin məhdudluğu və texnoloji təchizatın zəifliyi yaşıl iqtisadiyyat prinsiplərinə uyğun istehsalı çətinləşdirir. Yerli istehsal daha çox yerli xammala əsaslandığından, təkrar emal texnologiyalarının tətbiqi və ekoloji materialların istifadəsi məhsulların ekoloji dəyərini artırar. Mövcud texnologiya çatışmazlığı isə məhsulların keyfiyyətini aşağı salır və rəqabət gücünü zəiflədir. Bu sahədə ekoloji standartlara uyğun texnologiyaların tətbiqi məhsulun həm keyfiyyətini, həm də ekoloji uyğunluğunu təmin edər.

Kimya və kosmetika sənayesində də müəyyən inkişaflar mövcuddur və məhsulların xarici bazarlara çıxışı artmışdır. Lakin bu sektorda məhsulların ekoloji təhlükəsizliyi təmin edilməli və təkrar emal prosesləri genişləndirilməlidir. Ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi daxili və xarici bazarda rəqabət qabiliyyətini gücləndirər. Yaşıl texnologiyalar və təkrar emal prosesləri vasitəsilə kimya sənayesinin məhsulları ətraf mühitə zərər vermədən istehsal oluna bilər ki, bu da yaşıl iqtisadiyyat prinsiplərinə uyğun fəaliyyətin əsasını təşkil edir.

Azərbaycanda yüngül sənaye müəssisələrinin əksəriyyəti köhnə texnologiyalarla fəaliyyət göstərdiyi üçün istehsal proseslərində enerji səmərəliliyi və ekoloji uyğunluq təmin edilmir. Müasir yaşıl texnologiyaların tətbiqi ilə istehsalın ekoloji təsirləri azaldılmalı, məhsulların keyfiyyəti və rəqabət qabiliyyəti artırılmalıdır. Dövlətin maliyyə dəstəyi ilə müəssisələrin ekoloji standartlara uyğun texnologiyalara keçidi dəstəklənməlidir. (Quliyev A., 2020).

Yüngül sənayenin yaşıl iqtisadiyyat tələblərinə uyğun inkişafı üçün ixtisaslı və təcrübəli kadr ehtiyacı da önəmlidir. Yaşıl texnologiyalar və ekoloji təhlükəsiz istehsal prosesləri üzrə təlim-lər və kadr hazırlığı proqramları genişləndirilməlidir. Bu yanaşma təcrübəli işçi qüvvəsi vasitəsilə məhsul keyfiyyətini artıracaq və yenilikçi texnologiyaların tətbiqini asanlaşdıracaqdır. Eyni zaman-da, sənaye müəssisələrinin yaşıl iqtisadiyyata keçidi üçün maliyyə mənbələri mühüm rol oynayır. Müasir yaşıl texnologiyaların tətbiqi, təkrar emal proseslərinin genişləndirilməsi və ekoloji təhlükəsiz məhsulların istehsalı üçün dövlət və beynəlxalq maliyyə dəstəyindən faydalanmaq lazımdır. Müəssisələr kredit və subsidiya proqramları vasitəsilə ekoloji cəhətdən məsuliyyətli istehsal metodlarına keçid edə bilərlər.

*Cədvəl 1.*

*Azərbaycanda 2014-2023-cü illlər üzrə yüngül sənaye*

| **İl** | **ÜDM (milyard manat)** | **Real artım tempi (%)** | **Yüngül sənayenin ÜDM-də payı (%)** | **Yaşıl iqtisadiyyatla əlaqə** |
|---|---|---|---|---|
| **2014** | **59,0** | **2,8** | **1,2** | Ənənəvi istehsal prosesləri, ekoloji texnologiya-ların az olması ilə xarakterizə olunur. |
| **2015** | 54,4 | 1,1 | 1,0 | İqtisadiyyatın azaldığı dövr, ekoloji texnologiyalara keçid üçün dövlət dəstəyinin vacibliyi artır. |
| **2016** | 60,4 | -3,1 | 0,9 | Ekoloji iqtisadi modelə keçid üçün addımlar zəruri hesab olunur. Yüngül sənayenin payı azalmağa başlayır. |
| **2017** | 70,1 | 0,1 | 0,8 | Yenidən inkişaf mərhələsində, yaşıl texnologiyala-rın tətbiqinin təşviqi vacibdir. |
| **2018** | 79,8 | 1,5 | 0,7 | Yaşıl iqtisadiyyat təşəbbüsləri üçün investisiya imkanlarının yaradılması zəruridir. |
| **2019** | 82,4 | 2,2 | 0,7 | Yüngül sənaye və yaşıl texnologiyaların təşviqi üçün uyğun şərait yaradıla bilər. |
| **2020** | 72,4 | -4,3 | 0,6 | Pandemiyanın təsiri ilə yaşıl iqtisadiyyata keçidin əhəmiyyəti daha aydın hiss olunur. |
| **2021** | 78,5 | 5,6 | 0,6 | Bərpa olunan enerji və təkrar emal proseslərinə dövlət dəstəyinin vacibliyi artır. |
| **2022** | 133,8 | 4,6 | 0,7 | Yüksək ÜDM artımı, yaşıl texnologiyaların tətbiqi ilə davamlı iqtisadi artım üçün şərait yaradır. |
| **2023** | 123,0 | 1,1 | 0,6 | Yüngül sənayenin payı azalmaqda davam edir. Yaşıl iqtisadiyyata keçid üçün ekoloji texnologiya-ların tətbiqi vacibdir |

Bu cədvəl Azərbaycanda yüngül sənayenin ÜDM-dəki payının 2014-cü ildən 2023-cü ilə qədər azaldığını göstərir, bu isə sektorun iqtisadiyyatda öz rolunu itirdiyini göstərir. Yüngül sənayenin azalmaqda olan payını nəzərə alaraq, yaşıl iqtisadiyyat prinsiplərinə uyğunlaşdırma və ekoloji texnologiyalara keçid zəruridir.

2014-cü ildə yüngül sənayenin ÜDM-dəki payı 1,2% təşkil edərkən, 2023-cü ildə bu göstərici 0,6%-ə enmişdir. Bu azalma, sektorun ekoloji texnologiyalara keçidi və yaşıl iqtisadiyyat prinsiplərinə uyğun olaraq yenidən inkişafını vacib edir. Müasir texnologiyaların tətbiqi, təkrar emal proseslərinin genişləndirilməsi və bərpa olunan enerji mənbələrindən istifadə sektorun yenidən canlanmasına və iqtisadiyyatda daha dayanıqlı paya sahib olmasına şərait yarada bilər.

2020-ci ildə pandemiyanın təsiri ilə iqtisadiyyatda geriləmə yaşansa da, bu dövr, yaşıl iqtisadiyyatın əhəmiyyətini ön plana çıxarıb. 2021-ci ildən başlayaraq iqtisadi bərpa prosesləri yaşanarkən yaşıl texnologiyaların və ekoloji investisiyaların təşviqi, KOS-ların və yüngül sənaye müəssisələrinin daha dayanıqlı olmasını təmin edə bilər.

Azərbaycanda yüngül sənaye sektoru yaşıl iqtisadiyyat çərçivəsində geniş inkişaf potensialına malikdir. (Alizadeh S. və Quliyev R., 2018) Bu sahədə davamlı və ekoloji cəhətdən uyğun fəaliyyət göstərmək üçün bir sıra perspektivlər mövcuddur:

1. Təkrar Emal və Tullantıların Azaldılması: Tekstil, ayaqqabı və kimya sənayesi kimi sahələrdə təkrar emalın təşviqi, ətraf mühitə olan təsirin azalmasına və xammal sərfiyyatının optimallaşdırılmasına imkan verər. Təkrar emal texnologiyaları vasitəsilə tullantılar azaldılmalı və istehsalda təkrar istifadə oluna biləcək materiallardan geniş istifadə edilməlidir.

2. Bərpa Olunan Enerji Mənbələrinin Tətbiqi: Yüngül sənaye müəssisələrində enerji ehtiyaclarını qarşılamaq üçün günəş və külək enerjisi kimi bərpa olunan enerji mənbələrindən istifadə artırılmalıdır. Bu, enerji xərclərini azaldacaq və karbon emissiyalarını minimuma endirəcəkdir. Bərpa olunan enerjiyə keçid, KOS-ların yaşıl iqtisadiyyat prinsiplərinə uyğun fəaliyyət göstərməsini asanlaşdıracaqdır.

3. Ekoloji Sertifikatlaşdırma və İxracın Genişləndirilməsi: Yerli məhsulların beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artırmaq üçün ekoloji sertifikatlaşdırma təşviq edilməlidir. Ekoloji cəhətdən məsuliyyətli məhsulların xarici bazarlara çıxışı artırılmalı və ixrac potensialı genişləndirilməlidir. Bu, Azərbaycanın iqtisadiyyatına müsbət təsir göstərəcək və yerli məhsulların tanınmasına şərait yaradacaqdır.

4. Turizm Sektoruna Ekoloji Məhsulların Təqdimatı: Turistlər üçün yerli və ekoloji cəhətdən məsuliyyətli suvenir və tekstil məhsullarının istehsalı və satışı turizm sektoruna yeni gəlir mənbəyi gətirə bilər. Ekoloji təmiz materiallardan hazırlanmış milli məhsullar turizm obyektlərində təqdim edilərək həm iqtisadi, həm də ekoloji dəyər qazandırar.

**Nəticə**

Azərbaycanda yüngül sənayenin yaşıl iqtisadiyyat prinsiplərinə uyğun inkişafı üçün geniş imkanlar mövcuddur. Müasir texnologiyaların tətbiqi, kadr hazırlığının artırılması və ixrac bazarlarının genişləndirilməsi bu sahədə böyük irəliləyişlərə səbəb ola bilər. Dövlət dəstəyi ilə yaşıl texnologiyaların tətbiqi və ekoloji sertifikatlaşdırma prosesləri yüngül sənaye məhsullarının həm daxili, həm də xarici bazarlarda rəqabət qabiliyyətini artıracaqdır. Texnologiya və avadanlıq çatışmazlığı, kadr potensialının azlığı və maliyyə məhdudiyyətləri bu sahənin inkişafı üçün əhəmiyyətli maneələr olaraq qalır. Dövlət dəstəyi, təşviq proqramları və maliyyə resurslarının artırılması ilə bu maneələrin aradan qaldırılması mümkündür.

Yüngül sənayenin yaşıl iqtisadiyyat çərçivəsində inkişafı üçün aşağıdakı tövsiyələr vacibdir:

1. Dövlət Dəstəyinin Genişləndirilməsi: Yaşıl iqtisadiyyata uyğun texnologiyaların tətbiqi, ekoloji sertifikatlaşdırma və təkrar emal proseslərinin təşviqi üçün dövlətin maliyyə dəstəyi artırılmalıdır. Dövlətin güzəştli kredit proqramları və subsidiyalar vasitəsilə müəssisələr ekoloji cəhətdən məsuliyyətli istehsal proseslərinə keçid edə bilərlər.

2.İnnovativ Texnologiyaların Tətbiqi: Yüngül sənaye müəssisələrinin rəqabət qabiliyyətini və məhsul keyfiyyətini artırmaq üçün müasir və yaşıl texnologiyalar tətbiq edilməlidir. Bu

texnologiyalar, istehsal proseslərinin ekoloji uyğunluğunu təmin edəcək və resursların daha səmərəli istifadəsini mümkün edəcəkdir.

3.Təkrar Emal Texnologiyalarının Genişləndirilməsi: Tekstil və ayaqqabı sənayesi kimi sahələrdə təkrar emal texnologiyalarının tətbiqi ilə tullantılar minimuma endirilməli və xammal sərfiyyatı optimallaşdırılmalıdır. Təkrar emal proseslərinin genişləndirilməsi, ekoloji təsirləri azaldacaq və istehsalın səmərəliliyini artıracaqdır.

4. Kadr Hazırlığı və Peşə Təlimləri: Yaşıl texnologiyalar və ekoloji təhlükəsiz istehsal prosesləri üzrə kadr hazırlığı və peşə təlimlərinə daha çox diqqət yetirilməlidir. Təcrübəli və ixtisaslaşmış kadrlara olan ehtiyacı ödəmək üçün peşə məktəblərində və universitetlərdə ekoloji təhsil proqramları tətbiq olunmalıdır.

5.Ekoloji Sertifikatlaşdırmanın Təşviqi: Yerli məhsulların beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artırmaq və ekoloji dəyərləri təmin etmək üçün ekoloji sertifikatlaşdırma təşviq edilməlidir. Bu sertifikatlar Azərbaycan məhsullarının dünya bazarlarında tanınmasına və satış imkanlarının genişlənməsinə kömək edəcəkdir.

6. Turizm Sektoruna Ekoloji Məhsulların Təqdimatı: Turizm sektoruna yerli və ekoloji cəhətdən məsuliyyətli suvenir və tekstil məhsullarının təqdimatı, iqtisadiyyata yeni gəlir mənbəyi yaradacaqdır. Turizm obyektlərində milli və ekoloji məhsulların satışı həm yerli istehsalçıları dəstəkləyər, həm də Azərbaycanın ekoloji dəyərlərinin beynəlxalq səviyyədə tanıdılmasına kömək edər.

Yekun olaraq, Azərbaycanda yüngül sənayenin yaşıl iqtisadiyyat prinsiplərinə uyğun inkişafı üçün əhəmiyyətli potensial mövcuddur. Bu potensialdan tam istifadə etmək üçün dövlət dəstəyi, müasir texnologiyaların tətbiqi və kadr hazırlığı vacibdir. Yüngül sənayenin yaşıl iqtisadiyyata inteqrasiyası, yalnız iqtisadi inkişafı deyil, həm də ətraf mühitin qorunmasını təmin edəcək və ölkənin davamlı inkişaf hədəflərinə çatmasına töhfə verəcəkdir. Ekoloji məsuliyyətli istehsal modellərinin tətbiqi ilə yüngül sənaye məhsulları həm daxili, həm də xarici bazarlarda daha yüksək rəqabət qabiliyyətinə sahib olacaq və Azərbaycanın iqtisadiyyatına uzunmüddətli faydalar gətirəcəkdir.

**Ədəbiyyat:**


Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. "Azərbaycan iqtisadiyyatının diversifikasiyası və KOS-ların rolu" mövzusunda analitik materiallar. www.economy.gov.az

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. (2023). Azərbaycanın makroiqtisadi göstəriciləri. İqtisadiyyat Nazirliyinin illik hesabatları və rəsmi statistik göstəriciləri.

Alizadeh S., Quliyev R. (2018). İqtisadi artım və sənaye sektorunun inkişafı: Azərbaycanda yüngül sənaye. *İqtisadi Araşdırmalar Jurnalı*, 12(2), 55-67.

Dövlət Statistika Komitəsi. "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf göstəriciləri" adlı illik statistik məlumatlar. www.stat.gov.az

Quliyev, A. (2020). Azərbaycanda yüngül sənaye sektorunda KOS-ların investisiya imkanları və perspektivləri. *Azərbaycan İqtisadiyyat Jurnalı*, 12(4), 45-58.

İsmayılov, R.A., Hacıyev, Z.E. (2021*). Qeyri-neft sektorunun inkişafı və iqtisadi diversifikasiya: Azərbaycan təcrübəsi.* Bakı: İqtisadi İnkişaf İnstitutu.

# ALİ TƏHSİLDƏ YAŞIL İQTİSADİYYAT TƏŞƏBBÜSLƏRİNİN TƏŞVİQİNDƏ RƏQƏMSAL İDARƏETMƏ MEXANİZMLƏRİNİN ROLU

**Mustafazadə Ayşən Rövşən**

**Azərbaycan Respublikası Təhsil İnstitutu**

**https://orcid.org/0009-0009-8713-6210**

**amustafazada12@gmail.com**

**Rəyçi:**

**Hümbətəliyeva Səadət Əsgər qızı,**

**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

**Xülasə**

2008-ci ilin sonunda UNEP tərəfindən irəli sürülən yaşıl inkişaf təşəbbüsünün əsas məqsədi yaşıl inkişaf potensialı olan sektorlara investisiyaların artırılmasıdır. Bundan əlavə, o, hazırda ekoloji cəhətdən dayanıqlı olmayan sektorları transformasiya etmək üçün lazım olan əsas təhlili və siyasət yardımını təmin etmək məqsədi daşıyır. UNEP-ə görə, yaşıl inkişaf ətraf mühitin deqradasiyası və ekoloji məhdudiyyətlərlə bağlı potensial təhlükələri azaltmaqla yanaşı, insanların rifahının və sosial bərabərliyinin yaxşılaşdırılmasına üstünlük verən inkişaf paradiqması kimi müəyyən edilə bilər. Bundan əlavə, UNEP istehlak kapitalizmi anlayışından fərqli olaraq alternativ istehsal-istehlak paradiqmasının yaradılması potensialını müşahidə etmişdir. Bu paradiqma həm də ekoloji davamlılığı prioritetləşdirən böyümə nizamının həyata keçirilməsini tələb edəcək (Aşıcı və Şahin, 2017, s.78).

**Nəticə**

Yaşıl inkişaf iqtisadi artım üçün təbii ehtiyatlardan davamlı istifadə deməkdir. Məqsəd insanın rifahına səbəb olacaq uzunmüddətli inkişafdır. Uzunmüddətli perspektivdə insanlar arasında bərabərsizliyi azaldan və gələcək nəsilləri ekoloji risklərə məruz qoymayan iqtisadiyyata doğru irəliləməkdir. Bu problemlər nəticəsində ölkələr qlobal tədbirlər görüb, müqavilələr imzalayıblar. Bu tədbirlər arasında yaşıl inkişaf kontekstində bərpa olunan enerji mənbələri və karbon emissiyaları ön plana çıxır.

Yaşıl inkişaf hər bir ölkə daxilində indiki və gələcək nəsillərə ötürülə bilən bir mənbə olduğundan, onun istifadəsi günü-gündən artır və davamlı inkişaf konsepsiyasının davamlılığı baxımından mühüm əhəmiyyət kəsb edir. İqtisadi inkişafın baş verməsi üçün yaşıl inkişaf, təbii ehtiyatlar, kapital və ixtisaslı işçi qüvvəsi arasında müsbət əlaqə lazımdır. O, gündən-günə artır və davamlı inkişaf konsepsiyasının davamlılığı üçün vacibdir.

Bütün araşdırmalar nəzərə alındıqda yaşıl inkişaf mənbələrinin uzunmüddətli perspektivdə iqtisadi artıma müsbət təsir etdiyi və iqtisadiyyatda proqnozlaşdırıla bilən olduğu ortaya çıxır. Nəticə etibarı ilə bu resurslara meylin artırılması ümumi mənzərədən daha yaxşı nəticələr toplamaq baxımından çox vacibdir. Bu kontekstdə əhalinin maarifləndirilməsi, milli siyasətin gücləndirilməsi, dövlət dəstəyinin artırılması və yerli inkişafın dəstəklənməsi vacibdir.

**Ədəbiyyat:**

Aşıcı, A.A., Şahin, Ü. (2017). *Yeşil ekonomi*. İstanbul: Yeni İnsan Yayınevi.

Ho, M., Wang, Z. (2014). *Green growth (for China): A literature review*. Resources for the Future Discussion Paper, No. 14-22.

Jacops, M. (2012). *Green growth: Economic theory and political*. London: Centre for Climate Change Economics and Policy Working Paper No. 108, Grantham Research Institute on Climate Change and the Environment Working Paper No. 92

Karadaş, H. A. (2018). *Within the context of environmental issues, relationship between green growth and current account deficit: An application for Turkey (*Unpublished doctoral dissertation). Kırıkkale University, Türkiye.

OECD (2011). OECD multilingual towards green growth Abstract in Turkish. www.oecd.org/greengrowth/

Seçgel, G. (2007). *Türkiye ve yeşil büyüme*. Ankara: T.C. Çevre ve Şehircilik Bakanlığı

Yalçın, A. (2017). *Yeşil büyüme: çevre kirliliği ve eşitsizliklere karşı yeni bir büyüme paradigması*. Bursa: Ekin Yayınevi.

Yılmaz, V. (2017). *Green growth and applicability in Turkey* (Unpublished doctoral dissertation). Cumhuriyet University, Türkiye.

# NON-PETROLEUM PRODUCTS USED IN THE EXPORT PROCESS IN THE GREEN ECONOMY

**Babishov Sanan Sohrab**

**Baku Business University**

sinansohrab7@gmail.com

**Rəyçi:**

**Hüseynov Qalib Sirac oğlu,**

**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

Currently, the assessment of environmental value is primarily conducted from two main perspectives: pollutant emissions and energy consumption. Environmental costs significantly impact trade policy by influencing the comparative advantages and structure of export goods. Through the analysis of the environmental costs of trade, inductive measurement methods, and the results of environmental value assessments, it can be concluded that existing measurement mechanisms do not yet provide a systematic approach that fully encompasses the real costs of the environment. This situation necessitates that enterprises bear their environmental costs.

**Keywords:** Non-oil products, export process, green economy

# НЕНЕФТЯНЫЕ ПРОДУКТЫ, ИСПОЛЬЗУЕМЫЕ В ПРОЦЕССЕ ЭКСПОРТА В ЗЕЛЕНОЙ ЭКОНОМИКЕ

**Бабишов Санан Сохраб**

**Бакинский университет бизнеса**

sinansohrab7@gmail.com

## Резюме

В настоящее время оценка экологической ценности проводится, главным образом, с двух основных перспектив: выбросов загрязняющих веществ и потребления энергии. Экологические издержки существенно влияют на торговую политику, оказывая воздействие на сравнительные преимущества и структуру экспортируемых товаров. Анализ экологических издержек торговли, индуктивных методов измерения и результатов оценки экологической ценности позволяет прийти к выводу, что существующие механизмы измерения ещё не обеспечивают системного подхода, который бы полностью охватывал реальные затраты на окружающую среду. Это положение обязывает предприятия брать на себя свои экологические издержки.

**Ключевые слова:** Нефтяные продукты, процесс экспорта, зелёная экономика

# İXRAC PROSESİNDƏ İSTİFADƏ OLUNAN QEYRİ NEFT MƏHSULLARI YAŞIL İQTİSADİYYATDA

**Bəbişov Sənan Söhrab**

**Bakı Biznes Universiteti**

**sinansohrab7@gmail.com**

Beynəlxalq ticarət ölkələrin iqtisadi artımında çox mühüm rol oynayır,lakin beynəlxalq ticarətinin güclənməsi ilə dünyada ticarətdəki çətinliklər və maneələr, xüsusən də son dövrlərdə artır (Arouri, M. E. H., Caporale, G. M., və b.2012). İllərdir inkişaf etmiş ölkələrin öz "ekoloji standartı" ərəfəsində olduqları səbəbiylə məhsulların beynəlxalq bazara daxil etmək üçün davamlı olaraq təkmilləşdirməklə, ticarət getdikcə daha çox problem,çətinliklərlə və ekoloji xərclərlə qarşılaşır. İndiyə qədər xarici alimlər ümumiyyətlə hesab edirlər ki, ekoloji ehtiyatlar qeyri-müstəsna təbii ehtiyatlara aiddir, beləliklə, çirklənmə və ətraf mühitin deqradasiyasının digər formaları xarici təsirlərin tipik nümunələridir. Ətraf mühitin tənzimlənməsi ticarət axınına mühüm təsir göstərir, ekoloji təmiz ticarət isə ətraf mühitə təsir göstərir (Chatzistamoulou, N., Diagourtas, G., Kounetas, K., 2017).

Ekoloji xərclər ətraf mühitin çirklənməsini və bu proses zamanı dəymiş ekoloji zərəri həll etmək,kompensasiya etmək üçün əmtəələrin çıxarılması, istifadəsi, istehsalı, daşınması və bərpasına çəkilən xərclərin məcmusuna aiddir. Ekoloji xərclərin tərkibinə ətraf mühit amillərindən normal istifadə xərcləri və ətraf mühitin çirklənməsi xərcləri daxildir.

Enerji sosial həyatımızı təmin etmək üçün lazım olan demək olar ki, bütün proseslər üçün əvəzsiz bir elementdir. Sənaye, nəqliyyat, mənzil və ticarət alt sektorlarında istifadə olunur. Dünyada enerji istehsalı rəqəmləri araşdırıldığında, neft məhsullarının 60% ilə ən böyük paya sahib olduğu görülür. Bununla belə, dünyanın enerji resursları arasında mühüm əhəmiyyət kəsb edən neft və təbii qaz hazırda dünyanın müəyyən regionlarında böyük miqdarda mövcuddur. Bu səbəbdən əksər neft və qaz məhsulları istehsal edən ölkələr qeyri-neft məhsullarının istifadəsini məqsədə uyğun hesab etmir. Bu səbəbdən hal-hazırda bir çox beynəlxalq təşkilat yaşıl iqtisadiyyat və traf mühitə zərirsiz olan vasitə və məhsulların istehsalı ilə bağlı tədbirlər görməkdədir (https://www.unep.org/regions/asia-and-pacific/regional-initiatives/supporting-resource-efficiency/green-economy ).

OEC məlumatlarına görə, 2023-cü ilə qədər dünyada 986 milyard dollar xam neft ticarəti, 300 milyard dollar neft qazı ticarəti və 688 milyard dollar emal olunmuş neft ixracı həyata keçirilib. Xam neft ticarətində ən böyük ixracatçı 145 milyard dollarla Səudiyyə Ərəbistanı olduğu halda, ən böyük idxalçı 204 milyard dollarla Çin olmuşdur. Səudiyyə Ərəbistanından sonra Rusiya 2019-cu ildə 123 milyard dollarla dünyanın ən çox neft ixrac edən ölkələrindən biridir; İraq 73,8 milyard dollarla üçüncüdür; Kanada 67,8 milyard dollarla 4-cü, ABŞ isə 61,9 milyard dollarla 5-ci yerdədir. Ən böyük neft qazı ixracatçıları 44,2 milyard dollarla Qətər, 34,1 milyard dollarla Avstraliya və 32,3 milyard dollarla ABŞ olub. Digər tərəfdən, ABŞ 84,9 milyard dollarla emal olunmuş neft ixracatında 1-ci yerdədir; Rusiya 66,2 milyard dollarla 2-ci yerdədir; Hollandiya 46,2 milyard dollarla üçüncüdür; Sinqapur 43,1 milyard dollarla 4-cüdür; Hindistan 39,2 milyard dollarla 5-ci

yerdədir (Ouyang, K., 2020).

Ekoloji resursların ictimai xarakter daşıması səbəbindən məhsulların istehsalı və ticarəti prosesində ekoloji xərclər nəzərə alınmır, beləliklə, iqtisadi fəaliyyətin ətraf mühitə təsiri nəzərə alınmır. Ticarətin böyüməsi və ətraf mühitin çirklənməsi burada meydana çıxır. Hazırda əksər tədqiqatlar hesab edir ki, ekoloji xərclərin xarici təsirinin əsas səbəbi hökumətin və bazarın uğursuzluğudur və bu problemi həll etməyin ən effektiv yolu ekoloji xərclərin daxililəşdirilməsini həyata keçirməkdir . Ətraf mühitin xarici təsirinin qarşısını almaq üçün ən təsirli üsul ekoloji xərclərin daxililəşdirilməsini həyata keçirməkdir, bu da ekoloji amilləri əmək, kapital və digər amillər kimi istehsal amillərinidə nəzərdən keçirmək və onları istehsal prosesinə əlavə etməkdir. Belə ki, ekoloji xərclər istehsalçıların istehsalının ümumi məsrəflərinin bir hissəsinə çevrilir. Buna görə də məhsulun qiyməti ətraf mühitə təsir edən xarici təsirlərin aradan qaldırılmasında bilavasitə rol oynayaraq istehsal və istismar prosesində bütün amillərin ümumi dəyərini daha yaxşı əks etdirə bilər.

İxrac məhsullarının strukturuna təsirinə gəlincə, transmilli korporasiyalar ekoloji tənzimləməni gücləndirməli və ekoloji xərclərin daxililəşdirilməsini həyata keçirməlidir (Shapiro, J. S., Walker, R., 2018).

İxrac məhsullarının strukturunun ətraf mühitin dəyərinin optimallaşdırılmasının daxililəşdirilməsindən faydalana bilər, bununla da ekoloji tənzimləmə sistemini təkmilləşdirə bilər,bu proses müəssisə texnologiyasının innovasiyasını təşviq edir, məhsulun beynəlxalq rəqabət qabiliyyətini artırır. Təxminən 20 illik ticarət məlumatlarına,həmçinin enerji istehlakı məlumatlarına və əsas sənaye çirklənməsi emissiyalarına baxaraq, ekoloji xərclərin perspektivi əsasında hesablamağa çalışılmalı, ixrac ticarət miqyasının təsiri və texniki təsirin ekoloji xərclərinin enerji istehlakı təhlili edilməlidir.

İstehsal edildikdən sonra qeyri-neft ixracı qlobal bazarlara, ilk növbədə, əhəmiyyətli dərəcədə istixana qazları ilə çalışan gəmilər, təyyarələr və yük maşınları vasitəsilə daşınmasını tələb edir. Qlobal ticarətdə üstünlük təşkil edən nəqliyyat növü olan dəniz nəqliyyatı qlobal istixana qazı emissiyalarının təxminən 3%-nə cavabdehdir. Bu emissiyalar təkcə iqlim dəyişikliyinə kömək etmir, həm də havanın keyfiyyətinə təsir edir, insan sağlamlığına və yerli ekosistemlərə, xüsusən də sıx limanların yaxınlığında təsir göstərir. Hava nəqliyyatı, ixrac prosesi  üçün daha az yaygın olsa da, daşınan malların ətraf mühitə təsir emissiya dərəcəsi yüksəkdir.

**Nəticə:**

Nəticə olaraq, beynəlxalq ticarət ölkələrin iqtisadi artımında mühüm rol oynasa da, onunla əlaqəli ekoloji çətinliklər və maneələr getdikcə artmaqdadır. İnkişaf etmiş ölkələr ekoloji standartları təkmilləşdirərək, beynəlxalq bazarlara çıxış prosesində əlavə ekoloji xərclərlə qarşılaşırlar. Ekoloji xərclərin xarici təsiri və dövlət-bazar uğursuzluqları ətraf mühitin qorunması baxımından problem yaradır və ekoloji xərclərin daxililəşdirilməsini zəruri edir. Bu prosesin həyata keçirilməsi ilə məhsul istehsalında ətraf mühitin xərcləri nəzərə alınaraq, iqtisadi fəaliyyətin ətraf mühitə olan mənfi təsirləri azaldıla bilər. İxrac məhsullarının ekoloji tənzimləmələri ilə uyğunlaşdırılması, müəssisələrin texnoloji innovasiyalarını təşviq edərək, beynəlxalq rəqabət qabiliyyətlərini artırır. Bundan əlavə, qeyri-neft məhsullarının ixracında nəqliyyatın ətraf mühitə təsiri nəzərə alınaraq, yaşıl iqtisadiyyat və ekoloji cəhətdən təmiz vasitələrin istifadəsi ticarətin davamlı inkişafına töhfə verə bilər.

**Ədəbiyyat:**


1. Arouri, M. E. H., Caporale, G. M., Rault, C., Sova, R., & Sova, A. (2012). Environmental regulation and competitiveness: Evidence from Romania. *Ecological Economics*, *81*, 130-139.

2. Cherniwchan, J., Copeland, B. R., & Taylor, M. S. (2017). Trade and the environment: New methods, measurements, and results. *Annual Review of Economics*, *9*(1), 59-85.

3. Ouyang, K. (2020, November). Impact of Environmental Costs on Export Trade. In *IOP Conference Series: Earth and Environmental Science* (Vol. 598, No. 1, p. 012025). IOP Publishing.

4. Shapiro, J. S., & Walker, R. (2018). Why is pollution from US manufacturing declining? The roles of environmental regulation, productivity, and trade. *American Economic Review*, *108*(12), 3814-3854.

5. https://www.unep.org/regions/asia-and-pacific/regional-initiatives/supporting-resource-efficiency/green-economy

# PROBLEMS AND SOLUTION MECHANISMS FACED BY SMALL AND MEDIUM-SIZED ENTREPRENEURS IN AZERBAIJAN IN IMPLEMENTING THE INTERNATIONAL STANDARDS OF FINANCIAL REPORTING

**Mursalov Vusal Zulfugar**

**Baku Business University**

**https://orcid.org/0009-0004-8315-6648**

**vusalmursalovbbu@gmail.com**

**Rəyçi:**

**Abdullayev Loğman İmran oğlu,**

**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

This thesis examines the problems encountered during the implementation of International Financial Reporting Standards (IFRS) in small and medium-sized enterprises (SMEs) in Azerbaijan and potential solution mechanisms. In particular, the problem of directing specialists with high-level local and foreign certificates (PMS and ACCA) in the field of international financial reporting to large enterprises with high salary expectations and the solutions that the state can implement in this area are highlighted.

**Keywords:** Small and Medium Enterprises (SMEs), International Financial Reporting Standards (IFRS), PMS and ACCA Certificates, salary expectations

# ПРОБЛЕМЫ И МЕХАНИЗМЫ РЕШЕНИЯ, С КОТОРЫМИ СТАЛКИВАЮТСЯ МАЛЫЕ И СРЕДНИЕ ПРЕДПРИНИМАТЕЛИ В АЗЕРБАЙДЖАНЕ ПРИ ВНЕДРЕНИИ МЕЖДУНАРОДНЫХ СТАНДАРТОВ ФИНАНСОВОЙ ОТЧЕТНОСТИ

**Мурсалов Вусал Зульфугар**

**Бакинский университет бизнеса**

**https://orcid.org/0009-0004-8315-6648**

**vusalmursalovbbu@gmail.com**

**Резюме**

В данной диссертации рассматриваются проблемы, возникающие при внедрении Международных стандартов финансовой отчетности (МСФО) на малых и средних предприятиях (МСП) в Азербайджане, и потенциальные механизмы решения. В частности, рассматривается проблема направления специалистов с местными и зарубежными сертификатами высокого уровня (PMS и ACCA) в области международной финансовой отчетности на крупные предприятия с высокими ожиданиями по зарплате и освещаются решения, которые государство может реализовать в этой области.

**Ключевые слова**: Малые и средние предприятия (МСБ), Международные стандарты финансовой отчетности (МСФО), сертификаты PMS и ACCA, зарплатные ожидания

# AZƏRBAYCANDA KOS-ın MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARINI TƏTBİQ ETMƏKDƏ QARŞILAŞDIQLARI PROBLEMLƏR VƏ HƏLL MEXANİZMLƏRİ

**Mürsəlov Vüsal Zülfüqar**

**Bakı Biznes Universiteti**

**https://orcid.org/0009-0004-8315-6648**

**vusalmursalovbbu@gmail.com**

Azərbaycanda kiçik və orta sahibkarlıq subyektləri (KOS) ölkənin iqtisadi inkişafında əhəmiyyətli rol oynayır. Beynəlxalq Maliyyə Hesabatları Standartları KOS-ların maliyyə şəffaflığını artırmaq, beynəlxalq bazarlara uyğunlaşmaq və etibarlı maliyyə məlumatları təmin etmək məqsədilə tətbiq edilməlidir. Bu standartların tətbiqi zamanı müəyyən problemlər özünü göstərir. Belə ki, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına hakim olan təcrübəli mütəxəssislərin PMS və ACCA F sertifikatına malik olması, bu səbəbdən onların kiçik sahibkarlıq subyektlərindən daha çox, yüksək əmək haqqı gözləntisi ilə kooperativlərə və iri müəssisələrə yönəlməsi bu amillərdən biridir. Yüksək ixtisaslı mütəxəssislərin yüksək əmək haqqı gözləntisi ilə böyük şirkətlərə üstünlük verməsi, nəticədə KOS-ların kifayət qədər kadr tapmaqda çətinlik çəkməsi isə başqa bir faktordur. Eyni zamanda həmin mütəxəssislərin yüksək əmək haqqı tələblərinə KOS-ın cavab verə biləcək maliyyə vəziyyətlərinin olmaması da başqa bir reallıqdır.

Dövlətin PMS sertifikatını baş mühasib olmaq üçün məcburi əldə edilmə strategiyası olduqca effektli addımdır. Bu addım KOS-larda maliyyə hesabatlarının keyfiyyətini artıracaq və mühasibatlıq peşəsinin daha yüksək standartlara uyğunlaşdırılmasını təmin edəcəkdir. Nəzərə alsaq ki Azərbaycanda yüz minlərlə müəssisə var və il ərzində PMS sertifikatı ala bilən mütəxəssislərin sayı beş mini ötmür, PMS sertifikatı müsabiqəsinə qatılmaq üçün bakalavr diplomunun tələb olunması ilə bağlı məhdudiyyətin aradan qaldırılması, həm tələbələrin də bu prosesə öz töhfəsini verməsinə imkan yaradacaq, eyni zamanda ölkədəki bütün müəssisə və təşkilatlarda sertifikatlaşdırılmış mütəxəssislərlə təmin olunma prosesini sürətləndirəcəkdir.

Beynəlxalq təcrübədə dünya ölkələrində KOS-ların maliyyə hesabatları sahəsində müxtəlif təcrübələr tətbiq edilir. Məsələn, inkişaf etmiş ölkələrdə KOS-ların maliyyə hesabatlarına dair xüsusi standartlar tətbiq edilir və KOS-lar üçün sertifikasiya tələbləri sadələşdirilir. Bu istiqamətdə təcrübələr Azərbaycanda da tədbiq edilə bilər.

| Sertifikatlı mütəxəssislər | Potensial iş əldə etmə ehtimalı olan müəssisələr | Əmək Haqqı Gözləntisi (AZN) | Müəssisənin Təklifi (AZN) | Uyğunluq Ehtimalı (%) |
|---|---|---|---|---|
| PMS | KOS | 1800 | 1500 | 60% |
| PMS və ACCA | KOS | 3500 | 2000 | 5% |
| PMS və ACCA | Kooperativləşmiş böyük şirkətlər və orta sahibkarlıq subyektləri | 3500 | 3500 | 100% |

Bu tezisdə KOBİA, Statistika Komitəsi və digər resurslardan alınmış statistik məlumatlara əsaslanaraq, namizədlərin əmək haqqı gözləntisi, müəssisələrin isə təklif etdiyi əmək haqqı göstəriciləri nəzərə alınaraq belə bir cədvəl hazırlanmışdır.




KOS-ların maliyyə hesabatlarında beynəlxalq standartları tətbiq etməklə bağlı problemlər mövcuddur və bu problemlərin həlli üçün müəyyən mexanizmlər təklif etmək olar. Dövlət Məşğulluq Agentliyinin dəstəyi ilə, ölkədə PMS və ACCA mühasibatlıq sertifikatları təlimləri təşkil edən kursların dövlət tərəfindən maliyyələşdirilərək, KOS-larda çalışan mühasiblərin təlimlərə cəlb olunması. Eyni zamanda tələbələrin də işsizlik statusu almadan belə, bakalavr təhsili aldığı zaman yay tətillərində PMS və ACCA kurslarına cəlb olunmasının dövlət tərəfindən maliyyələşdirilməsi də bu istiqamətdə mütəxəssis hazırlığına müsbət nəticə verə bilər.

**Ədəbiyyat:**

Anderson, B. (2015). Hayali Cemaatler. (İ. Savaşır, Trans.) İstanbul: Metis Yayınları.

Cornell, S. E. (2011). Azerbaycan Since Independence. London: M.E.Sharpe.

Duguit, Léon. "Egemenlik ve Özgürlük." Akal, Cemal Bali. Devlet Kuramı. Ankara: Dost Kitabevi, 2013. 379-403.

Ergun, A. (2010). Post-Soviet Political Transformation in Azerbaijan: Political Elite, Civil Society and the Trials of Democratization. Uluslararası İlişkiler, 7(26), 67-85.

Ergun, A., & Çitak, Z. (2020). Secularism and National Identity in Post-Soviet Azerbaijan. Journal of Chruch and State, 62(3), 464-485.

KOBIA

https://www.stat.gov.az/

**ANALYSIS OF THE DEMOGRAPHIC DEVELOPMENT STRATEGY OF THE TERRITORIES LIBERATED FROM OCCUPATION**

**Shykhyly Kamran Shahin**

**Azerbaijan University of Architecture and Construction**

**https://orcid.org/0009-0004-1846-0862**

**19kamran95@gmail.com**

**Rəyçi:**
**Rüstəmov İlham Şamil oğlu,**
**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

During the period of Armenia's unjustified occupation policy against Azerbaijan, the economic potential and cultural heritage of the territories were destroyed, and the demographic development processes were seriously disrupted by the forced departure of Azerbaijanis from their homes. All this makes the study of approaches to the demographic development of post-conflict territories and the comparative analysis of the strategic policy implemented by Azerbaijan in this direction truly relevant from a scientific point of view. The aim of the research is to analyze the demographic development opportunities of the liberated Karabakh and East Zangezur economic regions by examining international experiences on the demographic development of post-conflict territories and to develop effective proposals that contribute to state policy aimed at ensuring sustainable settlement. To achieve the set goal, the article uses the methods of analysis, synthesis, literature review, content analysis, comparative analysis and generalization.

***Key words**: Karabakh, East Zangezur, demographic development.*

# АНАЛИЗ СТРАТЕГИИ ДЕМОГРАФИЧЕСКОГО РАЗВИТИЯ ТЕРРИТОРИЙ, ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ

**Шыхылы Камран Шахин**

**Азербайджанский университет архитектуры и строительства**

**https://orcid.org/0009-0004-1846-0862**

**19kamran95@gmail.com**

**Резюме**

Поскольку экономический потенциал и образцы культурного наследия территорий были уничтожены в период неоправданной оккупационной политики Армении против Азербайджана, процессы демографического развития также были серьёзно нарушены из-за насильственного выезда азербайджанцев из своих домов. Все это делает исследование подходов к демографическому развитию постконфликтных территорий и сравнительный анализ реализуемой Азербайджаном стратегической политики в соответствующем направлении с научной точки зрения весьма актуальным. Целью исследовательской работы является анализ возможностей демографического развития освобожденных Карабахского и Восточно-Зангезурского экономических районов путем изучения международного опыта по демографическому развитию постконфликтных территорий и подготовка эффективных предложений, способствующих государственной политике, направленной на обеспечение устойчивого развития. урегулирование. Для достижения цели в статье используются методы анализа, синтеза, обзора литературы, контент-анализа, сравнительного анализа и обобщения.

**Ключевые слова:** Карабах, Восточный Зангезур, демографическое развитие.

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN DEMOQRAFİK İNKİŞAF STRATEGİYASININ TƏHLİLİ

**Şıxılı Kamran Şahin**

**Azərbaycan Memarlıq və İnşaat Universiteti**

**https://orcid.org/0009-0004-1846-0862**

**19kamran95@gmail.com**

## Giriş

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik hərbi-siyasi rəhbərliyi və ordumuzun misilsiz rəşadəti sayəsində Azərbaycan ərazilərində 30 ildən artıq davam edən işğala son qoyulduqdan sonra bu ərazilərin yenidən qurulması, iqtisadi potensialın bərpası, milli iqtisadiyyata transformasiyası, qaçqın və məcburi köçkünlərin öz yurd-yuvalarında dayanıqlı məskunlaşmasının təmin edilməsi istiqamətində strateji dövlət siyasəti həyata keçirilir.

Azərbaycan Respublikasının elm və təhsil naziri, cənab Emin Əmrullayevin qeyd etdiyi kimi: "Torpaqların işğaldan azad olunması yeni arzular, hədəflər yaratdı və hazırda Böyük Qayıdış ən vacib məqamlardan birinə çevrilib" (Əmrullayev, 2024). Ermənistanın Azərbaycana qarşı əsassız işğal siyasətinin davam etdiyi müddət ərzində ərazilərin bütün iqtisadi və sosial potensialı ciddi şəkildə məhv edildiyi kimi demoqrafik vəziyyət də əsaslı şəkildə dəyişdirilmişdir. Bütün bunlar, post-konflikt ərazilərin demoqrafik inkişafına dair yanaşmaların və Azərbaycanın müvafiq istiqamətdə həyata keçirdiyi siyasətin müqayisəli təhlilini elmi cəhətdən olduqca aktual edir.

İşğaldan azad edilmiş ərazilərin bərpası məqsədilə hökumət tərəfindən bir sıra ardıcıl tədbirlər həyata keçirilməkdədir. Bunlara nümunə kimi, sosial infrastrukturun qurulması, nəqliyyat-kommunikasiya xəttlərinin yenidən çəkilməsi, ərazilərin bərpasına töhfə verəcək institusional təşkilatların yaradılması və təşəbbüslərin edilməsi, o cümlədən, Qarabağ Dirçəliş Fondunun təsis edilməsi (Qurbanzadə, 2022), Qarabağ və Şərqi Zəngəzurda fəaliyyət göstərmək istəyən sahibkarın dəstəklənməsi və digər proqramların qəbul edilməsi göstərilə bilər. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və onunla əlaqəli qurumlar, o cümlədən, KOBİA, Sahibkarlığın İnkişafı Fondu, ABAD, banklar və digər maliyyə təşkilatları tərəfindən ərazilərin bərpası məqsədilə prioritet sahələrin və biznes təşəbbüslərinin dəstəklənməsi siyasəti həyata keçirilir (Hacıyeva, Əzizov və Yaqubov, 2024). Bu baxımdan, məqsədyönlü dövlət siyasətinin əsas hədəflərindən birini yaşayış üçün əlverişli sosial-iqtisadi şəraitin yaradılması ilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına qayıdan insanların dayanıqlı məşğulluğunun təmin edilməsi və bu ərazilərin dayanıqlı məskunlaşdırılmasının təmin edilməsi təşkil edir.

## Post-konflikt ərazilərin demoqrafik inkişafına dair yanaşmalar

Post-konflikt ərazilərin transformasiyası və demoqrafik inkişaf konsepsiyalarını tədqiq edən bir sıra müəlliflər vardır ki, onların əsərlərində sosial amillər və regional faktorlar xüsusi diqqət mərkəzindədir. Azərbaycan üçün də böyük elmi və praktik əhəmiyyəti olan mövzunun beynəlxalq konteksdə araşdırılması onu göstərir ki, post-konflik ərazilərin demoqrafik inkişafına nail olmaq istəyən hökumətlər bir sıra fərqli yanaşmalardan istifadə etmişlər. Burada, yeni doğulan körpələrin sayına nəzarət və stimullaşdırma tədbirlərinin həyata keçirilməsi kimi istiqamətlər özünü

göstərməkdədir.

Məsələn, Norveç təcrübəsinin öyrənilməsi zamanı məlum olur ki, bu ölkədə potensial valideynlərin, yəni, qadınların və kişilərin maliyyə alətlərindən istifadə olunmaqla stimullaşdırılması prosesi ölkədə doğum statistikasında məhsuldarlığın təxminən 1,8 dəfə artmasına gətirib çıxarmışdır.

Tailandda isə demoqrafik inkişafın təmin edilməsi məqsədilə uşaqlı ailələr üçün dərman vasitələri, vitamin və ərzaq məhsulları vasitəsilə stimullaşdırıcı tədbirlər həyata keçirilmişdir. Tətbiq edilən metodun davam etdirilməsi Tailandda demoqrafik inkişafın lazımi səviyyədə surətləndirilməsinə gətirib çıxarmışdır.

ABŞ-də real doğum səviyyəsinin kifayət qədər aşağı olduğuna görə hökumət 2011-ci ildən etibarən maliyyə alətlərindən və korporativ seqmentə təsir imkanlarından istifadə etməklə demoqrafik inkişafın surətləndirilməsinə olmuşlar (Opanasiuk, 2022).

Xorvatiyada post-konflikt dövründə bir neçə il davam edən "körpə bumu"ndan sonra doğum səviyyəsi azaldı və ölüm sayı artdı. Prosesin əsas səbəbləri kimi müharibədən sonra geri qayıdan məcburi köçkünlərin böyük hissəsinin orta yaşlı olması, zəif iqtisadi vəziyyət və siyasi qeyri-sabitlik qiymətləndirilir (Basic və Malovic, 2022). BMT tərəfindən post-konflikt ərazilərin inkişafı ilə bağlı təqdim olunan konseptual yanaşmada əsas dəstəkləyici faktorlar kimi iş yerlərinin yaradılması və gəlirli məşğulluq imkanlarının genişləndirilməsi qeyd olunmuşdur. Bu məqsədlə post münaqişə mərhələsinə qədəm qoymuş regionlarda özəl sektorun inkişafına və ictimai istehsal funksiyası yerinə yetirən müəssisələrin yaradılması təşəbbüslərinin, eyni zamanda, yerli icmaların səmərəli fəaliyyəti üçün uyğun mühitin və insanlar üçün məşğulluq imkanlarının təmin edilməsi müvafiq ərazilərin dayanıqlı şəkildə məskunlaşması və makroiqtisadi inteqrasiyasının ən vacib amili kimi çıxış edir (United Nations, 2009). Bu sənədə əsaslanmaqla post-konflikt regionların demoqrafik inkişafının aparıcı qüvvəsi kimi məskunlaşan əhalinin işlə təmin olunma və gəlir əldə etmə imkanlarının genişləndirilməsini prioritet istiqamətlər kimi qəbul edə bilərik. Münaqişə prosesində iqtisadi və sosial infrastrukturların dağılması, istehsal gücləri və məhsuldar qüvvələrin regionu tərk etməsi kimi amillər belə ərazilərə investorları cəlb etmək üçün əlavə mexanizmlərin və güzəştlərin tətbiq edilməsini zərurətə çevirir. Əks təqdirdə sahibkarlar böyük risklər və rentabellik göstəricilərinin aşağı olması səbəbindən post münaqişə ərazilərinə yatırım etməkdə maraqsız olurlar.

BMT tərəfindən irəli sürülən konsepsiyada post-konflikt ərazilərin inkişafı üçün "üç yollu yanaşma" öz əksini tapmışdır ki, onun tərkib hissəsinə aşağıdakılar daxildir:

1. Sabit gəlir və təcili məşğulluq imkanlarının təmin edilməsi;
2. İş yerlərinin açılması və reinteqrasiya proseslərinin reallaşdırılması üçün regional iqtisadiyyatın bərpası;
3. Dayanıqlı məşğulluğun və layiqli iş mühitinin formalaşdırılması.

Bəhs olunan konsepsiyada hər hansı ərazi və ya regionda münaqişənin başa çatması prosesi də iqtisadi və sosial tərəqqi üçün yeni fürsət kimi qiymətləndirilmişdir (United Nations, 2009). Belə qənaətə gəlmək olar ki, post-konflikt regionların dayanıqlı demoqrafik inkişafının fundamental prinsiplərini də sosial və iqtisadi islahatlar, sosial layihələrin reallaşdırılması, sahibkarlığın inkişafına xidmət edən biznes və investisiya mühitinin yaradılması təşkil edir. Məşğulluq imkanlarının genişləndirilməsi isə iqtisadi və bazar reallıqlarının düzgün anlaşılması və

qiymətləndirilməsindən keçir. Bu baxımdan, iqtisadiyyatın yenidən qurulması, zəruri xidmətlərə, ərzaq məhsulları və əmək bazarlarına əlyetərliyin təmin edilməsi ən böyük çətinliklər kimi qarşıya çıxır. Hər hansı ölkənin demoqrafik inkişafına təsir edən başlıca amil kimi regional inkişaf səviyyəsi və xüsusilə insanların sosial rifahı qəbul edilir. Post konflikt ərazilərdə demoqrafik inkişaf göstəricilərinin yaxşılaşdırılması üçün də ilkin əsas kimi belə ərazilərdə sosial-iqtisadi infrastrukturun formalaşdırılması çıxış edir. Hökumətlər, ayrıca götürülmüş region(lar)da demoqrafik inkişafın dəstəklənməsi məqsədilə sosial yönümlü layihələr və məskunlaşan insanların iqtisadi kontekstdə dəstəklənməsinə hesablanmış proqramlar icra edirlər.

**Qarabağ və Şərqi Zəngəzurun demoqrafik inkişaf strategiyası**

Azərbaycan Respublikası 2020-ci ildə işğal altında olan əzəli torpaqlarını erməni işğalından azad etdikdən sonra ölkəmizin tarixində yeni inkişaf mərhələsi başlamışdır. Vətən müharibəsində şanlı qələbədən sonra Azərbaycanın regional və qlobal miqyasda rolu və nüfuzu əhəmiyyətli dərəcədə artmış, böyük iqtisadi potensiala malik ərazilərə nəzarətin təmin edilməsi nəticəsində ölkənin sosial-iqtisadi və demoqrafik inkişafına geniş perspektivlər açılmışdır.

Müstəqillik illərində əldə olunan uğurların davam etdirilməsi, qlobal trendlərə uyğun olaraq rəqabətcil iqtisadi sistemin möhkəmləndirilməsi, bazar iqtisadiyyatının özəyini təşkil edən biznes təsisatlarının və qeyri-neft sektoruna əsalanan yaşıl iqtisadi sahələrin ölkə iqtisadiyyatında rolunun artırılmasına, sosial rifah səviyyəsinin yüksəldilməsi və işğaldan azad edilmiş ərazilərin milli iqtisadiyyata inteqrasiyasına nail olmaq üçün 2 fevral 2021-ci il tarixində Ölkə başçısı, cənab İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlanan strateji sənəd qəbul edilmişdir. Birinci prioritetdə - uzunmüddətli xarakter daşıyan və Azərbaycanın davamlı inkişafına imkan verərən dayanıqlı artan rəqabətqabliyyətli iqtisadiyyatın qurulması, ikinci prioritetdə - dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət quruculuğu prosesinin surətləndirilməsi üçün baza elementlərinin inkişaf etdirilməsi, üçüncü prioritetdə - rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının yaradılması ilə ümumi inkişafın gələcək tendensiyalara uyğun stimullaşdırılması, dördüncü prioritetdə - işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın həyata keçirilməsi üçün sağlam zəmin yaradılması, beşinci prioritetdə isə - beynəlxalq aləmlə həmrəylik və ölkəmizin dayanıqlı inkişafına təminat verən təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi konsepsiyasının reallaşdırılması qarşıya məqsəd qoyulmuşdur (https://president.az/az/articles/view/50474). Beləliklə, işğaldan azad edilmiş ərazilərə böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuşdur. Bu Milli Prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir (https://e-qanun.az/framework/50013). Azərbaycan Respublikası Prezidentinin 16.11.2022-ci il tarixli müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın başlıca məqsədlərini Milli Prioritetlərdə əksini tapan iki prioritetin, yəni, işğaldan azad olunmuş ərazilərdə:

1. "Dayanıqlı məskunlaşmanın təmin edilməsi" və
2. "Ərazilərin iqtisadi reinteqrasiyası" təşkil edir.

Birinci istiqamətə uyğun olaraq nəzərdə tutulan ərazilərdə təhlükəsiz yaşayışın və dövlət sərhədlərinin etibarlı qorunmasının təmin edilməsi, məskunlaşan insanların layiqli həyat şəraitinin təmin edilməsinə imkan verən tədbirlərin həyata keçirilməsi, o cümlədən "Ağıllı şəhər" və " Ağıllı kənd" layihələrinin reallaşdırılması qarşıya məqsəd qoyulmuşdur. Bundan əlavə, alternativ enerji

resursları və yaşıl iqtisadiyyat konsepsiyasına transformasiyanı təmin etməyə imkan verən yüksək texnologiyaların tətbiqi ilə müasir kommunikasiyaların, eləcə də, sosial infrastruktur, təhsil, səhiyyə və sosial xidmət sektorlarının inkişaf etdirilməsi prioritet müəyyənləşdirilmişdir. Bütün bunlar Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında məşğulluq imkanlarının genişləndirilməsi, insan kapitalının inkişafı və sosial dəstək mexanizmlərinin dəstəklənməsi kimi vasitələrdən istifadəni də özündə ehtiva etməklə işğaldan azad edilmiş ərazilərin dayanıqlı məskunlaşdırılmasını hədəfləmişdir. İkinci istiqamətə gəlincə burada işğaldan azad edilmiş rayonların təbii potensialı və ixtisaslaşma xüsusiyyətlərinə əsaslanmaqla inkişafının, aqrar sektorun və turizmin müxtəlif növlərinin stimullaşdırılması, yerli və xarici investisiyaların, banklar və digər maliyyə institutlarının prosesə cəlb edilməsi yolu sahibkarlıq və biznes imkanlarının genişləndirilməsi, dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi yolu ilə ərazilərin iqtisadi diversifikasiyasının və sənaye potensialının artırılması qarşıya məqsəd qoyulmuşdur. Eyni zamanda, ərazilərin ekoloji tarazlığının və ətraf mühitin mühafizəsi məsələlərinin də dövlət proqramında əksini tapması yaşıl iqtisadi artım ölkəsi kimi prioritetin də reallaşdırılmasına hesablanmışdır ki, bu da regionun gələcək intensiv inkişafına xidmət edir (https://president.az/az/articles/view/57883). Böyük qayıdışın təmin edilməsi ilə bağlı əsas sənəddə qarşıya qoyulan vəzifələrin tədqiqi və digər strateji sənədlərin nəzərdən keçirilməsi onu deməyə əsas verir ki, Azərbaycanın müvafiq istiqamətdə siyasəti qabaqcıl dünya təcrübəsinə və BMT-nin konsepsiyasına əsaslanmaqla yanaşı, görüləcək işlərin dəqiq müəyyənləşdirilməsi xüsusiyyətləri ilə seçilir. Beləliklə, reallaşdırılan prioritetlər işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmanın və demoqrafik inkişafın təmin edilməsinə zəmin yaradır.

**Nəticə və təkliflər**

Ermənistanın Azərbaycana qarşı 30 ildən artıq davam edən işğal siyasəti nəticəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi potensialına və demoqrafik inkişafına ciddi zərbə vurulmuşdur. Ərazilərin işğaldan azad edilməsindən sonra regionda sosial-iqtisadi infrastrukturun yaradılması, daxili və xarici investisiyaları cəlb etməklə özəl sektorun inkişafı hesabına yeni iş yerlərinin yaradılması, müasir şəhərsalma standartları əsasında layiqli yaşayış və iş şəraitinin yaradılması yolu ilə Böyük qayıdışın reallaşdırılması və ərazilərin milli iqtisadiyyata inteqrasiyası prioritet olaraq müəyyənləşdirilmişdir. Post-konflikt ərazilərin demoqrafik inkişafı ilə bağlı Norveç, Tailand, Xorvatiya və ABŞ-nin təcrübəsinin, eləcə də, BMT-nin yanaşmasını öyrənilməsi və müqayisəli təhlillərin aparılması onu deməyə əsas verir ki, Azərbaycan hökumətinin ərazilərin dayanıqlı məskunlaşdırılması məqsədilə qəbul etdiyi strateji sənədlər və dövlət proqramlarında qarşıya qoyulan hədəflər, atılan addımlar və məsələyə ümumi yanaşma qabaqcıl dünya təcrübəsinə uyğundur. Bütün bunlar, qarşıdakı onillikdə işğaldan azad edilmiş ərazilərin demoqrafik inkişafı ilə bağlı əhəmiyyətli nəaliyyətlərin əldə olunacağı qənaətinə gəlməyə imkan verir. Bununla belə, müqayisə və təhlillərə əsaslanmaqla aşağıdakı təkliflərin nəzərə alınmasını tövsiyə edərdik:

1. Məskunlaşdırma zamanı insanların yaş və cins tərkibinin nəzərə alınması;

2. Demoqrafik inkişaf baxımından əsas məhsuldar kateqoriya hesab olunan gənclərin dayanıqlı məskunlaşdırılmasına xüsusi diqqət ayrılması;

3. Post-konflikt ərazilərin sosial-iqtisadi və demoqrafik inkişafında mühüm rol oynayan əmək bazarının formalaşdırılmasına qədər dövlət tərəfindən gənclərin təcili məşğulluq imkanlarının daha da genişləndirilməsi.

**Ədəbiyyat:**

Haciyeva, S., Azizov, M., & Yagubov, U. (2024). The participation of Azerbaijani banks in the restoration of Karabakh.

https://president.az/az/articles/view/50474

Qurbanzadə, Q. A. O. (2022). Qarabağ regionunda xarici investisiyalardan istifadənin prioritetləri.

https://e-qanun.az/framework/50013

https://president.az/az/articles/view/57883

Əmrullayev, E. (2024). https://ikisahil.az/post/530074-emin-emrullayev-torpaqlarin-azad-olunmasi-yeni-hedefler-yaratdi

Opanasiuk, V. (2022, December). The Ukrainian post-war demographic miracle. In The 12th International scientific and practical conference "Current challenges, trends and transformations"(December 13-16, 2022) Boston, USA. International Science Group. 2022. 673 p. (p. 67).

United Nations. (2009). United Nations Policy for Post-Conflict Employment Creation, Income Generation and Reintegration.

Bašić, K., & Malović, M. (2022). Spatial dimension of depopulation of Croats in Bosnia and Herzegovina. *Geoadria*, *27*(2), 147-184.

# TARİX, FƏLSƏFƏ, HÜQUQ VƏ SİYASİ ELMLƏR BÖLMƏSİ

# TEZİSLƏR

**NORMATIVE-LEGAL PROVISION OF MILITARY MANAGEMENT IN THE REPUBLIC OF AZERBAIJAN IN MODERN TIMES**

**Abbasova Nazli Alovsat**

**Military Scientific-Research Institute under the National Defense University**

**https://orcid.org/0000-0002-2485-388X**

**abbasovasss_85@mail.ru**

**Rəyçi:**

**Vəliyev Orxan Həsən oğlu,**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru**

**Abstract**

Regulation of military management covers a wide range of issues, from the regulation of the daily activities of the military command, to ensuring compliance with international humanitarian law in times of military conflicts, and even the normative regulation of peacekeeping operations. Complex knowledge of the state-legal content of the processes and events that occur in various spheres of the state`s military activity is traditionally called military law. In modern times, the role of the science of military law in the theoretical substantiation of the normative-legal provision of military management in the Republic of Azerbaijan is becoming more and more urgent. Thus, the current situation requires the intellectualization of military work, the development of main directions of military law and the use of scientific potential to increase effectiveness of combat training of the armed forces.

One of the most important and difficult tasks in building the rule of law and civil society in Azerbaijan is to create an optimal system of military institutions of the state. Article 76 of the Constitution of the Republic of Azerbaijan states: "Defense of the Motherland is the duty of every citizen." This provision imposes on citizens the duty to defend the Motherland. The institution of homeland defense is realized through various legal means, as well as through the establishment of military service as a special type of civil service. There is a need for reforms today to ensure that the Armed Forces and other armed formations established in accordance with the law meet modern international requirements, as well as to cope with the task of localizing and neutralizing internal and external military threats.

The most important direction of military reforms in Azerbaijan is the improvement of legal relations arising in the process of organizing the military service of citizens. Issues on the essence and content of the concept of military service are still under discussion today.

**Key words**: military service, armed forces, military administration, military law, military personnel.

# НОРМАТИВНО-ПРАВОВОЕ ОБЕСПЕЧЕНИЕ ВОЕННОГО УПРАВЛЕНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ В СОВРЕМЕННОЕ ВРЕМЯ

**Аббасова Назли Аловсат**

**Военный научно-исследовательский институт при Национальном университете обороны**

**https://orcid.org/0000-0002-2485-388X**

**abbasovasss_85@mail.ru**

**Резюме**

Регулирование военного управления охватывает широкий круг вопросов, от регулирования повседневной деятельности военного командования до обеспечения соблюдения норм международного гуманитарного права в условиях военных конфликтов и даже нормативного регулирования миротворческих операций. Комплексное изучение государственно-правового содержания процессов и событий, происходящих в различных сферах военной деятельности государства, традиционно называют военным правом. В современное время все более актуальной становится роль науки военного права в теоретическом обосновании нормативно-правового обеспечения военного управления в Азербайджанской Республике. Таким образом, современная ситуация требует интеллектуализации военного дела, разработки основных направлений военного права и использования научного потенциала для повышения эффективности боевой подготовки вооружённых сил.

Одной из важнейших и сложных задач в построении правового государства и гражданского общества в Азербайджане является создание оптимальной системы военных институтов государства. Статья 76 Конституции Азербайджанской Республики гласит: «Защита Родины долг каждого гражданина». Это положение возлагает на граждан обязанность защищать Родину. Институт защиты Родины реализуется посредством различных правовых средств, а также посредством установления военной службы как особого вида государственной службы. Сегодня существует необходимость в реформах для обеспечения соответствия Вооружённых Сил и других вооружённых формирований, созданных в соответствии с законом, современным международным требованиям, а также для решения задачи локализации и нейтрализации внутренних и внешних военных угроз.

Важнейшим направлением военных реформ в Азербайджане является совершенствование правовых отношений, возникающих в процессе организации военной службы граждан. Вопросы сущности и содержания понятия военной службы по сей день являются предметом дискуссий.

**Ключевые слова**: военная служба, вооруженные силы, военное управление, военное право, военнослужащие.

**MÜASİR DÖVRDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA HƏRBİ İDARƏETMƏNİN NORMATİV-HÜQUQİ TƏMİNATI**

**Abbasova Nazlı Əlövsət**

**Milli Müdafiə Universitetinin Hərbi-Elmi Tədqiqatlar İnstitutu**

**https://orcid.org/0000-0002-2485-388X**

**abbasovasss_85@mail.ru4**

Tənzimlənməsinə ehtiyac duyulan yeni ictimai münasibətlərin meydana gəldiyi və ya ictimai proseslərin inkişaf dinamikasının sürətləndiyi bir dövrdə hüquqi tənzimlənmə ehtiyacdan zərurətə çevrilir. Bu müddəa tam mənasında fəaliyyəti hərbi hüquq normaları ilə tənzimlənən dövlətin müdafiəsi və hərbi təhlükəsizliyi sferasına da şamil olunur. Azərbaycan Respublikasının Konstitusiyasına, Milli Təhlükəsizlik Konsepsiyasına və Hərbi Doktrinasına əsasən, Azərbaycan Respublikasının öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə yaratdığı silahlı qüvvələr və digər silahlı birləşmələr və qurumlar qarşılıqlı əlaqədə fəaliyyət göstərir və bu struktur elementlər dövlətin hərbi təşkilatını əmələ gətirir. Dövlətin hərbi təşkilatının formalaşdırılması və bu təşkilatın fəaliyyəti hərbi sahədə mövcud olan çoxsaylı normativ aktlarla nizamlanır. Ölkədə həyata keçirilən hərbi islahatların mühüm hüquqi aspekti milli təhlükəsizlik və müdafiə sahəsində qanunvericiliyin inkişafının və təkmilləşdirilməsinin təmin edilməsidir. Burada əsas məqsəd hərbi idarəetmənin təkmilləşdirilməsi, dövlətin hərbi təşkilatında münasibətlərin humanistləşdirilməsi və demokratikləşdirilməsi, habelə hərbi idarəetmə orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyətində qanunvericiliyin təmin edilməsi, eyni zamanda hərbi qulluqçuların və onların ailə üzvlərinin hüquq, azadlıq və qanuni maraqlarına riayət edilməsi məsələlərində qanunçuluğun daha yaxşı təmin edilməsidir.

Təhlükəsizliyin təmin olunması, ərazi bütövlüyünün qorunması və xarici təhdidlərin qarşısının alınması istiqamətindəki vəzifələri Azərbaycan Respublikası Silahlı Qüvvələri, habelə hərbi xidməti nəzərdə tutan digər silahlı birləşmələr və orqanlar icra edirlər. Hərbi xidməti fəaliyyətin xüsusi xarakterini (müstəsna təhlükəlilik və imperativlik) nəzərə alaraq hərbi xidmətlə bağlı məsələləri ayrıca tədqiqat obyektinə çevirmək zəruridir. Silahlı Qüvvələrin qarşısında duran vəzifələrin və məqsədlərin realizəsi məqsədilə hərbi qulluqçular müxtəlif və çoxnövlü hüquq münasibətlərinə daxil olurlar (həm digər vətəndaşlar kimi ümumi hüquq münasibətlərinə, həm də hərbi xidmətin konkret sahəsi ilə əlaqədar xüsusi hüquq münasibətlərinə). Hərbi idarəetmənin tənzimlənməsi dedikdə, hərbi komandanlığın gündəlik fəaliyyətinin nizamlanmasından başlayaraq, hərbi münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarına riayət olunmasının təmini, hətta sülhməramlı əməliyyatların keçirilməsinin normativ tənzimlənməsi də daxil olmaqla geniş bir sfera başa düşülür. Təbii ki, hərbi xidmətin hər sahəsi cəmiyyətə mühüm həyati maraqlarının təminatının zəmanəti kimi vacibdir.

Azərbaycan Respublikasının hərbi qanunvericiliyində bu və ya digər klassik hüquq sahəsinə aid edilə bilməyən kifayət qədər normalar mövcuddur. Bu cür normalara "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında", "Müdafiə haqqında", "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi vəziyyət haqqında" qanunlarda, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə, eləcə də AR Prezidentinin hərbi məsələlərlə bağlı

fərmanlarında və Azərbaycan Respublikası Nazirlər Kabinetinin bir sıra müvafiq istiqamətli qərarlarında rast gəlmək mümkündür. Bu cür normalar dövlətin hərbi fəaliyyətinin müxtəlif sferalarında meydana çıxan proses və hadisələrin dövlət-hüquqi məzmunu ilə bağlı olur və ənənəvi olaraq hərbi hüquq adı altında kompleks şəkildə birləşdirilir.

Müasir dövrdə Azərbaycan Respublikasında hərbi idarəetmənin normativ-hüquqi təminatının nəzəri əsaslandırılmasında hərbi hüquq elminin rolu aktuallaşır. Belə ki, hazırki şərait hərbi işin intellektuallaşdırılmasını, hərbi hüquq elminin əsas istiqamətlərinin inkişafını və elmi potensialın silahlı qüvvələrin döyüş hazırlığının səmərəliliyi üçün istifadəsini zəruri edir. Bütün hərbi hüquq normaları bu sahə üçün spesifik olan prinsiplərə - mərkəzləşmə, vahid rəhbərlik (təkbaşçılıq) və hərbi intizam prinsiplərinə əsaslanaraq, dövlətin hərbi təşkilatının fəaliyyətinin möhkəmlənməsi və təkmilləşdirilməsinə xidmət edir .

Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ən mühüm və mürəkkəb tapşırıqlarından biri dövlətin hərbi təsisatının optimal sisteminin yaradılmasıdır. Azərbaycan Respublikasının Konstitusiyasının 76-cı maddəsində qeyd olunur: “Vətəni müdafiə hər bir vətəndaşın borcudur” . Bu müddəa vətəndaşların üzərinə Vətəni müdafiə vəzifəsi qoyur. Vətəni müdafiə institutu müxtəlif hüquqi vasitələrlə, habelə dövlət qulluğunun xüsusi növü kimi hərbi xidmətin təsis edilməsi yolu ilə reallaşdırılır. Silahlı Qüvvələrin və qanunvericiliyə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin müasir beynəlxalq tələblərə cavab verməsi, eləcə də, daxili və xarici hərbi təhdidlərin lokallaşdırılması və neytrallaşdırılması vəzifəsinin öhdəsindən gələ bilməsi üçün islahatlar keçirilməsi hazırki dövrün tələbidir.

Azərbaycanda hərbi islahatların ən mühüm istiqamətini vətəndaşların hərbi xidmət keçmələrinin təşkili prosesində meydana çıxan hüquqi münasibətlərin təkmilləşdirilməsi təşkil edir. Hərbi xidmət anlayışının mahiyyəti və məzmunu barədə məsələlər bugün də müzakirə predmetidir. Hərbi xidmət çox mürəkkəb sosial və hüquqi instutudur. Belə ki, 23 dekabr 2011-ci il tarixli “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 2.0.2-ci bəndində qeyd olunan “hərbi xidmət” anlayışının məzmunu çox geniş və nəzəri ifadə olunmuşdur. Eyni zamanda hərbi xidmətkeçmə zamanı vətəndaşların bir sıra konsitusion hüquq və azadlıqlarının məhdudlaşdırılmasının nəzərdə tutulması bu sahənin daha diqqətlə tədqiq edilməsini tələb edir.

**Ədəbiyyat:**

Azərbaycan Respublikasının Konstitusiyası. 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixli dəyişikliklərlə).

Milli Təhlükəsizlik Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

“Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikasının 29 dekabr 2017-ci il tarixli Qanunu (2 dekabr 2022-ci il tarixli dəyişikliklərlə).

“Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının 23 dekabr 2011-ci il tarixli Qanunu (23 fevral 2024-cü il tarixli dəyişikliklərlə).

**AZERBAIJANI-BRITISH RELATIONS AT THE END OF THE XX CENTURY: ANALYSIS THROUGH THE PRISM OF DOMESTIC HISTORIOGRAPHY**

**Mammadli Balamirza Aydin**

**Baku State University**

**https://orcid.org/0009-0007-4506-4840**

**balamirzamammadli@gmail.com**

**Rəyçi:**

**Səlimov Şirxan Dadaş oğlu,**

**Tarix elmləri doktoru, professor**

**Abstract**

The purpose of this report is to determine the important points and directions of bilateral relations by analyzing the first political-diplomatic relations between the Republic of Azerbaijan and Great Britain, which has a special role and influence in modern international relations, from the perspective of domestic historiography. This is of great scientific and political importance. So, Great Britain, which was once called "the workshop of the world", today ranks second in Europe after Germany in terms of GDP size ($3.5 trillion in 2024) as a country with a strong economy. Great Britain, one of the 5 permanent members of the UN Security Council, also member of NATO and the -G7. Britain is also a nuclear power with powerful military and political potential, and ranks first in Europe in terms of annual military spending. Establishing and developing successful mutual relations with such a world power is extremely important for Azerbaijan in terms of strengthening its position in the international world.

**Keywords:** Republic of Azerbaijan, Great Britain, foreign policy, international relations, domestic historiography.

# АЗЕРБАЙДЖАНО-БРИТАНСКИЕ ОТНОШЕНИЯ В КОНЦЕ XX ВЕКА: АНАЛИЗ ЧЕРЕЗ ПРИЗМУ ОТЕЧЕСТВЕННОЙ ИСТОРИОГРАФИИ

**Мамедли Баламирза Айдын оглы**

**Бакинский государственный университет**

**https://orcid.org/0009-0007-4506-4840**

**balamirzamammadli@gmail.com**

**Резюме**

Целью данного тезиса является определение важных моментов и направлений двусторонних отношений путем анализа первых политико-дипломатических отношений между Азербайджанской Республикой и Великобританией, имеющей особую роль и влияние в современных международных отношениях, с точки зрения отечественной историографии. Это имеет большое научное и политическое значение. Так как, Великобритания, которую когда-то называли «мастерской мира», как страна с сильной экономикой сегодня занимает второе место в Европе после Германии по размеру ВВП (3,5 триллиона долларов в 2024 году). Великобритания, один из 5 постоянных членов Совета Безопасности ООН, также член НАТО и G7. Великобритания также является ядерной державой с мощным военно-политическим потенциалом, и занимает первое место в Европе по ежегодным военным расходам. Установление и развитие успешных взаимоотношений с такой мировой державой крайне важно для Азербайджана с точки зрения укрепления его позиций в международном мире.

**Ключевые слова:** Азербайджанская Республика, Великобритания, внешняя политика, международные отношения, отечественная историография.

# XX ƏSRİN SONLARINDA AZƏRBAYCAN-BÖYÜK BRİTANİYA MÜNASİBƏTLƏRİ: VƏTƏN TARİXŞÜNASLIĞI PRİZMASINDAN TƏHLİL

**Məmmədli Balamirzə Aydın oğlu**

**Bakı Dövlət Universiteti**

**https://orcid.org/0009-0007-4506-4840**

**balamirzamammadli@gmail.com**

## Giriş

Azərbaycanın Böyük Britaniya ilə münasibətləri zəngin tarixi ənənələrə malikdir. Vətən tarixşünaslığında bir sıra müəlliflər belə hesab edirlər ki, bu münasibətlərin təməli XIX əsrin sonları-XX əsrin əvvəllərində qoyulmuşdur (Qasımlı, 2015: 29; İbrahimov, 2020: 37). Lakin, digər qrup tədqiqatçılarımız münasibətlərin tarixi köklərinin XVI əsrə gedib çıxması qənaətinə gəlirlər ki, bu heç də əsassız fikir deyil (Həsənov, 1998: 40; Musa, 2011: 476; Adıgözəlov, 2015: 34; Мусаева, 2023: 29). Belə ki, hələ 1561-ci ildə Tüdorlar sülaləsindən olan İngiltərə kraliçası I Yelizaveta Səfəvi şahı I Təhmasibə məktub göndərərək qarşılıqlı əlaqələrin hər iki ölkə üçün faydalı olduğunu bildirmiş, ingilislərin "Moskva" ticarət kompaniyası (*Muscovy Company*) tərəfindən Səfəvilər dövlətinə 6 dəfə ekspedisiya göndərilmişdi. Çoxsaylı ingilis səyyah və diplomatları (E.Cenkinson, C.Fletçer, Şerli qardaşları və s.) Azərbaycana gəlmiş, hətta 1621-ci ildə İngiltərə və Səfəvilər dövləti arasında "Əbədi dostluq" haqqında müqavilə imzalanmışdır. XIX əsrin ikinci yarısında Bakıda neft sənayesinə "Şell" və başqa iri şirkətlərin timsalına ingilis kapitalı nüfuz etmişdi. Lakin, sovet dövründə Azərbaycan-Britaniya əlaqələri dayanmış, iki ölkə arasında müəyyən iqtisadi, elmi və mədəni əlaqələr yalnız SSRİ-Böyük Britaniya münasibətləri çərçivəsində mümkün olmuşdur.

## Azərbaycan Respublikası və Böyük Britaniya arasında ilk diplomatik münasibətlərin qurulması

Müstəqilliyin bərpasından sonra öz xarici siyasət prioritetlərini müəyyənləşdirən AR-nın ilk diplomatik münasibətlər qurduğu aparıcı dünya dövlətlərindən biri Böyük Britaniya oldu. AR-nın dövlət müstəqilliyi 1991-ci ilin dekabrın 31-də Böyük Britaniya tərəfindən tanınsa da, Vətən tarixşünaslığında bir çox tədqiqatçılar qeyd edirlər ki, əslində iki ölkə arasında siyasi münasibətlərin başlanğıcı hələ Sovet İttifaqının süqutu ərəfəsində qoyulmuşdu. Belə ki, 1991-ci ilin martında Bakıya səfər edən Böyük Britaniyanın SSRİ-dəki səfiri R.Kventin Azərbaycan SSR-in prezidenti A.Mütəllibov və digər rəsmi şəxslərlə görüşərək müəyyən müzakirələr aparmış, iki ay sonra Moskvadakı Britaniya səfirliyinin əməkdaşları D.Loqan və D.Manninq Azərbaycana səfər etmişdilər. İ.Musa bunu ingilis diplomatiyasının "kəşfiyyat tədbirləri" kimi xarakterizə edir (Musa, 2011: 477). AR və Böyük Britaniya arasında siyasi-diplomatik münasibətlərin qurulması sahəsinə konkret addımlar isə 1992-ci ildə atıldı. Həmin ilin 11-12 martında Duqlas Hoqq başçılıq etdiyi ingilis nümayəndə heyətinin Bakıya səfərinə bu baxımdan tarixşünaslıqda xüsusi diqqət yönəldilir. Çünki, həmin səfərdən sonra iki ölkə arasında diplomatik münasibətlərin yaradılması haqqında memorandum imzalanmış, bununla da münasibətlərin hüquqi bazasının əsası qoyulmuşdu. Lakin, ilk mərhələdə qarşılıqlı münasibətlər hələ zəif idi. Buna görə də, 1992-1993-cü illərdə hər iki tərəf qarşılıqlı münasibətlərin canlandırılması üçün bir sıra addımlar atdı. 1992-ci il iyulun 15-də Brayn

Foll Böyük Britaniyanın ölkəmizə təyin olunmuş səfiri kimi öz etimadnaməsini Prezident Ə.Elçibəyə təqdim etdi və Azərbaycanda Britaniyanın diplomatik missiyası işə başladı. 1992-ci ilin sentyabrın 7-də Prezident Ə.Elçibəyin dəvəti ilə Böyük Britaniyanın keçmiş baş naziri M.Tetçer Bakıya səfər etdi ki, bu da ilk dönəmlərdə Azərbaycan-Britaniya münasibətlərinə müsbət töhfə verən hadisə kimi Vətən tarixşünaslığında yüksək qiymətləndirilir. G.Musayeva yazır ki, Tetçerin səfəri ölkəmizin Böyük Britaniya ilə daha yaxın iqtisadi və siyasi münasibətlərin qurulmasında mühüm rol oynadı (Мусаева, 2023: 82). İ.Musanın fikrincə, hətta Tetçerin səfəri ölkələr arasındakı münasibətlərdə mühüm mərhələ sayıla bilər (Musa, 2011: 478). Fikrimizcə, buna səbəb səfər zamanı AR hökuməti ilə BP və "Statoyl" şirkətləri arasında "Çıraq" neft yatağı və perspektivli "Şahdəniz" qaz-kondensat yatağındakı ehtiyatların dəqiqləşdirilməsi haqqında sazişin imzalanmasıdır. Qısa müddət sonra, sentyabrın 28-də ölkəmizə səfər edən Britaniya ticarət və sənaye naziri M.Hezaltayn Bakıda BP şirkətinin ofisinin açılışını gerçəkləşdirdi. Bu dövrdə Baş nazir C.Meycorun dəvəti əsasında Prezident Ə.Elçibəyin Londona rəsmi səfəri də planlaşdırılsa da, Azərbaycanda siyasi şəraitin mürəkkəbləşməsi və hakimiyyət dəyişikliyi buna imkan vermədi (Mirzəbəyli, 2001: 46).

**Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan-Böyük Britaniya münasibətləri**

1993-cü ilin ikinci yarısından sonrakı hadisələr Vətən tarixşünaslığındakı tədqiqatçılara əsas verir ki, Azərbaycan-Böyük Britaniya münasibətlərində yeni mərhələnin başlanması müddəasını irəli sürsünlər. Təsadüfi deyildir ki, prezident seçildikdən sonra H.Əliyevin qəbul etdiyi ilk rəsmi xarici nümayəndə məhz Böyük Britaniyanın xarici işlər üzrə dövlət naziri D.Hoqq olmuşdur. Yeni mərhələnin başlanğıcındakı ilk ən mühüm hadisə isə 1994-cü ilin 22-25 fevralında Azərbaycan Prezidentinin Böyük Britaniyaya ilk rəsmi səfəri oldu. Rəsmi səfər zamanı Prezident H.Əliyevin Baş nazir C.Meycor da daxil olmaqla Britaniyanın çoxsaylı rəsmi şəxsləri ilə görüşləri baş tutdu, müxtəlif sahələrdə (siyasi, iqtisadi, mədəni, elmi, humanitar) əməkdaşlığın genişləndirilməsi perspektivləri nəzərdən keçirildi və ümumilikdə 8 sənəd imzalandı (Мусаева, 2023: 90). Bunların içərisində ən çox diqqəti cəlb edən 12 maddədən ibarət "Azərbaycan və Böyük Britaniya arasında dostluq və əməkdaşlıq haqqında birgə bəyannamə" idi. Bu bəyannamə ilə AR və Böyük Britaniya dost dövlətlər, yaxın tərəfdaşlar olduqlarını rəsmi olaraq təsdiqlədilər. Bu səbəbdəndir ki, Vətən tarixşünaslığında Prezident H.Əliyevin Böyük Britaniyaya rəsmi səfəri ölkəmizin xarici siyasət tarixində baş verən mühüm hadisə kimi qiymətləndirilir (Qasımlı, 2015: 45-46; Ələkbərov, 2018: 43-44). Rəsmi səfərdən bir ay sonra diplomat Mahmud Məmmədquliyev ölkəmizin Böyük Britaniyadakı ilk fövqəladə və səlahiyyətli səfiri kimi Azərbaycanın 1994-ci ilin yanvarında Londonda açılmış səfirliyində fəaliyyətə başladı.

1994-cü ildə qarşılıqlı münasibətlərinin inkişafına töhfə verən növbəti mühüm hadisə sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"ndə Böyük Britaniyanın əsas iştirakçılardan biri kimi yer alması oldu. AR-nın neft strategiyasının başlanğıcı hesab olunan bu müqavilədə iki Britaniya şirkəti – BP və "Remko" iştirak etdi. BP 17,1%, "Remko" isə 2,08% paya sahib oldu. Britaniya şirkətləri ümumi təmsilçilik əmsalı baxımından yalnız ABŞ şirkətlərindən geri qalırdılar. Vətən tarixşünaslığında bir çox tədqiqatçılar Britaniya şirkətlərinin də iştirak etdiyi "Əsrin müqaviləsi"nin imzalanmasını Azərbaycan-İngiltərə münasibətlərinin yüksəlməsinə təkan verən əsas amillərdən biri kimi xarakterizə edirlər (Həsənov, 1998: 49; Adıgözəlov, 2015: 37). Təsadüfi deyil ki, Böyük Britaniyanın Baş naziri C.Meycor bu hadisəni Azərbaycan-Britaniya münasibətlərində "yeni mərhələnin başlanğıcı" adlandırmışdı. Ümumiyyətlə, Azərbaycan-Böyük Britaniya əlaqələri, iki

ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq və dostluq münasibətləri iqtisadi amillərlə sıx bağlıdır. Xüsusilə Birləşmiş Krallığın neft maraqları onun regionda aktivlik nümayiş etdirməsinin əsas səbəblərindən biridir.

XX əsrin sonlarında ikitərəfli münasibətlərinin yüksələn tendensiya ilə inkişafına təkan verən mühüm hadisələrdən biri 1998-ci ilin 19-24 iyulunda Prezident H.Əliyevin Böyük Britaniyaya ikinci dəfə rəsmi səfər etməsi oldu. Bu hadisədən sonra iki ölkə arasında münasibətlər daha yüksək inkişaf tempi üzrə davam etməyə başladı, siyasi-strateji tərəfdaşlıq və qarşılıqlı əməkdaşlıq əlaqələri daha da genişləndirildi. Səfər zamanı Prezident H.Əliyev və Britaniyanın yeni baş naziri Toni Bler ilə yanaşı, Bukingem sarayında kraliça II Yelizaveta ilə də görüşdü ki, bu da AR Prezidentinin Birləşmiş Krallığın Kraliçası ilə ilk rəsmi görüşü idi. Kraliça Azərbaycanda dövlət quruculuğu sahəsində görülən işlərin Böyük Britaniya tərəfindən maraqla izlənildiyini bildirdi, baş nazir T.Bler isə bəyan etdi ki, Azərbaycan – Böyük Britaniyanın strateji müttəfiqidir. Rəsmi səfərin gedişində baş verən ən mühüm hadisə 21 iyul 1998-ci ildə AR və Böyük Britaniya arasında 16 bənddən ibarət "Dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannamə"nin, habelə ingilis neft şirkətlərinin iştirakı ilə Xəzərin Azərbaycan sektorundakı müxtəlif perspektivli strukturların ("Araz", "Alov", "İnam" və s.), neft yataqlarının kəşfiyyatı və işlənilməsinə dair üç saziş imzalanması oldu. Prezident H.Əliyevin səfərin gedişində İngilis-Azərbaycan cəmiyyətinin (*Anglo-Azerbaijani Society*) toplantısında iştirakı da diqqət çəkən məqamlardandır. 1997-ci ildə yaradılmış bu təşkilatı İ.Musa "Azərbaycanın dünyadakı ilk lobbi təşkilatlarından biri" kimi səciyyələndirir (Musa, 2011: 480).

Rəsmi səfərdən sonra ölkəmizin Böyük Britaniya ilə müxtəlif sahələrdə, xüsusilə enerji sahəsində əməkdaşlığı daha da dərinləşdi. 1999-cu ilin iyununda BP Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) əsas əməliyyatçı təyin edildi. Qeyd etmək lazımdır ki, ABƏŞ "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişi həyata keçirmək məqsədilə 1995-ci ilin fevralında yaradılmış konsorsiumdur. AÇG yataqlarından neftin və "Şahdəniz" yatağından təbii qazın çıxarılması məhz bu konsorsiuma birbaşa xarici investisiyaların qoyulması hesabına mümkün olub. Belə bir iri konsorsiumun əməliyyatçısının BP şirkəti təyin edilməsi isə heç də təsadüfi deyil. Belə ki, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanarkən ən çox paya sahib olan xarici şirkət məhz BP olmuşdu. Bundan xeyli sonra – 2017-ci ilin sentyabrında AÇG yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişə əlavə və dəyişiklikləri ehtiva edən (yataqların 2050-ci ilə qədər işlənməsini nəzərdə tutan – B.M.) sənəd imzalanarkən də BP ən çox səhmlərə (30,37%) malik şirkət kimi liderliyini qoruyub saxlayıb (Мусаева, 2023: 158).

Vətən tarixşünaslığında çox vaxt qeyd edilməsə də, XX əsrin son illərində AR və Böyük Britaniya arasındakı münasibətlərdə əhəmiyyətli yüksəlişin mühüm səbəblərindən biri T.Bler baş nazir seçildikdən sonra ABŞ-Böyük Britaniya münasibətlərinin yeni keyfiyyət mərhələsinə keçid etməsi idi. Ümumiyyətlə, ilk öncə onu qeyd etmək lazımdır ki, ABŞ və Böyük Britaniya arasında tarixən sıx əlaqələr mövcud olmuş və bu, hələ U.Çörçill zamanından "xüsusi münasibətlər" (*special relationship*) adlandırılmışdır. T.Blerin hakimiyyətə gəlməsindən sonra isə "xüsusi münasibətlər" daha yüksək səviyyəyə qaldırıldı. Bəs bunun Azərbaycan-Böyük Britaniya münasibətlərinə təsiri necə idi? Belə ki, SSRİ-nin dağılmasından sonra ilk vaxtlarda Böyük Britaniya da daxil olmaqla Avropa ölkələri Xəzər dənizindəki enerji resurslarının istismarı məsələsində ABŞ ilə eyni mövqedən çıxış etmirdilər. Bu məsələ ABŞ üçün strateji əhəmiyyət kəsb etdiyi halda, Avropa ölkələri ona yalnız iqtisadi prizmadan yanaşırdı. BTC kimi layihələrin reallaşdırılması ABŞ-ın xarici siyasətində həlli vacib prioritetlərdən biri olduğu halda bu layihənin iqtisadi baxımdan səmərəli olmadığını iddia edən BP-nin timsalında Böyük Britaniya bu layihənin əleyhinə çıxış

edirdi. Lakin, T.Bler hökumətinin xarici siyasət xəttindəki transformasiyalar, yəni “xüsusi münasibətlərin” yenidən aktuallaşmasından sonra Böyük Britaniyanın maraqları ABŞ ilə uzlaşdırıldı və hər iki Qərb ölkəsi məsələ ilə bağlı eyni mövqedən çıxış etməyə başladı.

**Ədəbiyyat:**


Adıgözəlov, Z.N. (2015). Azərbaycan Respublikasının Avropa İttifaqı ölkələri ilə siyasi əlaqələri (1991-2006). Bakı: CBS PP.

Ələkbərov, C.M. (2018). Azərbaycan-Böyük Britaniya əlaqələri (1991-2008-ci illər). Tarix üzrə fəlsəfə doktoru dissertasiyası. Bakı.

Həsənov, Ə.M. (1998). Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı: Azərnəşr.

İbrahimov, M.N. (2020). Sahilyanı dövlətlərin xarici siyasətində Xəzər problemi (XX əsrin sonu–XXI əsrin əvvəlləri). Bakı: Turxan NPB.

Qasımlı, M.C. (2015). Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. Bakı: Mütərcim.

Mirzəbəyli, İ. (2001). Azərbaycan-Böyük Britaniya: əməkdaşlıq və tərəfdaşlıq (1991-2001). Bakı: Əbilov, Zeynalov və oğulları.

Musa, İ. (2011). Azərbaycanın xarici siyasəti. 3 hissədə. III hissə. Bakı: Bakı Universiteti.

Мусаева, Г.М. (2023). Нефтяной фактор в азербайджанской политике Великобритании (1991-2022 гг.). Баку: Aspoliqraf.

# MEDIEVAL BUILDING CERAMICS IN ARCHEOLOGY OF AZERBAIJAN

**Beydullazade Vusala Fazil**

**Institute of Archeology and Anthropology**

**https://orcid.org/0009-0004-8645-339X**

**vbeydullazade@gmail.com**

**Rəyçi:**

**Səlimov Şirxan Dadaş oğlu,**

**Tarix elmləri doktoru, professor**

**Abstract**

In the Middle Ages in Azerbaijan, building ceramics were widely used in the creation of monumental and public buildings. The main part of it consisted of baked bricks, which were of two types. The walls of the mausoleums were built with square-shaped baked bricks, and geometric patterns were applied to them with decorative baked bricks.

In archaeological excavations of medieval settlements, clay pipes were discovered, which testified to the improvement of the medieval cities of Azerbaijan.

**Keywords:** Azerbaijan, Middle Ages, architecture, building ceramics, fired brick.

# СРЕДНЕВЕКОВАЯ СТРОИТЕЛЬНАЯ КЕРАМИКА В АРХЕОЛОГИИ АЗЕРБАЙДЖАНА

**Бейдуллазаде Вусала Фазиль**

**Института археологии и антропологии**

**https://orcid.org/0009-0004-8645-339X**

**vbeydullazade@gmail.com**

**Резюме**

В средние века в Азербайджане строительная керамика широко применялась при создании монументальных и общественных зданий. Основную ее часть составляли обожженные кирпичи, которые были двух видов. Стены мавзолеев возводились из обожженных кирпичей квадратной формы, а геометрические узоры наносились на них декоративными обожженными кирпичами.

При археологических раскопках средневековых поселений были обнаружены глиняные трубы, что свидетельствовало о совершенствовании средневековых городов Азербайджана.

**Ключевые слова:** Азербайджан, средние века, архитектура, строительная керамика, обожженный кирпич.

# AZƏRBAYCAN ARXEOLOGİYASINDA ORTA ƏSR İNŞAAT KERAMİKASI

**Beydullazadə Vüsalə Fazil**

**Arxeologiya və Antropoliya İnstitutunun**

**https://orcid.org/0009-0004-8645-339X**

**vbeydullazade@gmail.com**

Orta əsrlər dövrü Azərbaycan tarixində həm siyasi, həm də iqdisadi-mədəni baxımdan xüsusi rol oynayır. IX əsrin sonu-X əsrin əvvəllərində yeni yaranan və getdikcə güclənən feodal dövlətləri müstəqil siyasət yeritməyə çalışır, ordunu və iqtisadiyyatı gücləndirirdilər. Məhz bu dövrdən Azərbaycanda ticarət, sənətkarlıq və memarlıq inkişaf etməyə başladı. Təməli feodal dövlətləri dövründə qoyulan inkişaf Böyük Səlcuqlu imperiyası dövründə iqtisadiyyatın və mədəniyyətin çiçəklənməsinə şərait yaratdı.

Bir neçə məktəblə təmsil olunmuş Azərbaycan memarlığının nailiyyətlərini xüsusilə qeyd etmək lazımdır. Hər məktəbin özünün üslubu, daha çox istifadə etdiyi tikinti materialı var idi. XII-XIII əsrlərdə Şirvan memarlıq məktəbində başlıca tikinti materialı əhəngdaşı, Aran memarlıq məktəbində daş və kərpic, Marağa-Naxçıvan, Qəzvin-Həmədan məktəblərində isə bişmiş kərpic əsas tikinti materialı olmuşdur. Naxçıvan memarlıq məktəbinin əsası Əcəmi Əbubəkr oğlu tərəfindən qoyulmuşdu. Arealına görə bu məktəb həm də Naxçıvan-Marağa memarlıq məktəbi adlanır. Naxçıvan memarlıq məktəbinin dünya memarlıq inciləri siyahısına daxil olan abidələri çoxüzlü qülləli türbələrdir ki, onların da başında Əcəmi Əbubəkr oğlunun şah əsəri olan Möminə Xatın türbəsi (1186) durur.

Naxçıvan-Marağa memarlıq məktəbinin əsrlərin sınağından çıxmış abidələrinin yaranmasında inşaat keramikasının, xüsusən dekorativ bişmiş kərpiclərin mühüm rolu olmuşdur. Özülü və kürsülüyü daşdan olan türbələrin və ictimai binaların yerüstü hissəsi əsasən bişmiş kərpiclə (əsasən 20x20x5 sm ölçülərində) və gəc məhlulu ilə işlənirdi. İctimai binaların fasadı, çoxüzlü tikililərin isə hər tərəfi həndəsi naxışlarla bəzədilmiş “memarlıq köynəyi” ilə örtülürdü. Bu üzlük blokların hazırlanmasında dekorativ bişmiş kərpiclərdən və kaşılardan istifadə olunurdu.

Orta əsr memarlığında, daşdan daha əlverişli olduğu üçün bişmiş kərpicə üstünlük verilirdi. Hündür binaların daşla işlənməsi onları zəlzələyə davamsız edirdi. Naxçıvan-marağa memarlıq məktəbinin yayıldığı ərazi isə yüksək seysmik bölgə idi. Bişmiş kərpic ağacdan daha uzunömürlü, daşdan daha ucuz və yüngül idi. Tikinti üçün yararlı daşları uzaqdan şəhərə daşıyıb gətirmək çətin idi, lakin bişmiş kərpic abidəyə yaxın qurulmuş kürələrdə bişirilirdi. Nisbətən az vəsait və işçi qüvvəsi ilə böyük binalar tikmək mümkün idi. Müxtəlif formalarda hazırlanmış bişmiş dekorativ kərpiclərlə zəngin həndəsi ornamentli bloklar yaratmaq mümkün idi. Heykəltəraşlığın və ikonoqrafiyanın qadağan olunduğu müsəlman ölkələrində isə bunun mühüm əhəmiyyəti var idi. Bu dövrdə kərpiclərin dekorativ formada kəsilməsi və bişirilməsi ilə peşəkar ustalar məşğul olurdular.

Müxtəlif təyinatlı binaların – məscidlərin, məqbərələrin, hamam və sarayların bədii tərtibatında XII əsrdən başlayaraq kaşıdan geniş istifadə olunmuşdur. Azərbaycan memarlıq abidələrində firuzəyi rəngli şirin geniş tətbiqi diqqəti cəlb edir. Ölkə ərazisində zəngin kobalt yataqlarının olması buna zəmin yaratmışdı (Dostiyev T., Bəşirov R., Mirzəyev R., Hüseynli N., 2013).

Naxçıvan memarlıq məktəbinin əsas inkişaf dövrü XII əsr olmuşdur. Bu məktəbin abidələri üçün kərpic hörgüsü, kərpicdən quraşdırılmış inşaat quruluşları, müxtəlif biçimli kərpicin məharətlə tətbiqi və kərpicin birrəngli yeksənəqliyindən uzaqlaşmaq üçün rəngli kaşı və gəc ünsürlərinin memarlıq bəzəyinə daxil edilməsi səciyyəvidir (İbrahimli B., 2020).

Naxçıvan memarlıq məktəbi abidələrində binaların fasad və üzlüklərin bəzədilmsəində sadə bişmiş kərpiclərdən də məharətlə istifadə etmişlər. Daha çox nəzərə çarpan hörgüdə işıq və kölgə effektindən məharətlə istifadə olunmasıdır. Bu hörgüdə bişmiş kərpiclər bərkidici maddədən azca öndə olduğu üçün kölgədə qalır və kölgə fonunda çəhrayı bişmiş kərpiclər xüsusi bir gözəllik yaradır. Orta əsr abidələrində, xüsusən interyerdə bişmiş kərpiclərin "yolka" üslubu ilə hörgüsünə tez-tez rast gəlinir.

Orta əsrlər boyu inşaat keramikasının hörgüsündə qatqılı gəcdən istifadə olunmuşdur. XIV-XVI əsrlərdə Aza şəhətində istifadə olunan gəc, şəhərdən bir neçə kilometr şimalda – Bal dərəsində yerləşən kürələrdə istehsal olunmuşdur. Burada iki böyük gəc kürəsi Xaraba Gilan arxeoloji ekspedisiyası tərəfindən aşkar edilib öyrənilmişdir.

Haqqında bəhs olunan qüllədən başqa Gilan çayın sağ sahilində Aza şəhər qəbristanlığında XIV-XVI əsrlərə aid üç türbə olmuşdur. Onlarda ikisinin yerüstü hissəsi uçmuş, yalnız sərdabə hissələri dağıdılmış vəziyyətdə saxlanmışdır. Birinin isə türbə hissəsi dağıdılmış vəziyyətdə  qalır. Bu abidələrin hamısı bişmiş kərpiclə işlənmiş, kaşılarla bəzədilmişdir.

Adi və dekorativ bişmiş kərpiclərdən otaqların, qapı və pəncərələrin üstünün örtülməsində geniş istifadə olunmuşdur. Otaqların üstü günbəzlə-yarımsferik tavanla, qapı və pəncərələrin üstü isə müxtəlif tağ formaları ilə - çatma, qövsvari və d tağlarla örtülürdü.

Orta əsr şəhərlərində istifadə olunan digər inşaat keramikası saxsı borular - tünglərdir. Saxsı tünglərdən su kəməri çəkilməsi ənənəsi Azərbaycanda hələ eramızdan əvvəl məlumdur. Tədqiqatçılar onlardan istifadəni ellin mədəniyyətinin təsiri ilə bağlayırlar. Su tünglərinin kütləvi istehsalı və tətbiqi orta əsrlərdə baş verir. Tədqiq olunan dövrdə yaşayış məskənlərinin istər su təchizatı sistemində, istərsə də kanalizasiya xətlərinin salınmasında saxsı tünglərdən istifadəyə üstünlük verilirdi.

Beyləqan şəhər yeri qazıntıları XII-XIII əsrlərdə şəhərin yüksək inkişaf mərhələsində olduğunu göstərir. XI-XII əsrlərdə inşaat sənətinin yüksəlişi ilə bişmiş kərpic istehsalı, inşaat texnikasının təkmilləşməsi, memarlıq bəzəyinin tətbiqi artmışdır. Beyləqan şəhərinin rabad hissəsində arxlarla gətirilən suyun paylanması üçün saxsı tünglərdən düzəldilmiş su kəmərinin qalıqları, kəmərdəki tünglərin bəzilərinin ağızlarında bişmiş kərpiclərdən olan tıxaclar aşkar olunmuşdu. Su tünglərinin birləşən yerləri, adətən bişmiş kərpic və qatqılı gəclə işlənirdi. Bu həm su itkisinə yol vermir, həm də su kəmərinin uzun müddət saz işləməsinə şərait yaradırdı.

Gülüstan qalasında da inşaat materialları içərisində saxsı tünglərə çox rast gəlinmişdir.  Burada da tünglər su kəməri çəkilişində və kanalizasiya sistemində istifadə edilmişdir. Saxsı tünglər öz dövrünə görə yüksək keyfiyyətlə hazırlanmışdır. Onların içərisi dalğavari formada relyefik hazırlanmışdır. Bu üsul suyun təzyiqinə qarşı tünglərin müqavimətini artırmağa, suyun dalğavari axmasına şərait yaradır və bu yolla gilin tünglər içərisində çöküntü yaratmasına mane olurdu.

XII əsrin birinci yarısında şirli kərpic istehsalı geniş yayılmağa başladı. Bişmiş kərpiclərin üstünə çəkilmiş şir ona estetik gözəllik verməkdən baçqa, onun rütubətə davamlılığını qat-qat artırırdı. Atmosfer təsirlərinə qarşı binaların günbəzlərinin dayanıqlığını artırmaq məqsədilə

kərpiclərin üzərinə şir çəkilirdi. Şirli kərpiclərin meydana çıxması sonradan kaşıların yaranmasına və geniş istehsalına təkan verdi. Qeyd edək ki, Azərbaycan şəhərlərinin memarlığında kaşı bəzəklərinin tətbiqi XII əsrin birinci yarısında meydana gəlmişdir. Kaşılı kərpiclərdən ilk dəfə Marağadakı Qırmızı Günbəz türbəsində (1148) istifadə edilmişdir. Kaşı əvvəllər tikilinin əsas yerlərində, qurşaq bəzəklərində tətbiq edilsə də, artıq XII əsrin ikinci yarısından davamlı memarlıq elementinə çevrildi (Həbibov X., 2018).

Şəmkirdə arxeoloji qazıntılar zamanı çox sayda inşaat keramikası, eləcə də yerli istehsalı təsdiqləyən zay olmuş inşaat keramikası mümunələri aşkar edilmişdir. Həmin inşaat keramikası hörgü materialları, memarlıq bəzəyi, dam örtüyü materialları və tünglərlə təmsil olunmuşdur.

Qəbələdə tikinti – abadlıq işlərinin miqyası həmişə böyük olub. Təbiidir ki, bu məqsədlə istifadə olunan kərpic, əhəng, kirəmit, üzlük material məmulatı şəhərin özündə, yaxud da ətrafında istehsal və emal olunurdu. Gəncə şəhərinin qala divarları möhrə, çiy kərpic və çaydaşı ilə bişmiş kərpicin dəyişən cərgələrindən ibarətdir (Cəbiyev  Q., 2018).

Gəctəraşlıq Azərbaycan memarlığında geniş yayılmış dekorativ sənət növlərindəndir. Gəc, tərkibində gips və gil olan süxurun yandırılmasından alınan materialdır. Ondan hazırlanan məhlul mexaniki möhkəmliyinə, bərkimə prosesinin asan tənzim olunmasına, eləcə də yüksək bədii plastikliyinə görə tikintidə həm yapışdırıcı, həm də üzlük materialı kimi geniş işlədilmişdir. Memarlıq bəzəyi işlərində narın üyüdülən və ağ rəngi ilə seçilən əla növ gəcdən istifadə edilirdi. (Həbibov X., 2018)

Azərbaycanda orta əsrlər dövründə tikililərinin hörgüsünün əsasını təşkil edən kvadrat formalı kərpiclərdən  başqa, üzlüyün ornament bəzəyi kimi müxtəlif formalı, biçimli və ölçülü dekorativ kərpiclərdən də istifadə edilmişdir. Bu inşaat materiallarından mürəkkəb ornamentli üzlüklərin yığılmasında, abidələrin fasadında və interyerində ərəb əlifbasının müxtəlif xətlərində yazılmış epiqrafik mətnlərin salınmasında istifadə olunmuşdur.

Azərbaycanın orta əsr şəhərlərinin arxeoloji tədqiqi zamanı əldə olunmuş saxsı su boruları bu şəhərlərin öz dövrünün yüksək səviyyəli abad yaşayış yerləri olduğunu söyləməyə əsas verir.

**Ədəbiyyat:**


Cəbiyev  Q. (2018). Azərbaycan  Arxeologiyasının əsasları. Bakı: “Elm və təhsil”, 593 s.

Dostiyev T., & Bəşirov R., & Mirzəyev R., & Hüseynli N. (2013) Orta Əsr Şəmkir şəhəri: arxeoloji qazıntılar və artefaktlar. Bakı: “Çaşıoğlu” nəşr., 513 s.

Əhmədov Q.M. (1979). Orta əsr Beybqan şəhəri (tarixi-arxeoloji tədqiqat). Bakı,

İbrahimli B. (2020). Naxçıvanın orta əsr şəhərləri: AZA. (tarixi-arxeoloji tədqiqat). Bakı, “Avropa” nəşriyyatı, 348 s.

Həbibov X. (2018). Orta əsr Şəmkir şəhərinin memarlıq bəzəkləri. // Azərbaycan arxeologiyası jurnalı, №2, 72-83 s.

## THE MAIN GOAL IS THE WELFARE OF CITIZENS

**Nasirova Nargiz Mahammad**

**Sumgayit State University**

**https://orcid.org/0000-0002-5022-0592**

**nargiz917@gmail.com**

**Rəyçi:**

**Həsənov Rəfail Musa oğlu,**

**Sosiologiya üzrə elmlər doktoru, professor**

### Abstract

The article is about the creation of state, its history of improvement process, the role of state in the control of society, and is shown that the state's function and aim is to serve its citizens.

At the same time here is shown that the rules of state is consisted of provision welfare of citizen is tha main priority of a state. Azerbaijan-30th years old country's improvement way is included in the article, like its progress in all field – political, military, civil society, balanced foreign policy, and the strengthen international image.

Finally, the social services provided to the population in our country and whose main goal is citizen satisfaction, some aspects of the implemented social policy and modern models applied in this field in Azerbaijan - State Agency for Service to Citizens and Social Innovations ("ASAN" service) and Sustainable and Operative Social Security ( The activity of DOST) Agency is mentioned.

As a result, the need to continue measures to ensure the accessibility of social services to the population in all regions is brought to attention.

**Key words:** state, management, priority area, social policy, population welfare, justice.

# ГЛАВНАЯ ЦЕЛЬ – БЛАГОСОСТОЯНИЕ ГРАЖДАН

**Насирова Наргиз Махаммад**

**Сумгаитский государственный университет**

**https://orcid.org/0000-0002-5022-0592**

**nargiz917@gmail.com**

**Резюме**

В статье кратко рассматривается процесс развития государств от исторической необходимости и от простого к сложному, подчеркивается значение государственного фактора в управлении обществом, показывается, что его целью и функцией является служение членам общества. При этом, затрагивая роль законов в государственном управлении, указывается, что одним из приоритетных направлений деятельности справедливого, демократического государства является укрепление социального благосостояния населения и обеспечение гражданам возможностей нормальной жизнедеятельности.

Тогда молодое Азербайджанское государство с 30-летней историей независимости в прошедший период прошло большой и непрерывный путь развития во всех сферах – политической, экономической, военной, развитии гражданского общества, взвешенной внешней политики, улучшении международного имиджа страны и т.д.

Наконец, социальные услуги, предоставляемые населению в нашей стране и основной целью которых является удовлетворение граждан, некоторые аспекты реализуемой социальной политики и современные модели, применяемые в этой области в Азербайджане - Государственное агентство по обслуживанию граждан и социальных инноваций и Агентство устойчивого и оперативного социального обеспечения .

В результате подчеркивается необходимость продолжения мер по обеспечению доступности социальных услуг населению во всех регионах.

**Ключевые слова**: государство, управление, приоритетное направление, социальная политика, благосостояние населения, правосудие.

# ƏSAS HƏDƏF VƏTƏNDAŞ MƏMNUNLUĞUDUR

**Nəsirova Nərgiz Məhəmməd**

**Sumqayıt Dövlət Universiteti**

**https://orcid.org/0000-0002-5022-0592**

**nargiz917@gmail.com**

**Giriş.** Tarix sübut edir ki, müasir dövlətlərin yaranma prosesi çoxşaxəli, hətta bəzən bir-biri ilə ziddiyyət təşkil edən idarəçilik üsullarının tətbiqi ilə əldə edilmiş təcrübələr əsasında təkmilləşmə ilə əhatə olunan geniş bir dövrü əhatə edir. Yəni, təbiət qanunlarına uyğun olaraq, cəmiyyətlərin siniflərə bölünməsi ilə başlanan dövlətlərin təşəkkülü və idarə edilməsi prosesi də sadədən mürəkkəbə doğru kifayət qədər uzun yol keçib və bu proses insan cəmiyyəti mövcud olduqca, xarici və daxili amillər nərəzərə alınmaqla davam edəcəkdir.

Bu gün dünyada çoxsaylı xalqların və millətlərin möcvudluğu aşkardır. Lakin hər bir xalqa və ya millətə öz müstəqil dövlətini qurmaq nəsib olmayıb. Belə ki, dünyada irili-xırdalı yalnız 200-dək dövlət vardır ki, bunların da əksəriyyətində müxtəlif millətlərin nümayəndələri birgə yaşayır və cəmiyyətin idarə olunmasında birlikdə fəaliyyət göstərirlər. Yəni, antik dövrdən - ibtidai icma quruluşundan fərqli olaraq dövlətlərin çox konfessiyalı, çox millətli, çox mədəniyyətli olması təəccüb doğurmur. Əksinə, bu, tolerantlığın, multikulturalizmin müsbət nümunəsi hesab olunur.

Dövlətin, cəmiyyətin idarə olunması bütün zamanlarda mühüm əhəmiyyət kəsb edən aktual məsələ olub və bu gün də gündəlikdə qalmaqdadır. Qədim yunan filosofu Aristotel cəmiyyətin idarəçiliyində dövlət amilini vacib vasitə hesab edərək belə deyib: “Dövlət insanları barışdıran bir alətdir”. Digər qədim yunan filosofu Demokrit isə bir qədər irəli gedərək cəmiyyətin düzgün idarə olunmasının vacibliyini vurğulayıb: “Yaxşı idarə olunan dövlət çox böyük dayaqdır”. Məşhur ingilis filosofu Tomas Hobbs məsələni bu cür qiymətləndirib: “Dövlət olmasa, xaos ortaya çıxacaqdır”. İngilis filosofu Con Lokk dövlət idarəçiliyində qanunların mövcudluğunu daha əhəmiyyətli hesab edib: “Harada qanun yoxdursa, orada azadlıq da yoxdur”. Bütün bu deyilənlər dövlətlərin tarixi zərurətdən yarandığını və bilavasitə insanlara - cəmiyyət üzvlərinə xidmət məqsədi və funksiyası daşıdığını göstərir.

**Müzakirə.** Quruluş formasından, idarəetmə üsulundan və mənbəyindən asılı olmayaraq, siyasi sistemin əsas təsisatçısı hesab olunan dövlətin fəaliyyətinin prioritet sahələrindən birini əhalinin sosial rifahının gücləndirilməsi, vətəndaşlara normal yaşayış imkanlarının təmin edilməsidir. Araşdırmalar göstərir ki, düşünülmüş, məqsədyönlü və ədalətli sosial siyasət yürüdən dövlətlərdə xalqın seçdiyi hakimiyyətin ömrü uzun olur ki, bu da dövlət başçısı ilə xalq arasında birliyin bariz göstəricisinə çevrilir və ölkədə sabitliyin, əmin-amanlığın bərqərar edilməsini təmin edir. Əks sosial siyasət mövqeyi sərgiləyən dövlətlərdə isə əhalinin güzəranı getdikcə pisləşir, rəhbərlə xalq arasında dərin uçurum, ölkədə xaotik durum yaranır ki, bu da iğtişaşlara, üsyanlara və nəhayət hakimiyyətin güc yolu ilə dəyişdirilməsinə səbəb olur.

Buna görə də qədim yunan filosofu Demokrit (e.ə. 460-370-ci illər) haqlı olaraq qeyd edirdi ki, dövlətin vəzifəsi hamının rifahını və ölkədə ədaləti təmin etməkdən ibarətdir.

Qeyd etmək lazımdır ki, 30 illik müstəqillik tarixinə malik gənc Azərbaycan dövləti ötən dövrdə bütün sahələr-siyasi, iqtisadi, hərbi, vətəndaş cəmiyyətinin inkişafı, balanslaşdırılmış xarici siyasət, ölkənin beynəlxalq imicinin artırılması və s. üzrə böyük və davamlı inkişaf yolu keçib. Xüsusi vurğulamaq lazımdır ki, bu inkişafın əsasını Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya və bu siyasətin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən son 20 ildə qətiyyətlə davam etdirilməsi təşkil edir.

Ötən dövrdə daxili siyasətin əsas hədəfi olan əhalinin həyat səviyyəsinin yüksəldilməsi, aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində də konkret uğurlar əldə edilib. Bu sahədə həyata keçirilən sosial siyasətin bəzi aspektləri ilə yaxından tanış olaq:

İlk növbədə vurğulayaq ki, sosial ədalətin bərqərar edilməsi ölkə Konstitusiyasında konkret təsbit edilmiş, qarşıya hədəf kimi qoyulmuş 6  niyyət içərisində "ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək" ayrıca qeyd edilmişdir *(Azərbaycan Respublikasının Konstitusiyası. 1995: 1).*

Eyni zamanda həmin Konstitusiyanın birinci fəsli məhz xalq hakimiyyətinə həsr edilmiş və orada dövlət hakimiyyətinin yeganə mənbəyinin Azərbaycan xalqı olduğu dəqiq göstərilmişdir *(Azərbaycan Respublikasının Konstitusiyası. 1995: 1).*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sırasında müəyyən edilmiş 5 hədəf içərisində "Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət" də əks olunmuşdur *(Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı).*

Bütün bunlar Azərbaycan dövlətinin başlıca məqsədinin xalqa xidmət olduğunu deməyə əsas verir.

Fikrimizcə, dövlətin həyata keçirdiyi sosial siyasətin əsas istiqamətlərini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

-sahə üzrə dünya təcrübəsinə, beynəlxalq qanunvericiliyə uyğun hüquqi bazanın yaradılması;

-tələbata əsaslanmış və perspektivə istiqamətlənmiş xüsusi dövlət proqramlarının tərtibatı və icrası;

-sosial proqramların həyata keçirilməsində ədalət və şəffaflığın təmin edilməsi;

-davamlı iqtisadi inkişafdan əldə edilən sərvətdən hər bir vətəndaşın yararlanması, regionların sosial-iqtisadi inkişafına nail olunması;

-əhalinin məşğuliyyətinin təmin edilməsi;

-yoxsulluğun azaldılması;

-həssas təbəqədən olan insanlara qayğı və diqqətin artırılması;

-Böyük Qayıdış proqramı çərçivəsində öz yurdlarına qayıdan insanlara həyat fəaliyyəti üçün lazımi şəraitin yaradılması;

-vətəndaşlarla birbaşa canlı ünsiyyətin qurulması, prezident-xalq birliyi;

-sorğular vasitəsilə vətəndaş məmnunluğunun vaxtaşırı olaraq ətraflı təhlil edilməsi, zəif cəhətlərin üzə çıxarılması.

Danılmaz həqiqətdir ki, dövlətin gücü onun iqtisadi imkanları ilə ölçülür. Bugünkü qloballaşan, getdikcə qütbləşən, əks tərəflərə parçalanan, bölünən dünyada güc amili önə çıxır. Güclü dövlətlərə beynəlxalq platformada münasibət də fərqli olur. Haqqı, ədaləti məhz güc hesabına bərqərar etmək mümkün olur. 1990-cı illərdə Azərbaycan zəif olan zaman onun haqq səsini eşidən, ona arxa, tərəf duran da yox idi, ölkəmiz hərtərəfli təklənmişdi. Hətta torpaqları işğal olunan tərəfin Azərbaycan olmasına, bir milyondan çox əhalisinin öz yurdundan silah gücünə didərgin salınmasına baxmayaraq, 1992-ci ildə “ədalət carçısı” ABŞ Konqresi tərəfindən Azərbaycana birbaşa dövlət yardımını qadağan edən ədalətsiz 907-ci düzəlişi qəbul edilmişdi. Hərçənd bu düzəlişin hüquqi qüvvəsi 2002-ci ildən etibarən hər il müvəqqəti olaraq dondurulsa da, lakin 2023-cü ilin noyabrında yenidən qüvvədə saxlanılma barədə məkrli qərar qəbul edildi.

Dünyada hökm sürən ədalətsizliyi, ikili standartları görən və **“Güclü iqtisadiyyat güclü dövlət deməkdir”, -söyləyən Ulu Öndər,** “Bizim məqsədimiz ölkəni gücləndirmək və hər bir vətəndaşın həyatını daha da yaxşı etməkdir”, -deyən cənab Prezident İlham Əliyev ilk növbədə Azərbaycanın iqtisadi gücünün və beynəlxalq nüfuzunun, imicinin artırılmasına xüsusi diqqət verdilər. Məhz aparılan məqsədyönlü, sistemli işlər, balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasına yüksəldi, 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının 2012-2013-cü illər üçün qeyri-daimi üzvü seçildi, dünyada sayca ikinci böyük təşkilat olan və 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına son illər uğurla sədrlik edir. Bir çox qlobal məsələlərə həsr olunmuş beynəlxalq tədbirlər Azərbaycanda keçirilir, ölkəmiz Türk Dövlətləri Təşkilatında layiqincə təmsil olunur. 1990-cı illərdə humanitar böhranla üzləşən ölkəmiz bu gün donor ölkə kimi başqa fəlakət zonalarına, dövlətlərə humanitar yardım göstərir. Bir sözlə, dünyada söz sahibinə çevrilən ölkəmiz sayılır, seçilir, ona hörmətlə yanaşılır. Bütün bunlar isə Azərbaycanın siyasi, iqtisadi qüdrətinin, hərbi gücünün əyani göstəricisidir.

Dövlət möhkəm və işlək qanunlar üzərində ucalır və inkişaf edir. Ötən dövrdə bütün sahələrdə olduğu kimi, sosial sahədə də dünya təcrübəsindən bəhrələnən, kifayət qədər möhkəm hüquqi baza yaradılıb. Regionların inkifafı, sosial-iqtisadi inkişaf, təhsil, səhiyyə, mədəniyyət və s. sosial sahələr üzrə qəbul edilmiş çoxsaylı dövlət proqramlarının uğurlu icrası təmin edilir və bu gün də davam etdirilməkdədir.

Ötən 30 ilin iqtisadi-sosial göstəriciləri onu deməyə əsas verir ki, dövlətin iqtisadi qüdrəti artdıqca əldə olunan maliyyə imkanlarının xeyli hissəsi məhz insanların həyat səviyyəsinin yüksəldilməsinə yönəldilib. Bu mənada 1994-cü ildə imzalanmış “Əsrin Neft Müqaviləsi”ndən əldə edilmiş ilk bonusun ölkənin 20 faiz ərazisinin erməni silahlı qüvvələri tərəfindən işğalından əziyyət çəkən məcburi köçkün vətəndaşlarımızın yaşayış şəraitinin yaxşılaşdırılmasına yönəldiməsi faktdır. Qısa müddətdə çadır düşərgələri, fin tipli qəsəbələr və dəmir yolu vaqonlarında məskunlaşan 250 min nəfərdən çox insan üçün bütün sosial-texniki infrastruktura malik 100-dən artıq qəsəbənin salınması beynəlxalq təşkilatlar tərəfindən dünya təcrübəsində ən nümunəvi hal kimi qiymətləndirilmişdir.

44 günlük Vətən müharibəsi zamanı qazanılmış şanlı Zəfərdən sonra işğaldan azad olunmuş ərazilərdə qısa müddətdə aparılan genişhəcmli, genişmiqyaslı bərpa, tikinti-quruculuq işləri, iki beynəlxalq hava limanının tikilib istifadəyə verilməsi, müasir şəhər və kəndlərin tikintisi, kommunikasiya xətlərinin, tunellərin çəkilməsi və nəticə etbarilə 5 min nəfərdən artıq keçmiş məcbiri köçkünün öz əzəli ata-baba yurduna qaytarılması dövlətin artan gücünü göstərir və öz vətəndaşına yüksək diqqət və qayğısından xəbər verir. Heç şübhə yoxdur ki, bütün həmvətənlərimiz yaxın illərdə yenidən qurulacaq yaşayış məskənlərinə ləyaqətlə dönəcək və həyat əvvəlki axarında

davam edəcəkdir.

Müşahidələr göstərir ki, çoxlu sayda insan tələfatı, yaşayış məskənlərinin yerlə yeksan edilməsi ilə müşayiət olunan, fəlakətli, sonu bilinməyən proseslərin baş verdiyi hazırki dünyada bir çox ölkələr çox ciddi çətinliklərlə üz-üzədir, ortaya çıxan yeni çağırışlar qarşısında çoxları çaş-baş qalıb, vəziyyətdən çıxış yolunu tapmaqda açislik nümyiş etdirir, hətta sosial proqramları təxirə salmaq məcburiyyətində qalırlar. Şükürlər olsun ki, ağır pandemiya dövrünü minimal təsirlə keçən Azərbaycan paralel olaraq çevik iqtisadi və sosial islahatlat aparmaqla, tam fərqli, daha effektiv sosial siyasət həyata keçirir. 2022-ci il yanvarın 10-da cənab Prezident yerli televiziya kanallarına müsahibəsində bunu belə izah edir: “Dünya postpandemiya dövrünə hələ təzə-təzə uyğunlaşır. Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda kəskin qiymət artımı müşahidə olunur. Bizim də iqtisadiyyatımız dünya iqtisadiyyatının bir parçası olduğu üçün əfsuslar olsun ki, biz də bu mənfi təsirə məruz qalmışıq. Ancaq biz çalışırıq ki, dünya üçün bu böhranlı vəziyyəti xalqımız üçün sosial layihələrlə, sosial proqramlarla yüngülləşdirək. Bu yaxınlarda imzaladığım çox geniş sosial paket bir daha bunu göstərir. Yəni, müharibədən təzə çıxmış ölkə, özü də ərazisinin 20 faizi tamamilə dağılmış vəziyyətdə olan ölkə əgər sosial sahəyə bu qədər vəsait ayırırsa, deməli, bizim sosial siyasətimiz dəyişməz olaraq qalır və əlbəttə ki, bizim iqtisadi gücümüzü göstərir” *(*www.president.az*)*.

Real göstəricilərə nəzər salaq: cənab İlham Əliyevin prezidentlik dövründə iqtisadi və sosial sahədə ciddi uğurlara imza atılıb, ölkə iqtisadiyyatı 3,2 dəfə artıb, əməkhaqları, pensiyalar və müavinətlər dəfələrlə artırılıb. Danılmaz həqiqətdir ki, cənab Prezidentin müəyyənləşdirdiyi, reallaşdırdığı və hər bir vətəndaşın hiss etdiyi "güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah" konsepsiyasının -Azərbaycan modelinin mərkəzində məhz Azərbaycan vətəndaşı dayanıb.

2023-cü il üçün dövlət büdcəninin *(*www.e-qanun.az*)* xərclər maddələrində bu siyasəti real görmək mümkündür. Belə ki, ilin dövlət büdcəsində sosialyönümlü xərclərə 15 milyard 219 milyon manat (ümumi büdcənin 15 faizi) həcmində vəsaitin yönəldilməsi nəzərdə tutulub ki, bu da əvvəlki il ilə müqayisədə 1,3 milyard və yaxud 9,3 faiz çoxdur. 2023-cü ildə əhalinin sosial müdafiəsi və sosial təminat xərcləri isə 4 milyard 416 milyon manat məbləğində proqnozlaşdırılmışdır ki, bu da ümumi büdcənin təxminən 13 faizinə bərabərdir. Onu da qeyd etmək lazımdır ki, ölkəmizdə son 5 ildə dördüncü sosial islahat paketi icra edilir.

2024-cü ildə dövlət büdcəsinin *(*www.meclis.gov.az*)* gəlirləri 34173 milyard, xərcləri isə 36763 milyard manat olmaqla təsdiq edilmişdir. Büdcədə sosial müdafiə və sosial təminat üzrə xərclər 4 milyard 542,2 milyard manat nəzərdə tutulmuşdur ki, bu da əvvəlki ilə nisbətən 126 milyon manat çoxdur.

Azərbaycan sosial dövlət olduğunu dəfələrlə təsdiq edib və bu, bütün dünyaya məlumdur. Buna görə də Azərbaycan Prezidenti haqlı olaraq deyir: “Azərbaycan sosial dövlətdir və biz bunu sözümüzlə yox, əməlimizlə təsdiqləyirik” *(*www.azertag.az*)*.

2003-cü ildə xalqın yüksək etimadı ilə Prezident seçilən cənab İlham Əliyev ötən 20 ildə milliyyətindən, dini inancından, siyasi baxışlarından asılı olmayaraq bütün ölkə vətəndaşlarının rəhbəri olduğunu öz konkret əməli fəaliyyəti ilə təsdiq etdi. Əhalinin bütün təbəqələri dövlət başçımızın sözü, imzası ilə əməlinin sarsılmaz vəhdət təşkil etdiyinin canlı şahididir. Rəhbərin **“*Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin*”,- sözlərinin həyatda ifadəsi göz qabağındadır** *(6)*.

Ölkədə həyata keçirilən siyasət ilk növbədə əhalinin rifahının yaxşılaşdırılmasına, sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. Dövlət başçısının "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" 5 yanvar 2023-cü il tarixli Sərəncamı *(*www.azertag.az*)* Azərbaycan dövlətinin ölkədə əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına necə böyük önəm verdiyini bir daha təsdiqləyir.

Sosialyönümlü siyasətin nəticəsidir ki, son 20 ildə əməkhaqları təxminən 8 dəfə, pensiyalar 10 dəfədən çox artıb, 2 milyondan çox yeni iş yerinin yaradılması ilə məşğulluq imkanlarının genişləndirilməsi nəticəsində yoxsulluq həddi 50 faizdən təxminən 5 faizə enib, işsizlik göstəricisi isə 5 faizə bərabər olub. Onu da diqqətə çatdıraq ki, ünvanlı sosial yardım alan ailələrin sayı ötən il 40 mindən 72 minə çatdırılıb, 300 mindən çox insan bu yardımdan faydalanır və hər bir ailə təxminən 230 manat ekvivalentində aylıq sosial yardım alır. Bu il ünvanlı sosial yardım alan ailələrin sayının ümumilikdə 85-90 minə çatdırılması nəzərdə tutulur.

Vətən müharibəsi zamanı şəhid olanların 8 min ailə üzvünə 16 minədək sosial ödəniş (Prezident təqaüdü, müavinət və ya pensiya), 3151 müharibə iştirakçısına əlillik və bununla bağlı sosial ödəniş təyin olunub. Cari ildə "Müharibə veteranı" adı verilmiş 81856 şəxsə Prezidentin aylıq təqaüdünün təyinatı prosesi yekunlaşdırılıb. Şəhid ailələri, müharibə əlilləri üçün sosial ödənişlərin məbləği 2021-2022-ci illərdə orta hesabla 60% artırılıb. 1 yanvar 2021-ci ildən Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin təqaüdü, 1 yanvar 2022-ci ildən isə Vətən müharibəsinin veteranlarına Prezidentin təqaüdü təsis olunub (www.sosial.gov.az).

Mühüm sosial dəstək tədbirlərindən biri də həssas təbəqədən olan şəxslərin -şəhid ailələrinin, müharibə əlillərinin mənzil və fərdi evlə təmin olunmasıdır. Bu proqram 2021-ci ildə 5 dəfə genişlənib. 2001-ci ildə bu qəbildən olan insanlara 3 min, postmüharibə dövründə isə 3587 mənzil verilib. Ümumən ötən dövrdə 13 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil və ya fərdi evlə təmin edilib. Postmüharibə dövründə 264 müharibə əlilinə avtomobil verilib. Bu günədək bu kateqoriyadan olan 7450 şəxs avtomobillə təmin olunub (www.sosial.gov.az).

Postmüharibə dövründə şəhid ailələri üzvləri, müharibə iştirakçıları, erməni terrorundan zərər çəkən şəxslər də daxil olmaqla 13 mindən çox şəxsin aktiv məşğulluq proqramlarına, o cümlədən 7,8 min şəxsin özünüməşğulluq proqramına cəlb olunması təmin edilib.2023-cü il 1 iyul tarixinə 2423 şəhid ailəsi üzvü və qazi işlə təmin olunub. Həmçinin 9 mindən artıq şəxsə 28,5 minədək sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib, 1456 müharibə əlilinə 20766 reabilitasiya vasitəsi verilib. Dövlət başçısının göstərişi ilə 2020-ci ilin dekabr ayından müharibə əlillərinin yüksək texnologiyalı protezlə təminatına başlanıb ki, bu proqram çərçivəsində Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə 300 müharibə əlili yüksək texnologiyalı son nəsil protezlərlə təmin olunub *(*www.sosial.gov.az*)*.

Şəhid ailələrinə, müharibədə yaralanmış hərbi qulluqçulara "bir pəncərə" sistemi vasitəsilə 40 mindən çox şəxsə 26 istiqamətdə xidmətlər göstərilib. Sosial dəstək çərçivəsində birdəfəlik maddi yardımla, ərzaq dəstəyi ilə təminat işləri də aparılıb.

*Ümumilikdə, postmüharibə dövründə hazırda da davam edən sosial dəstək tədbirləri 100 minədək şəhid ailələri üzvləri, müharibə iştirakçıları və erməni terrorundan zərər çəkənləri əhatə edib, onlara 191 min xidmət göstərilib. 93 min nəfərə 104 min sosial ödəniş təyin olunub və vətəndaşların müraciəti olmadan, elektron sistem üzərindən həyata keçirilib.* Bir sözlə, dövlətin bu təbəqəyə göstərdiyi qayğı göz önündədir və ilbəil artmaqdadır.

"Şəffaflıq hər bir ölkənin gələcəyini müəyyən edən məsələdir. Çünki şəffaflıq olmadan biz heç

bir islahatı apara bilmərik və nə iqtisadi, nə siyasi cəhətdən ölkə sürətlə inkişaf edə bilməz”, - deyən Prezident İlham Əliyev dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması, vətəndaşlarla dövlət strukturları arasında bürokratik maneələrin aradan qaldırılması üçün aparılan islahatlar çərçivəsində innovativ addım atdı - Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini yaratdı. Dövlət başçısı agentliyin nəzdində dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin həyata keçirilməsini təmin edən “ASAN xidmət” mərkəzlərinin yaradılmasına göstəriş verdi. Bununla da dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi, daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilən elektron xidmətlərə keçidin sürətləndirilməsi təmin olundu.

**Bu gün respublikanın 18 şəhər və rayonunda yaradılmış 26 mərkəzdə əhaliyə xidmət göstərilir.** Fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulan mərkəzlərdə 40-a yaxın xidmət həyata keçirilir. Təqdirəlayiq haldır ki, vətəndaşlara xidmət üzrə Azərbaycan təcrübəsi dünyanın bir sıra ölkəsi tərəfindən öyrənilir və tətbiq edilir.

Azərbaycan Respublikası Prezidentinin “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 10 dekabr 2018-ci il tarixli Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılmış DOST xidmətinin 7 DOST mərkəzi vasitəsilə əhaliyə Nazirliyin 12 fəaliyyət istiqaməti üzrə 150-dən çox müxtəlif növ xidmət göstərilir. Qeyd etmək lazımdır ki, indiyədək bu xidmətdən 2 milyon nəfərdən çox insan faydalanmışdır *(*www.dost.gov.az*)*. 2023-cü il noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə İsmayıllıda daha bir xidmət mərkəzi - DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin “DOST EVİ” filialı əhalinin istifadəsinə verilmişdir*(*www.azertag.az*)*.

Təhlil göstərir ki, DOST mərkəzlərinin xidmətlərindən istifadə edən və məmnun qalanların sayı ilbəil artır və bu səbəbdən cənab Prezident bu sahənin fəaliyyətini yüksək qiymətləndirmişdir: “DOST mərkəzləri müasir Azərbaycanın simasını əks etdirir” (www.president.az*)*.

Bununla bərabər, əhalinin geniş təbəqəsinin bu xidmətə sərbəst çıxışını təmin etmək məqsədilə onun əhatə dairəsinin genişləndirilməsinə, regional xidmət mərkəzlərinin sayının artırılmasına ehtiyac vardır.

Məlumdur ki, sosial idarəetmə daha dərin araşdırma tələb edən mühüm tədqiqat sahəsidir. Aydın məsələdir ki, sosial siyasətin həyata keçirilməsi vəziyyətini vaxtaşırı olaraq ətraflı təhlil etmədən, bu sahədə müsbət və mənfi tərəfləri düzgün müəyyənləşdirmədən, real durumu və tələbatı dəqiqləşdirmədən gələcək fəaliyyət üçün proqramları, layihələri əsaslı tərtib etmək mümkün deyildir. Bu mənada yerlərdə müxtəlif təbəqələr arasında müxtəlif istiqamətlər üzrə rəy sorğularının keçirilməsi, vətəndaşların bu və ya digər məsələyə münasibətinin, çatışmayan cəhətlərin ortaya çıxarılması mühüm əhəmiyyət kəsb edir.

Bu gün Azərbaycanda müxtəlif sahələri əhatə edən çoxsaylı araşdırma mərkəzləri fəaliyyət göstərir. 2007-ci ildə yaradılmış Prezident yanında Strateji Araşdırmalar Mərkəzini xüsusi qeyd etmək lazımdır. Burada fəaliyyət göstərən yüksək peşəkar mütəxəssislər tərəfindən istər ölkədaxili, istərsə də beynəlxalq məsələlərlə bağlı aparılan vacib araşdırmalar bu qurumun əsl “beyin mərkəzi”nə çevrilməsinə gətirib çıxardı. Azərbaycan Respublikası Prezidentinin 12 aprel 2019-cu il tarixli fərmanı ilə bu Mərkəz ləğv edilərək onun bazasında iki müstəqil qurum -Sosial Tədqiqatlar

Mərkəzi və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi yaradıldı.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, adından da göründüyü kimi, dünyada baş verən hadisələri, beynəlxalq təşkilatlar və xarici dövlətlərin Azərbaycana yönəlmiş siyasətini təhlil edir, bu sahədə müvafiq tövsiyələr hazırlayır.

Sosial Tədqiqatlar Mərkəzinin fəaliyyət dairəsi isə kifayət qədər genişdir. Buraya Azərbaycanda sosial tədqiqat, təhlil və proqnozlaşdırmaq, dövlət və cəmiyyət arasında qarşılıqlı münasibətlərin inkişafını təhlil etmək, müasir informasiya texnologiyaları və innovativ üsullar vasitəsilə rəy sorğuları keçirmək, ictimai fikri öyrənmək, təhlil etmək və təkliflər vermək, elmi araşdırmalar aparmaq və bu sahədə dövlət orqanları ilə əməkdaşlıq etmək, dövlət tərəfindən verilən qərarların, görülən tədbirlərin mümkün təsirlərinə dair sosial tədqiqatlar aparmaq, ictimai əhəmiyyət kəsb edən müxtəlif mövzularda ictimai dinləmələr, debatlar keçirmək, bu sahədə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq etmək, geniş müzakirə platformaları qurmaq və onları idarə etmək daxildir (www.stm.az). Aşkarlığı təmin etmək məqsədilə Mərkəzin fəaliyyəti rüblük nəşr edilən "İnam indeksi" buraxılışında, həmçinin stm.az saytında geniş işıqlandırılır və ictimaiyyətə çatdırılır.

Həyata keçirilən bütün sosialyönümlü proqramların, layihələrin başlıca amalı, məqsədi vətəndaş məmnunluğuna nail olmaqdır. Şübhəsiz, bu mühüm sahənin barometri funksiyasını araşdırma mərkəzləri oynayır. Bu səbəbdən araşdırmaların, tədqiqatların əhatə dairəsinin, feyfiyyətiinin və konkretliliyinin artırılması vacib hesab edilir.

Rəhbərlə xalq arasında birbaşa ünsiyyətin təmin edilməsi idarəçiyin başlıca prinsiplərindən və tələblərindən biri olmaqla ölkədə əmin-amanlığın təmin edilməsinin başlıca şərtidir. Ölkə başçısı, demək olar ki, bütün çıxışlarında xalqın daim yanında olmağı, vətəndaşlarla canlı ünsiyyətin vacibliyini, dövlət məmurlarının əsas vəzifəsinin yalnız xalqa xidmət etmək olduğunu xüsusi vurğulayıb. "Mən xalqın xidmətçisiyəm", -söyləyən cənab Prezident özü şəxsi nümunə göstərir, daim sadə insanların yanında olur, həyatındakı əlamətdar, sevincli günləri xalqla bölüşür. Dəfələrlə şahidi olmuşuq ki, dövlət başçımız ad günlərində adətən sosial obyektlərin açılışında iştirak edir, məcburi köçkünlərlə və şəhid ailələri ilə görüşür. Bu cür əlamətdar günlərdə Prezident şəhid ailələri üçün inşa edilmiş yeni evlərin, məcburi köçkünlərə inşa edilmiş yeni qəsəbələrin açılışlarında insanlarla görüşür. "Mən öz xalqımdan heç nəyi gizlətmirəm, hesab edirəm ki, Azərbaycan xalqı hər şeyi bilməlidir"- söyləyən (www.president.az) cənab Prezident çıxışlarında, xalqa müraciətlərində bütün məsələlər barədə vətəndaşları ətraflı məlumatlandırır, onları maraqlandıran, narahat edən məsələlərə sadə dillə aydınlıq gətirir.

Məhz bütün bunların nəticəsidir ki, Azərbaycanda sabitlik, Prezident-xalq birliyi hökm sürür, xalqın öz liderinə inamı və etibarı tükənməzdir. Biz bunu dövlətimizin və xalqımızın müqəddəratının həll edildiyi 44 günlük Vətən müharibəsində canlı şahidi olduq. Bu birlik bizə tarixi Zəfəri, şanlı Qələbəni bəxş etdi, 200 il davam edən erməni seperatizminin dərsini verdi, millətimizin, xalqımızın başını ucaltdı.

Qarmaqarışıq dünyamızda baş verən proseslər onu göstərir ki, qarşıda bizi daha böyük sınaqlar gözləyir. Dövlətimizin, xalqımızın gələcəyi naminə biz birliyimizi qoruyub saxlamağı, onu daha da möhkəmlətməyi bacarmalıyıq. Başqa alternativ yol yoxdur!

**Nəticə.** Hədəfi vətəndaş məmnunluğu olan sosial siyasət dövlətin daxili siyasətinin əsas istiqamətini təşkil edir və bu sahədə xüsusi fəaliyyətin həyata keçirilməsi tələb olunur. Azərbaycanda əhalinin sosial müdafiəsi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və onun yerlərdəki struktur bölmələri məşğul olur. Əhaliyə sosial xidmətlərin göstərilməsi isə ASAN

xidmət və DOST mərkəzləri tərəfindən həyata keçirilir. Araşdırmalar göstərir ki, əhalinin bu xidmətlərdən rahat istifadəsinə şərait yaratmaq məqsədilə regionlarda - iqtisadi rayonların hamısında belə xidmət mərkəzlərinin yaradılması vacib hesab edilir. Məsələn, qardaş Türkiyədə 2021-ci ildə sosial xidmət mərkəzinin sayı Ailə və Sosial xidmətlər Nazirliyi tərəfindən 377-ə qaldırılmış və gələcəkdə 400-dən çox mərkəzin olması hədəfə alınmışdır.

Azərbaycan sosial dövlət kimi öz fəaliyyətinin müəyyənləşdirilmiş kursla davam etdirilməsində israrlıdır və gələcəkdə yeni-yeni uğurlara imza atılacağı şübhəsizdir.

**Ədəbiyyat:**


Azərbaycan Respublikasının Konstitusiyası. 1995: 1

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.

www.president.az

www.e-qanun.az

www.meclis.gov.az

www.azertag.az

www.sosial.gov.az

www.dost.gov.az

www.stm.az

# ATTITUDE TOWARDS NATIONAL MINORITIES IN ARMENIA AND THEIR PROBLEMS

**Khudaverdiyeva Kamala Allahverdi**

**Institute of Oriental Studies named after academician Ziya Bunyadov**

**https://doi.org/10.59849/2709-5096.2023.1.47**

**kamala.khudaverdiyeva@bk.ru**

**Rəyçi:**

**Həsənov Rəfail Musa oğlu,**

**Sosiologiya üzrə elmlər doktoru, professor**

**Abstract**

One of the independent republics that emerged after the collapse of the USSR in the early 1990s was the Republic of Armenia, located in the South Caucasus region. Although the Caucasus region is a multinational region, the situation in Armenia was different. After 1991, the small number of ethnic groups and national minorities remaining in Armenia faced serious pressure. The socio-economic development of the territories inhabited by these groups was deliberately slowed down, and state decisions and laws aimed at improving their living standards were not implemented. As a result of difficult socio-economic conditions and the discriminatory policy applied against Jews at the state level, the Jewish, Yezidi and Aysor communities were forced to leave the country. This pressure against national minorities in Armenia existed not only during the period of independence, but also during the time when it was part of the USSR. After the declaration of independence, harsh treatment of national minorities has been implemented on a wider scale at the state level. The aim of the failure to implement laws adopted to improve the living standards of national minorities and ethnic groups is to accelerate their emigration from the country and further reduce their numbers.

**Keywords:** Armenia, national minorities, anti-Semitism, Yezidis, Aysors, Molokans

# ОТНОШЕНИЕ К НАЦИОНАЛЬНЫМ МЕНЬШИНСТВАМ В АРМЕНИИ И ИХ ПРОБЛЕМЫ

**Худавердиева Камала Аллахверди**

**Институт востоковедения имени академика Зии Буниадова**

**https://doi.org/10.59849/2709-5096.2023.1.47**

**kamala.khudaverdiyeva@bk.ru**

## Резюме

В начале 90-х годов 20 века одной из независимых республик, созданных в результате распада СССР, была Республика Армения, расположенная в регионе Южного Кавказа. Хотя Кавказский регион является многонациональным регионом, ситуация в Армении была иной. После 1991 года немногие оставшиеся в Армении этнические группы и национальные меньшинства столкнулись с серьезным давлением. Социально-экономическое развитие территорий проживания этих групп намеренно тормозится, а государственные решения и законы, направленные на повышение их уровня жизни, не выполняются. В результате сложных социально-экономических условий и дискриминационной политики в отношении евреев на государственном уровне еврейские, езидские и айсорские общины были вынуждены покинуть страну. Такое давление на национальные меньшинства в Армении существовало не только в период независимости, но и когда она была в составе СССР. После провозглашения независимости жесткое обращение с национальными меньшинствами стало более широко применяться на государственном уровне. Целью невыполнения законов, принятых по улучшению уровня жизни национальных меньшинств и этнических групп, является ускорение их миграции из страны и дальнейшее сокращение их численности.

**Ключевые слова:** Армения, национальные меньшинства, антисемитизм, езиды, айсоры, молокане.

# ERMƏNİSTANDA MİLLİ AZLIQLARA MÜNASİBƏT VƏ ONLARIN PROBLEMLƏRİ

**Xudaverdiyeva Kəmalə Allahverdi**

**akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu**

**https://doi.org/10.59849/2709-5096.2023.1.47**

**kamala.khudaverdiyeva@bk.ru**

Ermənistan özü monoetnik ölkə kimi tanınmasına baxmayaraq, orada az da olsa digər xalqların nümayəndələri vardır. Bu etnik qruplara yezidi kürdlərini, yəhudiləri, molokanları, aysorları, rusları və digərlərini aid etmək olar. 2011-ci il siyahıyaalınmasına görə Ermənistanda sayları ən çox olan milli azlıqların nümayəndələri 1,2 faiz ilə yezidi kürdləridir. Yezidi kürdləri ilə bağlı ilk öncə onların həyat səviyyələrinin çox aşağı olduğunu qeyd etmək lazımdır. Əvvəlki illərin siyahıyaalınmalarına diqqət yetirsək yezidi kürdlərinin saylarında ciddi azalmaların olduğunu müşahidə edə bilərik. Sürətli şəkildə davam edən azalmaların əsas səbəbləri işsizliyin günü-gündən çoxalması, sosial şəraitin pis vəziyyətdə olması, illər keçdikcə artan kommunal ödənişləri və digər problemləri misal göstərmək olar. Onsuz da sayları az olan yezidi kürdlərinin daha böyük şəhərlərə köçmələri səbəbilə assimilyasiyaya uğramaları, öz dil və mədəniyyətlərini itirmələrinə və saylarının daha da azalmasına səbəb olur. Yezidilərin həyat səviyyələrinin çox aşağı olması ilə əlaqədar bir çox erməni mənbələrində xəbərlərə rast gəlmək mümkündür. 2019-cu ildə *“multimedia.alttv.am”*-da paylaşılan xəbərdə deyilir: *“Tliq, problemlərin gündən-günə artdığı yezidi icmasıdır”* (2022). Həmçinin xəbərdə, Tliq kəndində yaşayan ailələrin sayının heç iyirmiyə çatmadığı, evlərin uçuq-sökük, qapıların və pəncərələrin taxtadan olduğu, xəstəxananın, nəqliyyatın, içməli suyun belə olmadığı yazılmışdır. Vəziyyətin belə olması yezidi kürdlərinin həyat səviyyəsinin necə olduğunu açıq-aşkar göstərir. Bu kimi problemlər təkcə yezidilərin məskunlaşdığı Tliq kəndində yox, digər milli azlıqların da sıx məskunlaşdığı ərazilərdə ön plandadır.

Ermənistanda yaşayan və say etibari ilə bir az daha çoxluq təşkil edən milli azlıqlardan biri də yəhudilərdir. Qafqazda uzun illərdir məskunlaşan xalqlardan olan yəhudilər, Ermənistanın ən qədim sakinlərindəndirlər. Yezidi kürdlərindən fərqli olaraq yəhudilər hələ sovet dövründən etibarən, əsasən İrəvan, Böyük Qarakilsə (indiki Vanadzor), Gümrü şəhərlərində və Göyçənin (Sevanın) Yelenovka kəndində məskunlaşıblar. Eynilə yezidi kürdlərində olduğu kimi yəhudilərdə də həyat səviyyəsi fərqli deyil. Təəssüf ki, zamanla assimilyasiyaya uğrayan yəhudilərin saylarının azalma səbəblərindən biri də son dövrlərdə kütləvi şəkildə mühacirət etmələridir. Demək olar ki, bütün sahələrdə, xüsusən də təhsil sahəsində imkanların yaradılmaması milli azlıqların narazılığına və ölkədən mühacirət etmələrinə səbəb olur. Bu kimi problemlərin həll edilməsi ilə bağlı müəyyən illərdə dövlət səviyyəsində qərarlar qəbul edilməsinə baxmayaraq milli azlıqların həyat səviyyəsinin və rifahının artması müşahidə olunmur. Ümumiyyətlə, Ermənistanda antisemitizmin göstəricisinin 32 faiz olması, vəziyyətin necə olduğunu göstərən amillərdən biridir.

Ermənistan Respublikasında yaşayan digər milli azlıqlara aysorları, rusları və molokanları da aid etmək lazımdır. Bu milli nümayəndələr arasında digərlərinə nisbətən rusların faizi daha çoxdur. Rus-erməni münasibətlərini nəzərə alaraq Ermənistanda rusların vəziyyətinin əslində digərlərinə nisbətən daha yaxşı olduğunu düşünmək olar. Amma göstəricilər elə də ürəkaçan deyil, hətta Slayvan Universitetinin rektoru Yuli Yakavenko deyir: *“Ermənistanda orta məmur sinfi*

*səviyyəsində rus dilinin sıxışdırılması prosesi gedir”* (Smbatyan, 2009). Ermənistanda 1993-cü il aprelin 17-də hökumət tərəfindən “Dil haqqında” adlı sərt qanunun qəbul edilməsi nəticəsində rus dilinin tədrisi kəskin şəkildə azaldılmış, məktəblərdə rus dili ancaq xarici dil kimi tədris edilməyə başlanmışdır. Rus məktəblərinin sayının azaldılması nəticəsində İrəvan və Gümrü kimi böyük şəhərlərdə fəaliyyət göstərən çox az sayda rus məktəbi qalmışdır.

Aysor və molokanların sıx məskunlaşdığı ərazilərdə də vəziyyət digərlərindən fərqli deyil. Lermontovo və Fioletovo kəndlərində məskunlaşan molokanlar üçün əsas problemlərdən biri də uşaqların təhsili üçün məktəblərin yetərli təminatının olmaması, uşaqların molokan dilində təhsilinə imkan verilməməsi, müəllimlərin molokanlardan deyil ermənilərdən ibarət olması kimi halları misal göstərmək olar. Məktəbin binasının da uçuq-sökük şəkildə olması, qapı-pəncərələrin dağılmış vəziyyəti, binanın su sızdırması və bunun kimi bir çox problemlər uşaqların orta təhsili belə ala bilməsi üçün böyük maneələrdəndir. İnsanların həyat səviyyəsinin də eynilə bu cür olması, təməl ehtiyaclardan uzaq olmaları milli azlıqların vəziyyətini gün üzünə çıxarır.

Aysorlar isə Ermənistanda sayları azalan üçüncü ən böyük milli azlıqlardan biridir. Molokanlarda və digər milli azlıqların nümayəndələrində olan problemlər- məktəb təminatının çox aşağı səviyyədə olması, dərslərin rus dilində izahı, aysorca dərslərin tədris olunmur deyiləcək qədər az keçirilməsi kimi hallar aysorlarda da qaçınılmazdır. Aysorlarla bağlı iş yerlərində də vəziyyət eynidir. Bununla əlaqədar İrina Qasparyan bildirmişdir ki, aysorlar və digər milli azlıqlar ayrı-seçkiliyə məruz qalırlar. Onlar öz milli mənsubiyyətlərinə görə heç bir səbəb olmadan işdən qovulur, təzyiqə uğrayırlar. İş yerlərində baş verən bu kimi hallar göz önündə olmasa da, kimisə işdən çıxarmaq zamanı gəldikdə ilk olaraq erməni millətinin nümayəndələri əvəzinə digər milli azlıqlar işdən çıxarılırlar. (Xudaverdiyeva, 2023)

Belə ki, Ermənistanda milli azlıqların həyat səviyyəsinin nə dərəcədə olduğunu az-çox müəyyən etmək olar. Gün keçdikcə saylarının azalması, mühacirətin sürətlənməsi, kəndlərdə qalan əhalinin iş imkanları səbəbilə böyük şəhərlərə gəlməsi və bunun nəticəsində assimilyasiyaya uğramaları milli azlıqların rifah səviyyəsinin çox aşağı olduğunu göstərir. Milli azlıqların problemlərinin həlli məqsədilə bir çox tədbirlərin görüldüyünü və qərarların qəbul edildiyini nəzərə alsaq bütün bunların heç bir nəticə vermədiyinin və problemlərin həll edilmədiyinin şahidi ola bilərik.

**Ədəbiyyat:**


Xudaverdiyeva, K. (2023). Ermənistanda milli azlıqlara münasibət: tarix və varisiliyin vəhdəti. Qafqazşünaslıq elmi-nəzəri jurnal, 54, 47-56.

Smbatyan, A. (06.09.2009). https://www.azadliq.org/a/1815746.html / Ermənistanda rus dilinə maraq azalır.

https://multimedia.alttv.am/page15583231.html (24.11.2022) / Թլիկ՝ եզդիական համայնք, որտեղ օր-օրի խնդիրներն ավելանում են. (Tliq problemlərin gün-gündən artdığı yezidi icmasıdır).

**CLIMATE CHANGE STRATEGIES OF INTERNATIONAL ORGANIZATIONS: THE CASE OF THE INTERNATIONAL UNION OF COOPERATIVES**

**Bagirova Tabriza Guseyn**

**Nakhchivan State University**

**https://orcid.org/0009-0009-7451-4649**

**tabrizabagirova@gmail.com**

**Rəyçi:**

**Vəliyev Orxan Həsən oğlu,**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru**

**Abstract**

Climate change is one of the most serious challenges that requires a multifaceted approach from governments, industries and civil society. International organizations play an important role in solving this problem, adopting mutually coordinated strategies, bringing the scientific community and political leadership together, and promoting the sustainability of practices. Among these organizations, the International Cooperative Union (ICA) stands out by promoting climate resilience and sustainability across sectors and societies with its cooperative model. This article examines the climate change strategies adopted by international organizations and presents it as an example to show how ICA contributes to the fight against climate change at the global level.

**Key words:** climate change, global warming, international organizations, International Union of Cooperatives

# СТРАТЕГИИ МЕЖДУНАРОДНЫХ ОРГАНИЗАЦИЙ ПО ИЗМЕНЕНИЮ КЛИМАТА: ПРИМЕР МЕЖДУНАРОДНОГО СОЮЗА КООПЕРАТИВОВ

**Багирова Тебриза Гусейн**

**Нахичеванский государственный университет**

**https://orcid.org/0009-0009-7451-4649**

**tabrizabagirova@gmail.com**

**Резюме**

Изменение климата является одной из наиболее серьезных проблем, которая требует многогранного подхода со стороны правительств, промышленности и гражданского общества. Международные организации играют важную роль в решении этой проблемы, принимая взаимно скоординированные стратегии, объединяя научное сообщество и политическое руководство, а также способствуя устойчивости практики. Среди этих организаций Международный кооперативный союз (ICA) выделяется тем, что продвигает климатическую устойчивость и устойчивость во всех секторах и обществах с помощью своей модели сотрудничества. В этой статье рассматриваются стратегии изменения климата, принятые международными организациями, и представлены они в качестве примера, показывающего, как МКА способствует борьбе с изменением климата на глобальном уровне.

**Ключевые слова:** изменение климата, глобальное потепление, международные организации, Международный союз кооперативов.

# BEYNƏLXALQ TƏŞKİLATLARIN İQLİM DƏYİŞİKLİYİ İLƏ BAĞLI STRATEGİYALARI: BEYNƏLXALQ KOOPERATİVLƏR İTTİFAQININ NÜMUNƏSİNDƏ

**Bağırova Təbrizə Hüseyn**

**Naxçıvan Dövlət Universiteti**

**https://orcid.org/0009-0009-7451-4649**

**tabrizabagirova@gmail.com**

## Beynəlxalq Təşkilatların iqlim strategiyasında rolu

Beynəlxalq təşkilatlar iqlim dəyişikliyinə qarşı qlobal cavab tədbirlərində əsas yer tutur, sərhədlər, sektorlar və cəmiyyətlər arasında səyləri əlaqələndirir. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC – United Nations Climate Change Conference) kimi təşkilatlar, Paris Sazişi kimi qlobal istiləşməni 2 dərəcədən aşağı saxlamağı hədəfləyən əməkdaşlıq platformaları yaratmışdır (UNFCCC, 2015). Bu saziş, 12 dekabr 2015-ci ildə Fransanın paytaxtı Parisdə keçirilən BMT İqlim Dəyişikliyi Konfransında (COP21) 196 Tərəf tərəfindən qəbul edilmişdir və 4 noyabr 2016-cı ildə qüvvəyə minmişdir. Sazişin əsas məqsədi “qlobal orta temperatur artımını sənaye öncəsi səviyyələrdən 2°C-dən aşağı səviyyədə saxlamaq” və “temperatur artımını sənaye öncəsi səviyyələrdən 1.5°C-dən aşağı məhdudlaşdırmaq üçün səyləri davam etdirməkdir.” Lakin son illərdə dünya liderləri bu əsrin sonuna qədər qlobal istiləşməni 1.5°C ilə məhdudlaşdırmağın vacibliyini vurğulayıblar. Bunun səbəbi isə BMT-nin İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelinin məlumatlarına görə 1.5°C həddini keçməyin daha çox ciddi iqlim dəyişikliyi təsirlərini, o cümlədən daha tez-tez və daha şiddətli quraqlıqlar, istilik dalğaları və yağıntıları ortaya çıxarma riskini artırmasıdır. Qlobal istiləşməni 1.5°C ilə məhdudlaşdırmaq üçün, istixana qazı emissiyaları ən gec 2025-ci ilə qədər pik nöqtəyə çatmalı və 2030-cu ilə qədər 43% azalmalıdır. Paris Sazişi çox tərəfli iqlim dəyişikliyi prosesində mühüm bir mərhələdir, çünki ilk dəfə olaraq bağlayıcı bir saziş bütün millətləri iqlim dəyişikliyi ilə mübarizəyə və onun təsirlərinə uyğunlaşmağa yönləndirir (United Nations, 2024).

Həmşinin, İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panel (IPCC – Intergovernmental Panel on Climate Change) iqlim dəyişikliyi ilə bağlı elmi qiymətləndirmələr təqdim edir və bu məlumatlar siyasətçilərin düzgün qərarlar qəbul etmələrinə kömək edir (IPCC, 2021). Dünya Bankı və Beynəlxalq Valyuta Fondu (IMF) kimi maliyyə institutları isə xüsusilə inkişaf etməkdə olan ölkələrdə iqlim dayanıqlığı layihələrini maliyyələşdirirlər (World Bank, 2022). Bu təşkilatlar resursların səfərbər edilməsi və ortaq hədəflərin təmin edilməsi ilə qlobal, əlaqələndirilmiş iqlim tədbirləri üçün zəruri çərçivə yaradırlar.

Beynəlxalq təşkilatların strategiyaları davamlı inkişaf, bərpa olunan enerji və ekoloji ədaləti vurğulayır. Bu qurumlar hökumətlərlə, qeyri-hökumət təşkilatları və özəl subyektlərlə sıx əməkdaşlıq edir, istixana qazlarının emissiyasını azaltmaq, iqlimə uyğunlaşmanı gücləndirmək və iqlim dəyişikliyinin təsirinə qeyri-mütənasib şəkildə məruz qalan həssas cəmiyyətləri dəstəkləmək üçün strategiyalar tətbiq edir (World Bank, 2022). Bu strategiyalar, ədalətli, inklüziv və davamlı iqlim həllərinə dair əsasları təmin edir.

Ümumdünya Meteorologiya Təşkilatının (WMO) 2022-ci il aralıq Qlobal İqlim Hesabatına görə: üç əsas istixana qazı olan karbon dioksid, metan və azot oksidinin konsentrasiyaları 2021-ci ildə rekord səviyyəyə çatmışdır. Üstəlik, metan qazı konsentrasiyasında ölçülən illik artım rekord səviyyəyə çatan ən yüksək artım olaraq qeydə alınıb. İstixana qazlarının konsentrasiyasının artması atmosferin, materiklərin və okeanın orta temperaturunu artırdığı üçün buzlaqların miqdarı azalmış, temperatur artdıqca qurudakı buzlar əriməyə davam etmiş və nəticədə dəniz səviyyəsi yüksəlmişdir. Məsələn, Qrenlandiyanın buz təbəqəsi 26 il ardıcıl olaraq mənfi ümumi kütlə balansı qeydə alınmış, 2021-2022-ci illər arasında bölgədəki buzlaqların həcminin 6%-i itirilmişdir. (WMO Global Climate, 2022, s. 4)

**Beynəlxalq Kooperativlər İttifaqı haqqında**

Beynəlxalq Kooperativ İttifaqı (ICA) 1895-ci ildə dünyadakı kooperativləri bir araya gətirmək, təmsil etmək və onlara xidmət göstərmək məqsədilə yaradılmış qeyri-hökumət kooperativ təşkilatıdır. ICA 107 ölkədə 315 kooperativ federasiya və təşkilatı təmsil edir. Bu İttifaq kooperativlər və onlar haqqında qlobal səviyyədə səs və bilik, təcrübə və əlaqələndirilmiş fəaliyyət üçün zəmin təşkil edir. ICA-nın üzvləri kənd təsərrüfatı, bankçılıq, istehlak, balıqçılıq, səhiyyə, mənzil, sığorta, sənaye və xidmət sahələri də daxil olmaqla iqtisadiyyatın bütün sektorlarından beynəlxalq və milli kooperativ təşkilatlardır. ICA-nın 100-dən çox ölkədən üzvləri var və dünyada bir milyard insanı təmsil etdiyi təxmin edilir.

**Beynəlxalq Kooperativlər İttifaqının iqlim dəyişikliyinə yanaşması**

ICA qlobal kooperativlər nümayəndəsi kimi iqlim dəyişikliyinə kooperasiya, icma mülkiyyəti və demokratik idarəetmə prinsiplərindən faydalanaraq fərqli bir yanaşma tətbiq etmişdir. "İqlim Üçün Kooperativlər" təşəbbüsü ICA-nın iqlim strategiyasının mərkəzində dayanır və qlobal səviyyədə kooperativlərin ətraf mühit məsələlərində fəal mövqe tutmasını hədəfləyir (ICA, 2020). Bu təşəbbüs Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Məqsədləri ilə, xüsusən də təcili iqlim tədbirləri tələb edən SDG 13 (Sustainable Development Goal 13) ilə uyğunlaşır. ICA kooperativlərin karbon izlərini azaltmalarını, bərpa olunan enerji istifadəsini və ekoloji davamlılığı gücləndirmələrini tövsiyə edir (ICA, 2020).

ICA-nın strategiyasının unikal bir aspekti iqlim ədalətinə vurğu etməsidir. İqlim dəyişikliyinin aşağı gəlirli və marginal cəmiyyətlərə qeyri-mütənasib şəkildə təsir etdiyini qəbul edən ICA, bu həssas qruplara prioritet verən ədalətli iqlim siyasətlərini müdafiə edir (ICA, 2021). Bu yanaşma sosial məsuliyyət və həmrəylik prinsipləri ilə uyğunlaşır, iqlim tədbirlərinin bərabərsizliyi və sosial ədalət məsələlərini də əhatə etməsini təmin edir. Kooperativləri davamlılıq və dayanıqlılıqda lider olaraq gücləndirən ICA, kooperativ dəyərlərinin təsirli, icma mərkəzli iqlim həlləri təqdim edə biləcəyini nümayiş etdirir.

**Davamlı inkişaf üçün kooperativlərin gücləndirilməsi**

ICA müxtəlif sektorlarda, o cümlədən, kənd təsərrüfatı, enerji və mənzil sektorlarında davamlı təcrübələrin təşviqində mühüm rol oynayır. Kənd təsərrüfatı kooperativləri üçün ICA torpaqdan davamlı istifadə, əkin növbələşməsi və kimyəvi maddələrin istifadəsinin azaldılması kimi iqlimə uyğun kənd təsərrüfatı təcrübələrini tövsiyə edir (ICA, 2020). Bu təcrübələr təkcə istixana qazı emissiyalarını azaltmır, həm də qida sistemlərinin iqlim dəyişikliyi nəticəsində yaranan pozuntulara qarşı dayanıqlığını gücləndirir.

Bərpa olunan enerji kooperativləri ICA-nın diqqət mərkəzində olan digər bir sahədir. Bu

kooperativlər üzvlərinə təmiz və sərfəli enerjiyə çıxış imkanı verərək qlobal miqyasda bərpa olunan enerji mənbələrinə keçidi dəstəkləyir. ICA bərpa olunan enerji kooperativlərinin yaradılmasını təşviq edərək, icmalara fosil yanacaqlardan asılılığı azaltmaqda, emissiyaların azalmasına və yerli enerji müstəqilliyinə töhfə verməkdə kömək edir (ICA, 2021). Bu yanaşma, kooperativ müəssisələrin uğurlu təcrübələrin əldə edilməsi və həm ekoloji, həm də iqtisadi dayanıqlığa töhfə verməkdə lider ola biləcəyini göstərir.

**İqlim dayanıqlığı təşəbbüsünün müdafiəsi**

Uğurlu təcrübələri təşviq etməklə yanaşı, ICA iqlim dayanıqlığı və adaptasiyanın əhəmiyyətini vurğulayır. Kooperativlər icma tərəfindən idarə olunduğundan, onlar yerli səviyyədə uyğunlaşdırılmış iqlim həlləri tətbiq etmək üçün yaxşı mövqeyə malikdirlər. ICA kooperativləri, ekstremal hava hadisələri, qida və su çatışmazlığı və sağlamlıq problemləri kimi iqlim təsirlərinə qarşı dayanıqlılığı gücləndirən strategiyaları qəbul etməyə təşviq edir (ICA, 2021). Məsələn, mənzil kooperativləri enerji səmərəli tikinti təcrübələrini tətbiq etməkdə və ekstremal hava şəraitinə dözümlü quruluşlar tikməkdə dəstəklənir.

İqlim dayanıqlığı təşəbbüsləri vasitəsilə ICA kooperativlərin iqlim dəyişikliyinə uyğunlaşmada fəal rol oynamasını gücləndirir, eyni zamanda icmalar daxilində iqtisadi sabitlik və sosial birliyi gücləndirir. Bu dayanıqlılığa diqqət, ICA-nın davamlı inkişafın, xüsusilə bu çətinliklərdən ən çox təsirlənən həssas icmalar üçün iqlim dəyişikliyinin təsirlərini yüngülləşdirmə və onlara uyğunlaşma strategiyalarını əhatə etməli olduğunu başa düşməsini əks etdirir (ICA, 2020).

**Nəticə**

Beynəlxalq Kooperativlər İttifaqı kooperativ prinsiplərinin qlobal iqlim tədbirlərinə necə töhfə verə biləcəyini nümayiş etdirir. Davamlı təcrübələri təşviq, ədalətli iqlim strategiyalarını müdafiə etməklə və icmaların dayanıqlılığını gücləndirməklə ICA kooperativ dəyərlərini təsirli iqlim strategiyaları ilə uzlaşdırır. Qlobal bir şəbəkə olaraq ICA kooperativləri uğurlu təcrübələr əldə etməkdə dəstəkləməklə yanaşı, beynəlxalq iqlim siyasətində iştirak etmələrini də təmin edir, iqlim problemləri ilə bağlı icma əsaslı həllərin qlobal iqlim siyasətində əks olunmasını təmin edir. ICA-nın səyləri vasitəsilə kooperativ hərəkatı ətraf mühit, sosial və iqtisadi məqsədləri tarazlayan unikal bir iqlim yanaşmasını göstərir və daha davamlı və ədalətli bir gələcək üçün önəmli addımlar atır.

**Ədəbiyyat:**

Intergovernmental Panel on Climate Change. (2021). Altıncı Qiymətləndirmə Hesabatı. Buradan əldə edilmişdir: https://www.ipcc.ch

International Cooperative Alliance. (2020). İqlim Üçün Kooperativlər. 05.11.2024. https://www.ica.coop

International Cooperative Alliance. (2021). Kooperativlərdə İqlim Dayanıqlılığı və Adaptasiya. 05.11.2024. https://www.ica.coop

International Cooperative Alliance. (2024). 05.11.2024. https://ica.coop/en/about-us/international-cooperative-alliance

United Nations Framework Convention on Climate Change. (2015). Paris Sazişi. 07.11.2024. https://unfccc.int

United Nations Framework Convention on Climate Change. The Paris Agreement. UNFCCC. Retrieved November 9, 2024, from https://unfccc.int/process-and-meetings/the-paris-agreement

WMO Global Climate. (2022). WMO Provisional State of the Global Climate 2022, UN World Meteorological Organization. 07.11.2024. https://unfccc.int/documents/622338?psafe_param=1&gad_source=1&gclid=Cj0KCQiA57G5BhDUARIsACgCYnzsQkMYraLFPj1VmIN8iiXkyMKbzRIuVpd4bEaw9Nwcpwnky-GvAdUaAv_bEALw_wcB

World Bank. (2022). İnkişaf Edən Ölkələrdə İqlim Tədbirləri üçün Maliyyələşmə. 07.11.2024. https://www.worldbank.org

# ON THE IMPORTANCE OF THE REQUIREMENTS OF COMPREHENSIVENESS, COMPLETENESS AND OBJECTIVITY IN THE PRELIMINARY INVESTIGATION OF ENVIRONMENTAL CRIMES

**Rustamli Zubeyda Yusif**

**Baku StateUniversity**

**https://orcid.org/0009-0008-9651-209X**

**zubeyda.v@gmail.com**

**Rəyçi:**

**Həsənov Rəfail Musa oğlu,**

**Sosiologiya üzrə elmlər doktoru, professor**

## Abstract

The article considers the requirements of the criminal procedure legislation regarding the comprehensiveness, completeness and objectivity of the preliminary investigation in the context of criminal cases of environmental crimes. In the modern world, people have come to the conclusion that the uncontrolled use of technologies and the excessive exploitation of natural resources entail a serious threat to the environment, which must be overcome by appropriate and coordinated measures. While the prevention of the threat of environmental decline should mainly be carried out by other measures, criminal law plays an important role in protecting the environment. Violations with serious consequences for the environment should be qualified as criminal offenses entailing appropriate sanctions. At the same time, criminal norms in themselves are not sufficient for an effective fight against environmental crimes and their implementation requires compliance with the relevant procedural requirements, among which the requirement of comprehensiveness, completeness and objectivity of the preliminary investigation is of particular importance.

**Key words:** ecology, protection, crime, preliminary investigation, comprehensiveness, completeness, objectivity.

# О ЗНАЧЕНИИ ТРЕБОВАНИЙ ВСЕСТОРОННОСТИ, ПОЛНОТЫ И ОБЪЕКТИВНОСТИ ПРИ ПРЕДВАРИТЕЛЬНОМ РАССЛЕДОВАНИИ ЭКОЛОГИЧЕСКИХ ПРЕСТУПЛЕНИЙ

**Рустамли Зюбейде Юсиф**

**Бакинский государственный университет**

**https://orcid.org/0009-0008-9651-209X**

**zubeyda.v@gmail.com**

**Резюме**

В статье рассмотрены требования уголовно-процессуального законодательства относительно всесторонности, полноты и объективности предварительного расследования в контексте уголовных дел об экологических преступлениях. В современном мире люди пришли к выводу о том, что неконтролируемое использование технологий и чрезмерная эксплуатация природных ресурсов влекут за собой серьезную угрозу окружающей среде, которая должна преодолеваться уместными и согласованными мерами. В то время как предотвращение угрозы упадка окружающей среде должно в основном осуществляться иными мерами, уголовное право играет важную роль в защите окружающей среды. Нарушения, имеющие серьезные последствия для окружающей среды, должны быть квалифицированы как уголовные преступления, влекущие за собой соответствующие санкции. Вместе с тем, уголовные нормы сами по себе не достаточны для эффективной борьбы с экологическими преступлениями и для их реализации требуется соблюдение соответствующих процессуальных требований, среди которых особое место имеет требование о всесторонности, полноте и объективности предварительного расследования.

**Ключевые слова:** экология, защита, преступление, предварительное расследование, всесторонность, полнота, объективность.

# EKOLOJİ CİNAYƏTLƏRİN İBTİDAİ ARAŞDIRILMASI ZAMANI HƏRTƏRƏFLİLİK, TAMLIQ VƏ OBYEKTİVLİK TƏLƏBLƏRİNİN ƏHƏMİYYƏTİ HAQQINDA

**Rüstəmli Zübeydə Yusif**

**Bakı Dövlət Universiteti**

**https://orcid.org/0009-0008-9651-209X**

**zubeyda.v@gmail.com**

Müasir dövrdə ekologiyanın qorunması üçün ən effektiv vasitələrdən biri ətraf mühitə qarşı ictimai təhlükə yaradan qəsdlərin cəza təhdidi altında qadağan edilməsi və ekoloji cinayətlərə qarşı ədalət mühakiməsi vasitəsilə mübarizənin aparılmasıdır. "Ətraf mühitin cinayət qanunvericiliyi vasitəsilə müdafiəsi haqqında" 04 noyabr 1998-ci il tarixli Avropa Konvensiyasının (bundan sonra – Konvensiya) qəbul edilməsi bu fikri bir daha təsdiq edir. Həmin Konvensiyanın 6-cı maddəsinə görə, ekoloji cinayətlərə görə tətbiq edilən digər sanksiyalarla yanaşı ətraf mühitin bərpa edilməsi öhdəliyinin qoyulması cəzası da tətbiq edilə bilər. Konvensiyanın 9-cu maddəsi isə, ekoloji cinayətlərə görə korporativ məsuliyyətin, yəni hüquqi şəxslərin də cinayət məsuliyyətinin nəzərdə tutulmalı olmasını vurğulayır.

Bu Konvensiya Azərbaycan Respublikası tərəfindən hələ imzalanmamış olsa da, əminliklə demək olar ki, ölkəmizin 01 sentyabr 2000-ci ildə qüvvəyə minmiş Cinayət Məcəlləsi (bundan sonra – CM) ekoloji cinayətlərin sisteminin müəyyən edilməsi və belə cinayətlərə görə fiziki şəxslərlə yanaşı, hüquqi şəxslərin də cinayət məsuliyyətinin nəzərdə tutulması məsələlərində Avropa standartlarına cavab verir. Belə ki, qüvvədə olan CM-in 28-ci fəsli "Ekoloji cinayətlər" adlanır və özündə 247-261-ci maddələri ehtiva edir. CM-in 99-4.5-ci maddəsinə əsasən isə, hüquqi şəxslərə cinayət-hüquqi tədbirlər CM-in dairəsi qanunla müəyyən edilən bir sıra digər maddələri ilə yanaşı, 259-261-ci maddələri ilə də nəzərdə tutulmuş əməllərin, yəni bir sıra ekoloji cinayətlərin də törədilməsinə görə tətbiq edilir.

Bununla belə, nəzərə almaq lazımdır ki, ekoloji cinayətlərin cinayət qanununda təsbit edilməsi, özü-özlüyündə bu əməllərlə səmərəli mübarizənin aparılması üçün kifayət edə bilməz. Cinayət-hüquq normalarının real şəkildə işləməsi üçün səmərəli cinayət mühakimə icraatının aparılması qaçılmazdır. Bütövlükdə ədalət mühakiməsinin səmərəliliyi isə, digər amillərlə yanaşı, ibtidai araşdırmanın səmərəliliyindən və ibtidai araşdırma zamanı Cinayət-Prosessual Məcəllə (bundan sonra – CPM) ilə müəyyən edilmiş tələblərə ciddi şəkildə riayət edilməsindən asılıdır. İbtidai araşdırmanın hərtərəfliliyi, tamlığı və obyektivliyi tələbi də ibtidai araşdırma fəaliyyətinin cavab verməli olduğu əsas tələblərdən biridir.

İbtidai araşdırmanın hərtərəfliliyi dedikdə, araşdırma zamanı təkcə ifşaedici dəlillərin deyil, bəraətverici dəlillərin də axtarılıb tapılmasının vacibliyi başa düşülür. Hərtərəflilik tələbi, həmçinin, məsuliyyəti ağırlaşdıran hallarla yanaşı, məsuliyyəti yüngülləşdirən halların da müəyyən edilməli olmasını nəzərdə tutur. Bu tələb ibtidai araşdırmanı ittihamyönümlü olmaqdan qoruyur. İbtidai araşdırmanın tamlığı dedikdə, əməlin dürüst tövsifi üçün müəyyən edilməsi zəruri olan, sübuta yetirilməsi tələb edilən bütün halların araşdırılmasının zərurəti başa düşülür. Bu tələbə riayət edilməməsi ibtidai araşdırmanın natamam aparılması, təqsirli şəxslərin məsuliyyətdən kənarda

qalması, cinayət nəticəsində dəymiş zərərin həcminin dürüst şəkildə müəyyən edilməməsi, əməlin səhv tövsifi, zəruri sübutların diqqətdən kənarda qalması və s. bu kimi neqativ risklər yaradır. İbtidai araşdırmanın obyektivliyi dedikdə, cinayət-prosessual fəaliyyətin qərəzsiz bir şəraitdə, istintaq orqanının vəzifəli şəxslərinin işin nəticəsinə və barəsində icraat aparılan şəxslərə münasibətdə hər hansı şəxsi-qərəzinin, yaxud önyarğısının istisna edildiyi bir mühitdə aparılması nəzərdə tutulur (Abbasova, 2021; Aslanov, 2015; Cəfərquliyev, 2008; İbayev, 2004).

Ekoloji cinayətlərin ibtidai araşdırılması zamanı hərtərəflilik, tamlıq və obyektivlik tələblərinin əhəmiyyətini aşağıdakı amillərlə əlaqələndirmək mümkündür:

- bir sıra ekoloji cinayətin dispozisiyasında qiymətləndirmə tələb edən kateqoriyalardan istifadə edilmiş və onların əksəriyyətinin açılışı cinayət qanununun özündə verilməmişdir. Belə ki, CM-in 247-ci və 249-cu maddələrində "digər ağır nəticələrə səbəb olma", 248-ci, 250-ci, 254-cü və 255-ci maddələrində "əhəmiyyətli ziyan", "əhəmiyyətli zərər", 251-ci maddəsində "başqa cür dəyişilmə" və s. bu kimi qiymətləndirmə tələb edən kateqoriyalardan istifadə olunur. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 15 sentyabr 2022-ci il tarixli Qərarında nümayiş etdirilmiş hüquqi mövqeyə görə isə, CM-in Xüsusi hissəsinin maddələrinin dispozisiyalarında qiymətləndirmə tələb edən əlamətlər mövcud olduqda, şəxsin təqsirlilik məsələsi həll edilərkən işin bütün faktiki halları hərtərəfli, tam və obyektiv araşdırılmalıdır;

- cinayətləri tezliklə açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq cinayət mühakimə icraatının, o cümlədən, ekoloji cinayətlərə dair icraatın əsas vəzifələrindən biri kimi çıxış edir (CPM-in 8.0.3-cü maddəsi);

- işin hərtərəfli, tam və obyektiv araşdırılması üçün zəruri tədbirlər görmək, səlahiyyəti daxilində bütün istintaq və ya digər prosessual hərəkətləri həyata keçirmək ekoloji cinayətlərin ibtidai araşdırılmasını aparan müstəntiqin vəzifəsidir (CPM-in 85.2.1-ci maddəsi);

- ekoloji cinayətlərin ibtidai araşdırılması zamanı müstəntiq və prokuror qanunu və vicdanını rəhbər tutaraq sübutların məcmusunun hərtərəfli, tam və obyektiv baxılmasına əsaslanmaqla öz daxili inamına görə sübutları qiymətləndirirlər (CPM-in 145.2-ci maddəsi);

- ekoloji cinayətlərlə ilə bağlı olan bütün halların lazımi hüquqi prosedur daxilində hərtərəfli, tam və obyektiv araşdırılmasına yönəldilmiş vəsatət və xahişlər rədd edilə bilməz (CPM-in 121.2-ci maddəsi) və s.

**Ədəbiyyat:**

Abbasova, F. (2021). Cinayət prosesi. Bakı: Hüquq Yayın Evi.

Aslanov, S. (2015). İbtidai istintaq. Bakı: Qanun.

Cəfərquliyev, M. (2008). Azərbaycan Respublikasının cinayət prosesi. Bakı: Qanun.

İbayev, V. (2004). Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin kommentariyası. Cinayət mühakimə icraatının vəzifələri, əsas prinsipləri və şərtləri. Maddələr 8-36. Bakı: Qanun.

# THE ROLE OF PUBLIC RELATIONS IN CRISIS MANAGEMENT

**Garibova Gunel Aydin**

**Baku State University**

**https://orcid.org/0009-0000-0758-3454**

**gunelmedia@gmail.com**

**Rəyçi:**

**Həsənov Rəfail Musa oğlu,**

**Sosiologiya üzrə elmlər doktoru, professor**

**Abstract**

Nowadays, it is not easy to maintain the image of a certain brand. Because at an unexpected moment, unexpected events can happen and seriously damage the image of the company. These uncertain events are often called "crises". Although some crises can be foreseen and eliminated, at some points this is not possible. If a crisis situation is not managed properly, it can often cause irreparable damage to an organization. Such losses can sometimes be devastating, as they can have a permanent impact on an organization's image and reputation. The purpose of this article is to explore the key role public relations plays in crisis management.

Crisis management is to reduce the actual damage, prevent a possible crisis, and ensure the proper course of brand image formation. That process is based on the mechanisms, strategies and systems developed by the organization to manage crises. As a result of crisis management against the background of defining the right strategies in public relations, which has the most important role here, the process has changed over time from the reactive stage to the preventive stage.

**Keywords**: crisis management, public relations, brand reputation, marketing communications, stakeholders.

# РОЛЬ СВЯЗЕЙ С ОБЩЕСТВЕННОСТЬЮ В КРИЗИСНОМ УПРАВЛЕНИИ

**Гарибова Гюнель Айдын**

**Бакинский государственный университет**

**https://orcid.org/0009-0000-0758-3454**

**Gunelmedia@gmail.com**

**Резюме**

В наше время поддерживать имидж определенного бренда непросто. Потому что в неожиданный момент могут произойти неожиданные события и серьезно повредить имиджу компании. Эти неопределенные события часто называют «кризисами».

Хотя некоторые кризисы можно предвидеть и устранить, в некоторые моменты это невозможно. Если кризисная ситуация не управляется должным образом, она часто может нанести непоправимый ущерб организации. Такие потери иногда могут быть разрушительными, поскольку они могут оказать необратимое влияние на имидж и репутацию организации. Цель данной статьи — изучить ключевую роль связей с общественностью в кризисном управлении.

Антикризисное управление призвано уменьшить реальный ущерб, предотвратить возможный кризис и обеспечить правильный ход формирования имиджа бренда. Этот процесс основан на механизмах, стратегиях и системах, разработанных организацией для управления кризисами. В результате антикризисного управления на фоне определения правильных стратегий в области связей с общественностью, что играет здесь важнейшую роль, процесс со временем изменился с реактивной стадии на превентивную стадию.

**Ключевые слова:** антикризисное управление, связи с общественностью, репутация бренда, маркетинговые коммуникации, заинтересованные стороны.

# BÖHRANLARIN İDARƏEDİLMƏSİNDƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRİN ROLU

**Qəribova Günel Aydın**

**Bakı Dövlət Universiteti**

**https://orcid.org/0009-0000-0758-3454**

**gunelmedia@gmail.com**

**Böhran: Risk və gözlənilən təhlükə**

Böhranlar müxtəlif insanlar üçün çox şey deməkdir. Bununla belə, təşkilatlar kontekstində böhranlar düzgün idarə edilmədikdə mənfi nəticələrə səbəb ola biləcək əməliyyatlar üçün əhəmiyyətli təhlükədir. Bu, təşkilatların fəaliyyətinə ciddi təsir göstərə və mənfi şərhlər yarada bilən sağlamlıq, təhlükəsizlik, ətraf-mühit və iqtisadi məsələlərlə bağlı maraqlı tərəflərin mühüm gözləntilərini təhdid edən gözlənilməz hadisədir. Böhran həm də insanların işlədikləri sistem haqqında əsas fərziyyələrinin pozulması deməkdir Bir vəziyyətin böhran sayılması üçün Mitrof təklif etdi ki, bütün sistem elə bir şəkildə pozulmalıdır ki, nəinki əməliyyatlar əsaslı şəkildə pozulsun, həm də menecer və işçilərin fərziyyələrinə əsas etibarilə etiraz edilsin. İkincisi, o, bir vəziyyətin böhran adlandırılması üçün təşkilatın sağ qalması üçün ciddi təhlükə yaratmalı olduğunu irəli sürdü. W.T Combs daha sonra bildirdi ki, böhranlar fövqəladə vəziyyətdir və aşağıdakı potensial riskləri ehtiva edir:

1. Biznes daxilində pozuntuların daha da artması;

2. Media və ya səlahiyyətli orqanlar tərəfindən müvafiq təqiblər nəticəsində vəziyyətin daha da pisləşməsi;

3. Adi işlərə qarışma;

4. Təşkilatın və onun sahiblərinin imicinin zədələnməsi;

5. Təşkilatın məhsuldarlığına zərər.

Böhranların idarə edilməsi mühüm təşkilati funksiya olaraq qalır (W. Timothy Coombs və S.J.Holladay, 2011). Çünki bəzi böhranlar təşkilatların fəaliyyətini sona çatdırmağa belə qadirdir. Digər tərəfdən isə böhranlar təşkilatların reputasiyasını əhəmiyyətli dərəcədə aşağı salır və beləliklə, tərəfdaşların marağını azaldır. Böhranların idarə edilməsi mühüm təşkilati funksiyadır. Bu funksiya ictimaiyyətlə əlaqələrin əsas mahiyyətlərindən biridir. Strateji və marketinq funksiyası kimi ictimaiyyətlə əlaqələr böhranları həll etmək və ya idarə etmək üçün vacib bir vasitə kimi təqdim edilmişdir. Bu məqalə təşkilati böhranların idarə edilməsində ictimaiyyətlə əlaqələrin necə tətbiq oluna biləcəyini vurğulamaq məqsədi daşıyır.

**İctimaiyyətlə əlaqələr: Böhran vəziyyətinin idarə olunması strategiyası**

İdarəetmənin dörd əsas funksiyasına (planlaşdırma, rəhbərlik, təşkilatlanma və nəzarət) bütün biznes və idarəetmə ədəbiyyatında istinad edilmişdir. Bununla belə, son onilliklərdə kommunikasiya getdikcə beşinci idarəetmə funksiyası kimi qeyd olunur (Journal of Vacation Marketing, 2004). Dörd əsas idarəetmə funksiyası dəyişməsə də, bu funksiyalar əsas daxiletmə kimi kommunikasiyaların əlavə edilməsi ilə yeni rəng almışdır. Bunun arxasında duran məntiq heç də

uzaqgörən deyil. Kommunikasiya strateji planlaşdırma prosesinin əsas komponentlərindən biridir. Paul Watzlawick-in sözləri ilə desək, “Siz ünsiyyət qura bilməzsiniz” (Executive School of Management, Technology and Law, 2023). Watzlawick-in bəyanatı sözlər üzərində maraqlı bir oyun kimi görünsə də, bu ifadənin həqiqətini pozmaq olmaz. Çünki ünsiyyət qurmamaq özlüyündə ünsiyyətdir. Ünsiyyət insanların şifahi və ya qeyri-şifahi şəkildə məlumat və fikirləri paylaşdığı bir prosesdir. Qeyri-verbal ünsiyyət heç bir nitq formasından istifadə etmədən səssiz ünsiyyət formasıdır (D. Phutela, 2015).

Ünsiyyət o qədər vacibdir ki, insanın varlığı əsasən ondan asılıdır. Təşkilatların mövcudluğu da belədir. Adekvat ünsiyyət olmasa, təşkilat dayana bilər (G Wells , 1978). Ünsiyyət təşkilatın mövcudluğunun və hətta böhranın idarə olunmasının ayrılmaz hissəsidir.

Böhranlarla mübarizə aparmaq üçün nəzərdə tutulmuş faktorlar toplusunu təmsil edir, faktiki zərəri azaltmaq və davamlılığı asanlaşdırmaqdır. Bu, təşkilatın böhranları idarə etmək üçün yerləşdirdiyi mexanizm, strategiya və sistemdir. İllər keçdikcə böhranın idarə edilməsi reaktiv mərhələdən qabaqlayıcı mərhələyə keçdi. Böhranların idarə edilməsi fövqəladə hallara hazırlıqdan inkişaf etmişdir və indi bir-biri ilə əlaqəli dörd amildən ibarətdir:

- Qarşısının alınması
- Hazırlıq
- Cavab
- Təftiş

Qarşısının alınmasının yeni böhran kampansiyasının qurulmasından daha yaxşı olduğu həqiqəti həmişə olduğu kimi qüvvədə qalır. PR mütəxəssislərinin böhranı idarə edə bilməsinin ən yaxşı yolu onun baş verməsinin qarşısını almaqdır. Buna misal olaraq, bazarlara çıxmazdan əvvəl pis əyləc sistemləri olan avtomobillərin geri çağırılması və insanların həyatını itirməsinə və markanın nüfuzuna ziyan vurmasına səbəb ola bilər. Böhran idarəçiliyinə hazırlıq ətraflı böhrana hazırlıq planının (CPP) olmasını tələb edir. Bu, böhran vəziyyətində görüləcək təfərrüatlı tədbirlər planını ehtiva edir. O, həmçinin böhran zəifliklərinin diaqnostikasını, böhran idarəetmə komandasının və sözçünün seçilməsi və təlimini, böhran portfelinin yaradılmasını və böhran kommunikasiya sisteminin təkmilləşdirilməsini əhatə edir. Cavab böhranda hazırlıq komponentlərinin ətraflı tətbiqidir. Bu, imitasiya edilmiş və ya real həyatda böhran ssenarisində hazırlığın müntəzəm sınaqdan keçirilməsini tələb edir. Böhran idarəçiliyində dördüncü element kimi təftiş təşkilatın cavab mərhələsində nə dərəcədə ədalətli olduğunu qiymətləndirməyi nəzərdə tutur. Bu, təşkilatların reaksiyasının qiymətləndirilməsidir. Böhranların İdarə Edilməsi Fazaları: Böhranların idarə edilməsi üç mərhələyə bölünə bilər:

- Böhrandan əvvəlki mərhələ
- Böhran mərhələsi
- Böhrandan sonrakı mərhələ

Böhrandan əvvəlki mərhələ böhrana səbəb ola biləcək məlum riski azaltmağa və ya aradan qaldırmağa çalışan bütün fəaliyyətləri əhatə edir. Böhran mərhələsi böhranın davam etdiyi mərhələdir. Bu, böhrana reaksiya mərhələsidir - böhran zamanı rəhbərliyin etdiyi və dediyi budur. Böhrandan sonrakı mərhələdə təşkilat həmişə olduğu kimi işə qayıdır, lakin sonra böhranlar mərhələsində istifadə olunan fəaliyyətləri və strategiyaları qiymətləndirmək lazımdır.

**Ədəbiyyat:**

Coombs, W. Timothy, Holladay, S.J. (2011) The Handbook of Crisis Communication. John Wiley & Sons.

Journal of Vacation Marketing, vol.10, no.3, pp. 238–252, Jul. 2004.

"You cannot not communicate!," Executive School of Management, Technology and Law (ES-HSG) (Nov. 10, 2023).

Phutela, D. (Dec. 2015) "The Importance of Non-Verbal Communication".

Wells, G. (1978) How to communicate. London.

Bakewell, K. G. B. (1990) Managing user-centred libraries and information services. London; New York: Mansell.

# FORCED MIGRATION IN THE FRAMEWORK OF CLIMATE CHANGE

**Naghiyeva Lala Khalid**

**Akdeniz University**

**https://orcid.org/0000-0001-5395-7744**

**lala.naghiyeva@karabakh.edu.az**

**Rəyçi:**

**Həsənov Rəfail Musa oğlu,**

**Sosiologiya üzrə elmlər doktoru, professor**

**Abstract**

Since ancient times, people have changed their places and moved to different areas in order to explore the world, live in various districts, taste food, etc. This kind of migration is known as voluntary migration and still exists today. However, it should be noted that migration is not always voluntary. This type of migration, known as forced migration, means that people seek refuge in safer or less dangerous areas because they feel danger for their life in the areas where they live. Wars, ethnic cleansing, various natural disasters, etc. are reasons for forced migration. Forced migration in the context of climate change is an increasingly urgent global issue as environmental changes render certain areas uninhabitable and displace people from their homes. This phenomenon is often called climate-induced displacement or ecological migration. In this context, the aim of the thesis is to investigate the impact of climate change on forced migration and to examine possible solutions.

**Keywords:** forced migration, climate changes, environmental migration

# ВЫНУЖДЕННАЯ МИГРАЦИЯ В КОНТЕКСТЕ ИЗМЕНЕНИЯ КЛИМАТА

**Нагиева Лала Халид**

**Университет Акдениз**

**https://orcid.org/0000-0001-5395-7744**

**lala.naghiyeva@karabakh.edu.az**

**Резюме**

С древних времен люди меняли места и перемещались в разные области, чтобы исследовать мир, жить в разных районах, пробовать еду и т. д. Этот вид миграции известен как добровольная миграция и существует до сих пор. Однако следует отметить, что миграция не всегда является добровольной. Этот тип миграции, известный как вынужденная миграция, означает, что люди ищут убежища в более безопасных или менее опасных районах, потому что они чувствуют опасность для своей жизни в тех районах, где они живут. Войны, этнические чистки, различные стихийные бедствия и т.д. являются причинами вынужденной миграции. Вынужденная миграция в контексте изменения климата становится все более актуальной глобальной проблемой, поскольку изменения окружающей среды делают определенные районы непригодными для проживания и вытесняют людей из своих домов. Это явление часто называют перемещением населения, вызванным изменением климата, или экологической миграцией. В этом контексте целью данной работы является исследование влияния изменения климата на вынужденную миграцию и изучение возможных решений.

**Ключевые слова:** вынужденная миграция, изменения климата, экологическая миграция.

# İQLİM DƏYİŞİKLİYİ ÇƏRÇİVƏSİNDƏ MƏCBURİ MİQRASİYA

**Nağıyeva Lalə Xalid**

**Qarabağ Universiteti**

**Akdeniz Universiteti**

**https://orcid.org/0000-0001-5395-7744**

**lala.naghiyeva@karabakh.edu.az**

Son zamanlarda iqlim dəyişikliyinin miqrasiyaya təsiri qlobal məsələ kimi aktuallaşmışdır. Belə ki, ətraf-mühitdə baş verən dəyişikliklərdən qaynaqlı olaraq insanların öz məskunlaşdıqları əraziləri tərk etmək məcburiyyətində qalmaları səbəbilə artan məcburi miqrasiya iqlim dəyişikliyinin nəticəsi kimi qiymətləndirilir. İqlim dəyişikliyi deyildiyində okeanlarda və dənizlərdə suyun səviyyəsinin yüksəlməsi, qlobal istiləşmə, quraqlıq, aclıq kimi insanların yaşayış şərtlərini çətinləşdirən hallar başa düşülür ki, bu hallarda sakinlər öz ölkələri daxilində və ya öz ölkələrinin sərhədlərini aşacaq şəkildə daşınmaq məcburiyyətində qalırlar (Arenilla & Hawkins Rada, 2020). Belə hallar səbəbilə öz yaşadıqları ərazilərdən köçmək məcburiyyətində qalan miqrantları digər miqrantlardan fərqləndirmək üçün "iqlim miqrantları", "iqlim qaçqınları" kimi terminlərdən istifadə edilir (UNHCR, b.t.). Ancaq qeyd etmək lazımdır ki, hər nə qədər terminlər fərqləndirilsə də, miqrantların, qaçqınların hüquqlarının təminatı məqsədilə ümumi qanunlar mövcud olduğu üçün iqlim miqrantlarının hüquqları tam olaraq müdafiə edilə, adekvat tədbirlər görülə bilmir. Bu baxımdan tezisin məqsədi məcburi miqrasiya ilə iqlim dəyişikliyinin əlaqəsini araşdırmaq və ətraf-mühitdə baş verən dəyişikliklərin insan hərəkətliliyinə təsirini analiz etməkdən ibarətdir. Bu, iqlim miqrantlarının ehtiyaclarını müəyyən etmək, problemlərinə işıq tutmaq və iqlim dəyişikliyi ilə bağlı həyata keçirilən siyasətin yönləndirilməsi üçün olduqca önəmlidir.

**Məcburi miqrasiya: Qaçqınlar və məcburi köçkünlər**

Miqrasiya bəşəriyyətin varlığında özünü göstərən bir hadisədir. Bu, bəşəriyyət var olduqca, gələcəkdə də varlığını davam etdirəcək bir insan hərəkətliliyidir (Adıgüzel, 2019). Buna görə də insan hərəkətliliyi qarşısıalınmaz bir hərəkət kimi qəbul edilir. Bu baxımdan miqrasiyadan irəli gələn problemlər də həmişə aktual olaraq qalır və dünya ölkələrinin diqqət yetirməli olduğu problemlər sırasındadır. Qeyd etmək lazımdır ki, miqrasiya həmişə könüllü əsaslarla olmur. Müharibə, münaqişə, ərzaq qıtlığı, hava şəraitinin dözülməz olduğu hallarda insanlar öz yaşadıqları əraziləri tərk etmək məcburiyyətində qalırlar. Miqrasiyanın bu növünə məcburi miqrasiya deyilir. Məcburi miqrantlar da öz-özlüyündə qaçqınlar və məcburi köçkünlər olaraq iki fərqli kateqoriyaya ayrılırlar (Theoretical Framework Of The Internal Displacement Of Persons (IDP), 2020).

Məcburi köçkünlər müxtəlif zorakılıq aktları, insan hüquqlarının pozulması, təbii və ya texnogen fəlakətlərin təsirindən qaçmaq üçün və ya sözü gedən hadisələrdən təsirləndikləri üçün öz yurt-yuvalarını, yaşayış evlərini tərk etməyə məcbur qalmış, ancaq beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini keçməmiş şəxslərə və ya qruplara deyilir (Kampala Convention-Article 1, 2009). Qaçqınlar isə məcburi köçkünlərdən fərqli olaraq eyni səbəblərdən, ancaq dövlət sərhədlərini aşan bir hərəkətliliyi həyata keçirmiş beynəlxalq miqrantlardır. Bu, "Qaçqınların Statusu haqqında Konvensiya"da da öz əksini tapmışdır (Qaçqınların statusu haqqında Konvensiya, b.t.). Qısacası, məcburi köçkünlük ölkə daxili, qaçqınlıq isə ölkə xarici məcburi miqrasiya olaraq bilinir.

**İqlim dəyişikliyi: Miqrasiyaya təsiri**

İqlim dəyişikliyi zamanla qlobal temperaturda və hava modellərində əhəmiyyətli dəyişiklikləri ifadə edir. İqlim dəyişikliyi təbii bir hadisə olsa da, insan fəaliyyəti, xüsusən də qalıq yanacaqların yandırılması, meşələrin qırılması və sənayeləşmə bu dəyişiklikləri sürətləndirmiş və ətraf mühitə ciddi təsirlərə səbəb olmuşdur. Bu təsirləri dünyanın dörd bir yanında müşahidə etmək mümkündür. Məsələn, suyun səviyyəsinin yüksəlməsi səbəbilə Sakit Okeanında yerləşən Tuvalu, Kiribati, Marşal adalarının əhalisinin Yeni Zelandiya və Avstraliyaya üz tutması iqlim dəyişikliyinin miqrasiyaya təsirinə nümunələrdən biridir (Mimura & Esteban, 2009). Bənzər problem Amerika Birləşmiş Ştatlarında da yaşanır. Həmçinin ölkədə güclü qasırğaların olduğu Nyu Orlean və Florida ştatları emiqrasiyanın olmasına səbəb olur (Kaufmann, 2009).

Tez-tez başlayan və insanların yaşaması üçün çətinliklər yaradan daşqınlar Banqladeş əhalisinin ölkə daxili məcburi miqrasiyasına səbəb olur və əhali əsasən Dəkkə şəhərinə köçməyə üstünlük verir (Warner, 2012). Həmçinin Suriyada 2006-2010-cu illərdə yaşanan quraqlıq və sosial rifahın düşüşü nəticəsində üsyanların ortaya çıxması ilə Avropaya başlayan köçlər, Sudan, Somali və s. səhralaşmanın getdiyi ölkələrdə fermerlərin münbit ərazi axtarışı nəticəsində yaşanan köçlər də iqlim dəyişikliyinin miqrasiyaya olan təsirindən qaynaqlanır (Selby, 2017), (Boko, 2007).

İqlim dəyişikliyi səbəbindən ekstremal hava hadisələri daha tez-tez baş verdiyi üçün iqlim miqrasiyası artan narahatlıq doğurur. Bu nümunələr ətraf mühitdəki dəyişikliklərin insan populyasiyalarına müxtəlif təsirlərini nümayiş etdirir, həm iqlim dəyişikliyi, həm də onun miqrasiya modellərinə təsirlərini aradan qaldırmaq üçün hərtərəfli siyasətin həyata keçirilməsinə doğan ehtiyacı ortaya qoyur. Beləliklə, dünya ölkələrinin birlikdə mübarizə aparmalı olduqlarını söyləməyə əsas verir.

**Ədəbiyyat:**

Adıgüzel, Y. (2019). Göç Sosyolojisi. Ankara.

Arenilla, S. L., & Hawkins Rada, C. (2020). Climate Change and Forced Migration. Migraciones internacionales. Bu SciELO. mənbədən tapılıb

Boko, M. (2007). Climate Change and Africa." African Climate Change: A Political Economy Perspective. Cambridge University Press.

Kampala Convention-Article 1. (2009). Bu UNCHR:

https://www.unhcr.org/aboutus/background/4ae9bede9/african-union-convention-protection-assistance-internallydisplaced-persons.html mənbədən tapılıb

Kaufmann, R. K. (2009). Coastal Vulnerability to Sea-Level Rise: A U.S. Perspective. Environmental Research Letters, 1-7.

Mimura, N., & Esteban, M. (2009). Global Climate Change and Sea-Level Rise: Implications for Pacific Island Nations. Environmental Science & Policy, 507-518.

Qaçqınların statusu haqqında Konvensiya. (b.t.). Bu Miqrasiya Xidməti: https://www.migration.gov.az/content/pdf/5acb13dbbab6c_Qa%C3%A7q%C4%B1nlar%C4%B1n%20statusu%20haqq%C4%B1nda%20konvensiya.pdf mənbədən tapılıb

Selby, J. (2017). Climate Change and the Syrian Civil War Revisited. Political Geography, 1-8.

Theoretical Framework Of The Internal Displacement Of Persons (IDP). (2020). Bu https://sg.inflibnet.ac.in/bitstream/10603/235149/9/07%20chapter%20ii.pdf mənbədən tapılıb

UNHCR. (b.t.). Bu Climate change and displacement: https://www.unhcr.org/what-we-do/build-better-futures/climate-change-and-displacement mənbədən tapılıb

Warner, K. (2012). In Search of Shelter: Mapping the Effects of Climate Change on Human Migration and Displacement. United Nations University Institute for Environment and Human Security (UNU-EHS).

# THE ROLE OF NATIONAL LEADER HAYDER ALIYEV IN THE ESTABLISHMENT OF CULTURAL AND EDUCATIONAL INSTITUTIONS IN THE 1970s-1980s

**Mehdiyev Rashid Mehdi**

**Baku State University**

**https://orcid.org/0009-0002-7881-2757**

**mresid.1998@gmail.com**

**Rəyçi:**

**Səlimov Şirxan Dadaş oğlu,**

**Tarix elmləri doktoru, professor**

## Abstract

The period of the national leader Heydar Aliyev's first leadership in Azerbaijan entered the history of Azerbaijan as a period of political, socio-economic and cultural progress, and had a strong impact on the awakening of the nation's national self-consciousness and ideals of independence. On the initiative of the great leader Heydar Aliyev, a wide network of cultural and educational institutions was created in Azerbaijan in the 1970s and 1980s, the cultural level in the villages rose, and cultural and educational specialists with higher education were provided. This led to the improvement of the standard of living of the population. Due to Heydar Aliyev's special attention, the financial resources allocated to cultural and educational institutions grew steadily over the years. As a result of this approach, new libraries and community centers were established, even in the most distant rural areas, during the 1970s and 1980s.

During the leadership of the Azerbaijan SSR by the national leader Heydar Aliyev, there was a significant increase in the cultural level of the people and an expansion of the network of cultural and educational institutions. This period also saw the achievement of the highest level of cultural development in Azerbaijani villages, as well as the transformation of the people into a more culturally enriched and enlightened society.

**Keywords:** National Leader, Azerbaijan SSR, cultural and educational institutions, libraries, highly educated personnel, cultural advancement

# РОЛЬ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В СОЗДАНИИ КУЛЬТУРНО-ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЙ В 70-80-Е ГОДЫ XX ВЕКА

**Мехтиев Рашид Мехди**

**Бакинский государственный университет**

**https://orcid.org/0009-0002-7881-2757**

**mresid.1998@gmail.com**

**Резюме**

Период первого правления общенационального лидера Гейдара Алиева в Азербайджане вошел в историю Азербайджана как период политического, социально-экономического и культурного прогресса, оказал сильное влияние на пробуждение национального самосознания нации и идеалов независимости. По инициативе великого лидера Гейдара Алиева в 70-80-е годы в Азербайджане была создана широкая сеть культурно-просветительских учреждений, повышен культурный уровень в селах, обеспечены культурно-просветительские специалисты с высшим образованием. Это привело к улучшению уровня жизни населения. Был предпринят ряд важных шагов по строительству библиотечных и клубных зданий, особенно в сельской местности. Благодаря особому вниманию общенационального лидера Гейдара Алиева средства, выделяемые на деятельность учреждений культуры и образования, из года в год увеличивались.

В период руководства Азербайджанской ССР общенациональным лидером Гейдаром Алиевым произошел рост культурного уровня народа и расширение сети культурно-просветительских учреждений, достижение высшего уровня развития культуры в азербайджанских деревнях, а также превращение народа в более культурно богатое и просвещенное общество.

**Ключевые слова:** Национальный лидер, Азербайджанская ССР, культурно-просветительские учреждения, библиотеки, высокообразованные кадры, развитие культуры

# XX ƏSRİN 70-80-Cİ İLLƏRİNDƏ MƏDƏNİYYƏT-TƏHSİL MÜƏSSİSƏLƏRİNİN YARADILMASINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

**Mehdiyev Rəşid Mehdi**

**Bakı Dövlət Universiteti**

**https://orcid.org/0009-0002-7881-2757**

**mresid.1998@gmail.com**

Ümummilli lider Heydər Əliyevin Azərbaycan SSR-yə rəhbərlik etdiyi dövrdə xalqının mədəni səviyyəsinin artırılması və mədəni maarif müəssisələrinin şəbəkəsinin genişləndirilməsi əsas prioritetlərdən biri idi. Xüsusilə kənd yerlərində kitabxana və klub binalarının inşası ilə bağlı bir sıra mühüm addımlar atıldı. 1930-cu illərdə, mədəni inqilab dövründə, bu sahədə böyük irəliləyişlər olsa da, Azərbaycanda hələ də mədəni-maarif müəssisələri yetəri qədər deyildi. Kəndlərdə çox vaxt kitabxanalar mövcud deyildi, varsa belə, onlar şəxsi evlərdə yerləşirdi. Nəticədə, vətəndaşlar, xüsusilə gənclər kitabxanalardan istifadə edə bilmirdilər. Kitabxanaların fondu yox dərəcəsində idi və kənd yerlərində insanlar yalnız bəzi dərs vəsaitlərinə malik idilər. Kitab və qəzetlərin sayı kəndlərdə çox az idi. Bu vəziyyət isə kəndlərin ümumi mədəni inkişafını ləngidirdi. Yusif Vəzir Çəmənzəminli bir zamanlar belə yazırdı: "Kitabxanamızın olmaması bizim üçün böyük bir zərərdir. Rusiyanın böyük şəhərlərində yaşarkən, hər hansı bir məsələyə aid məlumat əldə etmək istəyəndə ümumi kitabxanaya gedərdin. Orada istədiyin mövzuda kitabları tapıb oxumaq imkanın var idi. Lakin bizdə bu cür şərait yoxdur... Əgər milli fikrimizə, milli sözümüzə dəyər verilməsi məqsədiylə irəliləyiş əldə etmək istəyiriksə, tezliklə geniş bir ümumi kitabxana açılmalıdır (Qasımlı, 2006, s.88).

Ümummilli lider Heydər Əliyev cəmiyyətin inkişafında mədəniyyət və təhsil müəssisələrinin vacib rolunu dərk edərək, sovet dövrünün ümumi siyasət çərçivəsində bu sahədə müxtəlif tədbirlər həyata keçirirdi. O, mədəni-maarif sahəsinə ayrılan maliyyə vəsaitlərinin artırılmasını təmin edərək, dövlət büdcəsindən daha çox vəsaitin ayrılmasına nail oldu və yeni kitabxanaların və mədəniyyət evlərinin inşasını sürətləndirdi. Kitabxanaların fondunun zənginləşdirilməsi məsələsinə xüsusi diqqət ayrıldı. Eyni zamanda, mədəni-maarif sahəsində çalışan, xüsusən də kənd yerlərində fəaliyyət göstərən işçilərin ali təhsil alması üçün əlverişli şərait yaradıldı. Tarixi əhəmiyyət daşıyan kitabxanaların yubileyləri də qeyd edilməyə başlandı. Bu addımlar, Ulu öndər Heydər Əliyevin mədəniyyətin inkişafına olan böyük diqqətinin və bu sahədə apardığı ardıcıl siyasətin bariz nümunəsidir.

Ümummilli lider Heydər Əliyevin xüsusi diqqəti sayəsində mədəni-maarif müəssisələrinin fəaliyyətinə ayrılan vəsaitlər ildən-ilə artırıldı Bu siyasətin nəticəsi olaraq, 1970-80-ci illərdə hətta ən ucqar kəndlərdə belə kitabxana və klub binaları inşa edildi. Bu müəssisələrdə maaşlı işçilərin sayının artması yerli əhalinin həyat səviyyəsinin yaxşılaşmasına müsbət təsir göstərdi. 1975-ci ildə yalnız kitabxanaların sayı 110, klubların sayı isə 120 vahid artdı. Bu məqsədlə dövlət büdcəsindən 14,2 milyon manat ayrıldı ki, bu da əvvəlki, 1974-cü illə müqayisədə 5,6% artım demək idi ("Kommunist qəzeti", 1974). Sonraki illərdə, xüsusilə 1978-ci ildə Azərbaycanda klubların sayı 98 vahid artdı və 1979-cu ilin büdcəsi ilə müqayisədə, 1980-ci ildə mədəni-maarif müəssisələrinin saxlanılmasına ayrılan vəsait 6,5% artaraq 32,9 milyon manata çatdı (Qasımlı, 2006, s.89). Ümumilikdə, 1976-1980-ci illər ərzində dövlət büdcəsi hesabına 415 yeni kitabxana və 466 yeni

klub binası inşa edildi. Sosial-mədəni sahələrə yönəldilən xərclər 11,574 milyon manat artmışdı. Həmçinin, bu dövrdə klub və kitabxanaların tikintisi yalnız dövlət büdcəsindən deyil, həm də kolxoz və sovxozların maliyyə vəsaitləri ilə həyata keçirildi.

1981-ci ildə mədəni-maarif müəssisələrinin saxlanılmasına büdcədən 36,4 milyon manat ayrıldı və 80 yeni kitabxana açıldı. 1982-ci il üçün isə mədəni-maarif sahəsinin inkişafı məqsədilə 27,6 milyon manat ayrıldı. XX əsrin 70-80-ci illərində Azərbaycanın bütün rayon mərkəzlərində standartlaşdırılmış kitabxana binalarının tikintisi həyata keçirildi. Xarici ölkələrdən kitab, jurnal və elmi məcmuələrin gətirilməsi nəticəsində 70-80-ci illərdə Azərbaycan kitabxanalarının fondlarının zənginləşdirilməsi ən yüksək səviyyəyə çatdı. Məsələn, M.F.Axundov adına kitabxanada 1923-cü ildə 20,441 nüsxə, 1940-cı ildə 612,207 nüsxə kitab var ikən, 1973-cü ildə bu rəqəm 3 milyon nüsxəyə çatdırıldı (Qasımlı, 2006, s.89).

Ümummilli lider Heydər Əliyev, kitabxanaların yubileylərinin keçirilməsinə xüsusi diqqət yetirirdi. 1973-cü ildə Azərbaycan KP MK-nın iclasında M.F. Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 50 illiyi münasibətilə qəbul edilən qərar, yalnız kitabxanaların fəaliyyətini genişləndirmək deyil, həm də kitaba olan marağı artıraraq xalqın mədəni irsinin qorunmasına və inkişafına yönəlmişdi.

Bu dövr ərzində kənd yerlərində ali təhsilli kadrların sayını artırmaq məqsədilə Azərbaycanda ali təhsilli kitabxanaçılar hazırlanmağa başlanmışdı. Ulu öndər Heydər Əliyev hakimiyyətə gələndə, Azərbaycanda 3019 kitabxanaçıdan yalnız 1436-sı ali təhsil almışdı. Bu problemi həll etmək üçün ADU-nun kitabxanaçılıq fakültəsinin tələbə qəbulu planı artırıldı və kənd yerlərindən olan namizədlər üçün əlavə qəbul yerləri açıldı. 1980-ci illərin başlanğıcında artıq ali təhsilli kitabxanaçıların sayı əhəmiyyətli şəkildə artmışdı. Kəndlərdəki kitabxanaların və ali təhsilli mütəxəssislərin sayının çoxalması yerli əhalinin sosial və iqtisadi vəziyyətini yaxşılaşdırır, ailə büdcəsinə əlavə gəlir təmin edirdi və ümumilikdə mədəni səviyyənin yüksəlməsinə gətirib çıxarırdı. Bu, öz növbəsində, ölkənin ümumi inkişafına müsbət təsir edirdi.

Ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Bakıda "Kitab Evi" açıldı və açılış mərasimində iştirakı, onun kitaba, xalqın maariflənməsinə və mədəni irsinin qorunmasına verdiyi önəmi aydın şəkildə göstərirdi. 1979-cu ilin dekabrında Moskvada oxuyan tələbə və aspirantlarla keçirilən görüşdə Ulu öndər deyirdi: "Söhbət yeni müəssisələr, yollar, qaz və su kəmərləri, məktəblər, uşaq tərbiyə müəssisələri, xəstəxanalar, mədəni-maarif və məişət obyektlərinin tikintisindən gedir... söhbət, Azərbaycan kəndlərinin simasının əsaslı şəkildə dəyişdirilməsindən gedir." (Kommunist qəzeti, 1979)

XX əsrin 70-80-ci illərində, Azərbaycan kəndlərində mədəniyyətin ən yüksək inkişaf səviyyəsinə çatdığı həmin dövrdə Azərbaycan xalqı daha çox mütaliə etməyə başladı, mədəni baxımdan daha zəngin və maariflənmiş bir cəmiyyətə çevrildi. Azərbaycanda baş verən bu yüksək mədəni tərəqqini, xarici ölkələrdən olan tarixçilərin də qeyd etməsi ölkənin mədəni inkişafının və xalqın ümumi maariflənməsinin beynəlxalq səviyyədə tanındığını göstərir. Məşhur polyak tarixçiləri B.Baranovski və K.Baranovski Azərbaycanda mədəni inkişafın ən yüksək zirvəsinin məhz 1970-ci illərə təsadüf etdiyini xüsusi olaraq vurğulamışdılar (Baranovski, 1987, s.236).

Ulu öndər Heydər Əliyevin kino sahəsinin inkişafı üçün verdiyi qərarlar nəticəsində 1976-1980-ci illər arasında Azərbaycanda 140 yeni kinoteatr və kinoqurğusu tikilmiş, 1980-ci ildə isə 45 yeni kinoqurğu istifadəyə verilmişdi. 1981-ci ildə, Bakıda 99 klub, 176 kütləvi və uşaq kitabxanası, 29 muzey və şəkil qalereyası, 8 dövlət teatrı, 9 mədəniyyət və istirahət parkı, 33 musiqi məktəbi, 25

kinoteatr, 6 yaradıcılıq ittifaqı və 2 yaradıcılıq cəmiyyəti fəaliyyət göstərirdi (Qasımlı, 2006, s.91). Bu statistikalar, şəhərin mədəniyyət həyatının zənginləşdiyini və müxtəlif sahələrdəki inkişafını göstərirdi.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu 1969-1982-ci illər ərzində respublikada 1155 yeni kitabxana və 1316 klub binası tikilərək xalqın istifadəsinə verilmişdi. Heydər Əliyev belə demişdi: "Əldə edilən nailiyyətlər o qədər böyükdür ki, bunlar mədəni inqilabın ilk addımlarının kiçik göstəriciləri ilə müqayisə oluna bilməz." (Əliyev, 1981, s.81).

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 70-80-ci illərdə Azərbaycanda mədəni-maarif müəssisələrinin geniş şəbəkəsi yaradıldı, kəndlərdə mədəni səviyyə yüksəldi və ali təhsilli mədəni-maarif mütəxəssisləri ilə təmin olundu. Bu isə əhalinin həyat səviyyəsinin yaxşılaşmasına səbəb oldu. Heydər Əliyev sonradan qeyd edirdi: "... 70 il ərzində xalqımız öz milli mənliyini, dilini, hətta dini yasaq olunsa da, dinini də itirməmişdir. Bu dövrün imkanlarından istifadə edən Azərbaycan xalqı elmini, təhsilini və mədəniyyətini yüksək zirvəyə qaldırmışdır." Bu sözlər Azərbaycanın gələcək istiqlalının təməl prinsiplərini ortaya qoyur və bu inkişafın həmin dövrdəki mühüm rolu olduğunu göstərir. Həqiqətən də, bu müsbətyönümlü dəyişikliklər Azərbaycanın müstəqilliyinə doğru gedən yolun əhəmiyyətli bir hissəsini təşkil etmişdir.

**Ədəbiyyat:**


Azərbaycan SSR-in 1975-ci il Dövlət büdcəsi və Azərbaycan SSR-in 1973-cü il büdcəsinin yerinə yetirilməsi haqqında. - «Kommunist» qəzeti, 1974, 28 dekabr, №303 (15823).

Əliyev, H.Ə. (1997) Müstəqilliyimiz əbədidir. IV kitab, –Bakı: Azərnəşr, –528 s.(s.426.)

Əliyev, H.Ə. (1981) Sovet Azərbaycanı. Bakı: Azərnəşr.

Əliyev, H.Ə. (2001) Mədəni irsimizin keşiyində, I kitab, Heydər Əliyev Fondu, Bakı.

H.Ə.Əliyevin Moskvada təhsil alan Azərbaycan tələbələri və aspirantları ilə görüşündəki nitqi. - «Kommunist» qəzeti, 1979, 5 dekabr, №277 (17316).

Hüseynova, İ. (2004) Müstəqil Azərbaycan dövlətinin qurucusu. –Bakı: Təhsil, –472 s.

Qasımlı M.C. (2006) Heydər Əliyev- istiqlala gedən yol (1969-1987-ci illər). –Bakı: Bakı Universiteti nəşriyyatı, –608 s.

Tədqiqatlar və mənbələr Azərbaycan Respublikasının tarixi (2003-2016). Azərbaycan Tarixçiləri İctimai Birliyi, Bakı 2016.

Zeynalov, İ.X. (2004) Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında, Azərnəşr, Bakı.

Zeynalov, İ.X. (2017) Totalitar sovet cəmiyyəti: Tarixin ibrət dərsləri, MMC, –Bakı: Ləman nəşriyyatı poliqrafiyası.

Zeynalov, İ.X. (2022) Azərbaycanın Milli-Mənəvi Dəyərləri İntibah Dövründə (1969-1982-ci illər), Akademik Tarih ve Düşünce Dergisi , C.9, S.3, s.606-625.

Baranovski, B., Baranovski, B. (1987) Historia Azerbejdzani. –Wroslaw, Zaklad Narodowy im Ossolinskich Wydawnietwo, –236 p.

# HEYDƏR ƏLİYEV FONDUNUN AZƏRBAYCANDA MƏDƏNİ VƏ HUMANİTAR SAHƏLƏRDƏ HƏYATA KEÇİRDİYİ LAYİHƏLƏR VƏ FƏALİYYƏTLƏR


**Mirzəxanlı Qənirə Eldəniz**

**Bakı Dövlət Universiteti**

**https://orcid.org/0009-0003-0312-4797**

**gannimir3@gmail.com**



**Rəyçi:**

**Səlimov Şirxan Dadaş oğlu,**

**Tarix elmləri doktoru, professor**



**Xülasə**

Heydər Əliyev Fondu Azərbaycanın mədəni və humanitar inkişafına mühüm töhfə verir. Fond, mədəni irsin qorunması, abidələrin bərpası və Beynəlxalq Muğam Festivalı kimi festivalların keçirilməsi ilə Azərbaycan mədəniyyətinin təbliğinə dəstək olur. Fond, təhsili dəstəkləyir, xüsusilə kənd yerlərində məktəbləri modernləşdirir və tələbələrə təqaüd verir. Səhiyyə sahəsində Fond xəstəxanalar tikir, mobil klinikalara dəstək verir və fiziki məhdudiyyətli insanlara yardım göstərir, tibbi xidmətlərin əlçatanlığını artırır. Fondun sosial və ekoloji proqramları az təminatlı ailələrə yardım və ətraf mühitin mühafizəsi təşəbbüslərini əhatə edir, ölkənin davamlı inkişafına töhfə verir.



**Keywords:** Heydər Əliyev Fondu, mədəni layihələr, humanitar fəaliyyətlər, Azərbaycan, irsin qorunması


# ПРОЕКТЫ И ДЕЯТЕЛЬНОСТЬ, ОСУЩЕСТВЛЯЕМЫЕ ФОНДОМ ГЕЙДАРА АЛИЕВА В КУЛЬТУРНОЙ И ГУМАНИТАРНОЙ СФЕРАХ АЗЕРБАЙДЖАНА


**Мирзаханлы Ганира Эльдениз**

**Бакинский государственный университет**

**https://orcid.org/0009-0003-0312-4797**

**gannimir3@gmail.com**



**Резюме**

Фонд Гейдара Алиева вносит значительный вклад в культурное и гуманитарное развитие Азербайджана. Он занимается сохранением культурного наследия, реставрацией памятников и проведением фестивалей, таких как Международный фестиваль мугама, что способствует популяризации азербайджанской культуры. Фонд поддерживает образование, предоставляя стипендии и модернизируя школы, особенно в сельских районах. В здравоохранении Фонд строит больницы, поддерживает мобильные клиники и оказывает помощь людям с ограниченными возможностями, улучшая доступ к медицине.Социальные и экологические программы Фонда включают помощь малообеспеченным семьям и инициативы по охране окружающей среды, способствуя устойчивому развитию страны.



**Ключевые слова:** Фонд Гейдара Алиева,культурные проекты, гуманитарная деятельность, Азербайджан,сохранение наследия

# THE PROJECTS AND ACTIVITIES CARRIED OUT BY THE HEYDAR ALIYEV FOUNDATION IN THE CULTURAL AND HUMANITARIAN FIELDS IN AZERBAIJAN

**Mirzakhanli Qanira Eldaniz**

**Baku State University**

**https://orcid.org/0009-0003-0312-4797**

**gannimir3@gmail.com**

Founded with the mission of preserving and promoting Azerbaijani heritage, the Heydar Aliyev Foundation has led numerous initiatives to enhance cultural and humanitarian landscapes within Azerbaijan and internationally. Its projects cover a wide range of areas, including heritage conservation, educational programs, healthcare initiatives, and intercultural diplomacy. Below are teasers that encapsulate the breadth and depth of the Foundation's work, each highlighting specific initiatives and their impact on Azerbaijani society and beyond.

**Cultural Heritage Preservation and Restoration.**The Heydar Aliyev Foundation has prioritized the preservation and restoration of Azerbaijani historical sites, recognizing these efforts as fundamental to national identity. Projects like the restoration of medieval mosques, palaces, and fortresses throughout Azerbaijan underscore the foundation's commitment to safeguarding historical landmarks.(Mammadov K., 2017) These endeavors not only protect the physical structures but also revitalize local communities by promoting tourism and fostering pride in Azerbaijan's cultural legacy. Through its meticulous attention to architectural details, the Foundation ensures that these sites are not only preserved but also accessible and educational for future generations. The Foundation has taken substantial steps to promote Azerbaijani arts, particularly through organizing and sponsoring art and music festivals. Events like the International Mugham Festival and Gabala International Music Festival attract global artists, musicians, and audiences, fostering an appreciation for Azerbaijan's musical heritage while facilitating cultural exchange.(Aliyeva A, 2018) These festivals not only celebrate traditional Azerbaijani art forms but also provide a platform for contemporary artists to showcase their work, thus creating a vibrant cultural landscape that bridges past and present.The Heydar Aliyev Foundation's dedication to educational development is evident through its extensive scholarship programs and school renovation projects. By offering scholarships to promising students from underprivileged backgrounds, the Foundation empowers young Azerbaijanis to pursue higher education, both domestically and internationally.(Hasanov, R., & Karimova, L., 2021) Additionally, the Foundation has overseen the renovation and modernization of numerous schools, particularly in rural areas, providing students with a conducive learning environment.

In the healthcare sector, the Heydar Aliyev Foundation has launched numerous projects aimed at improving the accessibility and quality of medical services across Azerbaijan.(Karimov F., 2019) From funding the construction of hospitals and clinics to providing mobile healthcare units in remote regions, the Foundation ensures that all Azerbaijani citizens have access to essential medical care. Its initiatives also include specialized programs for individuals with disabilities, ensuring inclusivity in healthcare. By addressing the healthcare needs of underserved communities, the Foundation plays a vital role in improving public health and wellbeing.Through various social welfare projects, the Foundation has become a pillar of support for Azerbaijan's most vulnerable

communities, including orphans, low-income families, and the elderly. Its programs provide essential resources, including food, housing, and educational support, to ensure that these individuals have access to basic necessities and opportunities for growth. (Ismayilov E., 2020)

The Heydar Aliyev Foundation has been instrumental in promoting intercultural dialogue through partnerships with cultural institutions worldwide. By collaborating on art exhibitions, historical publications, and joint cultural projects, the Foundation has successfully introduced Azerbaijani heritage to global audiences, fostering mutual understanding and respect. Initiatives such as "Azerbaijan Through the Lens" showcase the nation's beauty and heritage abroad, allowing the world to experience Azerbaijan's unique cultural identity.

**Conclusion: Lasting Impact and Future Prospects.**The Heydar Aliyev Foundation's diverse portfolio of cultural and humanitarian projects has significantly shaped Azerbaijani society, fostering a sense of national pride, promoting social welfare, and enhancing Azerbaijan's cultural presence on the global stage. Its comprehensive approach not only addresses immediate social needs but also lays the groundwork for a sustainable, prosperous future. As it continues to expand its initiatives, the Foundation remains a cornerstone of Azerbaijan's development, both culturally and socially.

**References:**

Alieva, A. (2018). Cultural Diplomacy in Azerbaijan: The Role of the Heydar Aliyev Foundation. Baku: Elm Publishing House.

Heydar Aliyev Foundation. Official website. Available at: [www.heydar-aliyev-foundation.org](http://www.heydar-aliyev-foundation.org)

Ismayilov, E. (2020). Post-Soviet Azerbaijan: Cultural Policy and Development Projects. Journal of Central Asian Studies, 15(2), 123-140.

Hasanov, R., & Karimova, L. (2021). Azerbaijan's Social and Humanitarian Projects in the 21st Century. Social Science Research Network.

Mammadov, K. (2017). The Impact of Heydar Aliyev Foundation's Educational Initiatives in Rural Azerbaijan.

Karimov, F. (2019). Azerbaijan Through the Lens: Cultural Initiatives Abroad. Baku: Caspian Publishers.

United Nations Development Programme (UNDP). (2022). Azerbaijan's Path to Sustainable Development: Social and Cultural Initiatives.

# GÜRCÜSTANIN MDB-DƏN ÇIXIŞI: SƏBƏB VƏ NƏTİCƏLƏRİN TƏHLİLİ

**Bağırova Ülviyyə Ibrahim**

**Bakı Dövlət Universiteti**

**https://orcid.org/0009-0008-4843-5448**

**bagirova-ulviya@mail.ru**

**Rəyçi:**
**Vəliyev Orxan Həsən oğlu,**
**Siyasi elmlər üzrə fəlsəfə doktoru**

**Xülasə**

2008-ci ildə Gürcüstanın Müstəqil Dövlətlər Birliyindən çıxması onun xarici siyasətində mühüm addım oldu. Bunun əsas səbəbi Gürcüstanın ərazi bütövlüyünün pozulması kimi qəbul etdiyi Cənubi Osetiya və Abxaziyanın müstəqilliyinin tanınmasından sonra Rusiya ilə münasibətlərin korlanması olub. MDB-də iştirak Gürcüstana ciddi iqtisadi və siyasi fayda gətirmədi, onun NATO və Aİ ilə inteqrasiya istəyi isə təşkilata üzvlüklə ziddiyyət təşkil edirdi. MDB-dən çıxmaq Rusiyanın təsirindən qopmağı simvolizə edən məntiqli addım idi. Bu qərarın nəticələrinə Rusiya ilə münasibətlərin korlanması daxil idi, lakin Gürcüstan iqtisadiyyatında dəyişikliklər minimal idi.

**Açar sözlər:** Gürcüstan, MDB, Rusiya, münaqişə, ərazi bütövlüyü

# ВЫХОД ГРУЗИИ ИЗ СНГ: АНАЛИЗ ПРИЧИН И ПОСЛЕДСТВИЙ

**Багирова Ульвия Ибрагим**

**Бакинский государственный университет**

**https://orcid.org/0009-0008-4843-5448**

**bagirova-ulviya@mail.ru**

**Резюме**

В 2008 году Грузия вышла из Содружества Независимых Государств, что стало важным шагом в её внешней политике. Основной причиной этого стало ухудшение отношений с Россией после признания независимости Южной Осетии и Абхазии, что Грузия восприняла как нарушение своей территориальной целостности. Участие в СНГ не принесло Грузии значительных экономических или политических выгод, а её стремление к интеграции с НАТО и ЕС противоречило членству в организации. Выход из СНГ стал логичным шагом, символизируя разрыв с российским влиянием. Последствия этого решения включали ухудшение отношений с Россией, но для экономики Грузии изменения оказались минимальными.

**Ключевые слова:** Грузия, СНГ, Россия, конфликт, территориальная целостность

# GEORGIA'S EXIT FROM THE CIS: AN ANALYSIS OF THE CAUSES AND CONSEQUENCES

**Baghirova Ulviyya Ibrahim**

**Baku State University**

**https://orcid.org/0009-0008-4843-5448**

**bagirova-ulviya@mail.ru**

After the collapse of the Soviet Union in December 1991, the Commonwealth of Independent States (CIS) was established to facilitate coordination and cooperation among the newly independent republics. All post-Soviet states joined, including Georgia, which at that time was beginning to shape its foreign policy in the context of political and economic instability. The issue of Georgia's withdrawal from the CIS and its consequences remains crucial for understanding the country's subsequent path in international relations. However, before analyzing the reasons and consequences of this important step, it is essential to look back at the events of the 1990s, when Georgia, despite its aspiration for independence, became a member of the CIS.

**Georgia's Accession to the CIS.**After the collapse of the Soviet Union in 1991, most of the former Soviet republics immediately joined the newly formed Commonwealth of Independent States (CIS). However, Georgia joined the CIS later, in December 1993, against the backdrop of a difficult domestic situation, an economic crisis and armed conflicts, including in Abkhazia and South Ossetia. (Турарбекова Р., Каличава А., 2019)The reasons for Georgia's accession to the CIS were multifaceted. The economic and political instability in the country that arose as a result of the collapse of the USSR required external support. Close cooperation with its CIS neighbors was seen as a way to stabilize the situation, restore the economy and ensure security in the face of multiple internal and external threats. An important factor was also Georgia's desire to regain control over its territories, primarily Abkhazia and South Ossetia, which by that time had fallen under the control of separatist forces. In November 1993, Eduard Shevardnadze, then Chairman of the Georgian Parliament, noted that the country had "no other choice" than to join the CIS in order to strengthen its political and economic position.(Муханов В.,2023) However, despite initial hopes, Georgia's participation in the CIS did not live up to expectations. From the very beginning, cooperation with the CIS was marred by contradictions, especially over issues of territorial integrity. Georgia did not receive significant support in resolving the conflicts in Abkhazia and South Ossetia, which soon became obvious to the Georgian leadership. In addition, worsening relations with Russia, which actively supported separatist forces in these regions, made Georgia's stay in the CIS meaningless. It soon became clear that the Russian-dominated organization could not ensure Georgia's interests, which ultimately led to the decision to leave the CIS in 2008.

The turning point in Georgia’s relations with the CIS came in August 2008, when a military conflict broke out between Georgia and Russia—commonly referred to as the Five-Day War (August 8-12).The cause of this conflict was the armed crisis in South Ossetia, which escalated into full-scale hostilities after Georgia launched a military operation to regain control over South Ossetia. In response, Russia sent its troops into Georgia, which led to Russia's recognition of the independence of South Ossetia and Abkhazia - two regions that were under the control of separatists at the time.(Силаев Н.Ю., 2009) This event became one of the main factors that

prompted Georgia to leave the CIS in 2009. The formal step for leaving was the announcement of termination of participation in the organization in the summer of 2009.

The main reason for Georgia's withdrawal from the CIS was Russia's military aggression and recognition of the independence of South Ossetia and Abkhazia, which Georgia perceived as a violation of its territorial integrity. In this context, Russia's participation in the CIS peacekeeping missions, as well as its active intervention in Georgia's affairs, were perceived as not only ineffective, but also frankly anti-positive for the Georgian side. As a result of these events, Georgia, which had been oriented toward integration with the West since the early 2000s, finally turned away from the CIS and continued its course toward joining NATO and the European Union.In addition, an important factor in the decision to leave the CIS was Georgia's growing dissatisfaction with the organization as such. In conditions where the CIS was unable to offer Georgia effective support in resolving its territorial conflicts, and Russia's dominance within the CIS only increased its political dependence, Georgia's desire to develop relations with the West became more obvious.(Panacheda M., & Rutowicz M., 2008) However, despite this step, Georgia declared its readiness to maintain bilateral relations with the CIS states, focusing on the principles of sovereignty and territorial integrity, which underlines its commitment to international norms, despite the break with the organization.

As for the consequences of the exit, the most noticeable was the aggravation of the already difficult Russian-Georgian relations. The exit from the CIS had virtually no effect on the Georgian economy, since economic dependence on Russia had already been significantly reduced at that time.(Папава В., 2012) However, for Georgian citizens, this step had consequences in terms of visa and migration issues, since travel to Russia became more difficult, while for citizens of the EU and other Schengen countries, visa procedures remained much more accessible.

Thus, although Georgia's exit from the CIS was an important international event, in the context of the ineffectiveness of the organization itself and the lack of Russian interests in it, it did not have a significant impact on the country's economy.

**References:**

Муханов, В. (2023) Российско-грузинские отношения в контексте исторической памяти. Россия и новые государства Евразии, № IV (LXI), с. 200-216.

Папава, В. (2012) Экономическая составляющая российско-грузинского конфликта // Кавказ и глобализация. №1.

Силаев, Н.Ю. (2009) Итоги августовской войны для Кавказа / Н.Ю. Силаев // Центральная Азия и Кавказ.–№ 3 (63).

Турарбекова, Р., Каличава, А. (2019) Становление внешней политики грузии: ключевые факторы (1991-2003 гг.).Журнал международного права и международных отношений. № 3-4 (90-91). с. 60-68.

Panacheda M., & Rutowicz M. (2015) The Russian-Georgian War: Political and economic consequences after 2008. WSOWL. Wroclaw, –p.199-218

## AZƏRBAYCANDA MƏTNŞÜNASLIQ ELMİ İLƏ BAĞLI MÜASİR TEXNOLOJİ YENİLİKLƏR

**Nuriyev Novruz Ağagül**

**Azərbaycan Milli Elmlər Akademiyası**

**novruznuriyev90@gmail.com**

**https://orcid.org/0000-0003-0892-8041**

**Rəyçi:**

**Həsənov Rəfail Musa oğlu,**

**Sosiologiya üzrə elmlər doktoru, professor**

**Xülasə**

Azərbaycanda elm tarixi, xüsusən də mətn mənbələri kontekstində onun qədim, orta əsrlər və erkən müasir dövrlərində dərin köklərə malikdir. Bütün bu dövrlərdə Azərbaycan alimləri elmin müxtəlif sahələrinə, o cümlədən riyaziyyata, astronomiyaya, tibbə, fəlsəfəyə və s. dair bir çox əlyazma qaynaqları miras qoymuşlar. Məruzədə həmin əlyazma qaynaqlarının araşdırılması və tədqiqi ilə bağlı müasir vəziyyət təhlil edilir. Əlyazma sisteminin müasir kodlaşdırmadakı rolu haqqında da məlumat verilir.

**Açar sözlər:** əlyazma, tekstologiya, texnologiya, tarix, Şərq, Azərbaycan.

## СОВРЕМЕННЫЕ ТЕХНОЛОГИЧЕСКИЕ ИННОВАЦИИ, СВЯЗАННЫЕ С ТЕКСТОЛОГИЧЕСКОЙ НАУКОЙ В АЗЕРБАЙДЖАНЕ

**Нуриев Новруз Агагюль**

**Национальная Академия Наук Азербайджана**

**novruznuriyev90@gmail.com**

**https://orcid.org/0000-0003-0892-8041**

**Резюме**

История науки в Азербайджане, особенно в контексте текстовых источников, имеет глубокие корни в древнем, средневековом и раннем Новом времени. Во все эти периоды азербайджанские учёные изучали различные области науки, в том числе математику, астрономию, медицину, философию и т.д. унаследовали следующим покалениям многие рукописные источники. В отчете анализируется текущая ситуация с исследованием и изучением этих рукописных источников. Также дается информация о роли системы рукописного письма в современном кодировании.

**Ключевые слова:** рукопись, текстология, технология, история, Восток, Азербайджан.

# MODERN TECHNOLOGICAL INNOVATIONS RELATED TO THE SCIENCE OF TEXTUAL SCIENCE IN AZERBAIJAN

**Nuriyev Novruz Agagul**

**Azerbaijan National Academy of Sciences**

**novruznuriyev90@gmail.com**

**https://orcid.org/0000-0003-0892-8041**

In recent years, Azerbaijan has embraced a range of technological innovations that are transforming the study, preservation, and analysis of textual science. Leveraging advancements in digital technology, artificial intelligence, and data science, Azerbaijani researchers and institutions are working to preserve historical texts, enhance language processing, and contribute to knowledge management in the digital era.

**Digital Archiving and Preservation**

Azerbaijani institutions, such as the National Library of Azerbaijan and Azerbaijan National Academy of Sciences (ANAS), have digitized extensive collections of historical manuscripts, books, and journals. Through projects like the "Digital Memory of Azerbaijan," these efforts help preserve historical documents and make them accessible to a global audience. Many large libraries in Azerbaijan have been preparing for modernization for almost 10 years, are building an electronic library system, enter the basic form for an electronic library (Jafarov, 2011, pp. 50-60).

Historical documents, especially those from the medieval period, are being digitized to protect them from deterioration.

**Artificial Intelligence (AI) in Textual Analysis**

Optical Character Recognition technology has been developed to recognize and convert text from Azerbaijani, Arabic, and Persian script (as used historically in Azerbaijan) into machine-readable text. This technology has been adapted for the unique characteristics of historical Azerbaijani scripts, allowing scholars to analyze and search these texts more efficiently.

Natural Language Processing tools are increasingly applied to Azerbaijani texts to perform tasks such as text classification, sentiment analysis, and automatic translation. Natural Language Processing models trained specifically for the Azerbaijani language, with dialectal and historical adaptations, help analyze both contemporary and historical texts, facilitating linguistic and cultural studies. Researchers in Azerbaijan have been building comprehensive text corpora of the Azerbaijani language. These databases include historical and contemporary texts and are crucial for developing language technologies like machine translation, grammar checkers, and automatic summarization tools. Azerbaijani linguists use computational tools to analyze dialectal variations across the country. With the help of machine learning algorithms, they can map language patterns, changes in vocabulary, and regional linguistic trends, creating digital resources that document the diversity of Azerbaijani language.

Through these technological advancements, Azerbaijan is making significant strides in the study and preservation of its textual heritage. These initiatives not only preserve Azerbaijani cultural and scientific texts but also open up new avenues for global academic collaboration and research in the

field of digital humanities.

**References:**

Jafarov J. (2011). Development perspectives of electronic catalogs in azerbaijan libraries. Information society problems, No. 2(4), pp. 50-60

How are rare manuscripts preserved? (2022). – REPORT.

URL: https://azertag.az/xeber/nadir_elyazmalar_nece_qorunur___reportaj-2409506

# GREEN WORLD: COMMUNITY PARTICIPATION AND SOCIAL EQUALITY

**Shamilzada Gunel**

**Azerbaijan State Pedagogical University**

**shemilzade.gunel@sdu.edu.az**

**Rəyçi:**

**Həsənov Rəfail Musa oğlu,**

**Sosiologiya üzrə elmlər doktoru, professor**

## Abstract

In the "Azerbaijan 2021: National Priorities for socio-economic development"approved by the Order of the president of the Republic of Azerbaijan Mr. Ilham Aliyev dated February 2, 2030, one of the five national priorities for the socio-economic development of the country in the next decade is that Azerbaijan is a country of clean environment and “green growth”. Everyone knows that the approach that takes into account the economic aspects of achieving sustainable development goals is a “green economy”. The term” green economy " is defined as an economy that ensures human well-being and social justice and, at the same time, sharply reduces environmental risks. One of the important programs for the future development of independent Azerbaijan is modern industrialization. In recent years, a successful industrialization policy implemented in accordance with the requirements of the new era has further accelerated the industrialization of a sustainable economy. Today, the focus is on reducing the dependence of the country's economy on the oil factor, increasing the complexity in the development of the non-oil sector, its deep integration into the world economy, stimulating the production of environmentally friendly technologies that save energy and resources, and the functioning of individual sectors of the industry in harmony with each other. As a result of economic development, on the one hand, there is a demand for energy from technological innovations, and on the other hand, an increase in the volume of household and industrial waste and wastewater. At present, such issues as the management of these areas, the protection of the environment, the survival of people in healthy natural conditions, the fuller use of natural resources for the benefit of the world's population are the main priorities.

**Keywords:** development, ecosystem, integration, green economy, energy, innovation, post-industry

# ЗЕЛЕНЫЙ МИР: УЧАСТИЕ ОБЩЕСТВА И СОЦИАЛЬНОЕ РАВЕНСТВО

**Шамилзаде Гюнель**

**Азербайджанский государственный педагогический университет**

**shemilzade.gunel@sdu.edu.az**

**Резюме**

В "Азербайджан 2030: национальные приоритеты социально-экономического развития", утвержденном Распоряжением Президента Азербайджанской Республики Ильхама Алиева от 2 февраля 2021 года, одним из пяти национальных приоритетов, определенных в отношении социально-экономического развития страны в следующем десятилетии, является то, что Азербайджан является страной чистой окружающей среды и “зеленого роста”. Общеизвестно, что подход, учитывающий экономические аспекты достижения Целей устойчивого развития, - это “зеленая экономика”. Термин "зеленая экономика" определяется как экономика, которая обеспечивает человеческое благополучие и социальную справедливость, а также резко снижает экологические риски. Одной из важных программ, связанных с дальнейшим развитием независимого Азербайджана, является современная индустриализация. Успешная политика индустриализации, проводимая в последние годы в соответствии с требованиями новой эры, еще больше ускорила индустриализацию устойчивой экономики. Сегодня в центре внимания снижение зависимости экономики страны от нефтяного фактора, повышение комплексности в развитии ненефтяного сектора, достаточно глубокая интеграция в мировую экономику, стимулирование производства энергоэффективных и ресурсосберегающих экологически чистых технологий, слаженное функционирование отдельных отраслей промышленности. В результате экономического развития, с одной стороны, наблюдается потребность технологических инноваций в энергии, а с другой-увеличение объема бытовых и промышленных отходов, сточных вод. В настоящее время основными приоритетами являются такие вопросы, как управление этими областями, охрана окружающей среды, выживание людей в здоровых природных условиях, более полное использование природных ресурсов на благо населения мира.

**Ключевые слова:** развитие, экосистема, интеграция, зеленая экономика, энергетика, инновации, постпромышленность

## YAŞIL DÜNYA: CƏMİYYƏTİN İŞTİRAKI VƏ SOSİAL BƏRABƏRLİK

**Şəmilzadə Günel**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

**shemilzade.gunel@sdu.edu.az**

Səmərəli resurs idarəetmə sistemləri və iqlim dəyişikliyi məsələlərini nəzərə alan istehsal infrastrukturu dedikdə iqtisadi, sosial və ekoloji balansın qorunmasını təmin edən elementlər başa düşülür. Bura şəhərlərdə bərpa oluna bilən enerji növlərindən istifadə, enerji və xammal səmərəliliyinin artırılması, suyun keyfiyyətinin və dayanıqlılığının təmin edilməsi və tullantıların ağıllı idarə edilməsi məsələləri daxildir. “Yaşıl nəqliyyat” və rabitə sistemləri özlüyündə 72 çirklənməni, təhlükəsiz, kəsintisiz nəqliyyat və rabitə xidmətlərini, eləcə də infrastrukturlararası inteqrasiya edilmiş mobilliyin təmin edilməsini nəzərdə tutur. Davamlı məskunlaşmanı nəzərdə tutan yaşayış infrastrukturu bərpa olunan enerji mənbələrindən istifadəyə imkan verən, istehlak tullantıların azaldılmasına və təkrar emalına şərait yaradan dayanıqlı urbanizasiya məsələlərini ehtiva edir.

“Yaşıl iqtisadiyyat” əmtəələrin və xidmətlərin istehsalı, bölgüsü və istehlakı ilə bağlı olan iqtisadi fəaliyyətlərin elə bir sistemidir ki, burada gələcək nəsilləri ciddi ətraf mühit riskləri və ekoloji çatışmazlıqlarla qarşı-qarşıya qoymadan uzunmüddətli rifah artımına və davamlı iqtisadi inkişafa nail olunur. “Yaşıl iqtisadiyyat” həm də davamlı inkişafa və ekoloji iqtisadiyyat biliklərinə əsaslanan bir iqtisadi inkişaf modelidir. Hazırda qlobal problemlərdən biri də olan iqlim dəyişiklikləri və onların canlı aləmə təsiri dünya birliyini getdikcə daha çox narahat etməkdədir. Ölkəmiz də qlobal iqlim dəyişmələrinin təsirindən kənarda qalmamışdır. Kənd təsərrüfatı, su resursları, enerji, meşə, turizm, səhiyyə sektoru və sahilyanı zonaları Azərbaycanda iqlim dəyişikliyinə həssasdır. Bu problemə qarşı mübarizədə diqqətin artması, beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında 25 dekabr 2023-cü il tarixdə sərəncam imzalayıb. Bu sərəncam Azərbaycanın qlobal təşəbbüslərə ilk qoşulan ölkələrin sırasında olduğunu bir daha sübut edir. Digər tərəfdən dövlət başçısının 2024-cü ili “Yaşıl dünya naminə həmrəylik ili” elan etməsi bütün il ərzində bu sahədə fəaliyyətin genişləndirilməsi və ətraf mühitin qorunması istiqamətində görüləcək işlərin xeyli dərəcədə intensivləşəcəyindən xəbər verir. Sərəncamda Azərbaycan Respublikasının beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verdiyi qeyd olunur.

Bildirilir ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Yaşıl iqtisadiyyat modelinin qurulması şübhəsiz ki, ölkənin iqtisadi inkişafı ilə müəyyən səviyyədə bağlıdır. Daha yüksək inkişaf etmiş ölkələrin belə iqtisadi modelə keçid imkanları da geniş olur. Lakin yaşıl iqtisadi model quruculuğu cəmiyyətin bütün sosial qruplarının, iqtisadi subyektlərin, dövlət və özəl sektorun əməkdaşlığının və bütünlükdə dövlətin beynəlxalq təşkilatlarla əməkdaşlığının genişləndirilməsini tələb edir. Yaşıl iqtisadiyata keçidin zəruriliyi və hətta qaçılmaz olması üç əsas səbəbdən irəli gəlir. Onlardan birincisi ərazisi məhdud olan hər hansı bir yerdə, o cümlədən Yer kürəsində, insanın ətraf mühitə təsirinin daimi genişlənməsi və güclənməsinin

mümkün olmaması ilə bağlıdır. Kosmos və okean dərinliklərinin hesabına təsir imkanlarının artırılması da hazırkı mərhələdə və yaxın gələcəkdə çox məhduddur.

İkinci səbəb ondadır ki, Yer kürəsində bərpa olunmayan təbii ehtiyatlar tükənməz deyil. Əhalinin sayının daimi artdığı, onların tələ- batlarının genişləndiyi şəraitdə, bu tələbatların ödənilməsi və mövcud olan nemətlərin ədalətli bölünməsi böyük problemə çevrilir. Eyni zamanda nəzərə alınmalıdır ki, Yer kürəsində insanın fəaliyyəti nəticəsində baş verən hər hansı bir neqativ proses digər yerlərdə, o cümlədən uzaq məsafələrdə də öz təsirini göstərir. Beləliklə, aydın olur ki, bəşəriyyət müasir dövrdə üzləşmiş ekoloji, sosial və iqtisadi problemlərin həlli üçün yeni yanaşmalardan istifadə etməlidir. Belə yanaşmalara bu tədqiqatda təklif edilmiş ekoloji sivilizasiya və yaxud ekosivil konsepsiyasıdır. Yaşıl əmək fəaliyyəti, yaşıl təfəkkür və yaşıl həyat tərzi ekoloji sivilizasiyanın əsas komponentidir. Yaşıl əmək fəaliyyətinin və bu sahədə bilik və bacarığın hansı dərəcədə əhəmiyyətli olması, ilk növbədə, təbii ehtiyatlardan səmərəli istifadə edilməsinin təhlilindən aydın olur. Məsələn, məlumdur ki, hər hansı bir ölkənin iqtisadiyyatının vəziyyəti istehsal olunan məhsul və xidmətlərin dəyəri ilə müəyyən edilir. Bu, milli məhsul kimi çıxış edir və onun həcminin yüksək olması ölkə iqtisadiyyatının inkişafından xəbər verir. Məlum olduğu kimi, bizim ölkədə ümumi daxili məhsul hər il artmaqdadır. Azərbaycanda bu artım hətta dünyada iqtisadi böhran sürən dövrdə belə müşahidə edilmişdir. Ümumi daxili məhsulun həcmi adətən ABŞ dolları ilə göstərilir. Bu, müxtəlif ölkələrdə əldə edilmiş nəticələri müqayisə etmək imkanı yaradır. Lakin bu mütləq göstərici ilə yanaşı, milli məhsulun əldə edilməsi üçün sərf edilən enerji də qiymətləndirilə bilər. Beynəlxalq statistikada istifadə edilən bu əsasında qurulması və bu səviyyədə çalışa bilən işçi quvvəsinin peşəkarlığından xəbər verir.

Müasir dövrdə ölkə iqtisadiyyatının modernləşdirilməsi, innovativ inkişafı, rəqabət qabiliyyətinin yüksəldilməsi, enerji səmərəliliyinin təmini, ilk növbədə, iqtisadi artıma istiqamətləndirilsə də, əslində əsas məqsəd hər bir cəmiyyət üzvünün həyat şəraitinin yaxşılaşdırılması, budcənin neft-qaz resurslarından asılılığının əhəmiyyətli dərəcədə azaldılması, qeyri-neft sektorunu inkişaf etdirməklə gələcək nəsillərin davamlı və dayanıqlı normal rifah şəraitinin təmin edilməsidir. Bu problem hazırda formalaşmaqda olan rəqəmsal iqtisadiyyatın yeni prinsiplər əsasında davamlı və dayanıqlı inkişafının təmin olunması kimi müəyyənləşdirilib.

Məlum olduğu kimi, Azərbaycanda ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram 2003-cü ildə qəbul edilib. Həmin proqramın məntiqi davamı kimi qəbul edilən "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasının, həmçinin "İnformasiya cəmiyyətinin inkişafına dair 2014-2020- ci illər üçün Milli Strategiya"nın, milli iqtisadiyyatın perspektiv inkişafı üzrə strateji yol xəritələrinin də əsas hədəflərindən biri ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, cəmiyyətin rəqəmsallaşmasına, iqtisadiyyatın yaşıllaşdırılmasına, alternativ və bərpaolunan enerji mənbələrindən səmərəli istifadə proseslərinin daha da sürətləndirilməsinə nail olmaqdır. Hazırda dünyanın əksər ölkələrində iqtisadi artım antropogen və texnogen proseslər nəticəsində ətraf mühitin pisləşməsi, təbii balansın pozulması, çirklənmə səviyyəsinin artması, təbii resurslardan israfçılıqla istifadə, biosferin normal mühafizəsinin pozulması və iqlim dəyişikliyi kimi mənfi təzahürlərlə müşahidə olunur. Bunlar isə, insan sağlamlığına zərər vurur və sonrakı nəsillərin normal inkişafına mane olur. Başqa sözlə, insanın rifah halının yüksəlməsinə xidmət etməli olan iqtisadiyyat, onun həyatının yaxşılaşmasına əngəl olur və sağlamlığını təmin etmir. Ona görə də yeni informasiya və biliklər cəmiyyəti şəraitində modernləşmənin istiqaməti iqtisadi inkişafı təmin edən elə mütərəqqi innovativ texnologiyalara yönləndirilməlidir ki, ətraf təbii mühitin münbitliyi və əlverişliliyi saxlanılsın və yaxşılaşdırılsın. Belə olan halda ekoloji təhlükəsizlik həm iqtisadi artım,

həm də insanın özünün daha yaxşı və sağlam mövcudluğu üçün həlledici amilə çevrilir. Bütün bu kimi problemlərin həlli müvafiq texnologiyaların geniş tətbiqi əsasında cəmiyyətin və iqtisadiyyatın həm rəqəmsal, həm də yaşıl transformasiyasını tələb edir.

Birləşmiş Millətlər Təşkilatının İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Ətraf Mühit Proqramı kimi beynəlxalq təşkilatlar yaşıl inkişafı və ya yaşıl iqtisadiyyatı ekoloji təhlükəsizliyi təmin edən mal və xidmətlərin istehsal və istehlakı kimi, həmçinin yaşıl inkişafa və texnologiyalara yatırılan investisiyaları nəzərdə tutan bir proses kimi qəbul edirlər. Beynəlxalq təşkilatlar yaşıl iqtisadiyyatın formalaşmasını daha çox qlobal maliyyə-iqtisadi böhrandan perspektiv çıxış istiqamətlərindən biri kimi nəzərdən keçirirlər. Yaşıl iqtisadiyyat konsepsiyası davamlı inkişaf konsepsiyasını tam əvəz etmir. Ancaq dayanıqlığın əldə olunması da, demək olar ki, iqtisadiyyatın düzgün formalaşmasından və yaşıllaşdırılmasından asılıdır. Yaşıllaşdırma prosesi prinsip etibarı ilə cəmiyyətin və iqtisadi inkişafin yeni mərhələsi kimi xarakterizə olunur. Yer kürəsində həyatın qorunması, uzunmüddətli inkişafın təmin edilməsi insanın iqtisadi fəaliyyətində yeni prioritetlərin formalaşmasını tələb edir. Onlardan ən əsasları ətraf mühit ilə qarşılıqlı əlaqədə olan, davamlı inkişafı təmin edən cəmiyyət üzvlərinin yaşıl həyat tərzi, yaşıl təfəkkürü, yaşıl düşüncəsi və yaşıl intellektdir. Bu istiqamətdə yaşıl iqtisadiyyatın formalaşması həm ətraf mühitin qorunmasının, həm də mövcud olan təbii ehtiyatlara və biliyə əsaslanan uzunmüddətli inkişafın təmin edilməsinin əsas yoludur. Yaşıl iqtisadiyyatın formalaşması ilə əlaqədar Azərbaycandakı vəziyyətlə tanışlıq göstərir ki, burada davamlı inkişafın bir komponenti kimi yaşıl iqtisadiyyatın qurulması istiqamətində uğurlu siyasət həyata keçirilir. Azərbaycan yaşıl iqtisadiyyatın inkişafı üçün güclü potensial imkanlara malikdir. Lakin mövcud zəif tərəflər və təhlükələr də yaşıl iqtisadiyyatın inkişafını ləngidir. Hazırda yaşıl iqtisadiyyatın sistem yaradan paradiqması – insan kapitalının inkişafı Azərbaycanda dövlətin iqtisadi siyasətinin təməlini təşkil edir. Bu siyasət çərçivəsində həyata keçirilən yoxsulluqla mübarizə, davamlı inkişaf, regionların sosialiqtisadi inkişafı, ərzaq və enerji təhlükəsizliyi, təhsil, informasiya və kommunikasiya texnologiyaları və s. kimi kompleks proqramların icrası nəzərdə tutulan hədəflərin yerinə yetirilməsini təmin edəcəkdir. Azərbaycan yaxın keçmiş olan 1990 il ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürüb. Qlobal dünyamızın strateji mövqeyə malik ən əsas ölkələrindən biri kimi iqlim dəyişmələrinin və ekoloji pozuntuların fəsadlarına qarşı mübarizəyə öz töhfəsini vermək əzmindədir. 2020-ci ildə erməni işğalından azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası “yaşıl enerji zonası” elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritet məsələlərdəndir. Həmin ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir və zəruri ekosistem formalaşdırılır. Bütövlükdə isə, yaşıl enerji növlərinin yaradılması və onun dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Təsadüfi deyil ki, ölkəmiz elektrik enerjisi istehsalının ümumi həcmində bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsi kimi dəyərləndirilməlidir. Bu istiqamətdə həm Azərbaycanda, həm də digər ölkələrin iqlim dəyişmələrinə qarşı qlobal mübarizəsində beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə 2024-cü il respublikamızda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. Bununla əlaqədar ölkəmizin alim və mütəxəssisləri, yaradıcı insanları, başqa sözlə, hər bir şəxs və qurum bu böyük qlobal planetar əhəmiyyətə malik işlərin həyata keçirilməsində yaxından iştirak etməkdədir. Bir faktı da vurğulayaq ki, cəmiyyətin və

iqtisadiyyatın yaşıllaşdırılmasında rəqəmsallaşmanın, rəqəmsal texnologiya və transformasiyaların çox böyük potensial imkanları olduğuna görə cəmiyyətin iqtisadi inkişafında yaşıl və rəqəmsal transformasiyalar paralel olaraq qarşılıqlı əlaqədə inkişaf və tətbiq olunmalıdır.

Təsadüfi deyil ki, son onilliklərdə qəbul olunan inkişaf konsepsiyalarında və milli strategiyalarda ətraf mühit problemlərinin həllində İKT amilinə böyük diqqət yetirilib. Yeri gəlmişkən, İKT sektorunun Azərbaycandakı inkişaf prosesinin 2025-ci ildən sonrakı dövrlərdə də müntəzəm olaraq davam etdirilməsi planlaşdırılır. Uzunmüddətli perspektivdə yaşıl və rəqəmsal iqtisadiyyatla bağlı hədəf-baxışın icrasını təmin etmək məqsədilə innovasiya yönümlü texnoloji-ekoloji savadlılıq səviyyəsi yüksəldiləcək, orta, peşə təhsili müəssisələrində və universitetlərdə istedadlı şagird-tələbələrin hazırlanmasına xüsusi diqqət yetiriləcək. Texnoloji-ekoloji savadlılığın artırılması və yaşıl innovativ düşüncə tərzinin inkişaf etdirilməsi məqsədilə universitetlərin və müvafiq məktəblərin tədris proqramlarına əlavə dərslər daxil ediləcəkdir. Xatırladaq ki, yaşıl innovativ texnologiyaların rəqəmsallaşması ilə əlaqədar olan bu kimi proseslər Azərbaycanın 2030-cu ilə qədər Sosial-iqtisadi inkişafı üzrə Milli Prioritetlərində də əksini tapıb. 2030-cu illədək ölkənin sosial-iqtisadi inkişafına dair müvafiq Milli Prioritetlərin icrası reallaşdırılmalıdır.

Başqa sözlə, dayanıqlı artan rəqabət qabiliyyətli iqtisadiyyat və dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət qurulmalıdır. Bu müddətdə rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı da formalaşdırılmalıdır. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış həyata keçirilməklə təmiz ətraf mühit yaradılmalıdır. Bununla yanaşı, ölkədə təmiz ətraf mühitin rəqəmsallaşmasına və yaşil iqtisadi artıma nail olmaq istiqamətində qlobal iqlim dəyişikliklərinin miqyası nəzərə alınaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Bu, istilik effekti yaradan qaz emissiyasını beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə ola bilər. Sonda onu da qeyd edək ki, uzunmüddətli iqtisadi inkişafın və ekoloji tarazlığın təmin edilməsində informasiya və bilik cəmiyyətinin, İKT-nin qarşısında ümumən bir çox problemlər durur. Bu sahədə əsas məsələlərdən biri yaşıl iqtisadiyyat texnologiyalarının işlənilməsi və tətbiqi ilə bağlıdır. Ona görə də Azərbaycan iqtisadiyyatı və cəmiyyəti, ilk növbədə, postsənaye iqtisadiyyatının yaşıllaşdırılması texnologiyalarından ən səmərəli formada istifadə etməlidir. Bununla yanaşı, iqtisadiyyatın şaxələndirilməsi üsulu ilə qeyri-neft sektorunun inkişafına nail olunmalı, yüksək texnologiyaların geniş tətbiqi ilə informasiya və bilik iqtisadiyyatının özünün də yaşıllaşdırılması həyata keçirilməlidir.

**Ədəbiyyat:**

Əhmədova, G. Ə. (2016) Davamlı inkişaf və təhsil: nəzəriyyə və praktik yanaşmalar. Bakı: Nurlan Nəşriyyatı.

Əliyev, H. M. (2020). Ekoloji şəhərsalma: dayanıqlı infrastrukturun inkişafı. Bakı: Elm Nəşriyyatı.

Hüseynov, R. A. (2019) Azərbaycanın davamlı inkişaf konsepsiyası: təbii resursların qorunması və səmərəli istifadəsi. Bakı: İqtisad Universiteti Nəşriyyatı.

İsmayılov, Z. M. (2014). Ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizlik. Bakı: Bakı Universiteti Nəşriyyatı.

Qasımov, İ. A. (2017). Ətraf mühit problemləri və təbii ehtiyatların qorunması. Bakı: Nurlan Nəşriyyatı.

Quliyev, Q. F. (2015). Yaşıl texnologiyaların inkişafı və ekoloji tarazlıq. Bakı: Elm Nəşriyyatı.

Məmmədov, E. M. (2016). Azərbaycanın ekologiyası və təbiət elmləri: elmi nailiyyətlər və perspektivlər. Bakı: Elm Nəşriyyatı.

Məmmədova, Ş. K. (2020). Azərbaycanın ekoloji problemləri və onların həlli yolları. Bakı: Təhsil Nəşriyyatı.

Sadıqova, A. V. (2018). Şəhərsalma və ətraf mühitin mühafizəsi: Azərbaycan təcrübəsi. Bakı: Təhsil Nəşriyyatı.

# THE FORMATION OF PUBLIC OPINION AND ITS HISTORICAL CONTEXT

**Yusifzada Fidan Eldar**

**The Academy of Public Administration under the President of the Republic of Azerbaijan**

**https://orcid.org/0009-0004-0548-6131**

**fidanyusifzda@gmail.com**

**Rəyçi:**

**Mədədzadə Könül Mahir qızı,**

**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

In this thesis, I am trying to analyze the historical framework of the process of public opinion. Public opinion is one of the most dynamic spheres in which views and attitudes are formed by individuals and society about everything that surrounds them. Actually, its very real emergence is the result of social and political changes, and important events in history. It is for this reason that this thesis tries to analyze historical factors playing a major role in the development of public opinion and vice versa, the aftermath of this very process in society. More precisely, I try to outline how public opinion is related to the development of political thoughts and culture and how different sections of society take part in the formation of this opinion. The paper will further highlight how communication tools and mass media add to the building of public opinion. Finally, it is going to show how historical context becomes influential in the formation of public opinion and how important this opinion is in the managing of society and society's politics.

**Keywords:** public opinion, historical setting, social changes, communication, mass media.

# ФОРМИРОВАНИЕ ОБЩЕСТВЕННОГО МНЕНИЯ И ЕГО ИСТОРИЧЕСКИЙ КОНТЕКСТ

**Юсифзада Фидан Эльдар**

**Академия государственного управления при Президенте Азербайджанской Республики**

https://orcid.org/0009-0004-0548-6131

fidanyusifzda@gmail.com

**Резюме**

В этой статье мы постараемся исследовать процесс формирования общественного мнения в историческом контексте. Общественное мнение — это динамичная сфера, в которой формируются взгляды и отношения как отдельных личностей, так и общества к различным вопросам. Его фактическое возникновение является результатом социальных и политических изменений, а также важных исторических событий. В данной работе мы постараемся исследовать исторические факторы, играющие ключевую роль в формировании общественного мнения, а также влияние этого процесса на общество. В частности, мы рассмотрим, как общественное мнение связано с развитием политических идей и культуры, а также как различные слои общества участвуют в формировании этого мнения. Также в статье будет проанализирована роль коммуникационных средств и массовых информационных источников в развитии общественного мнения. В завершение мы обсудим, как исторический контекст влияет на формирование общественного мнения и его значение для управления обществом и политики.

**Ключевые слова:** общественное мнение, исторический контекст, социальные изменения, коммуникация, средства массовой информации.

# İCTİMAİ RƏYİN YARANMASI VƏ TARİXİ KONTEKST

**Yusifzadə Fidan Eldar**

**Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası**

**https://orcid.org/0009-0004-0548-6131**

**fidanyusifzda@gmail.com**

İctimai rəy cəmiyyətin üzvlərinin müəyyən məsələlərə dair ifadə etdikləri düşüncələr və münasibətlər toplusudur. Bu, sosial, siyasi və mədəni amillərin təsiri altında formalaşır. Müxtəlif amillərdən asılı olaraq, ictimai rəyin yaranması və inkişafı müxtəlif tarixi dövrlərdə fərqli şəkil almışdır. Əlbəttə, kütləvi informasiya vasitələri və sosial şəbəkələr ictimai rəyin formalaşmasında mühüm töhfələr vermişdir.

## İctimai rəyin yaranması

İctimai rəyin yaranması cəmiyyətin müxtəlif sosial təbəqələri arasında məlumat mübadiləsinin nəticəsidir. Xüsusilə media vasitəsilə yayılan məlumatlar, fərdlərin və qrupların münasibətlərini müəyyən edir. Sosial şəbəkələrin inkişafı ilə ictimai rəyin formalaşma prosesi indi daha sürətlə və daha geniş şəkildə həyata keçirilir (Yılmaz, 2012). İctimai rəyin formalaşması, həmçinin təhsil, din, mədəniyyət və iqtisadi amillərdən asılıdır. Məsələn, Azərbaycanın və Türkiyənin mövcud sosial və siyasi vəziyyətləri müxtəlif dövrlərdə ictimai fikrin inkişafını şərtləndirmişdir. Xüsusilə Sovet dövründə Azərbaycanda vətəndaşların düşüncəsinə dövlətin təsiri böyük olmuş və ictimai rəy, dövlətin təsiri altında formalaşmışdır. Lakin müstəqillikdən sonra bu dəyişmiş və müxtəlif fikirlər meydana gəlməyə başlamışdır (Rüstəmli, 2011).

## Tarixi kontekst

İctimai rəyin tarixi inkişafı, müxtəlif dövrlərdə baş verən sosial və siyasi dəyişikliklərlə sıx bağlıdır. Fransız İnqilabı (1789) və İngilis İnqilabı (1688) kimi tarixi hadisələr ictimai rəyin formalaşmasında böyük təsir göstərmişdir. Fransız İnqilabı dövründə fərdlərin siyasi iştirak etmə hüququ və vətəndaşlıq anlayışı daha geniş şəkildə yayılmışdır. Azərbaycanın müstəqilliyini əldə etməsi ilə ictimai rəy daha müstəqil şəkildə inkişaf etmiş və fərqli ideologiyaların rəqabət etməsinə şərait yaratmışdır. Sovet dövründə cəmiyyətin monolit ictimai rəyinə qarşı 1990-cı illərin əvvəllərində, xüsusilə Gənclik Hərəkatı və Azadlıq Hərəkatı kimi sosial hərəkatlar geniş ictimai müzakirələrin yaranmasına səbəb olmuşdur (Səfərov, 2008).

## Sosial və iqtisadi faktorlar

İctimai rəyin formalaşmasında sosial və iqtisadi amillər mühüm rol oynayır. Məsələn, sosial ədalətsizliklər və iqtisadi bərabərsizliklər cəmiyyətin müxtəlif təbəqələrində narazılığa səbəb olur və bu, ictimai fikrin inkişafını sürətləndirir. Marx və Engels (1848) öz məşhur əsərlərində sosial siniflərin qarşıdurmalarının ictimai rəyin formalaşmasında mühüm rol oynadığını vurğulamışdır. Eyni zamanda, Stiglitz (2012) iqtisadi bərabərsizliklərin və qlobal maliyyə böhranlarının ictimai rəyin dəyişməsinə necə təsir etdiyini izah etmişdir. Son bir neçə ildə Türkiyə və Azərbaycandakı iqtisadi dəyişikliklər və sosial mühitin təsiri ilə sosial hərəkatlar və etirazlar artmışdır. Məsələn, 2013-cü ildə Türkiyədəki Gezi Parkı hadisələri sosial medianın kütləvi etirazları təşkil etmək və ictimai rəyin formalaşmasında necə təsirli olduğunu göstərən yeni bir nümunə olmuşdur (Altuntaş, 2013). Bu baxımdan sosial media ictimai rəyin formalaşmasında yeni bir mərhələ açmışdır, çünki

insanlar daha çox insana çatıb, onların fikirlərini dəyişdirməyə imkan tapmışdır.

**Kütləvi media və ictimai rəy**

Kütləvi media, xüsusilə televiziya və qəzetlər ictimai rəyin formalaşmasında vacib rol oynamışdır. Türk alimlərindən olan Arslan (2015) qeyd edir ki, kütləvi informasiya vasitələri, dövlətin və ya güclü qrupların ideoloji təsiri altında ictimai rəyin yönləndirilməsinə imkan yaradır. Azərbaycan və Türkiyədə, xüsusən müstəqillik dövründə media, ictimai fikri formalaşdırmaq və müəyyən siyasi və sosial məsələlərə diqqət çəkmək üçün güclü bir alət olmuşdur (Məmmədov, 2016). Eyni zamanda, sosial şəbəkələr ictimai fikrin daha sürətlə yayılmasına və müxtəlif fikirlərin kütləvi şəkildə yayıldığı yeni bir mühitin yaranmasına səbəb olmuşdur. Castells (2009) sosial şəbəkələrin insanları necə bir araya gətirdiyini və ictimai rəyin formalaşmasında yeni imkanlar yaratdığını vurğulamışdır. Nəticə İctimai rəyin yaranması və inkişafı sosial, tarixi və iqtisadi faktorların təsiri ilə formalaşır. Kütləvi media və sosial şəbəkələrin inkişafı ictimai fikrin sürətlə formalaşmasına və geniş auditoriyaya yayılmasına imkan yaratmışdır. Bu prosesin təkamülü, cəmiyyətlərin dəyişən sosial və siyasi şəraitinə uyğun olaraq davam edir. Azərbaycanın və Türkiyənin müstəqillik tarixində ictimai rəyin necə inkişaf etdiyi, kütləvi media və sosial şəbəkələrin ictimai fikri necə formalaşdırdığı böyük əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**

Altuntaş, G. (2013). Gezi Parkı ve Sosyal Medyanın Kamuoyu Üzerindeki Etkisi. İstanbul: Üsküdar Üniversitesi Yayınları.

Arslan, G. (2015). Kitle İletişim Araçları ve Toplumsal Yönlendirme. Ankara: Nobel Yayın Dağıtım.

Castells, M. (2009). Communication Power. Oxford University Press.

Kaya, A. (2004). Fransız Devrimi ve Kamuoyu Oluşumu. İstanbul: İletişim Yayınları.

Marx, K., & Engels, F. (1848). The Communist Manifesto. Penguin Classics.

Məmmədov, N. (2016). Azərbaycan Kütləvi Media və İctimai Rəy. Bakı: Elm və Təhsil Nəşriyyatı.

Rüstəmli, M. (2011). Azərbaycanda İctimai Fikrin İnkişafı. Bakı: Nurlan Nəşriyyatı.

Səfərov, T. (2008). Azərbaycanın Müstəqillik Dövründə İctimai Rəyin Yaranması. Bakı: İctimai Elmlər Nəşriyyatı.

Stiglitz, J. E. (2012). The Price of Inequality. W.W. Norton & Company.

Yılmaz, G. (2012). Sosyal Medyanın Kamuoyu Üzerindeki Etkisi ve Yeni Medyanın Gücü. İstanbul: Beta Yayınları.

# THE CONCEPT OF TRUTH IN THE CRIMINAL PROCESS OF THE REPUBLIC OF AZERBAIJAN: PHILOSOPHICAL, THEORETICAL, AND IDEOLOGICAL ASPECTS

**Jabiyeva Aygun Alakbar**

**Baku State University**

**https://orcid.org/0009-0001-6309-1208**

**a.a.jabiyeva@gmail.com**

**Rəyçi:**

**Mədədzadə Könül Mahir qızı,**

**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

This thesis examines the concept of truth in Azerbaijani criminal procedural law literature, including its characteristics, content, essence, and boundaries from the perspective of criminal procedural law. The aim of the thesis is to clarify the philosophical and ideological roots of the concept of truth in our criminal procedural law literature. Just as the content defines the nature of any entity, legal mechanisms and institutions are based on a specific ideology, perspective, and philosophy. Therefore, when studying a problem, it is impossible to address or correct it without understanding its essence and the factors that shape it. In this regard, the thesis discusses the objective concept of truth, which is widely used in our criminal procedural law literature, and examines its characteristics. This is also the answer found in criminal procedural law literature to the question of which truth the national criminal process investigates, and within what framework. The analysis of these approaches makes it possible to clarify the roots of the concept of truth in our criminal procedural law literature.

**Key words:** Criminal procedural law, truth, objective truth, substantive truth

# ПОНЯТИЕ ИСТИНЫ В УГОЛОВНОМ ПРОЦЕССЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ: ФИЛОСОФСКИЕ, ТЕОРЕТИЧЕСКИЕ И ИДЕОЛОГИЧЕСКИЕ АСПЕКТЫ

**Джабиева Айгюн Алекпер**

**Бакинский государственный университет**

**https://orcid.org/0009-0001-6309-1208**

**a.a.jabiyeva@gmail.com**

**Резюме**

Данное исследование рассматривает концепцию истины в азербайджанской литературе уголовного процессуального права, включая её характеристики, содержание, сущность и границы с точки зрения уголовно-процессуального права. Цель исследования — прояснить философские и идеологические корни концепции истины в нашей литературе по уголовно-процессуальному праву. Точно так же, как содержание определяет природу любого существа, правовые механизмы и институты основываются на определённой идеологии, мировоззрении и философии. Поэтому при исследовании проблемы невозможно её решить или исправить, не поняв её сущность и факторы, которые её формируют. В связи с этим, в работе обсуждается объективная концепция истины, широко используемая в нашей литературе по уголовно-процессуальному праву, и рассматриваются её характеристики. Это также является ответом, найденным в литературе по уголовно-процессуальному праву, на вопрос о том, какую истину расследует национальный уголовный процесс и в каких рамках. Анализ этих подходов позволяет прояснить корни концепции истины в нашей литературе по уголовно-процессуальному праву.

**Ключевые слова:** Уголовно-процессуальное право, истина, объективная истина, материальная истина.

**AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT PROSESİNDƏ HƏQİQƏT ANLAYIŞI: FƏLSƏFİ, NƏZƏRİ, İDEOLOJİ ASPEKT**

**Cəbiyeva Aygün Ələkbər**

**Bakı Dövlət Universiteti**

**https://orcid.org/0009-0001-6309-1208**

**a.a.jabiyeva@gmail.com**

Hər bir varlığı onun məzmunu formalaşdırdığı kimi, hüquqi mexanizmlər, institutlar da müəyyən bir ideologiya, baxış və fəlsəfə üzərində qurulur. Bu səbəbdən də, bir problemi tədqiq edərkən tədqiqat predmetinin kökünə enmədən, onun mahiyyətini, onu nəyin formalaşdırdığını anlamadan dəyişmək, nöqsanları aradan qaldırmaq mümkün olmaz. Həqiqətin elmi, fəlsəfi, sosial, siyasi, psixoloji və s. aspektlərini nəzərə alsaq, həqiqət problemi də öz dərin mənası ilə sadəcə hüquqi müstəvidə, ya da daha konkret – cinayət prosessual hüquqi müstəvidə təhlil edilməklə onun xarakteri aydınlaşdırıla bilməz. Bütün bu cəhətlərin, obyektiv-subyektiv təsirlərin və onun dərk edilməsi, qiymətləndirilməsi zamanı meydana çıxan çoxsaylı suallar bəşəriyyətin fəlsəfi fikrində onun tarixi qədər bir müddətdir ki, müzakirə olunmaqdadır. Elm-texnika inkişaf etdikcə, ictimai münasibətlər mürəkkəbləşdikcə həqiqət və onun dərk edilməsi problemləri də rəngini dəyişir, mücərrədləşir. Bu tezisdə müasir cinayət prosessual hüquq ədəbiyyatımızda həqiqət anlayışı təhlil ediləcək, onun formalaşmasında rol oynayan təsirlər qiymətləndiriləcək. Bu tədqiqat növbəti araşdırmalarda dünyada mövcud olan cinayət prosessual sistemlər, onların fəlsəfi-ideoloji kökləri və həqiqət anlayışının araşdırılması istiqamətində davam etdiriləcək.

İşləndiyi yerdən aslı olaraq geniş və dar mənalarla səciyyələnən, ən bəsid mənadan ən mücərrəd anlamlara qədər mənalandırıla bilən həqiqət anlayışını qısa şəkildə nəzərdən keçirək ki, onu cinayət prosessual müstəvidə təhrif etmədən təsvir və xarakterizə edə bilək.

Həqiqət sözünün azərbaycan dilində işlənən mənaları Azərbaycan dilinin izahlı lüğətində həqiqət, "doğrudan, həqiqətən olmuş və ya olan şey, hadisə və s.", "bir şeyin əsli, mahiyyəti" kimi təsvir olunur. Fəlfəsi aspektdən isə həqiqət "biliklər və obyektiv dünya hadisələri arasında uyğunluğun müəyyən edilməsi məsələsi" kimi izah olunur. (Hacıyev, 2012) Obyektiv həqiqət ilə bağlı isə qeyd edilir ki, bu, "biliklərimizin məzmununun insandan və bəşəriyyətdən asılı olmaması deməkdir". (Hacıyev, 2012)

Həqiqət "haqq" sözündəndir, "haqq" var olan mənasına gəlib, "puç olan", "yox" olanın əksini ifadə edir. Yalan, yanılma, xəyal, görüntü – bunların hamısının əksinə olaraq və onlardan ayrılmış, saf mənasında olaraq var olanı bildirir. Əvvəllər varlığın başlanğıc elementini "maddə", sonrakı nailiyyətlər "enerji" olaraq tanımlayan elm bu gün müasir araşdırmalarla bunun "bilik" olduğunu aşkar etməkdədir. (Tarhan, 2024) Bu özü onu göstərir ki, hər varlıq özündə (özəyində) həqiqətini daşıyır. Beləliklə, var olan haqq olandır, həqiqidir, onun özündəki bu bilgi onun "həqiqət"i, obyektiv reallıqda alığı şəkil, forma onun "gerçəkliy"i, subyekt tərəfindən görünən-qavranan şəkli "görüntü", bunun dildə ifadəsi isə "doğruluq" anlayışları ilə uzlaşır.

Cinayət prosessual hüquq ədəbiyyatımızda həqiqət anlayışı obyektiv həqiqət kimi ifadə olunur. Burada cinayət prosessual hüquqi mənada obyektiv həqiqət deyilərkən nə nəzərdə tutulur sualının cavabını konkretləşdirmək lazımdır. Bunun üçün birincisi, cinayət prosessual anlamda həqiqətin

anlayışını konkretləşdirmək, ikincisi niyə məhz obyektiv həqiqət adlandırılması məsələsi üzərində durmaq lazımdır. Cinayət prosessual hüquq ədəbiyyatımızda cinayət prosesində həqiqət anlayışı ilə bağlı fikirlər cinayət prosesual hüquq məktəbinin banisi sayılan C.Mövsümovun araşdırmaları və mövqeləri əsasında formalaşmışdır. Belə ki, həqiqət və onun müəyyən edilməsi ilə bağlı yanaşma onun qoyduğu əsas xətlərdən kənara çıxmamışdır. Bu baxımdan da yerli ədəbiyyatdakı həqiqət anlayışını, hər şeydən əvvəl, dialektik materializmin ruhunu daşıması ilə xarakterizə edə bilərik.

Bu yanaşma "maddi aləm və onun qanunauyğunluqlarının tamamilə dərkolunan olmasına əsaslanır". (Mövsümov, 1989) Bu yanaşmaya görə maddi aləmdə dərk olunmayan heç bir şey yoxdur və indiyədək dərk olunmayan hər şey də mütləq dərk olunacaqdır. Yanaşma obyektiv həqiqət və mütləq həqiqət anlayışlarının arasında bərabərlik işarəsi qoyur. Qeyd olunur: "...biz obyektiv həqiqət dedikdə praktikada yoxlanılmış **həqiqətə tam uyğun** nəticələri başa düşürük". Bu ideologiyaya görə varlıq həqiqətin yalnız bir cəhətidir. Həqiqət üçün gerçəkliyin başqa cəhətləri də lazımdır ki, həqiqət bunların məcmusunda və bunların münasibətlərində reallaşır.(Mövsümov, 1989) C.Mövsümov həqiqəti "gerçəkliyin bütün cəhətlərinin məcmusu və bunların qarşılıqlı münasibəti kimi xarakterizə edir. Fəlsəfi bazası dialektik materializmin üzərində qurulan həqiqət anlayışını cinayət prosesual hüquqa adaptasiyasını göstərən müəllif – cinayət prosesual müstəvidə həqiqəti xarakterizə edərək onun spesifikasını aşağıdakı kimi müəyyənləşdirmişdir.

Cinayət prosessual müstəvidə həqiqət cinayətin tövsifinin əsaslandığı sillogizm formulunda işin faktiki və hüquqi tərəflərinin əlaqələndirilməsi və nəticədə həqiqətin müəyyən edilməsi məsələsini əlamətlərini müəyyənləşdirməklə təsvir edilir. (ətraflı bax: C. Mövsümov, Cinayət prosesi. s.87) "cinayət işi üzrə müəyyən edilməli olan həqiqətin məzmununu edilmiş cinayətin faktları və halları təşkil edir". Müəllif mütləq və nisbi həqiqət anlayışını dialektik materializmə görə fərqləndirmiş, nəticədə cinayət prosesində müəyyən edilən həqiqətin mütləq həqiqət olduğu qənaətinə gəlmişdir. Burada real həyatda baş verən hadisə ilə bağlı həqiqətin sadəcə cinayət hüquqpozmasını təşkil etdiyi ölçüdə müəyyən edilməsindən söhbət gedir – yəni müəllifin sözü ilə desək "müəyyən edilməli olan faktlar tam əhatəedici deyil, sübutetmə predmeti və sübutetmə həddi çərçivəsində tədqiq edilir". Müəllif, beləliklə, son nəticədə obyektiv həqiqətin müəyyən edilmiş olacağı fikrini qəti şəkildə əsaslandırmağa çalışaraq, bildirir ki, "lakin bu halda iş üzrə sübut edilməli olan faktlar tələb olunan həcmdə tam və hərtərəfli tədqiq edildiyi üçün müəyyən olunan həqiqət obyektiv həqiqət olacaqdır. Cinayət prosesində obyektiv həqiqət gerçəkliyi ilə tam müəyyən edilməlidir. İstintaq, prokurorluq və məhkəmə orqanlarının müəyyən edilməli olan faktlar haqqında əldə etdikləri məlumatlar həqiqətə tam uyğun gəlməlidir." (Mövsümov, 1989)

M.Cəfərquliyev bu fikirləri olduğu kimi qəbul edir, F.Abbasova isə həqiqətin müəyyən edilməsini çəkişmə prinsipi və məhkəmənin işin bütün hallarının tam, hərtərəfli və obyektiv araşdırılması üçün tərəflərə lazımi şərait yaratması şərtlənən prosessual rolların gözlənməsi (məhkəmənin aktiv rolunun nəzərə alınması) istiqamətini ön plana çəkərək təsvir edir. O, həmçinin nəzəriyyədə olan mövqeləri diqqətə çatdıraraq göstərir ki, "cinayət mühakimə icraatı zamanı həyata keçirilən sübutetmənin məqsədi kimi həqiqət anlayışı cinayət prosesində bəzi məqamlarda obyektiv həqiqət kimi deyil, başqa fəlsəfi anlamlarda da çıxış edir". (Cəfərquliyev, 2008) (Abbasova, 2015)

Burada bəzi məqamlara diqqət çəkmək istərdik. C.Mövsümov cinayət prosesində həqiqəti xarakterizə edərkən obyektiv real həyatda baş vermiş hadisə ilə bağlı həqiqətin anlayışı və sərhədləri ilə cinayət prosessual mənada həqiqətin sərhədlərini konkret ölçülərlə fərqləndirməsi önəmli bir aspekti vurğulayır və cinayət prosessual aspektdən həqiqət anlayışının spesifikasının, belə demək doğru olarsa, ilk şərtini ortaya qoymuş olur. Müəllif fəlsəfi mahiyyəti ilə həqiqət

anlayışını konkretləşdirməklə, cinayət prosesual müstəvidə cinayət prosesinin məqsədi kimi həqiqətin sərhədlərini müəyyən etməklə cinayət prosesində həqiqətin müəyyən edilməsi məsələsində həqiqət anlayışını bizim üçün aydınlatmışdır: bu fikir vasitəsilə mücərrəd həqiqətdən maddi həqiqətə irəliləyə və bu mənzərəni uğurla təsvir edə bilərik: "***Həqiqət gerçəkliyin (sadəcə varlıq deyil) bütün cəhətlərinin məcmusu və bunların qarşılıqlı münasibətində ifadə olunur."*** Bizə məhz hansı həqiqət lazımdır sualının cavabı isə obyektiv gerçəklikdə baş vermiş cinayət hadisəsi ilə bağlı, cinayət tərkibinin elementlərini əks etdirən həqiqətdir. **Yəni "müəyyən edilməli olan faktlar tam əhatəedici deyil, sübutetmə predmeti və sübutetmə həddi çərçivəsində tədqiq edilir".**

Lakin hüquq ədəbiyyatımızdakı obyektiv həqiqətin müəyyən edilməsini cinayət prosesinin məqsədi kimi qəbul edən bu yanaşmada xüsusilə obyektiv həqiqətin müəyyən edilməsi ilə bağlı müəllifin dəfələrlə ətraf aləmin mütləq dərkolunanlığı fikrini dəstəkləməsi (digər müəlliflər də bu fikri təqib edir) və müəlliflərin əsaslandırmalarındakı fikirlər isə qanunvericilik aspektindən qüvvətli və inkaredilməz səslənsə də, reallıq və realizəsinin mümkünlüyü baxımından bir o qədər qaranlıq qalır. Bu fikrin ideya bazası kimi Leninin "... dürüst və mübahisəsiz faktlardan elə bir təməl qurmağa çalışmaq lazımdır ki, onu əsaslandırmaq mümkün olsun" – fikri çıxış edir.

Yuxarıda qeyd olunan ifadələrdəki əminlik məntiqi bir boşluq yaradır. Cinayət prosesində müəyyən olunmuş həqiqət istənilən halda şübhə ilə faiz nisbətindədir və o yalnız "ağlabatan" və "əsaslı" şübhələrdən azaddır. Türkdilli ədəbiyyatda həqiqət anlayışı, fikrimizcə, bu qarışıq məsələni həll edərkən, anlayışlarda konkretləşdirmə aparmışdır ki, burada dəstəklənən həqiqət anlayışı praktiki və realizəediləbiləndir və cinayət prosessual mexanizmləri ideallaşdırmadan, nöqsanların və səhvlərin ola biləcəyini də ehtiva edərək bütün reallığı ilə təsvir olunur. Əvvəlcə qeyd edək ki, burada maddi həqiqət anlayışından istifadə olunur və mütləq və maddi həqiqət fərqləndirilir. Alman və ingilis hüquq ədəbiyyatlarından təhlillərlə zəngin türk cinayət prosessual hüquq ədəbiyyatında formalaşmış mövqe bu təhlillərin bir bütünü kimi tamamlanır. H.Karakehyanın müəllifi olduğu "Ceza Muhakemesi Hukuku" dərsliyində maddi həqiqət anlayışı alman müəllif Volk-a istinadla qeyd olunur ki, "Cəza mühakiməsində (cinayət prosesində - *müəllif*) ilk olaraq maddi həqiqət tapılmalı və maddi cəza hüququ (cinayət hüququ – *müəllif*) aspektindən önəm kəsb edən bütün xüsusiyyətlərin tək-tək sübut edilməsinə **çalışılmalıdır"**. (Karakehya, 2023) Beləliklə, maddi həqiqətin anlayışı aşağıdakı kimi qeyd olunur: "Keçmişdə olub bitmiş bir hadisənin, onu təmsil edən vasitələr, yəni sübutlar vasitəsilə bu gün ortaya qoyulmuş halına maddi həqiqət deyilir". (Karakehya, 2023) (Feyzioğlu, 2015) Və qeyd olunur ki, "Maddi həqiqətin doğruluğundan, başqa sözlə mütləq həqiqətə uyğunluğundan şübhə etmək üçün **ağla və məntiqə uyğun bir səbəb** göstərilə bilməz". (Feyzioğlu, 2015) Bu fikir cinayət prosesində həqiqət anlayışının sərhədlərini konkretləşdirmiş olur. M. Feyzioğlu maddi həqiqət anlayışını mütləq həqiqətdən fərqləndirərkən göstərir ki: "Mütləq həqiqət – artıq əksinin qəbulu heç bir şəkildə mümkün olmayan, hər cür müxtəlif ehtimalın bərtərəf edildiyi həqiqətdir. Məlumdur ki, zaman geri qaytarıla bilməz, hər hadisə özünəməxsusdur və keçmişin yenidən canlandırılması yaxın olaraq mümkündür." (Feyzioğlu, 2015) Cinayət prosesində həqiqət ilə bağlı reallığı təhrif etmədən, mümkünlükləri nəzərə alan bu yanaşma məqbuldur.

Obyektiv həqiqət anlayışı subyektiv baxış və elementlərin istisna edilməsini ifadə edir. Hüquq ədəbiyyatımızda demək olar ki, istisnasız istifadə olunan bu anlayış AR CPM-in 28-ci maddəsində təsbit olunan "Cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi" prinsipinə əsaslanaraq, götürülür, lakin qanunvericiliyimizdə obyektiv həqiqət anlayışından istifadə

olunmamışdır, bu anlayış nəzəri olaraq hüquq ədəbiyyatında istifadə olunur. Həqiqətin müəyyən edilməsinin obyektivliyi cinayət prosesinin əsasında duran bir prinsipdir. Əslində hər dövrdə qavranan həqiqəti subyektivlikdən uzaqlaşdırmaq üçün müxtəlif ideologiya və prinsiplərə üz tutulmuşdur. Hakimin müşahidə metodu üzərinə qurulmuş "hakim" mövqeyi də bununla bağlıdır. "Maddi həqiqət anlayışına gəlincə isə bu anlayış müəyyən edilən həqiqətin konkret sübutlara əsaslanması və rasional olmasını vurğulayır." (Karakehya, 2015)

Beləliklə, hüquq ədəbiyyatımızdakı obyektiv həqiqət anlayışı ilə ehtiva edilən əlamətlər və yanaşmalarda sosialist cinayət prosessual sisteminin qalığı olan baxışların təsiri hiss olunmaqdadır. Bu baxımdan yerli cinayət prosessual hüquq ədəbiyyatında həqiqət anlayışı fəlsəfi, nəzəri, ideoloji kökləri ilə sosialist yanaşmadan tamamilə ayrılmış deyil. Cinayət prosesi obyektiv həqiqəti müəyyən edir, amma rasional və konkret sübutlara əsaslanmaqla. Bu yanaşma həm də müasir dövrün cinayət prosesinin dərketmə - epistemioloji aspekti üçün də açar rolunu oynayır. Burada söhbət hansısa anlayışın şərti olaraq dəyişilməsindən getmir, məzmunun, mahiyyətin yenilənməsi, hər şeydən əvvəl isə baxışın dəyişməsindən söhbət gedir.

**Ədəbiyyat:**


Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, http://e-qanun.az/framework/46950

Azərbaycan dilinin izahlı lüğəti (II cild), https://kitabxana.nmi.edu.az/wp-content/uploads/2020/09/Az%C9%99rbaycan-dilinin-izahli-lug%C9%99ti-II-cild.pdf

Abbasova, F. (2015). Cinayət prosesi: ümumi hissə: dərslik, Bakı: Zərdabi LTD, 416 s.

Cəfərquliyev, M. (2008) Azərbaycan Respublikasının Cinayət prosesi. Dərslik. Qanun, 768 s.

Hacıyev, Z. (2012) Fəlsəfə: dərslik, Bakı, "Turan evi" nəşriyyatı, 488 s.

Mövsümov, C.H. (1989). Sovet cinayət prosesi: dərslik. Bakı, "Maarif", 312 s.

Feyzioğlu, M. (2015). Vicdani kanaat, İslık yayınları, 400 s.

Karakehya H. (2023). Ceza muhakemesi hukuku, Eskişehir: Nisan, 620 s.

Karakehya H. (2016). Ceza muhakemesinde maddi gerçeğin tespiti, Savaş yayınevi, 168 s.

Tarhan, N. (2024). Varoluş Piramidinin Matematiksel Modellemesi [online] https://www.truvaedebiyatdergisi.com/yazi/varolus-piramidinin-matematiksel-modellemesi-935.html

# CHINA SUPPORTS A MULTIPOLAR WORLD

**Mirzayeva Fidan Raqif**

**Western Caspian University**

**https://orcid.org/0009-0002-1763-0423**

**Rəyçi:**

**Vəliyev Orxan Həsən oğlu,**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru**

**Abstract**

The rise of China as an economic superpower and a key participant in international politics led to lively discussions in the Academy about the current and future model of World Order. American experts have been of the opinion about the superiority of the unipolar system since the 1990s. Experts from Russia and a number of European Union countries believe that the world system is gradually turning into a multipolar one. A large number of scientists agree with the opinion that the definition of the modern model of the world order is one of the most ideological issues in the political sphere. The people's Republic of China constantly adheres to the course of establishing a just and multipolar world order. Beijing is confident that it is necessary to help create a new model of international relations based on equality and cooperation. The people's Republic of China is actively involved in the implementation of numerous international economic projects, acts as their initiator and sponsor. These projects include large-scale global initiatives such as the "Belt and Road", the Asian Infrastructure Investment Bank (which unites 57 states) and the BRICS New Development Bank.It should be noted that a significant part of the countries of the Asia-Pacific region, including Australia, Japan and the Republic of Korea, in their economic activities focus on exports to China.The PRC occupies a leading position in the world in many key economic indicators: the volume of the economy, investment and trade turnover; export and production of rare earth metals; the size of GDP and other important parameters.

**Keywords**: China, economy, world order

# КИТАЙ ВЫСТУПАЕТ ЗА МНОГОПОЛЯРНЫЙ МИР

**Мирзоева Фидан Рагиф**

**Западно-Каспийский университет**

**https://orcid.org/0009-0002-1763-0423**

## Резюме

Восхождение Китая как экономической сверхдержавы и ключевого участника международной политики вызвало оживлённую дискуссию в академических кругах о существующей и будущей модели мирового порядка Американские специалисты придерживаются мнения о доминировании однополярной системы с момента 1990-х годов. Эксперты из России и ряда стран Европейского Союза склонны считать, что мировая система постепенно трансформируется в многополярную. Значительное число учёных сходятся во взгляде на то, что определение современной модели мирового порядка является одним из наиболее идеологизированных вопросов в политической сфере. Китайская Народная Республика неизменно придерживается курса на построение справедливого и многополярного мирового порядка. В Пекине уверены, что необходимо содействовать установлению новой модели международных отношений, основанной на равноправии и сотрудничестве. Китайская Народная Республика активно участвует в реализации многочисленных международных экономических проектов, выступая в качестве их инициатора и спонсора. К числу таких проектов относятся масштабные глобальные инициативы, такие как (Пояс и путь ) Азиатский банк инфраструктурных инвестиций (объединяющий 57 государств) и Новый банк развития БРИКС.Следует отметить, что значительная часть стран Азиатско-Тихоокеанского региона, включая Австралию, Японию и Республику Корея, в своей экономической деятельности ориентируется на экспорт в Китай.КНР занимает лидирующие позиции в мире по многим ключевым экономическим показателям: объёму экономики, инвестиций и торгового оборота экспорту и производству редкоземельных металлов; величине ВВП и другим важным параметрам»,

**Ключевые слова:** Китай, экономика, мировой порядок

# ÇİN ÇOXQÜTBLÜ DÜNYANI DƏSTƏKLƏYİR

**Mirzəyeva Fidan Raqif qızı**

**Qərbi Kaspi Universiteti**

**https://orcid.org/-0009-0002-1763-0423**

**Giriş**

Çinin iqtisadi super güc və beynəlxalq münasibətlərin fəal iştirakçısı kimi yüksəlməsi dünya nizamının indiki və gələcək quruluşu ilə bağlı canlı müzakirələrə səbəb oldu. Amerikalı tədqiqatçılar 1990-cı illərdə inkişaf etmiş birqütblü modelin davamlılığı barədə fikirdədirlər. Eyni zamanda, Rusiyadan, BRICS ölkələrindən və bir sıra Avropa dövlətlərindən olan mütəxəssislər dünya sisteminin tədricən çoxqütblü sistemə çevrildiyini düşünməyə meyllidirlər. Bir çox alim müasir dünya nizamının müəyyənləşdirilməsi məsələsinin siyasi diskursda ən ideoloji məsələlərdən biri olduğunu qəbul edir (Дегтерев 2020a). Soyuq müharibənin bitməsindən və bipolyar beynəlxalq münasibətlər sisteminin dağılmasından bəri keçən üç onillik ABŞ hegemonluğunun 1990-cı illərdə zirvəyə çatdığını, lakin 2000-ci illərdə səmərəsizliyini nümayiş etdirdiyini və digər güclənən oyunçuların narazılığına səbəb olduğunu göstərdi. 2008-ci il qlobal maliyyə böhranı bir ölkənin (hətta kollektiv Qərbin dəstəyi ilə) bütün beynəlxalq sistemə nəzarət edə bilməməsini ortaya çıxardı (Си 2017: 633-650). Qlobal iqtisadi vəziyyətin qeyri-sabitliyi Çinə və bütün dünyaya göstərdi ki, ABŞ və onun nəzarətində olan beynəlxalq təşkilatlar qlobal iqtisadiyyatın problemlərinin öhdəsindən müstəqil gələ bilmirdi. Beynəlxalq münasibətlər sistemində köklü dəyişikliklərin zəruriliyini dərk edən Çin 2012-ci ildən "böyük güc"siyasətini həyata keçirməyə başladı.

Qeyd etmək lazımdır ki, əvvəllər Çin ölkələrinin xarici siyasətinin aləti hesab edərək GX (G2, G3, G4, G8) Qərb əməkdaşlıq formatların ümumiyyətlə maraq göstərmirdi(Wang Li 2012).G20 institusionalizasiya səviyyəsi (Katibliyin və daimi orqanların olmaması) qeyd olunur ki, bu da qətnamələrin hüquqi qüvvəsini azaldır (Ли 2012: 24).

**Çin normativ xarici siyasəti: münasibətlərə vurğu**

Universal maddi-hüquqi normalara əsaslanan beynəlxalq münasibətlərin Qərb modelindən fərqli olaraq, Çin konsepsiyası münasibətlərin qurulmasının və qorunmasının vacibliyini ön plana çəkir. Çin xarici siyasətindən həm açıq, həm də gizli normativ münasibətləri təşviq etmək üçün fəal şəkildə istifadə edir. Bu baxımdan çoxqütblülük və qüvvələrin tarazlaşdırılması Çinin qonşu regionlara qarşı xarici siyasətinin əsas alətləri hesab olunur. Beynəlxalq arenadakı digər aktyorların həm dəstəyini, həm də müqavimətini artıran bu siyasət müasir dünya nizamı üçün vacibdir. Çoxqütblülük konsepsiyası 1990-cı illərdə E. M. Primakov tərəfindən fəal irəliləyişlə Çin və Rusiya tərəfindən təklif edilmişdir. Çinli politoloqların fikrincə, çoxqütblülük doktrinasının kökləri 1954-cü il Çin-Hindistan müqaviləsində təsbit edilmiş "dinc yanaşı yaşamağın beş Prinsipi" doktrinasına gedib çıxır. 1986-cı ildə Deng Xiaoping-in milli təhlükəsizlik məsələləri üzrə müşaviri Huang Qian, soyuq müharibə qarşıdurmasının statik bir fenomen halına gəldiyini, super güclərin təsirinin zəifləməsinə və siyasi çoxqütblü meyllərin ortaya çıxmasına səbəb olduğunu irəli sürdü. 1996-cı ildə arzu olunan dünya nizamının ümumi anlayışlarından ilhamlanaraq Rusiya və Çin Birgə Bəyannamə imzaladılar. Sənəd Asiya-Sakit Okean Regionunda ikitərəfli münasibətlər və təhlükəsizliyin təmin edilməsi məsələlərindən əlavə, beynəlxalq sülh və inkişaf mövzusuna da toxunub. Tərəflər çoxqütblü dünyanın formalaşması tendensiyasını qeyd etdilər və sülhsevər

dövlətləri və xalqları yeni ədalətli və rasional beynəlxalq siyasi və iqtisadi nizamın yaradılması məqsədilə sıx əməkdaşlığa çağırdılar(Совместная российско-китайская декларация 1996).

Bir il sonra, 1997-ci ildə Moskvada çoxqütblü dünya və yeni beynəlxalq nizamın formalaşması haqqında Rusiya-Çin bəyannaməsi imzalandı. Sənəddə tərəflər çoxqütblü dünyanın inkişafına və yeni dünya nizamının bərqərar olmasına töhfə verməyi öhdələrinə götürmüş, blok siyasətinə qarşı çıxış etmiş, ölkələr arasında mübahisələrin sülh yolu ilə həllinin zəruriliyini, güc tətbiq edilməməsini və Tətbiq olunma təhlükəsini vurğulamış, sülh və təhlükəsizliyə sadiqliyini təsdiq etmişlər(российско-китайская декларация 1997). ÇXR-in xarici siyasətinin alətlərindən biri güc balansının qurulması strategiyası idi [Zhen, Paul 2020: 1-26]. Çinin böyüməsindən təsirlənən dövlətlərin belə bir ittifaq yaratmağa meyl etməməsinin iki əsas səbəbi var. Birincisi, bu, Çinə dünya iqtisadiyyatında lider mövqe tutmaq üçün unikal fürsət verən qloballaşmanın yaratdığı iqtisadi qarşılıqlı asılılığın artmasıdır. İkincisi, bu, ÇXR-in "bir kəmər, bir yol" təşəbbüsü ilə tamamlanan "dinc inkişaf" adlandırılan "dinc yüksəliş"strategiyasıdır.

Sərt balanslaşdırma dövlətlər tərəfindən gərgin rəqabət şəraitində istifadə olunan strateji yanaşmadır. Bu strategiya iki əsas sahəni əhatə edir.Daxili balanslaşdırma-dövlətlər öz hərbi potensialını davamlı olaraq modernləşdirərək rəqiblərinin hərbi gücünə uyğunlaşdıraraq gücləndirirlər.Xarici balanslaşdırma-Dövlətlər əsas rəqiblərinin güc üstünlüyünə qarşı çıxmaq məqsədi ilə rəsmi ittifaqlar və kontralyanslar yaradır və saxlayırlar. Məhdud sərt tarazlıq orta dərəcədə silahlanma və qeyri-rəsmi ittifaqlar və ya strateji ortaqlıqlar yaratmaqla xarakterizə olunur.Yumşaq balanslaşdırma, öz növbəsində, rəsmi birlikləri əhatə etmir(Pape 2005: 7-45).Dövlətlər güclü bir dövlətə və ya potensial təhdid edən bir gücə qarşı çıxmaq üçün müqavilələr və ya məhdud təhlükəsizlik tənzimləmələri (strateji ortaqlıqlar, diplomatik koalisiyalar) yaradırlar. Yumşaq balanslaşdırma çox vaxt regional və beynəlxalq qurumlar vasitəsilə əməkdaşlıq və birgə fəaliyyətə əsaslanır(Kai 2012: 154-191).

**BRICS çərçivəsində Çinin rolu və fəaliyyəti**

BRICS-in qurucularından biri olan Çin, Təşkilatı yalnız Rusiya, Braziliya və Cənubi Afrika kimi əsas xammal tədarükçüləri ilə iqtisadi əlaqələri inkişaf etdirmək üçün bir platforma kimi deyil, həm də Qərbə qarşı alternativ beynəlxalq münasibətlər modelinin formalaşmasına kömək edən siyasi əks vasitə kimi görür. Çinin "yumşaq gücünün" genişlənməsi: BRICS daxilində mədəni, təhsil və elmi əməkdaşlığın inkişafı.Qlobal problemlərin həlli: bərabərsizlik, ərzaq təhlükəsizliyi və s. kimi ekoloji, sosial, iqtisadi problemlərin aradan qaldırılması yollarının axtarışı.

**Nəticə**

2008-ci il qlobal maliyyə böhranı ABŞ-ın beynəlxalq arenadakı mövqeyinin və nüfuzunun zəifləməsinə səbəb oldu. Nəticədə, bir çox ölkələrdə Amerika təsirinin mümkün azalması barədə danışmağa başladılar. Buna paralel olaraq, sürətli iqtisadi artım və Çinin qlobal mövcudluğunun artması ilə bağlı intensiv müzakirələr aparılır.Müasir dünyada görürük ki, Çin hər gün bütün sahələrdə möhkəmlənir, beynəlxalq təşkilatların yaradılmasının təşəbbüskarıdır.Şübhəsiz ki, Çin Milli əzəmətini bərpa etməyə çalışır və dünya böhranlarından faydalanmaq üçün bənzərsiz bir qabiliyyət nümayiş etdirir.

**Ədəbiyyat:**


Дегтерев Д.А. (06.09.2020) Многополярность или «новая биполярность»?

Российско-китайская декларация от 25 апреля 1996 г. Подписана президентом РФ Б. Ельциным и председателем КНР Цзян Цзэминем

Российско-китайская совместная декларация о многополярном мире и формировании нового международного порядка от 23 апреля 1997 г. Подписана президентом РФ Б. Ельциным и председателем КНР Цзян Цзэминем.

Си Цзиньпин. (2017) О государственном управлении. Том II. Пекин: Издательство литературы на иностранных языках. 802 с.

Kai He. (2012) Undermining Adversaries: Unipolarity, Threat Perception, and Negative Balancing Strategies after the Cold War // Security Studies. 21 (02). P. 154-191.

Pape, Robert A. (2020) Soft Balancing Against the United States // International Security. 2005. 30 (01). P. 7-45.national Politics.. 13 (01). P. 1-26.

Wang Ying, Li Jiguang. (2012) China and the G20 // Contemporary International relations. China Institutes of Contemporary International Relations. 22 (04). P. 1-14

Zhen Han and T. V. Paul. China's Rise and Balance of Power Politics // The Chinese Journal of Inter

# CHANGING DYNAMICS OF FAMILY RELATIONS IN MODERN AZERBAIJAN: PROBLEMS AND SOLUTIONS

**Heydarova Narmin**

**Nakhchivan State University**

**https://orcid.org/0009-0000-2948-9389**

**nerminheyderova5@gmail.com**

**Rəyçi:**

**Həsənov Rəfail Musa oğlu,**

**Sosiologiya üzrə elmlər doktoru, professor**

## Abstract

This article examines the changes in family relations in modern Azerbaijan, the problems encountered and ways to solve these problems. In contemporary Azerbaijan, family structures and relationships are undergoing significant transformations due to a combination of socio-economic, cultural, and political factors. Traditional family values, rooted in a patriarchal society, are being reshaped as the country experiences rapid modernization, urbanization, and global influences. The shift is reflected in changing gender roles, marriage patterns, and the evolving role of women in both family and society.

**Keys words:** gender roles, marriage patterns, family, intergenerational conflict, values

# ИЗМЕНЕНИЕ ДИНАМИКИ СЕМЕЙНЫХ ОТНОШЕНИЙ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНЕ: ПРОБЛЕМЫ И РЕШЕНИЯ

**Гейдарова Нармин**

**Нахчыванский государственный университет**

**https://orcid.org/0009-0000-2948-9389**

**nerminheyderova5@gmail.com**

## Резюме

В данной статье рассматриваются изменения в семейных отношениях в современном Азербайджане, возникающие проблемы и пути решения этих проблем. В современном Азербайджане семейные структуры и отношения претерпевают значительные трансформации из-за сочетания социально-экономических, культурных и политических факторов. Традиционные семейные ценности, уходящие корнями в патриархальное общество, перестраиваются по мере того, как страна переживает стремительную модернизацию, урбанизацию и глобальные влияния. Этот сдвиг отражается в изменении гендерных ролей, моделей брака и меняющейся роли женщины как в семье, так и в обществе.

**Ключевые слова:** гендерные роли, модели брака, семья, конфликт поколений, ценности.

**MÜASİR AZƏRBAYCANDA AİLƏ MÜNASİBƏTLƏRİNİN DƏYİŞƏN DİNAMİKASI: PROBLEMLƏR VƏ HƏLLİ YOLLARI**

**Heydərova Nərmin**

**Naxçıvan Dövlət Universiteti**

**https://orcid.org/0009-0000-2948-9389**

**nerminheyderova5@gmail.com**

Müasir Azərbaycanda ailə münasibətləri son illərdə ciddi dəyişikliklərə uğramışdır Son illərdə cəmiyyətdə baş verən sosial, iqtisadi və mədəni dəyişikliklər, ənənəvi ailə strukturlarını və dəyərlərini sarsıdır. Əvvəlki dövrlərdə daha çox mövcud olan patriarxal ailə quruluşu, bu gün həm cəmiyyətin, həm də fərdlərin dəyişən ehtiyaclarına uyğun olaraq öz yerini modern ailə quruluşuna verib. Bunu Sosial Tədqiqatlar Mərkəzinin Azərbaycanda ailə münasibətlərinin sosial psixoloji təhlili ilə bağlı apardığı ictimai sorğudakı statistikasından müəyyən etmək mümkündür. ( Sosial Tədqiqatlar Mərkəzinin İctimai rəyin öyrənilməsi departamenti Daxili siyasətin təhlili departamenti, 2021). Azərbaycan müasirləşməyə və avropaya inteqrasiya etməyə davam etdikcə, ənənəvi ailə strukturları və dəyərləri təkmilləşir, bu da ailə inustutunda rolların, münasibətlərin və gözləntilərin dəyişməsinə səbəb olur. Müasir Azərbaycanda ailə münasibətlərinin dəyişən dinamikası, həm sosial, həm də iqtisadi sahələrdə əhəmiyyətli dəyişiklərə səbəb olur. Bu dəyişikliklər, ənənəvi ailə quruluşunu və dəyərlərini yenidən formalaşdırmağı tələb edir. Bu yanaşmalar, ailə münasibətlərinin daha sağlam və dayanıqlı olmasına gətirib çıxarır. Cəmiyyətdəki sosial, iqtisadi və mədəni dəyişikliklər, həmçinin qlobal təsirlər ailə quruluşu və ailə üzvlərinin rolunu yenidən formalaşdırmışdır. Ənənəvi ailə modelləri və dəyərləri, zamanla müasir tələblərə uyğun şəkildə dəyişir və inkişaf edir. Bu dəyişikliklər, xüsusən cinsiyyət rollarının dəyişməsi, evlilik və ailə quruluşunun yeni formalarının ortaya çıxması və nəsillərarası münasibətlərdəki gərginliklər kimi məsələlərlə özünü göstərir.

Bu dəyişikliklər bəzən ailə daxilində gərginliklərə və problemlərə səbəb olur. Həmin problemlərə aşağıdakıları nümunə göstərmək olar.

**Əsas Problemlər.**

**Cinsiyyət bərabərliyi və rol dəyişiklikləri.** Azərbaycan cəmiyyətində ailə daxilində qadın və kişi rolunun ənənəvi şəkildə müəyyən edilməsi hələ də geniş yayılmış bir anlayışdır. Ancaq son illər qadınların təhsildə və iş həyatında daha fəal rol alması ilə bu ənənəvi rollar dəyişməyə başlayıb. (Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında, 2024). Kişilərin də ev işlərinə və uşaqlara qarşı daha çox məsuliyyət daşımağa başlaması gözlənilsə də, qadınlar hələ də ailə daxili bütün yükü daşıyırlar. Bu, həm qadınların, həm də kişilərin üzərində əlavə psixoloji yük yaradır. Cinsiyyət bərabərliyi mövzusunda hələ də mövcud olan stereotiplər, ailə içi münasibətləri mürəkkəbləşdirir və əksər hallarda qadınların iş həyatında və şəxsi inkişaflarında irəliləməsini məhdudlaşdırır.

**Evlilik və ailə qurumunun dəyişməsi.** Azərbaycanda ənənəvi ailə quruluşuna dair dəyişikliklər müşahidə olunur. Gənc nəsil daha çox şəxsi inkişafına, təhsilə və karyeraya önəm verir, buna görə də evliliyi gecikdirir. Bunun nəticəsi olaraq ailə qurmağa maraq azalmışdır. Həmçinin, gənclərin evliliyə münasibəti dəyişmiş və daha çox şəxsi azadlıqlarını və fərdi seçimlərini ön planda tutmağa

başlamışdır. Bu, evliliyi müvəqqəti və ya formal bir instituta çevirmişdir (Mehdiyev, 2018).

**Nəsillərarası ziddiyyətlər.** Ənənəvi Azərbaycan ailələrində yaşlı nəsil ilə gənc nəsil arasında ciddi fərqlər mövcuddur. Yaşlı nəsil ənənəvi ailə dəyərlərini, ailə daxilindəki sərt hierarxiyanı və kollektiv həyat tərzini qorumağa çalışır, lakin gənclər müstəqilliklərini, fərdi seçimləri və globalizmə əsaslanan həyat tərzini seçirlər. Bu ziddiyyətlər, xüsusən ailə içindəki münasibətlərdə gərginlik yaradır. Yaşlı nəsil gəncləri "daha hörmətli və məsuliyyətli" olmağa çağırsa da, gənclər "ənənəvi məhdudiyyətlərdən" azad olmaq istəyirlər. Bu, evliliklərdə konfliktlərə, anlaşılmazlıqlara və emosional uzaqlığa səbəb ola bilir.

**İqtisadi Çətinliklər.** Azərbaycanda gənclər və ailələr üçün ən ciddi problemlərdən biri iqtisadi vəziyyətdir. Ailə qurmaq və uşaqları böyütmək üçün tələb olunan maddi şərait, xüsusilə də yüksək işsizlik və iş imkanlarının məhdudluğu ilə bağlı narahatlıqlar gəncləri evlilikdən və ailə qurmaqdan çəkindirir. Həmçinin, ailələrin ev tələblərini qarşılamaqda çətinlik çəkmələri, iqtisadi çətinliklər, borc yükü və digər maliyyə problemləri ailə üzvləri arasında gərginlik yaradır. İqtisadi təzyiqlər, ailədaxili qarşıdurmalara, psixoloji narahatlıqlara və hətta boşanmalara səbəb ola bilər.

**Texnologiya və sosial medianın təsiri.** Texnologiyanın inkişafı və sosial medianın geniş istifadəsi ailə münasibətlərində həm müsbət, həm də mənfi təsirlərə yol açır. Sosial media, ailə üzvləri arasında əlaqə qurmağa kömək etsə də, bəzən ailə daxilindəki real əlaqələri və ünsiyyəti zəiflədir. Ailələr, xüsusilə gənclər, texnologiyadan daha çox istifadə etdikləri üçün, bir-birini daha az vaxt ayırır və qarşılıqlı ünsiyyət azalır. Bu, ailə üzvləri arasında emosional boşluğa, əlaqələrin zəifləməsinə və ailədaxili gərginliyin artmasına səbəb ola bilər.

**Nəticə və Həlli Yolları**

**Cinsiyyət bərabərliyinin təşviqi.** Cinsiyyət bərabərsizliyi mövzusundakı problemi həll etmək üçün ailə daxilində qadın və kişi rollarının bərabər paylanması üçün təhsil və maarifləndirmə proqramları genişlənməlidir.

**İqtisadi Dəstək Proqramları.** Gənclərin evlilik qurması və ailə quruluşunu gücləndirməsi üçün dövlət tərəfindən sosial və iqtisadi dəstək veriləcək proqramlar tətbiq edilə bilər.

**Nəsillərarası dialoqun yaradılması.** Yaşlı və gənc nəsil arasında münasibətləri gücləndirmək məqsədilə intergenerasiya proqramları və dialoq platformaları təşkil edilə bilər.

**Ailə üzvləri arasında ünsiyyətin təkmilləşdirilməsi.** Ailələrdə sağlam ünsiyyətin təşviqi, ailə içi əlaqələrin gücləndirilməsi üçün psixoloji dəstək və ailə məsləhət xidmətləri artırılmalıdır.

Bu yanaşmalar, müasir Azərbaycanda ailə münasibətlərindəki problemlərin həllinə və ailə strukturlarının möhkəmləndirilməsinə kömək edəcəkdir.

**Ədəbiyyat:**

Cəmilə, Ç. (2018). Ailə dəyərlərini simvollaşdıran kultlar. Bakı: Elm və Təhsil.

Çələbiyev, N.Z. (2015). Ailə psixologiyası. Bakı: Mütərcim.

Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında.(2024). "Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2023-cü il üzrə məlumatı". Bakı.

Mehdiyev, E. (2018). Azərbaycanda ailə dəyərləri. Bakı

Məmmədov, R. (2018). Azərbaycan ailəsi: dünən və bu gün, sabah. Bakı.

Qurbanova, L.M. (2012). Ailənin psixoloji problemləri və həlli yolları. Bakı: Bilik.

Sosial Tədqiqatlar Mərkəzinin Daxili siyasətin təhlili departamenti. (2021). Müasir dövlət ailə siyasəti: Problemə familistik araşdırmalar kontekstindən baxış. (Analitik hesabat). Bakı.

Sosial Tədqiqatlar Mərkəzinin İctimai rəyin öyrənilməsi departamenti Daxili siyasətin təhlili departamenti. (2021). İctimai rəy sorğusu-sosioloji tədqiqatın nəticələri əsasında hazırlanmış (Analitik hesabat). Bakı.

https://www.adb.org/sites/default/files/institutional-document/546166/azerbaijan-country-gender-assessment-2019

https://family.gov.az/store/media/Sosial-Psixoloji%204.pdf

https://psixologiyainstitutu.az/2022/01/27/muasir-dovrdə-ailələrdə-qarsiliqli-munasibətlərə-təsir-edən-amillər/

1st International Conference "Family-responsive policies in the Digital Era"//

https://www.youtube.com/watch?v=wA8IoSapyIE

# 20-Cİ ƏSRİN 30-20-Cİ İLLƏRİNDƏ AZƏRBAYCAN SSR İLƏ ERMƏNİSTAN SSR ARASINDA ƏRAZİ SƏRHƏDİ PROBLEMİ

**Mehdiyeva Nəsrin Famil**

**Bakı Dövlət Universiteti**

**https://orcid.org/0009-0005-6824-1307**

**nesrin.abdull@gmail.com**

**Rəyçi:**

**Məhərrəmova Sona Sabəddin qızı,**

**Tarix üzrə fəlsəfə doktoru, dosent**

**Xülasə**

1920-1921-ci illərdə Cənubi Qafqazdakı mövcud dövlətlər Sovet Rusiyası tərəfindən işğal edildi və Sovet hakimiyyəti qurulduqdan sonra 1918-1920-ci illərdə mövcud olan respublikalar arasında müvəqqəti sərhədlər müəyyən edildi. Bu sərhəd xətləri Sovet İttifaqının gələcək ərazi-inzibati bölgüsünün bir hissəsi kimi düşünülmüşdür. 20-ci əsrin 30-cu və 20-ci illəri Cənubi Qafqazda, xüsusən də Azərbaycan və Ermənistan arasında ərazi mübahisələrinin kəskinləşdiyi və Sovet hakimiyyəti dövründə müəyyən həll yollarının tapılması üçün səylərin göstərildiyi bir dövr idi. Azərbaycan və Ermənistan arasında ərazi məsələləri bu dövrdə xüsusilə gərgin olmuş və siyasi münaqişələrin əsasını qoymuşdur. Ümumiyyətlə, Azərbaycanın tarixi əraziləri 28 May 1918-ci ildən, xüsusən 1920-1929-cu illər ərzində tədricən "Ermənistan SSR-in tərkibinə daxil edilib".

**Açar sözlər**: XX əsrin 20-30-cu illəri, Cənubi Qafqaz, Sovet imperiyası, ərazi-sərhəd məsələləri, regional münaqişələr

# ПРОБЛЕМА ТЕРРИТОРИАЛЬНОЙ ГРАНИЦЫ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ ССР И АРМЯНСКОЙ ССР В 20-30-Х ГОДАХ XX ВЕКА

**Мехтиева Насрин Фамиль**

**Бакинский государственный университет**

**https://orcid.org/0009-0005-6824-1307**

**nesrin.abdull@gmail.com**

**Резюме**

В 1920-1921 годах государства, существовавшие на Южном Кавказе, были оккупированы Советской Россией. После установления Советской власти были проведены временные границы между республиками, существовавшими в 1918-1920 годах. Эти границы стали частью будущего территориально-административного деления Советского Союза. 20-е и 30-е годы XX века стали периодом обострения территориальных споров на Южном Кавказе, особенно между Азербайджаном и Арменией. В это время предпринимались попытки найти решения территориальных вопросов в рамках советской системы. Конфликты между Азербайджаном и Арменией в этот период имели значительное напряжение и стали основой будущих политических противоречий. В частности, исторические территории Азербайджана постепенно стали частью Армянской ССР, начиная с 28 мая 1918 года, а особенно в период с 1920 по 1929 год.

**Ключевые слова:** 20-30 годы XX века, Южный Кавказ, Советская Империя, территориально-пограничные вопросы, региональные конфликты

# TERRITORIAL BORDER PROBLEM BETWEEN THE AZERBAIJAN SSR AND THE ARMENIAN SSR IN THE 20S AND 30S OF THE 20TH CENTURY

**Mehdiyeva Nasrin Famil**

**Baku State University**

**https://orcid.org/0009-0005-6824-1307**

**nesrin.abdull@gmail.com**

1920-1921-ci illərdə Cənubi Qafqazdakı mövcud olan dövlətlər Sovet Rusiyası tərəfindən işğal olundu və burada sovet hakimiyyətinin qurulmasından sonra, respublikalar arasında 1918-1920-ci illərdə mövcud olan müvəqqəti sərhədlər müəyyənləşdirildi. Bu sərhəd xətləri Sovet İttifaqının gələcək ərazi və inzibati bölgüsünün bir hissəsi olaraq nəzərdə tutulurdu. XX əsrin 20-30-cu illəri, Cənubi Qafqazda, xüsusən Azərbaycan və Ermənistan arasında ərazi mübahisələrinin daha da kəskinləşdiyi və sovet hakimiyyəti altında müəyyən həll yolları tapmağa çalışıldığı bir dövr olmuşdur. Azərbaycan və Ermənistan arasında ərazi məsələləri də xüsusilə bu dövrdə gərginləşmiş və siyasi münaqişələrin təməlini atmışdır. Ümumilikdə, Azərbaycanın tarixi əraziləri mərhələli şəkildə, 1918-ci il mayın 28-dən etibarən, xüsusilə 1920-1929-cu illər ərzində "Ermənistan SSR-nin tərkibinə daxil edilmişdir".

1922-ci ildə Cənubi Qafqaz (Zaqafqaziya) Sovet Federativ Sosialist Respublikası qurulduqdan sonra mövcud inzibati-ərazi strukturunun yeni siyasi və iqtisadi tələblərə cavab verməməsi ilə bağlı olaraq bölgədə yeni inzibati və ərazi dəyişikliklərinə başlanıldı. Sovet Rusiyası Cənubi Qafqaz regionunda Bakı neft sahələrini tamamilə öz nəzarətinə alaraq, burada kompleks iqtisadi rayonlar qurmağı və respublikaların iqtisadi güclərini süni şəkildə bərabərləşdirməyi planlaşdırırdı. Mərkəz tərəfindən Cənubi Qafqazda həyata keçirilən sərhəd bölgüsü siyasətində birinci yerdə Sovet Rusiyasının iqtisadi maraqları dayanırdı. 1921-ci il avqustun ayının 15-də RKP(b) MK-nın Qafqaz Bürosu Cənubi Qafqazdakı Sovet Respublikaları arasındakı sərhəd məsələlərini müzakirə edərək, bu respublikaların Xalq Komissarları Sovetlərinin sədrlərinə və Azərbaycan SSR, Ermənistan SSR və Gürcüstan SSR-in İnqilab Komitələrinin rəhbərlərinə, üç respublika arasında sərhəd məsələlərini müəyyən edən bir razılaşma imzalayacaqları barədə müraciət göndərdi. Lakin sonrakı dövrdə belə bir ümumi razılaşma əldə edilmədi. 1922-ci il avqustun 22-də Cənubi Qafqaz Fövqəladə Komissiyasının sədrinin imzası ilə, Azərbaycan SSR, Ermənistan SSR və Gürcüstan SSR-in Fövqəladə Komissiyalarına sərhəd məntəqələri, gözətçilər və nəzarət postlarının 24 saat ərzində ləğv edilməsi barədə verilən sərəncama görə bu üç respublika arasındakı sərhədlər artıq xarici sərhədlər olaraq yalnız Türkiyə və İranın sərhədləri ilə əvəzlənirdi [Мустафаева, 2017, s.177]. 1921-ci ilin iyun ayında RKP (b) Qafqaz Bürosunun Plenumu Cənubi Qafqaz respublikalarında maldarlıqla məşğul olan əhalinin otlaqlara sərbəst çıxışı haqqında qəbul edilən qərar bir sıra anlaşılmazlıqlara və Cənubi Qafqazın üç respublikası arasında sərhəd bölgələrində yaşayan azərbaycanlı və erməni əhalisi arasında qarşıdurmalara səbəb oldu. Bu münaqişələri həll etmək məqsədilə 1922-ci ilin dekabr ayında N.Nərimanov, Myasnikov və S.Orconikidze başda olmaqla, RKP(b) Cənubi Qafqaz MİK-nin xüsusi komissiyası yaradıldı. 1922-ci ilin oktyabr ayının 25-də Azərbaycan SSR Xalq Torpaq Komissarlığının Xarici İşlər Katibliyinə təqdim etdiyi arayışda qeyd olunur ki, Azərbaycan SSR-in ümumi sahəsi 7.989.105 desyatindir. (1 desyatin = 1,09 hektar). 1922-ci il oktyabrın 25-də Azərbaycan SSR Xalq Torpaq Komissarlığının Xarici İşlər Katibliyinə təqdim etdiyi arayışda qeyd olunur ki, Azərbaycan SSR-in ümumi sahəsi 7.989.105 desyatindir (1

desyatin = 1,09 hektar, köhnə yer ölçü vahidi) [Qasımlı, 2016, s.167]. Üç ölkə arasında əldə olunmuş razılaşmaya əsasən, Azərbaycan ərazisindən Qazax qəzasının 379.984 desyatini (4.151 kvadratkilometr) və Zəngəzur qəzasının 405.000 desyatini (4.424 kvadratkilometr) Ermənistana SSR-nin tərkibinə verilir. Keçmiş Tbilisi qəzasından Azərbaycana 79.600 desyatin (869 kvadratkilometr) ərazi verilirdi. Nəticə etibarilə, 1922-ci ildə Azərbaycan 7.989.105 desyatin olan ərazisindən 784.984 desyatin itirir, bunun əvəzində yalnız 79.600 desyatin torpaq əldə edirdi. Beləliklə, Azərbaycanın ərazisi 7.283.721 desyatin (79.577 kvadratkilometr) təşkil edirdi.

Azərbaycan SSR ilə Ermənistan SSR arasında baş verən sərhəd mübahisələri əksər hallarda erməni tərəfinin lehinə qərara bağlanmışdır. Bu məsələyə dair bir neçə nümunəni qeyd edə bilərik. Ermənistan SSR Dilican qəzasının Qulp kəndi ilə Azərbaycan SSR Qazax qəzasının II Şıxlı kəndi arasındakı 940 hektar sahəsi olan Çömçə torpağı Ermənistan tərəfinə, yəni Qulp kəndinə verilib. Ermənistan SSR Dilican qəzasının Kotkənd kəndi ilə Azərbaycan SSR Qazax qəzasının Daşsalahlı kəndi arasındakı 700 hektar sahəsi olan Qaraçöl torpağı Ermənistan SSR-in Kökənd kəndinə verilib [3]. Ermənistan SSR Dilican qəzasının Ləlakənd kəndi ilə Azərbaycan SSR Qazax qəzasının Çaxmalı kəndi arasındakı 69 hektar torpaq sahəsi Azərbaycan SSR-in Ləlakənd kəndinin sərhədlərində qalmışdır. Həmçinin, Cənubi Qafqaz MİK-nin Torpaq Komissiyasının 8 noyabr 1924-cü il tarixli qərarı ilə Ermənistan SSR Dilican qəzasının Noraşen, Moseskənd və Aşağı Qızılbulaq kəndləri ilə Azərbaycan SSR Qazax qəzasının Qacalı və Əlibəyli kəndləri arasındakı mübahisəli 753 desyatin (8,2 kvadratkilometr) olan "Günəş" ərazisi iki hissəyə bölünüb. 1929-cu il iyulun 19-20-də Cənubi Qafqaz MİK-nın yerli komissiyasının iclasında Qazax qəzasının Soflu, Bərxudarlı və Yuxarı Əskipara kəndlərinin Dilican qəzasının tərkibinə verilməsi haqqında qərar müzakirə edildi [Qasımlı, 2016, s.214]. Həmçinin Dilican qəzasının Güney-Xeyrimli kəndi əhalisi Qazax qəzasının Xeyrimli kəndilə birləşdirildi və Ermənistan SSR Dilican qəzasının tərkibinə verilməsilə Qazax qəzasının əhalisi 50 faiz  yaylaq torpaqlarından istifadə hüququndan məhrum edildi. 1921-ci ilin iyulunda Zəngəzurun qərb hissəsi işğal olundu və 1929-cu ildə Zəngəzurun cənub-qərb hissəsi də Ermənistana birləşdirildi [Мустафаева, 2017, s.171]. Zəngəzurun ölkənin əsas hissəsindən ayrılması Naxçıvan bölgəsinin Azərbaycanın əsas hissəsindən təcrid olunması demək idi. Ümumilikdə, 1928-ci il tarixli Mərkəzi İcraiyyə Torpaq Komissiyasının hesabatına əsasən, Azərbaycan SSR-in Cənubi Qafqaz Federasiyasının digər respublikaları ilə ərazi-sərhəd mübahisələri nəticəsində, Ermənistan SSR-ə 75,904 desyatin (829,2 kvadratkilometr) məhsuldar torpaq və 79,208 desyatin (865,3 kvadratkilometr) isə "yararsız" torpaq sahəsi ayrılmışdır [Baxşəliyev, 2022].

Sovet Rusiyası tərəfindən istila edildikdən sonra Azərbaycan SSR ilə Ermənistan SSR arasında həyata keçirilən ərazi və inzibati dəyişikliklər, xalqımızın iqtisadi həyatı və tarixi təbii sərhədləri nəzərə alınmadan həyata keçirilirdi. Bu siyasət, Sovet İttifaqının birbaşa müdaxiləsi nəticəsində Azərbaycan ərazilərinin parçalanması və Ermənistan SSR-in sərhədlərinin genişlənməsi məqsədini güdürdü. Tarix boyu Azərbaycana qarşı irəli sürülən əsassız ərazi iddialarının yerinə yetirilməsi erməni dairələrini daha da cəsarətləndirdi və onların fəaliyyətini artırdı. Bu, eyni zamanda ermənilərin "Böyük Ermənistan" yaratmaq arzusunun gerçəkləşməsi üçün real şərait yaratdı. 44 günlük Vətən müharibəsində, eyni zamanda 23 saatlıq antiterror əməliyyatları ilə tarixi qələbə qazanan Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərək tarixi ədaləti bərpa etdi. Ermənistanın hərbi qüvvələri tədricən işğal etdiyi və 30 il ərzində zəiflətdiyi, mühafizə xətləri və möhkəmləndirilmiş müdafiə qurğuları ilə təmin etdiyi əzəli torpaqlarımız öz sahibinə qayıtdı. Bu möhtəşəm, şanlı Zəfər, ölkəmizin müdafiə potensialının gücləndirilməsi, Silahlı Qüvvələrdə aparılan islahatlar və Müzəffər

Ali Baş Komandanın ordu quruculuğu sahəsindəki məqsədyönlü və strateji addımlarının nəticəsində mümkün olmuşdur.


**Ədəbiyyat:**

Azərbaycan tarixi. Yeddi cilddə: VI cild (aprel 1920 - iyun 1941). Bakı. "Elm". 2008. 568 səh. + 48 səh. illüstrasiya.

Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası /Baş redaktor Y.M.Mahmudov: 2 cilddə, I c., Bakı: Lider, 2004, 440 s.; II c., –Bakı: Lider, –2005, –475 s.

Baxşəliyev, R. (2 fevral, 2022) Tarixin acı gerçəkliyi. "Azərbaycan" qəzeti, Bakı.

Hüseynova, İ. (2008) Heydər Əliyev və Qafqazda sülh prosesi. –Bakı: Çaşıoğlu, –672 s.

Nəsibzadə, N. (17 iyun, 1989) Sərhədlər. "Elm" qəzeti, Bakı,

Rəhmanzadə, Ş. (2010) Zaqatala dairəsi 1917-1918-ci illərdə: ictimai seçim situasiyasında etnosiyasi identiklik axtarışları // Tarix və onun problemləri, №3, s. 2-79

Qasımlı M.C. (2016) Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix – olduğu kimi (1920-1994-cü illər). – Bakı: Azərbaycan Respub likasının Prezidenti yanında Elmin İnkişafı Fondu, –520 s.

Гусейнова И.М. (2018) История народов Кавказа. –Баку, –1248 с.

Мустафаева С.О. (2017) Изменения границ и территорий на Южном Кавказе (1917-1922 гг.) –Баку: Европа, –304 с.

# MULTICULTURAL VALUES IN HEYDAR ALIYEV'S POLITICAL AGENDA

**Alivardiyeva Tarana Alivardi**

**Baku State University**

**https://orcid.org/0009-0004-4354-673X**

**taranaaliverdiyeva@mail.ru**

**Rəyçi:**

**Vəliyev Orxan Həsən oğlu,**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru**

**Abstrect**

Heydar Aliyev's policies on multiculturalism and tolerance were key to ensuring Azerbaijan's social and political stability. Despite facing obstacles due to his Muslim background during the Soviet era, Aliyev's strong connection to national and religious values played a pivotal role in shaping his leadership. He emphasized the importance of Islam and national identity in fostering societal unity and stability. Aliyev also regarded Azerbaijan's multi-ethnic and multi-cultural makeup as a strength, ensuring equal rights for all ethnic groups and fostering a sense of national harmony. These approaches strengthened Azerbaijan's internal cohesion and enhanced its international standing.

**Key words:** Heydar Aliyev, multiculturalism, tolerance, Islam, national and religious values, Azerbaijan, social stability, ethnic diversity.

# СИСТЕМА МНОГОКУЛЬТУРНЫХ ЦЕННОСТЕЙ В ПОЛИТИЧЕСКОМ КУРСЕ ГЕЙДАРА АЛИЕВА

**Аливердиева Тарана Аливерди**

**Бакинский государственный университет**

**https://orcid.org/0009-0004-4354-673X**

**taranaaliverdiyeva@mail.ru**

**Резюме**

Политика Гейдара Алиева в области мультикультурализма и толерантности сыграла ключевую роль в обеспечении социальной и политической стабильности Азербайджана. Несмотря на препятствия, с которыми он столкнулся из-за своего мусульманского происхождения в советский период, тесная связь Алиева с национальными и религиозными ценностями оказала решающее влияние на его лидерство. Он подчеркивал важность ислама и национальной идентичности для укрепления общественного единства и стабильности. Алиев также рассматривал многонациональный и многокультурный состав Азербайджана как его богатство, обеспечив равные права для всех этнических групп и способствовав формированию национального согласия. Эти подходы укрепили внутреннюю сплоченность страны и повысили её международный авторитет.

**Ключевые слова:** Гейдар Алиев, мультикультурализм, толерантность, ислам, национальные и религиозные ценности, Азербайджан, социальная стабильность, этническое разнообразие.

# HEYDƏR ƏLİYEV SİYASİ KURSUNDA BİR ÇOX MƏDƏNİ DƏYƏRLƏR SİSTEMİ

**Əliverdiyeva Təranə Əliverdi**

**Bakı Dövlət Universiteti**

**https://orcid.org/0009-0004-4354-673X**

**taranaaliverdiyeva@mail.ru**

Azərbaycanın müasir siyasi və sosial inkişafında multikulturalizmin və tolerantlığın təşviqi, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında xüsusi əhəmiyyət kəsb etmişdir. Onun həyata keçirdiyi siyasət, müxtəlif etnik və dini qrupların birgə və harmonik şəkildə yaşaması prinsipinə əsaslanırdı. Heydər Əliyev, Azərbaycan cəmiyyətinin birgəyaşayış modelini yalnız sosial harmoniya və qarşılıqlı anlaşma müstəvisində deyil, həm də milli birliyin gücləndirilməsi və dövlətin inkişafı üçün mühüm bir faktor olaraq görürdü.

Azərbaycanın multikulturalizm siyasətinin əsası, xalqın tarixi, mədəni və dini ənənələrinə dərindən kök salmışdır. Heydər Əliyev, Azərbaycanı müxtəlif etnik və dini icmaların barış içində yaşadığı bir ölkə olaraq xarakterizə edirdi və bu xüsusiyyətin dövlətin daxili və xarici siyasətindəki əsas strateji istiqamətləri formalaşdırdığına inanırdı. O, "Azərbaycan bütün azərbaycanlıların vətənidir" şüarı ilə ölkədəki müxtəlif etnik qrupların eyni hüquqlara malik olduğunu, onların mədəniyyətlərini və dini inanclarını sərbəst şəkildə yaşaya biləcəklərini bəyan edirdi.

Bu yanaşmanın mərkəzində Azərbaycançılıq ideologiyası dururdu ki, bu da hər bir azərbaycanlının milli kimliyini və birliyini təmin etməyə yönəlmiş bir konsepsiya olaraq, ölkədəki bütün etnik və dini qrupların üzləşdiyi çağdaş siyasi və sosial çağırışlara cavab verirdi. Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsi, həmçinin dövlətin sosial və mədəni plüralizmi dəstəkləyən siyasətinin əsasını təşkil edirdi. Bu ideologiya, Azərbaycan cəmiyyətinin müxtəlifliyini bir zənginlik olaraq qiymətləndirir və bu müxtəlifliyi dövlətin ümumi rifahı və inkişafı üçün mühüm bir resurs olaraq görürdü.

Heydər Əliyevin multikulturalizm siyasətinin daha konkret tətbiqi, ölkənin hüquqi və siyasi strukturunda əksini tapmışdır. Bu baxımdan, 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası, müxtəlif etnik və dini icmaların hüquqlarını qorumağa yönəlmiş mühüm hüquqi sənəd olmuşdur. Konstitusiyada Azərbaycanın dövlət quruluşunun əsas prinsipləri arasında din-dövlət ayrılığı, insan və vətəndaş hüquqlarının təmin olunması, müxtəlif mədəniyyətlərin inkişafı üçün şəraitin yaradılması xüsusilə vurğulanmışdır.

Bundan əlavə, Heydər Əliyev, din və dövlətin münasibətlərini tənzimləmək məqsədilə müxtəlif hüquqi islahatların həyata keçirilməsini dəstəkləmişdir. 2001-ci ildə yaradılan "Azərbaycan Respublikasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi", ölkədə dini azadlığın təmin edilməsi və dini müxtəlifliyin qorunması istiqamətində mühüm addım olmuşdur. Bu addımlar, həmçinin Azərbaycan cəmiyyətində dini tolerantlığın möhkəmlənməsinə və müxtəlif dini icmalar arasında qarşılıqlı hörmət və anlayışın inkişafına xidmət etmişdir.

Ümummilli Liderin multikulturalizmə dair siyasəti yalnız daxili məsələlərlə məhdudlaşmamış, həmçinin beynəlxalq səviyyədə Azərbaycanı mədəniyyətlərarası dialoqun tərəfdarı və təşviqatçısı olaraq tanıtmışdır. Heydər Əliyev, Azərbaycanın multikulturalizm modelinin qlobal ölçüdə təbliğinə, ölkənin xarici siyasətində həmkar dövlətlərlə, o cümlədən beynəlxalq təşkilatlarla daha

yaxın əməkdaşlıq qurulmasına şərait yaratmışdır. Bu yanaşma, xüsusilə qlobal miqyasda milli dövlətlərin etnik və dini müxtəlifliklərlə bağlı qarşılaşdığı problemlərin həllinə Azərbaycanın töhfə verməsinə imkan yaratmışdır.

Azərbaycanın multikulturalizm təcrübəsi, həmçinin Azərbaycan dövlətinin beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə və ölkənin regional və qlobal miqyasda nüfuzunun artırılmasına mühüm təsir göstərmişdir. Bu, Azərbaycanın daxili siyasi sabitliyinin və sosial həmrəyliyinin qorunmasında əsaslı rol oynamışdır. Heydər Əliyevin multikulturalizmə verdiyi strateji əhəmiyyət, həmçinin sosial harmoniyanın təmin edilməsi və ölkənin inkişafı üçün zəmin yaratmışdır.

Beləliklə, Heydər Əliyevin multikulturalizm və tolerantlıq siyasəti, Azərbaycan cəmiyyətində etnik və dini müxtəlifliklərin nəinki qorunması, həm də bu müxtəlifliyin ölkənin ümumi rifahına xidmət etməsi üçün nəzərdə tutulan geniş miqyaslı bir sosial və siyasi strategiyanı təşkil etmişdir. Bu siyasət, ölkənin həm daxili, həm də xarici siyasətində dayanıqlı və uzunmüddətli uğurların əsasını qoymuş, Azərbaycanın qlobal miqyasda etnik və dini müxtəlifliklərə qarşı müsbət münasibətini təbliğ etmişdir.

Heydər Əliyevin Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dəyərlərin təşviqi sahəsindəki fəaliyyətləri, xüsusilə onun Sovet İttifaqı rəhbəri olmaq üçün qarşılaşdığı maneələr və sonrakı siyasəti, ölkənin sosial və siyasi sabitliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Əliyevin rəhbərliyi dövründə həyata keçirdiyi siyasətlər, din və milli kimlik məsələlərindəki fəlsəfi yanaşmaları, həmçinin İslam dininə və milli-mənəvi dəyərlərə verdiyi önəm, Azərbaycanın müstəqillik əldə etdikdən sonra həm daxili, həm də xarici siyasətindəki əsas prioritetləri formalaşdırmışdır.

Heydər Əliyevin Sovet İttifaqı rəhbərliyinə yüksəlməsində qarşılaşdığı əsas maneələrdən biri, onun müsəlman mənşəyi idi. Sovet dövründə, xüsusilə Stalinin ölümündən sonra, ateist ideologiyanın gücləndiyi bir mühitdə, müsəlman bir şəxsiyyətin yüksək vəzifə tutması həm Sovet rəhbərliyində, həm də ictimai və siyasi mühitdə mənfi qarşılanmışdı. Lakin, bu mənfi münasibət, Əliyevin dini və milli kimliyinə daha da möhkəm bağlanmasına səbəb olmuşdur. Bu vəziyyət, onu yalnız bir dövlət xadimi kimi deyil, həm də öz xalqının tarixi və dini köklərinə sadiq bir lider kimi formalaşdırmışdır. Onun milli-mənəvi dəyərlərə bağlılığı, Azərbaycan xalqının mədəni və dini irsinin qorunmasının dövlət siyasətinin vacib bir hissəsi olaraq nəzərdən keçirilməsini təmin etmişdir.

Heydər Əliyev, Azərbaycan xalqının özünə inamını və milli birlikdə olan ruhunu bərpa etmək üçün İslamın dirçəlişini zəruri sayırdı. O, İslamı yalnız bir dini təlim olaraq deyil, eyni zamanda, Azərbaycan xalqının mədəniyyətində və həyatında əhəmiyyətli yer tutan bir mütərəqqi qüvvə kimi təqdim edirdi. 1993-cü ilin sentyabrında Təzəpir məscidində etdiyi çıxışda, Məhəmməd Peyğəmbərin (s.ə.s.) İslam dininin əsrlər boyu insanların həyatında oynadığı mühüm rolu vurğulayaraq, dinin insanlara təmizliyi, əxlaqi dəyərləri və sağlamlığı təşviq etdiyini ifadə etmişdir. Bu yanaşma, İslamın yalnız bir inanclar toplusu olmaqdan çıxaraq, sosial və mədəni bir fenomen olaraq cəmiyyətin mənəvi bünövrəsinin gücləndirilməsində əhəmiyyətli rol oynamasını təmin etmişdir.

Heydər Əliyev, İslamın həm də siyasi normallaşma prosesində müsbət təsir göstərən bir amil olduğunu bildirmişdir. Onun fikrincə, dinin cəmiyyətdəki tərbiyəvi və sosial rolu, sabitliyin və milli həmrəyliyin təmin edilməsində əsas faktorlardan biri olmuşdur. 1994-cü il avqustun 26-da Təzəpir məscidində keçirilən mərasimdə etdiyi çıxışda, dinin tərbiyəvi əhəmiyyətini vurğulayaraq, İslamın

insanları yalnız dini müstəvidə deyil, həm də sosial və siyasi müstəvidə birləşdirən güclü bir vasitə olduğunu qeyd etmişdir.

Azərbaycanın çoxmillətli olması, Heydər Əliyev tərəfindən ölkənin təbii sərvəti kimi qiymətləndirilmişdir. O, Azərbaycanda müxtəlif etnik və dini qrupların birlikdə yaşamasını, bir-birini tamamlayan və zənginləşdirən bir sosial struktur olaraq görürdü. 1993-cü ildəki çıxışında, Azərbaycanın çoxmillətli bir ölkə olduğunu və bu xüsusiyyətin ölkənin sosial və siyasi sabitliyinin təmin olunmasında mühüm rol oynadığını qeyd etmişdir. Heydər Əliyevin siyasətində, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların bərabər hüquqlara malik olması əsas prinsiplərdən biri olmuşdur.

Azərbaycanın çoxmillətli və çoxmədəniyyətli olması, onun sosial stabilliyinin təməlini təşkil edən faktor olmuşdur. Dövlət, milli azlıqların hüquqlarını qoruyaraq, onlara mədəniyyətlərini sərbəst şəkildə inkişaf etdirməyə imkan yaratmışdır. Bu yanaşma, ölkə daxilindəki müxtəlif sosial qruplar arasında qarşılıqlı hörmət və anlayışın yaranmasına səbəb olmuşdur. Eyni zamanda, bu siyasət Azərbaycanın xarici güclər tərəfindən milli azlıqlardan istifadə edilərək daxili siyasətinə müdaxilənin qarşısını almağa xidmət etmişdir.

Heydər Əliyev, "Azərbaycan bütün azərbaycanlıların vətənidir" şüarı ilə, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşlarını birləşdirən bir ideologiya təklif etmişdir. Bu, yalnız ölkənin daxili siyasətində deyil, həm də Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun artırılmasına xidmət etmişdir. Azərbaycançılıq ideologiyası, həmçinin etnik və dini müxtəliflikləri bir zənginlik olaraq qəbul edən, bütün xalqların öz mədəniyyətlərini və dini inanclarını sərbəst şəkildə ifadə etmələrini təmin edən bir model kimi formalaşmışdır.

Azərbaycanın multikulturalizm siyasəti, həmçinin ölkə daxilində və xarici siyasətdə uğurlar əldə etməsinə, regionda sülh və sabitliyin təmin olunmasına mühüm töhfələr vermişdir. Azərbaycanın çoxmədəniyyətli və çoxmillətli cəmiyyətində yaşayan müxtəlif xalqlar və dini icmalar arasında qarşılıqlı hörmətin təşviqi, həmçinin etnik və dini münaqişələrin qarşısının alınması, ölkənin daxili təhlükəsizliyini təmin etmişdir.

Heydər Əliyevin multikulturalizm, tolerantlıq və dini dəyərlərə verdiyi önəm, Azərbaycanın müstəqillik dönəmində sosial, siyasi və mədəni sabitliyinin qurulmasına əsaslı təkan vermişdir. Onun milli kimlik və dinlə bağlı siyasəti, Azərbaycan xalqının mədəni və mənəvi dəyərlərinə sadiq qalaraq, cəmiyyətin bütün təbəqələri arasında həmrəyliyin və birlik hissinin güclənməsinə xidmət etmişdir. Heydər Əliyevin bu siyasətləri, həmçinin Azərbaycanın beynəlxalq münasibətlərindəki mövqeyini möhkəmləndirərək, ölkənin regionda və dünyada sülh və qarşılıqlı anlaşma tərəfdarı kimi tanınmasına imkan yaratmışdır.

**Ədəbiyyat:**

Abdulla Adil Əl-Fəlah. (2007) Heydər Əliyev və milli-mənəvi dəyərlər. –Bakı: Qismət, –108 s., c.31.

Aran, S. (23 noyabr, 2023) Heydər Əliyev və multikulturalizm siyasəti. // 525-ci qəzet. -№ 212. - S. 7.

Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqi.

http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf.

Heydər Əliyevin Bakıda Təzəpir məscidində Mövlud bayramı münasibətilə keçirilən mərasimdəki nitqi. “Azərbaycan” qəzeti, 27 avqust 1994-cü il.

Гусейнов А. (2024) Некоторые критические и сравнительные заметки об общем состоянии ислама и исламоведения в Азербайджане (XX век – начало XXI века). –Баку: AVE Print, –122 с., с.31.

Ибрагимова Д. (2015) Азербайджанский мультикультурализм: истоки, тенденции, перспективы. // Государственное управление. -№4. -С. 213-218.

# “YAŞIL DÜNYA” NAMİNƏ HƏMRƏYLİK İLİNDƏ AZƏRBAYCANIN DAYANIQLI İNKİŞAFA SÖYKƏNƏN EKOLOJİ SİYASƏT MODELİ

**İsaqova Cəmilə Arzu**

**Bakı Dövlət Universiteti**

**https://orcid.org/0009-0005-7254-0676**

**isaqovacemile707@gmail.com**

**Rəyçi:**
**Səlimov Şirxan Dadaş oğlu,**
**Tarix elmləri doktoru, professor**

**Xülasə**

Məqalədə müstəqil Azərbaycanda ekologiyanın qorunması, ətraf mühitin mühafizəsinin təmin edilməsi istiqamətində atılan əhəmiyyətli addımlardan bəhs edilir. Göstərilir ki, ətraf mühitin dayanıqlığını təmin etmək üçün iqtisadi və sosial amillər birgə nəzərə alınmalı, sosial ədalət təmin edilməlidir. Azərbaycan Prezidentinin sərəncamı ilə 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar ölkədə həyata keçirilən tədbirlər barədə məlumat verilir. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Müəllifin fikrincə, Azərbaycan beynəlxalq ekoloji əməkdaşlıq sahəsində yüksək fəallıq nümayiş etdirir. Məqalədə bu il Azərbaycanda keçiriləcək COP 29-un əhəmiyyətinə toxunulur, qeyd edilir ki, ekoloji cəhətdən təmiz enerji növlərinin yaradılması, ətraf mühitin qorunması dünya birliyi üçün də böyük aktuallıq kəsb edir, ümumbəşəri xarakter daşıyır.

**Açar sözlər:** ekologiya, yaşıl dünya, İlham Əliyev, Dayanıqlı İnkişaf Məqsədləri, COP29

# МОДЕЛЬ ЭКОЛОГИЧЕСКОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА, ОСНОВАННОЙ НА УСТОЙЧИВОМ РАЗВИТИИ В ГОД СОЛИДАРНОСТИ ЗА «ЗЕЛЕНЫЙ МИР»

**Исагова Джамиля Арзу**

**Бакинский государственный университет**

**https://orcid.org/0009-0005-7254-0676**

**isagovacemile707@gmail.com**

**Резюме**

В статье говорится о важных шагах, предпринятых в направлении охраны и защиты окружающей среды в независимом Азербайджане. Показано, что экономические и социальные факторы должны учитываться совместно и обеспечивать социальную справедливость, чтобы обеспечить устойчивость окружающей среды. Дается краткая информация о мерах, реализуемых в стране в связи с объявлением 2024 года по распоряжению президента Азербайджана «Годом солидарности зеленого мира». Создание видов и их транспортировка на мировые рынки является приоритетом энергетической политики Азербайджана. По мнению автора, Азербайджан проявляет высокую активность в сфере международного экологического сотрудничества. В статье затрагивается важность COP 29, которая пройдет в Азербайджане в этом году, а также отмечается, что создание экологически чистых видов энергии, зашита окружающей среды является актуальным для всего мирового собщества.

**Ключевые слова:** экология, зеленый мир, Ильхам Алиев, цели устойчивого развития, COP29

# AZERBAIJAN'S ENVIRONMENTAL POLICY MODEL BASED ON SUSTAINABLE DEVELOPMENT IN THE YEAR OF SOLIDARITY FOR “THE GREEN WORD”

**Isaqova Camila Arzu**

**Baku State University**

**https://orcid.org/0009-0005-7254-0676**

**isaqovacemile707@gmail.com**

The Republic of Azerbaijan takes important measures in the direction of environmental protection, rational exploitation of our rich natural resources, stable maintenance of the ecological situation and continuous improvement, and this is an integral part of the state policy. Creation of a legal framework and improvement of the existing legislation in this field on May 22, 2004, the President of the Republic of Azerbaijan Ilham Aliyev approved the "State Program on effective use of summer and winter pastures and hayfields and prevention of desertification in the Republic of Azerbaijan". The purpose of the State Program is to improve the existing normative legal framework to ensure efficient use of pastures and hayfields; was to ensure the protection of pastures and meadows, prevention of soil salinization, and to increase the efficiency of the use of land, water and other natural resources. (On the approval of the "State Program on effective use of summer-winter pastures and hayfields and prevention of desertification in the Republic of Azerbaijan").

As it is known, at the end of last year, the Decree of the President of the Republic of Azerbaijan was signed on the declaration of 2024 as the "Year of Solidarity for the Green World" in the Republic of Azerbaijan. It should be recalled that 2010 was declared the "Year of Ecology" in Azerbaijan. This once again proves that great attention and care is paid to ecology and solving environmental problems at the state level in our country. On February 18, 2010, a meeting dedicated to environmental problems was held in the presence of the President of the country, Ilham Aliyev. According to the President speaking at the event, the environment faced serious problems because ecological issues were not paid attention to before. For example, on the Absheron Peninsula, soil is polluted, oil waste and household waste have caused serious concern.equires the implementation of regular measures**.**

Regarding the declaration of this year - 2024 as the "Year of Solidarity for the Green World", this very important order states that "Karabakh and East Zangezur, freed from occupation, as well as the Nakhchivan Autonomous Republic have been declared a green energy zone. Environmental protection is a priority in the large-scale restoration and reconstruction process in liberated areas. In those areas, innovative approaches such as "smart city" and "smart village" are applied, and the ecosystem is restored.

Creation of green energy types and transportation of green energy to world markets is the priority of Azerbaijan's energy policy. Azerbaijan aims to increase the share of renewable energy sources in the installed capacity of electricity production to 30 percent by 2030" ("Azerbaijan" newspaper, December 26, 2023).

In connection with the intense environmental conditions on our planet, the issue of the need to use "green" standards in construction works has also become relevant. These standards should be regulated by environmental regulations and aim to reduce the pressure on nature and create

favorable conditions for people. As it is known, 11 of the 17 Sustainable Development Goals approved by the UN General Assembly are related to construction. In design, green standards play a regulatory role as a mechanism for realizing these goals and creating an environmentally safe place for living and working. Issues such as ecological protection and environmental protection are reflected in the goals of the UN Goals such as "Clean water and sanitation", "Efficient and clean energy", "Combating climate change", "Protection of the marine ecosystem", "Protection of the soil ecosystem". In 2016, the President of the Republic of Azerbaijan, who attaches great importance to international cooperation in solving global problems, signed a decree on the establishment of the National Coordinating Council for Sustainable Development. Our country joined the Sustainable Development Goals approved for 2016-2030 at the Sustainable Development Summit of United Nations member states held on September 25-27, 2015 (https://president.az/az/articles/view/21314)

The decree states that "the set goals and objectives are based on the Millennium Development Goals, covering the economic, social and ecological aspects of sustainable development, and determine the next development directions."

During this period, two goals should be realized: 1. high-quality ecological environment and 2. green energy space. What does a high-quality ecological environment include? This is a quality and clean environment in which resources are efficiently used, the risks that economic and demographic growth may pose to the environment in the future are reduced, and the share of greenery in the country should be increased. Economic growth should not harm the quality of the ecological environment. Azerbaijan's useless land areas should be brought into circulation, our existing resources should be restored. The population's demand for quality water should be met by more efficient use of water resources. (Azerbaijan 2030: National Priorities for socio-economic development/https://president.az/az/articles/view/50474).

Although Azerbaijan is an oil and gas country, it attaches considerable importance to alternative energy sources and to the production of "clean energy" - "green energy" by taking advantage of these sources. Our country aims to reduce the amount of greenhouse gases by 35 percent by 2030, and by 40 percent by 2050. It should also be noted that since 2008, September 21 has been celebrated as Zero Emission Day. As the name suggests, the goal of that day is to prevent the emission of carbon dioxide into the atmosphere and reduce it to zero. Azerbaijan is one of the countries with high potential for renewable energy sources. The technical potential of renewable energy sources of our country is 135 gigawatts on land and 157 gigawatts at sea. The economic potential of renewable energy sources is 27 gigawatts, including 3 thousand megawatts of wind energy, 23 thousand megawatts of solar energy, bioenergy potential of 380 megawatts. The potential of mountain rivers is estimated at 520 megawatts (Azerbaijan" newspaper, February 24, 2024).

Holding the 29th session of the Conference of the Parties to the UN Framework Convention on Climate Change, COP29, one of the world's largest and most important interstate events, in Azerbaijan this year is commendable as the next solemn victory of President Ilham Aliyev. This is the biggest success of our foreign policy after our chairmanship of the Non-Aligned Movement and our membership in the Security Council. At the same time, it is a solid answer to some circles that have been conducting an ugly campaign against Azerbaijan. In the near future, the green energy produced in Azerbaijan will be exported to world markets. A number of European countries will strengthen their energy security thanks to the green energy they will receive from Azerbaijan (Vergiler newspaper, January 19, 2024).

The strong political will demonstrated by the President of Azerbaijan Ilham Aliyev and Azerbaijan's hosting of the COP 29 clearly prove that our country is an influential, reliable partner, a powerful state both in the region and internationally. At the modern stage, the policy carried out in the direction of protecting ecology and the environment in our republic is once again a high embodiment of the course determined by the national leader Heydar Aliyev, his wise ideas, and historical-political succession.

**References:**

Decree of the President of the Republic of Azerbaijan on declaring 2024 as the "Year of Solidarity for the Green World" in the Republic of Azerbaijan. "Azerbaijan" newspaper, December 26, 2023

Decree of the President of the Republic of Azerbaijan on the establishment of the National Coordinating Council for Sustainable Development of the Republic of Azerbaijan / https://president.az/az/articles/view/21314

Azerbaijan 2030: National Priorities for socio-economic development/ https://president.az/az/articles/view/50474

On the approval of the "State Program on effective use of summer-winter pastures and hayfields and prevention of desertification in the Republic of Azerbaijan".

Ilham Aliyev's "green world" mission. "Azerbaijan" newspaper, February 24, 2024”

Challenges to unite global initiatives for a green world. Vergiler newspaper, January 19, 2024. https://vergiler.az/news/article/27715.html

# AVROPA İTTİFAQI-AZƏRBAYCAN ƏMƏKDAŞLIĞI: YAŞIL İQTİSADİYYATA KEÇİD

**Dadaşlı Rahil Rəşadət**

**Xəzər Universiteti**

**https://orcid.org/0009-0003-9771-8253**

**rahil.dadashli@khazar.org**

**Rəyçi:**

**Səlimov Şirxan Dadaş oğlu,**

**Tarix elmləri doktoru, professor**

**Xülasə**

1. empatiya qurmağı bacarmaq - sosial işçi həddən artıq emosional müdaxilə etmədən başqalarının hisslərini başa düşməyi, özünü onların yerinə qoymağı və hisləri paylaşmağı bacarmalıdır.

2. səbrli olmaq – sosial xidmətə ehtiyacı olan şəxslərin problemlərini müəyyən etmək və ya onları həll etmək üçün bəzən müəyyən vaxt tələb edilə bilər. Bu səbəbdən də sosial işçi səbrli olmalı, üzləşdiyi çətinliklə qarşısında dözümlülük nümayiş etdirməlidir.

3. dinləmə bacarığı - diqqətlə və mühakimə etmədən dinləyə bilmək yardıma ehtiyacı olan şəxsin ehtiyaclarını başa düşmək üçün açardır. Bu səbəbdən də problemi düzgün müəyyən etmək və onun həlli yollarını tapmaq üçün şəxs diqqətlə dinlənilməli, zəruri hallarda ona əlavə suallar ünvanlanmalıdır.

3. ön fikirli olmama - sosial işçi keçmiş həyatından və ya şəxsi seçimlərindən asılı olmayaraq

sosial xidmətə ehtiyacı olan insanların ləyaqətinə və dəyərlərinə hörmətlə yanaşmalı, onların ləyaqətinin alçaldılmasına yönəlmiş hərəkətlərdən çəkinməli, onlara qarşı əvvəlcədən hər hansı ön mühakimə irəli yürütməməlidir.

4. tənqidi düşüncə - sosial işçi yaranmış vəziyyətləri dəqiq qiymətləndirmək, potensial nəticələri təxmin etmək və effektiv həllər yaratmaq qabiliyyətinə malik olmalıdır.

5. ünsiyyət bacarıqları - həm yardıma ehtiyacı olan şəxslərlə, həm də digər şəxslərlə işləyərkən sosial işçi aydın və şəfqətli ünsiyyət qurmalı, həmsöhbətində özünə qarşı inam və güvən formalaşdıracaq ünsiyyət üslubundan istifadə etməlidir.

6. dözümlülük - sosial işçilər çətin və emosional yüklü fəaliyyət həyata keçirdiklərindən tükənmişliyin və ruhdan düşmənin qarşısını almaq üçün möhkəm olmalıdırlar.

7. etik dürüstlük – sosial işçilər peşəkar etika və məxfilik standartlarına riayət etməli, xidmət göstərdikləri insanların şəxsi məlumatlarının gizliliyi təmin etməlidirlər.

Digər bir tələb isə sosial işçilərin təhsili ilə əlaqədar müəyyən edilmişdir. Təbiidir ki, hər bir dövlətdə sosial işçilərin təhsilinə və ixtisasına dair tələblər fərqli ola bilər. Lakin, ümumi yanaşsaq bəzi standart təhsil tələbləri müəyyən etmək mümkündür:

1. Sosial iş ixtisası üzrə bakalavr dərəcəsi - bir çox ölkələrdə sosial işçi olmaq üçün bu ixtisas üzrə minimum təhsil əsasdır. Bu ixtisas üzrə əsasən sosial işin prinsipləri, insan davranışı, sosial ədalət və rifah sahəsində fundamental biliklərin mənimsənilməsinə diqqət yetirir.

2. Sosial iş ixtisası üzrə magistr dərəcəsi - klinik sosial iş də daxil olmaqla rəhbər (qabaqcıl) vəzifələr üçün adətən magistr ixtisas dərəcəsi tələb olunur.

3. Lisenziya və ya sertifikatlaşdırma - bir çox ölkələrdə sosial işçilərdən qanuni fəaliyyət göstərmək üçün lisenziya və ya sertifikat tələb edilir. Məsələn, ABŞ-də sosial işçilər Sosial İş Şuraları Assosiasiyası tərəfində keçirilmiş imtahandan keçdikdən sonra sosial işçi kimi fəaliyyət göstərə bilərlər.

Qeyd edilənlərlə yanaşı yerinə yetirdikləri işin xüsusiyyətinə görə sosial işçilər hüquqi məsuliyyət də daşıyırlar. Belə ki sosial işçilər, sosial xidmət göstərdikləri şəxsə aid fərdi məlumatların məxfiliyini qorumağa və onları yaymamağa borcludurlar. Həmçinin, sosial işçilər xüsusilə uşaqlar, qocalar və ya əlilliyi olan insanlarla bağlı sui-istifadə və ya etinasızlıq halları barədə vaxtında aidiyyəti dövlət orqanlarına məlumat verməlidirlər. Eləcə də görülmüş işlər barədə dəqiq, vaxtında və qanuna uyğun qeydlərin aparılması, işlərin sənədləşdirilməsi sosial işçinin fəaliyyətinin mühüm aspektlərindən biridir (Vəliyev, 2022).

"Sosial xidmət haqqında" Qanunda sosial işçi ilə yanaşı sosial xidmətçiyə də anlayış verilmişdir ki, qanunun 1.0.6-cı maddəsində göstərilir ki, sosial xidmətçi - sosial-məişət xidmətləri göstərən şəxsdir (2.).

Bəzən təcrübədə sosial işçi ilə sosial xidmətçi anlayışları eyniləşdirilərək onlar arasında heç bir fərq qoyulmur. Ancaq yuxarıda da qeyd etdiyimiz kimi öz ixtisas dərəcəsinə, təhsilinə və yerinə yetirdiyi işin xüsusiyyətlərinə görə bu iki sosial xidmət subyekti bir-birindən fərqlənirlər. Sosial xidmətçi institutu hələ sovet dövründə bəri mövcud olmuş sosial institutdur. Onlar sosial xidmət sektorlarının nəzdində fəaliyyət göstərir, ehtiyacı olan tənha, yaşlı (ahıl) adamlara, fiziki çatışmazlığı, həmçinin əlilliyi olan şəxslərə və s. sosial xidmət göstərirlər. Sosial xidmətçi tərəfindən ehtiyacı olan şəxslər üçün gündəlik alış-verişin edilməsi, xəstələnərkən onlara

dərmanlarını alınıb gətirilməsi, həyati tələbatlarının ödənilməsində onlara köməklik göstərilməsi (həmin şəxslərin çimizdirilməsi və s.), bir sözlə qayğı göstərilməsi formasında sosial xidmətlər həyata keçirilir.

Sosial işçilər isə bundan tamamilə fərqli mütəxəssislər olmaqla  həssas qrupa mənsub hər hansı bir şəxsin probleminin aşkara çıxarılmasında, həmin problemin ortaya çıxmasına səbəb və şərait yaradan amillərin aydınlaşdırılmasında, bu problemin dövlət tərəfindən aradan qaldırılması yollarının işlənilib hazırlanmasında və ümumilikdə şəxsə hansı növ sosial xidmətin gösətilməsinin zəruriliyini müəyyən etməklə məşğul olan şəxsdir. “Sosial xidmət haqqında” Qanuna əsasən, sosial işçilər sosial xidmətin formasını, növünü, sosial xidmətin göstərilməsi yerini və s. müəyyən edirlər. Sonra onların tərtib etdikləri fərdi planlar əsasında sosial xidmətçilər tərəfindən çətin həyat şəraitində olan insanlara sosial-məişət xidmətləri göstərilir.

Bu gün sosial işçinin fəaliyyətinin effektivliyinin artırılması müasir çağırışlara cavab verən yeni tendensiyaların inteqrasiyasından əhəmiyyətli dərəcədə asılıdır. Belə ki, rəqəmsal transformasiya və informasiya texnologiyalarının cəmiyyət həyatının bütün sahələrinə inteqrasiyası sosial işçilərin fəaliyyətində də bu texnologiyaların tətbiqini zəruri edir. Artıq müasir sosial dövlətlərdə videozənglər və onlayn platformalar vasitəsilə uzaqdan sosial xidmətlərin göstərilməsi təmin edilir. Bununla da, sosial işçilər kənd yerlərində və ya digər ucqar nöqtələrdə yaşayan vətəndaşlara səmərəli sosial xidmətlər təqdim edə bilirlər. Təəssüflə qeyd etməliyik ki, ölkəmizdə sosial işçilərin fəaliyyətində informasiya texnologiyaları hələ yuxarıda qeyd edilən qədər geniş tətbiq edilməsə də bu istiqamətdə ardıcıl tədbirlərin həyata keçirilməsi gələcəkdə sosial işçilərin fəaliyyətlərini daha da genişləndirməyə təkan verəcəkdir.

Həmçinin də konkret şəxsə sosial xidmət göstərilməsi istiqamətində həyata keçirilən tədbirləri izləmək, tendensiyaları təhlil etmək və tərtib edilmiş fərdi planda nəzərdə tutulmuş işlərin effektivliyini qiymətləndirmək üçün bir sıra ölkələrdə xüsusi proqram təminatından – mobil proqramlardan və ya onlayn alətlərdən (məsələn, doxy.me, findhelp.org, bsafe və s.) istifadə edilir. Bu cür proqram təminatları sosial işçilərə məlumat əsasında qərarlar qəbul etməyə əhəmiyyətli dərəcə kömək etməklə onların işini olduqca asanlaşdırır. Həmçinin, proqram təminatı vasitəsilə özünüqiymətləndirmə, vətəndaş məmnuniyyətini kimi imkanlar da təmin edilir. Ancaq təəssüflər olsun ki, ölkəmiz bu sahədə tam olaraq texnologiyaların tətbiqini qənaətbəxş vəziyyətdə deyil.

Müasir tələblərə cavab verən sosial xidmət mərkəzlərinin yaradılması da sosial işçilər fəaliyyətinin səmərəli təşkili üçün mühüm əhəmiyyət kəsb edən istiqamətlərindən biri hesab edilir. İnkişaf etmiş cəmiyyətlərdə artıq sosial, səhiyyə, hüquqi, psixoloji və digər əsas xidmətlərin bir yerdə mövcud olduğu inteqrasiya olunmuş sosial xidmət mərkəzlərin təşkilinə daha çox diqqət ayrılır (Vəliyev, 2022).

Mədəni müxtəlifliyə cavab verən sosial işçilərin hazırlığı da olduqca önəm kəsb edən məsələlərdəndir. Belə ki, ölkədə yaşayan əhalinin etnik mənsubiyyəti müxtəlifləşdikcə, sosial işçilər müxtəlif mənşəyi, adət-ənənələri və dəyərləri olan insanlarla daha gündəlik ünsiyyətə keçməli olurlar ki, bu da onlardan peşəkarlıq tələb edir. Multikultural cəmiyyətlərdə sosial işçilər müxtəlif ehtiyacları qarşılayır mədəni müxtəlifliyi ilə seçilən həssas qruplara qayğı göstərirlər. Bu baxımdan da sosial işçilərin bu istiqamətlərdə təlimlərə cəlb edilməsi, onların həm dil biliklərinin, həm də peşəkar ünsiyyət bacarıqlarının artırılması prioritet istiqamətlərdən biri hesab edilməlidir.

Eləcə də layihədə strateji istiqamətlərdən biri kimi, şəxslərin (ailələrin) çətin həyat şəraitinə düşməsinin qarşısının alınması üçün onların həyatında yaranan problemlərin erkən mərhələlərdə

müəyyən edilərək profilaktik tədbirlərin görülməsi məqsədilə yeni kateqoriya sosial işçilərin fəaliyyətinin təşkili də nəzərdə tutulur. Bunun üçün də məktəblərdə, təlim-tərbiyə müəssisələrində erkən profilaktika tədbirləri həyata keçirilməli və problemlərə erkən müdaxilə edilməlidir.

Son dövrdə sosial xidmətin prioritet istiqamətlərini müəyyən etmək məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası Prezidentinin 28 avqust 2023-cü il tarixli 4059 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı"nda sosial işçilərin fəaliyyətinin yuxarıda qeyd edilənlər istiqamətlər üzrə təkmilləşdirilməsi üçün demək olar ki, heç bir tədbir nəzərdə tutulmamışdır (1.).

Odur ki, müasir dövrün çağırışlarına cavab verən yeni tendensiyalar sosial işçiyə daha bütöv, texnologiya ilə dəstəklənən, mədəni cəhətdən şüurlu və proaktiv yanaşmaya doğru bir hərəkət imkanı verir. Bu təcrübələri mənimsəməklə, sosial işçilər müasir cəmiyyətin mürəkkəb tələblərinə daha effektiv və davamlı şəkildə cavab verən sosial xidmətin əsas fiqurlarında birinə çevrilə bilərlər.

Beləliklə, yuxarıda qeyd edilənləri ümumiləşdirərək sosial işçilərin işini daha effektiv və səmərəli təşkil etmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəmüvafiq hesab edirik:

–Sosial işçilərin fəaliyyətində müasir texnologiyaların – mobil proqramların və ya onlayn alətlərin tətbiqinin genişləndirilməsi;

–İnteqrasiya edilmiş sosial xidmət mərkəzlərini təşkil edilməsi;

–Sosial işçilərin müxtəlif təlimlərə və ixtisasartırma kurslarına cəlb edilməsi.

**Ədəbiyyat:**


Azərbaycan Respublikası Prezidentinin 28 avqust 2023-cü il tarixli 4059 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasıda sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı" - https://e-qanun.az/framework/55044

"Sosial xidmət haqqında" 30.12.2011-ci il tarixli Azərbaycan Respublikası Qanunu - http://www.e-qanun.az/framework/23195

Vəliyev, A. (2022)._Sosial dövlət və sosial xidmət. *"Müasir dövrdə insan hüquqlarının aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransının materialları.* Bakı. s. 287-292

Vəliyev, A. (2022).__Sosial xidmət - sosial ədalət nəzəriyyəsi kontekstində. *"Polis Akademiyasının Elmi Xəbərləri" Elmi Hüquq Jurnalı.* Bakı. 2022. № 4 (36). s. 101-105

# GOVURGALA ARCHAEOLOGICAL MONUMENT

**Safarova Kamala Nizami**

**Institute of History and Ethnography**

**https://orcid.org/0000-0002-2987-8525**

**Kemale.sefer@bk.ru**

**Rəyçi:**

**Məhərrəmova Sona Sabəddin qızı,**

**Tarix üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

Historical sources are a whole set of documents and material culture objects that directly reflect the historical process, include individual facts and events. On the basis of historical sources, together with the study of historical events, an idea of a certain historical period is created. Historical sources differ according to their forms of creation, content and purpose and are conditionally divided into groups: written, material, ethnographic, oral, etc. It is known that archaeological monuments and ancient objects belonging to material culture are considered important and extremely important sources for understanding all stages of development of history. A comprehensive study of archaeological monuments allows for a more in-depth study of the material production process of different periods, life force and living conditions of producers.

**Key words:** Karabakh Agdam region, Govurgala, Christianity, material culture.

# АРХЕОЛОГИЧЕСКИЙ ПАМЯТНИК ГОВУРГАЛА

**Сафарова Кямаля Низами**

**Института истории и этнографии**

**https://orcid.org/0000-0002-2987-8525**

**Kemale.sefer@bk.ru**

**Резюме**

Исторические источники представляют собой совокупность документов и предметов материальной культуры, которые непосредственно отражают исторический процесс, включают отдельные факты и события. На основе исторических источников, вместе с изучением исторических событий, создается представление об определенном историческом периоде. Исторические источники различаются по формам создания, содержанию и назначению и условно делятся на группы: письменные, материальные, этнографические, устные и т. д. Известно, что археологические памятники и древние предметы, относящиеся к материальной культуре, считаются важными и чрезвычайно важными источниками для понимания всех этапов развития истории. Всестороннее изучение археологических памятников позволяет более глубоко изучить процесс материального производства разных периодов, жизненную силу и условия жизни производителей.

**Ключевые слова:** Карабахский Агдамский район, Говургала, христианство, материальная культура.

# GOVURQALA ARXEOLOJİ ABİDƏSİ

**Səfərova Kəmalə Nizami**

**Tarix və Etnoqrafiya İnsititutu**

**https://orcid.org/0000-0002-2987-8525**

**Kemale.sefer@bk.ru**

Odlar yurdu Azərbaycan ərazisi müxtəlif dövrləri özündə birləşdirən maddi mədəniyyət qalıqları ilə zəngindir. Bu irs tariximizin ən qədim zamanlarından Paleolit dövründən formalaşaraq feodalizm dövründə miqyası daha da genişlənmişdir.

Azərbaycan ərazisində orta əsrlərin mədəniyyətini özündə əks etdirən çoxsaylı abidələr vardır. Bunların hər birinin özünəməxsus xüsusiyyətləri olmaqla bərabər dövrün mədəniyyətini: həyat şəraitini, dinini, məişətini özündə əks etdirmişdir. Belə abidələrdən biri də Govurqala arxeoloji kompleksidir. Mədəniyyət nümunəsi Ağdam rayonunun Boyəhmədli kəndi ərazisində yerləşir. Ətraf ərazidən 6-8 metr yüksəklikdədir. Abidənin adı haqqında bir neçə müxtəlif fikirlər meydana çıxmışdır. Tədqiqatçıların qənaətinə əsasən bu ərazidə hökmdar nəslinə məxsus qəbiristanlığın salınması və eyni zamanda, Alban hökmdarının yay iqamətgahı kimi seçilməsini əsas gətirərərək abidəni Aluen şəhərinini qalıqları olması fikri ilə razılaşmışlar.

Abidədə ilk arxeoloji tədqiqat işləri 1950-ci illərdə Rəhim Vahidov tərəfindən başlanılmışdır. Nəticədə 1nefli monumental xristian məbədi, həmçinin IX-XI əsrə aid daş sandıqlarda və sarkofaqlarda dəfn yeri aşkar edilmişdir, bununla bərabər, 4 metr qalınlığında mədəni təbəqə üzə çıxarılmışdır. İlkin araşdırmalar nəticəsində məlum edilmişdir ki, tikintidə inşaat materialı kimi bişmiş daşdan, çiy kərpicdən, kirəmitdən istifadə olunmuşdur. Tapılan tikinti qalıqlarında yüksək sənətkarlıq nümayiş edilmişdir. Əldə olunan kirəmit qalıqlarının birinin üzərində dirilik ağacının təsvirinə rast gəlinmişdir. Azərbaycan ərazisində tapılmış "dirilik agaclarından" fərqli olaraq Govurqaladakı tapıntı qazma metodu ilə kobud şəkildə təsvir olunmuş minaçiçəyi otuna bənzəyirdi. Digər tərəfdən aparılan araşdırmalarda şirli və şirsiz xeyrə tipli qab nümunələrinə də rast gəlinmişdir. Onlar digərlərindən fərqli olaraq narın gildən, duluz çarxından hazırlanmışdır. Əlavə olaraq, xüsusilə qeyd etməliyik ki, maddi mədəniyyət qalıqları içərisində quyular, təndirlər, ocaqlar, torpağa basdırılmış küp qalıqları xüsusi yer tutur, hətta, bir neçə istiqamətdə sənətkarlıq nümunəsi: toxuculuq, duluzçuluq, şüşə istehsalına dair xeyli maddi sübutlar əldə edilərək götürülmüşdür. Albaniyada xristian dininin qəbulundan sonrakı dövrlərdə qəbir abidələrində xristian dəfn adətləri, xristian ehkamları ciddi nəzərə çarpmışdır (Vahidov, 1956).

Govurqalada növbəti arxeoloji tədqiqat işinə rəhbərliyi Rəşid Göyüşov aparmışdır (Göyüşov,1977). 1978-ci illərdə başlanan bu ekspedisiya nəticədə ərazidən xristian ehkamlarını özündə birləşdirən bir neçə qəbir abidələri, müvafiq məbədlərin inşa olunması müyyən olunmuşdur (Rəşidov, R. B. Vahidov, 1978). Albaniyada Xristianlıq abidələri sadə, uzunsov, birnefli zallardan, mürəkkəb formalı məbədlər, xristianlığın ən geniş yayılmış abidəsi üç nefli bazilikalardan, mehrablı və ya mehrabsız tikilmiş hissələrdən ibarət olmağı müəyyənləşdirilmişdir. Eyni zamanda Rəhim Vahidov öz hesabatlarında qeyd edir ki, xristian memarlığına dair mağara məbədlər Ağdam, Kəlbəcər, Laçın, Qubadlı rayonları ərazisində qeydə alınmışdır, və qismən öyrənilmişdir. Rəşid Göyüşovun tədqiqatlarına əsasən deyə bilərik ki, Albaniyada tikilmiş binalar yüksək sənətkarlıq nümunəsi hesab edilə bilər və hətta O, qeyd edir ki, ağdaşdan tikilmiş xristian

məbədi Govurqala memarlığını xarakterizə etmək üçün ən yaxşı tapıntıdır (Göyüşov, R. (1986), 71-72) (Göyüşov, R. Martınov, A. (1990), 175-182).

**Nəticə**

Məlumdur ki, maddi mədəniyyət qalıqları olmadan müvafiq dövrün öyrənilməsi bir qədər çətinləşir. Govurqala tarixi arxeoloji kompleksi də Azərbaycanın işğaldan azad edilmiş ərazisi olduğundan hənin ərazinin yenidən işlənilməsi əzəli və əbədi Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ regionu üçün olduqca aktualdır və məqsədə uyğun olardı. Govurqalada aparılan hər iki ilin tədqiqat işləri hesabat xarakteri daşıyır və yenidən işlənilməsinə ciddi ehtiyac vardır.

**Ədəbiyyat:**

Göyüşov, R. (1986). Azərbaycan arxeologiyası. Bakı, 71-72.

Göyüşov, R. B. 1977-ci ildə Govurqalada aparılan çöl-tədqiqat işlərinin hesabatı. AMEA Tarix insititutu Arxeologiya şöbəsinin Arxiv Fondu.

Göyüşov, R. Martınov, A. (1990). SSRİ arxeologiyası. Bakı, 175-182.

Nərimanov, İ. R.M. Vahidovun Govurqalada /Ağdam rayonu / arxeoloji qazıntılar adlı 1968-ci il hesabatı haqqında rəy. AMEA Tarix insititutu Arxeologiya şöbəsinin Arxiv Fondu.

Rəşidov, R. B. Vahidov, R. M. Govurqala /Ağdam / Arxeoloji dəstəsinin 1978-ci il hesabatı. AMEA Tarix insititutu Arxeologiya şöbəsinin Arxiv Fondu.

Vahidov, R. Govurqalada (Ağdam rayonu) arxeoloji qazıntılar. (1956-cı ilin hesabatı). AMEA Tarix insititutu Arxeologiya şöbəsinin Arxiv Fondu.

# MAIN DIRECTIONS OF ISRAEL'S SOUTH CAUCASUS POLICY (1991-2017)

**Gunay Feyziyeva Mobil**

**Institute of Oriental Studies named after Academican Ziya Bunyadov**

**https://orcid.org/0009-0007-8488-6599**

**feyziyevagunay@gmail.com**

**Rəyçi:**

**Məhərrəmova Sona Sabəddin qızı,**

**Tarix üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

This report examines the main directions of Israel's South Caucasus policy and the nature of the relations of the Caucasian countries with Israel. Although relations between Israel and the South Caucasus countries began in 1991, there have been historical and cultural ties between Jews living in the Caucasus and the local peoples for centuries. The constantly changing geopolitical situation against the background of local and regional events has also affected modern interstate relations. The geopolitical situation in the Middle East has affected Israel's regional policy as well as foreign policy doctrines. The main object of research is to examine the changes in Israel's South Caucasus policy at the interstate, regional and global levels. In addition to the interests of the three independent states, Israel's South Caucasus policy has taken into account the regional influences of states such as Turkey, Russia and Iran after the collapse of the USSR in 1991. At the same time, the changed regional policy after the Second Karabakh War, the change in the past status quo and Israel's current role, future prospects and opportunities for influencing other ethnic conflicts in the South Caucasus are also important for the study.

**Key words:** policy, foreign policy, South Caucasus, Azerbaijan, İsrael, Georgia, Armenia

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ПОЛИТИКИ ИЗРАИЛЯ НА ЮЖНОМ КАВКАЗЕ (1991-2017)

**Гюнай Фейзиева Мобил**

**Институт востоковедения имени академика Зии Буниятова**

**https://orcid.org/0009-0007-8488-6599**

**feyziyevagunay@gmail.com**

**Резюме**

В этом докладе рассматриваются основные направления политики Израиля на Южном Кавказе и характер отношений кавказских стран с Израилем. Хотя отношения между Израилем и странами Южного Кавказа начались в 1991 году, исторические и культурные связи между евреями, проживающими на Кавказе, и местными народами существовали на протяжении столетий. Постоянно меняющаяся геополитическая ситуация на фоне локальных и региональных событий также повлияла на современные межгосударственные отношения. Геополитическая ситуация на Ближнем Востоке повлияла на региональную политику Израиля, а также на внешнеполитические доктрины. Основной объект исследования — изучение изменений в политике Израиля на Южном Кавказе на межгосударственном, региональном и глобальном уровнях. Помимо интересов трех независимых государств, политика Израиля на Южном Кавказе учитывает региональное влияние таких государств, как Турция, Россия и Иран после распада СССР в 1991 году. В то же время для исследования важны также изменившаяся региональная политика после Второй Карабахской войны, изменение прошлого статус-кво и нынешней роли Израиля, будущие перспективы и возможности влияния на другие этнические конфликты на Южном Кавказе.

**Ключевые слова:** политика, внешняя политика, Южный Кавказ, Азербайджан, Израиль, Грузия, Армения

# İSRAİLİN CƏNUBİ QAFQAZ SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ (1991-2017)

**Günay Feyziyeva Mobil**

**Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu**

**https://orcid.org/0009-0007-8488-6599**

**feyziyevagunay@gmail.com**

Tarixən yəhudilər böyük köçləri zamanı Qafqaz bölgəsinə köç etmişlər. Qafqaz yəhudiləri bu torpağa on tayfanın Yaxın Şərqdən sürgünündən (e.ə. 720) gəlmişlər. Onların Qafqazda əhalisi təxminən 30 mindir. Qafqaz yəhudilərinin mənşəyi və dili tamamilə İsrail yəhudilərindən fərqlidir. Aşkenazi yəhudilərdən fərqli olaraq, Qafqaz yəhudiləri daha çox dağ yəhudiləridir və fars ləhcəsi olan cuhuri dilində danışırlar. İkinci Dünya Müharibəsindən sonra 1940-cı illərdə sovet rejimi antisemitizmi gücləndirdi, ivrit dilli məktəbləri bağladı və ya rus dilinə çevirdi (Alden, C. and Aran, A. (2011).

SSRİ-nin dağılması ilə Cənubi Qafqazda yeni müstəqil dövlətlərin yaranması İsrailin xarici siyasət strategiyası üçün mühüm fürsət kimi qəbul edildi. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası ilə İsrail dövləti çoxşaxəli əməkdaşlıq edir (Feyziyeva, 2023).

Cənubi Qafqazın geostrateji mövqeyi Rusiya, İran və Türkiyə kimi regional gücləri bu əraziyə daha ciddi təsir göstərməyə sövq etmişdir. İsrail Cənubi Qafqazda birbaşa siyasi aktor deyil. Buna baxmayaraq, İsrail Cənubi Qafqazın qonşu dövlətləri ilə münasibətlərini də diqqət mərkəzində saxlamışdır. Cənubi Qafqaz regionu İsrail dövlətinin xarici siyasət doktrinası üçün böyük strateji əhəmiyyət kəsb edir. 2016-cı ildə sanksiyaların ləğvindən sonra İranın nüfuzu genişləndiyi üçün daha da güclənmişdir. Buna əsaslanaraq, İsrail Cənubi Qafqazdakı geosiyasi prioritetlərini və maraqlarını müəyyənləşdirmişdir. Əsas diqqət İsrailin həyati maraqlarının qorunmasına yönəlmiş xarici siyasətinin əsas istiqamətlərini özündə ehtiva edir. İsrail dövləti yaranandan bəri mərkəzi xarici siyasət doktrinalarında Cənubi Qafqaz regionu xüsusi rol oynayır. İsrailin region dövlətləri ilə münasibətlərinin və maraqlarının əsas aspektləri onun xarici siyasət strategiyasından irəli gəlmişdir (Alden, C. and Aran, A. (2011).

İsrailin xarici siyasəti ilk növbədə onun dərin köklü tarixi ənənələri ilə bağlıdır və realizm prinsiplərinə əsaslanır. İsrailin Cənubi Qafqazdakı maraqları və xarici siyasətinin üç əsas aspekti müəyyən edilmişdir: strateji - İranı mühasirəyə almaq vasitəsi kimi, ortamüddətli - enerji təchizatı zonası kimi, qısamüddətli - yüksək texnologiyalı silah və sursatların satışı bazarı kimi(Rubin, 2022). Eyni zamanda, İsrailin bu xarici siyasət istiqamətləri regionun əsas qonşuları olan - Rusiya, Türkiyə və İran üçün problemlər yaradır. Bütövlükdə, Cənubi Qafqazı İsrailin regional və yerli dövlətlər arasındakı münasibətlər üçbucağında yeni geosiyasi reallıqlar zəmnində və İsrailin geotəhlükəsizliyini təmin edən zona kimi nəzərdən keçirmək mümkündür.

Bununla belə, son on illiklərdə İsrail Cənubi Qafqaz dövlətlərinin hər birinə qarşı xarici siyasət addımlarını intensivləşdirib. Hər bir ölkə İsraili özünəməxsus səbəblərə görə maraqlandırır. Məsələn, 2008-ci ilə qədər Gürcüstan ordusu əsasən İsrail hərbi texnologiyaları ilə təmin olunurdu. Lakin 2008-ci ilin avqustunda başlayan Rusiya-Gürcüstan müharibəsi İsrail ixracatının dayandırılmasına səbəb oldu.

Hərbi əlaqələrdən başqa, Gürcüstan İsraili iqtisadi baxımdan da maraqlandırır: İsrail investisiyaları Gürcüstan iqtisadiyyatında mühüm rol oynayır. Bundan əlavə, Gürcüstanın Qara dəniz sahilində ticarət və hərbi məqsədlər üçün asanlıqla istifadə edilə bilən bir neçə böyük liman olduğu üçün geosiyasi baxımdan mühüm əhəmiyyət kəsb edir.

Ermənistan-İsrail münasibətləri on ildən çoxdur ki, bir qədər soyuqdır. Bu, ilk növbədə İsrailin İrəvanın iki ən böyük geosiyasi rəqibi olan Azərbaycan və Türkiyə ilə kifayət qədər güclü əlaqələri ilə bağlı idi. Lakin ikitərəfli münasibətlərdə dəyişiklik İsrailin yüksək rütbəli rəsmisinin İrəvana səfəri zamanı aydın oldu. İsrailin regional əməkdaşlıq naziri Tzachi Hanegbi 25-26 iyul 2017-ci il tarixlərində Ermənistanın yüksək vəzifəli rəsmiləri ilə danışıqlar aparmaq üçün Ermənistana səfər edib. Haneqbi baş nazir Benyamin Netanyahunun hakim Likud partiyasında əsas fiqurdur(Ben Ami, 2000). Onun 2012-ci ildən sonra yüksək rütbəli İsrail rəsmisinin Ermənistana ilk səfəri olub. Ermənistanla İsrail arasında əsas mübahisə mövzularından biri İsrailin Azərbaycana silah göndərməsidir. Həmin tədarüklər Ermənistanla Azərbaycan arasında baş vermiş “Aprel müharibəsi”ndə mühüm rol oynayıb. Azərbaycan 2016-cı il aprelin 2-də qəfil hücumda bir neçə cəbhə postunu ələ keçirdikdən sonra Ermənistan qüvvələri əks-hücuma keçirdi. İsrail tərəfindən təchiz edilmiş “Harop” kamikadze təyyarələri və tank əleyhinə “Spike” raketləri Azərbaycan qüvvələrinə bu əks-hücumun qarşısını almağa kömək etdi. 2016-cı ilin sonlarında Bakının ermənilərin hücumlarına daha yaxşı müqavimət göstərmək üçün İsraildən “Dəmir günbəz” imkanları almağı planlaşdırmışdır. Azərbaycan böyük neft ehtiyatlarına görə İsrail üçün əsas neft tədarükçüsü kimi vacibdir (Abilov, 2009).

Beləliklə, İsrailin üç Cənubi Qafqaz dövlətinin hər biri ilə münasibətləri konkret iqtisadi və hərbi maraqlardan - onların daxilində olan maraqlardan asılıdır. Hər bir dövlətin daha böyük qonşuları olan Rusiya və Türkiyə ilə öz münasibətləri var. İsrail diplomatiyası Türkiyə və ya Rusiya ilə əlaqələrinin pisləşməsinə səbəb ola biləcəyi çətin siyasi hadisələrdə hərəkət etməlidir. Bunu nəzərə alsaq, İsrailin Cənubi Qafqazla bağlı diplomatiyasının son illərdə fəallaşmasının başqa bir ehtimalı da var ki, bu da İrandır (Murinson). Beləliklə, İsrailin xarici siyasətinin Cənubi Qafqaz dövlətlərinə qarşı çoxşaxəli olduğunu iddia etmək olar. Üstəlik, son bir ildə İsrail İranın Gürcüstan, Azərbaycan və Ermənistana qarşı səylərini artırması ilə eyni vaxtda regionda diplomatik fəaliyyətini genişləndirdi.

**Ədəbiyyat:**

Abilov, Sh. “The Azerbaijan-İsrael relations: a nondiplomatic, but strategic partnership”, OAKA, Cilt:4, Sayı: 8, s.148, 2009

Murinson, A. A Bone in the Throat: Azerbaijani- Iranian Relations in the beginning of the 21st Century.

Alden, C. and Aran, A. (2011). Foreign policy analysis: New approaches

Aviad Rubin (2022), Israeli Foreign Policy

Feyziyeva G.M. (2023) Azerbaijan-Israel Relations During the Reign of Heydar Aliyev (1993-2003), Journal-Endless light in science, Pages 540-542 // https://cyberleninka.ru/article/n/azerbaijan-israel-relations-during-the-reign-of-heydar-aliyev-1993-2003

Shlomo ben Ami (2000), Israel`s Foreign Policy Agenda

## YAŞIL İQTİSADİYYATA KEÇİDİN ƏHALİNİN HƏYAT KEYFİYYƏTİNƏ TƏSİRİ

**Cavanşirova Züleyxa Yaşar**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0009-0000-3751-2809**
**shabiyeva.zuleyxa@gmail.com**

**Rəyçi:**
**Həsənov Rəfail Musa oğlu,**
**Sosiologiya üzrə elmlər doktoru, professor**

**Xülasə**

Məqalədə yaşıl iqtisadiyyata keçidin əhalinin həyat keyfiyyətinə təsiri nəzərdən keçirilmişdir. Yaşıl iqtisadiyyata keçid prosesində mövcud ekoloji problemlərin nəzərə alınmasının əhəmiyyəti müzakirə edilir. Həmçinin, məqalədə zərərli qazların, xüsusilə də ən ciddi ekoloji problemlərdən biri olan karbon qazının hansı nəticələrə səbəb ola biləcəyi haqqında məlumat verilir. Nəticədə, yaşıl iqtisadiyyata keçidin strateji məqsədlərindən biri kimi iqtisadi, ekoloji və sosial rifahın harmoniyasını təmin etməklə dayanıqlı inkişafa nail olmağın vacibliyi vurğulanır.

**Açar sözlər:** yaşıl iqtisadiyyat, əhalinin həyat keyfiyyəti, ekoloji amillər, karbon qazı

## О ВЛИЯНИИ ПЕРЕХОДА К ЗЕЛЕНОЙ ЭКОНОМИКЕ НА КАЧЕСТВО ЖИЗНИ

**Джаванширова Зулейха Яшар**
**Бакинский государственный университет**
**https://orcid.org/0009-0000-3751-2809**
**shabiyeva.zuleyxa@gmail.com**

**Резюме**

В статье рассмотрено влияние перехода к зеленой экономике на качество жизни населения. Обсуждается важность учета существующих экологических проблем в процессе перехода к зеленой экономике. Также в статье приводится информация о том, какие последствия могут вызвать вредные газы, в частности углекислый газ, который является одной из самых серьезных экологических проблем. В заключении подчеркивается важность достижения устойчивого развития как одной из стратегических целей перехода к зеленой экономике, обеспечивающей гармонию экономического, экологического и социального благополучия.

**Ключевые слова**: зеленая экономика, качество жизни населения, экологические факторы, углекислый газ

# ON THE IMPACT OF THE TRANSITION TO A GREEN ECONOMY ON THE QUALITY OF LIFE

**Cavanshirova Zuleyxa Yashar**
**Baku State University**
**https://orcid.org/0009-0000-3751-2809**

**shabiyeva.zuleyxa@gmail.com**

A "green" economy is one where economic growth is accompanied by improved energy efficiency, reduced environmental and climate impact through prevention of ecological damage, and decreased carbon dioxide emissions. The United Nations Environment Programme (UNEP) defines a "green" economy as one that increases human well-being and social equality while significantly reducing environmental risks and ecological harm.

The essence of both "sustainable development" and "green economy" concepts is essentially the same. Human economic activity should develop within boundaries that do not lead to environmental degradation. The term "green" economy simply specifies how this should be achieved: by using alternative energy sources, practicing sustainable forestry and ecological agricultural methods, and creating favorable conditions for increased investments during the transition to a "green" economy, among other measures. Therefore, it can be concluded that the green economy is a tool for achieving sustainable development.

The issue of improving the quality of life is significant not only for economic science but also forms a core of state policy, which underscores the need for a new model of sustainable economic growth that leads to increased well-being and responsible environmental management.

The emergence of the term "human capital" in economic literature has established it as an important factor in economic development. Human capital encompasses not only direct expenses on education and work experience improvement but also investments in healthcare, education, and science. In this view, economic development is seen not only as an increase in growth rates but also as investment in human capital and poverty eradication, highlighting the connection between economic growth and quality of life.

When assessing the modern quality of life, it is essential to consider energy-saving levels and their environmental and climate-related effects. A commonly accepted indicator of population well-being is GDP per capita (Carter, 2018). However, given the anthropogenic impact on the environment accompanying intense global production growth of goods and services, the quality of life should also be evaluated in light of the prevailing ecological situation. Consequently, as more countries shift toward a "green" economy, there arises a need for indicators that reflect the influence of environmental and energy factors, providing a fuller and more accurate representation of quality of life. Key indicators proposed include reductions in greenhouse gas emissions and pollutant emissions, as they allow the assessment of environmental damage in monetary terms and, therefore, the level of sustainable development and quality of life (Anufriev, Anufrieva, Petrunko, 2014).

Recent studies evaluating quality of life have started to incorporate environmental factors, such as the comfort of climatic conditions (Gilmundinov, Kazantseva , Tagaeva , Kugaevskaya , 2012). Climate change is one of the critical issues of our time, as its effects negatively impact many aspects

of human life, primarily health. Researchers equate climate change with health-impacting factors such as smoking, drug addiction, and obesity. Global climate change affects not only public health and the emergence of new diseases but also access to drinking water, agricultural production levels, and the frequency of natural disasters like floods, storms, and hurricanes, exacerbating social challenges as a result.

**As in the rest of the world, serious steps are being taken in Azerbaijan to protect the environment.** Azerbaijan actively participates in international agreements in this field. Technological innovations and advancements are used to ensure ecological balance in the country. Various laws and regulatory legal acts have been adopted to ensure ecological security, reduce ecological risks, and decrease the volume of waste discharged into the environment. For almost 30 years, large areas of the country were under Armenian occupation, causing severe ecological disaster in these territories. Nevertheless, the restoration of the liberated territories and the creation of green zones in these areas have been prioritized by the President. The establishment of green villages and cities in the liberated areas and the expansion of green energy usage, particularly solar energy, are among the key focuses of the President.

In Azerbaijan, the main sources of waste discharge into the environment are related to oil and gas extraction, the activities of oil refining enterprises, electricity production, agricultural development, and the creation of extensive transport infrastructure. Of course, over the past 20 years, the increase in production volumes and the improvement of the population's welfare have had an environmental impact. Especially in recent years, the increase in the volume of carbon dioxide has shown its negative impact on the environment (Table 1).

**Table 1. Asource: state statistical committee of Azerbaijan (https://www.stat.gov.az)**

| | ($CO_2$) |
|---|---|
| 2005 | 32.1 |
| 2010 | 28.8 |
| 2011 | 28.8 |
| 2012 | 30.2 |
| 2013 | 31.0 |
| 2014 | 30.2 |
| 2015 | 33.7 |
| 2016 | 29.9 |
| 2017 | 32.6 |
| 2018 | 32.7 |
| 2019 | 32.6 |
| 2020 | 31.6 |
| 2021 | 33.9 |
| 2022 | 33.4 |

**Emission of greenhouse carbon gases (in million tons of $CO_2$ equivalent)**

Unfortunately, despite significant steps taken in the last 15 years toward introducing new technologies in the extraction, processing industries, and electricity production, a substantial reduction in such emissions has not yet been achieved. In 2005, the volume of carbon dioxide released into the environment was 32.1 million tons, nitrous oxide 0.4 million tons, methane 13.9 million tons, and F-gases 0.8 million tons [4]. No significant reduction was observed in the following years, and the total volume of greenhouse gases emitted continued to rise, reaching 56.3 million tons in 2018.

However, the ongoing application of new technology in both the extraction and processing industries allows for a reduction in the volume of waste emitted into the environment. A green economy is one that enables the generation of greenhouse gases at a minimal level. There is an emerging global trend where economies are considered advanced if they achieve high energy efficiency while generating less carbon dioxide and minimizing climate impact.

Of course, Azerbaijan is a country with a small economy, and its carbon emissions represent a very low percentage of the global total. Between 1993 and 2012, per capita carbon emissions in Azerbaijan were 20-25% lower than the world average, and in some years, three times lower than in high-income countries. We highlight these figures covering this period because the World Bank's official information database only contains data up to 2012.

It should be noted that the limited forest cover in Azerbaijan makes it challenging to absorb carbon dioxide emissions. Compared to Russia, Canada, or even Georgia, which has a relatively large forest area in proportion to its total land area, Azerbaijan faces a significant issue with carbon absorption. However, carbon produced in one country can quickly disperse into the atmospheres of other countries. In such cases, each polluting country creates challenges for others, while countries with extensive forests may have to bear the ecological burden on behalf of others. Therefore, international cooperation on environmental issues is necessary to keep carbon emissions under control in every country. It is thus essential to quantitatively assess the environmental problems that may arise from production processes in each country.

The per capita volume of greenhouse gases in Azerbaijan is significantly lower than that in high-income countries and the global average. However, greenhouse gases per unit of GDP in Azerbaijan are somewhat higher than in developed countries. Notably, until 2007, Azerbaijan lagged behind most developed and developing countries in this metric. But due to the entry of oil revenues into the country's economy and the expansion of new technology through direct foreign investments, the industrial sector has undergone substantial modernization, bringing Azerbaijan closer to the global average in this indicator. Given that oil and gas extraction and processing play a primary role in the country's GDP, with high emissions from this sector, there are still some setbacks in Azerbaijan's metrics. However, it can be said with confidence that measures being implemented towards a green economy will yield results in the near future.

Thus, for every economy, including Azerbaijan's, one of the critical strategic objectives is to achieve sustainable development by ensuring harmony between economic, environmental, and social well-being. To achieve this, effective economic instruments for waste management need to be identified to prevent the continuous growth of waste volumes. This is a vital requirement for transitioning to a green economy.

**References:**

Gilmundinov, V. M., Kazantseva, L. K., Tagaeva, T. O., Kugaevskaya, K.S. (2012) Environmental Pollution and Public Health in Russia // Bulletin of Novosibirsk State University. Series: Socio-economic sciences. Vol. 12, issue 3. pp. 63–74.

Anufriev, V.P., Anufrieva, E.I., Petrunko, L.A. (2014) Enhancing the Competitiveness of Regions and Enterprises through the Green Economy: The Example of Sverdlovsk Region // Bulletin of Ural Federal University. Series: Economics and Management. No. 3.

Carter, N. (2018) The Politics of the Environment: Ideas, Activism, Policy. 3rd ed. Cambridge: Cambridge University Press;. 456 p

State Statistical Committee Of Azerbaijan: https://www.stat.gov.az

# DIGITAL EVIDENCE ACQUISITION AND PERSONAL DATA PROTECTION IN PRIMARY CYBERCRIME INVESTIGATION: INTERRELATIONSHIP AND COMPARATIVE ANALYSIS

**Khalilov Kamran Isa**

**Baku State University**

**https://orcid.org/0000-0002-0086-009X**

**xalilovkamran75@gmail.com**

**Rəyçi:**

**Həsənov Rəfail Musa oğlu,**

**Sosiologiya üzrə elmlər doktoru, professor**

## Abstract

The main objective of this report is to analyze the legality of the process of detecting and processing digital evidence by an investigator during the preliminary investigation of cybercrimes. Digital evidence, which is a type of evidence, is an indispensable resource in electronic criminal prosecution in terms of detecting traces of cybercrimes, exposing and prosecuting a suspect or accused. Nowadays, digital evidence has become an integral part of criminal prosecution and legal investigations. Skillfully using the opportunities provided by technology, many cybercriminals try to hide their tracks and carry out their illegal activities, which significantly increases the legal significance of digital evidence. The most important point in resolving criminal cases is that the investigator, having discovered digital evidence, must legally and reasonably record it at the stage of preliminary investigation. However, there are a number of legal problems associated with obtaining digital evidence and preserving it in a form that complies with procedural legislation. The most important of them is associated with the restrictions imposed by the principle of personal data protection. In this regard, ensuring the reliable use of digital evidence requires protecting the information that individuals have. Analysis of legislation, study of international experience and coverage of existing problems are important to facilitate the work of law enforcement agencies.

**Keywords:** Preliminary investigation, digital evidence, protection of personal data, investigator, request.

# СБОР ЦИФРОВЫХ ДОКАЗАТЕЛЬСТВ И ЗАЩИТА ПЕРСОНАЛЬНЫХ ДАННЫХ ПРИ ПЕРВИЧНОМ РАССЛЕДОВАНИИ КИБЕРПРЕСТУПЛЕНИЙ: ВЗАИМОСВЯЗЬ И СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ

**Халилов Кямран Иса**

**Бакинский государственный университет**

**https://orcid.org/0000-0002-0086-009X**

**xalilovkamran75@gmail.com**

**Резюме**

Основной целью настоящего отчета является анализ законности процесса обнаружения и обработки следователем цифровых доказательств в ходе предварительного расследования киберпреступлений. Цифровые доказательства, являющиеся разновидностью доказательств, выступают незаменимым ресурсом в электронном уголовном преследовании с точки зрения обнаружения следов киберпреступлений, разоблачения и преследования подозреваемого или обвиняемого. В наше время цифровые доказательства стали неотъемлемой частью уголовного преследования и правовых расследований. Умело используя возможности, предоставляемые технологиями, многие киберпреступники пытаются скрыть свои следы и осуществлять свою противоправную деятельность, что существенно повышает юридическую значимость цифровых доказательств. Важнейшим моментом в разрешении уголовных дел является то, что следователь обнаруживая цифровые доказательства, законно и обоснованно должен протоколировать их на стадии предварительного расследования. Однако существует ряд юридических проблем, связанных с получением цифровых доказательств и их сохранением в форме, соответствующей процессуальному законодательству. Самым главным из них связан с ограничениями, налагаемыми принципом защиты персональных данных. В связи с этим обеспечение надежного использования цифровых доказательств требует защиты информации, которой располагают отдельные лица. Анализ законодательства, изучение международного опыта и освещение существующих проблем важны для облегчения работы правоохранительных органов.

**Ключевые слова:** Предварительное расследование, цифровые доказательства, защита персональных данных, следователь, запрос.

# KİBERCİNAYƏTLƏRİN İBTİDAİ İSTİNTAQINDA RƏQƏMSAL SÜBUTLARIN ƏLDƏ EDİLMƏSİ VƏ FƏRDİ MƏLUMATLARIN MÜHAFİZƏSİ: QARŞILIQLI ƏLAQƏ VƏ MÜQAYİSƏLİ TƏHLİL

**Xəlilov Kamran İsa**

**Bakı Dövlət Universiteti**

**https://orcid.org/0000-0002-0086-009X**

**xalilovkamran75@gmail.com**

Müasir dövrdə rəqəmsal sübutlar özlərinin iki əsas xüsusiyyətləri ilə önə çıxır: hüquqi baxımdan "kövrəklik"; fərdi məlumatların mühafizəsi prinsipi ilə uzalaşma. Məlum olduğu kimi, hər bir rəqəmsal sübut istər malik olduğu məlumat həcminə, istərsə də fiziki quruluşuna görə Cinayət-Prosessual qanunvericiliklə müəyyən edilmiş ənənəvi sübutlardan fərqlənir. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 124.2-ci maddəsinə əsasən sübutların aşağıdakı növləri müəyyən edilmişdir: İfadələr, Maddi sübutlar, Ekspert rəyi, İstintaq və məhkəmə hərəkətlərinin protokolları, Sənədlər (CPM, 2019).

Lakin, kibercinayətlər yeni tip sübutlarla işləmək zərurətini özündə ehtiva etdiyi üçün onların ənənəvi sübutlardan hansı cəhətlərinə görə fərqləndiyini müəyyən etmək vacibdir. Belə ki, ənənəvi sübutlara fiziki olaraq nəzər saldıqda onun məzmununu dərhal görmək və qiymətləndirmək mümkündür. Bununla belə, rəqəmsal sübutların məzmununa üzərində müəyyən işlər görməklə və ya müxtəlif texniki vasitələrdən istifadə etməklə əlçatanlıq təmin edilə bilər. Həmçinin ənənəvi sübutlar strukturuna görə xarici faktorlar tərəfindən asanlıqla zədələnə bilməsə də, rəqəmsal sübutlar maqnit sahələri, düşmələr, zərbələr, elektrik dalğaları, həddindən artıq istiləşmə, həddindən artıq soyutma və s. kimi xarici faktorlarla əlaqədar olaraq tamamilə zədələnə və ya onlarda qeydə alınmış məlumatlar birdəfəlik silinə bilər. (Aybeyan & Ali, 2024).

Məsələn, mobil cihazlarda saxlanılmış rəqəmsal sübutların toplanılması zamanı müstəntiq "əl ilə (fiziki)" üsuldan istifadə etdikdə, mobil cihazın toxunma ekranından və ya klaviaturasından istifadə edərək məlumatları nəzərdən keçirir. Telefonda aşkar edilən və cinayət işi üzrə əhəmiyyətli halları özündə əks etdirən məlumatlar fotoşəkillə sənədləşdirilir. Bu üsulla məlumatları çıxarma prosesi sadə olsa da, bir o qədər risk faktoru yüksəkdir. Çünki, rəqəmsal sübutlara fiziki yolla təmas onların qismən və tamamilə məhv edilməsi təhlükəsini də özündə əks etdirir (Kostadinov, 2019). Məhz elə buna görə də, təcrübədə mobil cihazlardan məlumatların toplanılması zamanı "məntiqi (logical), altıbucaqlı qəlib (hex dumps), çiplər (chip-offs)" kimi metodlara müraciət olunur. (Horan & Saiedian, 2021). Göründüyü kimi, rəqəmsal sübutların əldə edilməsi prosesi özlüyündə bir çox texniki tələblərə əməl olunmasını əks etdirir. Lakin, mövzu üzrə çətinliklər bununla da bitmir. Rəqəmsal sübutların toplanılması və istifadəsi ilə fərdi məlumatların qorunması arasında ziddiyyətlər cinayət-prosessual hüquq münasibətləri ilə texnologiya münasibətləri arasında qarşılıqlı əlaqənin təmin edilməsini şərtləndirir.

Bugün insanlar öz fərdi məlumatlarını daha çox mobil cihazlarda saxlamağa daha çox üstünlük verirlər. Heç şübhə yoxdur ki, bütün növ texniki cihaz mənbələri istifadəçi üçün "Bulud xidməti" təqdim edir. Bulud təminatı müasir dövrdə bir çox üstünlüklərinə görə istər fərdi şəxslər, istərsə də böyük şirkətlər və özəl müəssisələr tərəfindən məlumatların saxlanması və emalı üçün istifadə edilir. Üstünlüklər dedikdə, əsasən daha tez əlçatan olması və aşağı maliyyə imkanı tələb etməsini

qeyd etmək olar. Həmçinin Bulud təminatı bugün istifadəçilərə öz məlumatlarını uzaq serverlərdə olsa belə mühafizə etmək imkanı verir. Lakin, müsbət cəhətlərinə baxmayaraq, bulud təminatında saxlanılan məlumatın əldə edilməsi və protokollaşdırılması müstəntiqlər üçün bir çox yeni problemlər yaradır ki, onları aşağıdakı kimi təsnifləşdirmək mümkündür: 1) Məlumatın mənbəyi - Yurisdiksiya; 2) Məlumatın sahibi; 3) Məlumatın şifrələnməsi; 4) Dinamiklik qabiliyyəti (Pichan et al, 2015).

Bunlardan ən önəmlisi Məlumatın şifrələnməsidir. Provayderlər bulud təminatında yerləşən məlumatların məxfiliyini və təhlükəsizliyini qorumaq məqsədilə tez-tez onları şifrələyirlər (Mandal, 2023). Əslində bu hal təbiidir. Çünki, hər bir bulud təminatı istifadəçi ilə “Xidmət şərtləri (Terms of Service)” və ya “Xidmət səviyyəsi müqaviləsi (Service Level Agreement)” adlanan müqavilələr bağlayır. Bu tip müqavilələr hər iki tərəfin hüquq və vəzifələrini, xüsusilə də fərdi məlumatların qorunması, məlumatların saxlanması və istifadəsi barədə bir çox məqamları özündə əks etdirir (McLelland, 2014). Sual yaradan məqam isə müstəntiqin şübhəli və ya təqsirləndirilən şəxsə məxsus və müvafiq bulud təminatında qorunub saxlanılan hər hansı fərdi məlumatı əldə etmək istəyərkən bu vəzifəni hansı formada icra edəcəyi ilə bağlıdır.

Cinayət təqibini həyata keçirən müstəntiq və ya prokuror xarici verilənlər bazasında mövcud ola biləcək mühüm dəlilin olduğunu müəyyən etdikdən sonra, müvafiq məlumat bazasının yerşləşdiyi, yəni sorğu veriləcək ölkə ilə Azərbaycan Respublikası arasında hüquqi yardım haqqında ikitərəfli müqavilənin olub-olmamasını müəyyən etməlidir. Əgər belə bir müqavilə yoxdursa, “Cinayət işlərinə dair hüquqi yardım haqqında” 29 iyun 2001-ci il tarixli 163-IIQ nömrəli AR Qanununun müddəaları tətbiq ediləcəkdir. Belə ki, həmin Qanunun 2.2-ci maddəsinə əsasən hüquqi yardım göstərilməsinə dair Azərbaycan Respublikası ilə sorğu edən xarici dövlət arasında müvafiq müqavilə olmadıqda və ya müvafiq müqavilə ilə tənzimlənməyən məsələlər üzrə həmin müqaviləyə zidd olmayan hissədə sözügedən Qanunun müddəaları tətbiq edilməlidir (AR Qanunu, 2001). “Kibercinayətkarlıq haqqında” 23 noyabr 2001-ci il tarixli Konvensiyanın 29.1-ci maddəsinin məzmunundan aydın olur ki, istənilən ölkə digər ölkəyə həmin ölkənin ərazisində yerləşən texniki cihaz mənbəyində saxlanan və qarşılıqlı yardım çərçivəsində barələrində axtarış və ya digər prosessual hərəkətlər aparılan şəxslərə aid məlumatların təxirəsalınmaz mühafizəsini təmin etmək və bununla əlaqədar digər tədbirlər görmək məqsədilə müraciət edə bilər (Konvensiya, 2001).

Qeyd olunan normativlərə uyğun olaraq hazırlanmış sorğu vasitəsilə ibtidai istintaq üçün lazımi məlumatlar sorğu edilən ölkədən tələb edilə bilər. Lakin, bu sorğu həmin məlumatların mühafizə edildiyi ölkənin aidiyyəti qanunlarına zidd ola bilər. Bəzi ölkələr fərdi məlumatların qorunması üzrə kifayət qədər ciddi və sərt şərtlər müəyyən edir. Avropa İttifaqına (Aİ) üzv ölkələr buna ən bariz misal ola bilər. Belə ki, Aİ-nın “Ümumi Məlumatların Qorunması Reqlamenti”nin (General Data Protection Regulation (GDPR)) 44-50-ci maddələrinin məzmunu fərdi məlumatların üçüncü ölkələrə və ya beynəlxalq təşkilatlara ötürülməsi barədə bildirir ki, “şəxsi məlumatlar yalnız bu məlumatların qorunmasını Reqlament üzvü ölkələri ilə eyni səviyyədə həyata keçirə biləcək üçüncü tərəflərə verilə bilər” (Regulation (EU) 2016/679, 2016). Aydındır ki, burada sorğu edən tərəfdən məlumatların mühafizəsi ilə əlaqədar kifayət qədər yüksək standartlar tələb olunur. Sözügedən tələblərə ilk mərhələdə Uyğunluq qərarı (Adequacy Decision) və Müqavilə öhdəlikləri (Appropriate Safeguards) daxildir. Uyğunluq qərarı - Aİ bəzi ölkələr üçün onlara məlumatların ötürülməsinin təhlükəli olmadığı qənaətinə əvvəlcədən gəlmişdir ki, bu da əlavə icazənin istənilməyəcəyi anlamını daşıyır. Müqavilə öhdəlikləri – məlumat tələb edən tərəf ilk tələbə tam cavab vermədiyi halda, ondan özündə xüsusi təhlükəsizlik şərtləri əks olunan müqavilələr (məsələn, Binding Corporate

Rules – BCR) tələb edə bilər (Regulation (EU) 2016/679, 2016).

Digər vacib nüanslardan biri isə, Aİ-nın məlumatları sorğu edən tərəfə təqdim etməklə yanaşı, həmin prosesə nəzarət etmək səlahiyyətinin olmasındadır. Bu nəzarət Avropa Komissiyası tərəfindən əsasən hər 4 ildən bir keçirilən monitorinqlər vasitəsilə icra olunur. Belə ki, fərdi məlumatlar təqdim olunmuş ölkənin qanunvericilik aktlarında Aİ standartlarına uyğun olmayan istənilən dəyişiklik edildikdə, sözügedən ölkəyə tətbiq edilmiş uyğunluq qərarı ləğv oluna və verilmiş fərdi məlumatlardan istifadəyə qadağa qoyula bilər (GDPR, Article 51, 2018). Buna misal olaraq, ABŞ hökuməti ilə Aİ arasında 2016-cı ildə bağlanan "Privacy Shield" razılaşmasını göstərmək mümkündür. Bu razılaşma bir çox səbəblərə, əsasən də, ABŞ-da qəbul edilmiş "Foreign İntelligence Surveillance Act" və "Executive Order 12333" kimi qanunlara görə ləğv edildi. Çünki, sözügedən qanunlar ABŞ hökumətinə xarici vətəndaşların məlumatlarına sərhədsiz giriş və əlçatanlıq imkanları tanıyırdı (EU-U.S. Privacy Shield, 2024). Göründüyü kimi, ibtidai istintaq zamanı rəqəmsal sübutların əldə edilməsi fəaliyyətinin sərhədləri fərdi məlumatların qorunması anlayışı ilə məhdudlaşa bilir. Bu da rəqəmsal sübutlar haqqında mövzunun ən əvvəlində qeyd olunmuş ikinci xarakterik xüsusiyyətini açıqca izah edir.

Beləliklə, müsəntiqlər ibtidai istintaq zamanı rəqəmsal sübutları əldə edərkən şəxsi məlumatların həddindən artıq toplanılmasından çəkinməlidirlər. Hər bir rəqəmsal sübut toplanıldıqdan dərhal sonra onların şifrələnməsi həyata keçirilməlidir. Bu hal həmin məlumatların üçüncü şəxslərə ötürülməsinin və ya sızdırılmasının qarşısını almaq üçündür. Bundan başqa, müstəntiq toplanmış materialları yalnız istintaq məqsədləri üçün istifadə etməli və yalnız məhkəmə icazə verdiyi halda üçüncü şəxslərə (ictimaiyyətə) açıqlanmalıdır. Bütün bu tədbirlər fərdi məlumatların mühafizəsini təmin edərək rəqəmsal sübutların sonda qanuni və əsaslı sübut kimi qəbul edilməsində mühüm rol oynayacaqdır.

Əlavə olaraq, kibermüstəntiqlər mütəmadi yerli və beynəxalq təlimlərdə iştirak etməli, həm yerli qanunvericiliyin, həm də Aİ-nın qəbul etdiyi qayda və direktivləri mənimsəməli, yenilikləri izləməli və öz işində onların tətbiqini təmin etməyi bacarmalıdır. Bu, bir tərəfdən hüquq mühafizə orqanlarında kibercinayətlərin istintaqı ilə məşğul olan vəzifəli şəxslərin fəaliyyətini daha peşəkar səviyyəyə çatdıracaq, digər tərəfdən isə beynəlxalq təcrübənin yerli qanunvericilik aktlarında mövcud boşluqların aradan qaldırılması üçün istifadəsində əvəzolunmaz mənbə kimi çıxış edəcəkdir.

**Ədəbiyyat:**


Aybeyan, S. & Ali, İ. (2024). The Role of Digital Forensic Analysis in Modern Investigations. Journal of Emerging Computer Technologies. 4(1), 1-5.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. (2019). Hüquq Yayın Evi. Bakı. 790.

EU-U.S. Privacy Shield. (2016). Available from: https://ec.europa.eu/commission/presscorner/detail/it/memo_16_2462 [accessed Oct 30, 2024].

"Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu. (2001). Available from: https://e-qanun.az/framework/19675 [accessed Oct 25, 2024].

Horan, C. & Saiedian, H. (2021). Cyber Crime Investigation: Landscape, Challenges, and Future Research Directions. Journal of Cybersecurity and Privacy. 1, 580–596.

"Kibercinayətkarlıq haqqında" Konvensiya. (2001). Available from: https://e-qanun.az/framework/18619 [accessed Oct 20, 2024].

Kostadinov, D. (2019). The mobile forensics process: steps and types Available from: https://www.infosecinstitute.com/resources/digital-forensics/mobile-forensics-process-steps-types/ [accessed Nov 01, 2024].

Mandal, P. (2023). Cloud Forensics: Exploring the Challenges and Mapping Out Solutions for the Future. Available from: https://www.researchgate.net/publication/370299821_Cloud_Forensics_Exploring_the_Challenges_and_Mapping_Out_Solutions_for_the_Future [accessed Oct 24, 2024].

McLelland, R. Hackett, Y. Hurley, G. Collins, D. (2014). Agreements between Cloud Service Providers and their Clients: A Review of Contract Terms. Arxius Industries Culturals. 1-15.

Pichan, A. et al. (2015). Cloud forensics: Technical challenges, solutions and comparative analysis. ELSEVIER – Digital investigation. 13, 38-57.

Regulation (EU) 2016/679 of the European Parliament and of the Council of 27 April 2016 on the protection of natural persons with regard to the processing of personal data and on the free movement of such data, and repealing Directive 95/46/EC (General Data Protection Regulation). (2016). Available from: https://eur-lex.europa.eu/eli/reg/2016/679/oj [accessed Oct 30, 2024].

# IMPLEMENTATION OF E-GOVERNMENT AND LEARNING SERVICE DIRECTIONS

**Suleymanov Muraz Isa**

**Baku State University**

**https://orcid.org/0009-0002-2025-4289**

**murazsuleymanov01@gmail.com**

**Rəyçi:**

**Məhərrəmova Sona Sabəddin qızı,**

**Tarix üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

In recent times, the use of information and communication equipment in the provision of public services has necessitated the introduction of electronic government. In the era of modern administration, the study of electronic government and the development of electronic administration are of special importance. In the research work, the organization and formation of the implementation of electronic government and the analysis of electronic services by grouping and directions were carried out, and the importance of developing electronic government was shown. Attention was paid to important issues such as the importance of international experience in the direction of improving the relevant types of services, ensuring a high level of information security as a result of the development of computer equipment, and expecting promptness, transparency, and efficiency during the provision of electronic services. At the same time, the possible perspectives of the development of electronic government were analyzed and the international experience in the direction of improving the quality of services was investigated. In the end, relevant proposals were made in the direction of forming an electronic government, ensuring information security and increasing the efficiency of the provided electronic government services.

**Keywords:** information, e-government, e-service, G2B, G2C.

## ВНЕДРЕНИЕ ЭЛЕКТРОННОГО ПРАВИТЕЛЬСТВА И НАПРАВЛЕНИЯ ОБУЧЕНИЯ УСЛУГ

**Сулейманов Мураз Иса**

**Бакинский государственный университет**

**https://orcid.org/0009-0002-2025-4289**

**муразсулейманов01@gmail.com**

**Резюме**

В последнее время использование информационного и коммуникационного оборудования при предоставлении государственных услуг вызвало необходимость внедрения электронного правительства. В эпоху современного управления изучение электронного правительства и развитие электронного управления приобретают особое значение. В ходе научно-исследовательской работы были проведены организация и формирование реализации электронного правительства, проведен анализ электронных услуг по группировкам и направлениям, а также показана важность развития электронного правительства. Было обращено внимание на такие важные вопросы, как важность международного опыта в направлении совершенствования соответствующих видов услуг, обеспечение высокого уровня информационной безопасности в результате развития компьютерной техники, ожидание оперативности, прозрачности и оперативности в ходе предоставление электронных услуг. При этом были проанализированы возможные перспективы развития электронного правительства и исследован международный опыт в направлении повышения качества услуг. В итоге были высказаны соответствующие предложения в направлении формирования электронного правительства, обеспечения информационной безопасности и повышения эффективности предоставляемых электронных государственных услуг.

**Ключевые слова:** информация, электронное правительство, электронные услуги, G2B, G2C.

# ELEKTRON HÖKUMƏTİN TƏTBİQİ VƏ XİDMƏT İSTİQAMƏTLƏRİNİN ÖYRƏNİLMƏSİ

**Süleymanov Muraz İsa**

**Bakı Dövlət Universiteti**

**https://orcid.org/0009-0002-2025-4289**

**murazsuleymanov01@gmail.com**

**Giriş**

Elektron hökumət innovativ informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə dövlət xidmətlərinin elektron formada operativ və şəffaf qaydada təqdim olunmasını həyata keçirir. Müasir dövrdə elektron hökumət və onun xidmət istiqamətləri mühüm aktuallıq kəsb etməyə başlamışdır. Hökumət xərclərinin azaldılması, təqdim olunan xidmətlərin optimallaşdırılması, xidmət keyfiyyətinin artırılması, vaxta qənaət və operativliyin təmin olunması kimi vacib amillər elektron hökumətin tətbiqini zəruri etmişdir.

Elektron hökumət anlayışı müasir mərhələni əhatə etdiyi üçün bu sahədə bir sıra tədqiqat işlərinin aparılması spesifik xarakter kəsb edir. Tədqiqatın işlənməsində müqayisəli təhlil, induksiya, deduksiya kimi mühüm araşdırma metodlarına müraciət edilmişdir. Tədqiqatın məqsədi elektron hökumətin tətbiqinin əhəmiyyət dərəcəsini müəyyən etmək, xidmət növlərinin konkret növlərini və onların həyata keçirilməsinin təhlilini aparmaq və mümkün perspektivləri müəyyən etməkdir. Tezisin işlənməsində xarici və yerli ədəbiyyatlardan, məqalə və konfrans materiallarından, həmçinin elektron resurslardan istifadə olunmuşdur.

**Elektron hökumət**

Elektron hökumət anlayışı dövlət orqanlarının fəaliyyətinin təşkilini səciyyələndirməklə, dövlət idarəçiliyində elektron mübadilə və xidmətlərin təşkilini həyata keçirir. Yeni dövlət idarəçiliyi İKT-dən istifadə vasitəsilə dövlət qurumları və xidmət istifadəçiləri arasında qarşılıqlı əlaqəni təmin edərək interaktiv xidmətlərin göstərilməsini sürətləndirir (Vaslavskiy & Gabuev, 2017). Müasir informasiya texnologiyalarının inkişafı şəffaflıq və etibarlılıqdakı təkmilləşdirmələr xərclərini azaltmaqla, iqtisadi sahədə daha çox gəlir gətirməyə və yüksək rəqabətin formalaşmasına səbəb olmuşdur. Keçən əsrin ortalarına kimi İKT bütün dünyada yeni kapital qoyuluşunun kiçik bir komponenti olsa da, hazırda bu amil bir çox dövlətlərdə qeyd olunan investisiyaların yarıdan çoxunu təşkil edir (Süleymanov və Mibəşir oğlu, 2024).

Azərbaycan Respublikasında elektron hökumətin formalaşdırılması beynəlxalq təcrübəyə əsaslanaraq həyata keçirilir. Bu sahədə 2010-cu ildən başlayaraq ciddi addımlar atılmağa başlamışdır. Dövlət xidmətlərinin elektron formada həyata keçirilməsi məqsədilə bir sıra qanun və fərmanlar verilmiş, həmçinin elektron portallar fəaliyyətə başlamışdır. Elektron hökumətin həyata keçirilməsi istiqamətində 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilmiş fərmana əsasən ASAN xidmət mərkəzlərinin yaradılması mühüm rol oynamışdır.

**Dövlət xidmətlərinin istiqamətləri**

Elektron dövlət xidmətləri vətəndaşlar, dövlət qurumları, fiziki və hüquqi şəxslər olmaqla dörd əsas istiqamətdə həyata keçirilir (Solinthone & Rumyantseva, 2016). Bir pəncərə prinsipi əsasında

fərdlər elektron qayda da müvafiq dövlət qurumuna müraciət edə və həmin qurum tərəfindən elektron formada cavablandırıla bilər. Bu baxımdan elektron hökumətin konkret istiqamətlərini aşağıdakı formada göstərə bilərik:

- Hökumətdən vətəndaşlara (G2C);
- Hökumətdən biznesə (G2B);
- Hökumətdən işçiyə (G2E);
- Hökumətdən hökumətə (G2G).

Məlumdur ki, elektron hökumətin əsas məqsədlərindən biri vətəndaşlara göstərilən xidmət keyfiyyətini artırmaq və xidmətdən istifadəni asanlaşdırmaqdır (Alharbi, Papadaki & Dowland, 2014). Azərbaycanda xidmətlərin vətəndaşlar üçün daha əlçatan olması məqsədilə DOST Agentliyi və ASAN Xidmət Mərkəzlərinin yaradılması, eyni zamanda, elektron portalların və mobil tətbiqlərin fəaliyyətə başlaması G2C modelinin inkişafına müsbət töhvə vermişdir. G2B sektoru isə dövlət və özəl sektorların qarşılıqlı əlaqəsini nəzərdə tutur ki, bu istiqamətdə də ölkəmizdə KOB-larla bağlı xüsusi layihələr və güzəştlər tətbiq olunmaqdadır. Hökumətdən işçiyə (G2E) istiqaməti insan resrslarının inkişafı vasitəsilə dövlət işçilərini əhatə edir. Elektron hökumətin digər istiqaməti olan  G2G isə dövlət qurumları arasında məlumat mübadiləsini təmin etməklə, elektron hökumətin səmərəliliyini artırır.

E-hökumətin tətbiqi vətəndaşların hökumətə çıxış kanalını asanlaşdırmaqla yanaşı, fiziki formada vətən-məmur münasibətlərini minimuma endirir. Bu baxımdan elektron hökumət şəffaflıq, operativlik, vaxta qənaət, səmərəlilik, keyfiyyətlilik kimi prinpisləri yerinə yetirməklə, elektron demokratiyanın ayrılmaz tərkib hissəsi olmuşdur. Hökumətlər yuxarıda göstərilən dövlət xidmətlərinin bütün istiqamətləri üzrə qeyd olunan prinsipləri gözlənilməli və həmin istiqamətlər üzrə məlumat təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət yetirməlidir.

**Beynəlxalq təcrübənin öyrənilməsi**

Rəqəmsal texnologiyaların dövlət idarəçiliyində artan rolu və inkişafı elektron hökumətin formalaşdırılmasında, eləcə də, sürətli fomada tətbiq olunan innovativ yeniliklərin öyrənilməsində beynəlxalq təcrübənin araşdırılması zəruridir. 2001-ci ildən etibarən iki ildən bir olmaqla BMT-nin İqtisadi və Sosial Məsələlər Departamenti tərəfindən elektron hökumətin inkişaf indeksi ilə bağlı tədqiqat sorğusu həyata keçirilir və hesabat hazırlanır (Vaslavskiy & Gabuev, 2017). Bu hesabatda ilk yerləri mütəmadi olaraq inkişaf etmiş ölkələr, xüsusilə, həm rəqəmsal texnologiyanın inkişafına diqqət yetirən, həm də elektron demokratiyanın tələblərini gözləyən dövlətlər tutur ki, onlara Avropa dövlətlərindən Danimarka, Asiyadan Cənubi Koreya, Sinqapur kimi dövlətləri göstərə bilərik.

Dövlətlər arasında beynəlxalq reytinqlərdə yüksək göstəriciyə sahib olmaq rəqabəti ölkələrin elektron hökumətin inkişafına diqqəti daha da artırmışdır. Rusiya Federasiyasının rəsmi sənədlərində bu istiqamətdə irəliləyişin əldə edilməsi və Rusiyanın bu reytinqdə dünyanın aparıcı iyirmi ölkəsi sırasında olması tapşırığı verilmişdir (Бурденко, 2023). ABŞ isə elektron hökumətə ilk keçid edən dövlətlərdən biri olmuşdur. 2002-ci ABŞ-da elektron hökumətə dair qanun və Rəqəmsal Hökumət Strategiyası qəbul olunmuşdur.

Azərbaycanda elektron hökumət tətbiq olunduğu vaxtdan beynəlxalq təcrübəyə əsaslanmış və bu istiqamətdə yeniliklərə uyğunlaşma tətbiq olunmuşdur. 2024-cü ildə BMT-nin inkişaf indeksi ilə

bağlı sorğuda Azərbaycan ilk dəfə çox yüksək (EDGİ) qrupuna daxil olmuş və ümumilikdə 74-cü pillədə qərarlaşmışdır (UN, 2024). Həmçinin hesabatda Azərbaycanın ağıllı şəhərlər və qabaqcıl texnoloji sahələrin inkişafına diqqət yetirərək milli strategiyanın üzərində işlədiyi vurğulanmışdır. Hazırda Azərbaycanda elektron hökumətin bütün istiqamətləri üzrə təkmilləşdirmə işləri aparılaraq, elektron portallar və mobil tətbiqlər gücləndirilir, eyni zamanda, yenilərinin yaradılması və layihələrin hazırlanması üzərində işlər həyata keçirilir.

**Nəticə**

Elektron hökumətin tətbiqi və formalaşdırılması, bu sahədə təhlükəsizliyin təmin edilməsi və vətəndaş etimadının qazanılması, xidmət istiqamətlərinin inkişaf etdirilməsi və xidmət keyfiyyətinin artırılması məqsədilə e-hökumətin perspektiv imkanlarına dair aşağıda göstərilmiş təklif və tövsiyələr irəli sürülmüşdür:

- Elektron xidmətlərin siyahısının genişləndirilməsi;
- Mütəmadi qaydada qiymətləndirmə və ölçmə meyarlarının tətbiqi;
- Xərclərin optimallaşdırılması;
- Məlumat məxfiliyi və əlavə təhlükəsizlik tədbirlərinin təmini;
- Beynəlxalq təcrübədən yararlanmaq;
- Struktur transformasiyasının təkmilləşdirilməsi;
- Dayanıqlılığın gözlənilməsi, xidmət keyfiyyəti və səmərəliliyinin artırılması.

**Ədəbiyyat:**


Aicholzer, G., Schmutzer R. (2000). “Organizational challenges to the development of electronic government”, in Proceedings. 11th International Workshop on Database and Expert Systems Applications, 379-383.

Alateyah, S., Crowder, R.M., Wills, G.B. (2012). Citizen adoption of E-government services, Information Society (i-Society), International Conference on. IEEE, pp. 182-187.

Ланин, В.В., Лядова, Л.Н., Рычков, А.Ю. (2007). Системы управления электронными документами: учеб.-метод. Пособие Перм, 84.

Бурденко, Е.В. (2023). Модели электронного правительства. Russian Journal of Innovation Economics. Вопросы инно Вационной экономики Том 13, Номер 1, 59-76. https://www.researchgate.net/publication/370279738_Modeli_elektronnogo_pravitel stva

Hacızadə, M.E. (2015). İnformasiya cəmiyyətinin formalaşması amilləri və onun Azərbaycanda inkişaf meylləri. İnformasiya cəmiyyəti problemləri, №2, 71-81.

Jaeger, P.T. (2003). “The endless wire: e-government as global phenomenon”, in Government Information Quarterly, 20(4), 323-331.

M. Alshehri, S. Drew. (2011). Implementation of e-Government: Advantages and Challenges. International Journal of Electronic Business 9(3):255-270, 79-86.

https://www.researchgate.net/publication/220300333_E-government_principles_implementa tion _advantages_and_challenges

Nawaf Alharbi, Maria Papadaki, Paul Dowland. (2014). Security Factors Influencing End Users' Adoption of E-Government. Journal of Internet Technology and Secured Transactions (JITST), Volume 3, Issue 4, 319-328.

Solinthone P. and Rumyantseva T. (2016). E-Government Implementation. MATEC Web of Conferences 79, 01066, 11.

Süleymanov, M. (2023). V. İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların Beynəlxalq elmi Konfransı. Elektron İdarəçilikdə Dövlət-Özəl Tərəfdaşlığının Əhəmiyyəti və Həyata Keçirilməsi, 1389-1398.

Süleymanov, M. (2023). Elektron hökumətə ictimai etimadın formalaşdırılması və cəmiyyətin informasiyalaşdırılması problemi. NASCO XXVI, 308-311.

Süleymanov, M., Mirbəşir oğlu, E. (2024). Elektron dövlət satınalmalarının həyata keçirilməsinin əhəmiyyəti və elektron hökumətə gətirdiyi yeniliklər. "Metafizika" Journal Vol 7, issue 3, serial 27, 145-158. https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.145-158

UN E-Government Survey. (2024) . https://publicadministration.un.org/egovkb/en-us/Reports/UN-E-Government-Survey-2024

Vaslavskiy Y., Gabuev S. (2017). Global Trends in Electronic governance cases of the U.S., China and Russia. Международные процессы, Том 15, № 1, 108-125. https://mgimo.ru/upload/iblock/698/E-gov.pdf

Yıldız, Ö. R. (2010). Elektronik Belge Yönetim Sistemleri ve Denetim. Sayıştay Dergisi (78), 3-29. https://dergipark.org.tr/tr/download/article-file/1713747

# FİLOLOGİYA VƏ MƏDƏNİYYƏTŞÜNASLIQ BÖLMƏSİ

# TEZİSLƏR

# THE 44-DAY WAR AND THE IMPACT OF VICTORY ON OUR LANGUAGE

**Jafarli Asmar Mubariz**

**Sumgait State University**

**umudovaasmer@mail.ru**

**Rəyçi:**

**Eminli Böyükxanım İbrahim qızı,**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

The 44-day war in 2020 had a significant impact not only on the military and political history of Azerbaijan but also on its language. As a result of the war and victory, new military terms, emotional, and psychological expressions emerged. Phrases such as "Iron Fist," "Bayraktar," and "Victory Day" became widely used. Additionally, the relevance of place names like Shusha and Khankendi, as well as the national symbol "Kharybulbul," was revived. This period allowed the Azerbaijani people to express their national pride and historical memory through language once again.

**Keywords**: Azerbaijan, 44-day war, Karabakh, military terminology, emotional expressions, victory

# ВЛИЯНИЕ 44-ДНЕВНОЙ ВОЙНЫ И ПОБЕДЫ НА НАШ ЯЗЫК

**Джафарли Асмар Мубариз**

**Сумгаитский государственный университет**

**umudovaasmer@mail.ru**

## Резюме

44-дневная война, произошедшая в 2020 году, оказала значительное влияние не только на военную и политическую историю Азербайджана, но и на его язык. В результате войны и победы в языке появились новые военные термины, эмоциональные и психологические выражения. Такие фразы, как «Железный кулак», «Байрактар» и «День Победы», стали широко использоваться. Также произошла актуализация топонимов, таких как Шуша и Ханкенди, а также национального символа «Харыбюльбюль». Этот период позволил азербайджанскому народу вновь выразить свою национальную гордость и историческую память через язык

**Ключевые слова**: Азербайджан, 44-дневная война, Карабах, военная терминология, эмоциональные выражения, победа

# 44 GÜNLÜK MÜHARİBƏ VƏ QƏLƏBƏNİN DİLİMİZƏ TƏSİRİ

**Cəfərli Əsmər Mübariz**

**Sumqayıt Dövlət Universiteti**

**umudovaasmer@mail.ru**

**Giriş**: 2020-ci ildə Azərbaycan və Ermənistan arasında baş verən 44 günlük müharibə, Azərbaycanın hərbi-siyasi tarixində əlamətdar bir dönüş nöqtəsi olmaqla yanaşı, dilimizə də əhəmiyyətli təsir göstərmişdir. Bu müharibə və onun nəticəsində əldə edilən qələbə, dilimizdə yeni leksik vahidlərin yaranmasına, mövcud terminlərin yenidən aktuallaşmasına və dilin emosional, sosial, mədəni aspektlərində dərin dəyişikliklərə səbəb olmuşdur.Bəzi dilçilər bu mövzunu müxtəlif sahələrdən təhlil etsələr də, mövzu öz aktuallığını hələ də saxlayır.

Ümumiyyətlə, ictimai-siyasi hadisələr dilə təsirsiz ötüşmür. Paul Simpson **"Language, ideology and point of view" yazısında qeyd edir ki, "dil və ideologiya arasındakı əlaqə sabit deyildir, siyasi, sosial dəyişikliklər baş verdikcə dil də dəyişikliyə uğrayır."[27]** Lakoff. G və Johnson M. "*Metaphors we live by*" məqaləsində müharibə metaforalarının dilə və düşüncəyə təsirini araşdırır, müharibə zamanı və sonrasında dilin necə dəyişdiyini izah etmişdir. Hutchins E. "*Cognition in the Wild*" yazısında müharibə və qələbənin dilə necə təsir etdiyini, dilin kollektiv düşüncənin formalaşmasındakı rolunu araşdırmışdır.

Van Dijk, T. A. "*Discourse and Context: A Sociocognitive Approach*" məqaləsində dilin sosial kontekstdə müharibə və qələbə kimi hadisələrə necə uyğunlaşdırıldığını izah etmişdir. Edwards D. və Potter J. "*Discursive Psychology* "məqaləsində müharibə və qələbənin psixoloji təsirlərinin dildə necə əks olunduğunu, Fowler R. "*Language in the News: Discourse and Ideology in the Press*" yazısında müharibə xəbərlərində dilin necə istifadə edildiyini və bu dilin ideoloji təsirlərini, Tannen D. "*Framing in Discourse"* yazısında müharibə diskurslarında çərçivələmə texnikalarının necə istifadə edildiyini və bu çərçivələrin dilə təsirini izah edir. Wodak R. isə "*The Discourse of War: Analyzing Newspapers, Politicians and The Medi*" məqaləsində KİV və siyasi çıxışlarda müharibə dilinin necə formalaşdığını və ictimaiyyətə təsirini təhlil etmişdir.

Azərbaycanın görkəmli dilçi alimi Tofiq Hacıyev dilin inkişafının birbaşa cəmiyyətin inkişafı ilə bağlı olduğunu, ictimai-siyasi həyatda baş verən dəyişikliklərin dilin inkişafına da təsir etdiyini vurğulayır. "Dilin inkişafı bilavasitə cəmiyyətin inkişafı ilə bağlıdır. Cəmiyyətin ictimai-siyasi həyatı dəyişdikcə, bu dəyişikliklər dilin inkişafında da əks olunur." [7,78].Fərhad Zeynalov "*Azərbaycan dili: tarix və perspektivlər" k*itabında qeyd edir: "Azərbaycan dilinin leksik tərkibi və qrammatik quruluşu ictimai-siyasi dəyişikliklərə həssasdır. Xüsusilə, siyasi rejimlərin dəyişməsi ilə yeni terminlərin və ifadələrin ortaya çıxması müşahidə olunur." [20,152] Yəni , siyasi və sosial dəyişikliklər nəticəsində dil yeni ideoloji mənzərələrə uyğunlaşır.

44 günlük müharibə və qazanılmış qələbə digər elm sahələrində olduğu kimi, dilçilik elmində də müxtəlif tədqiqatların aparılmasına səbəb olmuşdur. Azərbaycan dilçiləri bu mövzuya müxtəlif aspektlərdən yanaşaraq fərqli nəticələr əldə etmişlər. Əhmədov Q. "*Qarabağ müharibəsinin dilimizə təsiri"* kitabında 44 günlük müharibənin Azərbaycan dilinə təsirləri, hərbi terminologiyanın inkişafı və yeni leksik vahidlərin yaranmasını ətraflı şəkildə təhlil etmişdir. Əliyev E. " *Vətən müharibəsi: Dilimizdə qələbə əks-sədası*" məqaləsində müharibə dövründə və sonrasında dilimizdə yaranan yeni ifadələr və terminləri təhlil etmiş, onların cəmiyyətin dili və mədəniyyətinə təsirini

araşdırmışdır. Məmmədova Z. "*Qarabağ müharibəsinin Azərbaycan dilindəki leksik və semantik dəyişikliklərə təsiri"* əsərində müharibə və qələbə nəticəsində dilimizdə meydana gələn semantik dəyişiklikləri, leksik yeniliklər və onların mədəni kontekstdə rolunu təhlil etmişdir. İsmayılov A. "*44 günlük müharibənin Azərbaycan dili və ədəbiyyatına təsiri*" məqaləsində müharibənin Azərbaycan ədəbiyyatında və dilində necə əks olunduğu və bu dövrdə yaranan yeni bədii ifadələr haqqında məlumat vermişdir. Quliyev T. "*Şəhidlər, qazi və qəhrəmanlıq anlayışlarının dilimizdə əks-sədası"* məqaləsində müharibə zamanı şəhidlik və qəhrəmanlıq konseptlərinin dilimizdə necə istifadə edildiyini və bu anlayışların dilə təsirini, Əliyeva R. "*Vətən müharibəsinin kütləvi informasiya vasitələrində əks-sədası və dilə təsiri*" yazısında KİV və sosial media vasitəsilə dilin necə dəyişdiyini və yeni ifadələrin necə formalaşdığını təhlil etmişlər.

Hüseynov A. "*44 günlük müharibənin dilin emosional və psixoloji aspektlərinə təsiri"* məqaləsində müharibənin yaratdığı emosional və psixoloji təsirlərin dilə əks olunması prosesini araşdırmış, xüsusilə, şəhidlər və qazilər haqqında dil ifadələrini təhlil etmişdir. Qurbanov F. isə "*Qarabağ qələbəsinin dilimizə tarixi təsiri"* məqaləsində qələbənin dilimizdəki tarixi təsirini, Qarabağla bağlı ifadələrin yenidən canlanmasını və dilin milli yaddaşa təsirini təhlil etmişdir.

44 günlük müharibə və sonrasında qələbə ilə əlaqədar olaraq Azərbaycan dilində yeni leksik vahidlər yaranmağa başladı. Bu, xüsusilə də, hərbi terminlərdə özünü göstərirdi. Bu terminlər müharibənin gedişində və qələbə sonrası dönəmdə geniş istifadə edilməyə başlanmış, dilimizdə özünəməxsus yer tutmuşdur.Aşağıda bəzi terminlər verilmişdir:

**"Dəmir yumruq"** ifadəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 8 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi münasibətilə etdiyi çıxışda işlədilmişdir. Bu ifadə qısa müddətdə xalq arasında geniş yayıldı və Azərbaycan Ordusunun gücünü və qətiyyətini simvolizə etməyə başladı: *"Dəmir yumruq yerindədir, heç kim bunu unutmasın!" [1]*

**"Bayraktar"** sözü Türkiyənin istehsalı olan PUA-ları (Pilotsuz Uçuş Aparatları) ifadə edir. Bu dronlar Vətən müharibəsində Azərbaycan Ordusu tərəfindən geniş istifadə olunmuş və böyük uğurlar qazanmışdır. Bu səbəbdən "Bayraktar" sözü dilimizdə həm texnoloji bir termin, həm də hərbi güc simvolu olaraq geniş yayıldı: "*Bayraktar PUA-ları müharibə zamanı düşmənə ağır zərbələr endirərək qələbənin əldə olunmasında mühüm rol oynadı."* [9]

**"İtiqovan"** Bu termin də müharibə zamanı geniş istifadə olunan PUA-lara aid olub, düşmənin canlı qüvvəsini və texnikasını məhv edən pilotsuz uçuş aparatlarını ifadə edir. Termin qələbənin simvolu olaraq xalq arasında yayılmışdır: "*İtiqovan PUA-larımız düşmənə heç bir şans vermədi."* [1]

"**Dron"** termin olaraq Vətən müharibəsində istifadə olunan pilotsuz uçuş aparatlarının (PUA) hədəflərə endirdiyi zərbələri ifadə edir: *"Dron zərbələri ilə düşmənin əsas strateji nöqtələri məhv edildi."* [15]

**"Su-25"** Azərbaycan Ordusunun inventarında olan hücum təyyarələrinin adıdır. Bu təyyarələr Vətən müharibəsi zamanı geniş istifadə olunmuş və qələbənin əldə olunmasında əhəmiyyətli rol oynamışdır.

Bu terminlər Vətən müharibəsi dövründə Azərbaycan dilində geniş şəkildə işlənən, Azərbaycan ordusunun gücünü, qələbəsini, müasir hərbi texnologiyaların tətbiqini əks etdirən hərbi terminlərdir və Azərbaycan dilinin terminologiyanın zənginləşməsinə xidmət etmişdir.

Dildə baş verən bütün bu dəyişikliklər, təbii ki, ictimai sahələrlə sıx bağlı idi. Müharibə sonrası Qarabağla bağlı mövzular televiziyada, radio, qəzet, jurnallarda mərkəzi mövqe qazandı. Bu, həm rəsmi çıxışlarda, həm də xalq arasında istifadə olunan dilin tərkibində öz əksini tapdı. Qələbə ilə bağlı ifadələr, milli qəhrəmanlıq və dövlətə bağlılıq anlayışları dilimizin hər bir səviyyəsində - rəsmi, ictimai və məişət səviyyəsində geniş şəkildə istifadə edilməyə başladı. Qarabağla bağlı tarixi faktların, hadisələrin və şəxsiyyətlərin dilə daxil edilməsi və onların milli yaddaşda canlanması, Qarabağ mədəniyyətinin, musiqi və ədəbiyyatının dil vasitəsilə yenidən təbliğ edilməsi, təbii ki, dilə açıq-aşkar öz təsirini göstərdi.

Media və sosial şəbəkələr dilin formalaşmasında mühüm rol oynadı. Xəbər başlıqları, sosial media paylaşımları və onlayn müzakirələrdə müharibə və qələbə ilə bağlı ifadələr sürətlə yayıldı və genişləndi.

Qələbənin qazanılması ilə əlaqədar olaraq dildə qələbə və qəhrəmanlıqla bağlı ifadələr geniş işlənməyə başlandı. "Zəfər günü", "Vətən müharibəsi", "şəhidlərin qisası alındı" ,"şəhidlik zirvəsi", "qəhrəmanlıq dastanı" ,"böyük qayıdış" kimi ifadələr, müharibə sonrası milli qüruru və qələbə sevincini ifadə etmək üçün istifadə olunurdu. Bu ifadələr, həm də Azərbaycanın tarixi ədaləti bərpa etdiyini və xalqın birlik və həmrəylik içində mübarizə apardığını vurğulamaq üçün işlədilirdi. "Qələbə və müharibə dövründə yaranan dil formaları və ifadələr, cəmiyyətin ruhunu və kollektiv xatirələri əks etdirərək, dilin dinamikliyini və inkişafını göstərdi." [11]

**"Zəfər"** sözü ərəb mənşəlidir və "qələbə", "uğur" mənalarını daşıyır. Qarabağ müharibəsində qazanılan qələbə ilə əlaqədar olaraq bu söz daha çox işlənməyə başladı, xüsusilə də 8 noyabr tarixi "Zəfər Günü" olaraq qeyd edilir: "Bu zəfər Azərbaycan xalqının gücü, iradəsi və ordusunun qüdrəti ilə qazanıldı." [2]

**"Qələbə"** sözü Azərbaycan dilində uzun müddətdir ki, işlənən bir sözdür və hər hansı bir mübarizədə uğur qazanmağı ifadə edir. Qarabağ müharibəsində qazanılan qələbə bu sözün daha da geniş yayılmasına səbəb olmuşdur.

**"Qarabağ Azərbaycandır"** Bu ifadə ilk dəfə Prezident İlham Əliyev tərəfindən BMT Baş Assambleyasının 2019-cu il sessiyasında səsləndirilmiş və xalq arasında böyük coşqu ilə qarşılanmışdır. 44 günlük Vətən müharibəsi dövründə və qələbədən sonra bu ifadə milli birliyimizin və ərazi bütövlüyümüzün simvoluna çevrilmişdir.

**"Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur"** Bu ifadə, Şuşanın Qarabağdakı strateji və mədəni əhəmiyyətini vurğulayan bir deyimdir. Şuşanın azad edilməsi, Qarabağın bütövlüyünün təmin edilməsi və Azərbaycan üçün qələbə rəmzi kimi qəbul edilir: "Şuşasız Qarabağ yoxdur, Qarabağsız isə Azərbaycan yoxdur!" [1]

**"Qarabağ Bizimdir"** Bu ifadə müharibədən sonra xalq arasında qələbə ilə bağlı bir şüar kimi geniş yayılmışdır. Qarabağın azad olunması ilə bağlı bu sözlər qələbənin simvolu olaraq qəbul edilir. "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" [2]

Qələbə ilə əlaqədar olaraq dilimizdə mövcud olan sözlərin, terminlərin yenidən aktuallaşması baş verdi. Müharibə nəticəsində işğaldan azad edilmiş torpaqların adları, mədəni və tarixi obyektlərə aid terminlər yenidən dilimizdə gündəmə gəldi. Qarabağın müxtəlif bölgələrinə aid adlar- Şuşa, Laçın, Füzuli, Zəngilan, Cəbrayıl, Xudafərin körpüsü, Ağdam, Xocalı, Xankəndi və s. adların, yerlərin və tarixi abidələrin adları dilin gündəlik istifadəsində daha tez-tez istifadə edilməyə

başlandı. Bu, həm də milli yaddaşın canlanması və Qarabağla bağlı tarixi biliklərin yenidən öyrənilməsi prosesini gücləndirdi.

Müharibə dövründə yaranan emosional gərginlik, sonrasında qələbə sevinci, itkilərin acısı dilin emosional komponentlərini zənginləşdirdi. Bu dövrdə yaranan şeirlər, mahnılar, sosial media mətnlərində bu emosional dərinlik özünü açıq şəkildə biruzə verdi. "44 günlük müharibə dövründə və sonrasında dilimizdə yaranan yeni konseptlər və ifadələr, həm müharibənin təsirini, həm də qələbənin mədəni və emosional yükünü əks etdirir."[6]

Müharibənin psixoloji təsirləri, xüsusilə, şəhid ailələri, qazilər, müharibə iştirakçıları,ümumiyyətlə, bütün Azərbaycan xalqı arasında müşahidə olundu. Bu psixoloji vəziyyət dilə xüsusi söz və ifadələrin daxil olması ilə nəticələndi. "Qazi", "müharibə veteranı", "travma" kimi ifadələr bu dövrdə dilimizin bir parçası halına gəldi. Müharibə dövründə və sonrasında yaranan emosional və psixoloji vəziyyət, dilə daha duyğusal, hissiyata əsaslanan ifadələrin daxil olmasına səbəb oldu Vətənə bağlılıq, şəhidlərə hörmət və müharibənin nəticələri ilə bağlı ifadələr dilin emosional palitrasını zənginləşdirdi. Həmin dövrdə dilimizdə daha çox işlətdiyimiz bir neçə ifadəni nəzərdən keçirək:

**“Şəhid”** sözü əvvəldən də dilimizdə mövcud idi, lakin müharibə dövründə və sonrasında bu sözün emosional yüklənməsi daha da artdı, yeni ifadə və deyimlərdə yer aldı: "Şəhidlər ölməz, Vətən bölünməz!" Azərbaycan dilində işlənən bu ifadə xalq arasında geniş yayılmış və müharibə zamanı xalqın birliyini və əzmini simvolizə edən bir deyimə çevrilmişdir. 44 günlük müharibə zamanı bu sözün istifadəsi genişlənərək daha çox mənəvi yük qazanmışdır.

**"Qazi"** sözü də ərəb mənşəli olub, "qələbə çalan" mənasını daşıyır. Azərbaycan dilində isə müharibədə döyüşüb sağ qalan, lakin yaralanmış qəhrəmanları ifadə etmək üçün istifadə olunur. 44 günlük müharibə dövründə qazilərə xüsusi diqqət göstərilməsi bu sözün istifadəsini daha da genişləndirmişdir.

44 günlük Vətən müharibəsi və qələbə ilə bağlı dilimizdə formalaşan ifadələr, həm müasir dövrdə yaranmış yeni terminlərdən, həm də əvvəlcədən mövcud olan sözlərin yenidən mənalandırılmasından ibarətdir. Belə dərin məna yüklənmiş sözlərdən biri xarıbülbül sözüdür.

**"Xarıbülbül"** "Xarıbülbül" Qarabağda bitən və Qarabağın rəmzi kimi tanınan bir çiçəyin adıdır. Bu çiçəyin adı Azərbaycan dilində "bülbül" (quş adı) və "xarı" (tikan) sözlərinin birləşməsindən yaranıb. Qələbədən sonra bu çiçək müstəqilliyin, qələbənin və Qarabağın azadlığının simvoluna çevrildi: "Xarıbülbül bizim torpaqlarımızın yenidən doğuşunun simvoludur." [18]

**Nəticə:** 44 günlük müharibə və qələbə, Azərbaycan dilinə dərin və çoxşaxəli təsir göstərmişdir. Bu təsir, dilimizin hərbi terminologiyasından tutmuş, emosional və psixoloji ifadələrə qədər müxtəlif səviyyələrdə özünü göstərmişdir. Nəticə olaraq qazanılmış qələbə ilə əlaqədar olaraq dilimizdə işlənən söz və ifadələri aşağıdakı şəkildə qruplaşdıra bilərik:

1. Hərbi terminlər (hərbi texnika, silahların adları, hərbi vəzifələr, hərbi vəziyyəti ifadə etmək üçün işlədilən söz və ifadələr)

2. Qələbə, qəhrəmanlıq, vətənpərvərliklə bağlı işlədilən söz və ifadələr

3. Sosial-psixoloji vəziyyəti ifadə etmək üçün işlədilən söz və ifadələr

4. Əvvəldən dildə mövcud olan, qazanılmış qələbə ilə əlaqədar olaraq yenidən aktuallaşan söz və ifadələr

Müharibə və qələbə, Azərbaycan xalqının milli qürurunu, vətənpərvərliyini və tarixi yaddaşını dil vasitəsilə yenidən ifadə etməsinə imkan yaratmışdır. Bu dövr, dilin dinamikliyini və onun milli kimlik və mədəniyyətlə necə sıx əlaqəli olduğunu bir daha nümayiş etdirmişdir.

**Ədəbiyyat:**


Əliyev, İ. (2020) "Şuşanın azad edilməsi münasibətilə çıxış". Prezident.az

Əliyev, İ. (2020) "Zəfər Günü münasibətilə çıxış". Prezident.az

Əhmədov Q. (2021) Qarabağ müharibəsinin dilimizə təsiri. Bakı: Elm və Təhsil Nəşriyyatı.

Əliyev, E. (2020) Vətən müharibəsi: Dilimizdə qələbə əks-sədası. Azərbaycan Dilçilik Jurnalı, 32(3), 45-60.

Əliyeva, R. (2020) Vətən müharibəsinin kütləvi informasiya vasitələrində əks-sədası və dilə təsiri. Jurnalistika və İctimaiyyətlə Əlaqələr, 15(4), 93-108.

Əsədov, İ. (2021) "Azərbaycan Dilində Müharibə Terminologiyası". Bakı Dövlət Universiteti Jurnalı,

Hacıyev, T. *"Dil və Cəmiyyət"* Bakı: Azərbaycan Dövlət Nəşriyyatı,

Həsənov, A. ()2021"Qarabağ Qaziləri və onların cəmiyyətimizdə rolu". Qarabağ Nəşriyyatı.

Həsənov, Z. ()2021"Azərbaycanın Hərbi Texnologiyaları". Müdafiə Nazirliyinin Mətbuatı.

Hüseynova, G. (2022) "Müharibə və Qələbənin Dilə Təsiri: Müasir Azərbaycan Mədəniyyətində Analiz". Azərbaycan Mədəniyyət və İncəsənət İnstitutu.

Hüseynov, A. (2022) 44 günlük müharibənin dilin emosional və psixoloji aspektlərinə təsiri. Psixologiya və Dilçilik, 7(1), 50-65.

İsmayılov, A. (2021) 44 günlük müharibənin Azərbaycan dili və ədəbiyyatına təsiri. Azərbaycan Milli Elmlər Akademiyası Jurnalı, 29(2), 22-37.

Quliyev, T. (2021) Şəhidlər, qazi və qəhrəmanlıq anlayışlarının dilimizdə əks-sədası. Qloballaşma və Dilçilik, 11(1), 78-92.

Qurbanov, F. (2021) Qarabağ qələbəsinin dilimizə tarixi təsiri. Mədəniyyət və Dilçilik Araşdırmaları, 13(3), 101-115.

Məmmədov, F. (2021). "Müasir Hərbi Texnologiyalar və Onların Tətbiqi". Qarabağ Nəşriyyatı.

Məmmədova, N. "Dil və Qələbə: 44 Günlük Müharibənin Sosial-Linqvistik Təsirləri". Bakı Universiteti Nəşriyyatı

Məmmədova, Z. (2022) Qarabağ müharibəsinin Azərbaycan dilindəki leksik və semantik dəyişikliklərə təsiri. Bakı Dövlət Universiteti Nəşriyyatı.

Mustafayeva, S. (2021). "Xarıbülbül - Qələbənin simvolu". Azərnəşr

Rəhimov, S. (2023) "44 Günlük Müharibənin Dilə Təsirləri və Müasir Azərbaycan Terminologiyası". Azərbaycan Dilçilik Jurnalı.

Zeynalov, F. (2010) *Azərbaycan dili: tarix və perspektivlər*. Bakı: Təhsil,

Chilton, P. (2004) Analyzing Political Discourse: Theory and Practice. Routledge.

Edwards D., & Potter, J. (1992) Discursive Psychology. Sage Publications.

Fairclough, N. (1995) Critical Discourse Analysis: The Critical Study of Language. Longman.

Fowler R. (1991) Language in the News: Discourse and Ideology in the Press. Routledge.

Hutchins, E. (1995) Cognition in the Wild. MIT Press.

Lakoff G., & Johnson, M. ()1980Metaphors We Live By. University of Chicago Press.

Simpson P. (1993) *Language, Ideology and Point of View*. Routledge, p. 34.

Van Dijk T. A. (2008) Discourse and Context: A Sociocognitive Approach. Cambridge University Press.

Wodak R. (2001) The Discourse of War: Analyzing Newspapers, Politicians and The Media. Sage Publications.

## IN THE LINGUISTIC LANDSCAPE OF THE WORLD LINGUOPRAGMATIC BASIS OF THE CONCEPT OF "WAR"

**Giblaliyeva Afet**

**Azerbaijan University of Languages**

**https://orcid.org/0009-0004-8558-5884**

**kazimbeyli15@bk.ru**

**Rəyçi:**

**Eminli Böyükxanım İbrahim qızı,**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The linguopragmatic foundations of the concept of "war" in linguistics studies how concepts and expressions related to war are formed and function in the context of language use, culture, and communication. Linguopragmatics is a field that analyzes not the semantics of language, but how it is used and for what purpose. From this point of view, how the concept of "war" is constructed through language, translated and how it affects society becomes an important topic.

The linguopragmatic foundations of the concept of "war" study how the concepts of war and the communicative goals conveyed through language are formed in the context of language use. As lingupragmatics examines how and for what purpose language is used, how the concept of "war" shapes the functional aspects of language and how this concept is used in different cultures is one of the main research topics of this field.

**Keywords***:* "War" concept, "language landscape of the world", linguopragmatics, subjective landscape, functional aspects.

# ЛИНГВОПРАГМАТИЧЕСКИЕ ОСНОВЫ ПОНЯТИЯ «ВОЙНА» В ЛИНГВИСТИЧЕСКОЙ КАРТИНЕ МИРА

**Гиблалиева Афет**

**Азербайджанский университет языков**

**https://orcid.org/0009-0004-8558-5884**

**kazimbeyli15@bk.ru**

**Резюме**

Лингвопрагматические основы концепта “война” в лингвистике изучают, как формируются и функционируют концепты и выражения, связанные с войной, в контексте использования языка, культуры и коммуникации. Лингвопрагматика - это область, которая анализирует не семантику языка, а то, как он используется и с какой целью. С этой точки зрения, важной темой становится то, как понятие “война” конструируется с помощью языка, переводится и как это влияет на общество. Лингвопрагматические основы концепта “война” изучают, как концепты войны и коммуникативные цели, передаваемые с помощью языка, формируются в контексте использования языка. Поскольку лингвопрагматика изучает, как и для каких целей используется язык, то то, как понятие “война” формирует функциональные аспекты языка и как это понятие используется в разных культурах, является одной из основных тем исследований в этой области.

**Ключевые слова**: концепт “Война”, “языковой ландшафт мира”, лингвопрагматика, субъективный ландшафт, функциональные аспекты.

# DÜNYANIN LİNQVİSTİK MƏNZƏRƏSİNDƏ “MÜHARİBƏ” KONSEPTİNİN LİNQVOPRAQMATİK ƏSASLARI

**Qibləliyeva Afət**

**Azərbaycan Dillər Universiteti**

**https://orcid.org/0009-0004-8558-5884**

**kazimbeyli15@bk.ru**

## Giriş

Müharibə konsepti müxtəlif dillərdə və cəmiyyətlərdə fərqli semantik yük daşıyır və bu, həmin cəmiyyətin **tarixi, mədəniyyət** və **sosial dəyərləri** ilə sıx bağlıdır. Müxtəlif cəmiyyətlərdə müharibəyə yanaşma tərzi və onun dilə necə əks etdirildiyi, bu konseptin mənfi və ya müsbət mənada işlədilməsinə təsir edir. Linqvopraqmatika bu kontekstdə müharibə ilə bağlı ifadələrin dilin strukturuna, funksiyasına və istifadəsinə necə təsir etdiyini araşdırır.

**V. fon** Humboldtun dilin mahiyyəti ilə bağlı fikirləri onun davamçıları tərəfindən genişləndirilmişdir. Bu davamçılardan biri **L. Voysberger** olmuşdur. O, XX əsrin 30-cu illərində **“dünyanın dil mənzərəsi”** terminini dilçiliyə gətirmişdir. Voysberger, dillərin sadəcə ünsiyyət vasitəsi deyil, həm də cəmiyyətlərin mənəvi dəyərlərinin, biliklərinin və dünyagörüşlərinin daşıyıcısı olduğunu qeyd etmişdir. Onun tədqiqatlarına əsasən, hər bir dil özündə bir cəmiyyətin **mənəvi məzmununu** və **bilik xəzinəsini** saxlayır və bu, həmin dilin “dünya dil mənzərəsi” adlanır [3, 21].

Görkəmli rus dilçisi O. Kornilov dilin bu milli xüsusiyyətlərini vurğulayaraq qeyd edir ki, hər bir milli dil bir neçə əsas funksiyanı daşıdığını “Dilin birinci əsas funksiyası, insanlar arasında əlaqə yaratmaq və məlumat ötürməkdir. Lakin bu ünsiyyət vasitəsi yalnız obyektiv informasiya ötürmür, həm də milli xüsusiyyətləri əks etdir” diyini qeyd edir [3, 22].

Aşağıdakı Azərbaycan dilçilərinin əsərlərində dünyanın dil mənzərəsi ilə bağlı bəzi araşdırmalara rast gəlmək olar:

A. Axundov – Dil və təfəkkürün qarşılıqlı əlaqəsinə dair fikirlər irəli sürmüş və dilin mədəniyyətin formalaşmasında mühüm rol oynadığını vurğulamışdır.

A. Qurbanov – Dünya dil mənzərəsinin qavrayışı və dillərin sosial-mədəni funksiyaları ilə bağlı araşdırmalar aparmışdır.

K. Abdulla – Dil fəlsəfəsi və milli dil mənzərəsinin mədəniyyətlə necə sıx əlaqəli olduğunu araşdırmışdır.

F. Veysəlli – Dilin semantik və funksional aspektləri ilə yanaşı, onun mədəniyyətə və şəxsiyyətə təsirinə diqqət yetirmişdir.

N. Cəfərov – Dünya dillərinin və mədəniyyətlərinin fərqli məzmun və strukturlarını öyrənmişdir.

Ə. Rəcəbli – Dil və mətn nəzəriyyəsinə dair tədqiqatlarında dillərin qavrayış və təfəkkür üzərindəki təsirini araşdırmışdır.

Bu alimlərin əsərlərində dünyanın dil mənzərəsi mövzusuna bilavasitə çox rast gəlinməsə də, onların ümumi dilçilik tədqiqatlarında bu mövzunun müxtəlif aspektləri işıqlandırılmışdır.

Tədqiqtçıların bir çoxu insanları əhatə edən dünyanın bir-birindən fərqli üç forması olduğunu qeyd edir:

1. Dünyanın gerçək mənzərəsi,
2. Dünyanın mədəni mənzərəsi,
3. Dünyanın dil mənzərəsi [2, 158].

Burada düşünmə tərzinin formalaşmasında təbii ki, mədəni məişət ənənələri, milli dəyərlər, ətraf mühit (iqlim, coğrafi areal və d.) tarixi hadisələr böyük rol oynayır.

V. fon Humboldt dili millətin ruhu adlandırır. Dil eyni zamanda millətin ruhunun xarici görünüşüdür deyən Görkəmli türkiyəli tədqiqatçı alim Bedi Akarsu "Wilhelm Von Humboldt'da Dil-Kültür Bağlantısı" adlı əsərində V. fon Humboldtun düşüncələrini aşağıdakı şəkildə izah edir: "İnsanı insan edən onun dilidir. Dil olmasaydı, insan da olmazdı. Dil düşüncəni formalaşdırır. Düşüncəni yaradan və onu irəli aparan dildir. Dilini yaradan, təkmilləşdirən cəmiyyət yüksək səviyyədə intellektual fəaliyyət göstərə bilər" [1, 14].

Linqvistik mənzərənin formalaşmasında dilin təfəkkür və mədəniyyətlə əlaqələrindən danışarkən bu sahədə ciddi araşdırmaları olan avstriyalı görkəmli dilçi J. Vitgenşteynin adını da xüsusi olaraq vurğulamaq lazımdır. Dilin sərhədləri dünyanın sərhədləridir deyən J. Vitgenşteyn: "Dildən istifadə etmək və dili anlamaq insanı digər canlılarda, insan həyatının mahiyyətini təşkil edən toxumadan fərqləndirən yeganə şeydir. Dil təkcə nəqliyyat vasitəsi deyil, həm də sürücüdür. Dil yolların qarmaqarışıqlığıdır. Bir tərəfdən gələndə yolunu bilirsən. Əgər eyni yerə fərqli istiqamətdən gəlirsənsə, yolunu azmışsan. Dil dünyanı təsvir edir. Cümlələrin cəmi dildir. Dil düşüncəni əhatə edir" [4, 112].

Dünyanın dil mənzərəsini araşdırılması, tədqiq edilməsi, əslində, dünyanın konseptual mənzərəsi ilə sıx bağlıdır. Dünyanın bu mənzərəsi həm də insanın və onun varlığının xüsusiyyətləri ilə sıx bağlıdır.

**Nəticə**

Dünyanın dil mənzərəsində "müharibə" konsepti anlayışının formalaşmasında dillər arasında və dil qrupları daxilindəki müxtəliflik böyük rol oynayır. Bu müxtəliflik, müxtəlif dillərin özünəməxsus xüsusiyyətləri ilə əlaqədardır və dillərin lüğət tərkibi, dialektləri, qrammatik quruluşları bu mənzərənin zənginliyinə və çoxşaxəliliyinə təsir göstərir.

Yekun olaraq, burada əsas məqamları aşağıdakı şəkildə qruplaşdıra bilərik:

Dil qruplarının rolu: Fərqli dil qrupları (məsələn, german dilləri, türk dilləri, slavyan dilləri və s.) dünya dil mənzərəsinin müxtəlifliyini yaradan əsas faktorlardan biridir. Hər bir dil qrupunun öz lüğəti, qrammatikası və nitq strukturları mövcuddur, bu da dillərin fərqli qavrayış modellərini formalaşdırır.

Daxili müxtəliflik: Hər bir dil daxilindəki müxtəliflik də bu dil mənzərəsinə töhfə verir. Məsələn, bir dilin fərqli dialektləri, lüğət tərkibi və yerli şivələri həmin dilin necə zəngin olduğunu və fərqli cəmiyyətlərdə necə istifadə edildiyini göstərir. Hər bir fərdi dil öz dünya qavrayışını və mədəniyyəti əks etdirir.

Sözlər və qrammatik quruluşlar: Dilin lüğət tərkibi və qrammatik quruluşu dünyaya fərqli baxış

bucağını əks etdirir. Məsələn, bir dilin spesifik bir sözü və ya frazeoloji ifadəsi başqa bir dildə eynilə tərcümə olunmaya bilər. Bu, dillərin özündə olan fərqli mədəni dəyərlərin və qavrayışların ifadəsidir.

**Ədəbiyyat**


Akarsu, B. (1984). *Wilhelm Von Humboldt'da Dil-Kültür Bağlantısı*. İstanbul: Remzi Yayınevi.

Verdiyeva, E. (2020). Dünyanın dil mənzərəsi müasir koqnitiv dilçiliyin fundamental anlayışlarından biri kimi, *Filologiya məsələləri*, № 6, 157-162.

Вайсгербер, Й.Л. (2004). *Родной язык и формирование духа.* Москва, УРСС эдиториал, 2004.

Витгенштейн, Л. (2010). *Культура и ценность. О достоверности*. Москва.

# THE INFLUENCE OF AZERBAIJANI PROVERBS ON ARMENIAN FOLKLORE

**Orujzade Gunay Tahir**

**Institute of Folklore**

**https://orcid.org/0009-0002-4640-8696**

**goruczade@gmail.com**

**Rəyçi:**

**Nəzərova Adilə Həsən qızı,**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

As in all fields, Armenians have always continued their thefts and falsifications in the field of folklore as well. They sought to prove to the world that Armenians were supposedly the oldest inhabitants of the South Caucasus. Therefore, they needed evidence to support this claim, including folklore examples. One of these folklore genres was proverbs. To realize their unfounded, absurd dreams, Armenians began to appropriate Azerbaijani proverbs as their own. Since the 1880s, Armenians have tried various ways and means to appropriate Azerbaijani proverbs. Proverbs and sayings are among the folklore genres frequently used by Armenians. As they themselves admit, they often refer to Azerbaijani proverbs and sayings in their daily conversations and household speech. They have tried by all means to falsify and claim our proverbs and sayings. The article clarifies all these issues and provides a comprehensive examination of Armenian falsifications in our folklore.

**Key words:** Azerbaijani folklore, proverbs, Armenians, Armenian falsification.

# ВЛИЯНИЕ АЗЕРБАЙДЖАНСКИХ ПОСЛОВИЦ НА АРМЯНСКИЙ ФОЛЬКЛОР

**Оруджзаде Гюнай Тахир**

**Институт фольклора**

**https://orcid.org/0009-0002-4640-8696**

**goruczade@gmail.com**

**Резюме**

Как и во всех других областях, армяне всегда продолжали свои кражи и фальсификации и в области фольклора. Они стремились доказать всему миру, что якобы армяне были древнейшими жителями Южного Кавказа. Поэтому им нужны были доказательства, в том числе и фольклорные примеры, чтобы подтвердить это утверждение. Одним из таких фольклорных жанров были пословицы. Чтобы реализовать свои беспочвенные, абсурдные мечты, армяне начали присваивать азербайджанские пословицы. С 1880-х годов армяне начали пытаться разными способами присвоить себе азербайджанские пословицы. Пословицы и поговорки являются одними из жанров фольклора, которые армяне часто используют. Как они сами признают, они часто обращаются к азербайджанским пословицам и поговоркам в повседневных разговорах и бытовой речи. Они пытались любыми способами фальсифицировать и присвоить наши пословицы и поговорки. В статье разъясняются все эти вопросы, и армянские фальсификации в нашем фольклоре исследуются всесторонне.

**Ключевые слова:** Азербайджанский фольклор, пословицы, армяне, армянские фальсификации.

# AZƏRBAYCAN ATALAR SÖZLƏRİNİN ERMƏNİ FOLKLORUNA TƏSİRİ

**Oruczadə Günay Tahir qızı**

**Folklor İnstitutu**

**https://orcid.org/0009-0002-4640-8696**

**goruczade@gmail.com**

Ermənilər tarix boyu, digər sahələrdə olduğu kimi, folklor sahəsində də oğurluq və saxtakarlıq etmişlər. Azərbaycan xalqının tarixi torpaqları üzərində qondarma bir dövlət yaradan ermənilər, zamanla mədəniyyətimizə və folklorumuza müdaxilə ediblər. Onlar milli-mənəvi dəyərlərimizi mənimsəməyə və bu dəyərləri saxtalaşdıraraq öz adlarına çıxmağa çalışıblar. Ermənilər, Azərbaycan mədəniyyətini və şifahi xalq ədəbiyyatını mənimsəməkdə daha irəliləyiblər. Mahnılarımızı, musiqi alətlərimizi öz adlarına çıxararaq, nağıllarımızı, dastanlarımızı, atalar sözlərimizi, bayatılarımızı, epos mədəniyyətimizi və aşıq yaradıcılığımızı özününküləşdirməyə çalışıblar.

Azərbaycan dövləti, erməni saxtakarlığının qarşısını almaq üçün dəfələrlə beynəlxalq qurumlar qarşısında məsələ qaldırmış və bu haqda sənədlər təqdim etmişdir. Lakin, bütün bunlara baxmayaraq, ermənilər öz niyyətlərindən əl çəkməyərək, Azərbaycan folkloruna qarşı saxtakarlıqlarını davam etdiriblər. Onlar dünya ictimaiyyətinə sübut etmək istəyiblər ki, guya ermənilər Cənubi Qafqazın ən qədim sakinləridir. Ancaq ermənilər və onların alimləri də etiraf edirlər ki, kökləri və mənşəyi dəqiq məlum deyil. Folklorşünas M.Abeqyanın 1975-ci ildə İrəvanda nəşr olunmuş "Erməni ədəbiyyatı tarixi" kitabında qeyd edilir ki, "*Məzlum erməni xalqının kökləri haradadır, yaşadığı məkana necə gəldiyi dəqiq bilinmir. Bununla bağlı aydın sübutlar yoxdur*." Beş ildən sonra, yəni 1980-ci ildə, özlərinə yeni tarix yazmağa çalışan ermənilər bu dəfə əcdadlarının Balkanlardan Qafqaza gəldiyi fikrini irəli sürürlər (Sarıyeva, 2017: 13).

Məşhur erməni mədəniyyət və incəsənət nümayəndələri, XIX əsrdə Azərbaycan dilindən istifadə edərək öz dillərini zənginləşdirməyə çalışmışlar. Bu sahədə X.Abovyan, M.Nalbandyan, Q.Ağayan, Q.Sundukyan kimi tanınmış ədiblər, tədqiqatçılar və alimlər xüsusi fəallıq göstərmişdir. Lakin ermənilər Qafqaza qədimdən deyil, XIX əsrin birinci yarısında, Gülüstan və Türkmənçay müqavilələrindən sonra köçürülmüş bir xalqdır. Onların Qafqaza gəlişini təsdiq edən faktlardan biri, Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrini öz adlarına çıxarmağa cəhd göstərmələridir.

Rusiya imperiyası Qafqazı işğal etdikdən sonra, yəni XIX əsrin əvvəllərindən başlayaraq, Qərbi Azərbaycana və Qarabağ bölgəsinə köçən erməni icmaları, gəldikləri yerlərin mədəniyyətindən və folklorundan nankorcasına istifadə etməyə başladılar. Ermənilər, yeni mədəni mühitin musiqisini və xalq yaradıcılığı nümunələrini saxtalaşdıraraq, bunları öz yaradıcılıqları kimi təqdim etməyə çalışırdılar. Onların bu cür saxtakarlığını əks etdirən kifayət qədər yazılı mənbə mövcuddur. Beləliklə, erməni saxtakarlığının tarixi, onların Cənubi Qafqaza gəlişi ilə başlayır və müasir dövrdə də davam edir.

Ermənilərin Qafqazın qədim, aborigen xalqı olduqlarını sübut edəcək faktlara, xüsusən də xalq arasında daha geniş yayılmış folklor nümunələrinə ehtiyacları var idi. Bu nümunələrdən biri də atalar sözləri idi. Öz əsassız iddialarını reallaşdırmaq üçün ermənilər Azərbaycan atalar sözlərini mənimsəməyə başladılar. Məlumdur ki, mövzu rəngarəngliyi, ümumiləşdirmə və yekun nəticə

atalar sözlərinin əsas xüsusiyyətlərindəndir.

Atalar sözləri xalqın təcrübəsinə əsaslanan müdrik və nəsihət dolu fikirləri ifadə edir və böyük əxlaqi-tərbiyəvi əhəmiyyət daşıyır. Bu janrın əsas xüsusiyyəti qısa, lakin məna baxımından dərin olmasıdır, həmçinin hər bir xalqın atalar sözlərində onun özünəməxsus xüsusiyyətləri və mentaliteti əks olunur. Ermənilər isə bu xüsusiyyətləri nəzərə almadan bizim atalar sözlərimizi mənimsəmişlər.

Azərbaycan Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov qeyd edir ki, "Erməni atalar sözləri" kitabı (erməni dilində, Ermənistan Elmlər Akademiyası, 1960) rus dilinə tərcümə edilib və 1967-ci ildə SSRİ Elmlər Akademiyası tərəfindən "Erməni folkloru" adı altında nəşr olunub. Bu kitabda yer alan "*Aşağıda otur ki, yuxarıda sənə yer versinlər*", "*Çox bil, az danış*", "*Üz verdilər, astar istədi*", "*Nə etsən qarşına çıxacaq*", "*Qızım sənə deyim, gəlinim sən bil*" və digər atalar sözləri – cəmi 233 atalar sözü – erməni nümunələri kimi göstərilib (İmanov, 2024).

Ermənilər tərəfindən hər gün istifadə olunan folklor janrlarından biri də Azərbaycan atalar sözləri və məsəlləridir. A. Terteryan yazır ki, "*Ermənilər söhbətlərində və danışıqlarında həmişə Azərbaycan atalar sözlərinə və məsəllərinə müraciət ediblər*" (Terteryan, 1941). Bu mövzuya toxunan Əkbər Yerevanlı qeyd edir ki, "*erməni xalqı arasında geniş yayılan Azərbaycan atalar sözləri əsasən öz ilkin formasını qoruyur və onlara çox az dəyişiklik edilir*" (Yerevanlı, 1958). Müəllif bu fikri dəstəkləmək üçün bir neçə atalar sözünü nümunə gətirir. Bu atalar sözlərini müqayisə edərkən görünür ki, Azərbaycan atalar sözləri ermənilər tərəfindən necə mənimsənilib. Məsələn, "*Kef sənin, kənd koxanın*" – "*Kefi konnə, kyand kyoxvini*", "*Bir olsun, pir olsun*" – "*Bir ıli u pir ıli*", "*Dəvə nalbəndə tərs baxar*" – "*Daven nalbandin tars kaşa*" və sair atalar sözləri göstərir ki, ermənilər öz folklorlarını "zənginləşdirmək" üçün Azərbaycan atalar sözlərindən də mənbə kimi istifadə etmişlər. Ermənilər özləri də etiraf edirlər ki, bu kimi atalar sözləri Azərbaycan atalar sözlərinin erməniləşdirilmiş variantlarıdır (Yerevanlı, 1958).

Bundan əlavə, ermənilər bir çox Azərbaycan atalar sözlərini götürərək erməni dilində yazıya almış və sadəcə bir-iki sözü dəyişdirərək onları yeni nümunələr kimi təqdim etmişlər. İsrafil Abbaslı bu mövzuya toxunaraq atalar sözlərinin müqayisəli təqdimatı ilə daha əhatəli bir fikir formalaşdırır. (Abbaslı, 1977).

Onun bu sahədəki tədqiqatlarında qarşılıqlı atalar sozlərinə baxanda görürük ki, "*Könul sevən göycək olar*" atalar sözümüz "*Göz sevən çirkin olmaz*", "*Pul əl çirkidir*" atalar sozumuz "*Pul ki, var, pasdır, əl cirkidir*", "*Sən ağa, mən ağa, bəs inəkləri kim sağa*" atalar sözumuz "*Sən ağa, mən ağa, bəs dəni kim üyütsün*", "*İlanın ağına da lənət, qarasına da*" atalar sozumuz "*İlanın qarasına da lənət, ağına da*", "*Kor nə istər iki göz, biri əyri, biri düz*" atalar sözümüz "*Kor nə istər iki göz*", "*Dost başa baxar, duşmən ayağa*" atalar sözümüz "*Dost dostun üzünə baxar, ancaq yad adam ayağına*" şəklində işlədilərək "milliləşdirilmişdir" (Məmmədov, 2017).

Guya zəngin atalar sözlərinə malik olmaları ilə qürurlanan ermənilər 1967-ci ildə SSRİ EA-nın "Elm" nəşriyyatında oğurlanmış Azərbaycan atalar sözlərini "Армянский фольклор" adı altında nəşr ediblər. Kitabda çap edilən bu "erməni atalar sözləri"ndən bəzilərinin rusca necə səslənməsinə diqqət edək: "*Не всякий побывавший в Иерусалиме хаджи*" (Hər Qüdsdə olan, "Hacı" olmur), "*Лучше один раз попросить у Бога, чем сорок раз у сорока святых*" ("Qırx müqəddəsə qırx dəfə yalvarınca, bir dəfə Tanrıya yalvar"), "*Цену золота знает лишь ювелир*" ("Zər qədrini zərgər bilər"), "*Делай так чтобы ни шашлык, ни шампур не сгорел*" ("Nə şiş yansın, nə kabab"), "*Сидем криво, говорим прямо*", ("Əyri oturaq, düz danışaq"), "*Ашуга в дом впустили, а он спрашивает: "куда положить саз*" ("Aşığı evə dəvət etdilər, dedi sazı hara qoyum?") və s.

(Faktyoxla.az, 2022)

Bu nümunələrdən açıq şəkildə görünür ki, ermənilər oğurladıqları və öz adlarına çıxardıqları atalar sözlərindəki türk sözlərini uyğun erməni sözləri ilə əvəz edə bilməyiblər. Bəzi hallarda isə sadəcə bir-iki sözü dəyişdirmək məcburiyyətində qalıblar. Məsələn, "*Əyri oturaq, düz danışaq*" atalar sözünün mənşəyinə nəzər yetirək. Bu ifadə qədim erməni atalar sözü kimi təqdim olunsa da, əslində ermənilərin Qafqaza köçürülməsindən daha əvvələ aiddir. Sübut olaraq qeyd edək ki, bu atalar sözü böyük Azərbaycan mütəfəkkiri Nəsiminin XIV əsrdə yazdığı divanda yer almışdır:

*Zülfü dedi: hüsn ölkəsinin şahı mənəm, mən,*

*Əyri oturub düz danışır, məncə, rəvadır* (Nəsimi, 1985).

Bakı ermənisi olan tarixçi Qriqori Ayvazyan da "*Əyri oturaq, düz danışaq*" Azərbaycan atalar sözünü erməni məsəli kimi təqdim edir. O yazır: "*Erməni dilində belə bir atalar sözü var: 'Əyri oturaq, düz danışaq* (Yerevanlı, 1958). Halbuki, qeyd edildiyi kimi, bu atalar sözü Nəsiminin bir qəzəlinin əsas ideyasını təşkil edir, yəni ermənilərin bu atalar sözünə heç bir aidiyyəti yoxdur.

Akademik A.Qanalanyanın 1960-cı ildə Ermənistan Elmlər Akademiyası tərəfindən nəşr olunmuş 396 səhifəlik "Erməni atalar sözləri" kitabında yer alan və erməni dilinə tərcümə edilmiş 233 atalar sözünün Azərbaycan dilində olduğu məlum olur. Bu fakt göstərir ki, folklor nümunələri məhdud olan ermənilər üçün Azərbaycan şifahi xalq ədəbiyyatı əsas mənbə rolunu oynayıb. Erməni müəlliflərinin öz etirafları və tədqiqatları da bunu bir daha təsdiq edir.

Azərbaycan atalar sözlərinin erməni folkloruna təsiri nəticəsində ermənilər öz folklorunu zənginləşdirmək məqsədilə Azərbaycan şifahi xalq ədəbiyyatından geniş şəkildə faydalanmışlar. Azərbaycan atalar sözləri, məzmun və forma baxımından dərin hikmət və təcrübə ilə dolu olduğundan, erməni folkloruna təsir edərək onun bəzi nümunələrinin yaranmasına səbəb olmuşdur.

Bu təsirin nəticəsi olaraq, bir çox Azərbaycan atalar sözü erməni dilinə tərcümə olunmuş, bəzilərində isə kiçik dəyişikliklər edərək erməni atalar sözləri kimi təqdim edilmişdir. Bununla belə, folklor nümunələrinin kökləri və mənşəyi dəyişmədiyi üçün həmin atalar sözlərinin Azərbaycan mənşəli olduğu açıq şəkildə görünür. Erməni müəlliflərinin özləri də araşdırmaları zamanı Azərbaycan atalar sözlərinin erməni folklorundakı təsirini təsdiqləyirlər. Bu da göstərir ki, ermənilər folklorlarını inkişaf etdirmək və zənginləşdirmək üçün Azərbaycan xalqının dil və düşüncə məhsullarına arxalanıblar.

**Ədəbiyyat**

Abbaslı İ. (1977). *Azərbaycan folkloru XIX əsr erməni mənbələrində*. Bakı: Elm, 156 səh.

Faktyoxla.az. (2022). Историк: "Сядем криво, поговорим прямо" - старинная армянская пословица, https://faktyoxla.az/ru/news/view/1886/istorik-quot-syadem-krivo-pogovorim, giriş tarixi: 06.11.2024

İmanov K. (2024). *Azərbaycan xalqının atalar sözlərini ermənilər öz nümunələri kimi təqdim edirlər*. Azərtac, 23 aprel.

Məmmədov E. (2017). Azərbaycan şifahi xalq ədəbiyyati “erməni folkloru”nun formalaşmasında mənbə kimi. *Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin xəbərləri. İctimai və humanitar elmlər seriyası*, № 3, s. 253-265.

Nəsimi İ. (1985). *Seçilmiş əsərləri*. (Tərtib və şərhlər Ə. Səfərli) Bakı: Maarif, 440 səh.

Sarıyeva İ. (2017). “Kitabi-Dədə Qorqud", "Şah İsmayıl", "Koroğlu", "Əsli və Kərəm", "Aşıq Qərib" kimi məşhur dastanlarımıza erməni iddialarının tarixi..., *Bakı xəbər*. 14 aprel. №64. s. 13.

Terteryan A. (1941). *Abovyanın yaradıcılığı*. Yerevan: Yerevan Dövlət Universiteti nəşriyyatı, (erməni dilində), 188 s.

Yerevanlı Ə. (1958). *Erməni-Azərbaycan şifahi xalq ədəbiyyatı əlaqələri*. Yerevan: Haypethrat, (erməni dilində), 270 s.

# THE INFLUENCE OF SHAVKAT SÜRAYYA AYDMIR'S WORK "ONE MAN" ON CONTEMPORARY TURKEY HISTOROLOGY

**Akbarova Gunay Zabil**

**Baku State University**

**https://orcid.org/0009-0001-1604-699X**

**akbarova.gunay.zabil@gmail.com**

**Rəyçi:**

**Muğamat Xəyalə Muqamat qızı qızı,**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

Shavkat Sureyya Aydemir's work "Tek adam" was an important turning point in Turkish historiography. The work is not just a biography of Ataturk, but also a fundamental study reflecting a comprehensive analysis of the last period of the Ottoman Empire and the founding years of the Republic of Turkey.

In the work Aydemir applied the method of socio-economic analysis, which was not widespread in Turkey until that time. Thanks to this method, events were investigated not only from a political point of view, but also in the social and economic context of the time. The author systematically analyzed the archival materials, studied them in a comparative way with the press and witness statements of the time.

One of the most important features of the work "Tek adam" is the method of objective and critical approach. Unlike most historians of Aydemir's time, he refrained from idealizing Ataturk and analyzed both his successes and complex points in his decisions based on scientific principles.

The work had a significant impact on modern historiography. Methods of systematic analysis of archival materials, evaluation of witness statements in a scientific context, and complex investigation of socio-economic factors are widely used in modern research. Aydemir's work had a fundamental impact on the development of critical thinking.

On the one hand, modern historians highly appreciate the work in terms of its fundamental research nature, wide source base and systematic analysis methodology. On the other hand, the work also mentions the existence of certain subjective points and ideological influences of the time. However, these critical approaches do not reduce the fundamental importance of the work, and modern historians themselves use the methodological principles formed by Aydemir.

**Key words:** Ataturk, Aydemir, Tek adam, Turkiye,

# ВЛИЯНИЕ РАБОТЫ ШАВКАТА СЮРАЙИ АЙДМИРА « ОДИНОКИЙ ЧЕЛОВЕК » НА СОВРЕМЕННУЮ ИСТОРОЛОГИЮ ТУРЦИИ

**Акбарова Гюнай Забиль**

**Бакинский государственный университет**

**https://orcid.org/0009-0001-1604-699X**

**akbarova.gunay.zabil@gmail.com**

**Резюме**

Работа Шавкета Сурейи Айдемира «Одинокий человек» стала важным поворотным моментом в турецкой историографии. Работа представляет собой не просто биографию Ататюрка, но и фундаментальное исследование, отражающее всесторонний анализ последнего периода Османской империи и лет основания Турецкой Республики.

В своей работе Айдемир применил метод социально-экономического анализа, до того времени не получивший широкого распространения в Турции. Благодаря этому методу события исследовались не только с политической точки зрения, но и в социально-экономическом контексте того времени. Автор систематически проанализировал архивные материалы, изучил их в сравнительном порядке с прессой и показаниями очевидцев того времени.

Одной из важнейших особенностей произведения «Одинокий человек» является метод объективного и критического подхода. В отличие от большинства историков времени Айдемира, он воздерживался от идеализации Ататюрка и анализировал как его успехи, так и сложные моменты в своих решениях, основываясь на научных принципах.

Работа оказала значительное влияние на современную историографию. В современных исследованиях широко используются методы систематического анализа архивных материалов, оценки показаний свидетелей в научном контексте, комплексного исследования социально-экономических факторов. Работа Айдемира оказала фундаментальное влияние на развитие критического мышления.

С одной стороны, современные историки высоко оценивают работу с точки зрения ее фундаментального исследовательского характера, широкой источниковой базы и методологии системного анализа. С другой стороны, в работе также упоминается существование определенных субъективных моментов и идеологических влияний того времени. Однако эти критические подходы не умаляют принципиального значения работы, и современные историки сами используют методологические принципы, сформированные Айдемиром.

**Ключевые слова:** Айдемир, Одинокий человек, Турция, Ататюрк

# ŞƏVKƏT SÜRƏYYA AYDƏMİRİN "TƏK ADAM" ƏSƏRİNİN MÜASİR TÜRKİYƏ TARİXŞÜNASLIĞINA TƏSİRİ

**Əkbərova Günay Zabil**

**Bakı Dövlət Universiteti**

**https://orcid.org/0009-0001-1604-699X**

**akbarova.gunay.zabil@gmail.com**

Türkiyə Cümhuriyyətinin müasir tarixşünaslığında Atatürk dövrünün öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu kontekstdə Şəvkət Sürəyya Aydəmirin "Tək adam" əsəri öz dövrü üçün tamamilə yeni bir yanaşma təqdim etmişdir. Əsər sadəcə Atatürkün bioqrafiyasını əks etdirən bir tədqiqat olmaqdan çıxaraq, Osmanlı İmperiyasının son dövrü və Türkiyə Cümhuriyyətinin quruluş illərinin hərtərəfli təhlilini əhatə edən fundamental araşdırmaya çevrilmişdir.

Aydəmirin yaradıcılığında "Tək adam" əsəri onun tarixçi və sosioloq kimi uzunmüddətli tədqiqatlarının kulminasiya nöqtəsi hesab oluna bilər. O, əsəri yazarkən Türkiyənin modernləşmə prosesini şəxsən müşahidə etmiş bir ziyalı kimi öz təcrübələrindən də faydalanmışdır. Bu baxımdan əsər həm birbaşa müşahidələrə əsaslanan tarixi mənbə, həm də akademik tədqiqat nümunəsi kimi ikili əhəmiyyət daşıyır.

**Metodoloji Yenilik**

"Tək adam" əsərinin Türkiyə tarixşünaslığına gətirdiyi ən mühüm yeniliklərdən biri onun metodoloji yanaşmasıdır. Aydəmir tarix yazıçılığında o dövrə qədər Türkiyədə geniş yayılmamış sosial-iqtisadi təhlil metodunu tətbiq etmişdir. Bu metod sayəsində hadisələr təkcə siyasi perspektivdən deyil, eyni zamanda dövrün sosial və iqtisadi kontekstində də araşdırılmışdır. Müəllif arxiv materiallarından istifadə edərkən sistemli yanaşma nümayiş etdirmiş, rəsmi sənədləri təkcə faktoloji mənbə kimi deyil, həm də dövrün ictimai-siyasi ab-havasını əks etdirən materiallar kimi qiymətləndirmişdir. Aydəmir arxiv sənədlərini təhlil edərkən onları digər mənbələrlə, xüsusilə də dövrün mətbuatı və şahid ifadələri ilə müqayisəli şəkildə araşdırmışdır.

Aydəmirin əsərində diqqəti çəkən digər mühüm metodoloji yenilik şahid ifadələrindən istifadə üsuludur. Müəllif Atatürk dövrünü yaşamış insanların xatirələrini toplamaqla kifayətlənməmiş, bu məlumatları sistemli şəkildə təhlil etmiş və digər tarixi mənbələrlə qarşılaşdırmışdır. Bu yanaşma, sonrakı Türkiyə tarixçiləri üçün şifahi tarix metodologiyasının inkişafına təkan vermişdir.

**Türkiyə tarixşünaslığının inkişafında əsərin rolu.**

"Tək adam" əsəri Türkiyə tarixşünaslığında Atatürk dövrünün öyrənilməsi və təhlili üçün yeni elmi standartlar formalaşdırmışdır.(Aydemir. Ş.S, 1963) Aydəmirin ortaya qoyduğu ən mühüm xüsusiyyətlərdən biri obyektiv və tənqidi yanaşma metodudur. Müəllif dövrünün əksər tarixçilərindən fərqli olaraq, Atatürkü idealizə etməkdən çəkinmiş, onun həm uğurlarını, həm də qərarlarındakı mürəkkəb məqamları elmi prinsiplər əsasında təhlil etmişdir. (Zürcher, E.J. 2004)

Əsərdə hadisələr geniş tarixi kontekstdə araşdırılmış, Osmanlı İmperiyasının son dövrü ilə Türkiyə Cümhuriyyətinin quruluş dövrü arasındakı əlaqələr sistemli şəkildə təhlil edilmişdir. Bu yanaşma Türkiyənin modernləşmə prosesinin daha dərindən anlaşılmasına imkan yaratmışdır. Aydəmir təhlilində siyasi hadisələrlə yanaşı, sosial strukturun transformasiyasını, iqtisadi

islahatların təsirlərini və mədəni dəyişikliklərin dinamikasını da əhatəli şəkildə araşdırmışdır. (Hanioğlu, M.Ş. 2011).

Əsər eyni zamanda Türkiyə tarixinin yazılmasında yeni üslub formalaşdırmışdır. Aydəmir elmi-akademik dillə bədii təsvir vasitələrini məharətlə birləşdirərək, tarixi hadisələrin canlı və inandırıcı təsvirini yarada bilmişdir. Bu üslub sonrakı nəsil tarixçilərə güclü təsir göstərmiş, tarixi əsərlərin həm elmi dəqiqlik, həm də oxunaqlılıq baxımından inkişafına töhfə vermişdir.

**Müasir tədqiqatçılığa təsiri**

"Tək adam" əsərinin müasir Türkiyə tarixşünaslığına təsiri çoxşaxəli və davamlı xarakter daşıyır. Əsərin metodoloji yanaşması bugünkü tədqiqatçılar tərəfindən geniş şəkildə mənimsənilmiş və inkişaf etdirilmişdir. Xüsusilə, arxiv materiallarının sistemli təhlili, şahid ifadələrinin elmi kontekstdə dəyərləndirilməsi və sosial-iqtisadi amillərin kompleks araşdırılması metodları müasir tədqiqatlarda geniş tətbiq olunur. (Findley, C.V. 2010).

Aydəmirin əsəri müasir tarixşünaslıqda tənqidi təfəkkürün inkişafına fundamental təsir göstərmişdir. Tarixi şəxsiyyətlərin və hadisələrin obyektiv dəyərləndirilməsi, mürəkkəb tarixi proseslərin çoxaspektli təhlili və elmi yanaşmanın formalaşması kimi prinsiplər artıq müasir Türkiyə tarixşünaslığının əsas xüsusiyyətlərinə çevrilmişdir.

"Tək adam"ın müasir tədqiqatçılığa ən mühüm töhfələrindən biri də tarixi hadisələrin təhlilində kontekstual yanaşmanın əhəmiyyətini vurğulamasıdır. Müəllif hər bir hadisəni dövrün beynəlxalq münasibətləri, daxili sosial-iqtisadi şəraiti və mədəni mühiti kontekstində araşdırmışdır. Bu yanaşma müasir tarixçilər üçün nümunəyə çevrilmiş və tarix elmində hadisələrin kompleks təhlili ənənəsinin formalaşmasına səbəb olmuşdur.

**Müasir dövrdə əsərin qiymətləndirilməsi**

Müasir tarixşünaslıqda "Tək adam" əsərinə münasibət mürəkkəb və çoxşaxəlidir. Əsər bir tərəfdən fundamental tədqiqat xarakteri, geniş mənbə bazası və sistemli təhlil metodologiyası baxımından yüksək qiymətləndirilir. Digər tərəfdən, müasir tədqiqatçılar əsərdə müəyyən subyektiv məqamların və dövrün ideoloji təsirlərinin mövcudluğunu da qeyd edirlər.

Müasir tarixçilər xüsusilə əsərin aşağıdakı aspektlərini yüksək qiymətləndirirlər:

- Türkiyə modernləşməsinin dərin və hərtərəfli təhlili
- Arxiv materiallarından geniş və sistemli istifadə
- Şahid ifadələrinin elmi kontekstdə dəyərləndirilməsi
- Sosial-iqtisadi proseslərin siyasi hadisələrlə əlaqəli təhlili
- Tarixi hadisələrin səbəb-nəticə əlaqələrinin aydın təsviri

Bunula belə, müasir tədqiqatçılar əsərin bəzi məhdudiyyətlərini də qeyd edirlər. Məsələn, müəllifin şəxsi təcrübələrinin və siyasi mövqeyinin bəzi hadisələrin təhlilində subyektiv təsiri, dövrün hakim ideologiyasının müəyyən məsələlərin şərhində rolu və bəzi tarixi faktların interpretasiyasında mübahisəli məqamların mövcudluğu göstərilir.(Ortaylı, İ. 2018). Lakin bu tənqidi yanaşmalar əsərin fundamental əhəmiyyətini azaltmır. Əksinə, müasir tarixçilər "Tək adam"ı tənqidi təhlil edərkən özləri də Aydəmirin formalaşdırdığı metodoloji prinsiplərdən istifadə edirlər. Bu isə əsərin Türkiyə tarixşünaslığında yaratdığı dərin və davamlı təsirin göstəricisidir.

**Ədəbiyyat:**


Ahmad, F. (1993). The Making of Modern Turkey. Routledge.

Aydəmir, Ş.S. (1963). Tek Adam: Mustafa Kemal (1881-1919). Cilt 1. Remzi Kitabevi.

Aydəmir, Ş.S. (1964). Tek Adam: Mustafa Kemal (1919-1922). Cilt 2. Remzi Kitabevi.

Aydəmir, Ş.S. (1965). Tek Adam: Mustafa Kemal (1922-1938). Cilt 3. Remzi Kitabevi.

Berkes, N. (1973). Türkiye'de Çağdaşlaşma. Bilgi Yayınevi.

Findley, C.V. (2010). Turkey, Islam, Nationalism and Modernity. Yale University Press.

Georgeon, F. (2009). Osmanlı-Türk Modernleşmesi. Yapı Kredi Yayınları.

Hanioğlu, M.Ş. (2011). Atatürk: An Intellectual Biography. Princeton University Press.

Lewis, B. (1961). The Emergence of Modern Turkey. Oxford University Press.

Ortaylı, İ. (2018). Türkiye'nin Yakın Tarihi. Timaş Yayınları.

Timur, T. (1994). Türk Devrimi ve Sonrası. İmge Kitabevi.

Zürcher, E.J. (2004). Turkey: A Modern History. I.B. Tauris.

# ON THE GENERAL AND SPECIFIC FEATURES OF MILITARY NEOLOGISMS IN THE LANGUAGE

**Farzaliyeva Mehriban Isa**

**Azerbaijan University of Languages**

**https://orcid.org/0009-0001-8177-1987**

**mehriban49@gmail.com**

**Rəyçi:**

**Eminli Böyükxanım İbrahim qızı,**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The thesis "On the general and specific features of military neologisms in the language" deals with the new military neologisms that have appeared in the language in connection with the rapid development of the military field in our modern era. The creation of new military equipment and weapons for strengthening the country's defense capability and ensuring national security leads to the creation of neologisms in this area of the language. In the military discourse, it is noted that neologisms are formed through borrowings, kalka, change and clarification in the field of expression, change and clarification in content, polysemy, homonymy, synonymy, antonymy. In the military discourse, some of the terms have a simple structure, while others are distinguished by their modernity, complex functionality and multi-fields, and are expressed by complex term-word combinations. The names of modern weapons and equipment produced in Azerbaijan and other countries lead to the enrichment of the vocabulary of the language.

**Keywords :** millitary neologisms,defense industry, drone,military construction.

# ОБ ОБЩИХ И СПЕЦИФИЧЕСКИХ ОСОБЕННОСТЯХ ВОЕННЫХ НЕОЛОГИЗМОВ В ЯЗЫКЕ

**Фарзалиева Мехрибан Иса**

**Азербайджанский университет языков**

**https://orcid.org/0009-0001-8177-1987**

**mehriban49@gmail.com**

**Резюме**

В статье «Об общих и специфических особенностях военных неологизмов в языке» говорится о новых военных неологизмах, появившихся в языке в связи с бурным развитием военной области в нашу современную эпоху. Оружия для укрепления обороноспособности страны и обеспечения национальной безопасности приводят к созданию неологизмов в этой области языка. В военном дискурсе отмечается, что неологизмы образуются посредством заимствований, кальки, изменения в сфере выражения, изменения и уточнения в содержании, полисемии, омонимии, синонимии, антонимии. В военном дискурсе некоторые термины имеют простую структуру, другие отличаются своей современностью, сложной функциональностью и многоплановостью и выражаются сложными термино-словосочетаниями. Названия современных вооружений и техники, производимых в Азербайджане,и в других странах ведут к обогащению словарного запаса языка.

**Ключевые слов**а: военные неологизмы , оборонная промышленность, дрон , военное строительство .

# DİLDƏ HƏRBİ NEOLOGİZMLƏRİN ÜMUMİ VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİNƏ DAİR

**Fərzəliyeva Mehriban İsa**

**Azərbaycan Dillər Universiteti**

**https://orcid.org/0009-0001-8177-1987**

**mehriban49@gmail.com**

Azərbaycan Respublikasının müasir silahlarının dünya hərbi arenasında nümayiş etdirilməsinin nə qədər əhəmiyyət daşıdığı hər bir kəsə məlumdur. Azərbaycan, bir dövlət olaraq müstəqilliyini bərpa etdikdən sonra, ölkədə hərbi quruculuq işləri ön plana çəkilən sahələrdən biri olmuşdur.Ordu quruculuğu hərbi texnika və hərbi terminologiyanın inkişafına səbəb olmuşdur.Buna görə də, hərbi leksikanın öyrənilməsinə, onun formalaşmasına və inkişafına, habelə hərbi terminologiyanın bəzi xüsusiyyətlərinin araşdırılmasına diqqət artmışdır.Bu baxımdan mövzu aktualdır.

Dildə olan ayrı-ayrı sahə terminoloji leksik tərkibin inkişafını izləmək və tədqiqata cəlb etmək bütövlükdə terminoloji sistemin inkişafını izləməyə və onun tam təsəvvürünün əldə edilməsinə imkan verir.( Qasımov,2001)

Müasir Azərbaycan dili hərbi leksikasının xüsusi bir qatını da hərbi texnika, silah və sursat adları təşkil edir. Bu terminlərin bir qismi sadə quruluşa malik olduqları halda, digər qismi isə müasirliyi, mürəkkəb funksiyalılığı və çoxsahəliliyi ilə seçilməklə mürəkkəb quruluşlu termin-söz birləşmələri ilə ifadə olunurlar.(Qasımov,2000).

Azərbaycan dilçilərindən Y.Məmmədli hərbi leksikanın zənginləşməsinin səkkiz istiqamətdə: alınmalar, kalka, ifadə sahəsində dəyişiklik və dəqiqləşmə, məzmunca dəyişmə və dəqiqləşmə, polisemiya, omonimiya, sinonimiya, antonimiya və s. üzrə getdiyini yazır (Məmmədli,1997).

Hərbi neologizmlər və onların struktur və funksiyaları haqqında 2024 cü il sentyabrın ayında Bakıda dünyanın 50-dən çox ölkəsini təmsil edən çoxsaylı sirkətləri “Adex-2024” 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə və “ Securex Caspian” 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisindən yetərli sayda məlumat əldə edilmişdir. Burada PUA, kəşfiyyat və kamikadze dronları, 30 millimetrlik avtomatik top, zirehli gödəkçə, aviabomba, təlim simulyatorları , reaktiv silahlar, atış və hərəkət sistemləri ilə birlikdə idarə olunan döyüş sursatları, istiqamətləndirmə-idarəetmə sistemləri, döyüş başlıqları, mexaniki hissələr kimi hərbi neologizmlərdən bəhs edilmişdir.Bu neologizmlər müasir hərbi sahənin bütün növlərini əhatə edir. “Dearsan” dəstək gəmisi, korvet və ya gözətçi tipli gəmilər, patrul gəmiləri, çevik hərəkət qayıqları, desant gəmiləri, hidroqrafiya və okeanoqrafiya elmi-tədqiqat gəmiləri, minaaxtaran gəmilər, özü idarəolunan qayıqlar, mülki nəqliyyat gəmiləri və həmçinin gəmiqayırma zavodunun tikintisi və ya modernləşdirilməsi, dəniz su sərhədlərinin mühafizə sistemləri su sahəsinə aid olan hərbi neologizmlərdir. “Akıncı” adlı PUA, 2Bayraktar-TB2”, “Bayraktar KALKAN”, hərbi dəniz sistemi üçün nəzərdə tutulan“ ÇAKIR” adlı orta məsafəli raketi isə Türkiyə hərbi terminlərinə məxsusdur. ( prezident.az 2024).

”Prezident.az 2004”saytında hərbi silahların nümayişi zamanı Birləşmiş Ərəb Əmirliklərinin və İsrailin hərbi silahlarından -kosmik və kibertexnologiyalar, Aerokosmik Sənayesi yerüstü sistemlər, çoxmissiyalı havadan kəşfiyyat və nəzarət sistemləri, radarlar, rabitə sistemləri, PUA-lar üçün

komponentlər, çoxsahəli ballistik raketlər və rəqəmsal kommunikasiya peykləri kimi hərbi neologizmlər öz əksini tapmışdır ki, bu da həm həmin ölkələrin dillərinin, həm də bizim dilimizin lüğət tərkibinin zənginləşməsinə xidmət etmişdir( prezident.az 2024).

Bakı 24 sentyabr 2024-Sputnikin qeyd etdiyi kimi, Azərbaycan ilk lazer silahını nümayiş etdirib. ”Fireforce” lazer silahının gücü 30 kilovat, çəkisi 900 kiloqramdır. Azərbaycan mühəndisləri tərəfindən hazırlanan bu silah yüngül zirehli avtomobil üzərində yerləşdirilib(sputnik,2024).

Rusiyanın “Rosoboronekport” şirkəti “Lancet-e” baraj sursatı olan kompleksi nümayiş etdirib. ANAMA-ya iki ədəd “REVİVAL” mexaniki minatəmizləmə vasitələri təqdim olunub.Prezident İlham Əliyevə çoxməqsədli JF-17C təyyarələri təqdim olunub. Azərbaycanda “Zənqəzur”PUA-sı istehsal edilib. 2020-ci ildə Azərbaycanın igid əsgərləri 44 gün davam edən II Qarabağ Müharibəsində torpaqlarımızın azad olunması üçün düşmənə qarşı PUA-lardan və Müasir Elektron Texnologiyalardan istifadə etmişdir. Bu müharbədə dilimizin lüğət tərkibinə “İtiqovanlar” termini daxil oldu ki, bu terminin mənası da hər bir azərbaycanlıya məlumdur.

Yuxarıda ümumi səciyyəvi xüsusiyyətlərindən bəhs etdiyimiz silahlar hərbi diskursda ən son neologimzmlərdir.

Aparılan araşdırmalardan belə nəticəyə gəlmək olar ki, dildə hərbi neologizmlər dünyada müxtəlif ölkələrin bir-birinə qarşı apardıqları müharibələrin nəticəsində, güclənmək və yenidən hansısa hərbi məqsədə çatmaq üçün, ölkənin müdafiə qabiliyyətinin artırılması, ölkələrin hərb sahəsinin güclənməsi , yeni silahların yaradılması, düşmənə qarşı istifadə edilməsi kimi məqsədi ilə yaranır. Bu deyilənlər də dilin hərbi leksikasının inkişafına təsir edir.

**Ədəbiyyat**

Qasımov, İ.Z. (2000).Müasir Azərbaycan dilində hərbi terminlərin yaranma yolları. Bakı: Nurlan,179, 215.

Qasımov, İ.Z. (2001). Azərbaycan dilində hərbi terminoloji leksikanın təşəkkülü və inkişafı, Bakı: Nurlan, 9,97..

Məmmədli, Y. (1997). Azərbaycan dilinin hərbi leksikası, BDU, Bakı, 6,132.

Bakı 2024-Sputnik-xəbər saytı, 24 sentyabr.

https://prezident.az/articles/view , 2024, 24 sentyabr.

# DEVELOPMENT OF DOCUMENT FLOW ON CHILDREN'S IN AZERBAIJAN

**Aliyeva Lamiya Alizamin**

**Baku State University**

**https://orcid/.org/0000-0001-9985-2577**

**lamiyeliyeva570@gmail.com**

**Rəyçi:**

**Nəzərova Adilə Həsən qızı,**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The main purpose of the report is to reveal the historical development of children's literature in Azerbaijan and the importance of bibliographic resources in this field. The report emphasizes the role of writers who contributed to children's literature from the end of the 19th century to the present day, such as Firidun Bey Kocherli, Suleyman Sani Akhundov and Abdulla Shaig. In addition, the importance of children's literature in the formation of children's outlook and the cultural development of society is noted. The thesis also covers the bibliographic activity of the Republican Children's Library named after Firidun Bey Kocherli in modern times, which plays an important role in the systematic collection and distribution of children's literature. The bibliography "Azerbaijan Children's Literature" compiled by the library is analyzed and the importance of this resource in the teaching and research of children's literature is revealed.

**Key words:** children's literature, bibliographic activity, Republican Children's Library named after Firidun Bey Kocherli,  document flow.

# РАЗВИТИЕ ДОКУМЕНТООБОРОТА ПО ДЕТСКОЙ ЛИТЕРАТУРЕ В АЗЕРБАЙДЖАНЕ

**Алиева Ламия Ализамин**

**Бакинский государственный университет**

**https://orcid/.org/0000-0001-9985-2577**

**lamiyeliyeva570@gmail.com**

**Резюме**

Основная цель отчета – раскрыть историческое развитие детской литературы в Азербайджане и значение библиографических ресурсов в этой области. В докладе подчеркивается роль писателей, внесших свой вклад в детскую литературу с конца XIX века до наших дней, таких как Фиридун бея Кочерли, Сулейман Сани Ахундов и Абдулла Шаиг. Кроме того, отмечается значение детской литературы в формировании мировоззрения детей и культурном развитии общества. В отчете также освещена библиографическая деятельность Республиканской детской библиотеки имени Фиридун бея Кочерли в современное время, которая играет важную роль в систематическом сборе и распространении детской литературы. Проанализирована составленная библиотекой библиография «Азербайджанская детская литература» и выявлено значение этого ресурса в преподавании и исследовании детской литературы.

**Ключевые слова:** детская литература, библиографическая деятельность, Республиканская детская библиотека имени Фиридун бея Кочерли, документооборот.

# AZƏRBAYCANDA UŞAQ ƏDƏBİYYATINA DAİR SƏNƏD AXINININ TƏŞƏKKÜLÜ

**Əliyeva Lamiyə Əlizamin**

**Bakı Dövlət Universiteti**

**https://orcid/.org/0000-0001-9985-2577**

**lamiyeliyeva570@gmail.com**

Azərbaycanda uşaq ədəbiyyatı tarixin  müxtəlif mərhələlərindən keçərək XIX əsrin sonu XX əsrin əvvəllərindən etibarən söz sənətimizin ayrılmaz bir qolu kimi inkişaf etmişdir. Bu inkişafda maarifçi ziyalıların, o cümlədən Firidun bəy Köçərli, Abdulla  Şaiq, Mirzə Ələkbər Sabir, Süleyman Sani Axundov, Cəlil Məmmədquluzadə kimi ədiblərin böyük rolu olmuş, milli ədəbiyyatımızın qorunub saxlanması və təbliğində bir çox təşəbbüslər göstərmişdirlər. Bu, həm uşaq ədəbiyyatının inkişafına, həm də məktəb və kitabxana sistemlərində uşaq ədəbiyyatı fondunun yaradılmasına səbəb olmuşdur.

Uşaq ədəbiyyatı mövcud həyat və cəmiyyət haqqında ilkin təsəvvürlər yaradır (Xəlil  & Əsgərli, 2007).  Bu ədəbiyyat növü vasitəsilə uşaqlar fərdi mədəniyyətlər, insan və cəmiyyət münasibətləri haqqında ilkin təsəvvürlər əldə edirlər eyni zamanda, sosial məsələlərə dair anlayışlarını genişləndirirlər. Uşaq ədəbiyyatının əsas məqsədi uşaqların ümumi dünyagörüşünü formalaşdırmaq, onlara mənəvi-əxlaqi dəyərləri aşılamaq və cəmiyyətin reallıqları ilə tanış edərək onlarda tənqidi düşünmə qabiliyyətini inkişaf etdirməkdir.

Azərbaycanda uşaq ədəbiyyatına dair sənəd axınının təşəkkülünü üç mühüm tarixi mərhələdə qruplaşdırmaq olar:

**I Mərhələ: XIX əsrin sonu XX əsrin əvvəlləri**

Bu mərhələnin əsas simalarından biri Azərbaycan uşaq ədəbiyyatı antologiyasının banisi, görkəmli ədəbiyyatşünas alim, pedaqoq Firidun bəy Köçərlidir. O, gənc nəsli düzgün tərbiyə etmək, onda vətənə, xalqa, ana dilinə məhəbbət duyğuları oyatmaq üçün uşaqları hələ kiçik yaşlarından şifahi ədəbiyyat nümunələri ilə tanış etməyi ilkin tərbiyə üsullarından biri hesab edirdi. Təsadüfi deyil ki, o, çap etdirdiyi şifahi xalq ədəbiyyatı nümunələri kitabına bu baxımından çox mənalı olan “Balalara hədiyyə” adı vermişdir (Heydərova, 2013 ).

Bu dövrün önəmli simaları sırasında Rəşid Bəy Əfəndiyev, Mirzə Ələkbər Sabir kimi yazıçılar uşaqlar üçün dərslik və şeirlər yazaraq gənc nəslin tərbiyəsinə müsbət təsir göstərmiş, onların maariflənməsi üçün zəngin ədəbi irs yaratmışdırlar.

**II Mərhələ: 1920-1940-cı illər**

Bu mərhələdə uşaq ədəbiyyatı daha da inkişaf etmiş, yeni ədəbi janrlar meydana gəlmişdir. Dövrün ədəbi simaları sırasında Süleyman Sani Axundov, Abdulla Şaiq, Cəlil Məmmədquluzadə kimi yazıçılar öz əsərləri ilə həm nəsr, həm də poeziya sahəsində uşaq ədəbiyyatının inkişafı və zənginləşməsində mühüm töhfələr vermişdirlər. Bu dövr uşaq ədəbiyyatına dair dərsliklərin, ədəbi əsərlərinin və digər pedaqoji xarakterli vəsaitlərin hazırlanması ilə əlaqədər olmuşdur.

**III Mərhələ: müstəqillik illərindən müasir dövrə qədər**

Müstəqilliyin bərpası ilə Azərbaycanda uşaq ədəbiyyatı yeni mərhələyə qədəm qoymuşdur. Bu

mərhələnin ədəbi şəxsiyyətləri sırasında Zahid Xəlil, Rafiq Yusifoğlu, Məmməd Namaz, Sevinc Nuruqızı, Qəşəm Nəcəfzadə kimi müasir simalar müxtəlif janrlara, o cümlədən fantastika və macəra ədəbiyyatına üstünlük verərək uşaq oxucularının marağına səbəb olmuşdurlar. Onlardan bir qisminin yaradıcılığı sovet dövrünə düşsə də, müstəqillik zamanında da istiqamətləri dəyişməyib. İllərdir uşaq ədəbiyyatı bu müəlliflərin yaradıcı ruhunda qorunur.

Uşaq ədəbiyyatının zənginləşməsi sənəd axınının inkişafı ilə sıx bağlıdır. Sənəd axını ədəbiyyatın toplanması, sistemləşdirilməsi və yayılması prosesini həyata keçirirərək uşaq ədəbiyyatının keyfiyyətini və müxtəlifliyini artırır. Belə ki, sənəd resursları uşaq yazarlarının əsərlərini təqdim etməklə tədqiqatçıların axtarışını asanlaşdırır. Bu sahədə Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının biblioqrafik fəaliyyəti diqqət cəlb edir. Kitabxana müxtəlif yaş qruplarına uyğun olaraq müxtəlif biblioqrafik resurslar hazırlayır. Belə resurslar müəyyən mövzulara və yazıçı-şairlərə həsr olunaraq uşaqların ən yaxşı əsərlərlə tanış olmasına imkan yaradır. Kitabxananın uşaq ədəbiyyatına həsr edilmiş ən fundamental mənbələrindən biri də "Azərbaycan Uşaq Ədəbiyyatı" adlı biblioqrafiyadır. Tərtibçiləri Sevil Əhmədova və Şəhla Qəmbərova olan bu göstərici Azərbaycanda uşaq ədəbiyyatı haqqında geniş və əhatəli məlumatlar təqdim edir. Biblioqrafik göstəricidə mövcud olan materiallar XIX əsrin II yarısından XX əsrin əvvəllərinə qədər olan dövrləri əhatə edir.

Göstərici forma-struktur baxımından üç bölməyə ayrılır:

1.Dərsliklər;

2.Uşaqlar və gənclər üçün oxu (qiraət) kitabları;

3.Uşaq mətbuatı (Əhmədova & Qəmbərova, 2021).

Birinci bölmə XIX əsrin ikinci yarısından başlayaraq XX əsrin 20-ci illərinə qədər dövrləri əhatə edən məktəb dərsliklərini ehtiva edir. Bu bölmə ayrılıqda iki hissədən ibarətdir. İlk hissədə dərsliklər xronoloji qaydada təqdim olunur. İkinci hissədə isə təqdim olunmuş dərsliklərin açıqlaması verilir. Bu qayda biblioqrafiyanın ikinci bölməsində də davam etdirilir. Bu bölmədə əsasən uşaq ədəbiyyatına dair müxtəlif kitabların qısa biblioqrafik məlumatları əks olunmuşdur.

Biblioqrafiyanın üçüncü hissəsində uşaq mətbuatı və onun ilkin nümunələrinə həsr olunmuşdur. Bu bölmədə 1920-ci ilə qədər nəşr olunmuş uşaq jurnalları haqqında biblioqrafik məlumat verilmişdir.

Göstəricidən istifadəni asanlaşdırmaq məqsədi ilə biblioqrafiyada üç köməkçi aparata yer verilmişdir. "Müəlliflərin əlifba göstəricisi", "Sərlövhələrin əlifba göstəricisi", "Azərbaycan uşaq mətbuatında dərc olunmuş müəlliflərin əlifba göstəricisi" kimi yardımçı göstəricilər oxucuların biblioqrafiyadan istifadəsini asanlaşdırmaq üçün nəzərdə tutulmuşdur.

Nəticə olaraq, uşaq oxucularının ədəbiyyata olan marağını artırmaq, milli-mənəvi dəyələrimizi, tariximizi və mədəniyyətimizi onlara aşılamaq məqsədilə biblioqrafik resurslar geniş imkanlar yaradır. Belə göstəricilər çağdaş ədəbiyyatın təşəkkülünü izləmək, yeni yazarları uşaq və gənclərə tanıtmaq baxımından əhəmiyyətlidir. Bu məqsədlə "Azərbaycan Uşaq Ədəbiyyatı" kimi biblioqrafiyalar müasir dövrün tələblərinə və rəqəmsal imkanlara uyğun olaraq elekton platformalarda genişləndirlə bilər.

**Ədəbiyyat**

Heydərova Z. (2013). Firidun bəy Köçərli və XX əsrin əvvəllərində Azərbaycan Uşaq Ədəbiyyatının dili. Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri:Humanitar elmlər seriyası, 1, 128.

Əhmədova S & Qəmbərova Ş. (2021). Azərbaycan Uşaq Ədəbiyyat: biblioqrafiya, C.I, 9.

Xəlil Z & Əsgərli, F. (2007). Uşaq Ədəbiyyatı. Ali və orta ixtisas məktəblərinin tələbələri üçün dərslik. Bakı: ADPU-nun nəşriyyatı, 14.

https://az.wikipedia.org/wiki/U%C5%9Faq_%C9%99d%C9%99biyyat%C4%B1

## INDIVIDUAL MULTILINGUALISM: ONE INDIVIDUAL, MANY LANGUAGES

**Baghirova Parvana Alovsat**

**Azerbaijan University of Languages**

**https://orcid.org/0009-0005-2353-3154**

**parvana13baghirova@gmail.com**

**Rəyçi:**

**İsgəndərova Nigar Vəliş qızı,**

**Filologiya elmləri doktoru, professor**

**Abstract**

In a globalized world, multilingualism plays an important role, and it has a great impact on individuals' lives. As it is of the utmost importance, many researches should be conducted to unearth its multifaceted aspects and determine its theoretical basis. There are many reasons that contribute to the formation of multilingualism. A community or individuals who speak more than one language are referred as multilingual. It is a concept which can sometimes be hard to describe and define. In this abstract, individual multilingualism, one of the two main types of multilingualism, is discussed. Furthermore, the notion of multilingual individuals and criteria to determine them are well-illustrated.

**Key words:** individual multilingualism, linguistic competence, language acquisition

## ИНДИВИДУАЛЬНОЕ МНОГОЯЗЫЧИЕ: ОДИН ЧЕЛОВЕК, МНОГО ЯЗЫКОВ

**Багирова Парвана Аловсат**

**Азербайджанский университет языков**

**https://orcid.org/0009-0005-2353-3154**

**parvana13baghirova@gmail.com**

**Резюме**

В глобализированном мире многоязычие играет важную роль и оказывает огромное влияние на жизнь людей. Поскольку оно имеет первостепенное значение, необходимо провести множество исследований, чтобы выявить его многогранные аспекты и определить его теоретическую основу. Существует множество причин, способствующих формированию многоязычия. Сообщество или отдельные лица, говорящие более чем на одном языке, называются многоязычными. Иногда это понятие трудно описать и дать ему определение. В тезисе обсуждается индивидуальное многоязычие, один из двух основных видов многоязычия. Кроме того, хорошо проиллюстрировано понятие многоязычных людей и критерии их определения.

**Ключевые слова:** индивидуальное многоязычие, лингвистическая компетентность, овладение языком

# FƏRDİ ÇOXDİLLİLİK: BİR FƏRD, ÇOX DİL

**Bağırova Pərvanə Əlövsət qızı**

**Azərbaycan Dillər Universiteti**

**https://orcid.org/0009-0005-2353-3154**

**parvana13baghirova@gmail.com**

Çoxdillilik hər zaman öz aktuallığını qoruyub saxlayan psixoloji, sosial və mədəni bir fenomendir. Təbii olaraq, əhalisi linqvistik baxımdan rəngarəng olan regionun siyasi dinamikası əksər sakinin eyni dildə danışdığı, böyük və ya kiçik olmağından asılı olmayaraq, dövlətlərdə və ya icmalarda vəziyyət fərqlənir. Demokratiyanın təmin olunmadığı dövlətlərdə, sözsüz ki, etnik, linqvistik və mədəni müxtəlifliyə diqqət ayrılmayacaqdır. Diqqət edilsə belə, atılan müəyyən addımlar bu və ya digər məqamlarda etnik qrupların xeyrinə deyil, yalnız öz mənfəətinə xidmət edəcəkdir.

Çoxdillilik geniş şəkildə bütün dünyada yayılmış bir fenomendir və statistik baxımdan da yanaşdıqda bu belədir. Çoxdilliliyin yaranmasının müxtəlif səbəbləri vardır. Bunlar arasında ən bariz səbəb insanların bir yerdən digər yerə köçməsi, yəni miqrasiyadır. Ölkəyə gələn immiqrantlar özləri ilə birgə yeni dil və mədəniyyət gətirmiş olurlar ki, kontakt nəticəsində bu dil bu və ya digər dərəcədə yerli əhali arasında yayıla bilər. Ərazinin genişlənməsini də miqrasiyanın bir növü kimi götürmək olar, belə ki, ölkə ərazisini genişləndirmək siyasətini yürütdükdə insanların artıq bir ərazidən digər əraziyə köçməyinə ehtiyac qalmır. Hərbi və iqtisadi təzyiq altında dillərin bir-birilə kontaktı yaranır. Məsələn, vaxtilə Hind subkontinentini idarə edən şəxslər indi burada ingilis dilindən istifadəni genişləndirmişlər. Belə ki, hazırda burada əhalinin sayı 1 milyarddan çoxdur və belə güman edilir ki, hər on nəfərdən biri müəyyən dərəcədə ingilis dilində danışa bilir. Bundan başqa, müxtəlif dilli icmaların birləşməsi nəticəsində yaradılan konfederasiyalar da həm fərdi, həm də kollektiv çoxdilliliyin inkişafına təkan vermişdir. Mədəni ünsürlərin mühafizəsi və təhsil ilə bağlı aparılan müəyyən siyasət və layihələr də çoxdilliliyin təşviq edilməsində mühüm rol oyanır.

Çoxdillilik özünü iki səviyyədə - fərdi və kollektiv, göstərir. Belə bir sual meydana çıxır ki, bəs bu çoxdilli fərdlər kimdir. Bu suala cavab tapmaq bir qədər çətin və mürəkkəb ola bilər. Belə ki, ilk növbədə biz çoxdilli fərdi müəyyən edən kriteriyalar tapmalıyıq. Fərd birdən və ya ikidən çox dil bilirsə, onu çoxdilli fərd kimi qəbul etmək olar, lakin belə bir sual yaranır: hər iki və ya ikidən artıq dil bilən şəxs çoxdillidirmi? Onlar bu dilləri hansı səviyyədə bilirlər? Bütün dillərdə onların linqvistik səriştəliliyi eynidirmi? Bunun kimi bir çox suallar yaranır ki, onlara cavab tapmaq zəruridir.

Stavans və Hoffmann bunu araşdırarkən “təhlil çərçivəsinin” sadəcə dillər və mədəniyyətlərdən ibarət sosial rəngarəngliyə yönəldilməli olduğunu vurğulayır. Fərdi səviyyədə onlar “təbii” şəkildə çoxdilliliyi qazanan şəxslərlə formal, yəni təhsil alaraq dil səriştəliliyi qazanan fərdləri fərqləndirirlər. Bunun nəticəsində çoxdilli fərdlərin tipologiyası yaranır. Bu tipologiya dil mənimsəmə və istifadənin yaş və sosiomədəni kontekst ilə əlaqəsini əsas meyar kimi götürür (Singleton & Aronin, 2018). Bununla yanaşı başqa meyarlar vardır ki, onlar da mühüm rol oynayırlar. Bura fərdin dil səviyyəsi, dildən istifadə sahəsi, yəni onu hansı kontekstlərdə istifadə etməsi, müxtəlif dillərin statusu vəziyyəti, dilə olan münasibət və. s. aid etmək olar. Ümumilikdə, meyarlar çoxşaxəlidir. İlk meyar kimi fərdin nə qədər dili bilməyi ilə bağlı faktoru göstərmək olar.

İkidən çox dil bilən fərd çoxdilli hesab olunur. Buna baxmayaraq, iki və ya üç dili bilən hər bir şəxsi çoxdilli adlandıra bilmərik. Buna səbəb çoxdilliliyin mürəkkəb bir anlayış olmasıdır. Bura başqa amillər də aid edilir. Əsas amillərdən biri kimi dörd əsas dil bacarığını göstərmək olar. Bura dinləmə, oxu, danışıq-nitq, yazı bacarıqları daxildir. Bundan əlavə hər bir bacarığın özünün "alt bacarıqları" da mövcuddur. Məsələn, danışıq-nitq bacarığı. Bura daxil olan "alt bacarıq" kimi söz bazasından düzgün istifadə, qrammatika, başa düşülən aksent və başqalarını daxil etmək olar.

Ümumilikdə, belə deyə bilərik ki, hər kəsdə bu və ya digər dərəcədə çoxdillilik hadisəsi özünü göstərir. Hazırki dövrdə elə adam tapmaq çətindir ki, o, hər hansı bir dildə bir-iki söz bilməsin. Ən sadə sözü bilsələr belə, bu, onu göstərir ki, onlar bu və ya digər dərəcədə öz ana dillərindən başqa digər dillər barəsində də müəyyən anlayışları var. Təbii olaraq, bu cür situasiyanı biz əsl çoxdillilik kimi qəbul etmirirk. Burada nəzərə alınmalı ən vacib məqam dil səriştəsinin səviyyəsindən, daha dəqiq desək "linqvistik səriştənin müxtəlif "alt bacarıqlarını" bilmək dərəcəsindən asılıdır. Çoxdilli fərdi yalnız bildiyi dillərin sayı ilə deyil, həmin dillərdən real situasiyalarda istifadə bacarığı ilə müəyyənləşdirmək lazımdır. Müxtəlif kontekstlərdə dildən istifadə bura aid edilir. Bununla yanaşı dilin mənimsənilməsi prosesi də fərdi çoxdilliliyin formalaşmasına təsir göstərən amillər sırasına daxildir.

Çoxdilli fərdlər arasında dilin mənimsənilməsinin araşdırılması ilə bağlı vacib məsələlərdən biri də fərdin dil səriştəliliyini ölçmək və onu konseptuallaşdırmaqdan ibarətdir. Bununla bağlı bir sıra yanaşmalar mövcuddur. Bu yanaşmalar çoxdilli fərdin hansı meyarlar əsasında müəyyən olunmasına da öz təsirini göstərir. Bura aşağıdakılar daxildir (Bhatia & Ritchie, 2013):

- Formal linqvistik yanaşma
- Fərdi-koqnitiv (psixolinqvistik) yanaşma
- Sosio-kontekstual yanaşma

Xomskinin nəzəri fikirləri ilə formalaşan formal linqvistik yanaşma əsas diqqəti dilin formasına yönəldir. Bura eyni zamanda "danışanın dil barəsində biliyi", "dildən konkret situasiyalarda istifadə etməsi" daxil edilir (Bhatia & Ritchie, 2013). Həmçinin, Universal qrammatika və onunla əlaqədar olan prinsiplərin əhəmiyyəti xüsusi olaraq vurğulanır. Fərdi-koqnitiv yanaşma ilə bağlı bir sıra tənqidi fikirlər mövcuddur. Belə ki, burada çoxdilli fərdin yalnız ana dilini bilən - "təkdilli" fərd kimi qəbul olunaraq araşdırılması doğru yol kimi qəbul olunmur. Sosio-kontekstual yanaşma da özünün bəzi çatışmazlıqları ilə tənqidə məruz qalmışdır. Bəzi çatışmazlıqlarına baxmayaraq digər ikisi ilə müqayisədə bu yanaşma dil ilə bağlı bizdə daha geniş təsəvvür yaradır. Burada dil sosial konstruksiya kimi qəbul olunur və əsas diqqət sosial və fərdlərarası kommunikativ aspektə yönəldilir.

Son olaraq onu qeyd etmək lazımdır ki, dillə bağlı olan bu yanaşmaları nəzərə alaraq linqvistik səriştəliliyin konseptuallaşdırılması və onun necə ölçülməsinə dair konkret bir meyar təyin etmək heç də asan və sadə deyil. Bununla bağlı daha bir çox araşdırmalar aparılmalı və sistemləşdirilməlidir.

**Ədəbiyyat:**

Bhatia, T. K., & Ritchie, W. C. (2013). The Handbook of Bilingualism and multilingualism. Malden, MA u.a: Blackwell, p 117.

Grosjean, F. (2010). Bilingual: Life and Reality. Harvard University Press.

Pfenninger, S. E., & Singleton, D. (2016). Language Acquisition in Multilingual Settings. Multilingual Matters.

Singleton, D. & Aronin, L. (2018). Twelve Lectures on Multilingualism. Bristol, Blue Ridge Summit: Multilingual Matters. https://doi.org/10.21832/9781788922074, p 137.

Stavans, A. and Hoffmann, C. (2015) Multilingualism. Cambridge: Cambridge University Press.

Van der Dussen, M. (2018). Understanding Multilingualism: A Guide to Linguistic Diversity. Routledge.

# THE LINQUISTIC NATURE OF HUMOROUS DISCOURSE

**Mammadli Mehriban Ehtiram**

**Azerbaijan University of Languages**

**https://orcid.org/0009-0005-4875-1545**

**mehribanmukhtarova@gmail.com**

**Rəyçi:**

**Eminli Böyükxanım İbrahim qızı,**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The dissertation explores humorous discourse as a linguistic category. The national characteristics of this category in humorous discourse and text are examined as a communicative phenomenon. The place and position of humorous discourse within the general discourse system are determined. The discourse in question is described within the sphere of punning. At the same time, its linguo-pragmatic characteristics are demonstrated. Furthermore, humorous discourse is analyzed as a stylistic tool. Additionally, the dissertation proves that this discourse performs various functions in the context of the text.

**Keywords:** humorous discourse, text, general laughter situation, wordplay, semantic function.

# ЛИНГВИСТИЧЕСКАЯ ПРИРОДА ЮМОРИСТИЧЕСКОГО ДИСКУРСА

**Мамедли Мехрибан Эхтирам**

**Азербайджанский университет языков**

**https://orcid.org/0009-0005-4875-1545**

**mehribanmukhtarova@gmail.com**

**Резюме**

В тезисе отражается юмористический дискурс как лингвистическая категория. Национальные особенности этой категории в юмористическом дискурсе и тексте рассматриваются как коммуникативное явление. Определяется место и позиция юмористического дискурса в общей системе дискурса. Рассматриваемый дискурс описывается в сфере каламбура. Одновременно демонстрируются лингвопрагматические особенности данного дискурса. Кроме того, юмористический дискурс исследуется как средство создания стиля. Также в тезисе доказывается, что данный дискурс выполняет различные функции в контексте текста.

**Ключевые слова:** юмористический дискурс, текст, общая ситуация смеха, игра слов, семантическая функция.

# YUMORİSTİK DİSKURSUN LİNQVİSTİK XARAKTERİ

**Məmmədli Mehriban Ehtiram qızı**

**Azərbaycan Dillər Universiteti**

**https://orcid.org/0009-0005-4875-1545**

**mehribanmukhtarova@gmail.com**

Çoxsaylı folklor janrları içərisində yumorun özünəməxsus yeri vardır. Yumor hər bir xalqın mədəni sərvətidir, milli dəyərləri əks etdirir. Yumor təkcə ədəbiyyatşünaslığın mövzusu deyil, eləcə də linqvistik kateqoriyadır. Danışıqda, bədii diskurslarda yumordan da çox istifadə olunur. Belə diskurslar yumoristik diskurslar adlanır. Yumor, sözsüz milli cəhətlərə malikdir. Yumorun komik təbiəti yumoristik diskurslarda meydana çıxır. Yumoristik mətn yumoristik diskursun bir hissəsi kimi öyrənilməlidir. Burada linqvistik üslub anlayışı müəyyənləşməlidir. Yumor keyfiyyətlərini mətn və diskursun qarşılıqlı əlaqə və münasibəti şəraitində öyrənmək lazım gəlir.

Diskurs ünsiyyət prosesində danışanla dinləyən arasında baş verən kommunikativ hadisədir.Diskurs müxtəlif istiqamətlər üzrə öyrənilir. Diskursun növlərindən biri də yumorlu mətnlərdir. Mətn diskursun tərkib elementlərindəndir. Diskurs mətni öz içərisinə alaraq yumorlu mənanı da özündə inikas etdirir. Yumorlu məna diskursada da öz ifadəsini tapır. Ümumi diskurs sistemində yumoristik diskursun özünəməxsus yeri və mövqeyi vardır.

Yumoristik diskursun başlıca əlamətləri iki cür xarakterizə olunur: mətn, ümumi gülüş situasiyası ilə yüklənmiş şəkildə təqdim olunur. Həmin situasiya: 1) iştirakçının kommunikatiliyində ciddi danışıq müşahidəsi; 2) qarşılıqlı əlaqə və münasibətin yumoristik tonallığı.

Yumoristik diskursla iştirakçının arasında məsafə kommunikativlik və qeyri-ciddi qarşılıqlı əlaqənin tonallığı ilə səciyyələnir. Burada emosionallıq üstünlük təşkil edir. Yumoristik diskurs söz oyunu sferasında təsvir olunur. Kalamburlar-söz oyunu düşüncənin komik ifadəsinə öz ciddi təsirini göstərir. Söz oyununun təzahür və ifadə imkanları, formaları genişdir. Lakin yumoristik lətifələrdə kalamburlar dialoq nitqində əksərən komik söz oyunu kimi fəaliyyət göstərirlər. Belə ki, lətifələrdəki sözə, ifadəyə gözlənilməz mənalar verilir; məhz bu yolla komik kalamburlar formalaşır. Kalambur yumor vasitəsidir. Q.Kazımovun fikrincə, “kalamburlar sadəcə söz oyunu deyildir. Bədii əsərlərdə kalamburlardan həqiqi istifadə yazıçı ideyasının təzahürü və inkişafı ilə bağlı olur. Kalamburlardan usta yazıçılar az-az, ehtiyatla, lakin tutarlı şəkildə istifadə edirlər. Çünki kalamburlara artıq meyil bədii əsəri mənasız söz oyunu meydanına çevirə bilər. Kalambur üçün başlıca vasitə sarkazmdır” . Belə sarkazmlara “Molla Nəsrəddin” jurnalının səhifələrində çox rast gəlmək olur.

Yumoristik diskurslar linqvopraqmatik xüsusiyyətlərə malikdir. Praqmalinqvistika dildə kommunikasiya prosesində dil işarələrini və onların birləşməsini təsvir edir və onları açmağa çalışır. Həmin baxımdan praqmalinqvistika psixo və sosiolinqvistikaya aiddir, linqvistik praqmatika isə sintaksisə və semantikaya aid edilir. Yumoristik diskurs üslub yaradan vasitədir. Yəni, ünsiyyət məqsədilə bağlı dil vasitələri, məsələn, yumor yaradan vasitələr seçilir, əvəz edilir, münasib olanlar götürülür və məqsədəuyğun şəkildə istifadə olunur. Yumor janrı üçün xarakterik olan dil vasitələrindən istifadə edilir. Yumoristik diskurs, məsələn, lətifə söyləyənlə onu dinləyən arasında

olur. Bu söhbət dialoq şəraitində baş verir. Misal üçün: *Küçədə iki itin qucaqlaşıb yatdığını görənlər təəccüblə deyirlər:*

*-Bir onlardakı məhəbbətə bax, gör necə mehribandılar?*

*Bunu eşidən Hacı dayı dözməyib dillənir:*

*_Onların arasına bir sümük atın, onda bunların mehribançılığını görücüz...* (Ağəli Şəkili. Gözoo yiyərəm mən. Əsrin gözəli. Şəki, 2008, s.3 (133 s.)

Həmin yumoristik diskurs adamı düşünməyə vadar edir. Şəki lətifələrinin bu tipləri Molla Nəsrəddin lətifələrini xatırladır. Gülməkdən daha çox cəmiyyətin problemlərini yada salır.Yumor sevənin və söyləyənin diskursu həm şifahi, həm də yazılı şəkildə olur. Belə diskurslar sosial məzmuna malıkdir.

Yumoristik dialoji diskursda kinayə modallığı üstünlük təşkil edə bilir. "Həyatımızda ümumi tendensiya kimi hiss olunmadan yaranmış düşüncə tərzi olmuş" http:\\elar-urfu.ru\bitstream\10995\281\2urgu 0225s.pd) kinayədən sosial şəraitdə istifadə olunmaqdadır. Adi danışıq dilində, bədii əsərlərdə obraz və personajların nitqində və s. Kinayə koloriti, ümumiyyətlə yumorlu diskursun əsasını təşkil edir. "Kinayənin əsas funksiyasını - gülüş altında şübhənin, mənfi qiqmətləndirmənin ifadə edilməsini - gercəkliyə tənqidi münasibətin ən aktual aləti adlandırmaq olar" (Səlimova F. Diskursun formalaşmasında modallığın rolu (İngilis və Azərbaycan dillərinin materialları əsasında). Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2017, s.17 (23 s.)

Yumoristik diskurs mətn şəraitində müxtəlif funksiyaları yerinə yetirir:

- Yumoristik diskursun semantik funksiyaları: Diskurs yumor sayəsində tam olaraq zənginləşir, dolğunlaşaraq gülüş mənasını qazanır. Belə olanda, o zaman demək olar ki, diskursun formalaşmasında yumorun da əsaslı rolu diqqəti çəkir.
- Yumoristik diskursun praqmatik funksiyaları: Bu funksiya yumoristik işarə ilə ondan istifadə edənlər arasındakı münasibəti müəyyənləşdirən modeldir.
- Yumoristik diskursun kommunikativ funksiyaları: Yumorlu vahidlər vasitəsilə qarşılıqlı informasiya mübadiləsi, xəbər alıb-vermə, yəni üvsiyyət təmin olunur.
- Yumoristik diskursun koqnitiv funksiyaları: İnsanın yumorlu təfəkkür mexanizminin öyrənilməsi, dünyanın mental modellərinin qurulması, yumorlu koqnitiv aktları təmin edən sistemlərin yaradılması, deyilən fikirlərin insan və kompüter proqramı tərəfindən qavranılması və yaradılması, gülüşlü mətn və diskursun məzmununu anlamaq və canlandırmaq cəhdi, düşünmə aktlarına xidmət edən psixi proseslərin geniş spektrlərinin formalaşdırılması və s.

**Ədəbiyyat:**

Kazımov, Q.Ş. (2008) Seçilmiş əsərləri.10 cilddə, II cild, Bakı: Nurlan nəşriyyatı.

Şəkili, A. (2008) Gözoo yiyərəm mən. Əsrin gözəli. Şəki, , s.3 (133 s.)

http://elar-urfu.ru\bitstream/10995/281/2urgu0225s.pd

Səlimova, F. Diskursun formalaşmasında modallığın rolu (İngilis və Azərbaycan dillərinin materialları əsasında).

# DISCOURSE AS AN OBJECT OF ANALYSIS IN MODERN LINQUISTICS

**Aytan Muzaffar Rahimli**

**Azerbaijan University of Languages**

**https://orcid.org/0000-0003-1574-1250**

**rehimliayten2@gmail.com**

**Rəyçi:**

**Eminli Böyükxanım İbrahim qızı,**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

Discourse is a generalization of concepts in the form of communication. The term discourse originally arose from theoretical linguistics, where discourse is understood as the exchange of linguistic information. In modern times, the purpose of analysis in this aspect is to construct a discourse, and then to better adapt and control the subject of the discourse to the context. In theoretical linguistics, discourse is understood as the exchange of linguistic information in the narrowest sense.

In the article, the concept of discourse in modern linguistics was analyzed and considered as an important research object. Discourse research in the modern sense emerged in the middle of the 20th century. If sentences are considered as the research unit in linguistics, the unit other than sentences is called discourse. Discourse is a unit of communication, and there is a dialectical relationship between it and context: the context defines the discourse, and the discourse embodies the context. In general, discourse is a collection of different expressions in a language, and discourse is always closely related to concepts.

**Keywords:** concept of discourse, discourse analysis, modern linguistics, language phenomenon, linguistic features.

# ДИСКУРС КАК ОБЪЕКТ АНАЛИЗА В СОВРЕМЕННОЙ ЛИНГВИСТИКЕ

**Рагимли Айтен Музаффар**

**Азербайджанский университет языков**

**https://orcid.org/0000-0003-1574-1250**

**rehimliayten2@gmail.com**

**Резюме**

Дискурс – это обобщение понятий в форме общения. Термин «дискурс» первоначально возник в теоретической лингвистике, где под дискурсом понимается обмен языковой информацией. В наше время целью анализа в этом аспекте является построение дискурса, а затем лучшая адаптация и контроль предмета дискурса к контексту. В теоретической лингвистике дискурс понимается как обмен языковой информацией в самом узком смысле.

В статье проанализировано понятие дискурса в современной лингвистике и рассмотрено как важный объект исследования. Дискурс-исследования в современном понимании возникли в середине XX века. Если в качестве исследовательской единицы лингвистики рассматривать предложения, то единицу, отличную от предложений, называют дискурсом. Дискурс — это единица коммуникации, и между ним и контекстом существует диалектическая связь: контекст определяет дискурс, а дискурс воплощает контекст. В общем, дискурс — это совокупность различных выражений в языке, а дискурс всегда тесно связан с понятиями.

**Ключевые слова:** понятие дискурса, дискурс-анализ, современная лингвистика, языковой феномен, лингвистические особенности.

# DİSKURS MÜASİR DİLÇİLİKDƏ TƏHLİL OBYEKTİ KİMİ

**Rəhimli Aytən Müzəffər qızı**

**Azərbaycan Dillər Universiteti**

**https://orcid.org/0000-0003-1574-1250**

**rehimliayten2@gmail.com**

Diskurs təhlilinin obyekti istifadə olunan dildir, bu baxımdan diskurs qrammatikanın təhlil metodu kimi öyrənilə bilər. Xəbər mətninin ideal vəziyyəti ən zəngin məlumatı ən yığcam dildə ifadə etməkdir. Uzun illərdir ki, diskurs anlayışının müəyyənləşdirilməsi dilçilik elminin əsas problemlərindən biri olmuşdur. Dilçilik kateqoriyası kimi diskurs mürəkkəb və çox qiymətli tədqiqat obyektidir. “Müasir dövrdə diskurs təlimi çox geniş aspektdə tədqiq olunur” (Allahverdiyeva, 2020, s.27). Çağdaş zamanda diskurs təhlilində çətinlik ondadır ki, diskurs bir tərəfdən nitq və ünsiyyət, linqvistik davranış, digər tərəfdən isə qeydə alınmış mətn arasında aralıq hadisədir. Xarakterinə görə diskurs nəzəriyyəsi müxtəlif humanitar elmləri birləşdirir və bununla da müasir ünsiyyətdə yaranan bir çox problemləri həll edir. Tədqiqatda diskursiv yanaşma linqvistik ünsiyyət, insan, mədəniyyət və cəmiyyət arasındakı əlaqəni nəzərdən keçirməyə imkan verir, həmçinin kommunikativ proseslərin öyrənilməsində yeni imkanlar yaradır.

Buna əsaslanaraq qeyd edə bilərik ki, “diskurs” anlayışı fənlərarası xarakter daşıyır, xarici dillərin tədrisi metodlarının nəzəri əsasını təşkil edən psixoloji, linqvistik, mədəniyyət və pedaqoji elmlərdə öyrənilir və təhlil edilir. Diskurs kifayət qədər mürəkkəb və qeyri-müəyyən bir hadisədir, ona görə də bu termini birmənalı şərh etmək mümkün deyildir. “Müasir dilçilikdə haqqında çox yazılan, daim elmi mübahisələrin mərkəzi mövzularından olan «diskurs» linqvistik anlayış kimi hələ də öz dəqiq tərifini tapmamışdır” (Xuduyeva, 2024, s.235).

Dil fenomeni kimi diskursa verilən təriflərin müxtəlifliyi dilçilərin bu anlayışa fərqli mövqelərdən yanaşmaları ilə əlaqələndirilir. Belə ki, diskurs anlayışının müəyyənləşdirilməsində formal; funksional; situasiya; koqnitiv yanaşmalar fərqləndirilir.

Formal yanaşma (struktur yönümlü) diskursu iki və ya daha çox cümlə arasında semantik əlaqə kimi nəzərdən keçirir, burada ardıcıllıq diskursun xüsusiyyətidir. Beləliklə, bu təfsirdə diskurs frazaüstü birlik, mürəkkəb sintaktik bütövlükdür, bütövlük müəyyən bağlayıcılar sistemi ilə müəyyən edilir.

Funksional nöqteyi-nəzərdən diskurs dilin hər hansı istifadəsi ilə eyniləşdirilir ki, bu da dilin funksiyalarının təhlili ilə əlaqədar olaraq diskursun funksiyalarının təhlilini nəzərdə tutur. Situasiya sosial, psixoloji və mədəni əhəmiyyətli şərait kontekstində diskursun şərhi ilə əlaqələndirilir. Koqnitiv yanaşma diskursa idrak nizamının fenomeni kimi, yəni biliyin ötürülməsi, onunla fəaliyyət göstərməsi və yeni əlaqələr yaratması ilə bilavasitə bağlı bir hadisə kimi yanaşır.

Diskurs müxtəlif yanaşmalar əsasında fərqli şəkildə izah edilə bilən bir anlayışdır (Çelik, 2008, s.100). Beləliklə, diskurs dilçilər tərəfindən müxtəlif aspektlərdə öyrənilir ki, bu da onlara diskursun vahid nəzəriyyəsini inkişaf etdirməyə və təkmilləşdirməyə imkan verir. Müasir dövrdə diskurs anlayışı yerli və xarici tədqiqatçılar tərəfindən kifayət qədər fəal şəkildə nəzərdən keçirilir və inkişaf etdirilir, buna görə də "diskurs" termininin özü fərqli şəkildə şərh olunur. Nəticə etibarı ilə nitqin müxtəlif növləri və çeşidləri fərqləndirilir.

Diskursu öyrənərkən, hər hansı bir təbiət hadisəsi kimi, təsnifat məsələsi ortaya çıxır: Diskursun hansı növləri və formaları mövcuddur? Bu sahədə ən mühüm fərq şifahi və yazılı nitq arasındakı ziddiyyətdir. Bu fərq informasiyanın ötürülməsi kanalı ilə bağlıdır: şifahi nitqdə kanal akustik, yazılı danışıqda isə vizualdır. Bəzən dildən istifadənin şifahi və yazılı formaları arasındakı fərq diskurs və mətn arasındakı fərqlə eyniləşdirilir, lakin iki fərqli ziddiyyətin belə qarışdırılması əsassızdır. Uzun əsrlər boyu yazılı dil şifahi dildən daha böyük nüfuza malik olmasına baxmayaraq, tamamilə aydındır ki, şifahi nitq dilin mövcudluğunun ilkin, əsas formasıdır, yazılı nitq isə şifahi danışıqdan qaynaqlanır. Bu günə qədər əksər dillər yazılmayıb, yəni yalnız şifahi formada mövcuddur. XIX əsrdə dilçilər şifahi dilin prioritetini qəbul etmiş, uzun müddət yazı dili ilə şifahi dilin transkripsiyasının eyni şey olmadığını dərk etməmişdir. XX əsrin birinci yarısının dilçiləri tez-tez şifahi dili (yazılı formada) öyrəndiklərini düşünürdülər, amma əslində dilin yalnız yazılı formasını təhlil edirdilər. Dil mövcudluğunun alternativ formaları arasında şifahi və yazılı nitqin real müqayisəsi yalnız 1970-ci illərdə başlamışdır.

1990-cı illərdən bəri diskurs təhlili konstruktivist akademiklər vasitəsilə intizamın periferiyasını tərk etdi və yavaş-yavaş əsas yanaşmalara daxil oldu. Üçüncü böyük debatın qabaqcıllarından fərqli olaraq, konstruktivist akademiklər intizama qnoseoloji deyil, ontoloji sual gətirməyə və beynəlxalq hadisələrin sosial quruluşunu vurğulamağa diqqət yetirirlər. “Konstruktiv alimlər bu ümumi məna strukturlarını müəyyən etmək və onların təsirlərini nümayiş etdirmək üçün tez-tez diskurs təhlilini müsahibələr, prosesin izlənilməsi və əks faktların təhlili ilə birləşdirərək eklektik metodlardan istifadə etmişlər” (Düzgit, 2020).

Danışıq növləri arasında daha konkret fərqlər janr anlayışından istifadə etməklə təsvir edilir. Hazırda janr anlayışı diskurs təhlilində kifayət qədər geniş istifadə olunur. Janrların hərtərəfli təsnifatı yoxdur, lakin nümunələr sırasına gündəlik dialoq (söhbət), hekayə (povest), cihazdan istifadə qaydaları, müsahibə, reportaj, siyasi nitq, şeir, roman daxildir. Janrlar kifayət qədər sabit xüsusiyyətlərə malikdir. Məsələn, əvvəla hekayə standart bir kompozisiyaya (başlanğıc, kulminasiya, tənəzzül), sonra isə bəzi linqvistik xüsusiyyətlərə malik olmalıdır. Hekayədə eyni qrammatik formalarla (məsələn, keçmiş zamandakı feillər) təsvir olunan zamanla sıralanmış hadisələr çərçivəsi və onların arasında birləşdirici elementlər (məsələn, o zaman birləşmə) vardır. Janrların linqvistik spesifikliyi problemləri hələ kifayət qədər işlənməmişdir. Bir çox janrlar üçün sabit formal xüsusiyyətləri müəyyən etmək çox çətindir.

Belə ki, diskurs təkcə ünsiyyət deyil, həm də onun öz sosial, psixoloji, milli-mədəni və status xüsusiyyətlərinə malik aydın məqsədləri və müəyyən iştirakçıları vardır. Amma konkret olaraq nə kimi məqsədlər və hansı iştirakçıların nitqin konkret növündən asılılığı məlum deyil (məsələn, siyasi diskursun məqsədi hakimiyyəti əldə etmək və saxlamaqdır; onun iştirakçıları siyasətçilər və cəmiyyətdir). Diskursun konsepsiyası və təfsiri hələ də müasir elmi müzakirələrin mərkəzində qalır. “Diskurs təhlili müxtəlif nitq üsulları, diskurs effektləri, siyasi münasibətlər, güc münasibətləri, bilik və ideologiya formaları, institusional əlaqələr və diskurslardan istifadə edənlərin yaratdığı qanunauyğunluqlar - və ya qeyri-qanuniliklər vasitəsilə strukturlaşdırılmış müxtəlif reallıqlarla məşğul olur” (Taylan, 2011, s. 68).

Ritorika diskurs təhlilinin başqa bir perspektividir, onun tədqiqat obyektləri ifadə və kontekstdir və o, nəyi necə ifadə etmək məsələsini əhatə edir. Ritorika ilə üslub arasındakı fərq ondan ibarətdir ki, üslub mətnin diskurs kontekstinin zəruri xüsusiyyətidir, lakin ritorika könüllü istəyə bağlıdır və məcburi deyil. Ritorika qədim dil üsuludur, o, istər klassik, istərsə də müasir ritorika olsun, dildən istifadənin inandırıcı bacarıqlarında ifadə olunur. Diskurs subyektinin ritorikadan istifadəsinin

məqsədi mətnin ardıcıllığını və təşkilini artırmaqdır. Ritorikadan istifadə mətn məlumatının oxuculara və ya dinləyicilərə cəlb edilməsini, yaddaşı, məlumatı nəzərdən keçirməyi və ya əldə etməyi gücləndirə bilər.

Xəbərlərdə ritorik üsullardan istifadə ünsiyyət məqsədlərindən və gözlənilən ünsiyyət effektlərindən asılıdır. Xəbər diskursunun ritorikası da əsasən onun inandırıcı rolunda əks olunur. Xəbər mediasına lazım olan cəhət etimad və təsirdir. Medianın nüfuzunun və təsirinin artırılması müxtəlif vasitələrlə, o cümlədən medianın ədalətli və obyektiv imicini yaratmaq, xəbərlərin cəlbediciliyini artırmaq və s. vasitəsilə əldə edilməlidir. Bu üsulların hamısı ritorik vasitələrdir. Məsələn, mənbənin etibarlılığını göstərmək. xəbər başlıqlarının cəlbediciliyini artırmaq üçün mütəmadi olaraq birbaşa sitatlar, ədədi təsvirlər və s., antiteza, metonimiya, söz oyunu kimi ritorik vasitələrdən istifadə oluna bilər.

Deməli, diskurs kateqoriyası kommunikativ dilçilikdə əsas anlayışlardan biridir. Bu termin təkcə tələffüz variantlarına deyil (birinci və ya ikinci hecaya vurğu ilə), həm də bir çox elmi şərhlərə imkan verir. Mətn, nitq, dialoq anlayışları ilə bağlı ümumi kateqoriya kimi diskursun geniş yayılmasına linqvistik ədəbiyyatda getdikcə daha çox rast gəlinir. Diskurs kimi bir kateqoriyanın tərifi müəyyən bir ideoloji istiqaməti, dil və linqvistik ünsiyyətin öyrənilməsinə baxışı nəzərdə tutur.

**Ədəbiyyat:**


Allahverdiyeva G. (2020). Dilçilikdə diskurs nəzəriyyəsinin formalaşmasi məsələsinə dair. Dil və ədəbiyyat, X cild, №3, 2020, s.27-33.

Çelik, H., & Ekşi, H. (2013). SÖYLEM ANALİZİ. Marmara Üniversitesi Atatürk Eğitim Fakültesi Eğitim Bilimleri Dergisi, 27(27), 99-117.

Düzgit S. S. (2020). Söylem analizi ve uluslararası ilişkiler. 2020, https://kureselcalismalar.com/soylem-analizi-ve-uluslararasi-iliskiler/

Xuduyeva G. (2024). Diskursun kommunikativ mənzərəsi. İpək yolu, No.1, 2024, səh.235-243, https://doi.org/10.30546/1810-911X.2024.1.235

Taylan H.H. (2011). Sosyal bilimlerde kullanilan içerik analizi ve söylem analizinin karşilaştirilmasi. Bingöl Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi. Yıl: 1/ Cilt: 1/ Sayı: 2/ Güz 2011.

## MODERN INTERPRETATION OF MYTHOLOGICAL CHARACTERS IN NEIL GAIMAN'S “AMERICAN GODS” NOVEL

**Aliyeva Sakinakhanim Khaliq**

**Institute of Literature named after Nizami Ganjavi**

**https://orcid.org/0009-0000-9202-0874**

**squrbanlis@mail.ru**

**Rəyçi:**

**Muğamat Xəyalə Muqamat qızı,**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

### Abstract

Postmodernist literature questions existing values and tries to destroy and re-present them in a form suitable for modern days. Contemporary British writer Neil Gaiman described the crisis of faith in pre-existing values in his novel "American Gods". The novel takes the reader to a world where the famous Gods of world mythology live in contemporary America and have more anthropomorphic features. However, the author has described the form of the mythological characters and activities of the Gods adapted to the modern world. The Old Gods have to cope with the modern American life and, most importantly, to fight the New Gods who have left them behind.

**Key words:** Postmodernism, Neil Gaiman, American Gods, mythological characters, interpretation.

## СОВРЕМЕННАЯ ИНТЕРПРЕТАЦИЯ МИФОЛОГИЧЕСКИХ ПЕРСОНАЖЕЙ В РОМАНЕ НИЛА ГЕЙМАНА «АМЕРИКАНСКИЕ БОГИ»

**Алиева Сакинаханым Халиг гызы**

**Институт литературы имени Низами Гянджеви**

**https://orcid.org/0009-0000-9202-0874**

**squrbanlis@mail.ru**

### Резюме

Постмодернистская литература ставит под сомнение существующие ценности и пытается их разрушить и представить заново в форме, подходящей для современности. Современный британский писатель Нил Гейман описал кризис веры в уже существующие ценности в своем романе «Американские боги». Роман переносит читателя в мир, где известные Боги мировой мифологии живут в современной Америке и имеют более антропоморфные черты. Однако автор описал форму мифологических персонажей и деятельность Богов, адаптированную к современному миру. Старым Богам приходится справляться с современной американской жизнью и, что самое главное, бороться с Новыми Богами, которые оставили их позади.

**Ключевые слова:** Постмодернизм, Нил Гейман, Американские Боги, мифологические персонажи, интерпретация.

# NİL QEYMANIN “AMERİKAN TANRILARI” ROMANINDA MİFOLOJİ OBRAZLARIN MÜASİR İNTERPRETASİYASI

**Əliyeva Səkinəxanım Xaliq**

**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**

**https://orcid.org/0009-0000-9202-0874**

**squrbanlis@mail.ru**

XX əsrdən etibarən dünya ədəbiyyatı məzmun və forma cəhətdən köklü sürətdə dəyişikliklərə məruz qaldı. Ənənəvi xüsusiyyətlər itməyə və sürətlə inkişaf edən dünya ilə ayaqlaşmağa başlayan ədəbiyyatda yeni tendensiyalar özünü göstərməyə başladı. Con Bartın ədəbi formaların əksəriyyətinin sıradan çıxdığı və oyun başlanğıcı, eksperimentallığa meylin bu “tükənmiş” əski formalardan çıxış yolu olduğu fikri özünü tamamilə doğrultdu və postmodern ədəbiyyat üçün ən önəmli özəlliklər hesab edirdi. Con Bartın məşhur “tükənmişlik” ədəbiyyatına yeni nəfəs gətirən Nil Qeyman romanlarında reallıqla fantastikanın sərhədlərini sıfıra endirir, bütləşmiş miflərə müraciət edərək onları yenidən müasir baxış bucağından təqdim edir. Qeymanın yaradıcılığında keçmişə və mifologiyaya yeni tipli yanaşma var. Belə ki, Qeyman mifləri interpretasiya etməklə əsrlərdir qoruduqları qəlibləri dağıdır, özünün yeni, spesifik və ironik baxış əlavə edir. Bu mənada, Nil Qeymanın 2001-ci ildə çap olunan “Amerikan Tanrıları” romanı xüsusi maraq doğurur. Qədim tanrılarla müasir tanrıların mübarizəsindən bəhs edən bu roman protaqonistin keçdiyi macəralardan bəhs edir.

Bu romanda Qeyman dünya mifologiyasının məşhur tanrı obrazlarını müasir Amerikada yaşayan şəxslər kimi təqdim etmişdir. Əsərdə göstərilir ki, Amerikaya köç edən insanlar özləri ilə birlikdə inanclarını və tanrılarını da gətirmiş, lakin zamanla öz inanclarından üz döndərmişlər. Həmin tanrılar isə unudulmuş və öz başlarının çarəsinə baxmalı olmuşlar. Beləcə, qədim tanrılar Amerikada həyatlarını sürdürmək üçün bir növ insaniləşmiş və dünyəvi işlərlə məşğul olmağa başlamışlar. Lakin artıq onların internet, telefon, televizor kimi Yeni tanrılar adlanan rəqibləri var və güclərini qorumaq üçün onlarla mübarizə aparmalıdırlar. Qədim tanrılar öz köklərindən qopmadan müasir cəmiyyətdə özünə yer tapmağa çalışır və beləcə mif və müasirlik arasındakı münasibətlər müəllif tərəfindən bilərəkdən toqquşdurulur. Qeyman romandakı tanrı personajlarını interpretasiya edərək onları modern dünyaya uyğunlaşdıraraq təsvir edir. Qeymanın təfsiri ilə mifoloji tanrıların necə yenidən canlandırıldığına bariz nümunələr üzərindən nəzər salaq:

**Odin.** Skandinav mifologiyasında müdriklik, döyüş və ölüm tanrısı olan Odin bu romanda qarşımıza çağdaş dövrümüzdə yaşayan cənab Uednesday olaraq çıxmışdır. Modern dünyada əvvəlki gücünü yenidən qazanmaq arzusunda olan bu obraz fırıldaqçı, hiyləgər və fürsətcil xüsusiyyətləri ilə diqqəti çəkir. Lakin skandinav mifologiyasında iki gözlü olub axmaq olmaqdansa, ağıllı olub bir gözlə daha çox şey bilməyi üstün tutan Odin sağ gözünü Mimirə vermişdir. Odinin dünyaya eniş etdiyi Sleypnir adlı atınının romandakı interpretasiyası obrazları tanrıların dünyasına aparan karusel atdır. Skandinav tanrıları arasında yalnız Odin yemək yeməz, yalnızca bal yeyər və braqa içərdi. Məhz əsərdə də Odini həmişə viski içərkən görürük. Mifologiyada hər dəfə Lokini bağışladığına şahidlik etdiyimiz Odin romanda onunla düşmən kimi görünsə də, tərəfdaş olub böyük plan hazırlamışdır. Lakin Odin obrazının interpretasiyası ilə bağlı əsərdə diqqət çəkən əsas nüans onun ölümü ilə bağlıdır. Mifologiyada məğlubedilməz, əsla mübarizədən əl çəkməyən, güclü Odin əsərdə

bəzi məqamlarda ümidsiz, zəif, pessimist, incinmiş mövqe göstərir. “Uensdeyin səsində Şedounun əvvəllər heç duymadığı bir bitkinlik və cansızlıq var idi.” (Qeyman, 2022, 360)

**Loki**. Skandinavların hiyləgər tanrısı Loki görünüşdə təvazökar biri kimi görünsə də, əslində, xaos və aldatmağı simvolizə edir. Yer-yer tanrılara kömək edən Loki Raqnarökdə tanrılara xəyanət edir və onlara qarşı döyüşür. Qeyman isə Lokini Odin ilə görünüşdə düşmən, əslində isə müttəfiq kimi təsvir etmişdir. Cənab Dünya qiyafəsində Yeni tanrılara rəhbərlik edən bu obraz Loki olaraq Şedounun həyatına girir və müəyyən təsirlər edir. Mifologiyadakı kimi hiyləgər və xaosa meylli xüsusiyyətlərə malik olsa da, əsərdə həmçinin, daha stratejik və şəxsi mənfəətini güdən tərəflərini də görürük. Qeymanın Lokisi daha manipulyativ və hadisələri öz leyhinə çevirməyi bacaran obraz kimi təsvir olunub.

**Tor**. Skandinav mifologiyasında bütün dünyada qüvvətdə ona tay tapılmaz, güclü bir pəhləvan kimi təsvir edilən Tor bu romanda canlı obraz kimi qarşımıza çıxmır. Oxucu dünyasını dəyişmiş Tor haqqında yalnızca atası Odinin xatirələrindən məlumat əldə edir. Lakin mifologiyadakı obrazının əksinə Odinin təsvirinə görə Tor heç də ağıllı deyildi, əksinə, hətta ağılsız idi. “İntihar etdi. 1932-ci ildə Filadelfiyada silahı ağzına dayayıb atəş açdı və beynini dağıtdı. Eyni sənin kimi idi – iri və səfeh.” (Qeyman, 2022, 360)

**Çernoboq**. Slavyan mifologiyasında qaranlıq və bədbəxtlik tanrısı olan “qara tanrı” Çernoboq Qeymanın şərhində Amerikada qəssabxana işçisi kimi mövcudluğunu davam etdirir. Güclü və ağır çəkici ilə heyvanları tək zərbə ilə öldürən Çernoboq Zorya bacıları ilə birlikdə yaşayır. Onun qaranlıq təbiəti və fatalist mövqeyi müasir dünyada köhnə dünyanın gücünü qoruyub saxlamaq cəhdlərini əks etdirir. Unudulmağın acısı onu köhnə tanrıların solmaqda olan şöhrətini yenidən alovlandırması üçün bu cür acımasız bir obraza çevirir. Bununla belə, Çernoboq əsər boyu nə qədər qana həris və qəddar obraz kimi görünsə də, onun kobudluğu və amansızlığı öz ironiyası və lağlağılığı ilə seçilir. Ciddi situasiyalarda belə qara yumoru ilə digərlərini narahat edən və bundan xoşhal olan Çernoboq özünün belə panteondakı roluna kinayə ilə yanaşır. Onun ironiyasının kökündə isə keçmişinə bağlılığı və müasir dünyada öz yerini tapmaqda çətinlik çəkməsi dayanır.

**Bilqeys**. Məşhur mifoloji obrazlardan biri olan Səba məlikəsi Bilqeys rəvayətə görə İsrail kralı Süleymanın müdrikliyini eşidir və onu sualları ilə sınamaq məqsədilə özü ilə bir çox dəyərli hədiyyə götürərək ziyarətə gedir. Bilqeys onun müdrikliyi və sərvəti qarşısında heyrətə düşür və Süleymanın tanrısına dua etməyə başlayır. Altı ay Süleymanın yanında qalan Bilqeys ondan çoxlu şeylər öyrənir. Ziyarətinin son gecəsi isə Süleyman ilə münasibətdə olur və hamilə qalır. Bilqeys öz padşahlığına qayıtsa da Süleyman peyğəmbərə Menelik adlı bir oğul doğur və uşağı bir Yəhudi kimi yetişdirir. Lakin romanda bu gözəl mifik obraz sevgi və seks ilahəsi kimi qarşımıza çıxır. Mifologiyada Süleyman tərəfindən aldadılaraq yatağına salınan Bilqeys xarakterinin əksinə, romanda gücünü cinsəllikdən alan, insanları başdan çıxararaq onlarla birlikdə olan bir obraz görürük. Modern Amerikada həyatda qala bilmək üçün seks işçisi kimi işləməyə məcbur olan sevgi ilahəsi Bilqeys obrazı oxucuda tragikomik təəssürat yaradır.

**Cənab İbis və cənab Jakel.** Qədim Misir mifologiyasında müdriklik tanrısı, elmin və heroqliflərin yaradıcısı kimi tanıdığımız Tot romanda cənab İbis, ölüləri mühakimə edən və mumyalayan Anubis isə cənab Jakel adı ilə qarşımıza çıxır. Mifologiyadan məlum olduğu kimi Anubis ölülərin bələdçisidir və onların əməllərini həqiqət tərəzisinin bir gözünə, digər gözünə isə həqiqət etalon daşı qoyub çəkərək günahlarını müəyyən edir. Romanda isə onun tanrı olaraq vəzifələri modern dünya ilə uyğunlaşdırılaraq təsvir edilmişdir. Belə ki, bu ikili müasir dünyada

mərasim evi işlədirlər və ölülərinin yuyulub dəfn edilməsi işi ilə məhz cənab Jakel məşğul olur. Cənab İbis isə həm tarixçi, həm də hekayə təhkiyəçisi rolundadır və yas tutmaq, anım kimi qədim təcrübələrin çağdaş dövrümüzə necə uyğunlaşdırılaraq mövcudluq göstərə biləcəyini gözlər önünə sərir.

**Mama-Ji.** Hind mifologiyasında zaman, ölüm, məhvetmə ilahəsi kimi tanınan Kali əsərdə Mama-Ji obrazı kimi qarşımıza çıxır. Kali Hind panteonunda son dərəcə güclü bir fiqur olub dağıdıcı, lakin qoruyucu ilahə hesab olunur. Mama-Ji qarayanız, ağ-qara saçlı, kəllə sümüklərindən boyunbağı və başlar-əllərdən ibarət cazibədar qolbağı olan yaşlı bir qadın kimi təsvir edilmişdir. Müasir Amerikada qırmızı rəngdə sari geyinən və ədviyyat iyi verən Mama-Ji bir restoranda işləyir. Əsərdə qorxmaz, döyüşçü ruhlu, cəsur bir ilahə kimi təsvir edilən Mama-Ji ənənəvi Kali təsvirinə sadiq qalınaraq güclü və bəzən şiddətli bir xarakter kimi təqdim edilmişdir. Bununla belə, mifologiyada döyüş ilahəsi kimi tanının Kalinin əsərdəki interpretasiyası olan Mama-Ji Odinlə mübahisəsi zamanı döyüşməkdən boyun qaçırır və Yeni Tanrıların da keçmişdəkilər kimi ölmələrini gözləməyi təklif edir.

**İsa Məsih**. Xristian dininin lideri, yəhudi peyğəmbər İsa inanclarda Tanrının oğlu kimi təsvir edilmiş, bir çox möcuzələri ilə şöhrət qazanmışdır. Lakin “Amerikan Tanrıları”nda o, birdən çox versiyada qarşımıza çıxır. Müəllifin məqsədli şəkildə belə bir təsvir seçməsinin səbəbi bir çox fərqli mədəniyyət və məzhəbin İsaya öz perspektivini qataraq inanması ilə bağlıdır. Qeyman dinin necə qlobal və plüralist bir kimlik qazandığını vurğulamaq üçün bu üsula müraciət edib. İsa bu əsərdə müasir dünyanın kommersiyalaşmış və çoxşaxəli inanc sisteminin simvoludur. Roman boyu İsa yaxşılıq və şəfqətin simvolu olaraq qalsa da, onun müxtəlif mədəniyyətlərdə fərqli formalarda şərh edilməsi onu bir qədər kədərli bir xarakterə çevirir.

**Elflər**. Skandinav mifologiyasında elflər yeraltında yaşayaraq qiymətli daşları emal edən, tanrıların tez-tez kömək istədikləri varlıqlar kimi təsvir edilir. Romanda isə qədim tanrılardan biri olan və cırtdanlara hökmdarlıq edən Vindalfın oğlu Alviss elflərin nümayəndəsi kimi qarşımıza çıxır. Eynilə, mifologiyadakı kimi bu əsərdə də tanrılar Alvissdən yardım istəyir və elf onlara dərhal lazımi köməkliyi göstərir. Lakin mifologiyadakı təsvirindən fərqli olaraq əsərdəki elf xarakterinin boyu heç də balaca deyil və baş qəhrəman Şedou da bu nüansa çox təəccüblənir. “Boyu bit yetmiş beş, bir səksən olar, hə? Məhz bu onu cırtdanların ən böyüyü edir. Amerikanın ən hündür cırtdanı.” [s. 395]

**Cin**. Ərəb mifologiyasında oddan yaradılmış varlıq olan Cin romanda müasir dünyamızda taksi şoferi kimi qarşımıza çıxır. Amerikada miqrant kimi yaşayan Cin yurdsuz və gücsüz hiss etsə də özü kimi Şərqli miqrant Səlim ilə yaşadığı qısa müddətli romantik münasibət ona kimliyini qismən tapmaqda kömək olur.

**Nəticə**. Tədqiqatımızın yekunu olaraq bu qənaətə gəldik ki, Nil Qeyman “Amerikan Tanrıları” romanında dünya mifologiyasının məşhur tanrı personajlarını müasir Amerikada yaşayan insani xüsusiyyətlərə malik kəslər kimi təsvir etmişdir. Tanrıları bu cür antropomorf təsvir edən müəllif bu romanında yaratdığı mifoloji obrazlara xüsusi rol, xarakter və hətta onlara uyğun olan işlər verib. Təhlillərimiz zamanı bu vəzifələrin tanrıların təbiətcə miflərdə və folklordakı fəaliyyətlərinə bənzədiyi nəticəsinə gəldik. Qeyman bu mifoloji obrazları köhnə inanclar, köhnə tanrılar kimi, məhv olmaqdansa, dəyişməklə yaşaya biləcək bir formada təsvir etmişdir.

**Ədəbiyyat:**

Gaiman N. (1999). "Reflections on Myth." Columbia: A Journal of Literature and Art, Winter 34: 75-84. Web.

Head D. (2002). The Cambridge Introduction to Modern British Fiction, 1950–2000. Cambrdige: Cambridge University Press.

Klapcsik S. (2008). "Neil Gaiman's Irony, Liminal Fantasies, and Fairy Tale Adaptations." Hungarian Journal of English and American Studies (HJEAS) 14.2: 317-34. JSTOR. Web.

Koudelková L. (2015). Neil Gaiman: Myths in Postmodern Literature [online]. Brno, 2015 [cit. 2020-04-01]. Available from: <https://theses.cz/id/rj6p6d/>. Master's thesis. Masaryk University, Faculty of Arts. Thesis supervisor M.A. Jeffrey Alan Smith, Ph.D.

Qeyman N. (2022) Amerika Tanrıları. Qanun nəşriyyatı.

Quliyev Q. (2011). XX əsr Amerikan ədəbiyyatşünaslığında aparıcı cərəyanlar. Çaşıoğlu Nəşriyyatı.

Wearring A. (2011). "Changing, Out-of-Work, Dead, and Reborn Gods in the Fiction of Neil Gaiman." Literature & Aesthetics 19.2: 236–246.

https://www.theatlantic.com/magazine/archive/1967/08/the-literature-of-exhaustion/659344/

# ARTISTIC AND TECHNICAL CHARACTERISTICS OF AZERBAIJAN SUMAKH CARPETS

**Aslanova Gunel Zahir**

**Azerbaijan State University of Culture and Arts**

**https://orcid.org/0009-0005-7035-6074**

**Lenug03@gmail.com**

**Rəyçi:**

**Qafarzadə Rima Mübariz qızı,**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

The purpose of this report is to provide detailed information about the artistic and technical characteristics of Azerbaijan Sumakh Carpets. Sumakh carpets, woven with a unique difficult technique, are one of the most interesting types of pile-free carpets that have become widespread in recent centuries. Similar to zili and verni carpets, sumach carpets are woven and decorated with patterns and compositions taken from pile carpets. Although these Shilyan or Honeycomb style carpets belong mainly to the Shirvan school of carpet weaving, they were also woven in Guba, Gusar, Urmiya, Nakhchivan, Lachin and Jabrayil regions of Karabakh. Although Sumakh carpets had a free composition in the early days of their creation, they are repeated with compositions and ornaments taken from pileless carpets of Guba, Shirvan, Ganja and Karabakh. This type of carpets are woven with bovine, geometric and vegetable ornaments, symmetrical shapes, rich color shades, and at the same time with symbols and motifs reflecting the cultural world of the people. Among the traditional patterns of these carpets are sumach carpets, popularly known as "dolan-gach" with a small border with a wavy pattern. Currently in many museums of the world: Victoria and Albert Museum in London, Textile Museum in Washington, Metropolitan in New York, etc. sumach carpets preserved in museums belong to the 18th-20th centuries. The inclusion of Azerbaijan's carpet art in UNESCO's List of Intangible Cultural Heritage not only makes Sumakh carpets a part of Azerbaijan's cultural heritage, but also highlights its place in the history of world culture.

**Key words:** carpet weaving schools, pileless carpet, artistic and technical features, pattern, border, cultural heritage of Azerbaijan

# ХУДОЖЕСТВЕННО-ТЕХНИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ АЗЕРБАЙДЖАНСКИХ СУМАХОВЫХ КОВРОВ

**Асланова Гюнель Захир**

**Азербайджанский государственный университет культуры и искусств**

**https://orcid.org/0009-0005-7035-6074**

**Lenug03@gmail.com**

**Резюме**

Целью данного тезиса является предоставление подробной информации о художественных и технических характеристиках азербайджанских ковров Sumax. Ковры сумах, сотканные по уникальной сложной технике, являются одним из интереснейших видов безворсовых ковров, получивших широкое распространение в последние столетия. Подобно коврам зили и верни, ковры сумах ткут и украшают узорами и композициями, взятыми из ворсовых ковров. Хотя эти ковры в стиле Шилян или Петак принадлежат в основном Ширванской школе ковроткачества, их ткали также в Губинском, Гусарском, Урмийском, Нахчыванском, Лачинском и Джебраильском районах Карабаха. Хотя сумахские ковры в первые дни своего создания имели свободную композицию, они повторяются с композициями и орнаментами, взятыми с безворсовых ковров Губы, Ширвана, Гянджи и Карабаха. Ковры этого типа ткут с бычьим, геометрическим и растительным орнаментом, симметричными формами, насыщенными цветами, символами и мотивами, отражающими культурный мир народа. К числу традиционных узоров этих ковров относятся ковры сумах, известные в народе как «долан-гач», с небольшой каймой с волнистым узором. В настоящее время находится во многих музеях мира: Музей Виктории и Альберта в Лондоне, Музей текстиля в Вашингтоне, Метрополитен в Нью-Йорке и др. Сохранившиеся в музеях ковры сумах относятся к XVIII-XX векам. Включение коврового искусства Азербайджана в Список нематериального культурного наследия ЮНЕСКО не только делает сумаковые ковры частью культурного наследия Азербайджана, но и подчеркивает их место в истории мировой культуры.

**Ключевые слова:** школы ковроткачества, безворсовый ковер, художественно-технические особенности, узор, бордюр, культурное наследие Азербайджана**.**

# AZƏRBAYCAN SUMAX XALÇALARININ BƏDİİ-TEXNİKİ XÜSUSİYYƏTLƏRİ

**Aslanova Günel Zahir**

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

**https://orcid.org/0009-0005-7035-6074**

**Lenug03@gmail.com**

**Azərbaycan mədəni irsi**

Azərbaycan xalçaları xovlu və xovsuz növ olmaqla 2 növə bölünür. Kilim və şəddə xalçalarından fərqli olaraq ənənəvi düyün toxunma texnikasında toxunulurdu. Lakin Şahsevən tayfası belə toxunma texnikasını "qayıq" mənasını verən "kaikko" adlandırmışlar. Sumax texnikasından bir çox millətlə: kürdlər, qaşqaylar və şahsevən tayfaları istifadə etməklə gözəl xalça nümunələri ərsəyə gətirirdilər. Ayrı-ayrı kürd tayfaları isə ipək saplardan müxtəlif məmulatlar hazırlayırdılar. İstehsalı bugünə qədər davam edən ən qədim sumax nümunələri XVIII-XIX əsrin əvvəllərinə edilir. Sumax təbii yun ipləri ilə toxunurdu. Əriş sapları fil dişi sümüyü və yaxud qəhvəyi rəngdə, arğac sapları isə müxtəlif çalarlarda, yerliyi isə daha çox qırmızı rəngdə boyanırdı. Dekorativ xüsusiyyətlərinə nəzər salsaq, 2 qrupa bölmək olar. Əjdaha motivli xalça nümunələri ilk qrupa aid edilir. Mərkəzi medalyonda rombvari şaquli sütun, əyri konturlar V-şəkilli elementlər şəklində görünür ki, daxili hissəsində qarmaqlı naxışlar yer alır. Şaquli mavi rəngli medalyon verilirdi ki, daxilində nəbati elementlər və ya ulduzşəkilli kiçik ölçülü göllər yer alırdı. Qazax xalçaçılıq məktəbinə aid edilən nümunələrə nəzər salsaq sıx toxunma texnikası, uzun xovlu və canlı çalarla verilmiş iri ölçülü gölləri geometrik ornamentləri ilə fərqləndirilir. Ən məşhur növlərindən biri Çelabörd bulud elementli Qazax xalçalarının adının mənşəyi Qafqaz regionunun köçəxanımlar tərəfindən toxunulurdu. Qeyd etmək olar ki, sumax xalçalarının sapları təbii boyalardan istifadə edilərək rənglənirdi. Rənglər parlaq və zəngin olur, bu da xalçalara canlılıq gətirir. Qədim sumax xalçaları tamamilə yun ipdən, pambıqdan hazırlanır. Yun materialı, xalçanın isti və təravətli olmasına kömək edir. Yun iplər əsasən təbii boyalardan hazırlanan rənglərlə boyanırdı ki, bu da xalçaya canlılıq gətirirdi. Ümumiyyətlə sumaxın sərbəst çeşnisi yoxdur. Əgər keçmişdə sumax sərbəst çeşniyə malik olmuşsa da, xovlu xalçaların yüksək inkişafı ilə əlaqədar olaraq bu çeşnilər sıradan çıxmışdır. Sumaxın kompozisiyası və onun ayrı-ayrı elementləri əsasən xovlu xalçaların və xüsusən Quba-Şirvan xovlu xalçaların ornament kompozisiyası ilə eynidir. (Kərimov,1961. S21). Belə xovsuz xalça nümunələrindən biri 18 dekabr 1967-ci ildə Azərbaycan xalça muzeyinin kolleksiyasına daxil olmuş 1950-ci illərə aid olan Quba xalçaçılıq məktəbinə aid olan "Qollu-çiçi" xalçasından bəhrələnərək toxunmuş sumax xalçasıdır. Sumaxın ara sahəsində göl elementlərinin bədii tərtibatı gölbəndlik kompozisiyalı tərtib nəticəsində xüsusi bədiilik verən gölün çarpazlaşdırılan qolları "xətai" elementidir. (Tağıyeva, 2015).

**Ədəbiyyat:**

Kərimov L. (1961) Azərbaycan xalçası. I cild. Bakı-Leninqrad. 375s.

Kərimov L. (1983) Azərbaycan xalçaası. II cild. Bakı.

Tağıyeva R. (2015) Azərbaycan xalçası. Bakı. II cild. 475s.

Əliyeva K. (2020) Azərbaycanın xovsuz xalçaları. Bakı. Şərq-qərb. 350s

http://www.anl.az/down/meqale/525/2017/dekabr/565732.htm

https://azcarpetmuseum.az/az/collection/21

https://www.azerbaijanrugs.com/guide/antique_caucasian_soumak_rugs.htm

https://www.moret.it/en/prodotto/caucaso-21210/

https://orientalcapets.com/carpet/sumah/

# MÜASIR DÖVRDƏ XALÇAÇILIQ SƏNƏTI VƏ ONUN EKOLOGIYA ILƏ QARŞILIQLI ƏLAQƏSI

**Rzazadə Nuranə Namiq**

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

**https://orcid.org/0000-0002-2953-065X**

**Nuna_fva@mail.ru**

**Rəyçi:**

**Qafarzadə Rima Mübariz qızı,**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**

**Xülasə**

Bu məruzənin məqsədi müasir dövrdə xalça toxunuşunda istifadə olunan sapların həddindən artıq kimyəvi maddələrə məruz qalması nəticəsində ekologiyaya, insan sağlamlığına vura biləcək fəsadlarla mübarizəyə töhfə verməkdən ibarətdir. Sintetik iplər, süni rənglənmə, istehsalatın uğursuz təşkili havaya, təmiz su mənbələrinə, zavodların tullantı sayının kəskin artmasına səbəb ola bilir. Xalça istehsalında istifadə olunan kimyəvi maddələrin düzgün idarə edilməsi, həm insan sağlamlığı, həm də ətraf mühit üçün kritik əhəmiyyət kəsb edir. Kimyəvi maddələr, istehsal prosesinin ayrılmaz hissəsi olsa da, onların düzgün istifadəsi və atılması, potansial təhlükələrin qarşısını almaq üçün vacibdir. İstehsalçılar, təhlükəli kimyəvi maddələrin istifadəsini minimuma endirmək üçün alternativ materialların araşdırılmasına yönəlməlidirlər.

**Açar sözlər:** xalçaçılıq, istehsalat, ekologiya, dekorativ tətbiqi sənət, iqlim.

# ИСКУССТВО ТКАНИЯ КОВРОВ В СОВРЕМЕННОЕ ВРЕМЯ И ЕГО ВЗАИМООТНОШЕНИЕ С ЭКОЛОГИЕЙ

**Рзазаде Нуране Намиг**

**Азербайджанский государственный университет культуры и искусств**

**https://orcid.org/0000-0002-2953-065X**

**Nuna_fva@mail.ru**

**Резюме**

Цель данного доклада — внести вклад в борьбу с экологическими и здоровьесберегающими рисками, возникающими в результате чрезмерного воздействия химических веществ на нити, используемые в современном ковроткачестве. Синтетические нити, искусственное окрашивание и неудачная организация производства могут привести к серьезным последствиям, таким как загрязнение воздуха, источников чистой воды и резкое увеличение объема промышленных отходов. Правильное управление химическими веществами, используемыми в производстве ковров, имеет критическое значение как для здоровья человека, так и для окружающей среды. Хотя химические вещества являются неотъемлемой частью производственного процесса, их правильное использование и утилизация крайне важны для предотвращения потенциальных угроз. Производителям следует сосредоточиться на исследовании альтернативных материалов для минимизации использования опасных химических веществ.

**Ключевые слова**: ковроткачество, производство, экология, декоративно-прикладное искусство, климат.

# THE ART OF CARPET WEAVING IN MODERN TIMES AND ITS RELATION TO ECOLOGY

**Rzazada Nurana Namiq**

**Azerbaijan State University of Culture and Arts**

**https://orcid.org/0000-0002-2953-065X**

**Nuna_fva@mail.ru**

İqlim dəyişkənliyi, dünya iqlim sistemində baş verən uzunmüddətli dəyişiklikləri əhatə edir. Dekorativ tətbiqi sənətin böyük sahəsi olan toxuma sənəti ilə iqlim dəyişkənliyinin arasından bir başa əlaqə mövcuddur.

İqlim dəyişkənliyi, xammalın əldə edilməsi, bitki örtüyünün azalması və ekosistemlərin tənəzzülü kimi məsələlərlə xalçaçılıq sənətinə təsir edə bilər.

Toxuculuq istehsalında istifadə olunan materiallar, ekoloji cəhətdən davamlılıq baxımından mühüm rol oynayır. Təbii liflər – xüsusilə yun, ipək və pambıq – ənənəvi qobelen istehsalında geniş istifadə edilir(İngram,1993). Bu materialların ekosistemə olan təsirləri, müasir sənətçilərin yaradıcılığında diqqət mərkəzindədir.

**Сумгаитский государственный университет**

**https://orcid.org/0009-0008-3585-5216**

**semra.guluzade@mail.ru**

**Резюме**

Аббревиатура, один из наиболее продуктивных способов словообразования, играет важную роль в культуре, общественной и государственной жизни современных народов. Аббревиатура служит для повышения эффективности коммуникативной функции языка. Сокращения — это способ расширения данных. Использование сокращений в письменной форме помогает сэкономить время, а в устной речи язык освобождается от сложных выражений и терминологических длинных выражений, способствует ускорению темпа речи. Процесс сокращения позволяет создавать новые слова, тем самым обогащая словарный запас языка. Аббревиатура – новое массовое явление в языке, направленное на нарушение его устоявшихся норм и стимулирование его развития. Однако языковая система, в свою очередь, оказывает сильное давление на неологизмы, создаваемые аббревиатурами, особенно акронимами. Цель статьи – определить основные этапы развития сокращений, рассмотреть причины создания сокращений, определить значение и смысл сокращения слов в словаре современного языка.

**Ключевые слова:** словотворчество, сокращение, аббревиатуры, акронимы.

# ABBREVİATUR VƏ AKRONİMLƏR QƏNAƏT PRİNSİPİNİN TƏZAHÜRÜ KİMİ

**Quluzadə Səmra Faiq**

**Sumqayıt Dövlət Universiteti**

**https://orcid.org/0009-0008-3585-5216**

**semra.guluzade@mail.ru**

İxtisarlar bir sıra ənənəvi söz əmələ gətirmə, söz yaradıcılığı, kompozisiya və konvertasiya üsulları üçün məhsuldar əsas ola bilər. Dilçilik elmi qənaət prinsipini dil sisteminin fəaliyyətini tənzimləyən və xüsusən də qrammatika ilə lüğət arasındakı əlaqəni müəyyən edən ən mühüm prinsip hesab edir: nizamsız linqvistik formaları hər dəfə istifadə etmədən lüğətdə saxlamaq daha qənaətcildir. Sözlərin abreviaturları, xüsusi elmi terminlər, təşkilatların adları və digər tez-tez istifadə olunan ifadələr müasir tədqiqat mətnlərinin tərkib hissəsidir.

Lazım gələrsə, orfoqrafiyanı yoxlaya və ya xüsusi lüğətlərdə düzgün tərcüməni tapmaq mümkündür. Lakin burada problem texniki terminologiyanın daim yenilənməsidir. Bu gün ümumiyyətlə qəbul edilən terminlər belə rəsmi nəşr olunan akademik lüğətlərdə hələ qeyd olunmaya bilər.

Orijinal mənşəli abreviaturların tərcümə üsullarını formalaşdırmaq daha çətindir. Belə qısaldılmış ifadələrin işlədilməsinin xüsusiyyətləri hər bir konkret mətnin mövzusundan, üslubundan, terminoloji zənginliyindən asılıdır.

Son onilliyin tədqiqatlarında "abbreviasiya" və "abbreviatur" terminlərindən tez-tez istifadə olunur. "Abbreviatur" termininin "mahiyyəti ifadə vasitələrinin kondensasiyası və yeni dil vahidlərinin məzmununun ümumiləşdirilmiş qavranılması olan söz əmələ gətirmə üsulu" deməkdir və "abbreviatur" bu prosesin nəticəsidir.

"Dilçilikdə qənaət prinsipi dil sisteminin fəaliyyətini tənzimləyən, xüsusən də qrammatika ilə lüğət arasında əlaqəni müəyyən edən ən mühüm prinsip hesab edir: nizamsız linqvistik formaları hər dəfə yaratmadan unikal formullardan istifadə etməklə lüğətdə saxlamaq daha qənaətcildir. Alimlər "bilik tutumlu" adlanan alt dillərdə: tibb, biotexnologiya, informasiya texnologiyaları, fizika və s. elmlərdə abreviaturların yüksək məhsuldarlığına diqqət çəkirlər. Bir çox alimlər (Kubryakova E.S., Yarmaşeviç M.A., Murıçeva A.S., Mitrofanenko L.M., Ilçenko L.M., Dyujikova E.A.) düşünürlər ki, ilkin vahid özünün tərkib elementlərinin bir hissəsini itirərək qısaldılmış vahidə çevrilir [Ильченко, 1994].

Hesab olunur ki, "abbreviatur" termininin istifadəsi yalnız dar mənada, yəni dilin leksik sistemində söz statusu almış leksik abbreviaturlar üçün mümkündür. [Борисов, 1972]. İxtisar əlifba sırası ilə ilkin söz və ya ifadəyə oxşar olan və qısalıq üçün həmin söz və ya ifadənin əvəzinə işlənən hərf və ya hərflərin qısa birləşməsidir.

İxtisarlar həm də söz və birləşmələrin struktur və üslub uyğunluqları adlanır ki, onlar "bir-birini əvəz etmək üçün üstünlük hüququnu alır, genişlənmiş ad isə yalnız abreviaturlarla ifadə olunan anlayışı şərh etmək vasitəsi kimi xidmət edir.

İxtisarların struktur xüsusiyyətlərini təhlil edərkən onların formalarının orijinal tam birləşmələrlə müqayisəsi aparılır. İxtisara çevrilən bütün birləşmələr, tərkibindəki komponentlərin sayına görə qruplara bölünür. Üç qrup abreviatur təhlil edilir:

— iki komponentli birləşmələr;

— üç komponentli birləşmələr;

— dörd komponentli birləşmələr.

Daim genişlənən informasiya paradiqması bir neçə elmin və həyatın müxtəlif sahələrinin kəsişməsində yaradılmış mürəkkəb koqnitiv konsepsiyalarla intensiv şəkildə yenilənir. Nominasiya sistemində yeni konsepsiyaların təyin edilməsinin analitik formaları getdikcə populyarlaşır. Bunlara çoxhədli nominativ komplekslər, yəni çoxhədli kimi əmələ gələn bir neçə sözün bir halda birləşmələri daxildir

Fikrimizcə, nominasiya sistemində müasir tendensiyalar üçün xarakterik olan diqqətəlayiq bir hadisə akronomiyanın əhəmiyyətli dərəcədə artmasıdır.

"Akronomiya" termininin bir neçə tərifi var. Akronim (yunanca *acros* – son və *onim* – ad), adətən, qrafik və səs forması yeni müstəqil söz kimi görünən və səslənən ilkin abbreviatura növü kimi başa düşülür [Ильченко, 1994]. Akronim yalnız sözlərin ilk hərflərindən əmələ gələn abbreviatura kimi müəyyən edilir.

Abbreviatur tam sözün əvəzinə istifadə olunan sözün qısaldılmış formasıdır (məsələn, dos., prof. və s.). Akronim ifadə və ya addakı sözlərin hər birinin ilk hərfindən əmələ gələn sözdür (məsələn, DİM, MİQ, SDU, ATƏT və s.) Bundan əlavə, abbreviatur adı çəkilən söz birləşməsinin sözlərin ilk hərflərindən və ya başlanğıc elementlərindən əmələ gələn və formasına (fonetik quruluşuna) görə adi sözlə oxşar və ya üst-üstə düşən və nitqdə tələffüz qaydalarına uyğun tələffüz edilən ixtisar olunmuş sözdür.

Bəzən qısaltma hərf abbreviaturu adlanır - MDB, NATO [Борисов, 1972]. Lakin bizə elə gəlir ki, akronim də söz sayıla bilməz, çünki onların konseptual ekvivalenti yoxdur. Lakin getdikcə bu terminin tərifi daralır. Akronim yalnız qrafik və səs formalarına görə dildə mövcud olan sözlərlə üst-üstə düşən ilk abreviaturlara aiddir [Борисов, 1972].

Akronimlər də sistem vahidləridir, çünki onlar dilin leksik sisteminin abbreviatur, omonimiya, pleonazm kimi hadisələri ilə əlaqələndirilir. Onu da qeyd etmək lazımdır ki, akronimlərin yaradılması onların qavranılmasına, hətta tam formada təkrar istehsalına açıq şəkildə mane olan terminoloji birləşmələrin ağır yükündən çıxış yoludur. Bu bölmələrin sistematik tədqiqi aydın şəkildə zəruridir. Bu iş akronimlərin öyrənilməsinə sistemli yanaşma cəhdidir.

Fikrimizcə, akronim mütləq "yeni söz" deyil, daha tez-tez məlum sözün yeni mənası və ya omonimidir və ya hər ikisidir. Nanotexnologiya terminologiyasında onların əmələgəlmə və tələffüz üsullarına əsaslanan bir neçə növ akronim var:

1. İxtisarlar tədqiq olunan sahədə terminlərin morfoloji və məzmun quruluşunu nəzərə almaqla, ifadənin hər bir sözünün ilk hərflərindən düzələ bilər;

2. Səs və qrafik formasına görə dildə artıq mövcud olan sözlərlə üst-üstə düşən akronimlər [Солнышкина, 2014]. Bu qısaltmanın xüsusi növüdür. Onlar mahiyyət etibarı ilə məşhur ingilis sözlərinin tam omonimləridir ki, digər akronimlər arasında haqlı olaraq fərqləndirilməlidir [Солнышкина, 2014].

Akademik və elmi nəşrlərdə abbreviaturlardan istifadə adi haldır, lakin müəlliflərdən tez-tez onları mümkün qədər qısa saxlamağı xahiş edirlər. Onlar, adətən, çəkilər və ölçülər üçün universal abbreviaturlarla məhdudlaşır.

İxtisarlar termin və ifadələrin qısaldılmış versiyalarıdır, məsələn, kg - kiloqram, km – kilometr, dr. – doktor, dos. – dosent, prof. – professor və s. İxtisarların istifadəsi mətndəki sözlərin sayını azaltmalı olduğunuz vəziyyətlər üçün idealdır.

Bununla belə, qısaldılmış sözlərin bir elm sahəsində geniş istifadə olunsa da, digərində naməlum olması tendensiyası mövcuddur.

Elmi məqalələrdə abbreviaturalara icazə verilirmi və onları harada yerləşdirmək olar? Ümumi qəbul edilmiş qayda, bütün qeyri-standart abbreviaturların həm tezislərdə, həm də məqalələrin özündə ilk dəfə göründüyü zaman tam şəkildə yazılmasıdır. Abreviaturun ilk qeydindən sonra ondan tez-tez istifadə etmək lazımdır. Bundan əlavə, iş boyu formata ardıcıl şəkildə əməl edilməlidir.

"Abreviatura" və "akronim" terminləri söz və ifadələrin qısaldılmış variantlarıdır. Akronimlər uzun sözləri qısaldırsa (məsələn, doktor – dr. və ya professor – prof. ), abbreviaturlar yeni söz yaratmaq üçün hər bir sözün ilk hərfindən istifadə edir (məsələn, NASA, NATO, MD, YUNESCO və s.). "Akronim" sözü yunanca "akros" (yuxarı) və "onima" (ad) sözlərindən yaranıb, "yuxarı ad" və ya "başlanğıc hərflər" kimi şərh edilə bilər.

Akronimlər müxtəlif sferalarda işlənə bilir.

1. Ədəbiyyat və incəsənətdə: məsələn, C.C, (Cəfər Cabbarlı), C.M. (Cəlil Məmmədquluzadə) və s.
2. Maralı mənşəyi olan akronimlər: əsələn, RADAR - «RAdio Detection And Ranging» (radiolakasiya), LAZER - «Light Amplification by Stimulated Emission of Radiation» (lazer) sözlərinin ixtisarı ilə yaranmışdır..
3. *Pop-mədəniyyətdə akronimlər.* Bəzi akronimlər filmlər, televiziya şouları və musiqi vasitəsilə məşhurlaşır. Məsələn, "VIP" (Very Important Person) əyləncə sənayesində qeyd edildiyi üçün geniş istifadə olunan bir terminə çevrilmişdir.
4. *Akronimlər və sosial-mədəni hərəkatlar.* Sosial-mədəni hərəkatlar daxilində akronimlər xüsusi məna kəsb edə bilər. Məsələn, "UNESCO" (UNESCO — United Nations Educational, Scientific and Cultural Organization) Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumunu əks etdirən qısaltmadır.
5. *Təhsildə akronimlərdən istifadə.* Təhsil proqramlarında tez-tez standartlara və pedaqogikalara istinad etmək üçün qısaltmalardan istifadə olunur. Məsələn, "STEM" (Science, Technology, Engineering, Mathematics) elm təhsilinin qısaldılması halına gəldi.
6. *Reklam və rəqəmsal marketinqdə akronimlər:* Marketoloqlar tez-tez markanın tanınmasını və xatırlanmasını yaxşılaşdırmaq üçün qısaltmalar yaradırlar. Məsələn, "BMW" (Bayerische Motoren Werke AG) bütün dünyada məşhurlaşan və tanınan bir alman avtomobil şirkətinin adıdır.
7. *Akronimlər və krossvordlar.* Qısaltmalar müxtəlif hərfləri rahat formatda birləşdirməyə imkan verdiyi üçün tez-tez krossvordlarda və tapmacalarda şəbəkəni doldurmaq üçün istifadə olunur.

Elmi nəşrlərdə abreviaturlarda səhvlərə bəzən tez-tez rast gəlinir. Bunun qarşısını almaq üçün bir neçə yol üsul təqdim edirik. İxtisarları yalnız bir dəfə, onlardan istifadə etmək qərarına gəldikdə müəyyən etmək, ümumiyyətlə, yaxşı fikirdir. Bununla belə, istisnalar var. Bir qayda olaraq, elmi məqalələrdə abreviaturlar terminin üç və ya daha çox təkrarlanmasından sonra verilir.

Əgər abbreviaturlar onların geniş istifadə olunduğu bir sahədə yazılırsa, o zaman standart abbreviaturlardan istifadə etmək vacibdir - məsələn, fizika sahəsindəki maddələr sözlərin sayını

məhdudlaşdırmaq üçün çox vaxt qısaldılır. Abreviatur elmi məqalələr yazarkən çaşdırıcı ola bilər, çünki tez-tez səhv yazılır və ya yanlış istifadə olunur. Adından göründüyü kimi, “və b.” abreviaturu "və başqaları" deməkdir. Mətn sitatlarında və ya istinadlarda bu abbreviatur tez-tez istifadə olunur və mətndə adlardan sonra hər istifadə edilə bilər.

Nəticə olaraq, qeyd edə bilərik ki, akronimlər və abbreviaturlar arasında fərq var, baxmayaraq ki, müəlliflər çox vaxt onlardan eyni şəkildə istifadə edirlər. İnisial və ya sözün qısaldılmasının başqa forması abbreviaturdur. Akronimlər bir neçə sözün ilk hərflərinin birləşməsi ilə əmələ gələn ixtisarlardır. Bütün ixtisarlar abreviatur olmasa da, bütün abreviaturlar qısaldılmış sözlərdir. İxtisarlar və abbreviaturlar, əsasən, bu baxımdan fərqlənir. Yadda saxlamaq lazımdır ki, əlyazmada eyni hərflər digər abbreviaturlarda istifadə olunarsa, rəqib terminlər üçün böyük hərfdən çox, məlum ixtisarlar üçün kiçik hərflərdən istifadə etmək tövsiyə olunur.

**Ədəbiyyat:**

Ильченко, Л. М. (1994) Компрессивное словообразование как один из способов реализации принципа языковой экономии : дис. ... канд. филол. наук / Л. М. Ильченко. Пятигорск, 190 с.

Борисов, В.В. (1972) Аббревиация и акронимия / В. В. Борисов. М:, 124 - 143.

Солнышкина, М.И. (2014) Дуализм языкового знака как причина сокращений в профессиональных языках. II Журнал Филология и Культура. 1 (35).

# NUMERICAL PHRASEOLOGICAL UNITS IN THE DIALECTS OF WESTERN AZERBAIJAN

**Safarli Asmar Azer**

**Baku Slavic University**

**https://orcid.org/0009-0001-1665-0564**

**esi.seferli@mail.ru**

**Rəyçi:**

**Muğamat Xəyalə Muqamat qızı,**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

In recent years, the topic of Western Azerbaijan has gained widespread attention, making it one of the important issues to study and investigate the lexicon, phraseology, and toponymy of the dialects and varieties of this region. The dialects of Western Azerbaijan, which belong to the southern and western groups of Azerbaijani dialects, have a rich dialectal lexicon. This richness is also evident in the phraseology of the Western Azerbaijani dialects. A certain portion of these dialects consists of phraseological units that include numerical components. While some of these numerical phraseological units are characteristic of the dialects, others are also used in the literary language. The formation of numerical phraseological units in these dialects involves the numbers one, two, three, four, five, nine, and forty. Additionally, lexical units expressing numerical meaning are also found in the Western Azerbaijani dialects. The purpose of studying the phraseological combinations with numerical components used in the dialects of Western Azerbaijan is to reveal their shared and distinctive features in comparison with modern literary Azerbaijani, as well as to determine the frequency of their usage in the dialects.

**Keywords:** Azerbaijani dialects, dialects of Western Azerbaijan, phraseological units, phraseological units with numerical components.

# ЧИСЛОВЫЕ СОСТАВНЫЕ ФРАЗЕОЛОГИЗМЫ В ДИАЛЕКТАХ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА

**Сафарли Асмар Азер**

**Бакинский славянский университет**

**https://orcid.org/0009-0001-1665-0564**

**esi.seferli@mail.ru**

**Резюме**

В последние годы тема Западного Азербайджана получила широкое распространение, что делает актуальным исследование лексики, фразеологии и топонимики диалектов и говоров этого региона. Говоры Западного Азербайджана, входящие в южную и западную группы азербайджанских диалектов, обладают богатой диалектной лексикой. Это богатство также проявляется в фразеологии западноазербайджанских говоров. Часть этих говоров включает фразеологические единицы, состоящие из числовых компонентов. Некоторые из этих фразеологических единиц характерны для говоров, в то время как другие используются и в литературном языке. В говорах Западного Азербайджана числовые компоненты фразеологических единиц включают числа один, два, три, четыре, пять, девять, сорок. Кроме того, встречаются лексические единицы, выражающие числовое значение. Целью исследования фразеологических сочетаний с числовыми компонентами, используемых в диалектах и говорах Западного Азербайджана, является выявление их общих и отличительных черт в сравнении с современным литературным языком, а также определение частоты их употребления в диалектах.

**Ключевые слова:** азербайджанские говоры, говоры Западного Азербайджана, фразеологические единицы, фразеологические единицы с числовыми компонентами.

# QƏRBİ AZƏRBAYCAN ŞİVƏLƏRİNDƏ SAY KOMPONENTLİ FRAZEOLOJİ VAHİDLƏR

**Səfərli Əsmər Azər**

**Bakı Slavyan Universiteti**

**https://orcid.org/0009-0001-1665-0564**

**esi.seferli@mail.ru**

Son dövrlərdə Qərbi Azərbaycan mövzusunun geniş vüsət alması həmin bölgənin dialekt və şivələrinin leksikasının, frazeologiyasının, toponimikasının araşdırılması, tədqiq edilməsini aktual məslələrdən birinə çevrilmişdir. Azərbaycan şivələrinin cənub və qərb qruplarına daxil olan Qərbi Azərbaycan şivələri zəngin dialekt leksikasına malikdir. Bu zənginlik özünü Qərbi Azərbaycan şivələrinin frazeologiyasında da göstərir. Qərbi Azərbaycan şivələri frazeoloji vahidlərlə zəngindir.Qərbi Azərbaycan şivələrinin müəyyən qismini say komponentli frazeoloji vahidlər təşkil edir. Bu say komponentli frazeoloji vahidlərin müəyyən hissəsi şivələr üçün xarakterik olsa da, digərləri həm ədəbi dilimizdə, həm də Azərbaycan dilinindialekt və şivələrində işlənir. Şivələrdə say komponentli frazeoloji vahidlərin yaranmasında bir,iki, üç, dörd, beş, doqquz, qırx, sayları iştirak edir. Eyni zamanda Qərbi Azərbaycan şivələrində işlənən say məzmunu ifadə edən leksik vahidlərə də təsadüf olunur və bu leksik vahidlərin bəziləri frazeoloji vahidlərin yaranmasında iştirak edir, müəyyən hissəsi isə frazeoloji vahid yaratmır. Məsələn çətən - xeyli çox (ailəyə aid olur), çimkə - bir parça, dınnax -bir tikə, bir az, dilim - bir tikə, dö:rrü – çoxlu, xeylax - xeyli, çox , qındax - azca, bir az, qırnax: bir qırnax - bir az, azacıq, oqərtən - o qədər, çoxlu, pörnəx'- bir bölük adam, tığ – çoxlu, zilfix' - bir parça, bir tikə, xıl-çox, Xışma (s.) – bir ovuc, bir sıxma, xorum (is.) – bir büküm və s. Qeydedilən say məzmunu ifadə edən leksik vahidlərin müəyyən hissəsi müasir Azərbaycan ədəbi dilində də say komponentli frazeoloji vahidlərin yaranmasında iştirak edir.

Qərbi Azərbaycan şivələrində qeyd edilən sayların və qeyri müəyyən say məzmunu daşıyan leksik vahidlərin bu şivələrdə say komponentli frazeoloji vahid yaranmasında yaxından iştirak edir. Say məzmunu daşıyan leksik vahidlərin bəziləri isə say komponentli frazeoloji vahidlər yaratmır.

M.Mirzəliyeva qeyd edir: "Frazeoloji vahidlər dil tarixçiləri, eləcə də etimoloqlar üçün ən dəyərli və etibarlı mənbə, əvəzsiz dil materialıdır. Türk dillərinin frazeologiyasının öyrənilməsində onun tarixi baxımdan elmi araşdırılması böyük əhəmiyyət kəsb edir" (M.Mirzəliyeva, 2009). Bu fikrin davamı olaraq bizim də məqsədimiz Qərbi Azərbaycanın dialekt və şivələrindəki frazeoloji vahidləri toplamaq, araşdırmaq, onların dilimizlə fərqli və ortaq xüsusiyyətini üzə çıxarmaqdır.

Bu şivələrdə işlənən say komponentli frazeoloji vahidləri təxminən belə qruplaşdırmaq olar:

1) Bir sayın iştirakı ilə yaranan say komponentli frazeoloji vahidlər;

2) İki müxtəlif sayın iştirakı ilə yaranan say komponentli frazeoloji vahidlər.

3) Say məzmunu daşıyan leksik vahidlərin bir sayının köməkliyi ilə frazeolloji vahid yaratması.

**Bir sayın iştirakı ilə yaranan say komponentli frazeoloji vahidlər**

Qərbi Azərbaycan dialekt və şivələrindəbir sayın iştirakı ilə yaranan say komponentli frazeoloji vahidlərin tərkibində bir, dörd, yeddi, qırx sayları üstün mövqeyə malikdir.

**Bir sayının iştirakı ilə yaranan say komponentli frazeoloji vahidlər**

Qərbi Azərbaycan şivələrində bir sayının iştirakı ilə xeyli sayda frazeoloji vahid əmələ gəlir. Y.Xəlilov say tərkibli frazeoloji vahidlərdən bəhs edərkən, dilimizdə bir sayının frazeoloji vahidlərin yaranmasında fəal iştirak etmədiyini qeyd edir. Buna səbəb bir sayının sinonimi olan tək, yalnız, təkcə sözlərinin olduğunu vurğulayır(Xəlilov, 1970). Tədqiqatçının bu mülahizəsi ilə razılaşmayan N.Bağırov qeyd edir ki, Azərbaycan dilinin, o cümlədən, digər türk dillərinin frazeoloji xəritəsini diqqətlə nəzərdən keçirdikdə tərkibində *bir* sayı olan onlarla frazeoloji vahidin mövcud olduğunu görürük (Bağırov, 2016). Biz də N.Bağırovun fikri ilə razılaşırıq, çünkü Qərbi Azərbaycan şivələrinə aid lüğətləri araşdırarkən bir sayının iştirakı ilə çoxlu frazeoloji vahid müşahidə edirik.

Ağzıbir (İrəvan) - sirrə möhkəm, ağzıbütöv - Məşədi nökərdən bir şey öyrənə bilmədi, hamı onu ağzıbir adam kimi tanıyırdı.

Ağzıbir (Çəmbərək) - eyni fikirli - Öy sahibi gələnnərin ağzıbir olduğunu öyrəndi (Bədəlova,2023). Bu frazeolloji vahid dilimizdə ağzıbir etmək (eləmək) formasında şivələrdəki mənada işlənir (Orucov, 1976).

Biryollux (z.) – bir dəfəlik, həmişəlik. –Bu işi biryollux qutar gessin (Bayramov və Bayramova, 2020). Qeyd edilən frazeoloji vahid ədəbi dilimizdə “biryolluq eləmək” şəklində işlənir (Orucov, 1976).

Bir xorum otu yanmaz – bivec olmaq. -Dünya yana Calal kişinin bir xorum otu yanmaz (Bayramov və Bayramova, 2020). Bu frazeoloji vahid də Qərbi Azərbaycan şivələri üçün xarakterikdir. Müasir Azərbaycan dilində işlənmir.

Xəmırımız bir yoğruluf – xasiyyətcə bir-birinə oxşamaq. Bu dayımoğlunnan mənim xamrım bir yoğruluf, xəsiyətimiz birdi (Bayramov və Bayramova, 2020). Qərbi Azərbaycan şivələrində işlənən bu frazeoloji vahid müasir Azərbaycan ədəbi dilində xəmirləri bir yoğrulub formasında işlənir (Orucov, 1978)

Bir qəvirsənniyin yaraşığı - əndamlı, lakin bivec olan insanlara deyilir. -Atdıxanın bir qəvirsənniyin yaraşığı oğlu var, əmə nə xe:ri (Bayramov və Bayramova, 2020). Qərbi Azərbaycan şivələrində qeydə alınan bu frazeoloji vahid ədəbi dilimiz üçün xarakterik deyildir.

**Say məzmunlu leksik vahidlərin köməyi ilə yaranan say komponentli frazeoloji vahidlər .**

Qərbi Azərbaycan şivələrində bir miqdar sayı müxtəlif numerativ sözlərlə işlənərək fərqli mənalar ifadə edərək müxtəlif mənalı say komponentli frazeoloji vahidlər yaradır. Bu tipli frazeoloji vahidlərin bəziləri digər dialekt və şivələrimiz, ədəbi dilimiz üçün xarakterik olsa da, bəziləri isə yalnız Qərbi Azərbaycan şivələrində işlənir.

Bir çimdix' (Çəmbərək) - bir az . Bir çimdik duzun xörəyə nə dadı çıxacax.

Müasir Azərbaycan dilində də bu frazeoloji vahid “bir çimdik toz kimi yoxa çıxmaq”variantında işlənir (Orucov 1978, Vəliyeva, 2020)

Bir qırnıx (Çəmbərək.ş Ağbaba) - bir az , bir qınnıx (Çəmbərək) - bir az ,

bir burum (Çəmbərək, Dərələyəz, Qəmərli, Zəngibasar) - dəfə, kərə (xörəyə aiddir) Əti bir burum qaynadannan sōram, bulğuru içinə töküllər,

bir burun (Çəmbərək) - bax: bir burum (Bədəlova, 2023),

bir avıc (s.) – bir avıc. –Bir avıc arpa atginən bilix'lərə, yesinnər,

Bir çətən – çoxlu. –Namazın bir çətən küfləti var, çətin dolandırır onnarı. (Bayramov və Bayramova, 2020),

Bir dınqılı (s.) – bir balaca. -Bir dınqılı uşağın danışığına bax! (Bayramov və Bayramova, 2020),

Qərbi Azərbaycan şivələrində say məzmunlu bu leksik vahidlərin köməyi ilə yaranan say komponentli frazeoloji vahidlərə müasir Azərbaycan ədəbi dilində rast gəlinmir.

**Bir sayının təkrarı ilə yaranan frazeoloji vahidlər**

Qərbi azərbaycan şivələrində say komponentli ele frazeoloji vahidlər vardır ki, bu zaman eyni say frazeoloji vahidin tərkibində təkrar olunur. S.Cəfərov bu tipli frazeoloji vahidləri birləşmə idiomların tərkibində verir (Cəfərov,1970)

Bir əli yağda, bir əli balda - ərköyün, çətinlik görmədən yaşayan adamlar haqqında deyilir. Baxışın oğlunun bir əli yağda, bir əli baldadı, ta: noxuyacax? (Bayramov və Bayramova, 2020). Qərbi Azərbaycan şivələrində təsbit etdiyimiz bu frazeoloji vahid “bir əli yağda, bir əli balda” formasında ədəbi dilimizdə işlənir.

Bir əli it əlində, bir əli dad deyir – qorxusundan yaltaqlanır. İmdi Xeyransa qalıb mə:təl, bir əli it əlindədi, bir əli dad de:r(Bayramov və Bayramova, 2020). Şivələrdə təsbit edilən bu frazeoloji vahid ədəbi dilimizdə işlənmir, yalnız şivələr üçün xarakterikdir.

**Dörd sayının iştirakı ilə**

Dördələmə (Çəmbərək) - dörd ayaqla çapma, sürətlə qaçma (ata aiddir) (Bədəlova, 2023) Dördböyrəx' (sif.) – güclü, qüvvətli. – Vəlinin dınqılı oğlu dördböyrəx' uşaxdı. (Bayramov və Bayramova, 2020).

Q.Azərbaycanın Çəmbərək və Ağbaba şivələri üçün xarakterik olan bu frazeoloji vahidlər ədəbi dilimizdə işlək deyil.

Dördayax (Vedi, Zəngibasar) - dərhal, qaçaraq Dördnala (Vedi, Zəngibasar)

Dördnala (z.) – at yerişi. – Hər at da dördnala gedəmmir ha (Bayramov və Bayramova, 2020).Vedi, Zəngibasar və Ağbaba şivələrində istifadə edilən say komponentli frazeoloji vahidlər müasir ədəbi dilimiz və canlı danışıq dili üçün xarakterikdir (Vəliyeva, 2016)

**Yeddi sayının iştirakı ilə**

Yeddi göbək saymaq - qohumbaz adamlara məxsus olan xüsusiyyət. -Məhtəf direxturu yeddi gövəx' sayıf işə qour (Bayramov və Bayramova, 2020). Ağbaba şivələri üçün xarakterik olan bu frazeoloji vahid ədəbi dilimizdə müşahidə olunmur.

**Qırx sayının iştirakı ilə yaranan**

Qırxdilli (Çəmbərək)-ikiüzlü

Qırxınçı (Çəmbərək) - xəsis (Bədəlova, 2023) Qırx inəyi sağılır - kinayə ilə özünü öyən adama deyərlər. Daha kəskin olaraq – “Elə bil qırx eşşəyi sağılır” da deyirlər. (Bayramov vəBayramova, 2020)

Qırx qazana çalası – aravuran, sözgəzdirən adamlara deyilir. -Bu Telman kin var, düz qırx qazana çalasıdı (Bayramov və Bayramova, 2020).

Qırx sayı ilə yaranmış say komponentli frazeoloji vahidlər Qərbi Azərbaycan dialekt və

şivələrində işlək olsa da, bu frazeoloji vahidlərə müasir ədəbi dilimizə aid frazeoloji lüğətlərdə təsbit edilməmişdir.

**İki müxtəlif sayın iştirakı ilə yaranan frazeoloji vahidlər.**

İki müxtəlif sayın iştirakı ilə yaranan say komponentli frazeoloji vahidlərin tərkibində bir, iki, üç, dörd, beş, doqquz sayları iştirak edir.

Üzə bir, astara iki olmaq –ikiüzlü adamlara deyilir. -Eh, ay bala, imdi nə çoxdu üzə bir, astara iki olan adamlar (Bayramov vəBayramova, 2020).Bu frazeoloji vahid müasir Azərbaycan ədəbi dili üçün işlək deyil, yalnız Qərbi Azərbaycanın Ağbaba şivələrində işlənir.

Beşdə alacağı yox, üçdə verəcəyi – bivec adam. Heç bir dərd-səri olmayan, oğul-uşaq qəhrinə qatlanmayan, arsız, yüngül həyat keçirən adamlar barəsində deyilir. Bəri gəl a bala, ona qoşulma, onun beşdə alacağı, üşdə verəcəyi yoxdu. (Bayramov və Bayramova, 2020)

Bu frazeoloji vahid müasir Azərbaycan dilində də Qərbi Azərbaycan şivələrində olduğu kimi işlənir və eyni mənanı daşıyır. (Orucov,1976) Eyni zamanda bu frazeoloji vahid ədəbi dilimizdə "dörddə alacağı yox, beşdə verəcəyi" variantında da işlənir. (Vəliyeva,2006)

Nə üşdə alacağı var, nə beşdə verəcəyi – bivec. -Bu Balaxanımın da dünya vecinə dö:l, nə üşdə alacağı var, nə də beşdə verəcəyi. Bəzi hallarda bu frazeoloji vahid Ağbaba şivələrində bu variantda da işlənir (Bayramov və Bayramova, 2020)

Doqquzu dörd eləməx′ - bir iş görməyə qərar verib bunun üstündə israr edən şəxslərə kinayə ilə deyilir -Qoy indi də k'olxozun sədri o işdəsin, bəlkə dokquzu dörd eliyə. (Bayramov vəBayramova, 2020) Qərbi Azərbaycanın Ağbaba şivələrin üçün xarakterik olan say komponentli bu frazeoloji vahid ədəbi dilimizdə müşahidə olunmur.

Ədəbi dildə olduğu kimi Qərbi Azərbaycan şivələrində də say komponentli frazeoloji vahidlər çoxluq təşkil edir. Bu frazeoloji vahidlər Azərbaycan ədəbi dilinin, eyni zamanda da dialekt və şivələrinin zənginləşməsində yaxından iştirak edir.

**Ədəbiyyat**:

Bayramov, A., Bayramova A.(2020) Azərbaycan dilinin Ağababa şivəsi. Bakı: Elm və təhsil, 571s

Bağırov, N.R. ( 2016)Somatic phrases with the component numerals in turkic languages Abstract. // Theoretical&Applied Science. Education and innovation. –Scranton, USA. 11(43), 105-110

Bədəlova, A. (2023) Qərbi Azərbaycan şivələri lüğəti. Ankara, 308s

Cəfərov, S. (1970) Müasir Azərbaycan dili (Leksika), Bakı: Maarif, 235

Xəlilov, R.Y. (1978) Saylar. Bakı: Azərnəşr, 73s.

Mirzıliyeva M. (2009) Türk dillərinin frazeologiyası,Bakı-«Nurlan», 218s

Orucov, Ə.Ə. (1976) Azərbaycanca-Rusca frazeologiya lüğəti. Bakı: Elm,247s

Vəliyeva, N. (2006) Azərbaycanca-İngiliscə-Rusca frazeoloji lüğət. Bakı, 863s

# THE ROLE OF TAHIR SALAHOV'S GRAPHICS IN ART OF PAINTING

**Mammadova Rana Sulduz**

**Azerbaijan State University of Culture and Arts**

**https://orcid.org/0000-0001-7302-2620**

**renamammadova088@gmail.com**

**Rəyçi:**

**Qafarzadə Rima Mübariz qızı,**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The name of the world-famous artist is inscribed in golden letters not only in the history of art of Azerbaijan, but also of the whole world as one of the founders of the severe style. Severe style originated in soviet and Azerbaijani art in the 1950-1960s'. The great artist created paintings and graphic works of various genres in a severe style. This thesis analyzes the graphic works of Tahir Salahov, which occupy a special place in the fine arts of Azerbaijan. The first graphic works in Azerbaijani art are found in Gobustan rock paintings, in the works of the Tabriz school miniatures masters, as well as in the graphic works of Azerbaijani artists.

Along with this, it is worth noting that the design of various works and manuscripts proves the fact that the art of Azerbaijani graphics has an ancient history.

**Key words:** graphics, Tahir Salahov, severe style, art of painting

# МЕСТО ГРАФИКИ ТАИРА САЛАХОВА В ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ

**Мамедова Рена Сулдуз**

**Азербайджанский государственный университет культуры и искусств**

**https://orcid.org/0000-0001-7302-2620**

**renamammadova088@gmail.com**

**Резюме**

Имя всемирно известного художника золотыми буквами вписано не только в истории искусства Азербайджана, но и всего мира как одного из основоположников «сурового стиля». «Суровый стиль» зародился в советском и азербайджанском искусстве в 1950-1960-х годах. Великий художник создавал картины и графические работы разного жанра в «суровом стиле».

В данном тезисе ведется анализ графических работ Таира Салахова, которые занимают особое место в азербайджанском изобразительном искусстве. Первые графические работы в искусстве Азербайджана встречаются на Гобустанских наскальных рисунках, в произведениях мастеров Тебризской школы миниатюры, а также в графических произведениях азербайджанских художников. Наряду с этим, стоит отметить что композиционный строй разных произведений и рукописей доказывает факт того, что искусство азербайджанской графики имеет древнюю историю

Ключевые слова: графика, Таир Салахов, суровый стиль, искусство живописи

**RƏSMETMƏ SƏNƏTİNDƏ TAHİR SALAHOV QRAFİKASININ YERİ**

**Məmmədova Rəna Sulduz**

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

**https://orcid.org/0000-0001-7302-2620**

**renamammadova088@gmail.com**

Dünyaşöhrətli rəssam Tahir Salahov "Sərt üslub" adlanan bədii istiqamətin əsas yaradıcılarından biri kimi öz adını Azərbaycan incəsənəti ilə yanaşı dünya incəsənəti tarixinə də qızıl hərflərlə yazmışdır. "Sərt üslub" 1950-1960-cı illərin sonlarında Sovet və Azərbaycan təsviri sənətində meydana gəlmişdir. Termin 1960-cı ildə Moskvada açılmış və böyük əks-səda yaratmış "Sovet Russiyası" sərgisindən sonra ilk dəfə tənqidçi Aleksandr Kamenski tərəfindən səsləndirilmişdir. Yeni yaranmış üslubun inkişaf tarixi Tahir Salahovla yanaşı həm də sovet rəssamları Viktor Popkov, Pavel Nikonov, Geliy Korjev, Nikolay Andronov, Aleksandr və Pyotr Solomin qardaşlarının adı ilə də bağlıdır.

Dahi rəssam təsviri sənətin rəngkarlıq və qrafika növlərində "sərt üslub"a aid müxtəlif janrlı əsərlər yaratmışdır. Təqdim edilən tezisdə Tahir Salahovun yaradıcılığında xüsusi yeri olan qrafik əsərlərin bütövlükdə Azərbaycan təsviri sənətində tutduğu mövqe təhlil edilmişdir.

Qrafika təsviri sənətin növlərindən biri olub, texniki üsulların tətbiqi ilə yaradılan sənət əsərlərini özündə ehtiva edir. Yunan dilindən tərcümədə "graphike" – rəsm, şəkil deməkdir. Kontur xətlər, cizgi, ifadəli ləkə, həmçinin rəsm çəkilən əsas materialın ağ yerliyi qrafikanın əsas bədii vasitələrini təşkil edir. İşlənmə texnikasına görə qrafika sənəti iki hissəyə ayrılır – orijinal (müəllif tərəfindən çəkilir) mahiyyətli rəsm və çap qrafikası. Onların ən qədim və ənənəvi növü ayrı-ayrı müəlliflər tərəfindən icra olunan rəsmdir. Bütünlükdə, təyinatına görə qrafika texnikaları ilə icra olunan əsərlər – dəzgah, kitab, jurnal və qəzet, tətbiqi (plakat), kompyuter və sənaye qrafikası növlərinə ayrılır.

Azərbaycanda qrafika sənətinin ilk nümunələrinə Qobustan qaya rəsmlərində, Təbriz miniatür məktəbi sənətkarlarının yaratdıqları əsərlərdə və müxtəlif dövrlərdə yaşamış rəssamların qrafik lövhələrində rast gəlinir. Bununla bərabər ayrı-ayrı əsərlərin, əlyazmaların tərtibatı Azərbaycanda qrafika sənətinin qədim tarixə malik olduğunu sübut edir.



**Ələkbər Rzaquliyev "Aşıq Ələsgər" 1971**



**Maral Rəhmanzadə "Laçın dağları"**

Tahir Salahovun yaradıcılıq illərinin başlanğıcı hesab edilən 1950-1960-cı illərdə Azərbaycan qrafika sənətində M.Rəhmanzadə, Q.Xalıqov, M.Abdullayev, Ə.Rzaquliyev, R.Babayev kimi bir çox görkəmli nümayəndələri söz sahibi idilər. Bu mənada onlar tərəfindən yaradılan əsərlər dəzgah qrafikasının geniş inkişaf etməsinə zəmin yaratmışdır.






**Tahir Salahov “Qız qalası”. 1970.** **Tahir Salahov “Hüseyn Əliyev” 1970**

Tahir Salahovun qrafik əsərlərinin digər Azərbaycan rəssamlarının müxtəlif mövzu və janrda yaratdıqları qrafik əsərlərindən başlıca fərqi işlənmə üslubu idi. Əsərlərin müqayisəli təhlilini apardıqda “sərt üslub”da yaradılan qrafik əsərlərin sanki canlı olduğu, romantik ruh daşıyıcısı təəssüratı yaratdığı duyulmaqdadır. Başqa sözlə ifadə etmək lazım gəlsə demək olar ki, “sərt üslub”da yaradılan qrafik əsərlər sovet dövrü ənənələrindən uzaq olduğu qədər, eyni zamanda Avropa incəsənətinə meyilliliyi ilə səciyyələnir. Klassik qrafika sənətinin əsaslarını təşkil edən – kontur xətləri, cizgilər, nöqtələr, kölgə və kağızın rəngindən istifadə qaydası rəssamın istedad və bacarığını, özünəməxsusluğunu nümayiş etdirir. “Kağızın səthi ilə süzülən xətlər, cizgi və ləkələr – tamaşaçının təxəyyülünü fəth etməyi bacaran rəssamın məharətlə istifadə etdiyi təsvir vasitələri demək olar ki, bunlardan ibarətdir” (Rojin. A 2008)

Yaradılan əsərlər müəllifin müstəsna bacarığı, texnika və təxəyyülü birləşdirmək məharəti, təsvir obyektlərini hiss etdiyi şəkildə təqdim etməsi nəticəsində bədii və zamansızlığa qovuşmaq haqqı qazanır. Bununla da əsər öz müəllifinin sənətkar “məni”ini tamaşaçı üçün əyaniləşdirir.

Rəngkarlıq əsərlərində olduğu kimi qrafik əsərlərində də qəhrəmanların sanki canlanması hissi yaranır. Kağız üzərində fəza və işıq həllinin vəhdəti ilə forma və məzmun dəyişikliyi qabarıq şəkildə nəzərə çarpır. Məhz bu özünəməxsusluqlar XX əsrin ortalarında Azərbaycan qrafika sənətinin Tahir Salahov yaradıcılığının birbaşa təsiri ilə fərqli inkişaf istiqamətinə keçid aldığını deməyə əsas verir. Sonda əlavə edək ki, “Tahir Salahov rəsmetməsi”nin geniş vüsət almasını ilk növbədə həmin qrafik ifadənin daha inamlı bədii tutuma malik olması şərtləndirmişdir. Bunun sayəsində Tahir Salahov qrafikası onun rəngkarlığı qədər cəlbedici və yaddaqalan, ən başlıcası isə yüksək bədii dəyər daşıyıcısı hesab olunuur.

**Ədəbiyyat:**

Kərimov K.C, Əfəndiyev R.S, Rzayev N.İ, Həbibov N.D (1992) Azərbaycan incəsənəti. Bakı: İşıq.

Gülməmmədli R (2013)  Tofiq Cavadov. İstanbul: Mega Basım Yayın AŞ,

Рожин. А.И. Таир Салахов. Графика. М- Сканрус, 2008.

http://azgallery.az/az/content/32

https://baku-media.ru/publications/lichnost/tair-salakhov-portret-ottepeli/

https://www.tg-m.ru/articles/3-2008-20/masshtab-iskusstva-i-lichnosti-tair-salakhov#

# PROJECTION OF MOTIVES THAT DRIVE HUMAN BEINGS TO IRRATIONAL BEHAVIORS WITHIN A LITERARY WORK

**Rajabova Malaka Agasaf**

**Baku Slavic University**

**https://orcid.org/0000-0002-4841-3950**

**melake_elyasova@mail.ru**

**Rəyçi:**

**Nəzərova Adilə Həsən qızı,**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

In his 1927 novella "Twenty-Four Hours in the Life of a Woman" Stefan Zweig, with his distinctive style and vivid descriptions, delves deep into the emotional world of a woman. Although the events take place over just 24 hours, this brief period profoundly alters the woman's fate. The central theme of the novella revolves around the clash between human passions, impulsive decisions, and moral values. The story highlights how the protagonist's momentary desire leads to a lifetime of guilt. Zweig explores how love, loneliness, and passion can drive people to irrational decisions. The novella also offers a subtle analysis of social norms, women's roles in society, and the complex challenges of individual conscience.

**Key words:** decision, passion, regret, confession, desire, fear.

# ПРОЕКЦИЯ МОТИВОВ, ПОБУЖДАЮЩИХ ЧЕЛОВЕКА К ИРРАЦИОНАЛЬНОМУ ПОВЕДЕНИЮ, В ХУДОЖЕСТВЕННОМ ПРОИЗВЕДЕНИИ

**Раджабова Малака Агасаф**

**Бакинский славянский университет**

**https://orcid.org/0000-0002-4841-3950**

**melake_elyasova@mail.ru**

## Резюме

В своей новелле «Двадцать четыре часа из жизни женщины» (1927) Стефан Цвейг с характерным для него стилем и яркими описаниями глубоко погружается в эмоциональный мир женщины. Несмотря на то, что события разворачиваются всего за 24 часа, этот короткий промежуток времени коренным образом изменяет судьбу героини. Центральная тема новеллы заключается в столкновении между человеческими страстями, импульсивными решениями и моральными ценностями. История подчеркивает, как мимолетное желание главной героини приводит к пожизненному чувству вины. Цвейг исследует, как любовь, одиночество и страсть могут толкнуть людей на иррациональные поступки. Новелла также предлагает тонкий анализ социальных норм, роли женщин в обществе и сложных вопросов совести.

**Ключевые слова:** решение, страсть, сожаление, признание, желание, страх.

# İNSANI İRRASİONAL DAVRANIŞLARA TƏHRİK EDƏN MOTİVLƏRİN BİR BƏDİİ ƏSƏR DAXİLİNDƏ PROYEKSİYASI

**Rəcəbova Məlakə Ağasəf**

**Bakı Slavyan Universiteti**

**https://orcid.org/0000-0002-4841-3950**

**melake_elyasova@mail.ru**

Ştefan Svayqın 1927-ci ildə qələmə aldığı "Bir qadının həyatından 24 saat" novellası insan psixologiyasının bədii ədəbiyyatda təsviri baxımından oxucuda maraq oyadır. Əsərdə bir qadının həyatının yalnız 24 saatında baş verən hadisələrə diqqət yetirilir, lakin bu hadisələr onun taleyinə və daxili dünyasına böyük təsir göstərir.

Əsər müharibədən on il əvvəl Riverdəki pansionatda istirahət edən gənc bir qızın dilindən verilir. O qeyd edir ki, aralarına çaxnaşma salan hadisə baş verənə qədər onlar xoşbəxt şəkildə istirahət edir, yeri gəldikcə zarafatlaşıb gülüşür, yeməkdən sonra isə hər kəs müxtəlif səmtlərə yönələrdi. Baş verən hadisə onlar arasında mübahisə yaratmaqla yanaşı, dedi- qodulara da səbəb oldu. Bu dedi-qoduların əsas səbəbkarları onların otelinə gələn gənc fransız oğlan ilə ona qoşulub gedən madam Anriet idi. Yazıçı gənc fransız oğlanın təsvirini verərkən sanki oxucuda baş verəcək hadisələrdən əvvəl onunla bağlı təəssürat yaratmağa çalışıb. Fransız gənc otelə gəldiyi ilk gündən öz söhbətləri və davranışları ilə insanların diqqətini cəlb etməyə nail olur. Oteldən ayrıldıqdan sonra oradakı insanların hələ də onun haqqında söhbətləri buna sübut idi. Bir gecə isə bağçadan varlı fabrikantın dəhşətli səsi eşidilir. İlk baxışda oxucuda belə bir fikir yaranır ki, Anrietin başına bədbəxt hadisə gəlib, o bu gecə getdiyi gəzintidən qayıtmayıb. Yazıçı oxucunu çox intizarda saxlamır, tapılan məktubdan məlum olur ki, o öz istəyi ilə gedib. "Camaatı qaytarın, heç nə lazım deyil! Arvadım məni atıb gedibdir" (Svayq, 2022).

Baş verən hadisə qayğısız, yeknəsəq həyat sürməyə alışmış insanları xeyli təşvişə salır. Onlar arasındakı mədəni, mehriban münasibətin qızğın deyişməyə və az qala təhqiramiz hərəkətlərə çevrilməsinə də əsas səbəb məhz bu qəribə hadisə olur. Bu fikir ayrı- seçkiliyinin də əsas səbəbi oradakı insanların həyat, yaşamaq haqqında müxtəlif fikir və düşüncələrə sahib olmaları idi. Öz həyat yoldaşını və qızlarını atıb gənc fransızla gedən qadın artıq ordakıların nəzərində öz ləyaqətini itirməyə başlayır. Lakin hər kəsi düşündürən, çaş-baş salan bir məsələ olur ki, Anriet necə tanımadığı bir adam üçün bütün həyatını məhv edib gedə bilər. Orada əyləşənlər belə qərara gəlirlər ki, onlar uzun müddət əvvəldən bir- birilərini tanıyırmış və gənc oğlanın bura gəlməsi də onların planlarının bir hissəsi imiş. Lakin əsərdə hadisələrin şahidi gənc qız "uzun illər boyu cansıxıcı ailə həyatından təngə gəlmiş qadınlar birdən- birə belə cəsarətli qərara gələ bilərlər və bu tamamilə mümkün olan bir işdir" fikrini ortaya atır. Məhz onun bu mövqeyi böyük hay-küyə səbəb olur ki, oradakı alman və italyan ailələr ilk baxışdan "vurulub- aşiq olmağı" təhqiramiz ifadələrlə lağa qoymağa başladılar. Oxucuda bu zaman belə bir hiss yaranır ki, bu italyan və fransız ərlər baş verən hadisənin öz yoldaşlarına da təsir edə biləcəyindən qorxuya düşdüklərinə görə gənc qıza qarşı daha hiddətlə çıxış edirlər. Bu zaman heç qadınları da onlardan geri qalmır. Alman qadının "həyatda təmiz qadınlar da olur, təbiətcə pozğun qadınlar da" fikri gənc qızı özündən çıxarır və gənc qız hər vəchlə Anrieti müdafiə etməyə çalışır. Onun fikrincə, "yalnız öz şəxsi istəklərimizdən doğan qorxaqlıq, təbiətimizdəki məkrlilik bizi bu aydın faktı inkar etməyə məcbur edir ki, qadınlar öz

həyatında bəzən sirli qüvvələrin təsiri altına düşərkən nə edəcəklərini, necə edəcəklərini ağıllı surətdə dərk edə bilmirlər, eləcə də bəziləri görünür, "tez aldanıb tovlanan" adamlara nisbətən özlərini daha iradəli, qüvvətli, daha ismətli və daha təmiz hesab edirlər" (Svayq, 2022). Son olaraq, o fikrini bu şəkildə tamamlayaraq bildirir ki, namuslu o qadındır ki, yoldaşını aldatmaqdansa, öz arzularını və ehtiraslarını daha qətiyyətlə yerinə yetirir. Gənc qızın bu fikirlərindən sonra qarşı tərəfin mövqeyi-çıxışı əsərin baş qəhrəmanı olan missis K. tərəfindən dayandırılır.

Əsəri oxuduqca oxucuda ilk başda ağsaçlı mötəbər ingilis qadın təəssüratı yaradan missis K.- ın başına gələn hadisələr böyük maraq yaratmağa başlayır. Əsərin baş qəhrəmanı olan missis K-nı da məhz başına gələn hadisəni illər sonra danışmağa sövq edən də məhz gənc qızın mərdliklə bir qadının müdafiəsində durması idi. Gənc qızın fikirlərini düzgün başa düşüb- düşmədiyini dəqiqləşdirmək üçün o, gənc qıza "siz belə düşünürsünüz ki, frau Anriet kimi bir qadın günahsız olaraq gözlənilməz bir macərəya uya bilər və o, bu zaman elə hərəkət edə bilər ki, bir saat bundan əvvəl bu hərəkət onun üçün ağlasığmaz imiş və buna görə də onu heç də təqsirləndirmək lazım deyil?" sualı ilə müraciət etməklə sanki fikirlərinə şərik axtarırdı. Yaşlı qadın verdiyi suallara bir-bir təsdiq cavabı aldıqca sanki ürəyində təskinlik tapır. Gənc qızın qoşulub qaçan Anrieti cəsarətli və bədbəxt adlandırması kimi ziddiyyətli fikri belə ona xoş gəlir. Cəsarətli idi, çünki öz istəyinə nail olmaq üçün bu addımı atmışdı; bədbəxt olmasına isə ağılsızlığı və tələskənliyi səbəb olacaqdı. Lakin əsla onun pozğunluqla, əxlaqsızlıqla günahlandırılmasını istəmir. Məhz bu gecəki söhbətdən sonra missis K. iyirmi ildən artıqdır onu narahat edən hadisəni kiməsə danışmağa qərar verir.

Missis K. üçün illər sonra başına gələn hadisəni danışmaq çətin idi, lakin o qərara gəlmişdi ki, baş verənləri bütün təfsilatı ilə gənc qıza danışsın. Altmış yeddi illik həyatının sadəcə iyirmi dördü saatı ərzində baş verən hadisəyə görə o ömrü boyu özünü danladığını, ömründə bir dəfə atdığı səhv addıma görə özünü bağışlaya bilmədiyini qeyd edir. İllər sonra bu qərara gəlməsinin əsas səbəblərindən biri də baş verənləri kiməsə danışmaqla onu narahat edən "vicdan yükü"ndən qurtulmaq idi. O qeyd edir ki, katolik olsa idi, çoxdan baş verənləri ruhani ataya etiraf edərdi. Oxucuda belə bir sual yarana bilər ki, nə üçün illər ərzində qarşısına çıxan heç bir insana deyil, bu gənc qıza hər şeyi etiraf etmək qərarına gəlir. Fikrimizcə, gənc qızın "şəxsən mənim qəlbimə insanları ittiham etmək deyil, müdafiə etmək yatır" kimi mülahizələri buna əsas verir. Gənc qız özünü Anrietin yerinə qoya bilməsini biz konkret olaraq empatiya adlandıra bilərik. "Svayq yazıçıların ən yetkin adamı, empatiyanın mümkünlüyünə - zəruriliyinə - inanan bir realistdir" (*Independent* 2024). O, ilk əvvəl söhbətə həyatının gözəl illəri ilə başlayaraq sanki oxucuda özü haqqında müsbət fikir formalaşdırmağa çalışır ki, sonda etdiyi bir səhvə görə günahlandırılmasın. Məhz onun həyatının anlamsız günləri də həyat yoldaşını itirməsi ilə başlamışdır. Missis K.-i özü də etiraf edir ki, yoldaşından sonra onun üçün yalqız qalmaq çox çətin idi. Məhz səyahətə çıxmasının da əsas səbəbi, öz kədəri ilə övladlarının xoşbəxtliyinə mane olmaq qorxusu olur. Monte-Karloya getməklə o, sanki illər ərzində yoldaşı ilə gəzdiyi yerləri dolaşaraq təsəlli tapmaq istəyir. Məhz bu addımı onu kazinoya aparır. O, kazinoda yoldaşının ona öyrətdiyi üsulla insanların üzlərinə deyil, əllərinə baxmaqla onların davranışlarını müəyyənləşdirməyə çalışır. Məhz o gənclə tanışlığı da buradan başlayır. Gəncin davranışları missis K.-nı necə cəlb edirsə, o, gözlərini ondan çəkə bilmir, bütün diqqətini ona yönəldir. Kazinodan bütün pullarını uduzandan sonra halı pisləşən gəncin arxasınca getməsini şüursuz bir addım olduğunu vurğulayan qadın onu da qeyd edirdi ki, onu bu addımı atmağa nəsə vadar edirdi, baş verənlər ondan asılı deyildi... İlk əvvəl ona kömək etməsini, bir gənci ölümdən xilas etməyi özünə mənəvi bir borc kimi əsaslandırsa da, bir insanın öz mənliyini düşünmədən atdığı addımların əsas səbəbi bu ola bilməzdi. Dul bir qadının iyirmi

yaşlarında olan qumar alüdəçisi bir oğlana görə ömrü boyu doğru hesab etdiyi bütün qərarlardan, həyat tərzindən vaz keçməsini yazıçı ustalıqla qələmə alaraq təsvir edir. Missis K.-nın da tanımadığı bir insana qarşı belə münasibət bəsləməsinin, "əxlaq normlarına" zidd olaraq gecəni onunla birgə keçirməsinin səbəbini Melissa Beck öz məqaləsində belə izah edir: "Svayq bizə göstərir ki, o, insan duyğularının incə müşahidəçisidir: sevgi, tənhalıq, ehtiras və cinsi istək bizi ağlımızı itirməyə və xarakterimizdən tamamilə kənar olan ağılsız şeylər etməyə vadar edə bilər" (Beck, 2016). O gecənin səhəri missis K. düşdüyü vəziyyəti dərk etsə də, heç nəyi ayırd edə bilmir, bundan sonra hansı addımı atmalı olduğunu belə bilmirdi. Bircə onu bilir ki, həyat yoldaşının vəfatından sonra ilk dəfə hansısa bir öhdəliyi varmış. O özlüyündə atdığı addımları və verdiyi qərarları sadəcə bir insanın həyatını xilas etmək üçün etdiyini düşünsə də, əslində həm də o bütün bunları sanki özünün tənhalığına son qoymaq, yenidən həyata tutunmaq üçün edir. Yaşamaq arzusu, kiməsə lazım olmaq hissi onun həyat eşqini yenidən dirçəldir. Onun qəlbində Riverdə hər kəsdən uzaq yaşamaq arzusu baş qaldırmağa başlayır. Qumar oynamaq hərisi olan bir insanla gələcəklə bağlı xəyallar qurmağın mənasız oluğunu o hələ də dərk etmirdi. Onu xilas etmək üçün kilsəyə and içməyə aparanda belə, hələ də gələcək üçün ümidlərindən vaz keçmir. Son görüşü düşündükcə onu yenidən yalnızlıq, kimsəsizlik hissi bürüyür. O an qərara gəlir ki, onu buraxmayacaq, bir an içində bu arzu qəti qərara çevrildi. Vağzalda isə onu görməyəndən sonra belə qərara gəlir ki, onunla keçirdiyi anları geri qaytarsın və qarşısıalınmaz bir qüvvə onu yenidən qumarxanaya aparır. Hələ də içində bitib-tükənməyən arzuları həmin gənci yenidən qumarxanada görənə qədər davam edirdi. Bu son görüş onun bütün ümidlərinin boşa çıxması idi... Bütün pisliklərdən, ölümdən qurtarmağa çalışdığı adam yenidən ən başa- əvvəli vəziyyətinə qayıtmış və missis K.-nı ona bədbəxtlik gətirməsinə görə günahlandırmaqdan belə çəkinmir. Bu artıq onun üçün son olur. Baş verənlərdən sonra missiz K. öz ölkəsinə qayıtdığını və sonradan yad bir fransız şəhərciyinə yollandığını vurğulayır. Baş verənlər onun arzularını əks istiqamətə- ölməyə yönəldirdi. Sonda o qeyd edir ki, uzun müddət sonra o gəncin intihar xəbərini almaq sanki onu sevindirir. Çünki o daha keçmişindən, onunla bir daha qarşılaşmaq hissindən qorxmur. ""Bir qadının həyatından dörd saat" əsərində madam Anriete və missis K. kimi qəfil implusla (ehtirasla) davranışların geniş və həyat dəyişdirən nəticələrə səbəb ola biləcəyi problemi ortaya qoyulur. 1900-cü illərin əvvəllərində bir qadın üçün bu xüsusilə belə idi: öz şərəf və ləyaqətini itirmək məsələsi risk altına düşür. Bu qısa hekayədə Svayq obsesiyanı (Təhtəlşüurumuzda tutulması lazım olan və cəmiyyətin müşahidə etməsini istəmədiyimiz xüsusiyyətlərimizi, sanki bizə aid olmayan ayrı bir yerdə gizlətməyə yarayan müdafiə mexanizminə obsessiya deyirik. https://www.cemilerahimli.com/obsessiya-n%C9%99dir ), məcburiyyəti və ürəyinin səsini dinləməyi təsvir edərək, inanılmaz dərəcədə güclü bir oxu təcrübəsi təqdim edir" (Kimbofo, 2012).

Sonda belə bir nəticəyə gəlirik ki, bəzən ehtirasımız bizi belə ağlagəlməz addımlar atmağa sövq edir ki, bu addımların gələcəyimiz üçün yaradacağı çətinlikləri dərk etmirik və ya dərk edəndə artıq gec olur. Ştefan Svayq bu əsərində bir qadının həyatının sadəcə iyirmi dörd saatında yaşadığı bədbəxtlikləri qələmə almaqla, oxucuya onu çatdırmaq istəyir ki, bəzən bir səhv addım qərarı ömür boyu bizi izləyir, vicdan yükü ilə bizi incidir. Sonda isə bütün baş verənləri anlayanda peşmançılıq hissindən qurtulmaq mümkün olmur.

**Ədəbiyyat:**

Svayq, Ş. (2022). Bir qadının həyatından 24 saat. Bakı: “Qanun” nəşriyyatı

Beck, M. (2016). Review: Twenty-Four Hours in the Life of a Woman by Stefan Zweig. https://thebookbindersdaughter.com/2016/11/20/review-twenty-four-hours-in-the-life-of-a-woman-by-stefan-zweig/

Kimbofo. (2012). Twenty-four Hours in the Life of a Woman’ by Stefan Zweig. https://readingmattersblog.com/2012/02/24/twenty-four-hours-in-the-life-of-a-woman-by-stefan-zweig/

*Independent.* (2024) Twenty-four Hours in the Life of a Woman.

https://www.neuegalerie.org/shop/collections/fiction-1/products/twenty-four-hours-in-the-life-of-a-woman

## TAR PLAYING WITHOUT A MIZRAB (PLECTRUM) IN THE PERFORMANCE PRACTICE OF SHAHRIYAR IMANOV

**Sadigov Kanan Gazanfar**

**Azerbaijan National Conservatory**

**https://orcid.org/0009-0002-9887-9756**

**kanan.sadiqov3@gmail.com**

**Rəyçi:**

**Qafarzadə Rima Mübariz qızı,**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The unique performance style of Azerbaijani tar has been shaped by the traditions of folk music. In the 20th century, it was gradually reconciled with the Western music tradition. On the other hand, the diversification of modern trends in tar performance has significantly developed the repertoire of this art. New principles have appeared in the work of performers. In addition, the practice of tar playing has seen the emergence of new methods of performance. The works of contemporary performer Shakhriyar Imanov are particularly interesting in this respect. He uses the technique of playing the tar without a mizrab (plectrum). In traditional tar playing, only the fingers of the left hand are typically used technique without a mizrab. At this point, the fingerboard is struck with such force that the sounds are produced not by plucking the string, but by tapping the fingers. This technique is defined as "barmaq döymə" (finger tapping). It should be noted that a number of traditional tar playing techniques do not have a notation system. Recently, a number of musical instruments (e.g. baglama, guitar, dombra, dutar) have used the same technique with the fingers of both hands. The study of this finger technique in the context of tar performance, the determination of the note-sign system, and the involvement of notation is the main aim of our research. For this reason, Shakhriyar Imanov's composition "Lake" is analyzed. The finger tapping technique is similar to the "shelpe" (or "parmak vurma") technique that is typical of the baglama (Turkish saz) instrument. Therefore, researches on the "shelpe" technique are used as a source. An examination of the notation system of this method provides some insight into its application to traditional techniques of tar playing. The wider application of this finger technique, and suggestions for future researches are presented in the results section.

**Key words:** the modern performance of the tar, playing technique without a plectrum, shelpe technique.

# ИГРА НА ТАРЕ БЕЗ МИЗРАБА (ПЛЕКТРА) В ИСПОЛНИТЕЛЬСКОЙ ПРАКТИКЕ ШАХРИЯРА ИМАНОВА

**Садыгов Кянан Газанфар**

**Азербайджанская национальная кщнсерватория**

**https://orcid.org/0009-0002-9887-9756**

**kanan.sadiqov3@gmail.com**

**Резюме**

Уникальный стиль исполнения азербайджанского тара сформировался под влиянием традиций народной музыки, а в XX веке органично интегрировался с западной музыкальной традицией. Диверсификация современных тенденций в исполнении тара значительно расширила репертуар этого искусства. В работе исполнителей появились новые принципы. Кроме того, в практике игры на таре появились новые техники исполнения. В этом отношении особый интерес представляет творчество современного исполнителя Шахрияра Иманова. Он использует технику игры на таре без мизраба. При традиционной игре на таре обычно без плектра играют пальцы левой руки. В этот момент по грифу ударяют с такой силой, что звуки издаются не щипком, а при постукивании струн пальцами. Эта техника исполнения определяется как «barmaq döymə» (постукивание пальцем). Следует отметить, что ряд традиционных приемов игры на таре не имеют нотно-знаковой системы обозначений. В последнее время в ряде музыкальных инструментов (например, баглама, гитара, домбыра, дутар) одна и та же техника игры применяется для обеих рук. Изучение этой исполнительской техники в контексте игры на тара, определение нотно-знаковой системы и привлечение способов нотации являются основной целью нашего исследования. По этой причине анализируется композиция Шахрияра Иманова «Lake» (Озеро). Данная техника схожа с техникой «шельпе» (или «пармак вурма»), характерной для инструмента баглама (турецкого саза). Поэтому в качестве источника использованы исследования, посвященные технике «шельпе». Изучение системы обозначений этой техники дает некоторое представление о его применении в традиционных методах игры на таре. Более широкое применение этой техники и предложения по дальнейшим исследованиям представлены в разделе результатов.

**Ключевые слова:** современное исполнительство на таре, способ исполнения без плектра, техника шельпе.

# TARZƏN ŞƏHRİYAR İMANOVUN İFAÇILIQ TƏCRÜBƏSİNDƏ MİZRABSIZ ÇALĞI ÜSULUNUN TƏTBİQİ

**Sadıqov Kənan Qəzənfər**

**Azərbaycan Milli Konservatoriyası**

https://orcid.org/0009-0002-9887-9756

kanan.sadiqov3@gmail.com

Azərbaycan tar ifaçılıq sənəti dünya musiqi səhnəsində xüsusi yerə sahibdir. Bu sənətin həm klassik, həm də müasir nümayəndələri özünəməxsus ifa üslubları ilə daim maraq cəlb etmişlər. O cümlədən simli-dartımlı musiqi alətləri içərisində tar öz spesifik mizrab və barmaq texnikalarına görə seçilməkdədir. Bu səbəblə də tarın çalğı texnikalarının öyrənilməsi, onun ifaçılarının ifa-üslub xüsusiyyətlərinin araşdırılması problemləri tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Tar ifaçılıq sənətinin tükənməz və daim özünü yeniləyən imkanları bu gün də öz aktuallığını qorumaqdadır.

Məlumdur ki, tar təsnifatına görə mizrablı alətlər qrupuna daxildir. Bununla yanaşı mizrabsız ifa olunan musiqi alətləri ilə də bənzər çalğı texnikalarına sahibdir. Bunlar əsasən sol əl barmaq texnikaları və müəyyən qədər sağ əl davranışları ilə uyğunlaşır. Bir sıra simli-dartımlı musiqi alətlərində (məs. bağlama, dombra, gitar, tənbur, dütar, banjo) mizrabsız çalğı metodundan istifadə olunur. Mizrabsız çalğı dedikdə, alətin mizrab əvəzinə sağ əl barmaqları vasitəsilə icrası nəzərdə tutulur. Bu da alətlərin ifa xüsusiyyətlərindən asılı olaraq müxtəlif şəkildə özünü göstərə bilir. Misal olaraq bağlamada "şelpe tekniği", "parmak vurma", gitarda "fingerstyle", "two-hand tapping", dombrada "шертпе", "төкпе" kimi çalğı texnikaları ilə rastlaşırıq. Bəzən isə sağ əl barmaqları alətin qoluna (barmaq lövhəsinə) vurularaq səslər əldə edilir. Bu zaman səslər simin dartılması ilə deyil, pərdələr üzərinə güclü barmaq zərbələrinin endirilməsi ilə alınır. Müasir ifaçılıqda gitar və bağlamada həmin çalğı metodu geniş tətbiq olunur. Bu isə adi ifa üsulundan fərqlənir və barmaqla çalğının digər metodu kimi özünü göstərir. Gitarda "two-hand tapping" texnikası kimi XX əsrdən etibarən populyar musiqinin təsiri ilə formalaşmağa başlayır (URL-2). Bağlamada isə Anadolu coğrafiyasına xas xalq musiqi ənənələrinin icrasında öz əksini tapır və XX əsrin sonlarına doğru diqqət mərkəzinə çevrilir. Qeyd etmək lazımdır ki, həmin çalğı metodu funksiyasına görə oxşarlıq təşkil etsə də, hər bir alətdə istifadə olunduğu janr-üslub çərçivəsi müxtəlifdir. Görkəmli bağlama ifaçıları Arif Sağ, Hasret Gültekin, Erol Parlak, Erdal Erzincan 1990-cı illərdə təzənəsiz (barmaqla) ifaçılıq ilə bağlı biliklərini və fərdi yaradıcılıqlarını birləşdirərək bu alətin daha təsirli ifadə imkanlarının üzə çıxarılmasına səbəb oldular. Xüsusən də Hasret Gültekin həmin texnikaya dair melodiya və çalğı özəlliklərindən istifadə edərək nümunələr təqdim edir. Türkiyənin Teke bölgəsinə məxsus melodik quruluşları, "parmak vurma" texnikasını, Ələvi-Bektaşi ənənələrinin icra özəlliklərini və uyğunlaşdırmağa çalışdığı "yeni" ifa hərəkətlərini sintez edərək fərqli çalğı metodu ortaya çıxarır (Çalışkan, 2018).

Bağlama çalğı üslubuna görə həm təzənə ilə, həm də əl ilə ifa oluna bilir. Bağlamanın çalğı üslubu ilə Azərbaycan saz ifaçılıq ənənələri arasında qohumluq əlaqələri özünü göstərir. Nəzərə alsaq ki, Azərbaycan saz və tar ifaçılığı ortaq barmaq və mizrab (təzənə) texnikalarına sahibdir. Bu da müəyyən mənada bağlamanı (gitara nisbətlə) tar çalğısı ilə yaxınlaşdırır. Bu səbəblə mizrabsız (əl ilə) çalğı metodunun tar ifaçılığı kontekstində öyrənilməsində bağlamaya dair aparılmış tədqiqatlara istinad edirik.

Günümüzdə bağlamada ən aktual ifa metodlarından biri də əl ilə (təzənəsiz) çalğıdır. Bu çalğı metodu elmi mənbələrdə "parmak vurma", "parmak dövme", "pençe", "şelpe" adları ilə qeyd olunur. Həmin üsulun öyrənilməsi ilə bağlı bir çox araşdırma aparılmış, tarixi təşəkkül prosesi, terminologiyası, not-işarə sisteminə və ifaçılığına dair metodik vəsaitlər tərtib olunmuşdur. Bağlamada "şelpe" texnikasına dair ilk metodik vəsait 2001-ci ildə Erol Parlak tərəfindən tərtib edilmişdir (Çanakçı ve Mak, 2023). Bu günə qədər davam edən araşdırmalarda bir çox tədqiqatçı tərəfindən "şelpe" texnikası inkişaf etdirilmişdir. Əlyazmalar və elektronik resurslar içərisində 26 elmi tədqiqat işinə rast gəlinir. Bunlar 9 dissertasiya işi, 5 məqalə, 3 tezis, 5 kitab, 4 kitab bölməsindən ibarətdir (Dönmez, 2022). Biz isə yazımızda son illərdə Sinan Ayyıldız, Sinan Haşhaş və Erkan Çanakçı tərəfindən aparılmış araşdırmaların nəticələrinə istinad edirik. Həmin tədqiqatçılar özündən əvvəlki mənbələrə əsaslanaraq bu metoda dair fikirləri inkişaf etdirmişlər.

Bu mənada Sinan Ayyıldızın ifaçılıq fəaliyyəti və araşdırmaları xüsusi maraq doğurur. Belə ki, bağlamada "şelpe" texnikası ilə "Qafqazı", "Qaytağı", "Kolxoz", "Basqalı" Azərbaycan rəqsləri, "Ay Laçın", "Aman ovçu", "Naz barı" xalq mahnılarının ifası diqqəti cəlb edir. Həmin nümunələrin "şelpe" texnikasına məxsus not-işarə sistemi ilə transkripsiyaları Sinan Ayyıldızın tədqiqatlarında öz əksini tapır (Ayyıldız, 2018). Bununla yanaşı, Sinan Ayyıldız, bir ifaçı kimi adı çəkilən rəqs və mahnıların məşhur icraçısıdır (URL-3). O cümlədən bağlama alətinin konstruksiyasında müəyyən dəyişiklik edərək "şelpe" texnikasını daha da təkmilləşdirmişdir.

Tar ifaçılığı bir sıra mizrab və sol əl barmaq üsullarına görə bağlama aləti ilə yaxınlıq təşkil edir. Tarın ənənəvi ifaçılığında barmaq ilə (mizrabsız) ifa yalnız sol əl üçün səciyyəvidir. Bu çalğı texnikası ənguştkari adlanır. Bu zaman sol əlin şəhadət, orta və üzük barmaqları ilə simlər dartılır və pərdələr üzərində gəzişmə edilir. Fars dilində "ənguşt" sözü barmaq, "kar" isə iş mənasını ifadə edir. "Ənguştkari" dedikdə simi barmaq üsulu ilə (mizrabsız) ifa etməyi bildirir (Nəcəfzadə, 2019). O cümlədən dartma sim, cırmaq, dəstkari kimi ənənəvi çalğı metodları da barmaqla ifanı təyin edir. Bununla yanaşı barmaq üsulunda gəzişmə zamanı sol əl barmağı ilə pərdəyə elə qüvvə ilə vurulur ki, səslər cırmaq, dartma sim texnikalarının hesabına deyil, barmaq zərbələrinin hesabına yaranır. Bu çalğı metodu "barmaq döymə", "barmaq vurma" kimi də təyin edilir və mizrabsız ifa olunur. Bağlama alətində nəzər yetirdiyimiz "şelpe" texnikası məhz bu ifa üsulu ilə uyğunlaşır. Fərqli cəhəti isə burada hər iki əl ilə barmaq vurma üsulunun tətbiq edilməsidir. Barmaq döymə texnikasından sağ əl barmaqlarında da istifadə edilməsi ənənəvi tar ifaçılığı üçün səciyyəvi deyil. Lakin çağdaş musiqi təcrübələrinin təsiri ilə tarda da müəyyən ifaçılıq eksperimentləri həyata keçirilir. Bu mənada müasir tarzən Şəhriyar İmanov, tar ifaçılığında əl ilə (mizrabsız) çalğı texnikasından xüsusi məharətlə istifadə edir (URL-4).

Qeyd etdiyimiz kimi mizrabsız çalğı tarın sol əl barmaq texnikasında tətbiq olunur. Lakin həmin ənənəvi ifaçılıq üsullarının müəyyən not-işarə sistemi mövcud deyil. Bu səbəblə də mizrabsız çalğıya dair işarələmə metodunun öyrənilməsi ənənəvi texnikalara da tətbiqi baxımından fikir yarada bilər. Bir sıra alətlərin notasiyasında rəqəmlərdən (1,2,3,4) və ya "PİMA" işarələməsindən istifadə olunur. Banjo, dütar, gitarın not-işarə sisteminə dair araşdırmalarda bunu müşahidə edə bilərik (During, 2001; Turner, 1900). Eləcə də Arif Sağ və Erdal Erzincan bağlamanın "şelpe" texnikasına dair tədqiqatlarında da "PİMA" işarələməsinə müraciət edirlər (Çanakçı ve Mak, 2023).

Tarda mizrabsız çalğının öyrənilməsi üçün bir sıra yeni not-işarə sistemi ilə tanış olmaq lazım gəlir. İlk növbədə sağ əl pozisiyası barmaq lövhəsinə (tarın qoluna) yaxın gətirilir və müvafiq

| Aplikatura | sol əl | sağ əl |
|---|---|---|
| baş barmaq | — | P (pulgar) |
| işarə barmağı | 1 | İ (indice) |
| orta barmaq | 2 | M (medio) |
| üzük barmağı | 3 | A (anular) |
| sərçə barmaq | 4 | — |

| Sim qrupunu təyin edən simvol | |
|---|---|
| ağ sim | ① |
| sarı sim | ② |
| kök sim | ③ |
| bəm və zəng simlər | ④ |

barmaq işarələri təyin olunur:

Əsas olaraq iki artikulyasiyadan istifadə olunur:

- ∨ — sol və ya sağ əl barmaqları ilə barmaq döymə texnikası. Yuxarısında qeyd olunan aplikaturaya əsasən müvafiq pərdələrə barmaq üsulu ilə vurulur.
- ∧ — sol və ya sağ əl barmaqları ilə teli çəkmə/dartma texnikası. Yuxarısında qeyd olunan aplikaturaya əsasən tel dartılır, aşağısında qeyd olunan barmaq isə səslənəcək notun aplikaturasını təyin edir.




**Nümunə 1.** Mizrabsız çalğı texnikası (barmaq döymə üsulu ilə).

“Lake” kompozisiyası (müəllif: Şəhriyar İmanov)

Qeyd edək ki, kompozisiyanın notlaşdırılması və müvafiq not-işarə sistemi ilə tərtibi ilk dəfə bu tədqiqatda yer alır (Nümunə 1). Not nümunəsində hər bir not üzərində üç sıra işarələmə göstərilmişdir. Birinci sıra, artikulyasiyanı təyin edir ki, burada barmaqla döymə və ya telin çəkilməsi müəyyən olunur. İkinci sıra, sağ və sol əl aplikaturasını işarə edir. Üçüncü sıra isə ifa olunacaq sim qrupunu təyin edir. Əgər ifa eyni sim qrupunda davam edirsə, bu zaman təkrarı bildirən “–” simvolu ilə işarələnir.

Bəhs edilən artikulyasiya və aplikatura tərtibatı “Lake” kompozisiyası ilə məhdudlaşır. Barmaq üsulundan yalnız kompozisiyanın orta hissəsində istifadə olunur. Ümumi olaraq üslubuna görə

müasir musiqi tərzləri ilə yaxınlıq təşkil edir. Müəyyən mənada bağlama və gitar ifaçılığına xas ifa üslubu sintez edilir. Tar ifaçılığında bu metodun tətbiqi yeni ifadə imkanlarının üzə çıxarılmasına şərait yaradır. Digər tərəfdən tarın spesifik çalğı priyomlarının tətbiqi ilə notasiya daha da zənginləşdirilə bilər. Bu mənada mizrab texnikalarının (qoşa, döymə, santur, çahar, əlif, çırtıq, zəngi-şötər, kürzi və b.) sağ əl barmaqları sınaqdan keçirilməsi və həmin ifa metoduna adaptasiyası xüsusi maraq doğurur. Misal olaraq santur mizrab texnikasının ifa şəklinin barmaq üsulunda mümkün tətbiq variantlarına nəzər yetirək:




**Nümunə 2.** Santur mizrab texnikası və barmaq üsulu ilə ifaya uyğunlaşdırılmış şəkilləri.

Bunlardan hansının daha səmərəli olması isə seçilmiş musiqi parçasının aplikatura quruluşu ilə müəyyənləşə bilər. Əlbəttə ki, barmaq üsulu ilə çalğı heç bir halda mizrab texnikalarını əvəz edə bilməz. Lakin bu çalğı metodunun özünəməxsus ifa üslubu və səslənmə xüsusiyyətlərindən istifadə edərək yeni kompozisiya ideyaları meydana gələ bilər. Bağlama alətində müşahidə etdiyimiz Azərbaycan rəqsləri və xalq mahnılarının barmaq döymə üsulu ilə ifası buna nümunə ola bilər.

Araşdırmamız tar ifaçılığı kontekstində mizrabsız çalğının (barmaq döymə metodunun) öyrənilməsi, “Lake” kompozisiyasında istifadə şəkli, not-işarə sisteminin müəyyənləşməsi, notasiyada tətbiqi məsələləri və həmin çalğı metoduna ilk baxışı əhatə edir. Təklif edərdik ki, növbəti araşdırmalarda tar alətinə xas ifa texnikalarının barmaq üsulunda sınaqdan keçirilməsi, səmərəliliyin artırılması üçün müəyyən məşğələlərin tərtib edilməsi, müxtəlif rəqs və havaların bu üsula cəlb edilməsi ilə üz göstərən problemlərin işıqlandırılması, tarın orqonoloji xüsusiyyətlərinə həmin çalğı metodu çərçivəsində nəzər yetirilməsi məsələləri öz əksini tapa bilər. Ümid edirik ki, tədqiqatımız barmaq üsulu ilə çalğı metodunun növbəti araşdırmalarında və yeni kompozisiya yanaşmalarının yaranmasında faydalı olacaqdır.

**Ədəbiyyat:**

Ayyıldız, S. (2018). Methods for creating melodic patterns using parmak vurma technique in saz (bağlama) performance. Ph.D Thesis, İstanbul Technical University, Institute of Social Sciences, 431 p.

Çalışkan, F. (2018). 1980’lerden günümüze performans pratiğinin dönüşümü ve etkileri: bağlama çalgısında el ile (tezenesiz) çalma tekniği. Portre Akademik Müzik ve Dans Araştırmaları Dergisi, 17, s 7-29.

Çanakçı, E. ve Mak, M. (2023). Bağlamada tel ayırma tekniği. Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi, 106, 1-25.

Dönmez, E. C. (2022). Şelpe tekniğine yönelik yapılan çalışmaların incelenmesi: sistematik derleme. Adıyaman Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 41, 341-372.

Haşhaş, S., Yeşilyurt, R. ve İmik, Ü. (2021). Bağlama öğretimi/öğreniminde parmak baskılarını

göstermeye yönelik bir işaretlendirme yöntemi önerisi. İnönü Üniversitesi Kültür ve Sanat Dergisi, Cilt:7, Sayı:1, s 33-62.

During, J. (2001). Hand Made. Pour une anthropologie du geste musical. Cahiers d'ethnomusicologie, 14, 39-60.

Nəcəfzadə, A. İ. (2019). Ud çalğı aləti Azərbaycan qaynaqlarında. Tədqiqat və lüğət, 160 s.

Turner, J. A. (1900). Ellis's thorough School for the five stringed Banjo. Tutor Book, 92 p.

**Saytoqrafiya:**

URL-1: https://www.guitarworld.com/acoustic-nation/acoustic-nation-sarah-command-teaches-percussive-acoustic-techniques-andy-mckees-drifting

URL-2: https://www.guitarworld.com/lessons/how-to-two-hand-tap-like-eddie-van-halen

URL-3: Sinan Ayyıldız - "Aman ovçu" https://www.youtube.com/watch?v=HnwoeDHWZ-U

URL-4: Şəhriyar İmanov - "Lake" https://www.youtube.com/watch?v=iRt30SnquWg

# TYPOLOGY OF TİME AND SPACE İN TWENTİETH-CENTURY ENLİGHTENED REALİST PROSE

**Aliyeva Telli Aladdin**

**Institute of Literature named after Nizami Ganjavi**

**https://orcid.org/0000-0003-2107-4933**

**telli.aliyeva@lit.science.az**

**Rəyçi:**
**Muğamat Xəyalə Muqamat qızı,**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

One of the most important factors in the structure of a literary text, especially prose, is time-space. There is no other writing technique that can be linked to time and space like prose. Epic works are usually written in prose, and epicness is realized by the presentation of the event and the time-space flow in which it is experienced in the text. Classification of time and space in the prose works of enlightened realist writers operating at the beginning of the 20th century are literary-theoretical concepts that contain and direct the main elements of general content-form features. The manifestation of time and space in prose works can be categorized according to different nuances. That is, when we analyze the works, we apply the concepts of linear or unidirectional time, rhythmic, diverse time, narrow and wide time, as well as narrow and wide space, concrete and diverse, variable space, author, developer, reader time and space. we can analyze and get causes and consequences. Undoubtedly, it is possible to conduct research on the works of enlightened realists - Suleyman Sani Akhundov, Sultan Majid Ganizade, Eynali bey Sultanov, Nariman Narimanov according to the characteristics of the time and space category.

**Key words**: time, space, enlightenment, realist, prose

# ТИПОЛОГИЯ ВРЕМЕНИ И ПРОСТРАНСТВА В ПРОСВЕТИТЕЛЬСКОЙ РЕАЛИСТИЧЕСКОЙ ПРОЗЕ XX ВЕКА

**Алиева Телли Аладдин**

**Институт литературы имени Низами Гянджеви**

**https://orcid.org/0000-0003-2107-4933**

**telli.aliyeva@lit.science.az**

**Резюме**

Одним из важнейших факторов структуры художественного текста, особенно прозы, является время-пространство. Нет другой техники письма, которая могла бы быть связана со временем и пространством так, как проза. Эпические произведения обычно пишутся в прозе, а эпичность реализуется через изложение события и пространственно-временного потока, в котором оно переживается в тексте. Классификация времени и пространства в прозаических произведениях просвещенных писателей-реалистов, действовавших в начале 20 в., представляет собой литературно-теоретические концепции, содержащие и направляющие основные элементы общих содержательно-формовых особенностей. Проявление времени и пространства в прозаических произведениях можно разделить по разным нюансам. То есть, когда мы анализируем произведения, мы применяем понятия линейного или однонаправленного времени, ритмического, разнообразного времени, узкого и широкого времени, а также узкого и широкого пространства, конкретного и многообразного, переменного пространства, времени автора, разработчика, читателя. и пространство, мы можем анализировать и получать причины и следствия. Несомненно, по характеристикам категории времени и пространства можно провести исследование творчества просвещенных реалистов - Сулеймана Сани Ахундова, Султана Меджида Ганизаде, Эйнали Султанова, Наримана Нариманова.

**Ключевые слова:** время, пространство, просвещение, реалист, проза.

## XX ƏSR MAARİFÇİ REALİST NƏSRİNDƏ ZAMAN VƏ MƏKAN TİPOLOGİYASI

**Əliyeva Telli Ələddin**

**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**

**https://orcid.org/0000-0003-2107-4933**

**telli.aliyeva@lit.science.az**

### Giriş

Bədii mətninin, xüsusən də nəsrə aid olanların strukturunda ən mühüm amillərdən biri zaman-məkandır. Nəsr qədər zaman və məkanla əlaqələndirilə biləcək başqa yazı texnikası yoxdur. Nəsrlə, adətən, epik əsərlər yazılır, epiklik isə hadisənin və onun yaşandığı zaman-məkan axarının mətndə təqdimi ilə gerçəkləşir. Məkan və zaman anlayışları ədəbiyyatşünaslıq elmi ilə yanaşı digər humanitar elm sahələrinin, xüsusilə, fəlsəfə və dilçiliyin tədqiqat sahəsidir. Bu iki fəlsəfi, nəzəri kateqoriya dünya düzəni haqqında fikirləri, bilikləri, insanın bu ardıcıllıqdakı yerini və rolunu özündə ehtiva edən, bədii əsərin daxili nitqi və buradakı ifadələrin təsvir və təhlilinə əsas verən kateqoriyalardır. Bu şəkildə başa düşülsə, bu kateqoriyalar bədii mətnin təfsir yolu kimi düşünülə bilər.

Mixail Baxtinin "Romanda zaman və xronotop formaları" məqaləsi XX əsrdə bu mövzu üzərində yazılmış nümunələr içərisində dünya ədəbi-nəzəri fikrində əsas qəbul edilən nəticələri, qənaətləri özündə cəmləşdirir. *Baxmayaraq ki, mücərrəd təfəkkür zaman və məkanla ayrı-ayrı varlıqlar kimi əlaqələndirilə bilər, onları emosiyalardan və onlara bağlı olan dəyərlərdən ayrı müəyyənləşdirir, Baxtin qeyd edir ki, "canlı bədii qavrayış (bu, əlbəttə ki, düşüncəni də əhatə edir, lakin mücərrəd düşüncəni deyil) belə bölgülərə və belə seqmentləşdirməyə imkan vermir" O iddia edir ki, ədəbiyyat və incəsənətdə zaman və məkan ayrılmazdır* ( Vukanovic & Grmusa, 2009). Baxtin məqalədə fərqli ədəbi janrların müxtəlif zaman və məkan kateqoriyaları ilə əlaqəsini əsaslandırmaqla hər bir janra özünəməxsus təhkiyə, nəqletmə xarakteri verir. Zaman və məkana aid əlamətlərin bir-birinə nüfuz etməsi mətnin hansı janr qəlibində olmasından aslıdır. Baxtinin fikrincə, xronotop (zaman-məkan) məzmunun əsasını təşkil edən mənanın loqosferə (sözlərin mənalarının izahını özündə cəmləşdirən qavram) daxil olduğu yoldur. Yəni, ədəbi janrların bir insan tərəfindən dərk edilməsi onun dünyanı, baş verən hadisələri və idealoji mühiti anlamaq qabiliyyətindən asılıdır. *Ədəbi-bədii xronotopda məkan və zaman işarələri diqqətlə düşünülmüş konkret bütövə birləşdirilir. Zaman sanki qalınlaşır, ətə-cana gəlir, bədii şəkildə görünür; Eynilə, məkan yüklənir və zamanın, süjetin və tarixin hərəkətlərinə cavab verir. Kateqoriyaların eyni orbit oxunda kəsişməsi və işarələrin birləşməsi bədii xronotopu xarakterizə edir* (Бахтин, 1975).

Dmitri Sergeyeviç Lixaçova görə *epoxadan epoxaya, dünyanın dəyişkənliyinin dərk edilməsi getdikcə genişləndikcə və dərinləşdikcə, ədəbiyyatda zaman obrazlarının əhəmiyyəti daha da artır: yazıçılar "müxtəlifliyin müxtəlifliyini", hərəkət formaları, "dünyanın müvəqqəti ölçülərdə mənimsənilməsi" fikrini daha aydın və intensiv şəkildə dərk edirlər* (Лихачев, 1979). Lixaçovun ədəbiyyatşünaslığa dair tədqiqatlarında bu iki kateqoriyaya aid fikirlər aparıcıdır. Xüsusən, bədii mətndə zaman anlayışı iki şəkildə xarakterizə olunur: müəllif zamanı və faktiki zaman.

### Əsas hissə

XX əsrin əvvəllərində fəaliyyət göstərən maarifçi realist ədiblərin nəsr əsərlərində zaman və

məkan klassifikasiyası ümumi məzmun-forma xüsusiyyətlərinin əsas elementlərini ehtiva edən, yönləndirən ədəbi-nəzəri qavramlardır. Nəsr əsərlərində zaman və məkanın təzahürü müxtəlif nüanslara görə kataqorizə edilə bilər. Yəni, biz əsərləri təhlil edərkən, düzxətli və ya bir istiqamətli zaman, ritmik, şaxəli zaman, dar və geniş zaman, eləcə də, dar və geniş məkan, konkret və şaxəli, dəyişkən məkan, müəllif, təhkiyəçi, oxucu zaman və məkanı anlayışlarını tətbiq edərək təhlil aparıb səbəblər və nəticələr əldə edə bilərik. Şübhəsiz ki, maarifçi realistlərin – Süleyman Sani Axundov, Sultan Məcid Qənizadə, Eynəli bəy Sultanov, Nəriman Nərimanov əsərləri üzərində zaman və məkan kateqoriyasının xüsusiyyətlərinə uyğun tədqiqat aparmaq mümkündür.

Folklor motivlərinin, elementlərinin maarifçi realist nəsrə təsirinin hərtərəfli və dərin olduğu aşkardır. Folklorda zaman və məkan anlayışına yanaşma da spesifikdir. Məsələn epik məkanla bağlı belə bir fikir irəli sürülür: *Folklorda epik məkan iki istiqamətdə tədqiq olunur: 1. mətnüstü məlumatlar əsasında məkanın təhlili; 2. mətndaxili məlumatlar əsasında məkanın təhlili. Birinci halda mətnin özündən deyil, ondan çıxarılan məlumatlar əsasında məkanın səciyyəsi verilir. Bu zaman məkanın mətndə özünü büruzə verməyən, lakin digər mətnlərdəki informasiyalarla tutuşdurduqda bəlli olan xüsusiyyətləri ortaya çıxarılır. İkinci halda isə mətndəki məkan elementlərini təsvir etməklə məkanın səciyyəsi verilir ki, bu da epik məkanı təşkil edən elementlər, onların nağıl strukturunda oynadığı rol, daşıdığı funksiya haqqında aydın təsəvvür yaranır* (Xudaverdiyeva, 2024). Bədii məkan kontinyumunun mücərrəd, real, abstrakt kimi modellərindən biri də mifoloji məkan modelidir. Bu anlayış da folklorla bilavasitə əlaqədar yaranmışdır. Eynilə zamanın da düz, dəyişkən, obyektiv, subyektiv formaları ilə yanaşı, mifoloji zaman modeli də vardır. Qeyd etdiyimiz spesifiklik mətnlərarası əlaqədən doğur, çünki burada bir çox hallarda keçmiş, indiki və gələcək arasında əlaqə və ardıcıllığa diqqət edilmir. Bilavasitə yazılı ədəbiyyata da bu şəkildə sirayət edir. XX əsrin əvvəllərində bir çox hekayələrdə gördüyümüz kimi Süleyman Sani Axundovun "Kövkəbi-hürriyyət" hekayəsində də göstərilən utopik dünyada olan zaman və hadisələrin məkanı buna misal ola bilər. Müəllif zamanı fərqli, təhkiyəçi zamanı isə fərqlidir. Biri indiki, digəri bəhs etdiyi hekayə ilə keçmişə səyahət edir, keçmişdə yaşanmış hadisə nəql edilir. Qorxulu nağıllardakı təhkiyə içərisində təhkiyə burada olmasa da, əsəri başlayan və nəqledən fərqlidir. Hadisələrin cərəyan etdiyi məkan dəyişkən deyil, bir tayfanın yaşadığı "tərəfi-şimal" adlandırılan bölgədir, onların axtardığı azadlıq isə bölgənin şərqində yerləşir. Folklordan gələn motiv elementləri əsərdəki hadisələrə mifik rəng qatdığından məkan da bu süjetə uyğun olaraq işlənmişdir. "Kövkəbi-hürriyyətin" gizləndiyi yer şərqdəki dağın arxası, divlər məkanıdır. Məkanın utopik ifadəsi hekayənin ana xəttində açar rolu oynayır.

Sultan Məcid Qənizadənin "Məktubati-Şeyda bəy Şirvani" romanını müxtəlif poetik tələblər çərçivəsində ayrı-ayrı aspektlərdə nəzərdən keçirmişik. Romanda diqqət çəkən məqamlardan başlıcası zaman və məkan elementlərinin dəyişkən və geniş olmasıdır. Əsərin ilk hissəsi ilə ikinci hissəsi bu baxımdan bir-birindən fərqlənir. İlk hissədə təhkiyəçi müəllif olduğu üçün zaman buna uyğun olaraq müəyyənləşir. Əsərin ilk sətirləri real zamanın təsviri ilə başlayır. Əsas obraz kimi Şeyda bəyin iştirakı ilə hadisələrin ardıcıl baş verdiyi süjet xəttində bildiyimiz üzrə onun bir məktub alması, toya dəvət edilməsi, hədiyyə almaq niyyəti, maddi imkansızlıq, keçirdiyi hiss, həyəcan, təəssüf və təlatümlər, maariflə bağlı xidmətləri və s. təhkiyəçi zamanında cərəyan edir. Əsərin bu hissəsinin strukturunda Şeyda bəyin düşüncələri ifadə edilərkən retrospeksiyaya yer verilir. Zaman ardıcıl xarakter daşımır. Nəqledənin Şeyda bəyin içərisində olduğu hadisələri danışarkən sonradan onun işlədiyi kəndə gəlib ölüm xəbərini alması ilə zaman keçmişdən indiki dövrə keçid edir. Ancaq dinamik zaman anlayışına da tam uyğun gəlmir. Real zamanla baş

verənlərin zamanı arasındakı fərqi təhkiyəçinin əsərin qəhrəmanının cənazəsində iştirak etməsi ilə dərk etmək mümkündür. Davamında yenə də qəhrəmanın təhkiyə edən müəllifə məktub yazıb qoyması, əsərdə məktubun oxunması ilə zamanda geriyə dönüş başlanır. Məkan olaraq geniş mənada Şamaxı, Badkubə seçilir. Dar mənada məktəb, sinif otağı, daha çox Şeydabəyin öz otağında süjetin irəliləməsi, otağın sıxıcı və darıxdırıcı görüntüsü ilə Şeyda bəyin daxili hisslərinin paralelliyi məkan seçiminin məzmun üzərində təsir qüvvəsini artırır.

*Bədii zaman bədii mətnin bütöv quruluşuna daxil olan digər element və ünsürlərə birbaşa və dolayı yollarla təsir göstərən, onları müəyyənləşdirən, şəkilləndirən struktura malikdir. Dolayısı ilə təhkiyədə zamandan bəhs etmək, eyni dərəcədə təhkiyəçidən, zamanda baş verən hadisələrdən, zamanın gedişatına bu və ya digər dərəcədə təsir göstərən xarakterlərdən və məkandan da bəhs etmək deməkdir. Həm də tərsinə, bütün bu elementtlərin özlərinin bir mətn kontekstində yığımı mətnin zamanını təşkil edir* (Yaqubova, 2012). Qeyd edilən fikirlə romanın ikinci hissəsinin bədii mətni arasında assosiasiya qurmaq mümkündür. “Gəlinlər həmayili” hissəsi səyahətnamə xarakteri daşıdığından nəzər yetirdikdə görürük ki, burada zaman ardıcıl və davamedicidir. Geniş zaman anlayışı statik və stabil olmaqdan uzaqdır. Səyahətin başlanması ilə zamanın irəliləməsi başlayır, təhkiyəçi həm də əsərin əsas qəhrəmanı olduğu üçün müəllif müdaxiləsi olmadan müəllif zamanı ya da real zaman anlayışının təsirindən kənar süjetin davamlılığı qorunur. Bədii zaman anlayışının bu roman üzərində hakimiyyəti səthidir, çünki əsəri məzmunu da bu qəlibə tam cavab vermir. Zaman faktikdir, hadisələr təhkiyəçinin dünyasında və zamanında baş verir. Bunu əksinə məkan seçimləri əsərin məzmun elementlərində, süjetin qurulmasında aparıcıdır. Mütəmadi dəyişən məkan mətnin süjet və kompozisiyasının tələbindən irəli gəlir. Bəhs etdiyimiz digər hekayələrdə olduğu kimi burada da mücərrəd, qeyri-real, qapalı bədii məkan seçimi aparıcı deyil. Real, geniş, açıq məkanlar birbaşa adresata müəllifin çatdırmaq istədiyi məqamların qəbul edən tərəfindən əldə edilməsi üçün yol göstərir. *...Qız qələsi. Aleksandr kilsəsi Qaraca şəhər. Bibiheybət xanımı* (Qənizadə, 2006), *Göytəpə qələsi* (Qənizadə, 2006) kimi məkanların ziyarət edilərkən, təsvir olunarkən verilən məlumat ilə real məkanların bədii əsərə verdiyi informativ xüsusiyyət də müəllif məqsədinə xidmət edən amillərdəndir. Qarşıya qoyulan əsas məqsədlərdən biri də gəzilən, görülən məkanların fonunda vətən, yurd, dogma yerlərin tərifi və təqdimidir. Bir məsələni vurğulamaq da yerinə düşər ki, zaman və məkanın məzmuna, motivə, süjet xəttinə, obrazlara və bütövlükdə ifadə edilən ideyaya xidməti maarifçi realist əsərlərdə digərlərindən fərqlilik göstərir. Tənqidi realizmin tələblərinə uyğun olaraq bu istiqamətdə yazılan əsərlərdə zaman və məkan bir çox hallarda daxili qatların açılmasına, mətnaltı mənanın ifadəsinə xidmət edirsə, eyni zamanda retrospeksiya implisit və eksplisit tərzdə təzahür olunursa, maarifçi realist əsərlərdə müəllifin ifadə etdiyi məna üstüörtülü, qarşıya qoyduğu ideya, ideala gedən yol dolayı olmadığı üçün bu iki ədəbi-nəzəri kateqoriyanın əsərdə işlənmə prinsipi hər hansı ədəbi priyoma xidmət etməyə də bilər. Əlbəttə ki, istisnalar mövcuddur.

Bədii mətnin əsasını təşkil edən, təməl yaradan struktur, semantik kateqoriyalar vardır ki, onlardan retrospeksiya, prospeksiya, inteqrasiya, kontinyum və s. struktur formalaşdıran tərəfi təşkil edir. *Retrospeksiya kateqoriyasına gəlincə, onun ən tipik üsullarından biri belədir ki, oxucuya təqdim olunan hansısa hadisələrin, faktların, hərəkətlərin təsvirindən sonra müəllif həmin hadisələrə, faktlara, hərəkətlərə gətirib çıxaran səbəbləri təsvir etməyə başlayır. Məsələ burasındadır ki, mətnin sintaksisində: a) oxucunun mətni oxuduğu anda mətndə cərəyan edən hadisənin baş verdiyi indiki zaman, b) mətndə təsvir edilən hadisədən əvvəl baş vermiş hadisənin zamanını göstərən keçmiş zaman, c) mətndə təsvir edilən hadisədən sonra baş vermiş hadisənin zamanının göstərən gələcək zaman əsas kimi götürülür* (Əhmədova, 2005). Retrospeksiyanın öz

funksiyasını yerinə yetirməsində rol oynayan mətn kateqoriyalarından zaman və məkan bu işdə xüsusi yer tutur. Bu funksiyanın daşıyıcısı olan bədii mətn nümunələrinə maarifçi realist nəsrdə az rastlanmır.

Maarifçi realist əsərlər içərisində bəzi nümunələr var ki, zaman-məkan kontinyumu müxtəlif modellər üzərində qurulur. Bunların formalaşmasında müxtəlif amillər təsiredici ola bilir. Milli-məhəlli xüsusiyyətlər XX əsrin əvvəlləri nəsri üçün xarakterikdir. Bilavasitə zaman və məkan seçilərkən bu da nəzərdə saxlanılır. Milli davranış biçiminin mənfi (burada: qatı dindarlıq, xurafat, pirlərə inam) və müsbət deyə ayırd edilmədən əsərdə əks olunması, hər iki kateqoriyanı bu istiqamətdə müəyyənləşdirir. Fikrimizi Nəriman Nərimanovun “Pir” əsərindəki zaman və məkan kontinyumu ilə dəstəkləyə bilərik. “Pir”də zaman get-gəllərlə formalaşdığından düzxətli davam etmir. *Nəql olunan hekayəni təşkil edən hadisələrin ardıcıl düzümü nəqletmə prosesində qoruna da bilər, əksinə tamamilə pozula da bilər: təhkiyəçi hadisələri olduğu kimi, sırasına görə nəql edirsə, xronoloji ardıcıllıq pozulmur; hadisələri geriyə dönərək (geriyə dönmə - analepsis), və gələcəkdə baş verəcək hadisələri, gerçəkləşəcəyi vaxtdan öncə, irəliyə gedərək (irəliyə getmə - prolepsis) nəql edərsə ardıcıllıq prinsipi pozulmuş olur. Onu da qeyd edək ki, bu pozulmalar bədii mətnin özünəməxsusluğunu təmin edən vasitələrdir* (Yaqubova, 2012). Müəllifin nəql etməsi ilə yaranan təhkiyədə hadisələr bu gün başlasa da, müəyyən məqamların adresata çatdırılması üçün izahedici keçidlər edilir, keçmişə gedilir, səbəb-nəticə əlaqəsi qurularaq zamanlararası bağlantı yaradılır. Süjetdə keçmişdən bir hadisə danışılarkən xüsusi zaman dəyişimi yerində baş verir, fərqləndirmə etmədən təhkiyəçi müəllif hadisəni danışmağa başlayır. Bununlada retrospeksiyadan istifadə edir. Retrospeksiya zamanı da müəyyən etmiş olur. *Retrospeksiya mətn kateqoriyalası kimi özünün ayrıca vasitələri ilə keçmişdə baş verən konkret bir hadisənin, əhvalatın, faktın təsvirini mətnin əsas (sürəkli) hissəsinə qatmaqla onun zənginləşdirilməsi, mürəkkəbləşdirilməsi funksiyasını həyata keçirir. Bu kateqoriya vasitəsilə elə bir proses həyata keçirilir ki, onsuz baş verən hadisələrin dərki mümkün deyil* (Əhmədova, 2005). “Pir”də oxucu müəllifin təhkiyəsində ilk olaraq Allahverəni, Gülbadamı, oğlunu görür, bundan sonra onların oğlunun dünyaya gəlişi, uşaq şikəst doğulma səbəbləri, pirə inamın yaranması, pirin yaranmasına səbəb olan hadisə, Gülbadam obrazının evlənmədən əvvəlki həyatı və s. məsələlər haqqında retrospektiv keçidlər edir.

Əsərdəki “pir” bədii məkan obrazı kimi müəllifin real dünyasındakı həqiqi məkanın kiçik yansımasıdır və bu məkan bütün naqislikləri, eybəcər əməllərə xidməti, daşıdığı funksiyadan fərqli xarakteri ilə gerçəkliklərin bədii simvoludur. *Fəqət bilmirəm, Allaha rüşvət verib Allahdan rüşvət istəməyi bunlara pir öyrətmişdi, yoxsa pirə rüşvət vermək aldıqları tərbiyənin nəticəsi idi... Odur, hamı rüşvətlə yola düşüb gedirlər: biri qoyun aparır, biri quzu, biri toyuq aparır, biri xoruz...* (Nərimanov, 2004). Bədii məkan kimi pirdən başqa, hadisələr dar mənada Məşədi Allahverənin evində cərəyan edir, geniş məkan kimi “Z” və “Ə” olaraq adlandırılan iki kənd seçilmişdir. Bu iki kəndin tam ortasında yerləşən pir müqəddəslik rəmzi kimi qəbul edilir, inanılır. Konkret adların qoyulmaması müəllifin subyektiv məkan seçiminin olmamasından irəli gəlir. Müəyyən hərflərlə adlandırma edən müəllif bu məkanlarla bütövlükdə iki kəndin fonunda geniş ümumiləşdirmə aparmışdır deyə bilərik, çünki qoyulan problem lokal xarakter daşımır. Məkanın üzdəki funksiyası ilə daxili saxtalığı arasında ciddi ironiya yatır. Real dünyanın yığcam inikası olan bu pir özündə dövrün həqiqətlərini daşıyır. Yuri Lotmanın *məkan bir- biri ilə əlaqədə olan, eyni tipli obyektlərin ( hadisə, vəziyyət, funksiya, fiqur və s.) məcmusudur* (Lotman, 1998) ifadəsinin bədii mətni nə qədər dərindən əhatə etdiyini görmək mümkündür.

**Nəticə**

Son illərdə zaman və məkanla əlaqədər olaraq aparılan tədqiqatlar ədəbiyyatşünaslıqda xüsusi yer tutur. Gəlinən nəticələr, yeni konsepiyalar problemin həlli istiqamətində aparıcı rol oynayır, bu iki kateqoriyanın dərindən öyrənilməsi üçün şərait yaradır. Zaman-məkan kontinyumu bədii mətnin digər bütün elementləri ilə vəhdət təşkil edərək sistematik xarakter aldığında əsərin məzmun xüsusiyyətləri, ideyası, müəllif mövqeyi, rəyi açıq təzahür edir. Azərbaycan maarifçi realist nəsrinin XX əsrin əvvəllərində yazılan nümunələri əsasında zaman və məkan modifikasiyasını araşdırmaq bu nəsr nümunələrində mətnaltı qatda ifadə edilən fikirlərin açılmasına, struktur-semantik elementlərin fərqləndirilərək üzə çıxarılmasına imkan yaradır. Zaman-məkan kontinyumunu əhatə edən prinsiplər çərçivəsində maarifçi realist nəsr nümunələrini təhlil etmək bu istiqamətdə yeni və dolğun qənaətlər əldə olunmasına gətirib çıxarır.

**Ədəbiyyat:**


Əhmədova, T. (2005). *Bədii mətndə retrospeksiya kateqoriyasının formalaşması*. Bakı: Avtoreferat.

Xudaverdiyeva, T. (2024). *Azərbaycan nağıllarında zaman və məkan*. Naxçıvan: Dissertasiya.

Qənizadə, S.M., (2006). *Seçilmiş əsərləri*. Bakı: Avrasiya Press.

Nərimanov, N. (2004). *Seçilmiş əsərləri*. Bakı: Lider.

Vukanovic, M.B. & Grmusa, L.G. (2009). *Space and Time in Language and Literature*, England, Cambridge Scholars Publishing.

Yaqubova, M. (2012). *Müstəqillik dövrü Azərbaycan nəsrində retrospeksiya*. Bakı: Dissertasiyası.

Бахтин, М. М. (1975). *Формы времени и хронотопа в романе: Очерки по исторической поэтике.* Москва: Вопросы литературы и эстетики.

Лихачев, Д.С. (1979). *Поэтика древнерусской литературы*. Москва: Наук.

Лотман, Ю.М. (1998). *Структура художественного текста. Об искусстве*. Санкт-Петербург: Искусство – СПБ.

## ƏZİZƏ CƏFƏRZADƏNİN "QOBUSTAN ÇÖKƏKLİKLƏRİNDƏ" ROMANINDA QADININ MENTAL, EMOSİONAL, MƏNƏVİ XÜSUSİYYƏTLƏRİ

**Yusubova Aygün Azadil qızı**

**Gəncə Dövlət Universiteti**

**https://orcid.org/0009-0000-3366-3204**

**yusubovaaygun900@gmail.com**

**Rəyçi:**

**Muğamat Xəyalə Muqamat qızı,**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Xülasə**

Bu məqalənin məqsədi XX əsr Azərbaycan ədəbiyyatında bədii nəsr sahəsində geniş yol açan xalq yazıçısı əziz Cəfərzadənin təsvir etdiyi kimi, Azərbaycan xalqının tarixi yaddaşında dərin iz qoymuş hadisələr fonunda cəmiyyətdə, ictimai və sosial sahədə qadın fenomeninin mövcudluğunu nəzərdən keçirməkdir. Müəllifin tarixi romanlarında qadınların yaşadığı dövr, mürəkkəb və təlatümlü təcrübələri, ciddi qanunlar şəraitində apardıqları mübarizə bədii şəkildə əks olunur. Bir qadının mənəvi, zehni və emosional keyfiyyətləri dastançının hərtərəfli yanaşması ilə seçilir. Yazıçının "dünyada səsim var", "vətənimə qayıdış", "məni xatırla", "Bakı-1501", "Qobustan depressiyalarında", "Cəlaliyyə", "Sabir", "Elden-ela", "gülüstana qədər"," Zarrintats-Tahir"," bir səsin faciəsi"," işığa sadiq"," Rubab-Sultanim"," bəla"," Xəzərin göz yaşları"," sevgi Sultanı "roman və romanları tarix səhifələrinə baxıldı.ümumiyyətlə, bu əsərlərin hər birində hər hansı bir dövr üçün aktual ola biləcək qadın gerçəkliyi problemlərinə toxunulur.

**Açar sözlər**: qadın fenomeni, bədii əks, XX əsr, qadın personajlarının xüsusiyyətləri

# МЕНТАЛЬНЫЕ, ЭМОЦИОНАЛЬНЫЕ, ДУХОВНЫЕ ХАРАКТЕРИСТИКИ ЖЕНЩИНЫ В РОМАНЕ АЗИЗЫ ДЖАФАРЗАДЕ “В ГОБУСТАНСКИХ ВПАДИНАХ”

**Юсубова Айгун Азадиль**

**Гянджинский государственный университет**

**https://orcid.org/0009-0000-3366-3204**

**yusubovaaygun900@gmail.com**

**Резюме**

Цель данной статьи - рассмотреть существование феномена женщины в обществе, общественной и социальной сфере на фоне событий, оставивших глубокий след в исторической памяти азербайджанского народа, как это изображено народным писателем Азизой Джафарзаде, которая проложила широкий путь в области художественной прозы в азербайджанской литературе XX века. В исторических романах автора художественно отражен период, в который жили женщины, их сложные и бурные переживания, их борьба в условиях строгих законов. Духовные, умственные и эмоциональные качества женщины выделяются благодаря комплексному подходу рассказчика. Романы и повести писателя «У меня есть голос в мире», «Возвращение на родину», «Помни меня», «Баку-1501», «В депрессиях Гобустана», «Джалалия», «Сабир», «Элден-эла», «До «Гюлистана», «Зарринтац-Тахира», «Трагедия одного голоса», «Верный свету», «Рубабе-Султаним», «Беда», «Слезы Хазара», «Султан любви» заглянули на страницы истории, в целом в каждой из этих работ затронуты проблемы женской действительности, которые могут быть актуальны для любого периода.

**Ключевые слова:** женский феномен, художественная рефлексия, XX век, характеристики женских персонажей.

# MENTAL, EMOTIONAL AND SPIRITUAL CHARACTERISTICS OF A WOMAN IN AZIZA JAFARZADEH'S NOVEL “IN THE DEPRESSIONS OF GOBUSTAN”

**Yusubova Aygun Azadil**

**Ganja State University**

**https://orcid.org/0009-0000-3366-3204**

**yusubovaaygun900@gmail.com**

Aziza Jafarzadeh has a special place in the list of our talented women writers who kept the history of Azerbaijan alive in their works in the 20th century. Since her work is observed with high psychologism, in the gallery of female images of the writer from birth to death, such issues as the thoughts and thoughts of a woman, her place and position in society are covered with special sensitivity and zeal. In the work of the people's writer Aziza Jafarzadeh “In the Depressions of Gobustan”, given in the first volume of the selected works published in 2021, it is possible to see scenes of the restoration of women's trampled rights and their decisive struggle. Doctor of philological sciences, professor Vagif Sultanli, who made a foreword in the book, evaluated the writer's works from the point of view of subject and problematics and gave a high assessment. Vagif Sultanli notes in his article: “One of the most important features characterizing the historical novels of Aziza Jafarzadeh, in the lower layer of which the national-ethnic spirit is embedded, is their intellectual modernity, close contact with the problems of today.” (1, p.7) The novel “In the Depressions of Gobustan” consists of sixteen small parts called “Turaghay”, “Fugitive”, “Girl's Language”, “Religion Separated Friends”, “Wedding Without a Bride”, “Fugitive's Mother”, “Chief”, “Sister Doctor”, “News”, “Seyidali”, “Meeting”, “Massacre”, “Ali”, “Knot”, “I won't lose the clutch”, “It became clear”. In the parts of the novel “Turaghay”, “Girl's Language”, “Wedding Without a Bride”, “Runaway Mother”, “Sister Doctor”, the writer reveals the mental characteristics of a real Azerbaijani woman. In the section of the novel “Wedding Without a Bride”, although Sanam is forcefully given to Muzaffar, in the end, despite sacrificing her life, she does not reconcile with this marriage, demonstrating feminine courage (1, p.237). Researcher Mukhtar Imanov notes in his work “Psychologism in Modern Azerbaijani Prose”: “One of the important aspects of modern Azerbaijani prose that allows us to examine psychologism at the level of principle and system, rather than element, is that in prose works the tendency to reflect reality in the subjective perception of characters is strengthened.” (2, p.22). The strong character of Yagut doctor in the part “Sister Doctor” and the scene where Yagut talks to Seyidali in the episode “Seyidali” clearly reflect his feminine compassion and true citizen's position. The “Clarified” part of the novel stands out for its most impressive moments. Here, the Azerbaijani woman is seen with her deep and strong fortitude in the image of a mother.

Seyidali, as the leader of a fugitive group, died fighting for the freedom of his people and nation. But although this loss caused the mother's inner suffering, it did not knock her down, because the mother was proud that she was raising a patriotic son. Aziza Jafarzade did not create a negative female image in this novel, in those days when the people experienced severe events, the writer described only proud, strong-willed and patriotic women with all their positive qualities in the novel "In the Depressions of Gobustan”.

Russian researcher V.G.Belinsky noted in his book: “In what books are the life of mankind, the

rules of morality, the systems of philosophy, in a word, all sciences described? In novels and narratives.” (3, p. 68)

In Aziza Jafarzade's novel “In the Depressions of Gobustan”, the disclosure of women's characters through external actions and internal thoughts acts as an important indicator in the choice of the novel.

**References:**


Jafarzadeh, A. (2021) Selected works. Volume I. –Baku: Elm & tahsil, –352 p.

Imanov, M (1991) . Psychologism in modern Azerbaijani prose. –Baku: Elm, –114 p.

Grigoryevich, B. (1979) Selected articles. –Baku: Ganjlik.

Yusifli Vagif (2003). Criticism is also creativity. –Baku: Mutarjim

# DIFFERENT APPROACHES TO THE TERM DISCOURSE IN LINGUISTICS. CHARACTERISTIC FEATURES OF PUBLIC DISCOURSE

**Mustafayeva Ulviyya Anvar**

**Baku Slavic University**

**https://orcid.org/0009-0000-1112-7865**

**ulviyya1990@live.com**

**Rəyçi:**

**Eminli Böyükxanım İbrahim qızı,**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

In modern times, public media has a great role in the formation of public discourse. News and discourses spread on social networks allow individual opinions to reach a large part of society. This creates an environment in which public discourse spreads faster and more widely, and manipulations increase. Discourse is the process of discussion and conversation in various areas of society, including culture, politics, economy, and social issues. In addition to forming relationships between people, public discourse is the main tool that reveals national-moral values, norms and ideologies of society. Since discourse is more relevant in public spheres, it is most often organized around public issues, and the term discursive practice is more often used in conjunction. From this point of view, we can say that the topic is quite relevant and actual.

**Key words:** public discourse ; variation; theory

# РАЗЛИЧНЫЕ ПОДХОДЫ К ПОНИМАНИЮ ДИСКУРСА В ЛИНГВИСТИКЕ. ОСОБЕННОСТИ ОБЩЕСТВЕННОГО ДИСКУРСА

**Мустафаева Ульвия Анвар**

**Бакинский славянский университет**

**https://orcid.org/0009-0000-1112-7865**

**ulviyya1990@live.com**

**Резюме**

В наше время средства массовой информации играют большую роль в формировании общественного дискурса. Новости и дискурсы, распространяемые в социальных сетях, позволяют отдельным мнениям достичь значительной части общества. Это создает среду, в которой общественный дискурс распространяется быстрее и шире, а манипуляции увеличиваются. Дискурс — это процесс обсуждения и разговора в различных сферах жизни общества, включая культуру, политику, экономику и социальные вопросы. Помимо формирования взаимоотношений между людьми, общественный дискурс является основным инструментом, раскрывающим национально-нравственные ценности, нормы и идеологии общества. Поскольку дискурс более актуален в общественных сферах, он чаще всего организуется вокруг общественных проблем, и термин «дискурсивная практика» чаще используется в сочетании с ним. С этой точки зрения можно сказать, что тема весьма актуальна.

**Ключевые слова:** публичный дискурс; вариация; теория

# DİLÇİLİKDƏ DİSKURS ANLAYIŞINA MÜXTƏLİF CÜR YANAŞMALAR. İCTİMAİ DİSKURSUN XÜSUSİYYƏTLƏRİ

**Mustafayeva Ülviyyə Ənvər**

**Bakı Slavyan Universiteti**

**https://orcid.org/0009-0000-1112-7865**

**ulviyya1990@live.com**

XX əsrin sonları və XXI əsrin əvvəllərindən başlayaraq dilçilik sahəsində yazılmış elmi əsərlərdə diskurs termininə tez-tez rast gəlmək mümkündür. Hətta bu termin yalnız dilçilikdə araşdırılmaqla məhdudlaşmır, həmçinin fəlsəfə və psixologiyada da araşdırılmağa başlanmışdır. Bunun əsas səbəbi kütləvi informasiya vasitələrinin, müasir texnologiyaların yaranması və inkişafı, müxtəlif fənlərin fəal surətdə bir-biri ilə qarşılıqlı əlaqəsi əsasında yeni fənlərarası sahələrin meydana gəlməsi, son zamanlar dilçiliyin fəlsəfə ilə əlaqəsinin möhkəmlənməsi, nəticədə isə bu terminin fəlsəfə və psixologiya kimi elm sahələrində işlənməsidir. Diskurs bir termin olaraq elmə intibah dövründə daxil olmuşdur. Latın mənşəli "discurrese" sözündən götürülmüş diskurs sözü, "müzakirə etmək", "danışmaq" və s. mənalarda işlənmiş, yeni məna çalarları əlavə edilmiş və "ictimai təbiətə müvafiq olaraq danışmaq" mənasını qazanmışdır. İ.T.Kasavin qeyd edir ki, bu termin intibah dövründə "əsas məsələdən uzaqlaşan, yorucu monoloq", "heç bir məna verməyən uzunuzadı danışıq" mənalarında işlənmişdir. (Касавин И.Т., 2008).

Müasir dilçilikdə diskursun iki anlamı mövcuddur. Diskurs termini aşağıdakı kimi təsnif edilir:

1.Diskurs yazılı və şifahi nitqdə qeydə alınan konkret kommunikativ hadisədir və müəyyən koqnitiv tipoloji şərtlərə əsaslanan koqnitiv məkanda reallaşır. Bu, o deməkdir ki,ünsiyyət mətnyaratma və qavrama modellərinə müvafiqdir. Digər tərəfdən, diskurs müəyyən bilikləri özündə cəmləşdirən əqli fəaliyyətdir.

2. German-macar dilçilik məktəbində diskurs anlayışı aşağıdakı kimi şərh olunur. "Bir məna ətrafında müvafiq mətnlərin məcmusu"- diskursdur. Deməli, diskurs intertekstualdır(mətndaxili). Məsələyə bu cür yanaşma, müəyyən bir kommunikasiya çərçivəsində fəaliyyət göstərən müxtəlif mətnlərin kompleks şəklində qarşılıqlı əlaqəsi diskursu təyinetmə meyarı kimi səslənir və diskursun qeyd etdiyimiz növlərini yaradır. Rus dilçisi E.V.Çernyavskaya bundan belə nəticə çıxarır ki, diskurs adı altında situativ kontekstlə sosial, mədəni-tarixi, ideoloji, psixoloji faktorlarla bağlı olan mətn başa düşülür, müəllifin mətni göndərənə təsir edən kommunikativ-praqmatik və məqsədyönlü sistemi ilə mətndə ifadə olunan, müxtəlif səviyyələrə aid qaydaya salınmış dil vahidləri nəzərdə tutulur. (Чернявская. В. Е. 2006).

Diskurs nəzəriyyəsinə görə, bütün obyektlər və hərəkətlər mənalıdır. Onların mənaları spesifik tarixi sistemlər tərəfindən müəyyənləşdirilir. Diskurs dedikdə, subyektlərin və obyektlərin kimliklərini formalaşdıran mənalı təcrübələr sistemlərini nəzərdə tutulur. Bu cür yüksək abstraksiya səviyyəsində diskurslar konkret ictimai münasibətlər və təcrübələr sistemidir və özü-özlüyündə ictimaidirlər.

Diskurs XX əsrin II yarısından başlayaraq dilçilikdə ən çox araşdırılan tədqiqat obyektinə çevrilmiş və bununla bağlı çoxlu sayda tədqiqat işləri aparılmışdır. Son dövrdə təkcə bədii diskurs yox, həmçinin siyasi diskurs xüsusi diqqət mərkəzində olmuş və Azərbaycan dilçiliyində Qərb və

rus dilçiliyinin nailiyyətləri əsasında yeni tədqiqatlar aparılmış, müəyyən fikirlər irəli sürülmüşdür. Bununla belə, diskurs və mədəni freym barədə olan fikirləri elmi, nəzəri və faktik materiallarla zənginləşdirmək çox mühümdür. Tezisin mövzusunun aktuallığını şərtləndirən amillərdən biri də budur.

Beləliklə, diskurs konsepsiyası geniş ekstra-linqvistik kontekstdə götürülmüş mətn sayılır. Məsələyə bu cür yanaşma yolu ilə bu və ya digər dil vahidinin hər hansı dil mühitində müvafiq strukturla mühüm əlaqəsi aydınlaşır. M.A.K.Hallidey diskursu dörd əlamətə görə səciyyələndirir: 1) Mətnin yaradılması; 2) Mətn vasitəsilə situativ kontekstin qurulması; 3) Mətnin arxasında gizlənən potensialın yaradılması; 4) Konkret situasiya hüdudunda mədəniyyət kontekstinin qurulması. Əgər diskurs bilik formasıdırsa, deməli, ona epistomioloji-taksonomik prinsipi tətbiq etmək olar. (Halliday M.A.K.,1971).

İ.T.Kasavin buraya praktiki, nəzəri bilikləri, onların predmetə görə bölümünü, metodu, tarixi dövrü, sosial baxımdan təyin növünü və s. aid edir.

Qeyd olunan bu mülahizələr əsasında diskursun aşağıdakı növlərini qeyd edə bilərik: 1. Tarixi-iqtisadi diskurs. 2. Elmi diskurs 3. Bədii diskurs. 4. Mənəvi diskurs. 5. İctimai diskurs. İctimai diskurs termini daha geniş anlayış olub, adından göründüyü kimi istənilən ictimai mühitdə meydana çıxır.

İctimai diskurs kontekstual baxımdan müxtəlif cür ola bilər. O, cəmiyyətin müxtəlif sahələrində, o cümlədən, mədəniyyət, siyasət, iqtisadiyyat, və sosial məsələlərə dair aparılan müzakirə və danışıq prosesidir. Bu diskurs insanlar arasında münasibətləri formalaşdırmaqla yanaşı, cəmiyyətin milli-mənəvi dəyərlərini, normativlərini və ideologiyalarını üzə çıxaran əsas bir vasitədir. İctimai diskursun əsas xüsusiyyətləri aşağıdakılardır:

1. Variativlik (müxtəliflik) və tədricən inkişaf

İctimai diskurs tədricən dəyişir və fərqli tarixi dövrlərdə cəmiyyətin vəziyyəti ilə əlaqədar olaraq təkamül tapır. Məsələn, müasir dövrün ictimai diskursu texnoloji təkamül, qlobal miqyasda baş verən hadisələr və yeni sosial aktlar ilə formalaşır. Diskursun inkişafı, cəmiyyətin ehtiyaclarına və dünyagörüşünə uyğunlaşır.

2. Dil və mənanın rolu

İctimai diskurs, dilin xüsusi bir şəkildə istifadə edilməsi ilə xarakterizə olunur. Müəyyən terminlər və ifadələr, müəyyən mövzuların məzmununa uyğun olaraq müxtəlif mənalar kəsb edə bilər. Diskurs, həmçinin dilin gücünü göstərir - müəyyən sözlər və ifadələr insanların fikirlərini və ideyalarını təkmilləşdirməyə təsir edir.

3. İdeoloji təmayüllər

İctimai diskurs, ideologiyaların yayılmasına təsir edir və müxtəlif sosial, siyasi və iqtisadi güclərin öz məqsədlərinə uyğun şəkildə istifadə edə biləcəyi bir vasitədir. Bu diskurs vasitəsilə, güc sahibləri öz mövqelərini bildirmək və alternativ fikirləri kənarlaşdırmaq istəyirlər. Məsələn, siyasi diskurslarda müəyyən mövzulara fərqli yanaşmalar meydana gəlir.

4.Çoxşaxəlilik və qarşıdurmalar

İctimai diskurs müxtəlif ictimai sinifləri və sosial qruplar arasında qarşıdurmalara səbəb ola bilər. Məsələn, dini, etnik,gender və təbəqə fərqləri ictimai müzakirələrdə özünü göstərir. Diskursdakı bu qarşıdurmalar, bəzən cəmiyyətdəki ədalət məsələlərini və mövcud olan sosial bərabərsizlikləri göstərə bilir.

5. Cəmiyyətin norma və dəyərləri ilə əlaqə

İctimai diskurs, cəmiyyətin norma və dəyərlərini ifadə edir. Bu dəyərlərin zamanla dəyişməsi mümkündür, lakin onlar yenə də diskursda öz təsirini nümayiş etdirir. Məsələn, gender bərabərliyi, insan hüquqları və azadlıqlarının müzakirəsi kimi məsələlər, cəmiyyətdəki dəyərlər sistemini və sosial inkişafı göstərir.

6. Sosial media və ictimai diskurs

Müasir dövrdə ictimai diskursun formalaşmasında ictimai medianın böyük rolu vardır. Sosial şəbəkələrdə yayılan xəbərlər və diskursiyalar, fərdi fikirlərin cəmiyyətin böyük bir hissəsinə çatmasına imkan yaradır. Bu, ictimai diskursun daha sürətli və geniş formada yayıldığı, həmçinin manipulyasiyaların artdığı bir mühit formalaşdırır.

7. İdarəçilik və hakimiyyətin nümayişi

İctimai diskurs, müəyyən sosial qrupların yaxud dövlətin idarəçiliyini qorumağa çalışdığı bir vasitədir. Diskurs vasitəsilə güc sahibləri müəyyən mövzulara diqqət yönəldərək cəmiyyətin diqqətini başqa məsələlərdən yayındırmağa yaxud şəxsi mövqelərini daha da möhkəmləndirməyə səy göstərirlər.

8. Təsir və manipulyasiya

İctimai diskursun əsas xüsusiyyətlərindən biri də onun insanların fikirlərini və davranışlarını manipulyasiya etmə qabiliyyətidir. İctimai və siyasi liderlər, öz mövqelərini müdafiə etmək yaxud rəqiblərini zəiflətmək üçün ictimai diskursu formalaşdıra bilər. Diskursda istifadə edilən emosional təbliğat və rəqəmsal informasiyalar insanları müəyyən istiqamətlərə yönəldə bilər.

9. Hərtərəfli müzakirə

İctimai diskursda differensial mövqelərin bir arada olması, müxtəlif perspektivlərin və yanaşmaların qarşılaşdırılması mühümdir. Bu, demokratik cəmiyyətlərdə hərtərəfli müzakirənin əhəmiyyətini vurğulayır və müxtəlif fikirlərin eşitilməsini təmin edir.

Bütün bu deyilənlərdən belə bir nəticəyə gələ bilərik ki, diskurs kommunikasiya hadisəsidir, təbii ki, ictimai mühitsiz diskursu təsəvvür etmək qeyri mümkündür. İctimai diskurs, cəmiyyətin sosial strukturlarını, siyasi dinamikalarını və mədəniyyətini formalaşdıran vacib bir vasitədir. Onun analizi, cəmiyyətin vəziyyətini və gələcəkdəki inkişaf potensialını başa düşmək üçün əhəmiyyətli bir amildir.

**Ədəbiyyat:**

Abbasova V. (2021), Kommunikasiya və ünsiyyət anlayışları haqqında. Filologiya Məsələləri/Bakı: Elm və Təhsil, N2, 156-163.

Касавин И.Т. Текст, дискурс, контекст. Введение в социальную эпистемологию языка. М. Канон, 2008, 352-357.

Чернявская. В. Е. (2006) Дискурс власти и властъ дискурса. М. Флинта, Наука., с. 77- 78.

Halliday M.A.K., Hasan R. (1971) Linguistic Function and Literary Style: An Inquiry into the language of William Golding's "The Inheritors" Literary Style: A Symposium. Ed. Seymour Chatman, –London-New York/ Oxford University Press, –332 p.

# METAPHOR IN THE TURKISH OZAN-ASHIG POEM: THE ETHNOCULTURAL CONTEXT

**Aliyeva Gulnara Mukhtar**

**Baku Slavic University**

**https://orcid.org/0009-0005-1296-0986**

**g.aliyeva18@mail.ru**

**Rəyçi:**

**Muğamat Xəyalə Muqamat qızı,**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The study examines the role of metaphors in Turkic Ashug poetry in an ethnocultural context. Folklore vocabulary is a system related to the national language, operating in a lexicological system. The specificity of metaphors in the texts of Ashug poetry is higher than metaphors in written literature. Here, since metaphors retain their dominance over other metaphors, they can take a special position reflecting the individual style of its creator or user. Metaphors play a style-forming role in Ashug poetry. Thus, in many examples of folklore, metaphors occupy a leading position against the background of other linguistic units, and in the presented text other lexical units gather around them, creating the author's style. The use of metaphors in the composition of texts of Ashug poetry serves textual pragmatics. Metaphors are tools that create imagery and emotionality in Ashug poetry. The predominance of metaphors or metonymy in Ashug poetry is associated with the style of the author.

**Keywords:** Turkic languages, Ashug poetry, metaphors, ethnocultural context

# МЕТАФОРА В ТЮРКСКОЙ ОЗАНСКО-АШУГСКОЙ ПОЭМЕ: ЭТНОКУЛЬТУРНЫЙ КОНТЕКСТ

**Алиева Гульнара Мухтар**

**Бакинский славянский университет**

**https://orcid.org/0009-0005-1296-0986**

**g.aliyeva18@mail.ru**

**Резюме**

В исследовании рассматривается роль метафор в тюркской ашугской поэзии в этнокультурном контексте. Фольклорная лексика – это система, родственная народному языку, действующая в лексикологической системе. Специфика метафор в текстах ашугской поэзии выше, чем метафор в письменной литературе. Здесь, поскольку метафоры сохраняют свое доминирование над другими метафорами, они могут занять особое положение, отражающее индивидуальный стиль ее создателя или пользователя. Метафоры играют стильообразующую роль в ашугской поэзии. Таким образом, во многих примерах фольклора метафоры занимают ведущее положение на фоне других языковых единиц, а в представленном тексте вокруг них собираются другие лексические единицы, создающие авторский стиль. Использование метафор в композиции текстов ашугской поэзии служит текстовой прагматике. Метафоры - это инструменты, которые создают образность и эмоциональность в ашугской поэзии. Преобладание метафор или метонимии в ашугской поэзии связано со стилем автора.

**Ключевые слова**: тюркские языки, ашугская поэзия, метафоры, этнокультурный контекст

**TÜRK OZAN-AŞIQ ŞEİRİNDƏ METAFORA: ETNOMƏDƏNİ KONTEKST**

**Əliyeva Gülnarə Muxtar**

**Bakı Slavyan Universiteti**

**https://orcid.org/0009-0005-1296-0986**

**g.aliyeva18@mail.ru**

XVII yüzillik Azərbaycan və türk dünyasında aşıq ədəbiyyatının ən güclü inkişaf etdiyi bir dövrü hesab olunur. Bu dövrdə xalq aşıqları arasında ayrıca ordu aşıqları da yetişməyə başladı. Aşıq şeir dilinin müxtəlifliyi və zənginliyi bu dövrdə xüsusilə seçilir. XVII yüzillikdə türk aşıq şeirində heca vəzni ilə yanaşı, əruz vəzninə də müraciət olunur, aşıq divanları yazılır. Bu dövrdə heca vəznində yazılan qoşma və dastanla yanaşı, əruz vəznində yazılan divani, semai, qələndəri və başqa növlər də qeydə alınır, aşıqların həyatı haqqında dastanlar, rəvayətlər qoşulur.

XVI yüzillik əvvəlki dövrlərdən fərqli olaraq, şeir və dastanları ilə tanınan aşıqlarla zəngindir: Ahmetoğlu, Armutlu, Bahşî, Bahşîoğlu, Çırpanlı, Dalışman, Geda Muslu, Hayalî, Hızıroğlu, Karaoğlan, Qaraca Oğlan, Köroğlu, Kul Çulha, Kul Mehmet, Kul Pirî, Oğuz Ali, Ozan, Öksüz Dede və başqaları. Bu yüzilliyə qədər Türkiyədə aşıqlar – “ozan və ya bahşi”, saz isə “kopuz” adlanırdı.

Türk aşıq şeirinin metafizikası ilahi eşq fəlsəfəsi ilə süslənmişdir. Türk aşıqlığının metaforik düşüncəsi bütünlükdə bu fəlsəfədən boy verir.

“Yunus Əmrə ilə başlayıb, Aşıq Paşa, Said Əmrə, Əşrəfoğlu, Kaygusuz Alaattin, Pir Sultan, Abdal, Qul Himmət, Qul Hüseyn, Kazak Abdal, Seyrani, Sümmani kimi aşıqların yaradıcılığında davam edən təkkə ədəbiyyatında təsəvvüflə bağlı olan,şeirlərin cövhərini ilahi eşq düşüncəsi təşkil edir.” (Hacıyeva 2004: 120).

Aşıq Seyrani “dərya” və “qətrə” metaforalarından istifadə edir,özünü qətrə kimi bu dəryanın içində itməsini arzulayır.

*Qaldır Seyrani barmağın,*

*Vaxtıdır Haqqa durmağın.*

*Dəryaya axan ırmağın,*

*Qətrə olsam tellərinə* (Hacıyeva 2004: 121).

Təhlillər göstərir ki, türk aşıq-ozanlarının yaradıcılığında “insan” denotativ sahəsinin metaforik nominasiyası daha zəngindir. Əsasən insanın mənəvi-emosional dünyasının denotativ qrupunun nominasiyasında təzahür edir. Bu özünəməxsusluq şeirlərdə eyni formada gerçəkləşir. Birinci forma ənənəvi obrazlı vasitələrdən istifadədir. İkinci forma isə qeyri-ənənəvi təsvir və ifadə vasitələrdən istifadədir.

Aşıq şeirində insanın mənəvi-ruhsal durumu əsasən könül konsepti ilə ifadə olunur. Çıldırlı Aşıq İrfani üçün könül qutsal məkandır,Allah evidir onu yıxmaq,sındırmaq böyük günah sayılır.

*Aşiqi məşuqdan cüda qılanlar,*

*Bilməm onlar nə cəsarət edərlər.*

*Könül də Xudanın nəzərgahıdır,*

*Onu yaxmasına qeyrət edərlər* (Şamil 2016: 70).

Aşıq şeirlərində fikirlərini daha səlis, dəqiq ifadə edə bilmişdir ki, oxucu bu məcazların arasındakı "canlı, cansız" müraciətlərə diqqət vermir, aşıq fikrini yüksək poetik şəkildə ifadə etmək üçün ənənəvi metaforalar yaradır. Buradakı əlamət və keyfiyyətlər aşiqə məxsus olduğu halda, cansız əşyalar və digər canlılar üzərinə köçürülmüşdür. Əlamət və keyfiyyətin cansız əşyalar üzərinə bu cür köçürülməsi şerin məzmun və mündərəcəsini, forma gözəlliyini qat-qat artırmışdır. İstiarədə yalnız bənzədilən olur. Bənzədilən vasitəsilə əşya və ya hadisə adı çəkilmədən təsəvvürə gətirilir. Bu zaman istiarə kimi istifadə olunan obrazlar orijinal bədii tutum nümayiş etdirə bilir.

XVII-XVIII əsrlərdə divan ədəbiyyatının təsiri altına düşərək, əruz vəznindən istifadə edən ozanların sayı artır.

*Kalb bir binadır ki,bünyad-i Huda*

*Öfke ile yıkma yapması güctur* (Aşık Hicrani 1987: 145).

Öz kökləri və tarixi qaynaqları ilə çox-çox qədimlərə bağlanan Türk aşıq sənəti ibtidai düşüncədən günümüzə qədərki etnomədəni yaddaşı ifadə etmək baxımından müstəsna tarixi keyfiyyətlərlə səciyyələnir. Türk aşıq sənətinin bədii-estetik enerjisi, onun mövcudluq, irəliyə daşınma gücü bütünlükdə türk xalqının etnomədəni sisteminin ümumi məzmunundan gəlir. Əski zamanlardan bu günə qədər aşıq sənətinin gəldiyi yol öz tarixi missiyası ilə türk xalqının iç dünyasını, tarixi dönəmlərini, istək və arzularını ifadəyə köklənmiş və zamanın keşməkeşlərini təsvir və tərənnüm edərək xalqla birgə addımlamışdır. Onu da deyək ki, türk folklorşünasları, etnoqraf, musiqişünas və digər mütəxəssisləri müxtəlif müstəvilərdə Türk ozan-aşıq mədəniyyəti ilə bağlı gərəkli işlər görmüş, ciddi elmi-nəzəri mülahizələr yürütmüşlər.

XVIII əsrdə Türkiyədə ozanların əksəriyyəti epik üsluba müraciət edirlər. Bu şeirlərdə Osmanlı coğrafiyasının genişliyi, müharibələr, fəthlər böyük bir dövlətin nümayəndəsi olmanın qüruru ilə poetikləşir. Bu əsrin aparıcı ozanlarını belə sadalaya bilərik: Abdi, Agah, Agahi, Aşık Əli, Aşık Bağdadi, Aşık Derunî, Aşık Xəlil, Aşık Kamil, Aşık Nigari, Aşık Nuri,Aşık Rəvzi,Aşık Sadıq,Aşık Səid, Hocaoğlu, Hükmi, Kabasakal , Qara Həmzə, Katibi, Kıymeti, Küsadî, Levni, Maqripoğlu, Nakdi, Neşatı, Rıza Seteroğlu, Sırrı, Süleyman, Şermi, Talibi və b.

Bu dövrdə mədrəsədə təhsil alan, mədrəsəyə daxil olan, divan şeir tərzini tanıyan aşıqların sayının artdığı görünür. Bu əsrdə heca vəzni ilə oxunan şeirlərin zahiri quruluş xüsusiyyətləri ənənə hüdudlarındadır. Hər iki sahədə səkkizlik və on bir heca quruluşundan istifadə olunur.

Klassik türk aşıq şeirinin metaforik mənalar dünyasını yaradan sakral qaynaqlardan biri və ən vacibi Qurani-Kərim və Hz.Peyğəmbərimizin mübarək hədisləridir. "Orta Çağ Türk edebiyyatının büyük kısmını dini eserler oluşturduğu bize bellidir. İslam dininin geliştiği dönemlerde ortaya çıkan bu yapıtlarda genel olarak Kuran ayetlerine ve Peygemberimizin hadislerine özel yer verilmiştir" (Kulzhanova, 2012: 52)

Klassik Şərq poeziyasında bülbül,eşq fədakarlığını simvolizə edən obrazlardan biridir. Bədii ədəbiyyatda bülbül həmişə sarıdır, fikirdən dərddən saralıb, aşıq Veysəl sevgilisinin dərddən, qəmdən saralmasına baxıb zar-zar ağlayır. Bülbülün gülə çatması - aşiqin məşuqəsinin vüsalına çatmasıdır.

*Sən şöləsən, dörd yanında fanaram,*

*Bülbülünəm, gülşənindən kənaram*

(Seçmə aşıq şeirləri antologiyası, 2023: 92).

*Sən təzə qönçəsən, mən şeyda bülbül* (Xəstə Qasım, 2010: 70).

Aşıq poeziyasında xüsusi antromorfezm mövcuddur, yəni aşığın lirik emosiyası sanki təbiətə yayılır, onu lirik "mən" in duyğular ilə "alışdırır", dünyanı öz əhval-ruhiyyəsi ilə, ovqatı ilə birləşdirir. Antropomorfizm üzərində qurulmuş metaforaların çoxluğu da bu üzdəndir. Bu metaforalar əksər hallarda mürəkkəb konstruksiyalar şəklində təqdim olunur.

Obrazlı təfəkkürün məhsulu olan poetik metafora həyat gerçəkliyinin obrazlı dərki zamanı meydana çıxır. Obrazlı düşüncə sahibi olan yaradıcı sənətkar adi təfəkkür üçün tamamilə uzaq və əlaqəsiz görünən obyektlər arasında elə yeni və gözlənilməz, orijinal əlaqələr, münasibətlər tapır ki, bunların dildə yüksək ustalıqla ifadəsi poetik metaforaların yaranmasına səbəb olur. Sayılan bütün bu cəhətlər Azərbaycan klassik aşıq poeziyasının görkəmli nümayəndələrinin yaradıcılığında bütün dərinliyi və əlvanlığı ilə üzə çıxır.

Qurbaninin bir şeirində daha orijinal bir poetik metaforaya rast gəlirik:

*Laməkan şəhrində gəldim cahana,*

*Canlar əhli bir canana yetişdim.*

*Əldən ələ, qabdan qaba süzüldüm,*

*Qətrə idim, bir ümmana yetişdim* (Kazımov, 2008: 146).

Əldən ələ,qabdan qaba "süzülmək" mayelərə xas olan bir keyfiyyətdir. Ustad aşıq həyatında baş verən keşməkeşli hadisələri, ömrün axarını suyun axmağına bənzədərək adi təfəkkür üçün qeyri-adi görünən, o vaxtacan heç kimin ağlına gəlməmiş bir məcazi məna çaları kəşf edib "süzülmək" feilini insana aid etmişdir: "qabdan qaba süzüldüm – burada həm təkrar, həm də köçürmə birləşərək mükəmməl bir metafora yaratmışdır.

Bu dövrün çox tanınan aşıqlarından biri Çıldırlı Aşık Şenlikdir. O, aşığa lazım olan bütün keyfiyyətlərə malik idi, o, deyişməyi yaxşı bacarır, tapmacaların cavabını tapmaqda ustadır, improvizasiyası çox güclüdür.Türkiyədə ozan şöbəsi, Azərbaycanda aşıq məktəbi, Güney Azərbaycanda aşıq məhəlləsi adlanan məktəbin əvvəlində özünə yer tapdı. O, onlarla şagird yetişdirmişdir.

*"Huridi, qılmandı xublar gözəli,*

*Əndam güldü, yanaq xaşxaş xəzəli,*

*Qəh-qəh çəkib gülər kəklik misalı,*

*Bülbül kimi avazına nə söz var?"* (Vəliyev, 2011: 31).

Bu nümunələrdə "can evi", "eşq dağı" söz birləşməsi modelində olan ifadələrdir və poetik fikir konkretdir. Dilçilər də söz birləşmələrinin əsas xüsusiyyətlərindən bəhs edərkən birinci növbədə konkretliyi önə çəkirlər.

Aşıq şeirləri klassik aşıq poetikasının bütün səciyyəvi ənənələrini əks etdirməklə yanaşı, burada, həmçinin, sənətkar fərdiliyini də özündə əks etdirir. Aparılmış müşahidə və müqayisələr nəticəsində

aydın olmuşdur ki, Azərbaycan aşıqların xalq poeziyası ənənəsində yazıb-yaratmış və bütün fəaliyyəti boyu ənənəyə sadiq qalmışdılar. Lakin bu, heç də onların şeirlərinin orijinallığına xələl gətirməmiş, aşıqların özünəməxsusluğunu, dil-üslub xüsusiyyətlərini pozmamışdır.

**Ədəbiyyat siyahısı:**

Aşık Hicrani. (1987). *Hazırlayan Sabri Özcan San*. Ankara: Kültür Bakanlığı Yayınları, 278.

Hacıyeva, M. (2004). *Türk aşıqları.* Bakı: "Elm" nəşriyyatı, 207.

Kazımov, Q.Ş. (2008). Qurbani və poetikası. *Seçilmiş əsərləri,* III cild, 512.

Kulzhanova, B. (2012). "Kutatğu Bilig" Esas Alan Kaynaklar. *Turan Stratejik Araştırmalar Merkezi Dergis*i, 14(4), 52-58.

Şamil, Ə. (2016). *Çıldırlı Aşıq İrfani (şeirləri, haqqındakı dastan-rəvayətlər).* Bakı: "Elm və təhsil" nəşriyyatı, 152.

*Seçmə aşıq şeirləri antologiyası.* (2023). Bakı: 360.

Vəliyev, Q. (2012). *Çıldırlı Aşıq Şenlik*. Bakı: Azərnəşr, 180.

Xəstə Qasım. (2010). Bakı: "Nurlan", 232.

# SONANTS AND CONSONANTS IN AZERBAIJAN LANGUAGE

**Rahtari Mahire Famil**

**Sumgait State University**

**https://orcid.org/0009-0000-3225-0328**

**mahirarahtari@gmail.com**

**Rəyçi:**

**Eminli Böyükxanım İbrahim qızı,**

**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The purpose of this report is to investigate the sonant (vowel and sonorous sounds) and consonant (consonant) sounds used in the modern Azerbaijani language from the point of view of modern linguistics, to make a small contribution to the phonetics department of our language. In the 70s of the last century, Professor Abdulazal Demirchizade and Professor Agamus Akhundov wrote well-written, systematic and contrastive studies on phonetics. At the moment, that is, in the 21st century, we can clearly see that there is no great interest in the field of phonetics in recent studies devoted to linguistics. For this reason, our article given below can be considered a small attempt in this field, a new look at the existing phonetic base. In the article, a non-traditional division of the voice composition of the Azerbaijani language was given, that division was justified from the acoustic and physiological point of view, and each proposed idea was explained with various examples. The mentioned ideas were compared with the position of prominent Azerbaijani phoneticians, different and similar features were explained in detail with quotes.

**Key words:** Azerbaijani language, phonetics, phonology, consonant, phoneme, pronunciation

# СОНАНТЫ И КОНСОНАНТЫ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

**Рахтари Махира Фамиль**

**Сумгаитский государственный университет**

**https://orcid.org/0009-0000-3225-0328**

**mahirarahtari@gmail.com**

**Резюме**

Целью данной статьи является изучение сонантных (гласных и сонорных звуков) и консонантных (согласных) звуков, используемых в современном азербайджанском языке, с точки зрения современного языкознания, и внести небольшой вклад в фонетическую часть нашего языка. . В 70-х годах прошлого века профессор Абдулазал Демирчизаде и профессор Агамус Ахундов написали хорошо написанные систематические и сравнительные исследования по фонетике. На данный момент, то есть в XXI веке, мы отчетливо видим, что большого интереса к области фонетики в современных лингвистических исследованиях нет. Поэтому нашу статью, представленную ниже, можно рассматривать как небольшую запись в этой области, новый взгляд на действующую фонетическую основу. В статье дано нетрадиционное деление звукового состава азербайджанского языка, это деление обосновано с акустической и физиологической точки зрения, а каждая предложенная идея поясняется различными примерами. Упомянутые идеи сопоставлены с позициями ведущих фонетиков Азербайджана, различные и схожие особенности подробно поясняются цитатами.

**Ключевые слова:** Азербайджанский язык, фонетика, фонология, согласный, фонема, произношение

**AZƏRBAYCAN DİLİNDƏ SONANT VƏ KONSONANTLAR**

**Rahtari Mahirə Famil**

**Sumqayıt Dövlət Universiteti**

**https://orcid.org/0009-0000-3225-0328**

**mahirarahtari@gmail.com**

Azərbaycanda dilinin fonetikası ilə bağlı müxtəlif zamanlarda müxtəlif tədqiqatlar aparılmışdır (Axundov, 1973) (Axundov, 1984) (Dəmirçizadə, 1972, 2007) (Xəlilov, 2007) (Məmmədov 2006, 2007) (Rahtari 2018, 2019, 2019a, 2020, 2021, 2021a, 2023) (Yadigar 1993). Bu yazıda Azərbaycan dilinin sonant və konsonant fonemlərinin müasir dilçilik baxımından kontrastiv təhlili almışdır.

Digər dillərdə olduğu kimi, Azərbaycan dilində də linqvistik xarakterli danışıq səsləri, yəni fonemlər həm fizioloji, həm də akkustik ( küyün kəmiyyətinə görə) cəhətdən aşağıdakı şəkildə bölgülənir:

1. Sonantlar
2. Konsonantlar

**Sonantlar. Saitlər**

Saitlər avazdan yaranan və musiqili tona malik səslərdir. Bura sait və sonorlar daxil edilir. Saitlərə verilən ənənəvi təriflərdə onlara "tələffüz zamanı maneəyə rast gəlməyən səslər" deyilsə də, əslində saitə verilmiş tərifin bununla məhdudlaşması fikrimizcə, düzgün olmaz. Çünki saitləri samitlərdən fərqləndirən əsas səbəblər aşağıdakılardır:

- Heca yaratma qabiliyyəti;
- Tələffüz zamanı maneəsiz şəkildə ağızdan xaric olma;
- Avazdan yaranaraq musiqili tona malik səslər olması;
- Vurğu qəbul edə bilmə xüsusiyyəti.

Görkəmli fonetist, Azərbaycan dilinin fonemlər sisteminin kontrastiv tədqiqatını laborator şəraitdə apararaq bu sahənin fundamental kitabını ərsəyə gətirən professor Ağamusa Axundov saitlərin samitlərdən fərqləndirən xüsusiyyətləri içində musiqili tona malik olma əlamətini əsas hesab etmişdir. Bu mənada o, həmin fonetika kitabında belə qeyd edir: "Saitlər heç də ağız boşluğunda maneəyə rast gəlmədən tələffüz olunan səslər deyildir: onlar eyni zamanda musiqili tona malik olan səslərdir ki, həmin xüsusiyyəti biz h samitində görmürük. Bəzən belə güman edirlər ki, musiqili tona malik olmaq cingiltili olmaqla eynidir, yəni saitlərin əmələ gəlməsində səs telləri iştirak edir. Lakin məsələ burasındadır ki, cingiltili olmaq sait üçün son hədd deyildir. Çünki cingiltililik keyfiyyəti karlıq keyfiyyətinə qarşı qoyulmaq etibarilə samitlərə də xas olan bir xüsusiyətdir. Deməli, biz saitlərin cingiltili olmalarını təsdiq etməklə bərabər, onların musiqili tona malik olmasını da və beləliklə, küylü danışıq səslərinə qarşı qoyulmalarını da göstərməliyik. Ümumiyyətlə, musiqili tona malik olmaq sait fonemlərinin ən səciyyəvi xüsusiyyətlərindən biridir" (Axundov A., 1973: 63-64)

Beləliklə, A.Axundov saitlər üçün ağız boşluğundan maneəsiz şəkildə xaric olma xüsusiyyətini

ikinci dərəcəli hesab etmiş, eyni əlamətlə udlaq h foneminin bu yolla formalaşa bilməsini qeyd edərək onu saitlərə qarşı qoymuşdur. Nəticədə saitlərin əsas xüsusiyyəti kimi onların musiqili tona malik olması faktını sübuta yetirmişdir.

**Sonorlar**

Sonantlara sait fonemlərindən (vokalizm) başqa aid edilən digər səslər sonorlardır. Sonorlar nə sait, nə də samit səslər olmasalar belə, həm saitin, həm də samitin özünəməxsus xüsusiyyətlərini özündə birləşdirir. Onlar Azərbaycan dilində sait kimi avazdan yarandığı və musiqili tona malik olduğu halda, samit kimi də heca yarada bilmirlər. Ancaq bəzi dillərdə (məsələn, çex dilində) sonorlar heca yaratma xüsusiyyətinə malikdir.

Digər görkəmli Azərbaycan fonetisti prof. Ə.Dəmirçizadə fonetikaya aid yazdığı kitabında qeyd etmişdir ki, sonorların yaranmasında cüzi də olsa, küy iştirak edir. Bu mənada o yazır: "Samitlərin bir qismi səs axınının ağız boşluğunda azacıq maneəyə rast gəlməsinə baxmayaraq, ağız və ya burun boşluğundan təzyiq göstərmədən xaricə çıxması ilə yaranır. Belə səslərdə ton əsas təşkil etdiyi halda, küy cüzi miqdarda ola bilir. Belə samitlər saitlər kimi tonlu səslərdir ki, bunlar sonor samitlər adlanır." (Dəmirçizadə Ə., 1972: 67)

**Sonorların növləri**

Sonor samitlərin özləri də akkustik baxımdan 2 yerə bölünürlər: burun (m, n) və ağız sonoru (l, r). Burun samitləri olan m və n fonemləri sözlərdə istənilən mövqedə işləndikləri üçün daha aktiv işlənir. Ancaq səslərin yaranmasında fəal iştirak edən üzvlərə görə fərqlənirlər. Belə ki, m fonemi dodaqlanan, n fonemi isə dodaqlanmayan samitlərdən hesab olunur. M foneminin yaranmasında p və b fonemlərində olduğu kimi kipləşir, ancaq onlardan fərqli olaraq hava axını burun boşluğundan xaric olur. N səsinin tələffüzündə isə səs telləri gərginləşərək səs cığırını daraldır, səs axını burun boşluğu cığırı ilə ciddi maneə görmədən xaric olur. Bu zaman səsin yaranmasında böyük hissəni avaz, kiçik hissəni isə küy təşkil edir.

Fikrimizcə, bu sonorlar içində *l* fonemi morfemlərdə (xüsusilə affikslərdə) işlənmə aktivliyinə, incəlik dərəcəsinə və dissimilyasiya, eləcə də assimilyasiya hadisəsinə məruz qaldığına görə digərlərindən fərqlənir. L fonemi Azərbaycan dilinin sözlərində istənilən mövqedə, hətta qoşa şəkildə aktiv işlənir (Rahtari M, 2019a: 108-109). Bu fonemin fonematik dəyişimlərinə nəzər salaq:

- *R* sonoru ilə bitən söz sonuna *l* samiti ilə başlanan affiks əlavə olunarsa, *l* samiti *r* məxrəcinə düşərək [rr] şəklində tələffüz olunacaq. Məsələn: *darlıq [darrıx], səhərlər [səhərrər], şəhərlər [şəhərrər] və s.*

- *N* sonoru ilə bitən söz sonuna *l* samiti ilə başlanan affiks əlavə olunarsa, *l* samiti *n* məxrəcinə düşərək [nn] şəklində tələffüz olunacaq. *Məsələn: oğlanlar [oğlannar], cavanlıq [cavannıx], divanlı [divannı] və s.* Bundan başqa, dilimizdə işlənən -*la*$^2$ affiksi *[nan, nən]* şəklində tələffüz edilməsi də elə bu mənbədəndir.

- Sonu *s, z, ş, j, t, d, c, ç* fonemləri ilə bitən sözlərə *l* ilə başlanan affiks əlavə olunarsa, *l* samiti tamam başqa bir fonemə - [d] foneminə keçəcək. *Məsələn: dərslik [dərsdix́], boğazlı [boğazdı], başla [başda], qarajlı [qarajdı], saatlıq [sa:tdıx], qanadlanmaq [qanaddammax], ağaclı [ağaçdı], saçlı [saşdı] və s.*

- Bütün yuxarıda qeyd olunan səs dəyişimlərinə baxmayaraq *l* samitinin öz məxrəcində, yəni

[l] kimi tələffüz olunmasını dilimizin kifayət qədər nümunələrində görə bilirik. Məsələn: *lalələr [laləlәr], millilik [millilix′], aktuallıq [aktuallıx], morfemlər [marfemlər], və s.*

Bu sonorlar içində r foneminin yaranmasında digərlərinə nisbətən daha çox küy iştirak edir. Ancaq buna baxmayaraq r foneminin əsas hissəsini avaz, yəni musiqili səs təşkil edir. Bu fonem digərlərinə görə nisbətən az işlənən sonordur. Ümumiyyətlə, r foneminin qədim türk dilində söz əvvəlində işlənməsi xarakterik deyil.

**Konsonantlar**

Müasir Azərbaycan dilində samitlər (consonant – samit deməkdir) küylü səslər hesab olunur. Samit fonemləri saitlərdən fərqləndirən əsas əlamətlərdən biri də onların ağız boşluğundakı danışıq üzvlərinin iştirakı ilə əmələ gələn səslər olmasıdır. Bu fonemlərin böyük hissəsinin yaranmasında əsasən küy iştirak etsə də, bir qisminin yaranmasında küy və avaz, yəni musiqili ton birlikdə çıxış edir. Həmin konsonantlar bunlardır: f, s, t, [k′], ç, ş, h, p, x, [x′], k, v, z, d, q, c, j, b, ğ, y, g.

Bu samitlər yaranmasında iştirak edən küyün dərəcəsinə görə 2 yerə ayrılır: kar və cingiltili samitlər. Cingiltili samitlərin yaranması saitlərdə olduğu kimi, səs telləri gərginləşir, bir-birinə daha çox yaxınlaşmış şəkildə olur və nəticədə ünlü-küylü samitlər yaranır ki, buna cingiltili samitlər deyilir. Hazırda dilimizdə sonantlarla bərabər işlənən cingiltili samitlər bunlardır: *b, v, q, ğ, d, z, j, y, g və c səsləri.* Kar samitlərin yaranmasında isə səs telləri əksinə, gərginləşmir, bir-birinə az yaxınlaşır və nəticədə hava axını o səs cığırından sərbəst keçir. Yaranan rəqslənmə nəticəsində əmələ gələn kar samitləri bunlardır: *f, s, t, [k′], ç, ş, h, p, x, [x′] və k səsləri*. Digər dillərdə olduğu kimi, Azərbaycan dilində də söz sonunda samitlərin rekursiya mərhələsi kar olur. Yəni, söz sonunda iştirak edən konsonantlar əsasən kar samitlərdir. *Məsələn: ağac [ağaç], qaraj [qaraş], bulud [bulut], nəhəng [nəhənk], atlaz [atlas], yataq [yatax] və s.*

Bunlardan əlavə, bütün Azərbaycan dilinin samitləri iştirak etdiyi mövqedən asılı olaraq həm incələşir, həm də qalınlaşır.

**Ədəbiyyat**


Axundov, A. (1973). Azərbaycan dilinin fonemlər sistemi. Bakı: “Maarif” nəşriyyatı

Axundov, A. (1984). Azərbaycan dilinin fonetikası. Bakı: “Maarif” nəşriyyatı

Dəmirçizadə, Ə. (1972, 2007). Müasir Azərbaycan dili, I hissə, Fonetika, orfoepiya orfoqrafiya. Bakı: “Maarif” və “Şərq-qərb” nəşriyyatları

Xəlilov, B. (2007). Müasir Azərbaycan dili: fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya. Bakı: “Nurlan” nəşriyyatı

Мамедов, Р. (2006). Вокально- консонантная синтагматика в русском и азербайджанском языках (контрастивно - типологическое системное исследование). Баку: «Мутарджим»

Мамедов, Р. (2007). Фонетическая структура слова русского и азербайджанского языков (контрастивно - типологическое системное исследование). Баку: «Мутарджим»

Rahtari, M. (2018). Azərbaycan və rus dillərində <y> foneminin nitqdə realizasiyası. Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransının materialları. Bakı: ADPU, 216-219.

Rahtari, M. (2019). Azərbaycan dilində ikihecalı sinharmonik sözlərin fonetik strukturu. SDU,

Elmi xəbərlər, Sosial və humanitar elmlər bölməsi, cild 15, № 4, 12-18.

Rahtari, M. (2019a). İncə [l’] samitli bir qrup ikihecalı alınma sözlərin fonetik struktur növləri barədə. SDU/ “Elmlərarası inteqrasiya: linqvodidaktik, linqvokulturoloji, psixolinqvistik aspektlər” mövzusunda Beynəlxalq Elmi konfransın materialları. Bakı, 108-109

https://sdu.edu.az/userfiles/file/conferences/BEYN%C6%8FLXALQ_ELM%C4%B0_KONFRANSIN_MATER%C4%B0ALLARI.pdf

Rahtari, M. (2020). Azərbaycan dilinin iki heceli kelimelerinde sinharmonizmin tanımı. Türklerin Dünyası Estitüsü və Kıbrıs İlim Üniversitesinin ortaklığında çevrim içi düzenlenen IV. Uluslararası Türklerin Dünyası Sosyal Bilimler Sempozyumu. 237-242

Rahtari, M. (2021). Типы двусложной сингармонической фонетической структуры в азербайджанском и русском языках. Современная наука: актуальные проблемы теории и практики. Серия: Гуманитарные науки. №12. 170-176. DOI 10.37882/2223-2982.2021.12.23

http://nauteh-journal.ru/files/2706bb37-caa0-42a2-a7b7-d1832a2e0542

Rahtari, M. (2021a). Azərbaycan dilində səslərin ahəngi və ya sinharmonizm. Türk dillərinin və ədəbiyyatının tədqiqi və tədrisinin aktual problemləri (I Türkoloji qurultayın 95 illiyinə həsr olunur) Beynəlxalq Elmi konfransının materialları. Bakı.193-196.

https://www.elibrary.ru/item.asp?id=48598501

Rahtari, M. (2023). Azərbaycan və rus dillərinin oxşar fonetik struktur növləri. SDU/ “Heydər Əliyev və türk dünyası: ictimai, iqtisadi və mədəni əlaqələr” mövzusunda Beynəlxalq Elmi konfransın materialları. 420-423.

https://www.ssu-conferenceproceedings.edu.az/pdf/filologiya_2023.pdf

Yadigar (Veysəlli), F. (1993). *Fonetika və fonologiya məsələləri. Ali məktəblər üçün dərslik*. Bakı: “Maarif” nəşriyyatı

# PEDAQOGİKA VƏ PSİXOLOGİYA BÖLMƏSİ

# TEZİSLƏR

# RECONCEPTUALIZING PEDAGOGICAL PRACTICE: AN ANALYSIS OF THE IMPACT OF INTERACTIVE PEDAGOGY ON STUDENT ENGAGEMENT

**Suleymanova Aytan Vidadi**

**ADA University**

**https://orcid.org/0009-0003-9064-6859**
**asuleymanova@ada.edu.az**

**Rəyçi:**
**Əhmədov Hümeyir Hüseyn oğlu,**
**Pedaqogika elmləri doktoru, professor**

## Abstract

This thesis examines the topic "Reconceptualization of pedagogical practice: analysis of the impact of interactive pedagogy on student engagement". Interactive pedagogy is a set of methods widely used in the modern education system in order to improve the quality of teaching and learning processes. The aim of the thesis is to systematically analyze the impact of interactive pedagogic approaches on student engagement.

In the introductory part of the thesis, information about the definition of interactive pedagogy, its historical development and the role of student engagement in the modern education system was presented. The research emphasized the re-conceptualization of pedagogic practice, the innovations brought by the inclusion of interactive approaches in pedagogical practice and the learning process were clearly shown.

The scientific novelty of the thesis is the support of empirical studies of the impact of interactive pedagogy on student engagement. This approach provides a new methodology for evaluating the effectiveness of interactive methods applied in the field of pedagogy. Research proves the positive impact of interactive pedagogy approaches on students' academic achievement, motivation and social development.

The results of the thesis clearly reveal the importance of interactive approaches in modern pedagogical practice. The positive impact of interactive pedagogy on student engagement calls for the promotion of a wider application of these methods in educational institutions. At the same time, the thesis lays the groundwork for future research, as it provides opportunities for deeper research in the field of developing and applying new methods of interactive pedagogy. In addition to supporting the academic and social development of students, this approach contributes to making the modern education system more efficient.

**Keywords:** pedagogy, interactive, student engagement, reconceptualization, educational methods.

# РЕКОНЦЕПТУАЛИЗАЦИЯ ПЕДАГОГИЧЕСКОЙ ПРАКТИКИ: АНАЛИЗ ВЛИЯНИЯ ИНТЕРАКТИВНОЙ ПЕДАГОГИКИ НА ВОВЛЕЧЕННОСТЬ СТУДЕНТОВ

**Сулейманова Айтен Видади**

**Академия АДА**

**https://orcid.org/0009-0003-9064-6859**
**asuleymanova@ada.edu.az**

**Резюме**

В данной дипломной работе рассматривается тема «Реконцептуализация педагогической практики: анализ влияния интерактивной педагогики на вовлеченность студентов». Интерактивная педагогика – это совокупность методов, широко используемых в современной системе образования с целью повышения качества процессов преподавания и обучения. Целью диссертации является систематический анализ влияния интерактивных педагогических подходов на вовлеченность студентов.

Во вступительной части дипломной работы была представлена информация об определении интерактивной педагогики, ее историческом развитии и роли вовлечения студентов в современную систему образования. В исследовании подчеркивалась реконцептуализация педагогической практики, были наглядно показаны новшества, привнесенные включением интерактивных подходов в педагогическую практику и процесс обучения.

Научная новизна диссертации заключается в поддержке эмпирических исследований влияния интерактивной педагогики на вовлеченность студентов. Этот подход обеспечивает новую методологию оценки эффективности интерактивных методов, применяемых в области педагогики. Исследования доказывают положительное влияние подходов интерактивной педагогики на академическую успеваемость, мотивацию и социальное развитие учащихся.

Результаты диссертационной работы наглядно показывают важность интерактивных подходов в современной педагогической практике. Положительное влияние интерактивной педагогики на вовлеченность учащихся требует содействия более широкому применению этих методов в образовательных учреждениях. В то же время диссертация закладывает основу для будущих исследований, поскольку предоставляет возможности для более глубоких исследований в области разработки и применения новых методов интерактивной педагогики. Помимо поддержки академического и социального развития студентов, такой подход способствует повышению эффективности современной системы образования.

**Ключевые слова:** педагогика, интерактив, вовлечение учащихся, реконцептуализация, методы обучения.

# PEDAQOGİKA PRAKTİKASININ YENİDƏN KONSEPTUALİZASİYASI: İNTERAKTİV PEDAQOGİKANIN ŞAGİRDİN AKTİV İŞTİRAKINA TƏSİRİNİN ANALİZİ

**Süleymanova Aytən Vidadi**

**ADA Universiteti**

**https://orcid.org/0009-0003-9064-6859**
**asuleymanova@ada.edu.az**

Pedaqogika insan öyrənmə və tədris proseslərini tənzimləyən nəzəri və praktiki biliklər toplusu olaraq uzun bir tarixi inkişaf yolu keçmişdir. İlk mərhələlərdə təhsil əsasən ənənəvi müəllim-şagird modeli üzərində qurulmuşdu. Bu modeldə müəllimlərin biliklərin yeganə daşıyıcısı olduğu və şagirdlərin passiv dinləyici olduğu qəbul edilirdi. Zamanla cəmiyyətin dəyişməsi ilə yanaşı pedaqoji yanaşmalar da inkişaf etdi. 20-ci əsrin ortalarından etibarən fəal öyrənmə, şagird yönümlü təhsil və konstruktivist yanaşmaların əhəmiyyəti artdı. Bu yanaşmalar təhsil alanların tədris prosesində daha fəal rol oynamasını və öyrənmə təcrübələrinin şəxsi inkişaflarına uyğunlaşdırılmasını vurğuladı.

Son onilliklərdə isə texnologiyanın təhsilə təsiri ilə birlikdə interaktiv pedaqogika geniş yayılmağa başladı. İnteraktiv yanaşmaların tətbiqi pedaqoji praktikada köklü dəyişikliklərə səbəb oldu və öyrənmə prosesində müəllimlərin rolunu yenidən təyin etdi. Bu yanaşmada müəllimlər şagirdləri öyrətməkdən çox onların öyrənmə prosesinə bələdçilik edən şəxsə çevrilir. Təhsil metodlarının davamlı dəyişikliklərlə müşayiət olunması pedaqogikanın inkişaf mərhələlərinin təkamülünü təmin etmişdir.

Yenidən konseptualizasiya pedaqogika praktikasında yeni nəzəri əsaslara və tədris metodlarına uyğun yenidən baxış deməkdir. Bu yanaşma mövcud pedaqoji modellərin artıq müasir cəmiyyətin tələblərinə cavab vermədiyini və təhsilin yenidən strukturlaşdırılmasını tələb etdiyini irəli sürür. Pedaqogikanın yenidən konseptualizasiyası şagirdlərin dəyişən ehtiyaclarına cavab verən, daha çevik və uyğunlaşa bilən tədris metodları hazırlamaq məqsədini daşıyır (Евгеньевна, 2022).

Pedaqogika nəzəriyyələri uzun müddət təhsil prosesində dominant olmuşdur, lakin yenidən konseptualizasiya bu nəzəriyyələri praktikaya daha effektiv şəkildə tətbiq etməyi hədəfləyir. Bu anlayış təhsilin məzmununu və metodlarını dinamik bir şəkildə inkişaf etdirməyi tələb edir, yəni müəllimlər və şagirdlər arasında daha çox qarşılıqlı əlaqə və əməkdaşlıq olmalıdır. Nəzəriyyə və praktika arasında əlaqəni gücləndirmək üçün təhsil prosesində şagirdlərin fəal iştirak etməsi və onların fərdi bacarıqlarının inkişaf etdirilməsi əsas vəzifələrdən biri olur.

Yenidən konseptualizasiya zamanı təkcə məzmunun təkmilləşdirilməsi deyil, həm də tədris mühitinin və proseslərinin modernləşdirilməsi vacibdir. Bu proses pedaqogikanın yalnız informasiya ötürmə vasitəsi olmadığını, həm də şagirdlərin düşüncə tərzlərini, yaradıcı qabiliyyətlərini və sosial bacarıqlarını inkişaf etdirməyi hədəfləyən bir yanaşma olduğunu vurğulayır. İnteraktiv tədris metodları məhz bu boşluğu doldurur və şagird mərkəzli tədris modeli ilə həm nəzəriyyə, həm də praktikanın effektiv şəkildə qovuşmasını təmin edir.

İnteraktiv pedaqogika ənənəvi təhsil modellərindən fərqli olaraq şagirdlərin dərs prosesində aktiv iştirakını təmin edir və onların bilikləri daha dərindən qavramasına imkan yaradır. Bu yanaşma şagirdlərin yalnız passiv dinləyici olaraq qalmadığı, dərs prosesinə aktiv şəkildə qatıldığı bir modeldir.

İnteraktiv yanaşmalar ənənəvi təhsil metodlarından fərqli olaraq, yalnız müəllimin mühazirə deməsinə əsaslanmır. Burada şagirdlər müəllimlə birbaşa qarşılıqlı əlaqə qurur, mövzunu müzakirə edir, suallar verir və öz fikirlərini sərbəst şəkildə ifadə edirlər. Bu metod şagirdlərin daha dərin və analitik düşüncə bacarıqlarını inkişaf etdirir (Гордеева, 2018).

İnteraktiv pedaqogikanın təhsil prosesinə gətirdiyi ən böyük dəyişikliklərdən biri də şagirdlər arasında əməkdaşlığın təşviq edilməsidir. Şagirdlər qrup şəklində işləyərək həm öz biliklərini bölüşür, həm də digərlərinin fikirlərindən öyrənirlər. Bu, həm sosial bacarıqların inkişafına, həm də kollektiv öyrənmə mühitinin yaradılmasına səbəb olur. Eyni zamanda, interaktiv metodlar şagirdlərin fərdi bacarıqlarını nəzərə alaraq onların şəxsi öyrənmə tərzlərinə uyğun dərs planları hazırlamağa imkan verir.

İnteraktiv pedaqogika şagird aktiv iştirakının (engagement) artırılması baxımından çox böyük potensiala malikdir. Müasir təhsil sistemlərində şagird aktiv iştirakı təhsil keyfiyyətini müəyyən edən əsas göstəricilərdən biri sayılır, çünki şagirdlərin dərs prosesində fəal iştirak etməsi onların dərindən öyrənmə, problemləri həll etmə və tənqidi düşünmə qabiliyyətlərini inkişaf etdirməyə xidmət edir.

İnteraktiv pedaqogika şagird və müəllim arasında daha sıx və dinamik əlaqə qurmağa imkan verir. Şagird-müəllim arasında qurulan bu yaxın əlaqə şagirdlərin özlərini dərs prosesində daha rahat hiss etmələrinə səbəb olur. Onlar suallarına dərhal cavab almaq və müəllimdən fərdi qaydada dəstək görmək imkanına malik olurlar.

İnteraktiv pedaqogikanın üstünlüklərindən biri də fərqli öyrənmə tərzlərinə uyğunlaşa bilməsidir. Təhsil alanlar fərqli öyrənmə metodlarına sahib ola bilər: bəziləri vizual, digərləri kinestetik və ya audial öyrənmə stilinə üstünlük verə bilər. İnteraktiv təlim metodları müxtəlif fəaliyyətlər təklif edərək bu fərqliliyi nəzərə alır. Məsələn, vizual öyrənən şagirdlər qrafiklər və təqdimatlarla, kinestetik öyrənənlər isə praktiki tapşırıqlarla daha çox məşğul ola bilərlər.

İnteraktiv pedaqogika şagirdlərin dərs prosesində özlərinə daha çox güvənməsinə və özünüqiymətləndirmə qabiliyyətlərinin inkişafına şərait yaradır. Şagirdlər dərslərə aktiv qatılaraq, özlərinin nə qədər irəliləyiş etdiyini daha asan görə bilirlər. Məsələn, dərs zamanı iştirak etdikləri layihələr, müzakirələr və praktiki tapşırıqlar onların əldə etdikləri bilikləri real həyatda tətbiq etmə qabiliyyətlərini sınamağa imkan verir. Bu da öz növbəsində onların özlərini qiymətləndirmə və tədris prosesinə daha çox dəyər vermə qabiliyyətlərini inkişaf etdirir. Bu nöqteyi-nəzərdən, interaktiv pedaqogikanın təsiri təkcə akademik biliklərlə məhdudlaşmır, həm də şagirdlərin özlərinə inamını və gələcək uğurlarına olan motivasiyasını gücləndirir. Özünə güvənən və özünüqiymətləndirmə bacarıqları inkişaf etmiş şagirdlər, dərs prosesində daha fəal iştirak etməyə həvəs göstərirlər (Citric, 2016).

Pedaqogika praktikasının yenidən konseptualizasiyası çərçivəsində interaktiv pedaqogikanın şagirdin aktiv iştirakına təsirinin analizi göstərir ki, bu tədris yanaşması təhsil prosesinin keyfiyyətini artırır və şagirdlərin öyrənmə mühitində fəal iştirakını təmin edir. İnteraktiv metodlar vasitəsilə şagirdlərin öyrənmə motivasiyası yüksəlir, əməkdaşlıq və tənqidi düşünmə bacarıqları inkişaf edir, dərs prosesinə maraq artır və əldə edilən biliklərin dərin mənimsənilməsi təmin olunur. İnteraktiv pedaqogika şagird-müəllim əlaqəsini gücləndirərək, daha səmərəli öyrənmə mühiti yaradır. Bu isə şagirdlərin özünüqiymətləndirmə və müstəqil öyrənmə qabiliyyətlərinin inkişafına şərait yaradır, onların akademik nailiyyətlərinə müsbət təsir göstərir.

**Ədəbiyyat:**

Citric, N. (2016) “Interactive teaching as innovation in quality of didactical methodical organization of academic teaching”. Metodicki obzori. № 11. P. 76-91

Гордеева, И.В. (2018) “Интерактивные технологии как инструмент повышения мотивации учащихся к изучению естествознания” // Современные проблемы науки и образования. –№ 6. С.49-53

Андриенко, Ю.Е. (2022) “Использование интерактивных методов обучения для активизации личностнопрофессионального потенциала студента – будущего педагога”. НАУЧНЫЙ ЖУРНАЛ « IN SITU » №6 / с.68-71

# ABOUT SOME FACTORS THAT ENSURE THE INNOVATIVE TEACHING PROCESS

# IN PRIMARY SCHOOLS

**Ahmadova Gulnaz Khanlar**

**Azerbaijan State Pedagogical University**

**https://orcid.org/0009-0004-5828-0495**

**gulnaz.ahmedova.84@mail.ru**

**Rəyçi:**

**Əhmədov Hümeyir Hüseyn oğlu,**

**Pedaqogika elmləri doktoru, professor**

## Abstract

Experience shows that many students do not fully grasp the educational material, hesitate to actively participate in class, or lack motivation. One of the main reasons for this is that lessons are often conducted using the same methods and structure, which results in only a few active students being the center of attention. Meanwhile, students with low self-confidence fear giving incorrect answers or making mistakes. Therefore, teachers, especially in primary classes, must carefully select teaching materials during lesson preparation, ensuring they are interesting, understandable, and easily accessible to all students. The training of teachers should focus on understanding innovations and teaching the future generation using modern approaches. Ensuring that students receive quality education is an important responsibility that falls on every education worker.

**Keywords:** cognitive activity, innovative teaching, innovative teacher, intellectuality

Valideynlərinin, müəllimlərinin, dostlarının, digər ailə üzvlərinin və məsləhətçilərin peşə seçimində təsiri haqqında tələbələrin cavabları xüsusi maraq doğurur. Belə ki, sorğu iştirakçılarının əksəriyyəti valideynlərinin, müəllimlərinin, məsləhətçilərin və digər ailə üzvlərinin onların peşə seçimində təsiredici olduğunu etiraf edirlər. Yuxarıda sadalanan şəxslərdən birinci sırada 93% ilə tələbələrin peşə seçimində təsir rolu olan valideynlər, ikinci yerdə 58% ilə müəllimlər, üçüncü sırada 38% ilə digər ailə üzvləri, dördüncü sırada 36% ilə məsləhətçilər dayanır, onlardan yalnız 18,7 %-i seçimlərində dostlarının təsiri olduğunu bildirirlər. Təxminən 45% tələbə bildirir ki, onlar peşə seçimini topladıqları bala əsasən və pul qazanmaq məqsədilə ediblər. Digər tərəfdən respondentlərdən 76%-i bildiri ki, onlar seçdikləri peşə haqqına özləri araşdırma aparıblar və 63% sorğu iştirakçısının cavabına əsasən onlar peşə seçimini edərkən ölkədəki iş imkanlarını nəzərə alıblar.

Təxminən 73% tələbə bildirir ki, onlar peşə seçimi edərkən sosial mediadan aldıqları informasiyalara əsaslanmayıblar və sosial mediada peşə seçimində təsiredici olmayıb. Bundan əlavə respondetlərin orta hesabla 80%-i bildirir ki, məzunu olduqları məktəblər onları peşə seçimində yönləndirməyib. Həmçinin, sorğu iştirakçılarının cavabından məlum olur ki, onların əksəriyyəti peşə seçimi haqqında 5-11-ci siniflərdə, böyük əksəriyyət 9, 10 və 11-ci siniflərdə olmaqla, düşünüblər.

İştirakçıların əksəriyyəti əgər yenidən peşə seçməli olsaydılar peşələrini İT, müəllimlik, həkimlik, güc strukturları və s. sahələrdə və yaxud elə öz seçdikləri peşələrdə seçəcəklərini bildirmişlər.

Nəticədə aparılan nəzəri araşdırma və keçirilən sorğu göstərir ki, peşə seçimində məktəbli dövründə bir çox amillər şagirdlərə az və ya çox dərəcədə təsir göstərir. Peşə seçimində təsiredici olan amillər arasında xüsusilə valideynlər ön sıradadır, lakin şagirdlərin peşə seçimində məktəbin dəstəyi və istiqaməti sorğuda çox az olaraq qiymətləndirilmişdir. Qeyd etməki lazımdır ki, Azərbaycan Respublikasında ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin təşkili ilə bağlı bir neçə metodik vəsaitlər çap olunmuşdur. Bu vəsaitlər ümumi təhsil müəssisələrdə peşəyönümü xidmətinin ibtidai siniflərdən başlayaraq yuxarı siniflərə qədər hansı üsullarla aparılması barədə məktəblərin pedaqoji heyyətinə ətraflı biliklər və istiqamət verir, buna görə də ümumi təhsil müəssisələri bu kimi vəsaitlərdən istifadə etməklə bu işi daha effektiv şəkildə təşkil edə bilərlər. Bundan əlavə şagirdlərin peşə seçimində bilavasitə iştirakı və təsiri olan valideynlərin özlərini də müasir əmək bazarındakı peşələr haqqında maarifləndirmək istiqamətində işlər aparılması məqsədə uyğun olardı. Ümumiyyətlə şagirdlərin peşə seçimində təsiredici bütün amillər nəzərə alınmaqla müasir dövrün tələblərinə uyğun peşəkarlar yetişdirmək və onlara düzgün istiqamət vermək öhdəliyi əsasən ümumi təhsil müəssisələrinin payına düşür.

**Ədəbiyyat:**

Borchert, M. (2002). Career choice factors of high school students. The Graduate College University of Wisconsin-Stout.

Britannica. (2002). Encyclopedia Britannica online. Retrieved June 18, 2002, from http://search.eb.com/search?query=environment&x=10&y=9

Greenberger, M. (2002). Nation’s high schools still operate “separate and unequal” vocational

education for male and female students. Retrieved June 12, 2002, from http://www.nwlc.org/details.cfm?id=1135&section=education

Gwelo, A. S. (2019). Determinants of career choice among university students. *MOJEM: Malaysian Online Journal of Educational Management*, *7*(1), 1-19.

İlyasov, M.İ. (2011). Peşəyönümünün əsasları.Dərs vəsaiti. Bakı: Mütərcim, 324 s.

Nəzərov, İ.Q., Bəylərov, E.B., Kərimova, E.M., Həşimova, A.Q., Quliyeva, R.E., Hüseynova, T.Ə., Əhmədova, G.Q., Tahirli, G.İ. (2021). Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin təşkili (Metodik vəsait). Bakı: ARTİ, 100 s.

Splaver, S. (1977). Your personality and your career. New York, NY:  Julian Messner.

# ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA ƏXLAQİ-MƏNƏVİ DƏYƏRLƏRİN ROLU

**Məmmədova Rəqsanə İsmayıl**

**Azərbaycan Respublikasının Təhsil İnstutu**

**https://orcid.org/0009-0008-7316-4539**

**raqsanamva@gmail.com**

**Rəyçi:**

**Əhmədov Hümeyir Hüseyn oğlu,**

**Pedaqogika elmləri doktoru, professor**

**Xülasə**

Əxlaqi-mənəvi dəyərlərin şəxsiyyətin formalaşmasındakı rolu mühüm tarixi hadisələrdir. Onlar yalnız insana məxsusdur. Bu səbəbdən də görkəmli filosof, psixoloq, pedaqoq və yazıçı-dramaturqları insanın və onun formalaşdırlması problemi düşündürmüşdür. E.Torna, C.Duyi, R.Daqdel, D.İ.Dibrovski, N.Baxterova, X.Şirvani, S.Şirazi və başqaları böyük tarixi əhəmiyyəti olan müxtəlif fikirlər söyləmişlər.(1) Haqlı olaraq onların ümumi düşüncələrinə görə insan şüurlu fəaliyyəti ilə digər canlılardan fərqlənir, daim öz xoşbəxtliyini arayır. Əxlaqi mənəvi keyfiyyətlərə sahib olmayanlara xoşbəxtlik istəyi haqqında düşünmək cəfəngiyyatdır. Gözəl həyatın, mənalı ömrün nüvəsində sağlam düşüncə, insanı möhtəşəm varlığa çevirən saf əxlaq və ülvi mənəviyyatdır. Bunlarsız insanın şəxsiyyətə çevrilməsi qeyri-mümkündür. Bu məsələnin mahiyyətini açmaq üçün əvvəlcə "Əxlaq nədir?", Mənəviyyat nədir?, "Bunlar arasındakı əlaqələr nədir?", "Şəxsiyyətin formalaşmasında onların yeri necədir", "Təhsil və tərbiyənin imkanları nələrdən ibarətdir?" suallarına əsaslı cavablar axtarmaq lazım gəlir. (6) Hər şeydən əvvəl onu qeyd edək ki, əxlaq və mənəviyyat fəlsəfi problemdir. Bunların əsasında inam, iman, təmənnasızlıq, nəfsi bütövlük, xeyirxahlıq durur, sadaladığımız keyfiyyətlər dayanır. "Mənəm-mənəmlik", İnsani naqislik əxlaqi-mənəvi keyfiyyətlərə yaddır və onlarla bir sırada dayana bilməz. **Əxlaq** içtimai, **mənəviyyat** isə insanı mənşəlidir. Əxlaq real həyatın prinsiplərindən irəli gələn ideyaları özündə ehtiva edən məntiqi düşüncədir. İçtimai şüurun formasıdır. Dəyərlər məcmusudur. Geniş anlayışdır. Bura hər cür insani keyfiyyətləri öz mahiyyətinə daxil edir. Mənəviyyat isə insan qəlbinin əzəli tələblərinin təzahürü kimi özünü büruzə verən məntiqi duyğulardır. Mənəviyyatın təməli fədakarlıq, mənbəyi isə xalqın ruhudur. Fədakarlıq ötəri təzahürlərdən, özünə məftunluqdan uzaqdır. Özünü insanlığa həsr etmək, daxilini təkmilləşdirmək, başqa sözlə, özündə özünü axtarmaqdır. Fəzilətlərə sahiblik sözün həqiqi mənasında insanlığın rəhnidir. "Mən", "Mən" deyə bağırmaq, hərəkət və davranışlar, söyləmlər ədəbsizlik və naqislikdir. Əxlaq və mənəviyyat fəlsəfi, onun təhsil və tərbiyə yönümünə transferi isə pedaqoji anlamdır. Əxlaqın mənbəyi həyat, qidası isə ondan alınan bilikdir. Əxlaq və mənəviyyat vəhdətdə çıxış etməyəndə təhsil və tərbiyənin məzmununda ciddi və ciddi olduğu qədər də naqis hallar, başqa sözlə, qəbahətlər baş verir. İnsan ləyaqətinə, şərəf və şəxsiyyətinə yaraşmayan, əxlaqi keyfiyyətlərə xələl gətirən qəbahətlər özünü göstərir: "Ölüsünün qədrini bilməyən dirisini düşünməz", "Keçmişini tanımayan mənəviyyatına qara örtük çəkər". "Tapançadan güllə atan özü topa tutular", "Nə tökərsən aşına, o da çıxar qarşına", "Quyunu geniş qaz, özün də düşə bilərsən", "Elə yaşa özündən sonra izin qalsın", "Paxıl artmaz, aramaz"... Mənəviyyat isə gendən gəlir. "Ot kökü üstə bitər", "Ana çıxan ağacı, qızı budaq-budaq gəzər", "Yalamaqla qarın doymaz" və s. Bunlar qan yaddaşından — irsən gəlir. Əxlaqla mənəviyyatın prinsipləri üst-üstə

düşəndə insanilik yaranır: Vətənpərvərlik, yaxşılıq və xeyirxahlıq, düzlük və doğruçuluq, əməksevərlik, insana qayğı və s. İnsanın düçar olduğu nalayiq hadisə əxlaq və mənəviyyatın, həyat normalarının pozulmasından, insani prinsiplərin uyğunsuzluqlarından, ziddiyyətlərdən doğur. Davamlı mütaliə, həyatı təcrübə, kommunikativ əlaqələr insanı şüurlu fəaliyyətə yönəldir, intellektini yüksəldir.

Sivil insan, sivil cəmiyyət, zəngin əxlaq və mənəviyyat tələb edir. Bunun əksi baş verəndə, insan insaniliyini itirəndə, daxili aləminə, hərəkətlərinə və davranışlarına nəzər salmadan, özünə dəyər vermədən, necə gəldi addım atanda böyük fəlakətlər başlanır. Mənəviyyat gendən gəlir. Səmavi kitabələrdə (Zəburda, Tovratda, İncildə, Qurani-Kərimdə) dönə-dönə xatırladılır: "Allahını sevən yeri də, göyü də, insanı da, bir sözlə, bütün mövcudatı da sevər". Axı ülfət də, inam da, ünsiyyət də, təkmil ruh da saf əxlaqdan, zəngin mənəviyyatdan doğur. (7)

Tarixi təcrübə, elmi dəlillər və sübutlar göstərir ki, əxlaqi-mənəvi dəyərlərə yiyələnməyəndən və onu gündəlik fəaliyyətinə tətbiq etməyəndən şəxsiyyət də olmaz. Bizə görə əxlaqi-mənəvi dəyərlərə yiyələnən, bütün insani dəyərlərə yüksək səviyyədə yiyələnən, əxlaqi keyfiyyətləri əməli fəaliyyətinə tətbiq edən **vətən, xalq, millət...** üçün fədakarlıq göstərəndir. Belələri mənsəbdən uzaq, həyatı dərk edən, fəzilətləri özü üçün meyar seçənlərdir. Xalq, millət, cəmiyyət, vətən amalı ilə doğulanlardır. Bu haqda xeyli nəzəri ideyalar da irəli sürülmüşdür. Şərq mütəfəkkirləri Fəxri Gürgani, Xəqani Şirvani, Əbdürrəhman Cami, Əlişir Nəvai, Nəsrəddin Tusi, A.Ağabakıxanov və başqaları şəxsiyyətin formalaşmasında mühitin və irsiyyətin rolunu yüksək dəyərləndirmişlər.

Aparılan araşdırmalar göstərir ki, əxlaqi-mənəvi dəyərlərin mənimsədilməsi şəxsiyyətin formalaşdırılması sahəsində təhsil və tərbiyə yönümlü işlər, mükəmməl proqram və dərsliklər, pedaqoji tədqiqatlar zəngin təcrübənin yaradılmasını şərtləndirir, səmərəli təhsil və tərbiyə işinin yüksək təşkilinə təkan verir.

**Açar sözlər:** əxlaq, mənəviyyat, tərbiyə, irsiyyətin rolu, mənəvi dəyərlər, vətənpərvərlik

# РОЛЬ НРАВСТВЕННО-ДУХОВНЫХ ЦЕННОСТЕЙ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ

**Мамедова Рагсана Исмаил**

**Институт образовани Азербайджанской Республики**

**https://orcid.org/0009-0008-7316-4539**

**raqsanamva@gmail.com**

**Резюме**

Роль нравственных и духовных ценностей в формировании личности — это важные исторические события. Эти ценности присущи только человеку. Поэтому выдающиеся философы, психологи, педагоги и писатели-драматурги были заинтересованы проблемой человека и его формирования. Э. Торнда, Дж. Дьюи, Р. Дагдель, Д. И. Дибровски, Н. Бакстерова, Х. Ширвани, С. Ширази и другие высказывали различные мысли, имеющие большое историческое значение. (1) По их общему мнению, человек отличается от других живых существ своим сознательным действием и постоянно стремится к счастью. Желание счастья для тех, кто не обладает нравственными и духовными качествами, абсурдно. В основе прекрасной жизни и осмысленной судьбы лежит здоровое мышление, чистая нравственность и возвышенная духовность, которые делают человека великим существом. Без них становление человека личностью невозможно. Для того чтобы раскрыть сущность этого вопроса, необходимо сначала найти основательные ответы на вопросы: «Что такое нравственность?», «Что такое духовность?», «Какие связи между ними?», «Какова их роль в формировании личности?», «Каковы возможности образования и воспитания?». (6)

Прежде всего отметим, что нравственность и духовность — это философские проблемы. В их основе лежат вера, преданность, бескорыстие, целостность, доброта. Человеческие пороки, такие как эгоизм, чужды нравственным и духовным качествам и не могут стоять с ними в одном ряду. Нравственность является общественным, а духовность — личностным понятием. Нравственность — это логическое мышление, которое охватывает идеи, вытекающие из принципов реальной жизни, форма общественного сознания и совокупность ценностей, включающая все виды человеческих качеств. Духовность же проявляется как логические чувства, которые представляют собой изначальные потребности человеческой души. Основой духовности является самоотверженность, а её источником — дух народа. Самоотверженность чужда преходящим проявлениям и самовлюблённости, она направлена на посвящение себя человечеству, на совершенствование внутреннего мира, другими словами, на поиск себя в себе. Обладание добродетелями — залог человечности в самом настоящем смысле этого слова. Выкрики, жесты и поведение, выражающие «Я», «Я», — это грубость и недостаток. Нравственность и духовность — это философские понятия, а их передача в сферу образования и воспитания — педагогический смысл. Источник нравственности — жизнь, её питание — знания, почерпнутые из неё. Когда нравственность и духовность не выступают в единстве, в содержании образования и воспитания возникают серьёзные и серьёзные недостатки, то есть пороки. Пороки, унижающие достоинство, честь и личность человека, проявляются: «Кто не ценит мёртвого, не подумает о живом», «Кто не знает своего прошлого, накладывает чёрную вуаль на свою духовность», «Кто стреляет из

пистолета, сам будет обстрелян из пушки», «Что добавишь в свой суп, то и встретишь перед собой», «Рой яму широко, сам можешь в неё упасть», «Живи так, чтобы после тебя остался след», «Завистливый не прибавит и не найдёт»… Духовность же передаётся из рода. «Трава растёт на корнях», «Дерево с матерью, дочь с веткой путешествует», «Пустыми объятиями живот не накормишь» и т.д. Эти вещи передаются из генетической памяти — по наследству. Когда принципы нравственности и духовности совпадают, возникает человечность: патриотизм, доброта и милосердие, честность и правдивость, трудолюбие, забота о человеке и т.д. Неприличные события, которым подвергается человек, возникают из-за нарушений норм нравственности и духовности, несовместимости и противоречий в человеческих принципах. Постоянное чтение, жизненный опыт, коммуникативные связи направляют человека на осознанные действия, повышают его интеллект. (7)

Цивилизованный человек, цивилизованное общество требуют богатой нравственности и духовности. Когда происходит противоположное, когда человек теряет свою человечность, не обращает внимания на свой внутренний мир, свои действия и поведение, не придаёт себе значения и действует как попало, начинаются большие бедствия. Духовность передаётся из рода. В Священных Писаниях (Псалтырь, Тора, Евангелие, Коран) многократно упоминается: «Тот, кто любит Бога, любит и землю, и небо, и человека, одним словом, всё сущее». Ведь и дружба, и вера, и общение, и совершенная душа рождаются из чистой нравственности и богатой духовности.

Исторический опыт, научные доказательства показывают, что без освоения нравственных и духовных ценностей и их применения в повседневной деятельности нельзя стать личностью. По нашему мнению, те, кто овладевают нравственными и духовными ценностями, овладевают на высоком уровне всеми человеческими ценностями, применяют нравственные качества в своей практической деятельности, — это те, кто проявляют самоотверженность ради родины, народа, нации… Это люди, далёкие от славы, понимающие жизнь, выбравшие добродетели своим критерием. Это те, кто рождаются с чувством народа, нации, общества, родины. По этому поводу также выдвинуто немало теоретических идей. Восточные мыслители, такие как Фахри Гургани, Хагани Ширвани, Абдуррахман Джами, Алишер Навои, Насреддин Туси, А. Аггбакыханов и другие, высоко оценивали роль среды и наследственности в формировании личности.

Исследования показывают, что освоение нравственно-духовных ценностей в процессе формирования личности обусловливает создание богатого опыта в области образовательной и воспитательной деятельности, содействует высокому уровню организации эффективного обучения и воспитания.

**Ключевые слова:** этика, духовность, воспитание, роль наследственности, моральные ценности, патриотизм.

## THE ROLE OF MORAL AND SPIRITUAL VALUES IN PERSONALITY DEVELOPMENT

**Mammadova Ragsana Ismayil**

**Azerbaijan Republic Institute of Education**

**https://orcid.org/0009-0008-7316-4539**

**raqsanamva@gmail.com**

The role of moral and ethical values in the formation of personality is a significant historical issue. These values are unique to humans. Therefore, prominent philosophers, psychologists, educators, and playwrights have contemplated the problem of humans and their development. E. Torn, J. Dewey, R. Dargel, D. I. Dibrovski, N. Baxterova, Kh. Shirvani, S. Shirazi, and others have articulated various thoughts of great historical importance. According to their common views, a person distinguishes themselves from other beings through conscious activity and is always in pursuit of their happiness. It is absurd to think about the desire for happiness without possessing moral and ethical qualities. At the core of a beautiful life and a meaningful existence lies sound thinking, pure ethics, and noble spirituality, which transform a person into a magnificent being. Without these, it is impossible for an individual to become a true personality. To understand the essence of this issue, one must seek substantial answers to questions such as "What is ethics?", "What is spirituality?", "What is the relationship between them?", "What is their place in the formation of personality?", and "What opportunities do education and upbringing provide?" (6)

First of all, we should note that ethics and spirituality are philosophical problems. They are based on faith, belief, selflessness, integrity, and kindness—qualities we have listed. "Self-centeredness" and human imperfection are alien to moral and ethical qualities and cannot coexist with them. Ethics is social, while spirituality is inherent to humans. Ethics embodies logical thought arising from the principles of real life. It is a form of social consciousness. It is a collection of values, a broad concept that encompasses all kinds of human qualities. Spirituality, on the other hand, manifests as the logical feelings that express the eternal demands of the human heart. The foundation of spirituality is selflessness, and its source is the spirit of the people. Selflessness is far removed from transient manifestations and self-admiration. It is about dedicating oneself to humanity and improving one's inner self; in other words, it is about searching for oneself within oneself. The possession of virtues is the true measure of humanity. Shouting "I" and "Me" or engaging in behaviors and statements that are inappropriate and flawed is an affront to humanity. The transfer of ethics and spirituality to the pedagogical realm is its educational meaning. The source of ethics is life, and its sustenance comes from the knowledge acquired from it. When ethics and spirituality do not act in unity, serious and severe shortcomings arise in the content of education and upbringing, leading to moral failures that tarnish human dignity, honor, and personality: "One who does not appreciate the dead will not think of the living," "He who does not know his past will cover his spirit with a black shroud." "He who shoots from a gun will be targeted himself," "What you throw into your pot will come back to you," "Dig the well too wide, and you may fall in yourself," "Live in such a way that your mark remains after you," "A jealous person does not increase but diminishes." Spirituality also comes from genetics: "The root of grass lies above," "The tree that springs from the mother, the daughter spreads branch by branch," "Licking does not fill the belly," etc. These stem from genetic memory—hereditary transmission. Humanity arises when the

principles of ethics and spirituality coincide: patriotism, goodness and kindness, honesty and integrity, diligence, and care for others. The unpleasant situations a person faces stem from the violation of ethical and spiritual norms, inconsistencies in human principles, and contradictions. Continuous reading, life experiences, and communicative relationships direct a person toward conscious activity and elevate their intellect.

A civilized person requires a civilized society and rich ethics and spirituality. When the opposite occurs, and a person loses their humanity, embarking on actions and behaviors without self-reflection and without valuing themselves, great catastrophes begin. Spirituality is hereditary. Sacred scriptures (Psalms, Torah, Bible, Qur'an) repeatedly remind us: "Those who love God love the earth, the sky, humanity, and all existence." After all, friendship, faith, communication, and a refined spirit arise from pure ethics and rich spirituality. (7)

Historical experience, scientific evidence, and proofs show that without mastering moral and ethical values and applying them in daily life, there can be no personality. In our view, a person who masters ethical and moral values, fully grasps all human values, applies ethical qualities in their practical activities, shows selflessness for their homeland, people, and nation. Such individuals are far from office, understand life, and choose virtues as their criteria. They are born with the ideals of their people, nation, society, and homeland. Many theoretical ideas have been proposed about this. Eastern thinkers such as Fakhri Gurgani, Khagani Shirvani, Abdurrahman Jami, Alisher Navoi, Nasreddin Tusi, and A. Agabaki Khanov have highly valued the roles of environment and heredity in the formation of personality.

Research indicates that mastering moral and ethical values conditions educational and upbringing-oriented work in the field of personality formation, creating a rich experience that leads to effective organization of educational and upbringing efforts through excellent programs and textbooks and pedagogical research.

**References**

Tusi, N. (1989) Ethics of Nasir. –Baku: Elm.

Ushinsky, K.D. (1953) Selected Pedagogical Works. –Baku: Azerneshr.

Verev, I. (1980) Aesthetics. –Baku:Yazichi.

Goyushov, Z. (1984) Virtue and Vice. –Baku: Elm.

Guliyeva, T. (2022) As the Basis of Forming National-Spiritual Culture in Students. Doctoral Dissertation in Philosophy.–Baku.

Pestalozzi, J.H. (1970) Selected Pedagogical Works. –Baku.

Rahimov, A.N. (2018) Communion with God. –Baku: Mutarjim.

Abbasov, A.N. (2016) National Morality and Family Aesthetics. –Baku: Mutarjim.

Ibrahimov, F., Huseynzade, U. (2013) Pedagogy. –Baku.

# CONSIDERING CLIMATE CHANGE ISSUES WHEN CREATING LIFELONG EDUCATION INFRASTRUCTURE AND ORGANIZING ITS WORK

**Babayev Abbas Ilham**

**Institute of Education of the Republic of Azerbaijan**

**https://orcid.org/0000-0002-3939-9237**

**abbas.babayev@arti.edu.az**

**Rəyçi:**

**Əhmədov Hümeyir Hüseyn oğlu,**

**Pedaqogika elmləri doktoru, professor**

## Abstract

Although the establishment of lifelong learning infrastructure in Azerbaijan has been identified as one of the prioritized development goals, at present, that direction is approached only from the perspective of preparing competitive human capital for the national economy and the impact of critical issues such as climate change on the actualization of lifelong learning remains unexplored. Considering Azerbaijan's vulnerability to the effects of climate change, the government has adopted policies on various environmental problems, and education and training components are often included in these policies. However, the education and training components mentioned above mainly cover formal education and are limited to traditional educational and training activities. One of the successful practices of countries that recognize the importance of lifelong learning for climate action is using non-formal and informal educational opportunities to make communities vulnerable to climate change more prepared and resilient, in addition to traditional educational and training activities. This study examines the relevance of lifelong learning for climate action in Azerbaijan and provides recommendations for taking environmental issues into account when creating lifelong learning infrastructure. The research used content analysis and interviews with various local and international experts, as well as individuals working in the public sector in science and education, as data collection methods.

**Keywords:** lifelong learning, green skills, climate action, environmental issues, formal education.

# УЧЕТ ВОПРОСОВ, СВЯЗАННЫХ С ИЗМЕНЕНИЕМ КЛИМАТА, ПРИ СОЗДАНИИ ИНФРАСТРУКТУРЫ НЕПРЕРЫВНОГО ОБРАЗОВАНИЯ И ОРГАНИЗАЦИИ ЕЕ РАБОТЫ

**Бабаев Аббас Ильхам**

**Институт образования Азербайджанской Республики**

**https://orcid.org/0000-0002-3939-9237**

**abbas.babayev@arti.edu.az**

## Резюме

Хотя создание инфраструктуры непрерывного обучения в Азербайджане было определено как одна из приоритетных целей развития, в настоящее время это направление рассматривается только с точки зрения подготовки конкурентоспособного человеческого капитала для национальной экономики, а влияние таких критических вопросов, как изменение климата, на актуализацию непрерывного обучения остается неизученным. Учитывая уязвимость Азербайджана к последствиям изменения климата, правительство приняло политику по различным экологическим проблемам, и компоненты образования и обучения часто включаются в эту политику. Однако компоненты образования и обучения, упомянутые выше, в основном охватывают формальное образование и ограничиваются традиционными учебно-просветительными мероприятиями. Одной из успешных практик стран, признающих важность непрерывного обучения для действий по борьбе с изменением климата, является использование неформальных и неофициальных образовательных возможностей для того, чтобы сделать уязвимые к изменению климата сообщества более подготовленными и устойчивыми, в дополнение к традиционным образовательным и учебным мероприятиям. В этом исследовании рассматривается актуальность непрерывного обучения для действий по борьбе с изменением климата в Азербайджане и даются рекомендации по учету экологических вопросов при создании инфраструктуры непрерывного обучения. В исследовании в качестве методов сбора данных использовались контент-анализ и интервью с различными местными и международными экспертами, а также лицами, работающими в государственном секторе в области науки и образования.

**Ключевые слова:** непрерывное обучение «зеленые» навыки, действия по борьбе с изменением климата, экологические проблемы, формальное образование.

# İQLİM DƏYİŞMƏLƏRİ İLƏ BAĞLI MƏSƏLƏLƏRİN ÖMÜRBOYU TƏHSİL İNFRASTRUKTURUNUN YARADILMASI VƏ İŞİNİN TƏŞKİLİ ZAMANI NƏZƏRƏ ALINMASI

**Babayev Abbas İlham oğlu**

**Azərbaycan Respublikasının Təhsil İnstitutu**

**https://orcid.org/0000-0002-3939-9237**

**abbas.babayev@arti.edu.az**

### İqlim fəaliyyəti məqsədilə ömürboyu təhsilin artan əhəmiyyəti

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf gündəliyində ömürboyu təhsilin təşviqi və bu məqsədlə zəruri təhsil infrastrukturunun yaradılması əhəmiyyətli yer tutur (Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 2013; Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, 2021). Ömürboyu təhsilin əhəmiyyətinin vurğulandığı siyasi sənədlərin təhlili göstərir ki, bugünədək Azərbaycanda ömürboyu təhsil əsasən əmək bazarında müşahidə olunan kadr çatışmazlığı problemləri və digər iqtisadi prioritetlər fonunda təşviq olunub (Valiyev, 2020). Məsələn, 2030-cü ilədək ölkənin beş sosial-iqtisadi inkişaf prioritetinin əks olunduğu sənəddə uzunmüddətli iqtisadi inkişafın təmin edilməsi üçün müasir bilik və bacarıqlara malik şəxslərin hazırlanması üçün ömürboyu təhsilin xüsusi əhəmiyyəti qeyd olunmuşdur (Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, 2021). Azərbaycan Respublikasının 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyasında da ömürboyu təhsilin vacibliyi məhz rəqəmsal iqtisadiyyata keçidin sürətləndirilməsi ilə əlaqələndirilmiş və bu məqsədlə mövcud insan resurslarının yenidən kvalifikasiyası üçün ömürboyu öyrənmə imkanlarının yaradılması zərurəti vurğulanmışdır (Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası, 2022).

Lakin, ömürboyu təhsili aktuallaşdıran amillərə dair beynəlxalq elmi ədəbiyyata nəzər salsaq görərik ki, dünyada ömürboyu öyrənmə yalnız əmək bazarı və digər iqtisadi problemlər fonunda təşviq olunmur (World Bank, 2024). Belə amillər arasında demoqrafik dəyişikliklər, keyfiyyətli səhiyyə xidmətlərinin qurulması zərurəti, vətəndaşlıq məsuliyyəti və sair məsələlərə əlavə olaraq iqlim dəyişmələri və onların fəsadlarından qaynaqlanan problemlərin çəkisi artmaqdadır (UNESCO Institute for Lifelong Learning [UIL], 2022).

İqlim fəaliyyəti üçün ömürboyu öyrənmə istiqaməti çərçivəsində əsas diqqət iqlim dəyişmələrinin müxtəlif icmaların həyat tərzlərinə təsirlərinin öyrənilməsinə və həmin icmaların iqlim dəyişmələri və onların fəsadlarına yüksək hazırlıqlı və dözümlü olmalarının təmin edilməsinə yönəldilir (World Bank, 2024). Xüsusilə vurğulamalıyıq ki, sözügedilən istiqamət çərçivəsində məqsəd təkcə iqlim dəyişmələri ilə bağlı əhali arasında məlumatlılığın artırılması yox, həm də yaşıl bacarıqların inkişafı, bununla da insanların davranışlarının dəyişdirilməsidir (United Nations Industrial Development Organization, 2020; Azərbaycan Respublikasının Təhsil İnstitutu, 2024).

İqlim dəyişmələrinin fəsadları ilə üzləşmiş bir sıra ölkələr həmin fəsadların aradan qaldırılması və əhalinin belə vəziyyətlərə uyğunlaşdırılması məqsədilə təhsil imkanlarından effektiv bir alət kimi istifadə etməyə başlayıblar [UIL, 2022]. Buna misal olaraq elmi ədəbiyyatda geniş rast gəlinən nümunələrdən biri 2017-ci ildə Cənubi Afrika Respublikasının Keyptaun şəhərində yaşanan şiddətli

quraqlıq səbəbindən insanların məhdud su resurslarından səmərəli istifadə davranışlarının formalaşdırılması və bu məqsədlə onların zəruri biliklərə yiyələnməsi halıdır. Mövzu ilə bağlı Qərbi Keyp Universitetininn professoru Şirli Uolters tərəfindən aparılmış araşdırmanın iştirakçılarının biri vəziyyəti belə izah edir: “Quraqlıq əlbəttə ki, mənim “müəllimim” olub. Bu baxımdan gündəlik davranışlarımı yenidən nəzərdən keçirmişəm və suya qənaət üzrə yeni strategiyalar düşünmüşəm” (Walters, 2018). Araşdırma iştirakçısı davam edərək qeyd edir ki: “Mən suyun iqtisadiyyatı haqqında daha çox öyrənməyə və özüm kimi, yəni orta təbəqədən və yüksək təhsilli olmayan insanlardan, daha çox məlumat almağa cəhd edirəm”. Qeyd olunanlar ekoloji problemlərin insanların öyrənmə motivasiyasını necə aktuallaşdırdığını və bunun təkcə məşğulluq imkanları ilə bağlı olmadığını göstərən bariz nümunələrdir. Onu da qeyd edək ki, Keyptaun şəhərində yaranmış quraqlığın təsirlərinin aradan qaldırılması və əhalinin davranışlarının vəziyyətə uyğunlaşdırılması üçün təhsil və təlim imkanlarından istifadə edilməsi təşəbbüsünə şəhər rəhbərliyi tərəfindən start verilmişdir (UIL, 2022).

**Azərbaycanda iqlim fəaliyyəti üçün ömürboyu təhsilin aktuallığı**

Azərbaycanda iqlim dəyişikliyinə həssas, müxtəlif ekoloji problemlərin müşahidə olunduğu ölkələr sırasında yer alır (Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial—iqtisadi inkişafa dair Milli Proqram, 2003). Belə ki, Azərbaycan 2040-cı klədək şiddətli quraqlıq riskinə görə dünyada 18-ci yerdədir (Xalq qəzeti, 2024). Bundan əlavə, ölkədə kənd təsərrüfatı üçün yararlı torpaqların eroziyaya məruz qalması, meşələrin qırılması və beləliklə, meşə sahələrinin azalması kimi ciddi ekoloji problemlər də müşahidə olunur (Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial—iqtisadi inkişafa dair Milli Proqram, 2003).

Yuxarıda qeyd olunan və ölkə üçün aktual olan digər ekoloji problemlərin aradan qaldırılması baxımından əhali arasında ekoloji təfəkkürün formalaşdırılmasının zərurəti, təhsilin bütün pillələrində ətraf mühitin mühafizəsi, bioloji müxtəlifliyin qorunması və s. əlaqədar mövzular üzrə tədris fəaliyyətinin genişləndirilməsi, ali məktəblərdə dayanıqlı inkişaf üzrə pilot layihələrin həyata keçirilməsi kimi tədbirlər əks etdirilsə də, bu fəaliyyətlərin təşkilinə hələ də sistemli yanaşma tətbiq olunmur və ekoloji problemlər ölkədə ömürboyu təhsili aktuallaşdıran vacib bir amil kimi hesab olunmur (Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram, 2003; Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017–2020-ci illər üçün Milli Strategiya, 2016; Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya, 2024). Başqa sözlə desək, ölkədə ekoloji təfəkkürün və tərbiyənin formalaşdırılması istiqamətində təhsil və təlim xarakterli tədbirlər əsasən formal təhsil müəssisələrində müvafiq fənlərin tədrisi və dərs vəsaitlərində müvafiq mövzulara daha geniş yer ayrılması ilə kifayətlənir, iqlim dəyişmələrinə və onların fəsadlarına xüsusilə həssas icmalardan olan şəxslərdə (istənilən yaş qrupundan) yeni davranışların formalaşdırılmasını, onların yeni bilik və bacarıqlarla, xüsusilə də yaşıl bacarıqlarla təmin edilməsini sistemli şəkildə hədəfləmir. Yəni, iqlim dəyişmələrinə adaptasiya tədbirləri arasında təhsil və təlimdən səmərəli alət kimi istifadə edilməsi üzrə bir baxış hələ formalaşdırılmayıb.

Bu tədqiqat çərçivəsində müxtəlif yerli və beynəlxalq ekspertlər, elm və təhsil sahəsində dövlət sektorunda çalışan şəxslər ilə müsahibələr zamanı da, ömürboyu öyrənmənin aktuallığının əmək bazarındakı problemlər ilə məhdudlaşdırıldığı müşahidə edilmiş və iqlim dəyişmələrindən yaranan məsələlərə demək olar ki, istinad edilməmişdir.

**Nəticələr və tövsiyələr**

Azərbaycanda ömürboyu təhsil infrastrukturunun yaradılması prioritetləşdirilmiş inkişaf məqsədlərindən biri kimi müəyyən edilsə də, hazırda bu istiqamətə yalnız milli iqtisadiyyat üçün rəqabətli insan kapitalının hazırlanması perspektivindən yanaşılır və iqlim dəyişmələri kimi kritik əhəmiyyətli məsələlərin ömürboyu təhsilin aktuallaşdırılmasına təsiri araşdırılmamış qalır. Düzdür, ölkə üçün aktual xarakter daşıyan bioloji müxtəlifliyin qorunması, su ehtiyatlarından səmərəli istifadə edilməsi və sair kimi müxtəlif ekoloji məsələlərə həsr olunmuş dövlət siyasətlərində təhsil və təlim komponentinə yer verilsə də, həmin komponentlər adətən formal təhsili əhatə edir, ənənəvi tədris və maarifləndirmə fəaliyyəti ilə məhdudlaşır. Lakin, iqlim dəyişmələrinin fəsadları ilə üzləşmiş bir sıra ölkələrin uğurlu təcrübələrinə nəzər salsaq görərik ki, həmin ölkələr yuxarıda qeyd olunan istiqamətlərdə ənənəvi tədris və maarifləndirmə fəaliyyəti ilə yanaşı, qeyri-formal və informal təhsil imkanlarından da istifadə etmiş və beləliklə də, xüsusilə həssas icmaları iqlim dəyişmələrinə daha hazırlıqlı və dözümlü etməyə nail olmuşdur (UIL, n.d.; Azərbaycan müəllimi, 2024).

Mövzu üzrə elmi ədəbiyyatı və yuxarıda qeyd olunan təcrübələri nəzərə alaraq, Azərbaycan üçün aşağıdakı tövsiyələr formalaşdırılmışdır (UIL, 2022):

– Azərbaycanda ekoloji problemlərin təsirlərinə xüsusilə həssas olan icmaların müəyyənləşdirilməsi və onların yeni reallıqlara adaptasiyası üçün tələb olunan dəyişikliklərin (həyat tərzlərində və davranışlarında) araşdırılması, bu məqsədlə ali təhsil müəssisələrində və tədqiqat mərkəzlərində tədqiqatların aparılması, o cümlədən digər ölkələrin uğurlu təcrübələrinin öyrənilməsi;

– Yuxarıda qeyd olunan araşdırmaların nəticələri (xüsusilə hər bir icmanın fərdi xüsusiyyətlərinə dair) nəzərə alınmaqla, müxtəlif yaş kateqoriyalarından olan şəxslərə yönəlik və fərqli mühitlərdə həyata keçirilə bilən qeyri-formal təhsil imkanlarının yaradılması, habelə iqlim fəaliyyəti üçün informal təhsilin təşviqi;

– Formal təhsildə, xüsusilə ali təhsildə, müvafiq təhsil proqramları üzrə yaşıl bacarıqların formalaşdırılmasına prioritetin verilməsi, bu məqsədlə konkret təlim nəticələrinin müəyyənləşdirilməsi, zəruri bilik və bacarıqlara malik pedaqoji kadrların yetişdirilməsi, habelə təhsil müəssisələrinin rəhbər heyətlərinin gündəliklərində belə məsələlərə mütəmadi yer ayrılması üçün zəruri addımların atılması.

Yuxarıda sadalananlar iqlim fəaliyyəti üçün ömürboyu təhsilin təşkili yolunda görülə biləcək işlərin sadəcə kiçik bir hissəsidir. Onların xüsusi vurğulanmasının səbəbi digər tədbirlər ilə müqayisədə bu tədbirlərin daha əlçatan olması ilə bağlıdır.

**Ədəbiyyat:**

Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. (2021, fevral 2). https://president.az/az/articles/view/50474

Azərbaycan müəllimi. (2024, sentyabr 30). *Gələcəyimizi seçmək: İqlim dəyişikliyi üçün təhsil və onun təsirləri*. https://www.old.muallim.edu.az/news.php?id=32447

Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017–2020-ci illər üçün Milli Strategiya. (2016, oktyabr 3). https://e-qanun.az/framework/33817

Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial—iqtisadi inkişafa dair Milli Proqram. (2003, fevral 18). https://e-qanun.az/framework/1975

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. (2013, oktyabr 24). https://president.az/az/articles/view/9779

Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. (2022, iyul 22). https://e-qanun.az/framework/50013

Azərbaycan Respublikasının Təhsil İnstitutu. (2024, sentyabr). *Beynəlxalq Təhsil İcmalı Sentyabr 2024*. https://arti.edu.az/2024/09/26/beyn%C9%99lxalq-t%C9%99hsil-icmali-sentyabr-2024/

Xalq qəzeti. (2024, iyul 26). *Ölkəmiz şiddətli quraqlıq riskinə görə dünyada 18-ci yerdədir*. https://xalqqazeti.az/az/ekologiya/187888-olkemiz-siddetli-quraqliq-riskine-gore

Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya. (2024, oktyabr 10). https://static.president.az/upload/Files/2024/10/11/3579828d4b3fb5cd36b497304e510793_1179943.pdf

UNESCO Institute for Lifelong Learning. (2022). *Making lifelong learning a reality: a handbook*. UNESCO Institute for Lifelong Learning. https://unesdoc.unesco.org/ark:/48223/pf0000381857

UNESCO Institute for Lifelong Learning. (n.d.). *Why lifelong learning for climate action at the local level matters*. UNESCO Institute for Lifelong Learning. https://www.uil.unesco.org/en/why-lifelong-learning-climate-action-local-level-matters

United Nations Industrial Development Organization. (2020). *Green skills for a sustainable future*. UNIDO. https://www.unido.org/sites/default/files/files/2021-02/LKDForum-2020_Green-Skills-for-a-Sustainable-Future.pdf

Valiyev, A. (2020). *Attaining SDG 8 in Azerbaijan: The challenges of economic transformation and job creation*. International Labour Organization. https://www.ilo.org/publications/attaining-sdg-8-azerbaijan-challenges-economic-transformation-and-job

Walters, S. (2018). The drought is my teacher: Adult learning and education in times of climate crisis. *Journal of Vocational, Adult, and Continuing Education and Training*, 1, 146–162.

World Bank. (2024). *Choosing Our Future: Education for Climate Action*. The International Bank for Reconstruction and Development/The World Bank

https://www.worldbank.org/en/topic/education/publication/education-for-climate-action

# AZƏRBAYCAN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ DAYANIQLI İNKİŞAF ÜÇÜN TƏDQİQAT POTENSİALININ ARTIRILMASI

**Yadigarova Leyla Akif**

**Azərbaycan Respublikasının Təhsil İnstitutu**

**https://orcid.org/0000-0001-8445-2976**

**leyla.yadigarova.dok@arti.edu.az**

**Rəyçi:**

**Məmmədova Aytəkin Telman qızı,**

**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

**Xülasə**

Ali təhsil müəssisələri (ATM) dayanıqlı inkişaf istiqamətində lider və nümunə olmaq potensialına malikdir. Qlobal ATM-lər tərəfindən gündəlik təcrübədə davamlılıq və ekoloji problemlər nəzərə alınmasına baxmayaraq, hələ də dayanıqlı inkişaf məqsədlərinin təhsil proqramlarına inteqrasiya edilməsi yolları barədə ümumiləşdirilmiş fikir mövcud deyil. Dayanıqlı inkişaf məqsədlərinin tədris proqramlarına səmərəli inteqrasiyasının təmin edilməsi üçün müxtəlif sahələri təmsil edən akademik nümayəndələrin iştirakı ilə daha kompleks araşdırmalar aparılmalıdır. Bu istiqamətdə, dayanıqlılıqla bağlı tədqiqatların həyata keçirilməsi üçün tədqiqat potensialının inkişaf etdirilməsi əhəmiyyət kəsb edir. Bu kimi tədqiqatlar ATM-lərə ən yaxşı təcrübələri müəyyən etməyə, real nəticələri aidiyyəti tərəflərə çatdırmağa, effektiv çərçivə və qaydaları tərtib etməyə, həyata keçirilmiş tədbirlərin təsirlərini ölçməyə və səmərəli qərarların qəbul edilməsinə imkan yaradır.

**Açar sözlər:** ali təhsil müəssisələri, tədqiqat potensialı, dayanıqlı inkişaf məqsədləri, dayanıqlılıqla bağlı tədqiqatlar.

# РАЗВИТИЕ ИССЛЕДОВАТЕЛЬСКОГО ПОТЕНЦИАЛА ДЛЯ УСТОЙЧИВОГО РАЗВИТИЯ В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ АЗЕРБАЙДЖАНА

**Ядигарова Лейла Акиф**

**Институт Образования Азербайджанской Республики**

**https://orcid.org/0000-0001-8445-2976**

**leyla.yadigarova.dok@arti.edu.az**

**Резюме**

Высшие учебные заведения (ВУЗы) обладают потенциалом стать лидерами и примером в области устойчивого развития. Несмотря на то, что вопросы устойчивого развития и охраны окружающей среды включены в повседневную деятельность университетов по всему миру, до сих пор отсутствует единое понимание, как интегрировать цели устойчивого развития в образовательные программы. Для эффективной интеграции целей устойчивого развития требуется проведение более комплексных исследований с участием представителей академического сообщества из разных дисциплин. Важным шагом в этом направлении является развитие исследовательского потенциала, направленного на проведение исследований в области устойчивого развития. Такие исследования помогают университетам выявлять лучшие практики, демонстрировать реальные результаты заинтересованным сторонам, разрабатывать эффективные структуры и нормы, измерять воздействие реализованных инициатив и принимать обоснованные решения.

**Ключевые слова:** высшие учебные заведения, исследовательский потенциал, цели устойчивого развития, исследования в области устойчивого развития.

# ENHANCING RESEARCH CAPACITY FOR SUSTAINABLE DEVELOPMENT IN AZERBAIJAN HIGHER EDUCATION INSTITUTIONS

**Yadigarova Leyla Akif**

**Institute of Education of the Republic of Azerbaijan**

**https://orcid.org/0000-0001-8445-2976**

**leyla.yadigarova.dok@arti.edu.az**

Addressing the theme of the sustainability and the green world in higher education institutions (HEIs) is important particularly at this moment when the world is facing increasing environmental challenges. Specifically, it is contended that the sustainability issues are necessary to be accounted for not only in universities that provide programs in various environmental fields but also other educational programs in other fields of studies. For many decades universities have engaged in debates about maintaining a better environment for the future generations. It is contended that higher education institutions possess the potential to be leaders and models for the adoption of pro-sustainability policies and actions (Davis, S. et al., 2003). Higher education for sustainable development and the green world focuses on teaching, conducting research for addressing global issues, promoting sustainability principles and practices and integrating all these issues into educational programs and curriculum. Institutional rankings in the sphere of sustainability (e.g., QS Sustainability, THE Impact, GreenMetric, AASHE and others) have also accelerated efforts and actions towards achieving sustainability. There have been some studies that demonstrate how global universities are encountering these challenges. Generally, the universities around the world agree on the importance of equipping students with the knowledge, skills, and values needed for a sustainable and resilient future. For instance, the case study of Russian universities show how they perceive and address the sustainability and environmental issues by developing institutional sustainability policies, integrating sustainability knowledge into the program curriculum, establishing sustainability monitoring progress, conducting research in sustainability, adopting sustainable campus practices and infrastructure, and involving students in sustainability initiatives (Vidrevich M., Pervukhina, I., 2023). Also, it was determined that the academic staff are recommended to engage in appropriate training programs to adopt interactive teaching methods, results and competency-oriented teaching methods to achieve the abovementioned goals. The case study from Kazakhstan presents that interdisciplinarity approach will lead to active engagement and participation in interdisciplinary sustainability teaching and sustainable development. This way is proposed as a solution to the lack of initiatives for preventing environmental challenges and lack of collective decision making and leadership skills (Davletova, Sh., 2016). Although, the universities around the world are addressing sustainability and environmental issues in their daily practices, the research from a Swedish case study shows that despite being bound by similar global sustainable development goals, cooperation across various disciplines is challenging.

At the beginning of the 21$^{st}$ century the paradigm remained still traditional (Elton, L., 2003; Lozano, R., 2006) and Education for Sustainable Development was not fully integrated into all disciplines (Lozano, R. et al., 2013). Currently, there still lacks generalised information on how sustainability should be integrated into the educational programs within HEIs. More research about the ways of cooperation of various academics representing different disciplines for integrating sustainability into their teaching programmes should be conducted. Differences among disciplines

need to be acknowledged and used as an asset (Argento, D., Einarson, D., Mårtensson, L., et al, 2020). The implementation and integration of sustainability within educational programs and across disciplines requires joint and collective efforts of not only individuals, but also the whole institutional staff.

Current debates around the issue of creating more sustainable-oriented organizations encompass the necessity of embracing sustainability leadership. Some scholars identified seven attributes of sustainability leadership (leadership, interpersonal skills, focus on sustainability, orientation toward change, alignment with the organizational culture, values and moral principles, and business vision (Armani, A. B., Petrini, M., & Santos, A. C., 2020). For the sustainability-related actions and policies to become integrated into general institutional priorities, it needs to be practiced by different members of the institution for a long period of time until it becomes stabilized. Existing studies of sustainability research recommends to involve all institutional stakeholders, align sustainability management, provide appropriate resources and infrastructure, engage academic and administrative staff into continuous education and training (Aedi, N., 2024), enhance students' interest and engagement in sustainability (Filho, W.L., et al 2024), foster interdisciplinary sustainability teaching (Davletova, Sh., 2016), prepare agendas for contributing to economic growth and social welfare (Mensah, J., 2019). It is also advised to provide research data focused on sustainability development which will enable all involved stakeholders to make long-term and evidence-based decisions (Filho, W. L., et al, 2024). Additionally, embedding sustainability into the higher education system requires interdisciplinarity and multidisciplinary approach and collaboration with other universities. To achieve the above-mentioned goals, building the research capacity for engaging in sustainability research is of significance importance. Sustainability research enables the universities to identify effective practices, communicate evidence-based insights to involved stakeholders, design effective framework and regulations, measure the impact, and guide decision-making. These critical elements should be integrated systemically into the institutional system to provide a framework or guidelines in the path of transition to more sustainable societies.

**References:**

Aedi, N. (2024). Strategies and Best Practices for Implementing Green Campus: A Change Management Reviews . *Journal of Ecohumanism*, *3*(4), 2492–2502. https://doi.org/10.62754/joe.v3i4.3771

Argento, D., Einarson, D., Mårtensson, L., et al, (2020) Integrating sustainability in higher education: a Swedish case. *International Journal of Sustainability in Higher Education.* https://doi.org/10.1108/IJSHE-10-2019-0292

Armani, A. B., Petrini, M., & Santos, A. C. (2020). What are the Attributes of Sustainable Leadership?. *Review of Business Management*, 22(4), 820–835. https://doi.org/10.7819/rbgn.v22i4.4086

Davis, S. A., Edmister, J. H., Sullivan, K., & West, C. K. (2003). Educating sustainable societies for the twenty-first century. *International Journal of Sustainability in Higher Education, 4(2), 169–179.* https://doi.org/10.1108/14676370310467177

Davletova, Sh., (2016) Sustainability teaching in higher education institutions of Kazakhstan.

*International Journal of Continuing Engineering Education and Life-Long Learning.* https://doi.org/10.1504/IJCEELL.2016.078451

Elton, L. (2003) Dissemination of innovations in higher education: a change theory approach. *Tertiary Education and Management* 9, 199e214.

Filho, W.L., Trevisan, L.V., Pimenta Dinis, M.A. et al, (2024) Fostering students' participation in the implementation of the sustainable development goals at higher education institutions. *Discover Sustainability*. https://doi.org/10.1007/s43621-024-00204-7

Filho, W.L., Eustachio, J.H., Ávila, L.V., Dinis, M. A. P., Hernandez-Diaz, P. M., Batista, K., Borsari, B., & Abubakar, I. R. (2024). Enhancing the contribution of higher education institutions to sustainable development research: A focus on post-2015 SDGs. *Sustainable Development*, 1-13. https://doi.org/10.1002/sd.3184

Lozano, R., (2006). Incorporation and institutionalization of SD into universities: breaking through barriers to change. *Journal of Cleaner Production* 14 (9e11), 787e796

Lozano, R., Lukman, R., Lozano, F. J., Huisingh, D., & Lambrechts, W. (2013). Declarations for sustainability in higher education: becoming better leaders, through addressing the university system. *Journal of Cleaner Production, 48, 10–19.* doi:10.1016/j.jclepro.2011.10.006

Mensah, J. (2019). Sustainable development: Meaning, history, principles,pillars, and implications for human action: Literature review. *Cogent Social Sciences*, 5(1), 1653531.

Vidrevich M., Pervukhina, I. (2023) Higher Education for Sustainable Environment: From Theory to Practice, 2nd International Conference on Environmental Sustainability Management and Green Technologies (ESMGT 2023). https://doi.org/10.1051/e3sconf/202345106009

# THE ROLE OF THE USE OF NEW EDUCATIONAL TECHNOLOGIES IN THE TEACHING OF AZERBAIJAN HISTORY IN HIGH SCHOOLS IN INCREASE OF COGNITIVE ACTIVITY

**Ismayilova Turana Fazil**

**Educational Institute of Azerbaijan Republic**

**https://orcid.org/0000-0001-6462-7759**

**turanaismayilova1122@gmail.com**

**Rəyçi:**

**Məmmədova Aytəkin Telman qızı,**

**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

The thesis analyzes the role of the use of new learning technologies in the teaching of Azerbaijani history in higher schools in increasing the cognitive activity of students. In modern times, the use of innovative technologies, including digital teaching aids, in the educational process increases the quality of education and increases students' interest in learning. Through interactive methods, simulations and discussions, students study historical events more deeply and their cognitive activity increases. The thesis emphasizes the research approach carried out in 3 higher schools. The research work was conducted among educators and students at Sumgayit State University, Azerbaijan State Pedagogical University and Baku State University at 3 higher educational institutions selected at the undergraduate level in the 2023/2024 academic year. The results of scientific research are highly appreciated. The creation of personalized learning opportunities by digital tools allows students to experience the learning process according to their own pace and needs. The research carried out in the thesis shows that the application of new learning technologies in Azerbaijani history lessons in higher schools leads to an increase in learning results and academic achievements.

**Keywords:** Higher school, teaching of Azerbaijani history, use of new learning technologies, cognitive activity, undergraduate level

# РОЛЬ ИСПОЛЬЗОВАНИЯ НОВЫХ ОБРАЗОВАТЕЛЬНЫХ ТЕХНОЛОГИЙ ПРИ ПРЕПОДАВАНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В ВУЗАХ В ПОВЫШЕНИИ ПОЗНАВАТЕЛЬНОЙ АКТИВНОСТИ

**Исмайлова Турана Фазиль**

**Институт оразования Азербайджанской Республики**

**https://orcid.org/0000-0001-6462-7759**

**turanaismayilova1122@gmail.com**

**Резюме**

В диссертации анализируется роль использования новых технологий обучения при преподавании истории Азербайджана в высших школах в повышении познавательной активности студентов. В современное время использование инновационных технологий, в том числе цифровых средств обучения, в образовательном процессе повышает качество образования и повышает интерес учащихся к обучению. Благодаря интерактивным методам, симуляциям и дискуссиям учащиеся глубже изучают исторические события, повышается их познавательная активность. В диссертации подчеркивается исследовательский подход, реализованный в 3 высших школах. Исследовательская работа проводилась среди преподавателей и студентов Сумгаитского государственного университета, Азербайджанского государственного педагогического университета и Бакинского государственного университета в 3 высших учебных заведениях, отобранных на уровне бакалавриата в 2023/2024 учебном году. Результаты научных исследований высоко оценены. Создание возможностей персонализированного обучения с помощью цифровых инструментов позволяет учащимся проходить учебный процесс в соответствии с их собственным темпом и потребностями. Проведенные в диссертации исследования показывают, что применение новых технологий обучения на уроках истории Азербайджана в высших школах приводит к повышению результатов обучения и академических достижений.

**Ключевые слова**; Высшая школа, преподавание истории Азербайджана, использование новых технологий обучения, познавательная деятельность, бакалавриат

# ALİ MƏKTƏBLƏRDƏ AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ YENİ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN İDRAK FƏALLIĞININ YÜKSƏLDİLMƏSİNDƏ ROLU

**İsmayılova Turanə Fazil**

**Azərbaycan Respublikası Təhsil İnstitutu**

https://orcid.org/0000-0001-6462-7759

turanaismayilova1122@gmail.com

## Giriş

Azərbaycan tarixinin tədrisində tələbələrin idrak fəallığının təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. İdrak fəallığı tələbə şəxsiyyətinin strukturunda çox mühüm yer tutur, hətta müəyyən mənada onun bütün istiqamətini müəyyənləşdirir.

## Problem təyini

Ali məktəblərdə Azərbaycan tarixi dərslərində tələbələrdə idrak fəallığının yüksəldilməsi necə inkişaf etdirilir?

Bu suala cavab üçün bir-biri ilə qarşılıqlı əlaqədə olan 3 əsas cəhətin diqqət mərkəzində saxlanılması tələb olunur. Nəyi (məzmun) , nə üçün (məqsəd) və necə öyrətməli (üsul) ?

## Tədqiqat işinin məqsədi

Tədqiqat işinin əsas məqsədi ali məktəblərdə tarixin tədrisində müasir təlim texnologiyalarından istifadənin tələbələrin fəal tədris prosesinə cəlb olunmasına, idrak fəallığının artırılmasına və təlim motivasiyasının yüksəldilməsinə təsirini araşdırmaq olmuşdur.

## Metodologiya

İnteraktiv metdolardan istifadə tələbələrin idrakını inkişaf etdirir. Müasir təlim texnologiyalarından tərs çevirilmiş sinif otağı (Cantuna Avila & Canar Tapia, 2020). , Problem əsaslı öyrənmə (Bermudez Mendieta, 2021)., Çətinlik əsaslı öyrənmə (Rodríguez et al., 2021). Dizayn düşüncəsi (Latorre-Kosculluela et al.,2020)., Düşüncəyə əsaslanan öyrənmə (Ruiz, 2018)., Layihə əsasında tədris (PBL) (Gómez-Pablos et al., 2017). tələbələri düşünməyə, axtarışlara sövq edir. Problem-əsaslı öyrənmə (Filipenko M. & Naslund J.A. 2016)., (Hallinger P. & Snidvongs K. 2010)., ( Henriksen L.B.2011). , (Hmelo-Silver C. 2004). tələbələrin təfəkkürünü (Taylor, K. 2016) hərəkətə gətirir. Yaradıcı öyrənmə (Wegerif et al., 2019) tələbələrin tənqidi düşünmə, yenilikçi yanaşma və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Bu metodlar tələbələri daha geniş düşünməyə və yeni ideyalar irəli sürməyə təşviq edir. Beghetto & Kaufman (2015) və Kaufman & Sternberg (2007) təhsil psixologiyasında yaradıcılığın roluna toxunur, müxtəlif yaradıcılıq formalarını ("Yaradıcılıq Cs") müzakirə edir və öyrənmə mühitlərində yaradıcılığın təşviqində potensial problemləri vurğulayır. Traxler & Kukulska-Hulme (2015) və Traxler & Wishart (2011) mobil öyrənmənin inkişaf etməkdə olan sahəsinə dair fikirlər təklif edir

**Görülmüş işlər**

Tədqiqat işi 2023/2024-cü tədris ilində bakalavriat səviyyəsi üzrə seçilmiş 3 ali təhsil müəssisəsi üzrə Sumqayıt Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Bakı Dövlət Universitetində təhsilverənlər və təhsilalanlar arasında aparılmışdır. Elmi tədqiqat işlərinin nəticələri yüksək qiymətləndirilmişdir. ADPU-da tədqiqat işi ilə bağlı aparılmış sorğuda tələbələrin müasir tədris metodlarının istifadəsi ilə bağlı rəyləri verilmişdir:

***Cədvəl 1.***

| **Metodlar** | **Tələbə sayı** | **Faiz (%)** |
|---|---|---|
| Müzakirə | 96 | 66.7 |
| Fəallaşdırma | 73 | 50.7 |
| Məntiqi təfəkkür | 54 | 37.5 |
| Tədqiqat | 50 | 34.7 |
| Yaradıcılıq üsulları | 46 | 31.9 |
| Əqli hücum | 45 | 31.2 |
| Prezentasiyalar | 39 | 27.1 |
| Tənqidi təfəkkür | 35 | 24.3 |
| Qruplara bölünmə | 28 | 19.4 |
| Rollu oyunlar | 16 | 11.1 |

Sumqayıt Dövlət Universitetində tələbələrin müasir tədris metodlarının istifadəsi ilə bağlı rəylərinin təhlili verilmişdir:

***Cədvəl 2.***

| **Metodlar** | **Tələbə sayı** | **Faiz (%)** |
|---|---|---|
| Müzakirə | 115 | 67.6 |
| Fəallaşdırma | 81 | 47.6 |
| Məntiqi təfəkkür | 72 | 42.4 |
| Tədqiqat | 69 | 40.6 |
| Yaradıcılıq üsulları | 67 | 39.4 |
| Əqli hücum | 46 | 27.1 |
| Prezentasiyalar | 44 | 25.9 |
| Tənqidi təfəkkür | 50 | 29.4 |
| Qruplara bölünmə | 29 | 17.1 |
| Rollu oyunlar | 20 | 11.8 |

**Nəticə**

Müzakirə (67.6%) və Fəallaşdırma (47.6%) metodları ən çox tətbiq edilən metodlardır.

Məntiqi təfəkkür (42.4%) və Tədqiqatın aparılması (40.6%) metodları da geniş istifadə olunmaqdadır. Rollu oyunlar (11.8%) və Qruplara bölünmə (17.1%) ən az tətbiq edilən metodlardır. Müzakirə və Fəallaşdırma metodları, tələbələrin düşünmə bacarıqlarını təkmilləşdirir. Lakin, Rollu oyunlar və Qruplara bölünmə kimi daha praktik və sosial təcrübələr tələbələr arasında daha az tətbiq olunmaqdadır, bu da onların istifadəsinin məhdud olduğuna işarə edir.

**Ədəbiyyat:**


Bermudez Mendieta, J. (2021). Problem-based learning to improve critical thinking: systematic review.

Cantuna Avila, A. A., & Canar Tapia, C. E. (2020). Systematic review of the flipped classroom in Ecuador: approach to the state of the art. Pedagogical Studies (Valdivia), 46(3), 45-58.

Filipenko, M., & Naslund, J. A. (2016). Problem-based learning in teacher education. Cham: Springer Verlag.

Gomez-Pablos, V. B., del Pozo, M. M., & Muñoz-Repiso, A. G. V. (2017). Project-based learning (PBL) through the incorporation of digital technologies: An evaluation based on the experience of serving teachers. Computers in Human Behavior, 68, 501-512. https://doi.org/10.1016/j.chb.2016.11.056

Hallinger, P., & Snidvongs, K. (2010). A problem-based approach for management education: preparing managers for action. Dordrecht: Springer.

Henriksen, L. B. (2011). PBL and the Question of Real Learning. In PBL and the Question of Real Learning.

Hmelo-Silver, C. (2004). Problem-Based Learning: What and How Do Students Learn? Educational Psychology Review, 16(3), 235-266. Retrieved from www.jstor.org/stable/23363859.

Latorre-Cosculluela, C., Vázquez-Toledo, S., Rodriguez-Martínez, A., & Liesa-Orus, M. (2020). Design Thinking: creativity and critical thinking in the university. Electronic Journal of Educational Research, 22.

Rodriguez-Borges, C. G., Perez-Rodriguez, J. A., Bracho-Rodriguez, A. M., Cuenca-Alava, L. A., & Henriquez-Coronel, B. T. (2021). Challenge-Based Learning as a teaching-learning strategy of the subject resistance of materials. Domain Science, 7(3), 82-97.

Ruiz, M. (2018). Thought-based learning: its application in the teaching of criminal law. Journal of Education and Law, 1(18), 54-60.

Taylor, K. (2016). Diverse and critical perspectives on cognitive development theory. New Directions for Student Services, 154, 29-41.

Traxler, J., & Kukulska-Hulme, A. (Eds.). (2015). Mobile learning: The next generation. New York: Routledge.

Traxler, J., & Wishart, J. (2011). Making mobile learning work: Case studies of practice. Bristol: ESCAlate (HEA Education Subject Centre). Retrieved from http://dera.ioe.ac.uk/14768/1/8250.pdf

Wegerif, R., Mercer, N., & Major, L. (2019). Introduction to the Routledge international handbook of research on dialogic education. In N. Mercer, R. Wegerif, & L. Major (Eds.), The Routledge international handbook of research on dialogic education (pp. 1-8). Routledge.

## ECOLOGICAL EDUCATION AS A FUNDAMENTAL PROBLEM OF PEDAGOGY

**Sadigova Sabina Oktay**

**Azerbaijan State Pedagogical University**

**PhD candidate**

**https://orcid.org/0000-0003-3375-2498**

**sabina.sadigova20@gmail.com**

**Rəyçi:**

**Məmmədova Aytəkin Telman qızı,**

**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The aim of the thesis is to investigate the importance of environmental education as one of the fundamental problems of pedagogy. Examples include the relationship between nature and society, the environment, and other living organisms. The environment gets more and more polluted with time. This situation has reached an unavoidable level. The reason for this is the impact of new discoveries on the environment. A person with ecological culture does not harm nature, works for the development of nature, takes care of the surrounding world. Also, an ecologically cultured person will not harm the nature while implementing any plan related to the nature.

**Keywords:** educational system, ecological education, ecological culture, scientific literature, student

## ЭКОЛОГИЧЕСКОЕ ОБРАЗОВАНИЕ КАК ФУНДАМЕНТАЛЬНАЯ ПРОБЛЕМА ПЕДАГОГИКИ

**Садыгова Сабина Октай**

**Азербайджанский государственный педагогический университет**

**https://orcid.org/0000-0003-3375-2498**

**sabina.sadigova20@gmail.com**

**Резюме**

Цель данного тезиса исследование значения экологического образования как одной из фундаментальных проблем педагогики. Примеры включают отношения между природой и обществом, окружающей средой и другими живыми организмами. Окружающая среда со временем становится все более и более загрязненной. Эта ситуация достигла неизбежного уровня. Причиной этого является влияние новых открытий на окружающую среду. Человек с экологической культурой не причиняет вреда природе, работает на развитие природы, заботится об окружающем мире. Также экологически культурный человек не будет вредить природе при реализации любого замысла, связанного с природой.

**Ключевые слова**: система образования, экологическое образование, экологическая культура, научная литература, студент.

## EKOLOJİ TƏRBİYƏ PEDAQOGİKANIN FUNDAMENTAL PROBLEMİ KİMİ

**Sadıqova Səbinə Oktay**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**

**fəlsəfə doktoru proqramı üzrə dissertantı**

**https://orcid.org/0000-0003-3375-2498**

**sabina.sadigova20@gmail.com**

Təbiət və cəmiyyət arasında əlaqə, ətraf mühit və digər canlı orqanizmləri misal göstərmək olar. Ətraf mühit zaman keçdikcə daha da çirklənir. Bu halın qarşısı alınmaz səviyyəyə çatmışdır. Bunun səbəbi isə yeni kəşflərin ətraf mühitə təsiridir. Ekoloji mədəniyyəti olan şəxs təbiətə zərər vurmaz, təbiətin inkişafı üçün çalışar, ətraf aləmin qayğısına qalar. Həmçinin ekoloji mədəni insan təbiətlə bağlı hər hansısa planını həyata keçirərkən təbiətə zərər verməz.

### Ekoloji problemlərə müasir yanaşma

Heydər Əliyev deyirdi: "Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız".

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ümumtəhsil və ali məktəblərdə təhsil daha yaxşı inkişaf etməyə başladı. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə qəbul edildi. Bu qanun özündə müasirliyi və ənənəviliyi birləşdirirdi. Sonrakı dövrdə də dövlətimizin qayğısı ilə respublikamızda təhsilin inkişafına diqqət yetirilir, təhsil şəraiti və imkanları daha da yaxşılaşır.

Son vaxtlar insanla təbiət arasında qarşılıqlı təsirin, əlaqələrin genişlənməsi böyük qlobal ekoloji problemlərin sayını xeyli artırmışdır. Hər birimiz ilkin olaraq bunu dərk etməliyik ki, təbiətə qarşı diqqətli, həssas addım atılmazsa, uzaq olmayan yaxın gələcəkdə ekoloji problemlərin sayını artırmaqla insan övladı öz-özünü məhv edəcəkdir. Belə bir problemi həll etməyin ən sadə yolu ekoloji tərbiyəni, ekoloji mədəniyyəti, təhsili və məsuliyyəti aşılamaqdır. Bunun üçün ekoloji təhsil, tərbiyə, mədəniyyətin öyrədilməsi uşaq yaşlarından, ibtidai təhsil yaşından başlanılmalıdır. Bunun da səbəbi odur ki, bu dövrdə ətraf mühit haqqında qəbul edilən informasiyas gələcəyə böyük inam yaradar.

Təhsilalanda ətraf mühit haqqında olan informasiya sayəsində o, təbiətlə davranışında daha diqqətli olacaqdır. Bu isə birbaşa lokal, daha sonrakı mərhələdə isə qlobal problemlərin həllinə kömək edəcəkdir. Ekoloji tərbiyənin ibtidai sinifdə verilməsində əsas məqsədlərdən biri də təbiətə qarşı məsuliyyətli münasibət formalaşdırmaqdır. Bu prosesdə pedaqoqlarla bərabər valideynlər də çiyin-çiyinə təhsilalana ətraf mühitə necə davranmalı olduğunu aşılamalıdırlar. Ekoloji tərbiyənin verilməsi prosesi nə qədər sürətli və tez olarsa, pedaqoji səmərəliliyi də qısa zamanda özünü göstərəcəkdir.

Orta ümumtəhsil məktəblərində tədris olunan məktəb fənləri şagirdlərdə ekoloji məsuliyyət hissinin inkişafına birbaşa təsir etməlidir. Bunun üçün də mütəmadi olaraq mövzular daxilində ekoloji tərbiyəvi fikirlər verilməlidir. Mövzu daxilində verilən yeni təbiət komponenti barədə ətraflı məlumat da əks edilməlidir. Təbiət fərdin mənəvi inkişaf prosesinə xüsusi təsir göstərir. Fərdin təbiətə qarşı həsass davranışını formalaşdırmaq, təbiəti dərk etməsi, öyrənməsi üçün ekoloji tərbiyəvi fikirləri erkən yaşdan aşılamaq lazımdır.

**Ekoloji problemin elmi ədəbiyyatda yeri**.

Ekologiyanın fundamental elm olması kifayət qədər vaxt aparmış, ikinci mərhəldə öz əksini tapmış, üçüncü mərhələdə isə müxtəlif elmlərdə ekoloji istiqamətlər yaranmağa başlamışdır. Məhz bu dövrdə isə ekologiya qlobal xarakter almışdır. Qlobal ekologiya da bir növ təbiətələ insanın necə qarşılıqlı təsir etməsini araşdırır. Bunndan başqa, XX əsrin əvvəlində ekologiya lokal idisə, sonralar XX əsrin sonunda qlobal xarakter almağa başladı. Azərbaycanda ekologiyanın bir elm kimi formalaşmasının Q.T.Mustafayevin adı ilə bağlı olduğu vurğulanır. Daha sonrakı mərhələdə ekoloji problemlər ekoloji tərbiyə anlayışının yaranmasına səbəb olmuşdur. Bundan əlavə, ekoloji tərbiyənin elmdə möhkəmlənməsində xüsusi olaraq F.V.Sultanzadə, S.V.Hacıyeva, Q.Ş.Məmmədov kimi alimlərin adını çəkə bilərik. Adları qeyd edilən alimlər ekoloji problemlərin həllini taparaq qloballaşmasının qarşısını almağa çalışmışlar. Ekologiya elminin tam mərkəzində canlı varlıqlar dayanır.

Günümüzdə layihələr və oxu materialları tədris proqramının ilkin olaraq şərtləri əsasında tərtib edilir. Respublikamızdakı ümumtəhsil məktəblərində yeni tədris proqramına uyğun olaraq VI-XI siniflərdə "Təbiət" fənni tədris edilir. Bu layihələrin mahiyyəti və keyfiyyətləri ümumi mənada əvvəlki layihələrlə eyni deyil. Müasir layihələrdə indiki şou strategiyalarından istifadə, azyaşlıların avtonom fəaliyyəti daha çox özünü göstərir. Təhsil proqramını nəzərə alaraq, pedaqoqlar və tələbələr sərbəst hərəkət edir, bu səbəbdən də istənilən öyrənmə texnikasını seçmək şansına malikdirlər. Bunun üçün tərbiyə planına uyğun olaraq tədris aparılan "Təbiət" fənni üzrə dərslərdə şəxsiyyətin sosial mahiyyəti, eyni zamanda fərdin təbiət və iqlimlə əməkdaşlığı, təhsili yaradılır sonra isə formalaşdırılır. İbtidai təhsil planının ilkin şərtlərinə uyğun olaraq, canlıların hüceyrədən biosferə birləşməsi, bundan əlavə, onların irsi inkişafı, ekoloji problemlər həlli, ibrətamiz mahiyyəti nümunələrlə mərhələ-mərhələ aşılanır, sevgi və qayğı formalaşdırılır.

Ətraf mühitin qorunması, gələcək nəsillərə çatrılırması üçün Azərbaycan Respublikasının "Qırmızı kitab"ında qeyd olunmuş nəsli kəsilməkdə olan heyvanlar haqqında məlumatın çatdırılması lazımdır. Bu səbəbdən də həmin kitaba düşmüş heyvanlar haqqında şagirdlərə məlumat verilmək, istənilən pedaqoji problemi düzgün həll etmək üçün onun elmi, metodiki və pedaqoji ədəbiyyatını öyrənmək, təhlil etmək çox vacibdir. (Kərimov, 2007, s 32-38 )




Tədqiqatların və elmi-metodiki ədəbiyyatın tədqiqindən aşağıdakı nəticələr çıxarmaq olar:

Mövzu üzrə xüsusi tədqiqatçılar işləməli, izah xarakterli olmalı, ətraf mühitin mühafizəsinin öyrədilməsi üçün tələb olunan məlumatlar öyrənənin pedaqoji, psixoloji və yaş tələblərinə uyğun metodik şəkildə təmin edilməlidir;

Hər fənnin öz dili var. Beləliklə, "Təbiət" fənnində ətraf mühitin öyrənilməsi şagirdlərə ətraf aləm haqqında məlumat əldə etməyə və tənqidi düşünmə, deduktiv əsaslandırma, problem həll etmə və ünsiyyət bacarıqları əldə etməyə imkan verir (Qədimova, 2005, s 25-27)

Əgər biz gələcək nəsillərə heç nə saxlamadan bütün resurslarımızı israfla istifadə ediriksə, bu

zaman inkişaf dayanıqlı olmur. Ətraf mühit bizə ilk növbədə dayanıqlı inkişaf üçün lazımdır. “Dayanıqlı inkişaf nədir?” sualına göstərilən şəkildə cavab tapa bilərik.

**Ədəbiyyat:**


Ali təhsil müəssisələrinin innovasiyada rolu. (2018). Elektron Resurs // Azərbaycan - İnsan Kapitalı Forumu. 19-21 dekabr 2018-ci il. URL: https://tinyurl.com/2p9r82cs

Qurbanova M. (2021). Ali təhsil müəssisələrinin beynəlxalq rəqabət qabiliyyəti: reytinq metodologiyası. Azərbaycan məktəbi, N.2 (695), səh.19-31

Kərimov Y.Ş . (2007) Təlim metodları.Bakı, səh-32-38

Kurikulumların hazırlanması və tətbiqi məsələləri. (2008) Bakı, “Kövsər”.

Kurikulum islahatı: tədqiqatlar, nəticələr. (2001) Bakı, “Mütərcim”.Səh 48-52

Qədimova X.(2005) İnteraktiv təlim metodları.  Bakı. Səh 25-27

Nəzərov A, Mollayeva E . (2011) Müasir dövrün təhsil problemləri

# THE ROLE AND İMPACT OF İNTERNATİONAL STUDENT EXCHANGE İN REGİONAL HİGHER EDUCATİON NETWORKS

**Chunayev Muhammad Mahameli oglu**

**Lankaran State University**

**http://orcid.org/0000-0001-5643-4826**

**chunayev.mahamad@mail.ru**

**Rəyçi:**

**Məmmədova Aytəkin Telman qızı,**

**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

One of the most positive tendencies in higher education in the country after gaining independence was the establishment of higher education institutions (HEIs) in our regions. These independent HEIs were branches of those operating in the capital. After a certain period, depending on their ability to prove themselves, some of them were either closed or transformed into independent HEIs. The globalization of the 20th century had a particularly significant impact on education. This development created opportunities for international cooperation not only for HEIs in Baku but also for regional universities and institutes. Thanks to this collaboration, students studying in this country have gained the opportunity to pursue and continue their education at all levels in some of the world's most prestigious HEIs. The connections between these higher education institutions are maintained through various international programs, including 'dual degree' agreements in different specialties and student-teacher-professor exchanges. The role of international student exchange in regional higher education networks is highly significant. Because of this, HEI restructures its environment and material-technical infrastructure, updating its teaching system to meet world standards. This will ultimately lead to an increase in the international ranking of HEIs, laying the foundation for them to become world-class institutions.

**Keywords:** regional higher education, higher education network, educational cooperation, globalized education, development

# РОЛЬ И ВЛИЯНИЕ МЕЖДУНАРОДНОГО СТУДЕНЧЕСКОГО ОБМЕНА В РЕГИОНАЛЬНЫХ СЕТЯХ ВЫСШЕГО ОБРАЗОВАНИЯ

**Чунаев Мухаммад Махамали оглы**

**Лянкяранский государственный университет**

**http://orcid.org/0000-0001-5643-4826**

**chunaev.mahamad@mail.ru**

**Резюме**

После приобретения независимости самой лучшей тенденцией было учреждение Высшее учебное заведение (ВУЗ) в наших регионах. Эти ВУЗ-ы были филиалами ВУЗ-ов в столице. После некоторого времени всязи с тем, что они не оправдали себя, некоторые из них были ликвидированы, а некоторые стали самостоятельными ВУЗ-ми.

Глобализация XX века больше всего подействовала не только на ВУЗ-ы в Баку, но и на университеты и институты в регионах, дало им шансы на международное сотрудничество. Благодаря этому сотрудничеству студенты получили доступ на учёбу в самых престижных ВУЗ-ах мира. Сотрудничество между этими ВУЗ-ми основывается на международные программы. Учёба приводится на основе «двойного диплома» и обмена студенческо-учительского и профессорского состава. В международном секторе образования студенческий обмен играет особую роль. Потому что ВУЗ основывается на свою материально-техническую базу и обновляет своё обучение, основываясь на мировые стандарты. А это в конечном итоге повышает рейтинг ВУЗ-ов, делает их ВУЗ-ми мирового значения.

**Ключевые слова:** региональное высшее образование, сеть высшего образования, образовательное сотрудничество, глобализированное образование, развитие

# REGİONAL ALİ TƏHSİL ŞƏBƏKƏLƏRİNDƏ BEYNƏLXALQ TƏLƏBƏ MÜBADİLƏSİNİN ROLU VƏ TƏSİRİ

**Çunayev Məhəmməd Məhəməli oğlu**

**Lənkəran Dövlət Universiteti**

**htpp://orcid.org/0000-0001-5643-4826**

**chunayev.mahamad@mail.ru**

Müstəqillik qazandıqdan sonra ölkəmizin mühüm islahatlar apardığı və böyük miqdarda investisiya yatırdığı əsas istiqamətlərdən biri də təhsil sahəsidir. Azərbaycan dünyanın bir parçası olmaqla dünyada gedən tendensiyalara uyğun olaraq təhsilə verdiyi önəm aydın şəkildə görünür. Bu, son dövrlərdə təhsillə bağlı bir sıra mühüm islahatlar və təhsil proqramlarının qəbul edilməsidir. Aparılan təhsil islahatının əsas məqsədi yeni yanaşmalar əsasında təhsilin səmərəliliyini yüksəltmək, beynəlxalq təcrübədə olan müsbət cəhətlərin milli təhsilə tətbiqini sürətləndirmək, bütövlükdə təhsilin səviyyəsini yüksəltməkdən ibarət olmuşdur (Ruhəngiz Əliyeva, 2021). Təhsil hər bir cəmiyyətin, ölkənin inkişafının əsası hesab olunur, Hər bir ölkənin inkişaf səviyyəsi, iqtisadi göstəriciləri burada mövcud olan təhsilin inkişafından və təhsilə verilən dəyərdən asılıdır.

Azərbaycan Respublikasının təhsil sistemi, xüsusilə ali təhsil sisteminin inkişaf istiqamətlərindən biri də dünya təcrübəsinə əsaslanaraq ölkə iqtisadiyyatının inkişafının bilavasitə təhsillə əlaqələndirilməsidir. Ali təhsil cəmiyyətin ehtiyaclarına uyğun olaraq ictimai faydalı fəaliyyətin bütün əsas sahələrində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək, fərdin intellektual, mədəni, mənəvi inkişafı, təhsilin dərinləşdirilməsi və genişləndirilməsini təmin etmək kimi xidməti həyata keçirir (Çunayev, 2024). Buna nümunə kimi müstəqilliyin bərpasından sonra regionlarda ali təhsil şəbəkəsinin yaradılmasını misal göstərmək olar. Regionlarda yaradılmış regional ali təhsil müəssisələrində ixtisaslar təşkil edilərkən yerləşdiyi regionun sosial-iqtisadi, fiziki, coğrafi xüsusiyyətləri nəzərə alınmışdır. Fəaliyyyət göstərən regional ali təhsil müəssisələrinə Lənkəran Dövlət Universiteti (LDU), Gəncə Dövlət Universiteti (GDU), Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU), Azərbaycan Texnologiya Universiteti (AzTU), Naxçıvan Dövlət Universiteti (NDU), Naxçıvan Müəllimlər İnstitutu (NMİ), Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Zaqatala, Bakı Dövlət Dövlət Universitetinin Qazax, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi, Cəlilabad, Quba, Şamaxı, Şəki filiallarını göstərmək olar. Regional ali təhsil müəssisələrinin təşkili zamanı əsas üç prioritet məsələ-regionun inkişafına verdiyi dəstək, həmin regionda insan kapitalının yaradılması, regionda yeni innovativ obyektlərin təşkili və inkişaf etdirməsini nəzərdə tutur (Çunayev, 2024). Qloballaşmanın Azərbaycan ali təhsil sisteminə gətirdiyi müsbət hadisələrdən biri də ölkə təhsilinin qlobal təhsil məkanına inteqrasiyadır. Bu da bizə yüksək keyfiyyətli ali təhsil almaq imkanını yaratmışdır. Qlobal təhsil məkanına ineqrasiya nəinki paytaxt və iri şəhərlərdə yerləşən ali təhsil müəssisələri, eyni zamanda regional ali təhsil müəssisələri də qoşulurlar.

XXI əsrin 1-ci 10 illiyində ölkə ATM-lərinin xarici ölkələrin qabaqcıl ATM-ləri əlaqələri yaradılması yolunda ilk addımlar atılmağa başlandı. Paytaxtda fəaliyyət göstərən ali təhsil müəssisələri ilə yanaşı regionda yerləşən ATM-lər də uyğun addımlar atdı. Bununla da ölkədə fəaliyyət göstərən ATM-lərin qarşısına geniş imkanlar açıldı. Bura qarşılıqlı olaraq tələbə, müəllim mübadiləsi müxtəlif təcrübələrdə, konfranslarda iştirak, beynəlxalq əhəmiyyətli fərqli-fərqli təhsil

layihələrində iştirak etmək və tərəfdaşlıq daxildir. Bu müasir ATM-lərin qarşısında duran ölkədaxili və xaricdə rəqabətədavamlı, yüksək ixtisaslı kadr yetişdirmək, yeni biliklərin yaradılması istiqamətində, maddi-texniki bazanın insrastrukturun təmin olunması və digər mühüm vəzifələri qoydu. Xarici ölkələrlə başlanan əməkdaşlıq ən müxtəlif sahələri əhatə etdi və dünya miqyasında ATM-lər arasında əməkdaşlıqlar üçün xüsusi təhsil mexanizmi-qlobal əməkdaşlıq proqramları, layihələri yaratdı. Azərbaycanda fəaliyyət göstərən ATM-lər də beynəlxalq proqram və lahiyhələrdə iştirak etməyə başladı. Bu layihələrdən ERASMUS+, CAMPUS, Mövlanə DAAD, British Council və b. göstərmək olar. Həmçinin bu proqramlar çərçivəsində tələbə mübadiləsi və "ikili diplom" proqramı da həyata keçirilir.

Regional ali təhsil müəssisələrindən olan Lənkəran Dövlət Universiteti (LDU) British Council (Böyük Britaniya) DAAD (Almaniya) CAMPUS (Fransa) ERASMUS+ Mövlana (Türkiyə) və s. kimi beynəlxalq təşkilatlarla layihələr həyata keçirərək tələbə mübadiləsi aparır. Bu layihələr çərçivəsində Böyük Britaniya, Almaniya, Polşa, Macarıstan və digər ölkələrin bir sıra universitetləri ilə əlaqələr qurulmuş profesor müəllim heyəti və tələbələr uyğun universitetlərin təlimlərində iştirak etmişlər (LDU).

Gəncə Dövlət Universiteti (GDU) ERASMUS+ proqramı çərçivəsində İspaniya, Ruminiya, İtaliya, Belçika kimi müxtəlif ölkələrin ATM-ləri ilə və Mövlane proqramı ilə Türkiyə universitetlərinə, İngiltərənin "Chevening", Koreya universitetlrinə təqaüd proqramı ilə tələbə mübadiləsini həyata keçirir. Eyni zamanda Yaponiya səfirliyinin təqdim etdiyi təqaüd tədqiqat magistr, doktorantura pillələri üzrə tələbə mübadiləsi elan olunmuşdur (GDU, 2019).

Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) xarici ATM-lər ilə əlaqələri çərçivəsində Amerika Birləşmiş Ştatlarının Oklahoma Dövlət Universiteti ilə 2022/2023-cü tədris ilində "Beynəlxalq kənd təsərrüfatı" ixtisaslaşması üzrə "ikili diplom" magistr proqramına tələbə qəbulu həyata keçirilmişdir.

Regional ATM-lər xarici ölkələrin qabaqcıl universitetləri ilə dünyaca məşhur olan təhsilin bakalavr magistratura və doktorantura səviyyələri üzrə müxtəlif mübadilə proqramları ilə əməkdaşlıq edərək əlaqələr qurur ən müxtəlif səviyyələrdə işbirliyi həyata keçirirlər.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) Türkiyənin Ege Universiteti ilə imzalanmış Anlaşma Memorandumuna, habelə Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Türkiyənin Ali Təhsil Şurası tərəfindən təsdiq olunmuş protokola uyğun olaraq 2020/2021-ci tədris ilində bakalavriat səviyyəsində "Aqronomluq", "Bitki mühafizəsi", "Aqromühəndislik" və "İqtisadiyyat" ixtisaslarına beynəlxalq ikili diplom proqramları üzrə yalnız dövlət sifarişi əsasında tələbə qəbulu elan etmişdir (ADAU, 2021).

Azərbaycan Texnologiya Universiteti (AzTU) ERASMUS+ çərçivəsində Polşanın Bialistok Texnologiya Universiteti ilə magistratura pilləsində artıq 2024/2025-ci tədris ilində "Nəqliyyat Logistikası" ixtisası üzrə "ikili diplom" proqramı keçirilməyə başlamışdır. Magistrantlar uyğun olaraq 2 semestri Azərbaycan Texnologiya Universiteti və 2 semestri isə Polşanın Bialistok Texnologiya Universitetində təhsil alırlar.

**Nəticə.** Azərbaycan ali təhsil sisteminin beynəlxalq ali təhsil zonasına inteqrasiyanın ən vacib şərti beynəlxalq əməkdaşlıq olacaqdır.

Müasir dövrdə ATM-nin inkişafı, prestijli olması onun beynəlxalq əlaqələri, tələbə mübadilələri, ikili diplom proqramlarında iştirakı ilə ölçülür.Respublikamızın regionlarında fəaliyyət göstərən regional ali təhsil müəssisələrinin tələbələri xüsusi proqramlarla beynəlxalq tələbə mübadiləsi və “ikili diplom” proqramları çərçivəsində xarici ATM-lərdə təhsil almaq, davam etdirmək və bitirmək imkanlarını qazanmışlar. Bu regional ATM və xarici ATM-lər arasında mövcud əlaqələri genişlənmiş, ATM-lər arasında tələbə diplom mübadiləsi və digər əməkdaşlıq istiqamətində yeni imkanlar yaratmışdır.

**Təkliflər:** Qloballaşma proseslərinə uyğun olaraq regional ali təhsil müəssisələrinin beynəlxalq əlaqələrinin genişlənməsi prioritet istiqamət olmalıdır. Buna görə regional ATM-lərdə mövcud beynəlxalq əlaqələr çərçivəsində xaricə göndərilən və qəbul edilən tələbə sayı artırılmalı, bu proqramlarla olan əlaqələr genişlənməlidir. Yeni proqramlar çərçivəsində əlaqələrin yaradılması daim diqqət mərkəzində saxlanılmalıdır. Bundan əlavə ATM-nin yuxarıda göstərdiyimiz tələbə mübadiləsi proqramları olmadan müstəqil şəkildə digər ölkə ATM-ləri ilə əməkdaşlıqları nəzərdən keçirilməlidir. Ölkəmizdə fəaliyyət göstərən regional ATM-lər daha çox ölkə ATM-ləri ilə belə müqavilələrin bağlanmasına səy göstərməlidir. Eyni zamanda regional ATM-lərimiz xarici ölkələrin tanınmış, perspektivli, geniş əlaqələrə malik olan regional ATM-ləri ilə əlaqələrin yaradılmasında maraqlı olmalıdır.

**Ədəbiyyat**


https://ikisahil.az/post/209481-azerbaycanda-tehsil-islahatlarinin-mahiyyeti-ve-heyata-kechirilmesi-istiqametleri

https://bqu.edu.az/storage/b9d08394-902e-4014-97b4-a9776ac80e74.pdf

https://lsu.edu.az/fS/index.php

https://gdu.edu.az/yaponiyada-t%c9%99dqiqatla-m%c9%99sgul-olmaq-magistratura-v%c9%99-ya-doktorantura-t%c9%99hsili-almaq-ist%c9%99y%c9%99n-s%c9%99xsl%c9%99rin-n%c9%99z%c9%99rin%c9%99/

https://adau.edu.az/ikili_diplom_proqramlari/

# THE ESSENCE AND APPLİCATİONS OF "CASE STUDY TECHNOLOGY" İN TEACHİNG PHYSİCS

**Nasirova Aida Mushfiq**

**Azerbaijan State Pedagogical University**

**https://orcid.org/0009-0000-7743-6169**

**nesirovaaide1998@gmail.com**

**Rəyçi:**

**Məmmədova Aytəkin Telman qızı,**

**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

Modern research shows that certain technologies are needed in physics education to make abstract concepts more understandable for students. In this regard, case study technology plays an important role. It allows students to connect with real-life. From a scientific and pedagogical perspective, this technology ensures active participation of students in the learning process and develops their analytical and research skills. Key features of case study technology include supporting learning through real-life examples, creating a collaborative learning environment, and providing students with the opportunity to develop their own solutions. This technology makes complex subjects like physics more engaging for students, simplifies the learning process, and ensures a deeper understanding by relating topics to real-life scenarios.

**Keywords:** physics, students, case study technology, real-life

# СУТЬ И ПРИМЕНЕНИЕ "КЕЙС ТЕХНОЛОГИЙ" В ПРЕПОДАВАНИИ ФИЗИКИ

**Насирова Аида Мушфиг**

**Азербайджанский государственный педагогический университет**

**https://orcid.org/0009-0000-7743-6169**

**nesirovaaide1998@gmail.com**

**Резюме**

Современные исследования показывают, что в преподавании физики необходимы определенные технологии, чтобы сделать абстрактные понятия более понятными для учащихся. В этом отношении кейс технология играет важную роль. Она позволяет учащимся устанавливать связь с реальной жизнью. С научной и педагогической точек зрения эта технология обеспечивает активное участие учащихся в процессе обучения и развивает у них аналитические и исследовательские навыки. Среди основных характеристик кейс технология — поддержка обучения на основе реальных примеров, создание учебной среды, основанной на сотрудничестве, и предоставление учащимся возможности разрабатывать свои собственные решения. Эта технология делает такие сложные предметы, как физика, более интересными для процесс обучения и обеспечивает глубокое усвоение материала благодаря связи тем с реальной жизнью.

**Ключевые слова:** физика, учащихся, кейс технология, реальной жизнью

**FİZİKANIN TƏDRİSİNDƏ "KEYS TEXNOLOGİYASIN"DAN İSTİFADƏNİN MAHİYYƏTİ VƏ TƏTBİQLƏRİ**

**Nəsirova Aidə Müşfiq**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

**https://orcid.org/0009-0000-7743-6169**

**nesirovaaide1998@gmail.com**

Müasir araşdırmalar göstərir ki, şagidlərin analitik və tədqiqatçılıq bacarıqlarının inkişafında onların öyrənmə istəyi başlıca rol oynayır. Hal-hazırda şagirdlərin öyrənmək üçün səy göstərmək istəməməsinin səbəbi onların tədris materialını öyrənə bilməməsindədir. Çox vaxt tapşırıqların düzgün tərtib edilməməsi şagirdin onu həll edə bilməyəcəyini hiss etməsinə səbəb olur. Əgər o, qarşısına məsələnin mahiyyətini anlamağa səbəb olacaq real vəziyyət qoymağı öyrənsə, o zaman o, tez bir zamanda ona maraqlı olacaq problemin həllinə yönələcək.

Kurikulumun əsas məqsədlərindən olan "öyrənməyi öyrətmək" müəllimlərin başlıca vəzifəsidir və bu vəzifə onlara sadəcə ən yaxşı biliyi ötürməkdən qat-qat çətindir.Tədris prosesində şagirdlərə bilik əldə etməyə və bunu nə üçün etdiklərini anlamağa kömək edəcək texnologiyalardan biri də Keys texnologiyasıdır. Bu texnologiya şagirdlərə təkcə verilən suallara cavab axtarmağa deyil, həm də özlərinə məqsəd və vəzifələr qoymağa və onların həlli yollarını tapmağa kömək edir.

**"Keys texnologiyası" nədir?** İngilis dilindən tərcümədə "case"(keys) portfel, çamadan, çanta, qovluq (şagirdlərin işi üçün sənədlər paketi), başqa mənada vəziyyət, hal, insident deməkdir. Bu iki məna müasir texnologiya olan Keys texnologiyasını əmələ gətirir. Bu texnologiya şagirdlərin müstəqil fərdi və qrup fəaliyyətinə yönəldilmişdir

Keys problem situasiyalı öyrənmə texnologiyasıdır. Keys metodu ilk dəfə 1920-ci ildə Harvard Hüquq Məktəbində tədris prosesində istifadə edilmişdir. Hazırda xaricdə təhsil zamanı Keys texnologiyasından geniş istifadə olunur. Azərbaycanda bu tədris texnologiyasını çox gənc hesab etmək olar.

Keys - müəyyən bir formatda hazırlanmış və şagirdlərə müxtəlif növ məlumatları təhlil etməyi, ümumiləşdirməyi, problemi formalaşdırmaq və müəyyən edilmiş meyarlara uyğun olaraq onun mümkün həll yollarını tapmaq və inkişaf etdirmək bacarıqlarını öyrətmək üçün nəzərdə tutulmuş konkret real vəziyyətin təsviridir. Keys texnologiyasının mahiyyəti ondan ibarətdir ki, şagirdlərə hadisə və ya vəziyyət təklif olunur. Bu vəziyyətə əsasən problem müəyyən edilir, təhlil edilir və müzakirə edilir. Şagirdlərə bunun üçün öz variantlarını irəli sürməyə imkan verilir ki, onlar həllər arasından ən optimalını seçsin. Bu proses fəal yaradıcılıqla müşayiət olunur. Belə ki şagirdlər özlərinə lazımlı informasiyaları toplayır, onları müxtəlif nöqteyi-nəzərdən təhlil edir, fərziyyələr irəli sürür və nəticələr çıxarır. Deməli, Keys texnologiyası təlimdə şagirdlər üçün optimal imkanlar yaradır və şagirdlərin praktik bacarıqlarını birləşdirməyə, onların analitik və tədqiqatçılıq bacarıqlarının inkişafına imkan verir.

Təlim prosesində keys texnologiyasından istifadə reallığı kifayət qədər adekvat əks etdirir. Belə ki problemlərin həll yolları və qazanılan biliklər fəal və yaradıcı iş nəticəsində əldə edilir. Bu zaman şagird qarşısına müstəqil məqsəd qoyur, lazımi məlumatları toplayır, müxtəlif nöqteyi-nəzərdən təhlil edir, fərziyyə irəli sürür, nəticələr əldə edir. Keys texnologiyası bir növ rol oyunu sistemidir.

Rol altında şagirdlər onlara qoyulan tələblərin məcmusunu başa düşməyə çalışırlar.

Keys texnologiyasının tətbiq olunmasında üç yanaşma mövcuddur: *birincisi,* hadisənin diaqnostikası, *ikincisi,* diaqnostikadan sonra əsas problemlərin həll edilməsi, *üçüncüsü,* həll və onunla əlaqədar olaraq qərarların qəbulu. Bundan başqa bu texnologiyanın köməyi ilə öyrənənlərdə aşağıdakı kimi bacarıqları formalaşdırmaq olar:

1. Hadisənin əlverişli yollarının tapılması və həlli.

2.Təfəkkür qabiliyyətini inkişaf etdirmək.

3. Hadisəni yaradan səbəblərin həllinin köməyi ilə məntiqi düşünmək qabiliyyətini inkişaf etdirmək.

4. Tədqiqatçılıq bacarığını inkişaf etdirmək.

5. Analitik bacarığı inkişaf etdirmək.

6. Əldə olunan informasiyaları sistemləşdirib, nəticələri çıxarmaq və onları əsaslandıra bilmək.

Aşağıda 8-ci sinif şagirdləri üçün Keys texnologiyasından dərs nümunəsinə nəzər yetirək:

**Mövzu: "İstilikkeçirmə"**

**Dərsin məqsədi:** Şagirdlərdə istilikvermənin növü olan istilikkeçirmə hadisəsi haqqında biliklərin daha dərindən mənimsədilməsi və bu hadisəni gündəlik həyatlarında fərqləndirməyi bacarması.

**Dərsin gedişi:** Şagirdlərlə mövzu ilə əlaqədar mənimsədikləri köhnə bilikləri xatırlatmaqla qısa ümumiləşdirmələr aparıb sonra müəyyən motivasiya yaratmaq məqsədi ilə aşağıdakı kimi problem situasiya yaradılır.

**Problemli situasiya:** Bu mərhələ kiçik bir keys mətnini şagirdlərə səsləndirərək vermək olar.

"Təmir ustası eyni şəraitdə olan ləvazimatlardan mətbəx dəzgahı mərmərini taxta bloklar ilə nizamlayıb sabitləyir. Bu zaman usta bir əli ilə taxtaya, bir əli ilə mərmərə toxunduğu an mərməri daha soyuq hiss edir." Buna səbəb nədir?



Şagirdlər tərəfindən irəli sürülən ideyalar yazı lövhəsində qeyd edilir.

**Mümkün suallar:**

1. İstilik deyəndə nə başa düşürsünüz?

2. İstilik hansı maddədən daha asan keçər? Taxta yoxsa, metal? Səbəb?

3. Sizcə hər hansı bir maddəni isidəndə nə baş verir?

**Müəllim:** Taxta və mərmərə toxunmadan əvvəl ikisinin də temperaturları əslində eyni idi. Toxunduqdan sonra mərmər taxta ilə müqayisədə daha tez enerji alır, yəni istiliyi daha yaxşı keçirir. Beləliklə, əlimiz daha qısa müddətdə soyuyar və mərməri taxtadan daha soyuq hiss edərik.

**Problemli situasiya:** Şagirdlərə qısa bir keys mətni səsləndirilir.

“Aysel qış tətilində babası və nənəsini ziyarət etmək üçün kəndə getmişdi. Nənəsi sobanın içinə maşa ilə kömür əlavə etdikdən sonra onu bilmədən sobanın üstünə qoydu və eyni zamanda içərisinə əvvəlcədən su doldurduğu qazançanı isinsin deyə sobanın üstünə qoydu. Ayselin əli ehtiyatsızlıqdan maşaya dəydi və əli bir az yandı, nənəsi tez onun əlini qazançadakı suya saldı ki sakitləşsin. Maşa çox isti olmağına baxmayaraq eyni vaxta sobanın üstünə qoyulan su ılıq idi. “Nənə niyə belə etdi?” deyə Aysel öz-özünə düşündü. Şagirdlər sualın cavabını fikirləşirlər və onların ideyaları yazı lövhəsinə qeyd olunur. Şagirdlərin bir çoxuna aydın oldu ki, bərk cisim və maye eyni şəraitdə eyni cür qızmır. Bu situasiyanı şagirdlər daha yaxşı başa düşsünlər deyə müəllim onlara aşağıdakı kimi laboratoriya keysini təqdim edə bilər. Bu təcrübənin kiçik qruplarla aparılması məqsədəuyğundur.

**Ləvazimatlar:** metal çubuq(mis və ya alüminium yüksək istilikkeçiriciliyinə görə), menzurka(istilikkeçirmənin daha yaxşı müşahidəsi üçün şüşədən olması məqsədəuyğundur), su, termometr(2 ədəd, hər mühit üçün biri), Bunsen qızdırıcısı, saniyəölçən, istiyə davamlı əlcəklər,ölçü lenti.

**Bərk cisim üçün işin gedişi:**

1. Metal çubuğu bir ucu birbaşa alov və ya istilik mənbəyinin üstündə olmaqla yerləşdirin;

2. Termometri çubuqdakı istilik mənbəyindən müəyyən bir məsafədə yerləşdirin. Bu nöqtəni markerlə qeyd edin.

3. İstilik mənbəyini işə salan kimi saniyəölçəni də işə salın.

4. Termometrin göstəricisində kəskin bir temperatur artımı hiss edənə qədər temperaturu müntəzəm olaraq( məsələn, hər 30 saniyədən bir) qeyd edin.

**Maye üçün işin gedişi:**

1. Menzurkaya müəyyən miqdarda su tökün.(termometrin suya batırılması üçün kifayət qədər dərin olduğundan əmin olun)

2. Termometri bərk cisimdə olduğu kimi istilik mənbəyində eyni məsafədə yerləşdirin.

3. İstilik mənbəyini işə salan kimi saniyəölçəni işə salın.

4. Bərk cisimdə olduğu kimi eyni fasilələrlə temperaturu qeyd edin.

**Təcrübə ilə bağlı mümkün suallar:**

1. Hər bir mühitdə temperaturun müəyyən qiymətə çatması üçün nə qədər vaxt lazım oldu?

2. Bərk cismin istilikkeçirməsindən fərqli olaraq mayenin hərəkətində hər hansı bir dəyişiklik hiss etdiniz mi?

3. Bu dəyişikliyin səbəbi sizcə nədir?

4. İstilik nə üçün maye ilə müqayisədə bərk cisimdə daha sürətli ötürülür?

Yaradılmış problem situasiya və təqdim olunmuş suallar əsasında şagirdlər kiçik qruplar şəklində müvafiq keyslər yazırlar. Daha sonra komanda şəklində öz keyslərini təqdim edirlər.

Bu cür tapşırıqlarla şagirdlərin tədqiqatçılıq və analitik bacarıqlarını yüksək səviyyədə inkişaf etdirmək mümkündür.

**Ədəbiyyat:**

Mehrabov, A., Abbasov, Ə., Zeynalov, Z., Həsənov, R. (2006) Pedaqoji texnologiyalar, Bakı

Nəzərov, A.M. (2012) Müasir təlim texnologiyaları. Dərs vəsaiti. ADPU-nəşriyyatı. Bakı

Pratibha Patankar (2021) "Pedagogy of Case Study", Hindistan

Афанасьева, И. В. (2015) Технология проектного обучения и ее именение в преподавании физики. Методическая разработка учителя физики,Украина

Кононихина, И. И., Мазаева, И. А. (2008) Розвитие инновационных идей, организация проектной деятельности. // Физика в школах Украины, №2, с.2

Пахомова, Н.Ю. (2015) Проектное обучение - что это? Из опыта метод. работы//Дайджест журнала Методист, № 5, С.7-12

# ESL ÖYRƏNƏNLƏR ÜÇÜN REAL MƏZMUNUN UYĞUNLAŞDIRILMASINDA SÜNİ İNTELLEKTİN ROLU

**Ağayeva Cəvahir Qeys**

**Heydər Əliyev adına Hərbi İnstitut**

**https://orcid.org/0000-0003-4576-3645**

**cevahir.19937@gmail.com**

**Rəyçi:**

**Məmmədova Aytəkin Telman qızı,**

**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

**Xülasə**

Süni intellekt (AI) tələbələrin müxtəlif ehtiyaclarını ödəmək üçün real məzmunu fərdiləşdirmək və uyğunlaşdırmaqla ingilis dilinin ikinci (ESL) kimi tədrisinin təkmilləşdirilməsində transformativ rol oynayır. Təbii dil emalı və maşın öyrənməsi ilə süni intellekt öyrənənlərlə rezonans doğuran materialları uyğunlaşdırmaqla fərdi dil bilik səviyyələrini və öyrənmə üslublarını təhlil edə bilər. Bu texnologiya xəbər məqalələri və videolar kimi orijinal mənbələrin inteqrasiyasını asanlaşdırır, bu da dil öyrənməyi daha aktual və əyləncəli edir. Bundan əlavə, süni intellektlə idarə olunan alətlər ani rəy və dəstək verir, ESL öyrənənlərinə səlislik və özünə inam əldə etməyə imkan verən daha interaktiv və effektiv öyrənmə mühiti yaradır.

**Açar sözlər**: fərdiləşdirmə, chatbotlar, məzmunun idarə edilməsi,rəylərin avtomatlaşdırılması, təbii dil emalı.

# РОЛЬ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В АДАПТАЦИИ РЕАЛЬНОГО КОНТЕНТА ДЛЯ УЧАЩИХСЯ ESL

**Агаева Джавахир Гейис**

**Военный институт имени Гейдара Алиева**

**https://orcid.org/0000-0003-4576-3645**

**cevahir.19937@gmail.com**

**Резюме**

- **Monitorinq və qiymətləndirmə**: İnklüziv təhsilin inkişaf səviyyəsini və onun təsirini qiymətləndirmək üçün monitorinq və hesabat mexanizmləri yaradılmalıdır.

**6. Psixoloji və Sosial Dəstək Sistemlərinin Təkmilləşdirilməsi**

- **Psixoloji dəstək**: Məktəbəqədər təhsil müəssisələrində psixoloqların iştirakı vacibdir. Uşaqların sosial-emosional inkişafı və onların tədris prosesində tam iştirakını təmin etmək üçün dəstək proqramları hazırlanmalıdır.

- **Sosial inteqrasiya proqramları**: Əlilliyi olan və olmayan uşaqların birlikdə fəaliyyət göstərəcəyi oyunlar, layihələr və sosial tədbirlər təşkil olunmalıdır ki, uşaqlar arasında qarşılıqlı anlaşma və dostluq mühiti yaransın.

Bu tövsiyələr həm təhsil müəssisələrinin işini, həm də cəmiyyətin ümumi inklüzivlik səviyyəsini yüksəltmək üçün vacib addımlar ola bilər.

Dünyanın qabaqcıl ölkələrinin ən prioritet ümdə məsələsi inklüziv yanaşmanın bütün təhsil səviyyələrində təsdiqi təmin olunmasıdır.

Xarici ölkələrdə inklüziv təhsil modeli təhsildə bərabərlik, ədalətlilik və hər bir uşağın xüsusi ehtiyaclarına uyğunlaşdırılmış təhsil almaq hüququna əsaslanır. İnklüziv təhsil sistemi əngəlli uşaqları ümumi təhsil sisteminə tam şəkildə inteqrasiya edir və onlar üçün xüsusi tədris proqramları yaratmaq əvəzinə, onları adi siniflərdə təhsil almağa cəlb edir.

**Bir neçə ölkənin nümunəsi ilə inklüziv təhsil təcrübəsi:**

**1. Finlandiya**

Finlandiya inklüziv təhsildə lider ölkələrdən biridir. Onların təhsil sistemi hər bir uşağın ehtiyaclarına uyğunlaşdırılmış tədris metodlarını tətbiq edir. Baxçalarda xüsusi təhsil müəllimləri var və uşaqların fərqli bacarıq səviyyələrinə uyğunlaşmaq üçün fərdi planlar hazırlanır, formalaşdırılır.

**2. İtaliya**

İtaliyada inklüziv təhsil çox uzun illərdir ki, mövcuddur. Onlar 1970-ci illərdən başlayaraq xüsusi təhsil müəssisələrini ləğv edərək, bütün uşaqların eyni qruplarda təhsil almasını təmin ediblər. Əngəlli uşaqlar üçün müəllim köməkçiləri və xüsusi təhsil müəllimləri təmin edilir.

**3. Kanada**

Kanadada təhsil sistemində inklüzivlik mərkəzi prioritet prinsipdir. Uşaqların fərqli ehtiyaclarına cavab vermək üçün əlavə resurslar və təlimatlar verilir. Təhsil hüquqları qanunla qorunur və hər bir uşağın təhsilini dəstəkləmək üçün fərdi təhsil planları hazırlanır.

**4. Avstraliya**

Avstraliyada hər bir uşaq üçün xüsusi ehtiyacların müəyyən edilməsi və onlara uyğun təhsil resurslarının təqdim olunması tələb olunur. Məktəbəqədər təhsil müəssisələri müəllimlərin peşəkar inkişafı və xüsusi təhsil üçün əlavə dəstək qrupları ilə təchiz edilir.

**5. Amerika Birləşmiş Ştatları**

ABŞ-da "Individuals with Disabilities Education Act" (IDEA) adlı qanunla hər bir əngəlli uşağın təhsil hüquqları qorunur. Onlar üçün fərdi təhsil planları (IEP) hazırlanır və bu planlar siniflərdə xüsusi ehtiyacları olan uşaqlara uyğunlaşdırılır.

Bu ölkələrin təcrübəsi göstərir ki, inklüziv təhsilin uğurlu olması üçün məktəbəqədər təhsil müəssisələri ilkin pillə olmalı və kifayət qədər resursların və təlim keçmiş müəllimlərin olması vacibdir. Məktəbəqədər təhsil müəssisələrindən artıq cəmiyyətə hazırlanan fərd , uşaq cəmiyyətə daha rahat adaptasiya olunur və özünə yer tuta bilir.

**Ədəbiyyat.**


İnternet resursları.

Journals: "International Journal of Inclusive Education" və "Journal of Special Education"

# UNIVERSITY RANKINGS AND INNOVATIVE UNIVERSITIES

**Namazov Elvin Qiyaz**

**Azerbaijan Technical University**

**https://orcid.org/0000-0003-1336-0403**

**elvin.namazov.q@student.aztu.edu.az**

**Rəyçi:**

**Məmmədova Aytəkin Telman qızı,**

**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

Since universities are considered the source of innovation, their constant development, conducting research, authoring patents, making new discoveries, and most importantly improving the quality of education are their important functions. As a result of their activities, they have to compete with each other, which is reflected in the annual tables compiled by international organizations. In this article, research was conducted and statistical information was provided about the organizations that compile university rankings and the criteria by which these rankings are evaluated. Also, proposals were made about the concept of an innovative university and ways of development in the higher education system of Azerbaijan.

**Keywords:** Innovation in education, university rankings, innovative university

# РЕЙТИНГИ УНИВЕРСИТЕТОВ И ИННОВАЦИОННЫЕ УНИВЕРСИТЕТЫ

**Намазов Эльвин Гияс**

**Азербайджанский технический университет**

**https://orcid.org/0000-0003-1336-0403**

**elvin.namazov.q@student.aztu.edu.az**

## Резюме

Поскольку университеты считаются источником инноваций, их важной функцией является постоянное развитие, проведение исследований, авторство патентов, открытие новых и повышение качества самого базового образования. В результате этой деятельности им приходится конкурировать друг с другом, что отражается в таблицах, ежегодно составляемых международными организациями. В этой статье были проведены исследования и приведены статистические данные об организациях, составлявших рейтинги университетов, и о том, по каким критериям эти рейтинги оцениваются. Также были даны предложения о концепции инновационного университета и путях развития в системе высшего образования Азербайджана.

**Ключевые слова**: инновации в образовании, рейтинги университетов, инновационный университет

# UNİVERSİTET REYTİNQLƏRİ VƏ İNNOVATİV UNİVERSİTETLƏR

**Namazov Elvin Qiyaz oğlu**

**Azərbaycan Texniki Universiteti**

**https://orcid.org/0000-0003-1336-0403**

**elvin.namazov.q@student.aztu.edu.az**

## Giriş

Ali təhsil cəmiyyətimizin gələcəyinin formalaşmasında mühüm rol oynayır. Universitetlər tələbələrin intellektual və praktiki qabiliyyətlərini inkişaf etdirdiyi, həmçinin işçi qüvvəsində uğur qazanmaq üçün tələb olunan bacarıqları öyrətdiyi əsas tədris və tədqiqat müəssisələridir. Texnologiya innovasiyaların ən böyük hərəkətverici qüvvələrindən biridir və ali təhsil müəssisələri texnoloji tərəqqilərin önündə olmalıdır. Virtual və genişlənmiş reallıq, süni intellekt və digər qabaqcıl texnologiyalardan istifadə etməklə tələbələr üçün immersiv və interaktiv öyrənmə təcrübələri yarada bilər [1] .

Hal-hazırda beynəlxalq aləmdə universitetlərin innovasiya fəallığının inkişaf səviyyəsi qiymətləndirilir və müqayisə olunur. Təhsil fəaliyyətinin məqsəd və vəzifələrinin yaxşı müəyyən edilmədiyi təhsil kontekstində innovasiyanı ölçmək çətindir və belə ki, təhsilin bir fəaliyyət kimi anlayışı genişdir. Bundan əlavə, ali təhsil müəssisəsinin növü və ölçüsü, mülkiyyət növü və geoiqtisadi göstəricilər kimi amillərin hamısı Ali Təhsil Müəssisələrinin innovasiyasının təbiətinə təsir göstərir. Əsas iqtisadi məqsədin məhsuldarlığın artırılması və uğurun mənfəət, satış və ya artımla müəyyən edildiyi özəl sektordakı şirkətlərdən fərqli olaraq, ali təhsil müəssisəsi kimi ictimai təşkilatlar öz təkmilləşdirmələrini artan keyfiyyət, bərabərlik, əhatə dairəsi və səmərəlilik kimi məqsədlərlə ölçməlidirlər. Təbii ki, innovativ universitetlərin uğuru tələbələrin fəal iştirakı, tədqiqata marağı, özünü təkmilləşdirmək imkanlarından istifadə etməklə formalaşır. Ona görə də universitet seçərkən öz maraqlarınızı və məqsədlərinizi nəzərə almaq vacibdir.

## İnnovativ universitet

İnnovativ Universitet ali təhsilin dağıdıcı innovasiya qüvvələrinə necə cavab verə biləcəyini nümayiş etdirir və ənənəvi universitetin və onun ənənələrinin haradan gəldiyini və onun gələcək üçün necə dəyişməli olduğuna dair nüanslı və ümidverici təhlil təklif edir [10]. İnnovativ universitet tələbələr üçün təhsil təcrübəsini, tədris standartını və onun qlobal təsirini artırmaq üçün ardıcıl olaraq yeni yanaşmalar axtaran qurumdur. Bu universitetlər tələbələrə iyirmi birinci əsrdə inkişaf etmələri üçün lazım olan bacarıq və məlumatları verməyə həsr olunub və onlar tez-tez yeni texnologiyaların və tədqiqatların ən qabaqcıl nöqtəsində olurlar. Tələbələrə tərəfdaş şirkətlərlə işləyərək qazandıqları təcrübələrə görə kredit verməklə yanaşı, universitetlər tələbələri cari iş bazarında karyeraya hazırlayan kurs işləri təklif edə bilər. Müəssisələr əvəzində tələb olunan əsas bilik və təlimə malik işçilər əldə edirlər.

## İnnovativ Universitetlərin Faydaları

Ən müasir universitetdə oxumağın bəzi üstünlükləri aşağıdakılardır:

- Təzə anlayışlar və baxış bucaqları ilə qarşılaşacaqsınız.
- Ən müasir texnologiya ilə işləmək sizin üçün əlçatan olacaq.

- Müasir iş yerinin çətinliklərinin öhdəsindən gəlmək üçün təchiz olunacaqsınız.
- Digər yaradıcı düşüncə sahibləri ilə əlaqələr inkişaf etdirəcəksiniz. [2]

Universitetlərdə təhsil innovasiyalarının tətbiqi və idarə olunması, onların tətbiqinin təsiri, o cümlədən bu cür fəaliyyətlərə mane olan amillərlə bağlı araşdırmalar, demək olar ki, yoxdur. İqtisadiyyatda innovasiyaların və elmi mükəmməlliyin artırılmasında təhsilin necə kömək edə biləcəyi ilə bağlı çoxlu araşdırmalar var, lakin innovasiyaların təhsilinin universitetlərin rəqabət qabiliyyətinə və iqtisadiyyatda innovasiyaların artırılmasına necə təsir etdiyi və onların effektiv olub-olmaması ilə bağlı araşdırmalar yoxdur. Bu təhsil innovasiyalarının nədən ibarət olduğu və onların qlobal tendensiyalara və yaxşı təcrübələrə uyğun olub-olmadığı da aydın deyil. Ədəbiyyatda onların tipologiyası və strukturu ilə bağlı lazımi araşdırma aparılmayan çoxlu nümunələr var [3].

Universitetin innovasiya yaratma qabiliyyətini ölçməyin yollarından biri onun patentləri təmin etmək qabiliyyətinə baxmaqdır, bu göstərici ali məktəblərin və onların ölkələrinin ictimai tədqiqatları daha geniş ictimai innovasiyaya çevirməkdə uğurlu olub-olmadığını qiymətləndirmək üçün istifadə edilə bilər. Clarivate Analytics (CA) şirkətinin araşdırmasına görə, Azərbaycanda elmi nəticələrin kommersiyalaşdırılmasının göstəricisi kimi 1999-2017-ci illər arasında 364 elmi nəticə patentləşdirilib. Aşağıdakı cədvəl 1 göstərir ki, Azərbaycan patent müraciətlərində regional həmkarı Belarus və daha az dərəcədə Gürcüstandan əhəmiyyətli dərəcədə aşağı nəticələr əldə edib.

| Country/Year | National application | | PCT international applications by origin | |
|---|---|---|---|---|
| | 016 | 018 | 2016 | 2018 |
| *Azerbaijan* | *63* | *71* | *4* | *15* |
| **Belarus** | 21 | 47 | 14 | 23 |
| **Georgia** | 71 | 60 | 13 | 6 |
| **Bulgaria** | 41 | 98 | 58 | 60 |
| **Austria** | 315 | 207 | 1422 | 1475 |

**Şəkil 1.** Seçilmiş Ölkələr üzrə Patent Müraciətləri (WIPO, 2017 və 2019-cu illərin Dünya Əqli Mülkiyyət Göstəriciləri). **Mənbə:** https://www.wipo.int/publications/

Patentlərin, elmi nəşrlərin və digər göstəricilərin saylarına uyğun olaraq təşkilatlar hər il yenilənən universitet sıralamaları tərtib edirlər.

**Beynəlxalq reytinq siyahısı tərtib edən təşkilatlar**

Son illərdə innovativ universitet reytinqlərinin ictimaiyyətə açıqlanması və orada ilk yerlərdə qərarlaşmaq universitetlər üçün böyük əhəmiyyət kəsb edir. Universitet reytinqləri tərtib edən təşkilatlar, ali təhsil müəssisələrinin performansını qiymətləndirmək və müqayisə etmək məqsədi ilə fəaliyyət göstərirlər. Bu şirkətlər geniş istehlakçı cəmiyyətinə, tələbələrə, valideynlərə, tədqiqatçılara, və digər təhsil paydaşlarına təcrübəli və müstəqil nəzəriyyələri təqdim edir. Reytinqlər universitetlərin təhsil keyfiyyəti, akademik mükəmməlliyət, tədqiqat fəaliyyəti, məzunların karyera imkanları və digər kriteriyalara görə qiymətləndirilərək reytinq siyasəti ilə formalaşdırılan metodlara əsaslanaraq hazırlanır.

Bu reytinqlər, təhsil sahəsindəki layihələrin və mərkəzlərin təşkil etdiyi çalışmaların nəticələri ilə zənginləşir. Həm də tələbələrin və müəllimlərin universitet təcrübələri və müşahidələri də bu reytinqlərin formalaşmasında əhəmiyyətli rol oynayır.

Bir çox universitetlər və peşəkar təşkilatlar nəşrin nəticəsi və sitat təsirindən başqa meyarlardan istifadə etməklə universitetləri qiymətləndirmək üçün universitetlərin reytinq siyahılarını tərtib etmişlər:

- Dünya Universitetlərinin Akademik Reytinqində (ARWU)

- Times Higher Education World University Rankings

- QS World University Rankings

- Dünya Universitetlərinin Webometrics Ranking

Bundan başqa, bir sıra regional və sahəvi reytinq təşkilatları da var. Məsələn, BƏƏ-də fəaliyyət göstərən "CWUR" (The Center for World University Rankings), "ARTU" (The Aggregate Ranking of Top Universities), "CWTS" Leiden Ranking, Performance Ranking of Scientific Papers for World Universities, Reuters World's Top 100 Innovative Universities və s. təşkilatlar da var.

ARWU Şanxay Jiao Tonq Universiteti (SJTU) tərəfindən tərtib edilən dünya universitetlərinin nüfuzlu reytinq siyahısıdır. Hər il dünyanın ən yaxşı 1000 universiteti bir sıra meyarlar əsasında sıralanır:

***Cədvəl 1.***

*ARWU-nun reytinqini təşkil edən meyarlar*

| Meyarlar | Göstəricilər | Faiz dərəcəsi |
|---|---|---|
| Təhsilin keyfiyyəti | Nobel Mükafatları və Fields Medalları qazanan bir qurumun məzunları | 10% |
| Fakultənin keyfiyyəti | Nobel Mükafatları və Fields Medalları qazanan bir qurumun işçiləri<br>21 geniş mövzu kateqoriyasında yüksək istinad edilən tədqiqatçılar | 20%<br>20% |
| Tədqiqat nəticəsi | Nature və Science-də nəşr olunan məqalələr (humanitar və sosial elmlər üzrə ixtisaslaşmış qurumlar üçün deyil)<br>Elm Sitat İndeksi ilə genişlənmiş və Sosial Elm Sitat İndeksində indeksləşdirilmiş məqalələr | 20%<br>20% |
| Adambaşına performans | Bir müəssisənin adambaşına düşən akademik göstəricisi | 10% |
| Ümumi | - | 100% |

**Mənbə:** ARWU vebsaytı: http://www.shanghairanking.com/methodology/arwu/2022

Bu, UK Times Higher Education (THE) tərəfindən tərtib edilmiş reytinq siyahısıdır. 2010-cu ildə THE əvvəlki partnyoru Quacquarelli Symonds-dan ayrıldı və yeni qiymətləndirmə meyarları əsasında ayrıca reytinq siyahısı yaratmaq üçün Thomson Reuters ilə əməkdaşlığa başladı:

***Cədvəl 2.***

*The Higher Education (THE) reytinq cədvəlinin meyarları*

| Meyarlar | Faiz dərəcəsi |
|---|---|
| Tədris - öyrənmə mühiti | 30% |
| Tədqiqat - həcm, gəlir və reputasiya | 30% |
| Sitatlar - tədqiqat təsiri | 30% |
| Sənaye gəliri – innovasiya | 2.5% |
| Beynəlxalq dünyagörüşü - heyət, tələbələr və tədqiqat | 7.5% |

**Mənbə:** https://www.timeshighereducation.com/world-university-rankings/world-university-rankings-2023-methodology

Bu, Quacquarelli Symonds tərəfindən nəşr olunan hörmətli universitet reytinq siyahısıdır. Siyahı ilkin olaraq Times Higher Education ilə əməkdaşlıqda 2010-cu ilə qədər, THE Thomson Reuters ilə başqa bir sıralama siyahısını yaratmaq üçün tərəfdaş olmağa başlayana qədər tərtib edilmişdir (yuxarıya bax).

Üç yeni göstərici, Dayanıqlılıq, Məşğulluq Nəticələri və Beynəlxalq Tədqiqat Şəbəkəsi QS World University Ranking 2024-ə daxil edilmişdir. Universitetlər doqquz meyar əsasında sıralanır:

***Cədvəl 3.***

*QS World University Ranking-in sıralamanı tərtib edərkən qiymətləndirdiyi meyarlar*

| Meyarlar | Faiz dərəcəsi |
|---|---|
| Qlobal Sorğudan akademik reputasiya | 30% |
| Qlobal Sorğudan işəgötürən reputasiyası | 15% |
| Scopus-dan fakültə başına sitatlar | 20% |
| Fakültə tələbə nisbəti | 10% |
| Beynəlxalq tələbələrin nisbəti | 5% |
| Beynəlxalq fakültənin nisbəti | 5% |
| Beynəlxalq Tədqiqat Şəbəkəsi | 5% |
| Məşğulluq Nəticələri | 5% |
| Davamlılıq | 5% |

**Mənbə**: https://support.qs.com/hc/en-gb/articles/4405955370898-QS-World-University-Rankings-

İspan Milli Tədqiqat Şurasının (CSIC) Cybermetrics Laboratoriyası tərəfindən hazırlanmış bu sıralama sistemi Dünya Universitetlərinin Reytinq Vebi kimi də tanınır, dünyada universitetləri onların internetdə mövcudluğu və fəaliyyətləri əsasında qiymətləndirir. Dünya üzrə 30.000-dən çox Ali Təhsil Müəssisələri əhatə olunur.

Reytinq üçün məlumat əldə etmək üçün üç meyardan istifadə olunur:

***Cədvəl 4.***

*Webometrics-in reytinq sıralamasını tərtib edərkən qiymətləndirdiyi meyarlar*

| Meyarlar | Faiz dərəcəsi |
|---|---|
| Görünümlük - Təşkilatın veb səhifələrinə qoşulan xarici şəbəkələrin (alt şəbəkələrin) sayı | 50% |
| Şəffaflıq - Ən yaxşı 310 müəllifdən sitatların sayı | 10% |
| Mükəmməllik - Tam verilənlər bazasının bütün 27 fənlərinin hər birində ən çox istinad edilən 10% arasında olan məqalələrin sayı | 40% |

**Mənbə:** http://www.webometrics.info/en/Methodology

Universitet reytinqləri hansı universitetə müraciət edəcəyinə qərar verməyə çalışan tələbələr arasında məşhur seçimdir. Ancaq reytinqlərin faydalı olmasını istəyirsinizsə, onları necə şərh edəcəyinizi başa düşməlisiniz. Əks təqdirdə, heç bir kömək etməyəcək bir aldadıcı siyahı ola bilərlər.

Ən populyar üç universitet reytinqi Times Higher Education (THE), Dünya Universitetlərinin Akademik Reytinqində (ARWU) və Quacquarelli Symonds Top Universitetləridir (QS). Hər bir sıralama sistemi öz metodologiyasına əməl edir və müxtəlif metriklərə əsasən universitetləri qiymətləndirir.

Bu səbəbdən eyni universitet, deyək ki, İsveçdən olan Stokholm Universiteti, hər bir reytinqdə fərqli mövqelər tuta bilər: THE-də =176, ARWU-da 74 və QS-də 153. Bir qurum haqqında dəqiq təəssürat yaratmaq üçün siz hər üç sistemi yoxlamalı, onların fərqlərini anlamalı və şəxsən sizi maraqlandıran nöqteyi-nəzərdən şərh verməlisiniz.

Bu məqaləni oxuduqca reytinqləri necə şərh edəcəyimizi öyrənəcəyik, lakin yadda saxlamaq lazım olan əsas odur ki, öyrənmək istədiyiniz mövzu, təhsil aldığınız bölgə və daha sonra bu dərəcə ilə nə etmək istədiyiniz reytinqləri oxuyursan. Bu sistemlər hər kəsin suallarına cavab vermək üçün qəbul edə biləcəyi universal həblər deyil.

QS reputasiya və rəydən təsirlənir, lakin eyni zamanda akademik çıxışla çox qərəzli olmayan ən geniş perspektivdir. Times akademik nəticələrə ciddi şəkildə meyl edir, bir çox universitetlər nəşr tələblərinə görə uyğun gəlmir. Bu, fakültə haqqında məlumat versə də, tələbə həyatı, tədris və ya təhsilin keyfiyyəti haqqında çox şey çıxarmaq mümkün deyil. Nəşr və Nobel mükafatı kateqoriyalarına görə elm və mühəndisliyə çox qərəzlidir, çünki humanitar elmlər və hüquq daha az tədqiqat məhsuluna malikdir. Metodologiyasında rəy sorğusu olmadığından, reytinqlər daha çox professor-müəllim heyətinin nailiyyətlərinə və nüfuzuna yönəlib.Hər bir sıralama sisteminin güclü və fərqli cəhətlərini xatırlayın.

QS bir çox təşkilatın akademiklər və işəgötürənlər arasında nüfuzuna, ARWU dünyaca məşhur tədqiqatlara diqqət yetirir və THE daha çox dəyişənləri nəzərə alaraq ikisini balanslaşdırmağa çalışır.

Əgər, beynəlxalq universitet axtarırsınızsa bu zaman QS və THE reytinqlərindən istifadə edə bilərsiniz.Akademik karyera istəyirsinizsə, ARWU-nun yoxlaya bilərsiniz.

4. Azərbaycan universitetlərinin mövcud reytinqi

Müxtəlif beynəlxalq təşkilatların verdiyi məlumatlara görə aşağıda universitetlərimizin beynəlxalq arenada necə qərarlaşdığını görəcəyik.

QS World University Rankings-in 20-ci buraxılışını təqdim edib və siyahıda 104 məkanda 1500

universitet yer alır. Nəticələr 17,5 milyon akademik məqalənin təhlili və 240,000-dən çox akademik müəllim və işəgötürənin ekspert rəylərinə əsaslanır. Massaçusets Texnologiya İnstitutu 12 illiyini zirvədə qeyd edir, Kembric Universiteti 2-ci yeri, Oksford Universiteti (3-cü) isə bir mövqeyə qalxır. Azərbaycandan isə cəmi 3 universitet bu siyahıya daxil olmağı bacarıb.



| Rank | University | Overall Score | |
|---|---|---|---|
| 1001-1200 | Azerbaijan State University of Economics<br>Baku, Azerbaijan | n/a | Shortlist |
| 1001-1200 | Baku State University<br>Baku, Azerbaijan | n/a | Shortlist |
| 1201-1400 | Azerbaijan State Oil and Industry University<br>Baku, Azerbaijan | n/a | Shortlist |

**Şəkil 2.** Azərbaycan universitetlərinin QS World Rankings-ə görə 2024-cü il üçün sıralaması

Şəkildən də göründüyü kimi, bunlar Azərbaycan Dövlət Neft və İqtisad Universiteti (1001-1200), Bakı Dövlət Universiteti (1001-1200), Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (1201-1400) siyahıda yer alırlar. 2023-cü il ilə müqayisədə irəliləyiş ondan ibarətdir ki, 3-cü universitetimiz də bu siyahıda yer alır bu ADNSU-dur. https://www.topuniversities.com/world-university-rankings

Cənubi Qafqaz regionu üzrə siyahıya əsasən UNEC və BDU ilk 3-lükdə qərarlaşıblar. Onları bir pillə qabaqlayan isə Gürcüstanın Tbilisi Dövlət Universiteti siyahıya başçılıq edir. [7]

Times Higher Education World University Rankings 2024-ə 108 ölkə və regionda 1906 universitet daxildir.

Cədvəl yeni WUR 3.0 metodologiyamıza əsaslanır və bu metodologiyaya təşkilatın beş sahədə fəaliyyətini ölçən 18 diqqətlə kalibrlənmiş performans göstəriciləri daxildir: tədris, tədqiqat mühiti, tədqiqat keyfiyyəti, sənaye və beynəlxalq dünyagörüşü.

Bu ilki reytinqdə 16,5 milyon tədqiqat nəşri üzrə 134 milyondan çox sitat təhlil edilib və qlobal miqyasda 68,402 alimin sorğu cavabları daxil edilib. Ümumilikdə, məlumat təqdim edən 2673-dən çox qurumdan 411,789 məlumat nöqtəsi topladıq.

Oksford Universiteti ardıcıl səkkizinci ildir ki, reytinqə başçılıq edir, lakin ilk beşliyə daxil olan digərlərinin sıralarında dəyişiklik müşahidə olunur. Stenford Universiteti ikinci yerə yüksələrək Harvard Universitetini dördüncü pilləyə endirdi.

Massaçusets Texnologiya İnstitutu (MIT) bu il iki pillə yüksələrək üçüncü olub. Kembric Universiteti keçən il birgə üçüncü yeri tutduqdan sonra beşinci yerə enib.

Azərbaycandan isə siyahıda 5 universitet yer alıb:

1. BDU
2. AzMİU
3. UNEC
4. Xəzər
5. Naxçıvan Dövlət Universiteti
6. Qərbi Kaspi Universiteti

Adı çəkilən universitetlər 1500-1906 cı sıralarda qərarlaşıblar. Ötən il ilə müqayisdə bir dəyişiklik müşahidə olunmayıb.

*Dünya Universitetlərinin Akademik Reytinqinə Görə Ən Yaxşı Universitetlər:*

| | | | | |
|---|---|---|---|---|
| Harvard Kennedy School | Cambridge, MA, United States | 1 | - | - |
| Harvard Medical School Online | Boston, MA, United States | 1 | - | - |
| Harvard University | Cambridge, MA, United States | | | |
| Stanford University | Stanford, CA, United States | 2 | 2 | 2 |
| Massachusetts Institute of Technology (MIT) | Cambridge, MA, United States | 3 | 3 | 4 |

Təəssüf ki, bu siyahıda Azərbaycan universitetləri yer almayıb.

WEbometriksə isə:

1. Harvard University

2. Stanford University

3 Massachusetts Institute of Technology

Azərbaycan Universitetləri siyahıda 3066cı (webometricsə görə) yerdən başlayaraq qərarlaşıblar. Təhsil aldığım AzTU isə 6111-ci yerdə qərarlaşıb. Buna baxmayaraq, adı çəkilən universitetin son illərdə atdığı addımlar, etdiyi əməkdaşlıqlar inkişafdan xəbər verir.

**Bu qədər geridə olmağımızın səbəbləri nədir? Hansı maneələri aradan götürməliyik? Suallarına cavab tapmağa çalışaq.**

Hazırda Azərbaycan ali təhsil seqmentindəki əsas boşluqlardan biri universitet-əmək bazarı, yaxud universitet-istehsal sahəsi tandeminin qurula bilməməsidir. Universitetlərə qəbul mexanizmində əmək bazarının tələblərinin nəzərə alınmaması məzunların işlə təminatına ciddi maneələr törədir. Universitetlər bu istiqamətdə öz yol xəritələrini müəyyən etməli, elmtutumlu tədqiqat müəssisəsi və əmək bazarına bacarıqlı kadr hazırlayan aparıcı mərkəz rolunda çıxış etməyi bacarmalıdırlar. Təəssüf ki, universitetlərin nəzdində bu məqsədlə fəaliyyət göstərən və birinci kursdan etibarən tələbələr üçün hədəflər paketi müəyyən etməli olan Karyera Mərkəzlərinin faydalılıq əmsalı çox aşağıdır. [6]

Universitetlərimizə beynəlxalq marağın artırılması, xarici tələbələrin cəlb edilməsi də mühüm faktorlardan biridir. Son illərin statistikasına baxsaq görərik ki, burada müsbət nəticəyə döğru addımlayırıq. 2022/23-cü tədris ilinin statistikasına baxsaq 6213 nəfər əcnəbi tələbənin ölkəmizdə təhsil aldığını görə bilərik.[5]. Ondan əvvəlki il (5765) ilə nisbətdə artım deməkdir.

Azərbaycan Respublikasında ali təhsil müəssisələrinin beynəlxalq tələblərə cavab verən veb-səhifələrinin aktivliyi, elmi nəticələrin əlyetənliyi, impakt faktorlu jurnallarda məqalələrin nəşrinin artırılması, xarici universitetlərlə tələbə, müəllim mübadiləsi və s. bu kimi göstəriciləri nəzərə alaraq milli reytinqin yaradılması böyük əhəmiyyət kəsb edir. Bu məqsədin həyata keçirilməsi ilə Azərbaycan ali təhsil müəssisələrinin beynəlxalq reytinqlərdə yer almasına, həmçinin yer alan universitetlərin ranqının yüksəlməsinə və s. bu kimi üstünlüklərə nail olmaq mümkündür: [6].

Universitetlərin veb-saytlarının keyfiyyətinin artırılması da vacib faktorlardan sayılır. Bu veb-saytlara edilən xarici istinadlar önəm kəsb edir. Burada yerləşdirilən məlumatların, fayllarının sayının və əhəmiyyətinin yüksək olması lazım olan hal sayılır.

**Təkliflər və Çıxış Yolları**

• Universitet-əmək bazarı əlaqələrinin gücləndirilməsi: Azərbaycan universitetləri əmək bazarının tələblərinə cavab verən kadr hazırlığında ciddi addımlar atmalıdır. Universitetlər əmək bazarının ehtiyaclarını müəyyən edərək öz təhsil proqramlarını buna uyğunlaşdırmalıdırlar.

• İnnovasiya mərkəzlərinin yaradılması: Universitetlərin tədqiqat fəaliyyəti və innovasiya yönümlü layihələrə dəstək verəcək mərkəzlər yaradılmalıdır.

• Beynəlxalq əməkdaşlığın genişləndirilməsi: Xarici universitetlərlə əməkdaşlıq və tələbə-müəllim mübadiləsi proqramları vasitəsilə Azərbaycan universitetlərinin qlobal səviyyədə tanınması artırılmalıdır.

**Nəticə**

Cənab İlham Əliyev ölkəni qısa müddət ərzində inkişaf etmiş ölkələr sırasına qaldırmağı prioritet kimi qarşıya qoyub. Bu məqsədin reallaşması isə müəlman dövlətləri arasında inkişaf etmiş ölkələr sırasına qalxan ilk dövlət olacaq. Bu məqsədin həyata keçirilməsi üçün ən azı bir universitetimizin dünya reytinqində top 100-lükdə qərarlaşması vacibdir.

Azərbaycanın hazırda reytinqdə geri olması və ya bəzi cədvəllərdə ümumiyyətlə təmsil olunmamasını, məsələn, digər ölkələrin ali məktəbləri ilə müqayisə etsək, bu o demək deyil ki, Azərbaycan universitetləri zəifdir və ya onların ali məktəbləri ilə müqayisədə az effektlidir. Bu, sadəcə o deməkdir ki, Azərbaycan universitetləri beynəlxaq reytinqə daxil olmaq üçün müvafiq kriteriyalara əməl etməyiblər. Əgər onlar bu kriteriyalara əməl edərlərsə, onda digər ölkələrin ali məktəbləri ilə rəqabət apararaq daha yüksək mövqe tuta bilərlər. [9] Qlobal reytinqin təqdim olunma vaxtına qədər reytinqə daxil ola bilmək üçün ali məktəbin “Scopus”da indeksə olunan jurnallarda son 5 il ərzində ən azı 1000 məqaləsi çap olunmalıdır. Bundan əlavə, 5 illik müddətdə hər il üzrə universitet nəşrlərinin sayı 151-dən aşağı düşməməlidir .

**Ədəbiyyat**

GUSCANADA. Five key methods for driving innovation in higher education. guscanada.com February 8, 2023

Aditya Saini. The World’s Most Innovative Universities in 2023. leverageedu.com. Jun 26, 2023

Yordanova, Z. Educational Innovation: Bringing Back Fads to Fundamentals, ISPIMInnovation Conference – Celebrating Innovation: 500 Years Since daVinci, Florence,Italy on 16-19 June 2019

Naməlum müəllif. Azərbaycan universitetlərinin elmtutumlu fəaliyyətsizliyinin səbəbləri - Nədə

geri qalırıq?. Moderator. az. 14 Avq 2023

Karyera Mərkəzlərinin faydalılıq əmsalı . [elektron resurs] . Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi . Bakı, 2024. URL: https://www.stat.gov.az/source/education/

Mətanət Qurbanova. Ali təhsil müəssisələrinin beynəlxalq rəqabət qabiliyyəti: reytinq metodologiyası . Azərbaycan məktəbi elmi nəzəri pedaqoji jurnal. Bakı, 2021

Craig OCallaghan. QS World University Rankings 2024: Top global universities . QS Top universities. 2024

Alexandra Ciubotaru. How to Interpret University Rankings and What Are They Good For?. Study Portals Masters. 08 Sep 2022

Oruc Mustafayev. Yeni universitet modeli texnologiyaları tədrisə gətirməlidir. Azərbaycan müəllimi. 16 noyabr 2018

Clayton M. Christensen, Henry J. Eyring. The Innovative University: Changing the DNA of Higher Education from the Inside Out. Jossey-Bass. 512 Pages. July 2011

# FACTORS AFFECTING STUDENTS' ACCEPTANCE OF MATHEMATICS

**Gasimov Emil Emin**

**Azerbaijan State Pedagogical University**

**https://orcid.org/0009-0002-3758-521X**

**emilqasimovn1@gmail.com**

**Rəyçi:**

**Məmmədova Aytəkin Telman qızı,**

**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The purpose of this report is to examine the integration of digital technologies into mathematics education in Finland and Singapore, and how these technologies shape student engagement as well as learning outcomes. Demonstrating ways to integrate technology into classrooms, Singapore is focusing on a balanced approach and Finland is initially implementing wider use. Insights from the report highlight the benefits of personalized learning platforms, teacher training, and out-of-school digital activities that can increase student interest in mathematics and academic performance. We suggest using similar strategies in Azerbaijan, including curriculum renewal that prioritizes logical thinking and problem solving, as well as programs to support a robust learning environment in mathematics education.

**Keywords:** mathematics teaching, education, information technologies, individual learning.

# ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ПРИНЯТИЕ УЧЕНИКАМИ МАТЕМАТИКИ

**Гасымов Эмиль Эмин**

**Азербайджанский государственный педагогический университет**

**https://orcid.org/0009-0002-3758-521X**

**emilqasimovn1@gmail.com**

**Резюме**

Целью данного отчета является изучение интеграции цифровых технологий в математическое образование в Финляндии и Сингапуре, а также того, как эти технологии влияют на вовлеченность учащихся и результаты обучения. Демонстрируя способы интеграции технологий в классы, Сингапур делает упор на сбалансированный подход, а Финляндия первоначально внедряет более широкое использование. Результаты отчета подчеркивают преимущества персонализированных обучающих платформ, подготовки учителей и внеклассных цифровых мероприятий, которые могут повысить интерес учащихся к математике и улучшить академическую успеваемость. Мы предлагаем использовать аналогичные стратегии в Азербайджане, включая обновление учебных программ, в которых приоритет отдается логическому мышлению и решению проблем, а также программы по поддержке надежной среды обучения в области математического образования.

**Ключевые слова:** обучение математике, образование, информационные технологии, индивидуальное обучение.

# ŞAGİRDLƏRDƏ RİYAZİYYAT FƏNİNİN MƏNİMSƏNİLMƏSİNƏ TƏSİR EDƏN AMİLLƏR

**Qasımov Emil Emin**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

**https://orcid.org/0009-0002-3758-521X**

**emilqasimovn1@gmail.com**

## Giriş

Riyaziyyat təhsili bütün dünyada təhsil sistemlərinin keyfiyyətinin əsas göstəricilərindəndir. Finlandiya və Sinqapur kimi ölkələr, əsasən, İnformasiya Texnologiyalarının (İT) təhsil sistemlərinə effektiv inteqrasiyası sayəsində şagirdlərinin riyaziyyatda əldə etdiyi əlamətdar nailiyyətləri ilə seçilir (Lehtinen, 2020). Bu işin məqsədi İT-nin təhsildə roluna və onun təlim nəticələrinə təsirinə xüsusi diqqət yetirməklə, riyaziyyatda şagirdlərin nailiyyətlərinə təsir edən amilləri təhlil etməkdir.

Riyaziyyatda şagird nailiyyətlərinə təsir edən mühüm amillərdən biri statistik təhlili başa düşmək və tətbiq etmək bacarığıdır. Arifmetik orta, median və məlumatların şərhi kimi anlayışlar şagirdlərin real dünya məlumatlarını təhlil etmək və mürəkkəb problemləri həll etmək bacarıqları ilə təchiz edilməsində mühüm rol oynayır(Zamanov və Vəliyev, 2017). İT inteqrasiyası vasitəsilə təkmilləşdirilmiş bu statistik vasitələrin effektiv tədrisi şagirdlərin riyazi anlayışları başa düşməsini və tətbiqini əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər. Buna görə də, Bu məruzənin məqsədi, İT-nin tədrisdəki tətbiqi və onun şagirdlərin nailiyyətlərinə olan təsirini analiz edərək ölkəmizdə bu məsələnin daha nece inkişaf edilə biləcəyinə dair tövsiyələr irəli sürməkdir.

## Əsas amillər

### İnformasiya texnologiyalarının təhsildə rolu

Finlandiya və Sinqapur təhsil sistemləri texnologiyanın tədris prosesindəki əhəmiyyətini vurğulayır. Finlandiya təhsil siyasəti rəqəmsal texnologiyaların tədrisə inteqrasiyasına xüsusi diqqət yetirir, və bu, şagirdlərin riyaziyyatdan yüksək nailiyyətlər əldə etməsinə səbəb olmuşdur (Kosonen, 2018). Rəqəmsal tədris vasitələri şagirdlərə riyazi anlayışları daha asan mənimsəməyə və dərsin tempinə uyğunlaşmağa imkan verir. Müasir siniflərdə şagirdlərin fərdi irəliləyişlərini izləmək üçün fərdi öyrənmə platformalarından istifadə olunur (Heikkilä, 2020). Sinqapurda isə, informasiya texnologiyalarının dərs prosesinə inteqrasiyası, daha çox rəqəmsal oyun əsaslı öyrənmə və virtual tədris mühitləri vasitəsilə həyata keçirilir (Looi, 2019). Müasir dövrdə hətta məktəbəqədər yaşlı uşaqlar belə, onlara qoyulan qadağalara baxmayaraq, mobil telefon vasitəsi ilə internetə daxil ola bilir və özlərinin tələbatları, xüsusən cizgi filmlərinə və oyunlara daxil olurlar(Zamanov, Əlizadə, Rüstəmova və Əlizadə, 2021). Biz buradan belə nəticə çıxara bilərik ki, rəqəmsal simulyasiyalar vasitəsilə şagirdlər riyaziyyat məsələlərini həll etməkdə real həyat təcrübələrini təkrarlayırlar ki, bu da onların motivasiyasını və marağını artırır.

### Fərdi öyrənmə və texnologiya

Finlandiyada rəqəmsal texnologiyaların tətbiqi vasitəsilə şagirdlər fərdi öyrənmə planları əsasında təlim alırlar. Hər bir şagirdin ehtiyaclarına uyğun təlim metodları və dərs proqramları hazırlanır (Lehtinen & Varjo, 2020). Bu yanaşma şagirdlərin təlim nailiyyətlərinin artmasına şərait

yaradır və tədris fərdlərin irəliləyişlərinə uyğun tənzimlənir. Sinqapur təhsil sistemində isə şagirdlərə rəqəmsal platformalarda interaktiv dərslər təklif edilir. Looi (Looi, 2019) qeyd edir ki, bu interaktiv platformalar müəllimlərə şagirdlərin inkişafını real vaxtda izləməyə və dərs prosesində dəyişikliklər etməyə imkan verir. Bu yanaşma Sinqapurda şagirdlərin riyaziyyatda yüksək nəticələr göstərməsinin əsas səbəblərindən biri hesab edilir. Uzun illər boyu tibb sahəsindən fərqli olaraq təhsildə isə biz hamıya "eyni dərmanı verməyə", bütün uşaqları eyni şəkildə öyrətməyə meyilliyik; uzun illərdən sonra isə biz bu metodun qənaətbəxş olmadığının fərqinə vardıq (Schleicher, 2018).

**Sosial-iqtisadi faktorlar və texnologiyanın bərabər imkanlar yaratması**

Sosial-iqtisadi amillər tədris nailiyyətlərinə təsir edə biləcək amillərdən biridir. Ancaq Finlandiyada texnologiyanın geniş istifadəsi sosial-iqtisadi fərqləri müəyyən qədər azaldır. Bütün şagirdlərin rəqəmsal cihazlarla təmin olunması və dərslərin rəqəmsal platformalar üzərindən keçirilməsi bərabər imkanlar yaradır (Kosonen, 2018). Bu yanaşma şagirdlərin ailələrinin sosial-iqtisadi durumlarından asılı olmayaraq eyni təhsil imkanlarına malik olmalarını təmin edir.

**Müəllimlərin texnoloji hazırlığı**

Sinqapurda və Finlandiyada müəllimlərin peşəkar inkişafı üçün xüsusi texnoloji təlim proqramları təşkil edilir. Tan (Tan, 2018) göstərir ki, Sinqapurda müəllimlər riyaziyyat dərslərində texnologiyanın istifadəsi üzrə xüsusi təlimlər keçirlər. Finlandiyada da müəllimlərin peşəkar inkişafı üçün rəqəmsal tədris metodlarına uyğunlaşdırılmış proqramlar hazırlanır (Heikkilä, 2020).

**Əvvəlki tədqiqatların təhlili**

Əvvəlki tədqiqatlar əsasən texnologiyanın tədrisə olan müsbət təsirini vurğulamışdır. Məsələn, Kosonen (Kosonen, 2018) Finlandiyada rəqəmsal dərsliklər və fərdi öyrənmə planlarının istifadəsinin riyaziyyat təlimində uğurla tətbiq olunduğunu qeyd edir. Eyni zamanda, Looi (Looi, 2019) Sinqapurda oyun əsaslı öyrənmə metodlarının və simulyasiya vasitələrinin riyaziyyat tədrisində müvəffəqiyyətli olduğunu sübut etmişdir. Ancaq bu tədqiqatlar texnologiyanın tədrisdə necə daha effektiv şəkildə tətbiq oluna biləcəyi ilə bağlı daha dərin analizlərə ehtiyac olduğunu göstərir.

**Yekun**

Bu məqalədə Finlandiya və Sinqapurda riyaziyyat tədrisində texnologiyanın istifadəsi və onun şagird nailiyyətlərinə olan təsiri təhlil edilmişdir. Hər iki ölkənin təcrübələri göstərir ki, rəqəmsal texnologiyaların tədrisə inteqrasiyası şagirdlərin təlim nəticələrini əhəmiyyətli dərəcədə yaxşılaşdırır. Gələcək tədqiqatlar texnologiyanın daha da effektiv istifadəsi üçün yeni yolların araşdırılmasına yönəldilməlidir. Diaqramlar vasitəsilə riyaziyyat təhsili və texnologiyanın tədrisdə tətbiqi sahəsində Finlandiya və Sinqapurun inkişafını və bu inkişafın davamlı şəkildə necə artırıla biləcəyini göstərəcək əsas diaqram hazırlayaq:

Diaqram– informasiya texnologiyalarının tədrisə inteqrasiyası və bu inteqrasiyanın 2009-2018 illəri arasındakı dəyişimi əyani şəkildə təsvir edir(Courtney & Karakus & Ersozlu, 2022)




**Şəkil.**

Yuxarıdakı şəkildə Finlandiya və Sinqapur üçün PISA 2009-2018-ci illər ərzində riyaziyyat fənni üzrə imtahan nəticələrini, eləcə də təhsildə informasiya texnologiyalarından (İT) istifadənin bu nəticələrə təsirini göstərir. A bizə gösdərir ki, Sinqapur təhsildə İT-dən məqsədyönlü və mülayim istifadə şagirdlərin riyaziyyat fənni üzrə göstəricilərinə müsbət təsir göstərmişdir. Bunun əksinə olaraq, B isə Finlandiya siniflərdə texnologiyadan həddən artıq istifadə etdiyinə görə PISA riyaziyyat ballarında azalma yaşadı və bu, şagirdlərin akademik nəticələrinə mənfi təsir etdi.

**Riyaziyyat fənninin şagirdlərə öyrədilməsi üçün aşağıdakı inkişaf istiqamətləri tövsiyyə edilə bilər:**

1. **Fərdi öyrənmə sistemlərinin genişləndirilməsi**: Hər iki ölkədə fərdi tədris planlarının rəqəmsal platformalar vasitəsilə tətbiqi daha geniş miqyasda yayılmalıdır.

2. **Müəllimlərin texnoloji təlimləri**: Müəllimlərin texnoloji bacarıqlarının təkmilləşdirilməsi üçün daha çox resurs və təlim proqramları təşkil edilməlidir.

3. **Dərsdənkənar rəqəmsal fəaliyyətlər**: Şagirdlərə rəqəmsal platformalar üzərində interaktiv fəaliyyətlər təqdim etmək, onları riyaziyyat öyrənməyə daha çox həvəsləndirə bilər.

Azərbaycanda şagirdlərin riyaziyyatda nailliyyətlərini artırmaq üçün aşağıdakıları yolları təklif edə bilərik.

1. **Kurrikulumun daha da inkişaf etdirilməsi:** Ənənəvi təlim metodlarında fərqli olan kurrikulum üzərində islahatlar aparmaqla şagirdlərin riyazi biliklərin və həll metodlarını əzbərləməkdənsə, onları məntiqi təfəkkürünü istifadə edərək problem həll etmə və riyaziyyatı daha dərindən mənimsəmələrinə gətirib çıxaracaq.

2. **Müəllim hazırlığı və inkişafı:** Müəllimlərin pedaqoji bacarıqlarının artırılması və uşaq psixologiyasına bələd olmaları onların dərslərinin keyfiyyətinin artırılmasına gətirib çıxaracaq. Buda öz növbəsində ölkədəki universitetlərdə təhsil alan potensial riyaziyyat müəllimi ixtisası üzrə təhsil alan tələbələrin pedaqogika, psixologiya, nitq mədəniyyəti və.s. kimi fənlərinin dərs saatlarının artırılması və yeni nəsil təlim metodlarının istifadəsi deməkdir.

3. **Şagirdlərə xüsusi dəstək proqramları:** Riyaziyyat dərnəkləri və bir çox olimpiadalar keçirilərək həm şagirdlərin öz potensiallarını görmələrinə həmdə buradan əldə edilə biləcək vəsait hesabına daha çox şagirdin yaralanmasına kömək edə biləcək elektron kitabxananın yaradılmasına və xarici ədəbiyyatların tərcüməsinə yönləndirilə bilər.

Fikrimizi ümumiləşdirsək deyə bilərik ki, riyaziyyat fənninin tədrisi şagirdlərdə təkcə imtahan nəticələrinin yüksəlməsi deyil, həm də onların məntiqi təfəkkürü, analitik bacarıqları və sistemli düşüncələrinin inkişaf etdirilməsinə də gətirib çıxaracaqdır.

**Ədəbiyyat:**

Zamanov, A., Əlizadə, H., Rüstəmova, S., Əlizadə, Ə. (2021), Distant təhsilin

pedaqogikası.

Zamanov, A.D., Vəliyev, V.A. (2017). Riyaziyyat və məntiq I hissə. 448.

Courtney, M., Karakus, M., Ersozlu, Z. et al. The influence of ICT use and related attitudes on students' math and science performance: multilevel analyses of the last decade's PISA surveys. Large-scale Assess Educ 10, 8 (2022). https://doi.org/10.1186/s40536-022-00128-6

Heikkilä, M. (2020). *Socio-economic factors and digital education in Finland: Closing the gap.* Nordic Studies in Education, 8(2), 55-63.

Kosonen, H. (2018). *Technology and educational equity in Finland: The role of digital tools inmathematics education.* Finnish Journal of Education Research, 10(4), 33-39.

Lehtinen, E. & Varjo, J. (2020). *Personalized learning through digital platforms in Finnish schools.* Scandinavian Journal of Educational Research, 10(4), 85-91.

Lehtinen, E. (2020). *Educational technologies in Finnish schools: Impact on mathematics achievement.* Journal of Nordic Education, 15(3), 45-53.

Looi, C. K. (2019). *Singapore's digital platforms for mathematics learning: Innovations and outcomes.* Asian Education Review, 12(1), 32-42.

Schleicher, A. (2018), World Class: How to build a 21 st-century school system, Strong Performers and Successful Reformers in Education.

Tan, C. (2018). *Teacher professional development in ICT integration: The Singapore experience*. International Journal of Educational Technology, 6(4), 89-102.

# ADVANTAGES AND DISADVANTAGES OF PROJECT-BASED LEARNING

**Machanova Javahir Isakhan**

**Azerbaijan University Of Languages**

**https://orcid.org/0000-0002-8437-3693**

**cava_machanova@yahoo.com**

**Rəyçi:**

**Əhmədov Hümeyir Hüseyn oğlu,**

**Pedaqogika elmləri doktoru, professor**

**Abstract**

Project-based learning is a teaching method that involves a dynamic classroom approach in which students are believed to acquire deeper knowledge through active investigation of real-world problems.

In project-based learning, students can continuously delve into a complex and engaging problem. This approach allows them to absorb and apply the knowledge they learn more effectively than traditional methods. This method requires students to focus and apply other necessary skills to solve problems.

Project-based learning increases student academic achievement by promoting deeper understanding and retention of material. Through hands-on, real-world projects, students engage more actively with the content and remember the assignment better.

Students develop long-term creative and critical thinking skills by working on assignments of varying levels of difficulty

Key words: Project method, student-oriented, problem, creative, assignment

# ПРЕИМУЩЕСТВА И НЕДОСТАТКИ ПРОЕКТНОГО ОБУЧЕНИЯ

**Мачанова Джавахир Исахан кызы**

**Азербайджанский Университет Языков**

**https://orcid.org/0000-0002-8437-3693**

**cava_machanova@yahoo.com**

**Резюме**

Проектное обучение — это метод обучения, который включает в себя динамический подход к классу, при котором считается, что учащиеся приобретают более глубокие знания посредством активного исследования реальных проблем.

При проектном обучении учащиеся могут постоянно погружаться в сложную и увлекательную проблему. Такой подход позволяет им усваивать и применять полученные знания более эффективно, чем при использовании традиционных методов. Этот метод требует от учащихся сосредоточенности и применения других необходимых навыков для решения проблем.

Проектное обучение повышает успеваемость учащихся, способствуя более глубокому пониманию и усвоению материала. Благодаря практическим реальным проектам учащиеся более активно взаимодействуют с содержанием и лучше запоминают задание.

Учащиеся развивают долгосрочные навыки творческого и критического мышления, работая над заданиями разного уровня сложности

**Ключевые слова**: Метод проекта, ориентированный на студента, проблемный, творческий, задание

# LAYİHƏ ƏSASLI ÖYRƏNMƏNİN ÜSTÜNLÜKLƏRİ VƏ ÇATIŞMAZLIQLARI

**Maçanova Cavahir İsaxan qızı**

**Azərbaycan Dillər Universiteti**

**https://orcid.org/0000-0002-8437-3693**

**cava_machanova@yahoo.com**

Ənənəvi sinif mühazirələri və keçirilən mövzuları anlamadan əzbərləmə kimi tədris metodları indi geridə qalır. Yeni tədris metodologiyaları yaranır və ya köhnə tədris strategiyalarının yeni versiyaları 21-ci əsr təhsilinə tətbiq edilir. Müasir pedaqoqlar şagirdlərin diqqətini cəlb etməyə və onlara öyrəndikləri mövzuları daha yaxşı yadda saxlmaq və anlamağa kömək edən yeni texnologiyalardan istifadə edirlər. Bu öyrənmə üsullarından bir də layihə əsaslı öyrənmə üsuludur.

Layihə əsaslı öyrənmə, şagirdlərin real dünya problemlərini fəal şəkildə araşdırma yolu ilə daha dərin biliklərə yiyələndiyinə inanılan dinamik sinif yanaşmasını əhatə edən tədris metodudur. Əvvəllər çoxlu ev tapşırığı vermək kimi ənənəvi öyrənmə və öyrətmə tələbələrin asanlıqla yorulmasına və stresə düşməsinə səbəb olurdu, bu da tədricən "qorxuya" gətirib çıxarırdı və uşaqlar dərs oxuyarkən sevinc tapmırdılar. Bu gün dünyada ən son tədris tendensiyaları ilə bağlı hərtərəfli araşdırmalar və yeniliklərlə layihə əsaslı təlim metodu ənənəvi tədris metodlarını əvəz edir, şagirdlərə öyrənməyə kömək edir. Layihə əsaslı öyrənmə tam olaraq nədir və onun üstünlükləri və mənfi cəhətləri nələrdir?

Layihə əsaslı öyrənmə real dünya problemlərinin şagirdyönümlü proaktiv araşdırılmasını vurğulayan tədris metodudur. Layihə əsaslı öyrənmədə şagirdlər davamlı olaraq mürəkkəb və cəlbedici problemi dərindən öyrənə bilərlər. Bu yanaşma onlara öyrəndikləri bilikləri ənənəvi metodlardan daha effektiv şəkildə mənimsəməyə və tətbiq etməyə imkan verir. Bu üsul şagirdlərdən diqqəti cəmləşdirməyi və problemləri həll etmək üçün digər zəruri bacarıqları tətbiq etməyi tələb edir.

Layihə əsaslı təlim onu ənənəvi tədris metodlarından fərqləndirən bir neçə vacib ünsürlə xarakterizə olunur. Bu ünsürlər layihə əsaslı öyrənmənin dərin öyrənmə və bacarıqların inkişafı üçün effektiv olmasını təmin edir. Bunlara nümunə olaraq:

1.Çətin problem və ya sual: Layihə şagirdlərin həyatı və maraqlarına uyğun olan mənalı problem və ya sual ətrafında cəmlənir. Şagirdlərin diqqətini cəlb edən və davamlı araşdırma tələb etmək üçün kifayət qədər mürəkkəb olmalıdır.

2.Davamlı sorğu: Şagirdlər suallar vermək, resursları tapmaq və məlumatı tətbiq etmək kimi ciddi, uzadılmış proseslə məşğul olurlar. Bu sorğu təkrarlanır və tez-tez tədqiqat, fəaliyyət və düşüncə dövrlərini əhatə edir.

3.Orijinallıq: Layihələr orijinal olmalıdır, yəni onlar real dünya kontekstini, tapşırıqları, alətləri və standartları əhatə edir.

4.Şagird səsi və seçimi: Şagirdlər layihədə mövzu seçimi, istifadə etdikləri proseslər və son məhsul daxil olmaqla əhəmiyyətli söz sahibidirlər. Bu sahiblik motivasiya və bağlılığı artırır.

5.Refleksiya: Şagirdlər və müəllimlər nəyin öyrənildiyi, necə öyrənildiyi və layihənin təsiri haqqında düşünürlər. Refleksiya öyrənmə prosesini anlamağa və təkmilləşdirməyə kömək edir.

6.Tənqid və təftiş: Şagirdlər öz layihə proseslərini və məhsullarını təkmilləşdirmək üçün rəy verir, qəbul edir və istifadə edirlər. Bu təkrarlanan tənqid və təftiş dövrü işin keyfiyyətini artırır.

7.İctimai məhsul: Layihənin kulminasiyası sinifdən kənarda auditoriya ilə paylaşılan son məhsuldur. İctimai aspekt işin məqsədini verir və şagirdləri yüksək keyfiyyətli iş yaratmağa həvəsləndirir.

**Layihə əsaslı öyrənmənin üstünlükləri**

Layihə əsaslı təlim tələbələrin öyrənilməsini və inkişafını artıran bir sıra üstünlüklər təklif edir. Burada bəzi əsas üstünlüklər var:

1.Layihə əsaslı təlim şagirdlərə mövzuları ənənəvi metodlardan daha dərin araşdırmağa imkan verən tədris metodudur. Bu cür öyrənmə şagirdlərə real həyat situasiyaları ilə əlaqə saxlamağa kömək edir, onlara real dünya problemlərinin öhdəsindən gəlməyə kömək edəcək faydalı bilik və bacarıqlar verir.

Həmçinin şagirdlərə dərin tədqiqatla məşğul olmaq üçün imkanlar təmin edir.

2.Layihə əsaslı öyrənmə materialın daha dərindən dərk edilməsini və saxlanmasını təşviq etməklə, şagirdin akademik nailiyyətlərini artırır. Təcrübəli, real dünya layihələri vasitəsilə şagirdlər məzmunla daha fəal məşğul olur, verien tapşırığı daha yaxşı yadda saxlıyırlar. Layihə əsaslı öyrənmə metodu həmçinin akademik uğur üçün vacib olan problem həll etmə və tədqiqat bacarıqlarını inkişaf etdirir.

3.Layihə əsaslı öyrənmə şagirdlərə real dünya problemini həll etmək bacarığını öyrədir .Layihə əsaslı təlim vasitəsilə tələbələr tədqiqat bacarıqlarını təkmilləşdirir, komandalarda səmərəli işləməyi öyrənir və güclü ünsiyyət bacarıqlarını inkişaf etdirirlər. Layihələrin praktiki təbiəti də onlara vaxtı idarə etməyə, planlaşdırmağa və işlərini daha səmərəli təşkil etməyə kömək edir Şagirdlər qrup şəklində işləyərkən öz bilil bacarıqlarını komanda yoldaşları ilə paylaşır, komanda yoldaşlarını dinliyir, münaqişəli problemləri həll etməyi öyrənir. Qrup layihələrində birlikdə işləməklə vaxtınlarını düzgün idarə etməyə və çoxlu tapşırıqları yerinə yetirmək imkanı qazanırlar.

4. Şagirdlər müxtəlif çətinlik səviyyələrində olan tapşırıqlar üzərində işləməklə uzunmüddətli yaradıcı və tənqidi düşünmə qabiliyyətini inkişaf etdirirlər

5. Hər bir şagirdin fərqli öyrənmə qabiliyyəti və anlama səviyyəsi var. Bəziləri anlayışı tez başa düşə bilər, bəziləri isə vaxt aparır. Müəyyən mövzular var ki, ənənəvi metodlarla tədris edildikdə darıxdırıcı olur, halbuki interaktiv təlim vasitələri və maraqlı layihələrlə şagirdlər onları asanlıqla başa düşə bilirlər. Bu, layihə əsaslı öyrənmənin ən əsas aspektlərindən biridir.

**Layihə əsaslı öyrənmənin çatışmazlıqları**

1.Layihə əsaslı öyrənmənin şagirdlər üçün çoxlu faydaları olsa da, bu metodologiyanı real vaxt rejimində tətbiq edərkən müəllim və şagirdlərin üzləşdiyi müəyyən məhdudiyyətlər var. Həm şagird, həm də müəllim üçün bəzən layihələrdən istədiyiniz nəticəni əldə etmək çətinləşir.

2. Qrup şəklində layihə icra olunarkən bəzi çətinlikər olur. Məsələ, yalnız bir neçə şagirdlərin maksimum miqdarda işi yerinə yetirdiyi və qalanlarının heç bir töhfəsi olmadığı zaman ortaya çıxır. Bu, müxtəlif səbəblərə görə baş verə bilər. Çox az şagird tam məsuliyyət götürməyə meyllidir və hər şeyi öz başına etməyi xoşlayır, bəzən müəyyən bir şey üzərində işləməkdən imtina edən şagirdlər ola bilər. Bu kimi məsələlər qrup üzvləri arasında toqquşmalara səbəb ola bilər və beləliklə, hər bir şagird öz məhsuldarlığını nümayiş etdirə bilmir.

3. Bəzi şagirdlər layihə hazırlayarkən düzgün seçim edə bilmirlər belə halda onlar layihə təqdimatı zamanı özlərini passiv iştirakçı kimi hiss edirlər

4. Layihə əsaslı təlimdə şagirdlər öz layihələrini maraqlarına uyğun tərtib etməyə təşviq olunurlar. Bəs əgər şagirdlər öz marağını müəyyən edə bilmirsə? Bu, tez-tez rastlaşılan bir məsələdir, burada maraq olmaması səbəbindən şagirdlər layihə işində daha az məşğul olurlar. Müəllim şagirdlərə onun maraqlarını müəyyən etməyə kömək edə və ya onları müəyyən mövzu üzərində işləməyə həvəsləndirə bilər.

5. Layihə əsaslı öyrənmənin dezavantajlarından biri qiymətləndirmədə subyektivlikdir. Düzgün və yanlış cavabları olan ənənəvi testlərdən fərqli olaraq, layihə əsaslı öyrənmə qiymətləndirmələri çox vaxt yaradıcılıq, səy və əməkdaşlıq kimi subyektiv meyarlardan asılıdır ki, bu da müəllimlər arasında əhəmiyyətli dərəcədə fərqlənə bilər. Bu subyektivlik şagirdlərin qiymətləndirmə prosesini ədalətsiz kimi qəbul etmələrinə səbəb ola bilər və bütün şagirdlərin ədalətli qiymətləndirilməsini çətinləşdirə bilər.

**Problemin aktuallğı**. Layihə əsaslı öyrənmə ənənəvi mühazirə əsaslı təlimatdan daha çox praktiki, real layihələr və təcrübələr vasitəsilə öyrənməyi vurğulayan təhsil yanaşmasıdır. LƏÖ-də şagirdlər mürəkkəb, orijinal problem və ya problemləri həll etmək üçün nəzərdə tutulmuş layihələr və ya tapşırıqlar üzərində işləyirlər. Bu layihələr adətən fənlərarası xarakter daşıyır və şagirdlərdən müxtəlif fənn sahələrindən bilik və bacarıqlardan istifadə etməyi tələb edir.

**Problemin elmi yeniliyi**. Layihə əsaslı öyrənmə təhsildə həyati əhəmiyyət kəsb edir, çünki o, tələbələr arasında daha dərindən anlama, tənqidi düşünmə, yaradıcılıq və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Orijinal, real dünya layihələri vasitəsilə daha effektiv şəkildə cəlb edir, onların motivasiyasını artırır və onları real dünyanın mürəkkəbliklərinə hazırlayır. O, əməkdaşlığı inkişaf etdirir, ömürboyu öyrənməyi təşviq edir və öyrənməni praktiki təcrübələrlə əlaqələndirərək biliklərin saxlanmasına kömək edir.

**Problemn praktik əhəmiyyəti**. Layihə əsaslı təlimdə qiymətləndirmə davamlı və çoxşaxəlidir. Buraya formativ qiymətləndirmələr, özünüqiymətləndirmələr, həmyaşıdların qiymətləndirmələri, layihənin və təlim prosesinin yekun yekun qiymətləndirilməsi daxildir. Təkmilləşdirmə və öyrənməni istiqamətləndirmək üçün əks əlaqə təmin edilir. Bununla belə, "layihənin görülməsi"nin qiymətləndirilməsi adətən yekun məhsula yönəldilir. Qiymətləndirmə meyarları çox vaxt nəticəyə əsaslanır, müxtəlif öyrənmə üslublarına uyğunlaşan şagirdlərə öz təhsillərinə sahib çıxmağa imkan verir, nəticədə onları daim inkişaf edən cəmiyyətdə uğur qazanmaq üçün lazım olan bacarıq və münasibətlərlə təchiz edir.

**Ədəbiyyat:**

Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, http://edu.gov.az 5 sentyabr 2009-cu .

Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. B., Mütərcim, 2015. 488 Səh

Project-Based Learning, Edutopia, March 14, 2016. Retrieved 2016-03-15

https://www.issp.edu.vn/english-immersion-vs-bilingual-education-programs/

https://www.learningroutes.in/blog/benefits-and-challenges-of-project-based-learning

## THE IMPACT OF SOCIO-ECONOMIC DEVELOPMENT ON THE HIGHER PEDAGOGICAL EDUCATION SYSTEM

**Alizada Konul Faig**

**Educational Institute of the Republic of Azerbaijan**

**https://orcid/org/0009-0006-6305-7137**

**mongconsul@gmail.com**

**Rəyçi:**

**Əhmədov Hümeyir Hüseyn oğlu,**

**Pedaqogika elmləri doktoru, professor**

### Abstract

Socio-economic development plays a vital role in transforming higher pedagogical education systems. It enables improved funding, modernized curricula, accessible education for all, professional development opportunities for educators, and the integration of technology. As a result, teacher education becomes more relevant, inclusive, and effective, creating a foundation for a well-prepared teaching workforce that can meet the educational needs of a dynamic and increasingly interconnected world. The thesis examines the role of socio-economic parameters in higher pedagogical education and provides information about its current trends.

**Keywords:** economy**,** pedagogy, socio-economic policy, labor market, education

## ВЛИЯНИЕ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ НА СИСТЕМУ ВЫСШЕГО ПЕДАГОГИЧЕСКОГО ОБРАЗОВАНИЯ

**Ализаде Конуль Фаиг**

**Институт образования Азербайджанской Республики**

**https://orcid/org/0009-0006-6305-7137**

**mongconsul@gmail.com**

### Резюме

Социально-экономическое развитие играет жизненно важную роль в преобразовании систем высшего педагогического образования. Оно обеспечивает улучшение финансирования, модернизацию учебных программ, доступное образование для всех, возможности профессионального развития для педагогов и интеграцию технологий. В результате педагогическое образование становится более актуальным, инклюзивным и эффективным, создавая основу для хорошо подготовленной преподавательской рабочей силы, которая может удовлетворить образовательные потребности динамичного и все более взаимосвязанного мира. В диссертации рассматривается роль социально-экономических параметров в высшем педагогическом образовании и предоставляется информация о его текущих тенденциях.

**Ключевые слова:** экономика, педагогика, социально-экономическая политика, рынок труда, образование

# SOSİAL-İQTİSADİ İNKİŞAFIN ALİ PEDAQOJİ TƏHSİL SİSTEMİNƏ TƏSİRİ

**Əlizadə Könül Faiq**

**Azərbaycan Respublikasının Təhsil İnstitut**

**https://orcid.org/0009-0006-6305-7137**

**mongconsul@gmail.com**

Ölkənin sosial-iqtisadi inkişafı onun ali pedaqoji təhsil sistemini əhəmiyyətli dərəcədə formalaşdırır, kurrikulumun dizaynına, tədris metodlarına, əlçatanlığa və ümumi keyfiyyətə təsir göstərir. Sosial-iqtisadi artım tez-tez təhsil sisteminin inkişaf edən əmək bazarına uyğunlaşmasını tələb edir. Sürətlə inkişaf edən iqtisadiyyat tələbələri texnologiyaya əsaslanan dünyaya hazırlamaq üçün müəllimlərdən müasir pedaqoji texnikalar, STEM təhsili və rəqəmsal savadlılıq üzrə bacarıqlı olmasını tələb edir. Pedaqoji proqramlar sahibkarlıq, maliyyə savadlılığı və ya davamlı inkişaf kimi sosial-iqtisadi prioritetlərə uyğun bacarıqları daxil etmək üçün uyğunlaşdırılmalıdır ki, bu da kurrikulumun daha praktik və aktual olmasını təmin edir. Sosial-iqtisadi inkişaf adətən təhsil infrastrukturuna dövlət və özəl sərmayələri artırır ki, bu da müəllimlərin təlim proqramlarından faydalanaraq yenilənmiş kitabxanalar, laboratoriyalar, rəqəmsal təlim vasitələri və qurğular kimi resursları artırır. Ar-Ge-yə üstünlük verən iqtisadiyyatlar tez-tez təhsil tədqiqatlarına daha çox vəsait ayırır, bu da pedaqoji metodlarda irəliləyişlərə səbəb olur. Bu, tədris strategiyalarında, sinif idarəçiliyində və müəllim-şagird əlaqəsində yeniliyi təşviq edə bilər. Daha inkişaf etmiş bir iqtisadiyyat pedaqogika sahəsində ali təhsili daha əlçatan və müxtəlif etmək istəyən təhsil işçiləri üçün təqaüdlər, qrantlar və maliyyə dəstəyi təmin etmək üçün resurslara malik ola bilər. Sağlam sosial-iqtisadi mühit çox vaxt müəllim peşəsinin statusunu yüksəldir, rəqabətqabiliyyətli əmək haqqı və həvəsləndirici imkanlar yaradır. Bu, pedaqoji təhsilin keyfiyyətinin yüksəldilməsi, yüksək ixtisaslı şəxslərin pedaqoji rollara cəlb edilməsinə kömək edir. İnkişaf həm də pedaqoqlar üçün peşəkar inkişaf proqramlarının, seminarların və sertifikatların mövcudluğunu, onları ən son pedaqoji bilik və bacarıqlarla təchiz edə bilər. Müəllimlər daha çox rəqəmsal texnologiyalar, süni intellekt və onlayn platformalarda təlim alırlar ki, bu da onlara qarışıq təlim modellərini tətbiq etməyə və tələbələr arasında rəqəmsal savadlılığı inkişaf etdirməyə imkan verir. Sosial-iqtisadi artım tez-tez bərabərsizlikləri aradan qaldıran siyasətlərə gətirib çıxarır, qadınlar, azlıqlar və kənd yerlərindən gələn tələbələr də daxil olmaqla, kifayət qədər təmsil olunmayan qruplar üçün pedaqogika üzrə ali təhsilə çıxış imkanlarını artırır. İqtisadi inkişafla rəqəmsal infrastruktur genişlənir, pedaqogika üzrə onlayn və ya hibrid kurslara imkan verir ki, bu kurslar ucqar və ya az xidmət göstərən regionlara çata bilir və beləliklə, müəllim təhsilinə çıxışı demokratikləşdirir. İqtisadi artım həm də təqaüdlər və ya tələbə kreditləri üçün daha çox hökumət və ya institusional dəstəyi təmin edə bilər ki, bu da iqtisadi cəhətdən zəif qruplar üçün təhsili daha əlçatan edir. İqtisadiyyatlar inkişaf etdikcə, ali təhsil müəssisələri tez-tez beynəlxalq universitetlərlə tərəfdaşlıq qurur və bu, mübadilə proqramlarına, birgə tədqiqatlara və təhsil işçiləri üçün mədəniyyətlərarası təlimlərə səbəb olur. Bu qlobal məruz qalma müxtəlifliyi və mədəni həssaslığı qiymətləndirən tədris səriştələrini təşviq edir, müəllimləri getdikcə daha çox müxtəlif sinif otaqlarını idarə etməyə hazırlayır.

Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, elm və təhsil sahəsində inqilab yaratmadan, insan amilindən istifadə etmədən, iqtisadi potensialdan istifadə etmədən davamlı iqtisadi inkişaf, əhalinin rifah səviyyəsinin və həyat keyfiyyətinin yüksəldilməsi mümkün deyil.

yüksək texnologiyalar və innovasiya fəaliyyətinin intensivləşdirilməsi. Müasir dövrdə elmin və biliyin sürətli inkişafı, əmək məhsuldarlığında inqilabi sıçrayışlar cəmiyyətin köklü şəkildə yenidən qurulması üçün əsas rolunu oynayır (Musayev, 2010, s.3). İqtisadi cəhətdən inkişaf etmiş regionlarda elektron təhsil platformaları, ağıllı sinif otaqları və təlim idarəetmə sistemləri daxil olmaqla, təhsildə texnologiyanın daha çox inteqrasiyası mövcuddur. Bu, öz tədris təcrübələrində rəqəmsal vasitələrdən istifadə etmək üçün təlim keçmiş gələcək müəllimlər üçün öyrənmə təcrübəsini artırır. Təhsil sisteminin modernləşdirilməsi innovativ iqtisadiyyatın formalaşması üçün ən mühüm şərtdir (Hacıyeva, Orucova, 2024, s.s.1-10). Qabaqcıl məlumat analitik alətləri tələbələrin tərəqqisini izləməyə və tədris metodlarını fərdi öyrənmə ehtiyaclarına uyğunlaşdırmağa kömək edir. Bu, müəllim hazırlığına daha fərdi yanaşmaya təkan verir, gələcək müəllimləri gələcək siniflərində məlumatlarla bağlı təcrübələri tətbiq etməyə həvəsləndirir.

**Ədəbiyyat**

Musayev A. (2010). Sürətli iqtisadi inkişaf və iqtisadi təhsil sistemi: problemlər, vəzifələr. Xalq qəzeti. - 17 yanvar.- s. 3.

Hacıyeva, S. və Orucova, S. (2024). Azərbaycanda Təhsilin Modernləşdirilməsi: Problemlər və Perspektivlər, Anadolu Türk Eğitim Dergisi, 6 (1), 1-10.

# WAYS TO USE DISTANCE EDUCATION TECHNOLOGIES EFFECTIVELY

**Jumshudova Narmin Galib**

**Azebaijan State Pedagogical University**

**https://orcid.org/0009-0001-6843-8952**

**ncumshudova@mail.ru**

**Rəyçi:**

**Məmmədova Aytəkin Telman qızı,**

**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

Distance education technologies create wide opportunities for improving the quality of teaching and for experience adapted to the needs of the modern educational environment. This technology helps the development to be more actively involved in the learning process, to progress at their own pace and to increase the interactivity of learning. Develops thinking, problem-solving and independent decision-making skills to manage distance learning technologies. Facilitate learning with interactive visual resources, develop discussion forums and online group projects. These approaches allow for self-management, to discover one's weaknesses and strengths, and as a result, gain access to better learning.

The article provides suggestions for effective use of distance education technologies to support the educational process of students through individual adaptation, interactive tools, improved feedback mechanisms, and adaptive learning platforms. This approach not only develops students' digital skills, but also prepares them to be more successful in both academic and personal development.

**Keywords:** distance education, digital technology, platform, interactive tools.

# ПУТИ ЭФФЕКТИВНОГО ИСПОЛЬЗОВАНИЯ ТЕХНОЛОГИЙ ДИСТАНЦИОННОГО ОБРАЗОВАНИЯ

**Джумшудова Нармин Галиб**

**Азербайджанский государственный педагогический университет**

**https://orcid.org/0009-0001-6843-8952**

**ncumshudova@mail.ru**

**Резюме**

Технологии дистанционного образования предоставляют широкие возможности для повышения качества преподавания в современной образовательной среде и создания опыта обучения, адаптированного к потребностям учащихся. Эти технологии помогают учащимся более активно участвовать в процессе обучения, прогрессировать в своем темпе обучения и повышать интерактивность обучения. Технологии дистанционного обучения развивают у учащихся критическое мышление, навыки решения проблем и самостоятельного принятия решений. Интерактивные и визуальные ресурсы облегчают усвоение обучения учащимися, а дискуссионные форумы и групповые онлайн-проекты укрепляют навыки совместной работы. Эти подходы позволяют учащимся провести самооценку, обнаружить свои слабые и сильные стороны и, в конечном итоге, получить лучший опыт обучения.

В статье представлены предложения по эффективному использованию технологий дистанционного образования для поддержки образовательного процесса обучающихся посредством индивидуальной адаптации, интерактивных инструментов, усовершенствованных механизмов обратной связи и платформ адаптивного обучения. Такой подход не только развивает цифровые навыки учащихся, но и готовит их к более успешным достижениям как в академическом, так и в личном развитии.

**Ключевые слова:** дистанционное образование, цифровые технологии, платформа, интерактивные инструменты.

# DİSTANT TƏHSİL TEXNOLOGİYALARINDAN SƏMƏRƏLİ İSTİFADƏ YOLLARI

**Cümşüdova Nərmin Qalib**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

**https://orcid.org/0009-0001-6843-8952**

**ncumshudova@mail.ru**

Distant təhsil texnologiyanın inkişafı ilə birlikdə öyrənmə imkanlarının genişlənməsinə səbəb olan müasir təhsil formasıdır. Təhsilin bu növü coğrafi mühitdən, iş rejimindən, fərdi öyrənmə tərzindən asılı olmayaraq bilik və bacarıqların asan əldə edilməsinə şərait yaradır. Belə ki, bu təhsil modeli fiziki məkanda iştirak etmədən, internet vasitəsilə kurslara, dərslərə, mühazirələrə qoşulmağa imkan yaradır.

Distant təhsil texnologiyaları təhsil prosesinə yeni pedaqoji təsirlər gətirir və təhsil metodlarının yenilənməsinə səbəb olur. Distant təhsil texnologiyalarının əsas pedaqoji təsirlərini aşağıdakı kimi göstərmək olar:

- Öz-özünə öyrənməni təşviq etmə
- İnteraktiv öyrənmənin inkişafı
- Daimi əlaqə və əlaqələndirmə imkanları
- Zaman idarəetmə bacarıqlarının inkişafı
- Əməkdaşlıqla (birgə) öyrənmənin gücləndirilməsi
- Məzmunun dinamik uyğunlaşdırılması
- Texnologiya ilə tanışlıq və rəqəmsal bacarıqların inkişafı
- Tənqidi düşünmə və problem həll etmə bacarıqlarının inkişafı.

Öz-özünə öyrənmə texnologiyanın inkişafı ilə ortaya çıxmış, tələbənin dərs prosesində daha müstəqil, fəal və məsuliyyətli olmasını təmin edən bir yanaşmadır. Distant təhsil texnologiyaları bu yanaşmanı asanlaşdırmaqla tələbələrin öyrənmə prosesinə daha çox nəzarət etmələrinə, öz sürətlərinə uyğun irəliləmələrinə və öz qabiliyyətlərinə uyğun təlim üsullarından istifadə edərək öyrənmə prosesinin özləri tərəfindən idarə edilməsinə şərait yaradır. Öz-özünə öyrənmənin əsas üstünlüklərindən biri tələbənin öz sürətinə uyğun olaraq öyrənməsinə şərait yaratmasıdır. Belə ki, tələbə öz vaxt və sürətinə uyğun olaraq, anlamadığı mövzuya əlavə vaxt ayıra bilir, eyni şəkildə bildiyi mövzunun üzərindən tez keçə bilir. Bu da tələbələrin müstəqil öyrənmələrinə və öyrəndikləri bilikləri daha yaxşı mənimsəmələrinə kömək edir.

Distant təhsil texnologiyaları interaktiv öyrənmə mühitinin inkişafında böyük rol oynayır. Bu zaman tələbə dərsdə passiv dinləyici olmur, interaktiv dərs materialları ilə müzakirələrdə, qrup tapşırıqlarında fəal iştirak edir və bilikləri daha yaxşı mənimsəyir. Onlayn müzakirələr, sual-cavab seminarları, simulyasiya proqramları, qrup layihələri, interaktiv vasitələr fərdi düşüncə və təhlil qabiliyyətini inkişaf etdirir, yeni bilikləri araşdırmaya sövq edir və beləliklə də öyrənmə prosesi daha təsirli olur.

Distant təhsil həmçinin tələbələrə daimi əlaqə imkanı verir. E-poçtlar, mesajlaşma tətbiqləri,

onlayn danışıq platformaları dərs xaricində də sual vermə, əks-əlaqə alma imkanını artırır ki, bu da tələbələrin əhəmiyyətli suallarına zamanında cavab almalarını və öyrənmə prosesində daha aktiv olmalarını təmin edir. Daimi əlaqənin olması müəllimlərin tələbələrin zəif tərəflərini görməsinə və onlara vaxtında dəstək göstərməsinə kömək edir. Həmçinin tələbələr arasında mütəmadi əlaqənin olması onlarda öyrənməyə və araşdırmaya həvəs yaradır, birlikdə qrup müzakirələrinin aparılmasına, layihələrin hazırlanmasına şərait yaradır. Distant təhsildə daimi əlaqə üçün bir sıra texnoloji vasitələrdən istifadə edilir:

- Videokonfrans alətləri (Zoom, Microsoft Teams, Google Meet). Bu platformalar müəllim-tələbə arasında dərslərin canlı keçirilməsinə, sual-cavab sessiyalarına və müzakirələrə şərait yaradır.

- Mesajlaşma və çat platformaları (e-poçt, telegram və s.). Bu platformalar vasitəsilə həm müəllimlər, həm də tələbələr daimi əlaqədə olur. Burada müxtəlif formatlı dərs materialları (video, səsli), sorğu anketləri və s. paylaşılır.

- Onlayn müzakirə forumları.

- Özünüqiymətləndirmə platformaları (onlayn testlər, interaktiv tapşırıqlar). Bu platformalar vasitəsilə tələbələr öz bilik səviyyələrini, mövzu üzrə anlayışlarını və bacarıqlarını qiymətləndirə bilir.

Bu platformalar tələbələrin öz potensialını daha yaxşı anlamalarına və öyrənmə hədəflərini daha dəqiq müəyyən etmələrinə kömək edir.

Distant təhsildə zamanı idarə etmə bacarıqlarının inkişafı müstəqil öyrənmə prosesini daha effektiv şəkildə idarə etmək üçün vacib aspektlərdən biridir. Distant təhsil yüksək səviyyəli özünütəşkil və vaxt idarəetməsi tələb edir. Distant təhsil mühitindəki sərbəstlik tələbələrin vaxtdan səmərəli istifadə etmək bacarıqlarını zəiflədə bilər. Tələbələr mühazirələri izləmək, tapşırıqları yerinə yetirmək və imtahanlara hazırlaşmaq üçün vaxtı düzgün planlamağı bilməlidirlər. Öyrənmə mühitinin yaxşılaşdırılması üçün tələbələrdə zamanı idarəetmə bacarıqlarının inkişafını bəzi üsullarla artırmaq olar. Bu üsullara gündəlik plan, işlərin bölüşdürülməsi, fasilə planlaması, həftəlik nəzarət və s. misal göstərmək olar.

Birgə öyrənmə distant təhsildə birlikdə fəaliyyət göstərərək bilik və bacarıqların paylaşılaraq öyrənildiyi yanaşmadır. Bu yanaşma qarşılıqlı əlaqəni artırır, sosial bacarıqları inkişaf etdirir və öyrənmə prosesinin daha səmərəli edir. Distant təhsil mühitində müstəqil öyrənmə tələbələrin fərdi bilik və bacarıqlarını inkişaf etdirməyə imkan verirsə, birgə öyrənmə isə eyni zamanda qrup dinamikalarından və kollektiv biliklərdən yaralanmağa şərait yaradır. Onlayn platformalarda müxtəlif regionlardan tələbələrin qrup layihələri hazırlaması, interaktiv müzakirələr aparması, mövzulara yanaşmanın müxtəlif aspektlərini görməsi öyrənmə prosesini daha interaktiv edir və onların mövzuları daha dərindən öyrənməsinə kömək edir.

Uzaqdan təhsilin digər pedaqoji təsirlərindən biri də dərsin məzmununun tələbələrin fərdi öyrənmə tərzlərinə, ehtiyaclarına, məqsədlərinə uyğun olaraq öyrənmə materiallarının, metodların dinamik şəkildə dəyişdirilməsi, yeniləşdirilməsi prosesidir. Bu yanaşma distant təhsilin effektivliyini artırır, öyrənənlərin motivasiyasını yüksəldir.

Tələbələr distant təhsildə istifadə edilən texnoloji alətlər vasitəsiylə rəqəmsal bacarıqlarını inkişaf etdirir. Distant təhsildə tələbələrin texnologiya ilə tanışlığının əhəmiyyəti aşağıdakılardan ibarətdir.

1. Müxtəlif öyrənmə imkanları. Tələbələr öz ehtiyaclarına uyğun olan resursları seçərək yeni bilikləri daha rahat və effektiv şəkildə öyrənə bilərlər.

2. Öyrənmə prosesinin yaxşılaşdırılması.

3. Müasir tələbə profilinin inkişafı. Tələbələr rəqəmsal dünyada daha fəal iştirak etməli, internet resurslarını və müasir texnologiya imkanlarını effektiv şəkildə istifadə etməlidir. Bu, onların gələcəkdə iş mühitində də qiymətli olması üçün vacibdir.

Rəqəmsal bacarıqların inkişafının tələbələrə bir sıra faydaları vardır. Bunlara aşağıdakıları misal göstərmək olar.

**1. Tədqiqat və analiz bacarıqları.** Tələbələr internetdə məlumat axtarışını öyrənərək aparma və analitik düşünmə qabiliyyətini inkişaf etdirir. Bu, onlara öz layihələrini hazırlamaqda və təqdim etməkdə kömək edir.

**2. Texnologiyalardan səmərəli istifadə.** Rəqəmsal bacarıqların inkişaf etdirilməsi, müasir texnologiya imkanlarından (ofis proqramları, proqramlaşdırma, onlayn təqdimat alətləri) səmərəli istifadə etməyə kömək edir.

**3. Komanda işi.** Onlayn platformalarda işləmək, qrup işləri, müxtəlif layihələrin hazırlanma imkanlarını artırır. Bu, həmçinin tələbələrin sosial bacarıqlarını da inkişaf etdirir.

**4. Tənqidi düşünmə bacarığının inkişafı.** Distant təhsil mühitində düşünmək əsas nüanslardan biridir. Bu prosesdə rəqəmsal alətlərdən istifadə düşünmə qabiliyyətinin güclənməsinə kömək edir. Tənqidi düşünmə qabiliyyətinin inkişafı yalnız məlumatı əldə etməyə deyil, həmçinin bu məlumatın etibarlılığını qiymətləndirmə və təhlil etmə kimi vərdişlərin formalaşmasına kömək edir, tələbələrin qərar vermə və problem həll etmə bacarıqlarını inkişaf etdirir.

Qeyd edilənlərin faydalılığını artırmaq üçün aşağıdakı vasitələrdən istifadə etmək olar. Tələbələr bu vasitələrdən istifadə edərək fərqli öyrənmə üsullarına uyğunlaşa, öz bacarıqlarını inkişaf etdirə, həmçinin bu bacarıqları praktikada asanlıqla tətbiq edə bilərlər.

1. **Onlayn təlimlər və vebinarlar.** Tələbələrə müasir texnologiyalarla tanış olmaq üçün onlayn kurslar və vebinarlar təşkil etmək, interaktiv öyrənmə mühiti yaradır.

2. **İnteraktiv alətlər**. Tələbələrə interaktiv öyrənmə alətləri (məsələn, Kahoot, Wordwall, Quizlet, Padlet) təqdim edərək, onların öyrənmə prosesini əyləncəli etməyə kömək edir.

3. **Proqramlaşdırma və kodlaşdırma kursları**. Tələbələrə proqramlaşdırma dillərini (Python, JavaScript) öyrətmək, onların texnoloji bacarıqlarını artırır və analitik düşünmə qabiliyyətini inkişaf etdirir.

4. **Müxtəlif rəqəmsal resursların istifadəsi**. Tələbələrə onlayn məhsullar (video dərslər, elektron kitablar, interaktiv platformalar) təqdim edərək, öyrənmə prosesinin inkişafına kömək edir.

5. **Sosial media və onlayn icma**. Tələbələrin mediada və onlayn icmalarda aktiv iştirak etmələri, onların sosial inkişaf bacarıqlarını yaxşılaşdırır.

6. **Tədqiqat layihələri**. Tələbələrə layihələr həyata keçirmək, müstəqil şəkildə məlumat toplamaq, təhlil etmək və təqdim etmək imkanı verir. Bu, həmçinin onların problem həll etmə bacarıqlarını inkişaf etdirir.

**Nəticə**

Distant təhsil texnologiyaları müasir təhsil sisteminin ayrılmaz bir hissəsinə çevrilmiş və tədris prosesinə çoxsaylı müsbət pedaqoji təsirlər göstərmişdir. Bu texnologiyalar tələbələrin fərdi öyrənmə tərzlərinə uyğunlaşma, tənqidi düşünmə və problem həll etmə bacarıqlarının inkişafı, aktiv və interaktiv öyrənmə imkanlarının artması kimi üstünlüklər təmin edir. Onlayn tədris mühiti, tələbələrə öz təhsil prosesini idarə etmə və məsuliyyət hissini gücləndirmə imkanı verərək onların müstəqilliyini artırır.

Distant təhsil texnologiyalarının effektiv istifadəsi üçün müxtəlif metodların tətbiqi vacibdir. Fərdi uyğunlaşma imkanları yaradan adaptiv öyrənmə platformaları, tələbələri fəal iştirakçıya çevirən interaktiv alətlər və sosial bacarıqları inkişaf etdirən qrup layihələri tədrisin keyfiyyətini artırır. Eyni zamanda, vizual və interaktiv öyrənmə resurslarının istifadəsi tələbələrin mövzunu daha dərindən mənimsəməsinə və yüksək motivasiya ilə öyrənməsinə şərait yaradır.

Bu tədris texnologiyalarını səmərəli tətbiq etməklə, tələbələrin akademik uğurlarını artırmaq və öyrənmə təcrübəsini daha cəlbedici etmək mümkündür. Bu, həmçinin gələcəyin təhsil mühitində daha güclü öyrənənlər yetişdirmək üçün uzaqdan təhsil texnologiyalarının davamlı inkişafı və təkmilləşdirilməsi istiqamətində mühüm addımların atılmasını tələb edir.

**Ədəbiyyat:**

Zamanov A., Əlizadə H., Rüstəmova S., Əlizadə S. (2021). Distant təhsilin pedaqogikası. Bakı, ADPU.

Anderson, T. (2008). Theory and practice of online education (2nd ed).

Garrison, D.R., Vaughan, N.D. (2008). Blended learning in higher education: framework, principles and guidelines. San Francisco, CA: Jossey-Bass.

Picciano, A.G. (2017). Theories and frameworks for online education: Seeking an integrated model. Online learning, 21(3), 166-190.

Salmon, G. (2011). E-Moderating: The key to online teaching and learning (3rd edition). New York: Routledge

https://www.gillysalmon.com/five-stage-model.html

# METHODOLOGICAL BASES OF THE WORK ON THE TEACHING OF AZERBAIJAI LITERATURE OF THE SOVYET ERA IN SECONDARY SCHOOLS (1991-2021)

**Baghirova Gulay Shahsuvar**

**Azerbaijan State Pedagogical University**

**https://orcid.org/0009-0002-4794-0748**

**bagirovagb03@gmail.com**

**Rəyçi:**

**Məmmədova Aytəkin Telman qızı,**

**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

The teaching of Azerbaijani literature of the Soviet era, which includes the most progressive traditions and features of our classical literary heritage, is designed for the V-XI classes of general secondary schools. The purpose of this report is to analyze the knowledge gained by students as a result of teaching literary examples of the Soviet era in high school. Secondly, the degree of impact of providing students with knowledge about the general atmosphere of the Soviet era and teaching selected works on the enrichment of their intellectual and spiritual world was investigated. Also, in the report, the innovations in the style and form of the work in the literary examples created at this stage were analyzed compared to the previous periods, and what new features were acquired in the content, essence and artistic form were investigated. In the literature textbooks designed for general education schools in 1991-2021, the educational features of the given works of this period were interpreted in a comparative manner.

**Keywords:** style, artistic form, content, literary heritage, ideology

# МЕТОДИЧЕСКИЕ НАПРАВЛЕНИЯ ПРЕПОДАВАНИЯ ПРОИЗВЕДЕНИЙ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЫ СОВЕТСКИХ ВРЕМЕН В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ (1991-2021 гг.)

**Багирова Гюлай Шахсувар**

**Азербайджанский государственный педагогический университет**

**https://orcid.org/0009-0002-4794-0748**

**Bagirogb03@gmail.com**

**Резюме**

В V-XI классах общеобразовательных школ планируется преподавание азербайджанской литературы советских времен, включающей в себя наиболее прогрессивные традиции и особенности нашего классического литературного наследия. Целью данного доклада является анализ знаний, полученных учащимися в результате преподавания литературных примеров советской эпохи в средней школе.Во-вторых, исследовалась степень влияния предоставления студентам знаний об общей атмосфере советской эпохи и преподавания избранных произведений на обогащение их интеллектуального и духовного мира.Также в докладе проанализированы новации стиля и формы произведения в созданных на этом этапе литературных образцах по сравнению с предыдущими периодами, какие новые черты приобрело содержание, сущность и художественная форма.В учебниках литературы, подготовленных для общеобразовательных школ в 1991-2021 гг., педагогические характеристики этих произведений, относящихся к этому периоду, трактовались в сравнительном порядке.

**Ключевые слова:** стиль, художественная форма, содержание, литературное наследие, идеология**.**

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ SOVET DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI NÜMUNƏLƏRİNİN TƏDRİSİ ÜZRƏ İŞİN METODİK ƏSASLARI (1991-2021-ci İLLƏR)

**Bağırova Gülay Şahsuvar qızı**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

**https://orcid.org/0009-0002-4794-0748**

**bagirovagb03@gmail.com**

İstər sovet dönəmində, istərsə də müstəqilliyimizin bərpasından sonrakı dövrdə ümumtəhsil məktəbləri üçün tərtib edilmiş ədəbiyyat dərsliklərində sovet ədəbiyyatının mühüm qollarından biri hesab edilən Azərbaycan sovet ədəbiyyatının bütün inkişaf dövrlərinə aid görkəmli ədiblərimizin əsərlərinin tədrisi nəzərdə tutulmuşdur. Ədəbi irsimizin ən mühüm ənənə və xüsusiyyətlərini özündə cəmləşdirən bu dövrə aid ədəbi nümunələrin tədrisi şagirdlərin dünyagörüşü və mənəvi aləminin zənginləşməsinə, təxəyyülün inkişafına təsir edirdi. Həmçinin dərslik üçün seçilmiş əsərlərin əsas ideyası bugünkü cəmiyyətdə baş verən aktual problemlərlə səsləşir. Deməli, seçilmiş nümunələrdə bədii əksini tapmış məsələlər şagird şəxsiyyətinin formalaşmasında, hisslərin tərbiyəsində əsas amillərdən biri kimi təlimi nəticəyə mübət təsir edir.

Müstəqillik illərində istifadə olunan dərsliklərdə sovet dövrü Azərbaycan ədəbiyyatı uzun illər "Ən yeni dövr Azərbaycan ədəbiyyatı (I və II mərhələ)" başlığı altında tədris olunurdu və bu dövrü səciyyələndirən icmal xarakterli geniş məlumatlar dərslikdə öz əksini tapırdı (Cəfərov, Həbibbəyli, Əliyeva, Bakıxanova, 2012: 43;118). Fikrimizcə, bu nəzəri materiallar əsasında şagirdlərdə dövrün ümumi ab-havası haqqında müəyyən təəssürat yaranırdı. Həmçinin məktəblilər belə qənaətə gəlirdilər ki, sovet hakimiyyəti dövründə bədii ədəbiyyatda maarifçi baxışların yerini sosialist ideyalar əvəzləməyə başlasa da, milli demokratik ideyaları təbliğ edən əsərlər də yazılırdı. Bu illərdə yaranan əsərlərdə ədiblər sovet ideologiyasına uyğun olaraq, fəhlə-kəndli sinfini ədəbiyyatın əsas obrazı kimi səciyyələndirir, həmçinin qəhrəmanların mənəvi-insani münasibətlərinə, məhəbbət duyğularının tərənnümünə də müəyyən dərəcədə toxuna bilirdilər. Deduktiv dərslərdə isə prosedual biliyin inkişafı ilə əlaqədar verilmiş suallar vasitəsilə məktəblilər sovet reallığında "xəlqilik" prinsipinin əslində millilikdən uzaq olduğu qənaətinə gəlir, bir çox ədiblərimizin bu keşməkeşli dövrdə öz yaradıcılığında gerçəkliyi əks etdirməyə üstünlük verdiyini müsbət qiymətləndə bilirdilər.

2003-cü ildə istifadəyə verilən XI sinif Ədəbiyyat dərsliyində "20-30-cu illərdə ədəbiyyat" başlığı altında C.Cabbarlının "Oqtay Eloğlu", Y.V.Çəmənzəminlinin "Qan içində" romanı, Almaz İldırımın "Qara dastan" əsəri; "30-40-cı illərdə ədəbiyyat" başığı altında S.Vurğunun "Vaqif" dramı və "Aygün" poeması, S.Rüstəmin "Təbrizim" şeiri, "Qaçaq Nəbi" əsəri, S.Rəhimovun "Mehman" povesti və digər əsərlər haqqında ümumi məlumat verilirdi. Sovet dövrünün reallığını və maraqlı insan talelərini təsvir edən bu əsərlər haqqında nəzəri məlumatlar şagirdlərdə mütaliə marağı yaradırdı. "Ədəbiyyatda yeni mərhələ (60-70-ci illər)" başlığı altında isə M.Hüseynin "Yeraltı çaylar dənizə axır" romanı, R.Rzanın "Qızılgül olmayaydı" poeması, İ.Əfəndiyevin "Xurşudbanu Natavan" dramı, B.Vahabzadənin poemaları haqqında nəzəri məlumatlar verilirdi. Müəllim tərəfindən ədibin ədəbiyyatımızda mövqeyi və əsərin əsas ideyası haqqında verilən məlumatlar nəticəsində şagirdlərdə fəallıq nisbətən az olsa da, dərsin daha asan başa düşülməsi mümkün idi. Sonrakı illərdə dərslik müəllifləri ədiblərin bədii yaradıcılığı haqqında verilmiş nəzəri biliklərin

əvəzinə seçilmiş əsərlərin tədrisini uyğun bilmiş, dərsliklə yanaşı, əlavə dərs vəsaiti kimi istifadə edilən müntəxəbatlarda əsərlərdən seçilmiş və ya ixtisarla verilmiş hissələrin öyrədilməsini əsas götürmüşdürlər. Bu isə şagirdlərə mövzu haqqında müstəqil düşünərək əsərin məzmun və ideyasını anlamağa kömək edirdi.

2012-ci ildən müəllim və şagirdlərin istifadəsinə verilən kurikulum əsaslı dərsliklərdə isə əsərlərdən seçilmiş parçalar əlavə vəsaitdə deyil, dərsliklərdə verilirdi. 2017/ 2018-ci tədris ilindən istifadə edilən XI sinif Ədəbiyyat dərsliyində sovet dövrü Azərbaycan ədəbiyyatının (1920-1991-ci illər) öyrədilməsi iki mərhələdə nəzərdə tutulurdu: Azərbaycan ədəbiyyatında sosialist realizm mərhələsi (1920-1960-cı illər) və Milli mənəvi özünüdərk və istiqlal ədəbiyyatı (1960-1980-ci illər) (Həbibbəyli, Əliyev, Həsənov və Mustafayeva, 2020: 72-131). Araşdırmalar göstərir ki, I mərhələdə sosialist realizmi mərhələsi dövrü ilə tanış olan şagirdlər bu illərdə Azərbaycan ədəbiyyatının sovet ideologiyası əsasında yaransa da, sənətkarlarımızın sovet vətənpərvərliyi düşüncəsi altında doğma vətənin təbii gözəlliklərini vəsf etməsi, tarixi qəhrəmanlıqla dolu keçmişimizi əks etdirən əsərlərin ərsəyə gəldiyini öyrənmiş olurlar. Məsələn, Ə.Cavadın “Göygöl” şeiri, S.Vurğunun “Vaqif” dramı, B.Vahabzadənin “Gülüstan” poeması, M.İbrahimovun “Gələcək gün” romanı və b. əsərlər sovet rejiminin ən qarışıq dövründə yazılsa da, sosializm quruculuğunu tərənnüm etməyən əsərlər hesab olunur. Qanlı repressiyanın həyata keçirildiyi illərdə Azərbaycanın görkəmli ziyalılarının, ədiblərinin anti-sovet təbliğatı aparmaqda günahlandırılması, həbs olunması, güllələnməsi mühitində bu cür əsərlərin yazılması şagirdlərdə yazıçı şəxsiyyətinə dərin hörmət hissi formalaşdırır. Şübhəsiz ki, bu əsərlərin orta məktəbdə tədrisi fənn üzrə yeni tələblərə xidmət etməklə yanaşı, milli ruhlu gəncliyin formalaşdırılmasına da təsirsiz ötüşmürdü.

S.Vurğunun 1937-ci ildə qələmə aldığı “Vaqif” dramının tədrisi ilə şagirdlərə milli qürur hissinin təbliği, şanlı tarixi keçmişimizin xatırlanması missiyası uğurla reallaşdırılırdı. Əsərin təhlilinə həsr olunmuş dərslərdə şagirdlər obrazların başlıca səciyyəvi xüsusiyyətlərini şərh edir, Vaqif, Vidadi, Eldar kimi obrazlara rəğbət hissi bəsləyir, Şeyx kimi vətən xainlərinin bağışlanmaması və qisas alınmasına sevinirdilər. Həmçinin şagirdlər xalqa münasibətdə Vaqiflə Eldarın, İbrahimxəlil xanın rəftarına diqqət yetirir, Ağa Məhəmməd şah Qacarla Vaqifin və Vidadinin dialoqlarını təhlil edərək əsərin əsas ideyasını, müəllifin niyyətini başa düşürlər. Bundan başqa, I mərhələni əhatə edən əsərlər sırasında V-IX siniflərdə A.İldırımın “Əsir Azərbaycanım”, S.Rüstəmin “Təbrizim”, M.Müşfiqin “Həyat sevgisi”, H.Arifin “Analar”, Ə.Kürçaylının “Vətən” və s. kimi bir sıra şeirlər tədris olunur. Bu şeirlərin ana xəttini vətən sevgisi, Vətən torpağını azad görmək arzusu, azadlıq uğrunda mübarizə, anaya məhəbbət, həyata və insana sevgi hissi, yaşayıb-yaratmaq diləyi vəsf olunmuşdur. Y.V.Çəmənzəminlinin “Zeybək qızı”, S.Rəhimovun “Qara torpaq və sarı qızıl” hekayəsi, Ə.Məmmədxanlının “Qızıl qönçələr” əsəri məktəbliləri düşündürür, aclıq və səfalətin olduğu cəmiyyətdə insan həyatına biganəliyin acı nəticələri və problemin həlli yolları haqqında düşünməyə vadar edir. Süleyman Rəhimovun əsərində zəhmət çəkmədən uğur qazanmağın mümkünsüzlüyü ideyası şagirdlərə əməyin insan həyatındakı rolunu anlamağa kömək edir.

XI sinif ədəbiyyat dərsliyində sovet dönəmində yaşayıb-yaratmış bir sıra ədiblərimizlə yanaşı, Cəfər Cabbarlı yaradıcılığı da işıqlandırılmışdır. Onun ideya və məzmun cəhətdən bir-birinə zidd olan əsərləri haqqında ümumi məlumat verilmiş, ədibin yaradıcılıq yolunun mövzu dairəsinin genişliyi, bir sıra əsərlərində ictimai ziddiyyət olsa da, işıqlı gələcəyə nikbin inam hissinin güclü olduğu vurğulanırdı. C.Cabbarlı yaradıcılığında yüksək tərbiyəvi keyfiyyəti ilə seçilən “Oqtay Eloğlu” (1922) faciəsinin tədrisi metodistlər tərəfindən uzun illər dərslik üçün uyğun hesab edilmişdir. Əsərdə xalqını mədəni cəhətdən tərəqqi etmiş xalqlarla bir sırada görmək arzusu Oqtay

obrazında ümumiləşdirilmişdir ki, bu obraza rəğbət bəsləyən, onun faciəsinə üzülən şagirdlər bu qəhrəmanı öz idealı kimi seçərək C.Cabbarlı yaradıcılığının ideya və məzmun dairəsi ilə tanış olurlar.

XX əsrin sonlarından 2017-ci ilədək istifadə olunan XI sinif dərsliklərində Mir Cəlalın 1938-ci ildə yazdığı “Bir gəncin manifesti” romanının tədrisi nəzərdə tutulmuş, müntəxəbatda isə əsərin ümumi məzmununu əks etdirən təhlil xarakterli yazı verilmişdir. 2016-cı ildə yeni forma və məzmunda hazırlanmış IX sinif ədəbiyyat dərsliyində bu əsərdən “Bahar” adlı parçanın tədrisi verilir. Məktəblilər bu romandan ən təsirli parçanı oxumaqla XX əsrin əvvəllərində Azərbaycan kəndlərində insanın acı taleyi haqqında düşünür, Baharın simasında ədalətsiz cəmiyyətin əzdiyi zavallı uşağın çağırışlarını duyurlar.

2018-ci ildən Əhməd Cavadın “Səsli qız” poeması XI sinif Ədəbiyyat dərsliyinə yenidən əlavə edilir. Şagirdlər əsəri öyrənərkən mənbələri diqqətlə araşdırır və öyrənirlər ki, Cümhuriyyət nəğməkarı kimi tanınan görkəmli ədib 1937-ci ildə “xalq düşməni” kimi ittiham olunmuş və güllələnmişdir. Milli azadlığı hər şeydən üstün tutan ədibin əsərdəki Sara obrazını sevərək yaratması şagirdlərdə də bu obraza məftunluq hissi yaradır. Şagirdlər vətənin düşmənlərdən qorunmasının vicdan, şərəf işi olduğunu bu obrazın timsalında başa düşürlər. Saranın qəddar hökmdarı zəhərləyərək öldürməsi nəticəsində ümumxalq üsyanının başlanması və ölkənin azad edilməsi şagirdləri sevindirir, bir xalqın azadlığının heç nə ilə əvəz edilməməsi ideyası məktəblilərin bu mövzuda gələcək amalını müəyyənləşdirir.

Sovet dönəmində XX əsrin 40-cı illərindən etibarən Cənubi Azərbaycan mövzusunda silsilə əsərlər yazılmağa başlandı. Cənub mövzulu əsərlərdən S.Rüstəmin “Təbrizim” şeiri, M.İbrahimovun “Gələcək gün” (1948) romanın və “Azad” hekayəsinin tədrisi xüsusilə müstəqillik illərində istifadə olunan dərsliklərdə əksini tapmışdır. M.İbrahimovun əsərlərində vətəni ağır vəziyyətdən çıxarmaq üçün qəhrəman oğulların azadlıq mübarizəsindən bəhs olunur. Tədqiqatlar göstərir ki, vətən mövzulu əsərlərin tədrisinin təlimi nəticəyə təsiri müsbətdir. Çünki Qarabağ savaşında qüdrətli Azərbaycan ordusunun qəhrəmanlığı, igidlərin son nəfəsinə qədər döyüşərək şəhidlik zirvəsinə uculması, qələbəsi orta məktəblərdə vətənpərvər ruhlu gənclərin yetişməsinin sübutudur. Məsələn, VII sinif ədəbiyyat dərsliyində verilmiş “Azad” hekayəsində Azadın son nəfəsində dediyi bu sözlər: “Bizim hamımızın səadəti bax bu alçaq daxmaların, bu doğma yurdun, bu ana torpağın azadlığındadır. Yerə qoymayın bu tüfəngləri ki, onları bu doğma torpaq sizə tapşırmışdır” əsərin əsas qayəsini təşkil edərək şagirdlərə psixoloji təsir edir (Əliyev, Həsənov, Mustafayeva və Məmmədova, 2018: 65).

XX əsrin 60-cı illərində Azərbaycanda siyasi mühitin az da olsa yumşalması ədəbiyyatımıza da təsir edir, yeni yaranan əsərlərdə keçmişə həqiqət mövqeyindən yanaşma meyili güclənir. V-XI sinif ədəbiyyat dərsliklərində 1960-1990-cı illərdə milli ədəbiyyatımızın aparıcı simalarının yaradıcılığının 1990-cı illərin sonlarından etibarən tədrisi də müsbət haldır. R.Rzanın “Qızılgül olmayaydı” poemasında repressiya dövrünün qurbanı Müşfiqə həsr olunması, əsərdə şairin bəzən özünü günahlandırması şagirdlər üçün gözlənilməz olsa da, onlar səmimi etirafı həssaslıqla qarşılayır, müəllifin keçirdiyi hiss və həyəcanı hiss edirlər. Əsərdə Müşfiqin şeir, sənət aşiqi kimi hər kəs tərəfindən sevilməsi şagirdlərdə də ədibin yaradıcılığına diqqət və maraq yaradır, bununla yanaşı, repressiya dövrünün sərt üzünü bu əsər vasitəsilə dərk etmiş olurlar.

Artıq XX əsrin 60-cı illərindən etibarən həyat həqiqətlərini əks etdirən mövcud ideologiyaya açıq şəkildə əks mövqe tutmadan yeni tipli əsərlər yazılmağa başlayır, hansı ki bu əsərlərdə əvvəlki

illərdəki ədəbi nümunələrdən fərqli olaraq, insanın əmək fəaliyyəti deyil, onun mənəviyyatı, daxili hiss və düşüncələri başlıca yer tuturdu. Bu dövr haqqında ədəbi-tarixi materiallarla yanaşı, milli ədəbiyyatımızın bütün istiqamətlərindən həm poeziya, həm nəsr, həm də dram əsərləri dərslikdə yer almışdır. Altmışıncılar nəslinin görkəmli simaları haqqında yığcam məlumat verilmişdir ki, bu da məktəblilərdə dövr haqqında ümumi təəssürat yaratmaqla yanaşı, şair və yazıçılarımızın bədii yaradıcılığına mütaliə marağı oyadır. XX əsrin 60-90-cı illərini əhatə edən "Azərbaycan ədəbiyyatında milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsi" başlığı altında M.Arazın "Azərbaycan–dünyam mənim", "Əsgər məktubu", Ə.Kərimin "Qaytar ana borcunu" şeirləri, İ.Hüseynovun "Zəhər", Elçinin "Tavlar", S.Əhmədlinin "Dərs", Z.Xəlilin "Zeynalabdin" hekayələri, İ.Şıxlının "Dəli Kür" romanı, Anarın "Keçən ilin son gecəsi", İ.Əfəndiyevin "Xurşudbanu Natavan" dram əsərlərinin tədrisi nəzərdə tutulmuş, "altmışıncılar" ədəbi nəslinin gəlişi ilə milli ruh və vətəndaşlıq mövqeyinin güclənməsi şagirdlərin nəzərinə çatdırılmışdır. Tədris olunan bu əsrlərdə vətənin hər şeydən üstün olması, vətəni müdafiə edən əsgər oğullara tövsiyə, gənc nəslin xalqımıza məxsus mənəvi dəyərlər ruhda tərbiyə olunmasının vacibliyi şərh olunmuşdur. Hekayələr isə mövzu rəngarəngliyi ilə diqqəti cəlb edir. Belə ki, "Zəhər" hekayəsində təbiətin insanların əməyi ilə qorunmasından, namərdə etibar etməyin ağır nəticələrindən bəhs olunur. "Talvar" hekayəsi ilə tanış olarkən şagirdlər başa düşürlər ki, əməkçi sadə insanların xatirəsi müqəddəsləşir, onlar heç zaman unudulmur. "Dərs" hekayəsində şagirdlər 20 Yanvar faciəsi ərəfəsində xalqımızın keçirdiyi ağrılı günləri mənən yaşayır, "Zeynalabdin" hekayəsində isə xalqın tərəqqi və inkişafı üçün böyük xidmətləri olan Tağıyevin həyatı bədii boylarla şagirdlərin diqqətinə çatdırılır.

Göründüyü kimi, dərslik üçün mövzular seçilərkən şagirdlərin yüksək mənəvi-əxlaqi dəyərlərə malik şəxs kimi yetişdirilməsi əsas missiya kimi dəyərləndirilmişdir. Bu işin orta məktəblərdə uğurla reallaşdığını araşdırmaq üçün dərsliklərin imkanları təhlil edilməli, ehtiyac yaranarsa, günün tələbləri ilə səsləşən sovet dövründə yazılmış digər əsərlərin də tədrisə gətirilməsi üzərində düşünülməlidir.

**Ədəbiyyat**

Abdulla, B., Verdiyeva, M., Quliyeva, A. (2011). Ədəbiyyat (Ümumtəhsil məktəblərinin VII sinfi üçün dərslik) Bakı: Çaşıoğlu.

Araslı, N. (1996). Ədəbiyyat (Ümumtəhsil məktəblərinin VII sinfi üçün dərslik) Bakı: Maarif.

Cəfərov, N., Həbibbəyli, İ., Əliyeva, N., Bakıxanova, A. (2012). Ədəbiyyat (Ümumtəhsil məktəblərinin XI sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik). Bakı: Çaşıoğlu. (43;118).

Əhmədova, S., Əhmədov T (2012) XIX –XX əsr Azərbaycan ədəbiyyatı (nəsr) II cild. Bakı: Nurlar.

Əliyev, S., Həsənov, B., Mustafayeva, A., Məmmədova, S. (2018). Ədəbiyyat (Ümumtəhsil məktəblərinin VII sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik). Bakı:Bakı Nəşr.( 64-65).

Əliyeva, N. (2013) Sovet dövrü Azərbaycan ədəbiyyatı (1941-1991). Bakı: Elm və təhsil.

Həbibbəyli, İ., Əliyev, S., Həsənov, B., Mustafayeva, A. (2019). Ədəbiyyat (Ümumtəhsil məktəblərinin XI sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik). Bakı:Bakı Nəşr. (72;131).

Həsənli, B., Nəcəfov, N. (2009). Ədəbiyyat (Ümumtəhsil məktəblərinin IX sinfi üçün Ədəbiyyat

fənni üzrə dərslik). Bakı: Xəzər nəşriyyatı.

Həsənov, B., Mustafayeva, A., Əliyev, S., Verdiyeva, N. (2020). Ədəbiyyat (Ümumtəhsil məktəblərinin IX sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik). Bakı:Bakı Nəşr.

Hüseynoğlu, S., Quliyev, Ə., Həsənli, B. (2004) Ədəbiyyat (Ümumtəhsil məktəblərinin V sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik). Bakı: Çaşıoğlu.

Hüseynov, F., Cəlal, M (2018, dördüncü nəşr). XX əsr Azərbaycan ədəbiyyatı Bakı: Elm və Təhsil

Xəndan, C. (1940). Azərbaycan ədəbiyyatı (Sovet dövrü). Bakı: Azərnəşr.

Mirəhmədov, Ə., Əsgərli, Z. (1999). Ədəbiyyat (Ümumtəhsil məktəblərinin X sinfi üçün dərslik) Bakı: Maarif.

Nəbiyev, B., Salmanov, Ş. (1997, ikinci nəşr). Ədəbiyyat (Ümumtəhsil məktəblərinin XI sinfi üçün dərslik) Bakı: Maarif .

Nəbiyev, B., Salmanov, Ş. (2003, beçinci nəşr). Ədəbiyyat (Ümumtəhsil məktəblərinin XI sinfi üçün dərslik) Bakı: Maarif.

Səfərli, Ə., Yusifli, X. (1994). Ədəbiyyat (Ümumtəhsil məktəblərinin IX sinfi üçün dərslik) Bakı: Öyrətmən .

## CHARACTERISTICS OF SPEECH OF CHILDREN WITH STUTTERING

**Shahvaladli Gadimova Albanda**

**Azerbaijan State Pedagogical Turan University**

**https://orcid.org/0000-0001-5680-441X**

**91turan@gmail.com**

**Rəyçi:**

**Mirzəyeva Sevər Sərvət qızı,**

**Psixologiya üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

Evlilik qarşılıqlı ehtiyaclar və rollar çərçivəsində inkişaf edən, müsbət gözləntilərlə qurulan münaibət növüdür. Ancaq qloballaşan dünyada baş verən sürətli sosial, iqtisadi və mədəni dəyişikliklər ailə münasibətlərinə də təsirsiz ötüşmür. Bu münasibətlərdə ortaya çıxan dəyişikliklərin biri boşanma nisbətləridir. Boşanma müxtəlif səbəblərə görə nikah birliyinin qanuni olaraq dayandırılması kimi xarakterizə olunur. Hər bir boşanma özünəməxsus aspektləri olan çoxölçülü bir təcrübədir və həm fərdi, həm də cəmiyyətə təsir göstərir. Ailə strukturunda baş verən dəyişikliklər boşanmanın xoşagəlməyən və ya qənaətbəxş etməyən əlaqələri bitirmək üçün daha çox istifadə edilən bir üsula çevrilməsinə səbəb olmuşdur (Cabılar, 2022). Ailənin dağılmasından sonra uşaqlar da boşanmış ailənin uşaqları kimi bilinir və əlbəttə ki, bu hal əksər vaxt uşağı sosial, emosional, psixoloji aspektdən sarsır. Natamam ailədə olan uşaqların bir çoxu qəzəbli, aqressiv və ya depressiv əhval-ruhiyyədə olur, özünə hörmət və özünə inamın zəifləməsi, sosiallaşmaqdan qaçınma halı ortaya çıxır.

Boşanmanın uşağa təsiri bir çox faktora görə dəyişir. Bu amillərə yaş, cins, boşanmanın səbəbi, digər ailə üzvləri ilə münasibətlər, ana-ata arasındakı münaqişənin dərəcəsi və s. aiddir. Yeniyetmə yaş dövründə valideynlərin boşanması nəticəsində uşaqlarda ayrılıq qorxusu, itki hissi, bağlılıqda problemlər, valideynlərindən və dostlarından uzaqlaşma, aqressiv, üsyankar davranışlar, günahkarlıq hissi, özünə inamın, özünə hörmətin azalması, valideynlərinə və başqa insanlara inam hissinin azalması və s. kimi hallar olur.

Yeniyetmələrdə güvən hissinin inkişafında ailə çox önəmli bir faktor olaraq qiymətləndirilir. Digər yaş dövrlərindəki kimi güvənli bir ailə mühiti yeniyetmələrin ətraf mühitə güvənlə yanaşmasını dəstəkləyir. Burada valideynlərin yeniyetməlik yaş dövrünün xüsusiyyətlərinə uyğun yanaşmaları çox vacibdir. Valideynin uşağı ilə açıq ünsiyyəti də bu inamın möhkəmlənməsinə töhfə

verir. Eyni zamanda, valideynlər arasında etibarlı münasibət uşağa özünü təhlükəsiz hiss etdirir, onun psixoloji inkişafına töhfə verir və gələcək münasibətləri üçün örnək olur. Əks təqdirdə, avtoritar və ya biganə valideynlər yeniyetmələrin özünə və başqalarına olan inamını sarsıda bilər. Bundan yola çıxaraq boşanmış ailələrin uşaqlarının valideynlərinə qarşı inam hissinin dağılmasının gözlənilən hal olduğunu deyə bilərik. Tam və natamam ailələrdə yeniyetmələrin valideynlərinə qarşı güvən hissinə dair müxtəlif araşdırmalar valideynlərin boşandıqdan sonra uşaqlarına əks etdirdikləri davranış və münaqişələrin uşaqların güvən duyğularına necə təsir etdiyini araşdırır. Buna misal olaraq, Arizona Dövlət Universitetinin boşanmış ailələrin uşaqları ilə apardığı tədqiqat göstərir ki, belə ailələrdə tez-tez rast gəlinən valideynlərarası münaqişə uşaqlarda inamsızlıq və tərk edilmə qorxusuna səbəb olur. Valideynlərin davamlı olaraq bir-birləri ilə bağlı mənfi ifadələrdən istifadəsi uşaqların onlardan uzaqlaşmasına, ayrılıq qorxusu yaşamaqlarına gətirib çıxarar. Bununla yanaşı, boşanma zamanı valideynlərin neqativ davranışları sadəcə valideynlərə qarşı deyil, eyni zamanda başqa insanlara olan güvən hissinin də sarsılmasına səbəb olur (Dardenne, 2021).

Valideynləri ayrılmış yeniyetmələrdə başqa insanlara qarşı inam hissi formalaşdırmaq çətindir, çünki inam uşaqların çox vaxt erkən yaşda ailə mühitində öyrəndikləri bir bacarıqdır. Lakin boşanma dövründə yeniyetmənin güvən hissini qoruyub saxlaya bilməsi üçün aşağıdakı amillərə nəzər yetirmək tövsiyə olunur:

- Valideynlərin münaqişəni kontrolda saxlaması – boşanmış valideynlər övladlarının yanında münaqişədən qaçınmalı, onlara bu vəziyyəti yansıtmamağa çalışmalıdır. Münaqişənin az olduğu mühitdə böyüyən uşaqlar insan münasibətlərində etimadın dəyərini daha yaxşı öyrənirlər və bu etimadı başqalarına da əks etdirə bilirlər.

- Emosional dəstəyin davamlılığı – boşanmadan sonra hər iki valideynin emosional dəstəyi uşağın güvənli bağlanma tərzini qoruyub saxlamasına kömək edər. Bu bağlanma tərzi uşaqların təkcə valideynləri ilə deyil, həm də dostları, müəllimləri və romantik tərəfdaşları ilə inamını inkişaf etdirmək qabiliyyətini dəstəkləyir.

- Sosial dəstəyin olması – qohumların və dostların sosial dəstəyi yeniyetmələrdə güvən hissinin möhkəmlənməsinə gətirib çıxara bilər.

- Özünə hörmətin inkişafı – valideynləri tərəfindən düzgün yetişdirilmiş uşağın hər yaş dövründə özünə hörməti adekvat olacaqdır. Bu halda onlar boşanma prosesinin ortaya çıxardığı çətinliklərin öhdəsindən gələ biləcək və daha güclü özünə hörmət inkişaf etdirəcəklər. Belə formalaşmış özünə hörmət digər insanlara güvənməyin fundamental əsasıdır. Özünə güvənən yeniyetmələr inamlı münasibətləri daha sağlam şəkildə qurur və saxlayırlar.

Başqalarına güvən hissi boşanma prosesi zamanı dəyişə bilər, fəqət valideylərin müsbət münasibəti və güclü sosial dəstək yeniyetmələrin inam hissini qoruyub saxlamasını dəstəkləyir.

**Ədəbiyyat:**


Şahbaz, M. (2020). Parçalanmış ve Parçalanmamış Ailelerden Gelen Ergenlerin Riskli Davranışlarının Bazı Demografik Değişkenlere Göre İncelenmesi (Yüksek Lisans Tezi, Doğu Akdeniz Üniversitesi (DAÜ)-Doğu Akdeniz Üniversitesi (DAÜ).

Cabılar, B. Ö., & Yılmaz, A. E. (2022). Boşanma ve boşanma sonrası uyum: Tanımlar, modeller ve uyumun değerlendirilmesi. *Psikiyatride Güncel Yaklaşımlar*, *14*(1), 1-11.

Dardenne K. (2021). Conflict between divorced parents can lead to mental health problems in children. Arizona State University

# ENVIRONMENT AS A FACTOR AFFECTING PERSONALITY DEVELOPMENT

**Amiraslanova Tunzala Akif**

**Sumgait State University**

**https://orcid.org/0000-0003-4056-2473**

**tunzale.emiraslanova@sdu.edu.az**

**Rəyçi:**

**Mirzəyeva Sevər Sərvət qızı,**

**Psixologiya üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

The ecological environment plays a cricical role in shaping human personality, encompassing both the physical and psychological aspects of individual growth.Factors such as climate, pollution levels, urbanazation, and access to nature influence personality traits, social behaviors and values. Resarch suggests that people raised in natural settings like rural areas often develop strong empathy calmness and a sense of responsibility toward nature. In contrast those growing up in urbanized and polluted environments may experience higher stress levels limited exposure to nature and different social values.

**Keywords** : environment, nature, psychological aspects, emphaty

# ВЛИЯНИЕ ЭКОЛОГИЧЕСКОЙ СРЕДЫ НА РАЗВИТИЕ ЛИЧНОСТИ

**Амирасланова Тунзале Акиф**

**Сумгаитский государственный университет**

**https://orcid.org/0000-0003-4056-2473**

**tunzale.emiraslanova@sdu.edu.az**

**Резюме**

Экологическая среда играет ключевую роль в формировании личности , затрагивая как физические , так и психологические аспекты индивидуального роста. Такие факторы , как климат, уровень загрязнения, урбанизация и доступ к природе , влияют на черты характера , социальное поведение и ценности. Исследования показывают , что люди , выросшие в природных условиях , таких как сельская местность , часто развивают эмпатию ,спокойствие и чувство ответственности по отнешению к природе. В то время как те, кто вырос в урбанизированной и загрязненной среде, могут испытывать повышенные уровни стресса, ограниченный контакт с природой и другие социальные ценности.

**Ключевые слова**: окружаюушая среда, природа, психологические аспекты, эмпатия

# EKOLOJİ MÜHİT ŞƏXSİYYƏTİN İNKİŞAFINA TƏSİR GÖSTƏRƏN AMİL KİMİ

**Əmiraslanova Tünzalə Akif**

**Sumqayıt Dövlət Universiteti**

**https://orcid.org/0000-0003-4056-2473**

**tunzale.emiraslanova@sdu.edu.az**

Şəxsiyyətin formalaşması, yalnız bioloji və sosial təsirlərdən deyil, həm də ekoloji amillərdən asılıdır.İnsanın yaşadığı mühit, onun davranışlarına , düşüncələrinə , sosial məsulliyyətinə və hətta emosional vəziyyətinə təsir edə bilər. Ekoloji mühitin şəxsiyyətə təsiri son illərdə daha çox araşdırılmağa başlansa da , ətraf mühitin insan inkişafına təsir edən əsas amillərdən biri olduğu artıq geniş şəkildə qəbul edilir.

Ekoloji mühit insanın təbii ətrafını , iqlim şəraitini, flora və faunası, eyni zamanda urbanizasiya dərəcəsini əhatə edir. Müxtəlif ekoloji mühitlərdə yaşayan fərdlər arasındakı fərqlər insanların gündəlik davranış və sosial dəyərlərində özünü göstərir. (Journal of Geoscience and Environment Protection > Vol.12 No.11, November 2023, Floristic and Structural Analysis of Urban Tree Canopy: From Its Ecology to Its Social Issues, )

Təbii mühit və iqlim təsiri insanın emosional və davranış xüsusiyyətlərinə təsir etdiyini göstərən coxsaylı tədqiqatlar mövcuddur. Məsələn, isti iqlimdə yaşayan insanlar adətən daha açıq , aktiv və ünsiyyətcildirlər.Buna qarşılıq , soyuq iqlim şəraitində böyüyən fərdlər daha təmkinli və daxili düşüncələrə meyilli olur. Bu amillər insanın emosional inkişafını , sosial münasibətlərdəki davranışlarını formalaşdıran faktorlar arasında önəmli yer tutur. Ətraf mühitin təmiz və sağlam olması , yalnız fiziki sağlamlığa deyil həm də psixoloji sağlamlığa bir başa təsir göstərir.Təmiz hava və su, insanların enerji səviyyəsini və ümumi həyat keyfiyyətini artırır.Şəhər mühitində isə yüksək dərəcədə çirklənmə, səs küy və s. faktorlar insanların stress səviyyəsini artıraraq, onların emosional və mental vəziyyətinə mənfi təsir göstərir.Bu amillər insanların davranışlarında narahatlıq, əsəbilik və emosional gərginlik şəklində özünü göstərə bilər.

Ekoloji mühitin mənfi təsirləri ilə qarşılaşan insanlar ətraf mühitə daha çox diqqət yetirməyə və ekoloji məsuliyyət hissini inkişaf etdirməyə başlayırlar. Ekoloji problemlərin fərdi səviyyədə dərk edilməsi , insanların təbiəti qorumağa və ekoloji davranış dəyişikliklərinə sövq edir. Məsələn, çirklənmiş ərazilərdə yaşayan insanlar arasında daha çox ekoloji şüur, tullantıların azalmasına və təbiəti qorumağa yönələn davranışlar müşahidə olunur. Təbiətə onun özü kimi dost sevgisi ilə nəzər yetirmək bəs edər.Sən ona dönük çıxma , o səni əsl öz övladı kimi əzizləyəcək.(Ekoloji jurnal 27.08.2023)

Şəxsiyyətin inkişafında ekoloji mühitin təsiri çoxşaxəli və əhəmiyyətlidir. Təbii mühitin insan həyatına gətirdiyi emosional sabitlik, urbanisaziya və ekoloji problemlərin yaratdığı psixoloji gərginlik, insanın şəxsiyyətində özünü birbaşa əks etdirir.Ekoloji şüurun artırılması , ətraf mühitin qorunmasına diqqət yetirilməsi, insan inkişafına və ümumi cəmiyyətin rifahına müsbət təsir göstərəcək.Ekoloji dəyərlərin inkişafı və yaşıl mühitin qorunması , həm fərdi həm də ictimai səviyyədə daha dayanıqlı və məsuliyyətli şəxsiyyətlərin formalaşmasına təkan verəcəkdir.

**Ədəbiyyat**

Bronfenbrenner,U.(1979) The Ecology of Human Development: Experiments by Nature and Design

Journal of Geoscience and Environment Protection > Vol.12 No.11, November 2023, Floristic and Structural Analysis of Urban Tree Canopy: From Its Ecology to Its Social Issues,

Azərbaycan Respublikasının Konsitutsiyası

Ekoloji jurnal – Əli Rza Xələlinin yaradıcılığında İnsan ekologiyası problem 27.08.2023 , IV məqalə

**THE CORRELATION BETWEEN MUSICAL PREFERENCES AND DREAM FORMATION IN ADOLESCENCE**

**Baylarova-Alakbarova Bahar Elkhan**

**Azerbaijan State Pedagogical University Guba, Azerbaijan**

**https://orcid.org/0000-0003-0345-4721**

**beylerova.b@hotmail.com**

**Rəyçi:**

**Məmmədova Aytəkin Telman qızı,**

**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

**Abstarct**

*"Your musical choices shape your dreams, and those dreams,*

*in turn, become the building blocks of your life…"*

*Bahar Baylarova-Alakbarova Elkhan*

This article explores the impact of various music genres (aesthetic and non-aesthetic) listened to by adolescents on their dreams, thoughts, and behaviors. The research analyzes the role of music in the psychological development of adolescents and examines various aspects of this influence. The aim is to analyze the relationship between adolescents, music, and the world of dreams.

The article presents an analysis of the music genres mentioned during a survey conducted in 2018-2019 as part of a PhD dissertation titled "The Psychological Impact of Music on the Formation of Adolescents' Learning Motivation" (2017-2022). The survey included 600 students from grades 7, 8, and 9 in four different schools (varying in socioeconomic status, family education level, school environment, and whether they were private or public) - No. 232 High School, Ataturk Lyceum, Istanbul Lyceum, and Elite Gymnasium. Of the 600 students who answered the questionnaire (Appendix 1), responses from 350 students (180 girls and 170 boys) were analyzed. The results were processed in Excel. The table presents the students' responses to questions about the "type of music they listen to" (coded as negative or positive) (Table 2), their "dreams" (analyzed and coded as "spiritual" or "social"), and the "music they listen to" (analyzed and categorized as aesthetic or non-aesthetic). The results showed a statistically significant correlation between the music girls listened to (aesthetic and non-aesthetic) and the dreams they formed (spiritual and social). However, no statistically significant correlation was found between boys' dreams and the music they listened to (Table 4). It is important to note that a review of the literature indicated differences in both brain development and the impact of music based on gender during adolescence (Krause, North 2017, Jensen, Nutt 2022).

The study suggests a need for fundamental changes in music education curricula and, especially, in music teacher training programs. The lack of sources on the impact of aesthetic and non-aesthetic music on the motivation of dreams makes comparative analysis difficult. However, various research findings on the impact of music on the brain and psychology, as well as studies measuring the impact of dreaming on brain physiology and achievement, support our hypothesis about the influence of music (aesthetic and non-aesthetic) on the motivation of dreams.

**Keywords:** music selection, psychological development, personality formation, motivation, dream, culture, neuroscience, cognitive processes

# ВЛИЯНИЕ МУЗЫКИ, КОТОРУЮ СЛУШАЮТ ПОДРОСТКИ, НА ИХ МЕЧТЫ

**Бейларова-Алекбарова Бахар Эльхан**

**Азербайджанский государственный педагогический университет, Губинский филиал**

**https://orcid.org/0000-0003-0345-4721**

**beylerova.b@hotmail.com**

**Резюме**

*“Музыка, которую вы слушаете, формирует ваши мечты,*

*а ваши мечты формируют вашу жизнь...”*

*Бейларова-Алекбарова Бахар Эльхан*

В данной статье рассматривается влияние различных музыкальных образцов (эстетических, неэстетических), которые слушают подростки, на их воображение, мышление и поведение. В исследовании анализируется роль музыки в психологическом развитии подростков и различные аспекты этого влияния. Цель – проанализировать взаимоотношения подростков, музыки и мира воображения.

В статье отражен анализ музыкальных образцов, записанных в ходе опроса, проведенного в 2018-2019 учебном году во время работы в аспирантуре. Всего 600 учеников из 4 разных школ (финансовое и социальное положение, образовательный уровень семей, школьные условия, программа частных и государственных школ) средняя школа № 232, средняя школа Ататюрка, Стамбульская средняя школа, гимназия Элитар, 7-я, 8-я, 9-я. выставленные оценки (приложение 2). Были проанализированы ответы 350 студентов (180 девушек, 170 мальчиков), ответивших на вопросы, представленные в анкете (опросник 1), (табл. 2). Результаты были обработаны в Excel. В таблице указаны имена студентов в опросе (закодированы как отрицательные и положительные) (табл. 2), «Мечты» (мечты были проанализированы и закодированы как «духовные» и «социальные») и «Музыка, которую они слушают» (музыка была проанализирована и закодирована как эстетическая и неэстетическая ценность). В результате наблюдался статистически значимый результат между музыкой, которую слушали девочки (эстетической и неэстетической), и мечтами, которые они видели (духовными и социальными). Статистически значимой связи между сновидениями мальчиков и музыкой, которую они слушали, не было (таблица 4). Хотелось бы отметить, что при анализе литературы как развитие мозга (Jensen, Nutt 2022), так и влияние музыки (Krause, North  2017) различаются в зависимости от пола в подростковом возрасте.

Необходимы радикальные изменения в преподавании музыки и, самое главное, в программе повышения квалификации учителей музыки. Отсутствие источников, посвященных влиянию эстетической и неэстетической музыки на мотив сновидений, затрудняет сравнительный анализ. Однако результаты различных исследований, измеряющих влияние музыки на мозг и психологию, а также влияние сновидений на физиологию мозга и достижения, укрепили нашу гипотезу о том, что музыка (эстетическая и неэстетическая музыка) влияет на мотив сновидений.

**Ключевые слова:** выбор музыки, психологическое развитие, формирование личности, мотивация, мечта, культура, нейронаука, когнитивные процессы

# YENİYETMƏLƏRİN DİNLƏDİKLƏRİ MUSİQİLƏRİN XƏYALLARINA TƏSİRİ

**Bəylərova-Ələkbərova Bahar Elxan qızı**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialı baş müəllim**

**https://orcid.org/0000-0003-0345-4721**

**beylerova.b@hotmail.com**

Uşaq Tədqiqatları Hərəkatının qurucusu Qranville Stanley Hal yeniyetmə çağını "xəyal gücünün doğum günü" olaraq şərh edir (Jensen, Nutt 2022). Bəli yeniyetmələr fərqlidirlər amma bunun təməlində fiziloji, psixoloji və nevroloji səbəbər var. Yeniyetməlik dövrü daha çox musiqi dinlənildiyi (Levitin 2015) gələcəyə yönəlik xəyalların qurulduğu, ilk sevgilərin, "sevgi acılarının", beynin inkişafında fərqliliklərin (beynin alın payının formalaşdığı, sinapslar arası bağlantıların budanma dövrüdür) baş verdiyi dövrdür (Canan, 2018, Jensen, Nutt 2022). Bu dövrdə formalaşan şəxsiyyət xüsusiyyətləri və maraqlar gələcək həyatın istiqamətini müəyyənləşdirir.

İnsanın düşüncələri onun həyatını istiqamətləndirir. Düşüncə düşünəni dəyişir (J.Allen). Musiqi düşüncələrimizə yön verən amillərin ən güclüləri sırasındadır. Eyni zamanda musiqi və xəyal qurmaq beynin fiziologiyasına təsir etmə gücünə malikdir. Beyindəki fəaliyyət ağılın məzmununu yaradır (Levitin 2015). Beyin 4 loba ayrılı: frontal, parietal, oksipital və temporal və beyincik. Musiqi fəaliyyəti beynin bilinən bütün hissələrini və demək olar ki bütün alt sinir sistemini əhatə edir (Levitin 2015). Hipotezimiz bu qarşılıqlı təsirləri nəzərə alaraq dolayısı ilə musiqinin xəyalların motivinə və beynin fiziologiyasına təsiridir.

İnsan nə zaman düşünür, nə zaman xəyal qurur? Düşündüyü və xəyal qurduğu zaman beyində nələr baş verir? Nəzərə alsaq ki, beyin gerçək olan ilə gerçək olmayanı ayıra bilmir (Aydın 2018, Eagleman 2016, 2019), onda deyə bilərik ki, insan düşüncələrini beyin real yaşamış kimi qəbul edir. Musiqi dinlərkən musiqinin hiss etdirdiyi beyində ağrı, acı olaraq qəbul edilirsə bədən ona o formada reaksiya verir və ya əksinə. Musiqi sadəcə dinlənilən və emosional deyil, eyni zamanda motor bacarıqdır: "Musiqini əzələlərimizlə dinləyirik" yazır F. Nitsşe (O.Sacks 2018). İnsan dinlədiyi musiqinin hiss etdirdiyi ilə yaşayır (Ayata 2008, Campos-Bueno, DeJuan-Ayala, 2015, Daykin, Mansfield 2017, Schäfer 2016). Musiqi xəyal qurmağa motivasiya yaradır, musiqi növündən aslı olaraq beyin dalğaları dəyişirsə (Aydın 2018) demək ki, xəyalın məzmunu da dəyişir. Yeniyetmələrin dinlədikləri musiqiləri analiz etsək hansı məzmunlu xəyalları qurmağa motivasiya etdikərini təsəvvür etmək heç də çətin deyil.

Musiqi və beyin əlaqəsini bir çox mütəxəssis tədqiq etmişdir Stewart L, Zatorre RJ, Patel A. D., Balaban E, Peretz I, Limb C.J, Pantev C, Levintn D, S.Canan, Ş.Torun və s. Lakin bu tədqiqatçılar əsasən tibb sahəsində mütəxəssisdirlər tədqiqatların əlaqəli olduğu musiqi tərəfi zəyif qalır (Çuhadar 2008). Musiqi əsərində lad, ritm, akkord tərkibi, harmoniya və s. məsələlərin təsiri daha az tədqiq edilir. Janra (Lynar, Cvejic 2017), cinsə (Krause, Adrian 2017), mədəniyyətə görə (Ayata, Aşkın 2008) musiqinin beyində qavranılma yeri dəyişdiyini tədqiq edən nəticələri nəzərə alaraq Azərbaycana xas (mədəniyyətimiz, musiqimiz (estetik, qeyri-estetik), insanımız) belə tədqiqatların olmaması bu sahədə tədqiqatların aparılmasını zəruri edir.

**Tədqiqiatın əhəmiyyəti.** İnsan beyninin ön lobu – hərəkətlərin hesablandığı, vəziyyətin dəyərləndirildiyi və qərarların verildiyi hissə - ən son inkişaf edən hissədir (Aydın 2018, Jensen,

Nutt 2022). Bu səbəblə beyinlərindəki bu bağlantılar formalaşmadan yeniyetmələrin həyatında ön lob rolunu oynayan moderatorların olması gərəklidir. Yeniyetmə beynində baş verənləri göz ardı edərək ailədə və təhsildə mühakimə edilən (nəticədə tədrisdən yayınma, depresiya, intihar halları) yeniyetmələrə həyatlarının mərkəzinə qoyduqları musiqi vasitəsilə moderatorluq etməyi məqsədə uyğun hesab edirik. Tərbiyə və təhsilin yaş dövrü nəzərə alınaraq verilməsi daha effektiv olacaqdır. Yeniyetmənin beyni böyük stimullaşdırma və heyrətamiz öyrənmə qabiliyyətinə malik ecazkar orqandır (Jensen, Nutt 2022). Ən çox xəyal qurulan və musiqi dinlənilən dövrün yeniyetməlik yaş dövrü olduğu nəzərə alınsa beyin qurulan xəyaları daha çox gerçək qəbul edir (musiqi müşayəti ilə xəyal qurulduğu zaman bütün duyğu üzvləri bu prosesdə aktiv iştirak edir) və sinapslar arası budanma prosesində tez-tez istifadə olunan davranışlar qalır istifadə olunmayanlar isə budanır. Qeyri – estetik musiqilərin (neqativ hiss etdirən, neqatif hisslər aşılayan) gənclər tərəfindən kütləvi şəkildə dinlənilməsi onlara mənfi təsir edir (Ayata, Aşkın 2008, Schäfer 2016, Kenneth 2016).

Xəyal qurmağın nəaliyyətə göstərdiyi təsiri ilə bağlı tədqiqata nəzər salaq. Amerikada basketbol oyunçuları ilə aparılan tədqiqatda I qrupa real olaraq davamlı surətdə, II qrupa isə sadəcə xəyali olaraq səbətə top atmaq tapşırılır. III qrupa isə həm real, həm də xəyali olaraq səbətə top atmaq təklif edilmişdir. Nəticədə I qrupda müvəffəqiyyət 22%, II qrupda müvəffəqiyyət 21%, III qrupda isə müvəffəqiyyət təqribən 40% olmuşdur (Aydın 2018).

Xəyal qurmağın beynin fiziologiyasında yaradtığı dəyişiklik ilə bağlı tədqiqatda iştirakçılara hər gün 15 dəqiqə pianoda musiqi çaldıqlarını xəyal etmək təklif edilmişdir. Bir həftənin sonunda tədqiqatçılar sadəcə pianoda çaldığını düşünən insanların beynində barmaqlarının nəzarətindən məsul olan bölgələrin təsir sahələrinin inkişafını tədqiq edirlər. Yəni barmaqları ilə ifa etdiklərini sadəcə xəyal etmək belə insanların beyinlərinin motor bacarıqları ilə əlaqəli sahələrinin dəyişməsini təmin edə bilir (əlavə 1) (Aydın 2018). Bu, insan qabiliyyətlərinin formalaşmasında və inkişaf etdirilməsində möhtəşəm imkanlara malik bir amildir!

2017-2022 ci il “Yeniyetmələrin təlim motivinin formalaşmasına musiqinin psixoloji təsiri” adlı Psixologiya üzrə fəlsəfə doktoru tədqiqat işi zamanı (Baylarova-Alakbarova 2022) 2018-2019 tədris ilində aparılan anket zamanı qeyd edilən musiqi nümumələrinin analizi bizə deməyə imkan verir ki, hazırki dövrdə hökmranlıq edən qeyri – estetik musiqilərin yetişməkdə olan uşaqlar, gənclər tərəfindən kütləvi şəkildə dinlənilməsi onlara mənfi təsir edir. Mövzuya dair tədqiqat işlərinin tədqiqi zamanı musiqinin beyinə təsiri, xəyal qurmağın fəaliyyətə təsiri və beynin fiziologiyasına təsiri tədqiq edilmişdir.

**Tədqiqatın məqsədi.** Dinlənilən qeyri-estetik musiqilərin yeniyetmə beyninə, psixologiyasına və xəyallarının məzmununa hansı dərəcədə təsir etdiyini araşdırmaq.

**Tədqiqat sualı.** Dinlənilən qeyri-estetik musiqilər yeniyetmə beyninə, psixologiyasına və xəyallarının məzmununa nə dərəcədə təsir edir?

**Hipotez.** Musiqilər yeniyetmə xəyallarının məzmununa təsir edir.

**Ədəbiyyatın təhlili.** EEG (elektroencephalography) metodu ilə beynin musiqiyə verdiyi reaksiyaları müəyyən etmək mümkündür. Fərqli musiqi janrlarına görə fərqli EEG dalğalarında artış olduğu müşahidə edilib. Klasik musiqi dinləmə zamanı teta dalğasının yüksəlməsi, dinləyicilərin bu musiqini dinlərkən xəyal qurduğu şəkildə şərh edilmişdir. Bir digər janr olan rock n roll dinləyənlərdə isə alfa dalğasında eniş müşahidə edilmiş və bu vəziyyət o musiqini dinləyənlərin xoşbəxt və rahat olmadıqları şəklində şərh edilmişdir (Akçay 2021). Beynin sağ və sol frontal bölgələrində emosional reaksiyalar nəticəsində yaranan aktivləşmələr fərqlidir. Sol frontal

fəaliyyətdə nisbi artım müsbət emosiyaları (əyləncə və xoşbəxtlik), sağ frontal fəaliyyətdə isə nisbi artım mənfi emosiyaları (qorxu və kədər) ifadə edir (Akçay 2021). Musiqiyə emosional reaksiyaların tonallıqdan (major-minor) və tempdən (sürətli-yavaş) qaynaqlandığı fərziyyəsinə əsaslanaraq, EEG ölçmələri zamanı dinlənilən musiqidə tonal və/yaxud temp dəyişiklikləri frontal nahiyənin sağ və sol hissələrində aktivləşmə dəyişikliklərinə səbəb olur. Yəni artan temp və minordan majora keçid pozitiv hisslərə təsir edən zaman, azalan temp və majordan minora keçid neqativ hisslərə təsir edir (Akçay 2021) format butun mətn boyunda eyni olmalidir.

**Nəticə.** 232 nömrəli tam orta məktəb, Atatürk liseyi, İstanbul liseyi, Elitar Gimnaziya, 7,8,9-cu sinif şagirdləri ümumilikdə 600 şagird daxil edilmişdir (əlavə 2) . Anketdə (anket 1), (cədvəl 2) təqdim edilən sualları cavablandıran şagirdlərdən 350 şagirdin (180 qadın, 170 kişi) cavabı analiz edilmişdir. Nəticələr Exceldə emal edilmişdir. Cədvəldə şagirdlərin sorğuda “Musiqiyə verdiyiniz ad” (neqativ və pozitiv olaraq kodlanmışdır)(cədvəl 2), “Xəyalları” (xəyallar təhlil edilərək “mənəvi” və “sosial” olaraq kodlanmışdı) və “dinlədikləri musiqilər” (musiqilər analiz edilərək estetik və qeyri-estetik olaraq dəyərləndirilmişdir) öz əksini tapmışdır (cədvəl 3). Nəticədə qızların dinlədikləri musiqilər (estetik və qeyri-estetik) ilə qurulan xəyallar (mənəvi və sosial) arasında statistik əhəməiyyətli nəticə olmuşdur. Oğlanların isə xəyalları və dinlədikləri musiqilər arasında statistik əhəmiyyətli nəticə olmamışdır (cədvəl 4). Qeyd eymək istəyirik ki, ədəbiyyatın təhlili zamanı yeniyetmə dövründə istər beyin inkişafının (Frances 2022) istərsə də musiqinin təsirinin cinsə görə (Krause, Adrian 2017) fərqliliyi qeyd edilmişdir.

Qeyri-estetik musiqi ifadəsini “zərərli musiqi” ifadəsi ilə də əvəzləyə bilərik. Belə musiqi bədənin vibrasiya tezliyini azaldır reallığın qavranılmasının qarşısını alır. Başqa sözlə, insanlar belə musiqiləri dinləyəndə öz nəzarətlərini itirirlər. Düşüncələr, duyğulara və davranışlara nəzarət azalır və ya itir. Tez-tez dissonans, olmaması ilə xarakterizə olunur forma və nizamsız ritm. İstənilən yüksək səsli musiqi əsəb pozğunluğuna gətirib çıxarır. 70 desibel səs səviyyəsində arteriyalar kiçilir və ürəyə qan axınına maneə törədir. Son illərdə, getdikcə daha geniş yayılmış musiqidir başına vuruş sayı olan alt janrlar dəqiqə 240 və ya 4 GHz-ə çatır!!! (Georgieva 2017). Məsələn, Professor B.Rauxa hard rock dinləmək beyindən məlumatın əhəmiyyətli hissəsini məhv edən stress hormonları ifrazına səbəb olur (Madorskiy).

Musiqinin gücü həm yaradıcılığa, həm də ali məqsədlərə yönəldilməlidir: mənəvi dəyərlər, insan-insan dəyəri, neqativ hisslərin (inamsızlıq, qorxu, düşmənçilik, aqressiya, depressiya, narahatlıq və s) aradan qaldırılmasına, ən çox ruhun, incə və ülvi duyğuların məhvinin qarşısının alnması və s. Bu təsirin gücü və mahiyyəti (elmi təsdiqini tapmış tədqiqatların bir qismi məqalədə öz əksini tapmışdır). “Pozulmuş ritmlər” kobuddur və mərkəzi sinir sisteminin cinsəlliklə əlaqəli olan bölgəsini qıcıqlandırır, onu təhrik edir. Fiziki olaraq vaxtından əvvəl artan fəaliyyətə insanı xoş olmayan duyğular fırtınasına aparır və ehtiraslandırır. Hipnoz mütəxəssisləri iddia edirlər ki, dəfələrlə təkrarlanan ritmlərin ardıcıllığı hipnoza səbəb olur (Georgieva 2017). Nəzərə alsaq ki yeniyetməlik dövrü eyni zamanda cinsi yetkinlik, qarşı cinsə diqqət, öz cinsinin fərqindəliyi və qarşı cinsə sevgi münasibətinin bəsləndiyi dövrdür sevgi mövzusunda dinlənilən musiqilərə daha diqqətli olmaq lazımdır. Məktəblərdə müşahidə edilən cinsi istismar saylarının artaması və dinlənilən musiqilərin təhlili düşünürük ki nəticə verə bilər.

Estetik və qeyri estetik musiqilərin xəyalların motivinə təsiri ilə bağlı mənbələrin olmaması müqayisəli təhlili çətinləşdirir. Lakin müxtəlif tədqiqat nəticələri musiqinin beynə, psixologiyaya təsirini, eyni zamanda xəyal qurmağın beynin fiziologiyasına və nəaliyyətə təsirini ölçən tədqiqat nəticələri musiqinin (estetik və qeyri-estetik musiqi) xəyalların motivinə təsiri hipotezimizi

gücləndirmişdir.

Ümumtəhsil məktəblərində musiqi dərslərinin keçirilmə qaydası, xor və orkestrlərin təşkili nəzəri musiqi savadlılığı məqsədi ilə deyil art terapiya və "beynin tərbiyəsi (idmanı)", psixoloji təsir və s. məqsədli icrasının təsdiqi üçün Azərbaycanda eksperimentlər aparmaq tövsiyyə edillir. Eyni zamandan mövzu, psixologiya, musiqişünaslıq, neyroelm və sosiologiya sahələrində geniş tədqiqatlara yol açır: Musiqi və yeniyetməlik dövrü; Musiqi və xəyallar; Musiqi və şəxsiyyət inkişafı; Yeniyetmələrin musiqi zövqləri və xəyalları; Musiqinin emosional intellektin inkişafına təsiri; Musiqinin psixoloji problemlərin həllində rolu. Spotify və s. kimi şəbəkələrdə birinci olan musiqi nümunələrinə diqqət etməliyik. O musiqi nümunələrini birinci edən musiqinin keyfiyyətidir yoxsa dinləyicilərin ruh halı.

**Ədəbiyyat:**


Amanda E. Krause, Adrian C. North (2017). How do location and control over the music influence listeners' responses? Scandinavian Journal of Psychology.

Aydın, H.İ. (2018). Beyin sizsiniz./ H.İ. Aydın. Girdap, 341 s.

Ayata E., Aşkın C. (2008) itüdergisi/b sosyal bilimler Cilt: 5, Sayı: 2, 13-22, Aralık.

Akçay, Ş.Ö. (2021). Nöromüzikolojide araştırma yöntem ve teknikleri. / Ş.Ö. Akçay. – Nobel bilimsel 1. Basım, Eylül.

Baylarova-Alakbarova B.E. (2022). The Impact of Music on The Education Motivation in Adolescents. AJER - Academia Eğitim Araştırmaları Dergisi,Türkiye. №7, p. 1-6.

Canan, S. (2018). Değişen beynim. / S. Canan. - Tutikitap 6. Baskı: 350 s.

Campos-Bueno J. J., O. DeJuan-Ayala, Pedro Montoya, N. Birbaumer. (2015). Emotional Dimensions of Music and Painting and their Interaction. Cambridge University Press.

Çuhadar H (2008). Müzik ve beyin. Çukurova Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Cilt 17, Sayı 2, s. 67-76

Daniel J. Levitin. (2015). Müziğin etkisindeki beyin. 1.Baskı: İstanbul, Eylül.

David E. (2019). İncognito. 32 Baskı.

David E. (2016).Beyin 1 Baskı.

Emily L., Erin C., Emery S. (2017). The joy of heartfelt music: An examination of emotional and physiological responses. Elsevier 25 July .

Frances E. Jensen, Amy Ellis Nutt (2022). Ergen beyni 8.baskı Mart, İstanbul.

Georgieva E. (2017). Effect of music on children's nature and behaviour. how music can educate, but also destroy. Trakia Journal of Sciences, No 4, pp 328-332.

Mallik A., F.A.Russo (2022). The effects of music & auditory beat stimulation on anxiety: A randomized clinical trial. Plos One (2022). Mar 9;17(3):e0259312. doi: 10.1371/journal.pone.0259312

Madorskiy L., Zak A., Muzikalnoe vospitanie i zdorove (Music education and health)

Norma D., Mansfield L., Catherine M., Guy J., Alan T., Annette P., Lily G. (2017) What works

for wellbeing? A systematic review of wellbeing outcomes for music and singing in adults. Royal Society for Public Health.

Sabath B.O., N.W.Ardini (2024). The Influence of Music on Adolescent Psychology under Construction at Corpus Christi Lawang, Malang, East Java. Journal of Aesthetics Creativity and Art Management 3(1):61-68

Thomas S. (2016) The Goals and Effects of Music Listening and Their Relationship to the Strength of Music Preference. Ploce one 17 march.

***Əlavə 1.***

Solda musiqiçinin, sağda isə musiqiçi olmayan insanın beynindəki arkaut əlaqələri təsvir edilmişdir.




***Cədvəl 1.***

*Eksperimental və Nəzarət qruplar üçün demoqrafik göstəricilər*

| Demoqrafik əlamətlər | | | Eksperimental qrup | | Nəzarət qrup | |
|---|---|---|---|---|---|---|
| | | | N | % | N | % |
| Cinsiyyət | Qadın | | 130 | 52% | 50 | 50% |
| | Kişi | | 120 | 48% | 50 | 50% |
| **Cəmi** | | | **250** | **100%** | **100** | **100%** |
| Sinif | 7 | 7a | 53 | 21,2% | 20 | 20% |
| | | 7b | 21 | 8,4% | 10 | 10% |
| | | 7c | 17 | 6,8% | 10 | 10% |
| | 8 | 8a | 71 | 28,4% | 30 | 30% |
| | 9 | 9a | 52 | 20,8% | 15 | 15% |
| | | 9b | 36 | 14,4% | 15 | 15% |
| **Cəmi** | | | **250** | **100%** | **100** | **100%** |
| Məktəb | 232 nömrəli məktəb | | 76 | 19,2% | 25 | 25% |
| | Atatürk liseyi | | 48 | 21,2% | 25 | 25% |
| | İstanbul liseyi | | 53 | 29,2% | 25 | 25% |
| | Elitar Gimnaziya | | 73 | 30,4% | 25 | 25% |
| **Cəmi** | | | **250** | **100%** | **100** | **100%** |

*Cədvəl 2.*

| | Musiqiyə nə ad verərdiniz? | Şagird sayı |
|---|---|---|
| 1 | Həyat | 149 |
| 2 | Sakitləşdirici | 68 |
| 3 | Hər şey | 30 |
| 4 | Rahatlıq | 33 |
| 5 | Əyləncə | 18 |
| 6 | Xəyal | 26 |
| 7 | Hislər | 25 |
| 8 | Heç nə | 21 |
| 9 | Boş vaxtlarda dinləyirəm | 12 |
| 10 | Ruh | 37 |
| 11 | Kosmos | 1 |
| Cəmi | | 420 |

*Cədvəl 3.*

| Tədqiqata qatılan yeniyetmələrin anket nəticələri | | Dinlədiyiniz Musiqilər | | | |
|---|---|---|---|---|---|
| | | Estetik | | Qeyri-estetik | |
| | | n | % | n | % |
| Cinsiyyət | Qadın | 49 | 14% | 131 | 37,40% |
| | Kişi | 62 | 17,70% | 108 | 30,90% |
| Musiqiyə verdiyiniz ad | Pozitiv | 103 | 29,40% | 224 | 64% |
| | Neqativ | 8 | 2,30% | 15 | 4,30% |
| “Şəxsiyyətin maskulinlik və feminlik dərəcəsinin tədqiqi” metodikası | Androgen | 40 | 11,40% | 118 | 33,70% |
| | Femin | 45 | 12,90% | 90 | 25,70% |
| | Maskulin | 26 | 7,40% | 31 | 8,90% |
| Xəyallar | Sosial | 41 | 11,70% | 79 | 22,60% |
| | Mənəvi | 70 | 20% | 160 | 45,70% |
| | | 111 | | 239 | |

*Cədvəl 4.*

| Tədqiqata qatılan yeniyetmələrin anket nəticələri | | Dinlədiyiniz Musiqilər | | | |
|---|---|---|---|---|---|
| | | Estetik | | Qeyri-estetik | |
| | | n | % | n | % |
| Cinsiyyət | Qadın | 44% | 14% | 55% | 37,40% |
| | Kişi | 56% | 17,70% | 45% | 30,90% |

| | | | | | |
|---|---|---|---|---|---|
| Musiqiyə verdiyiniz ad | Pozitiv | 93% | 29,40% | 94% | 64% |
| | Neqativ | 7% | 2,30% | 6% | 4,30% |
| “Şəxsiyyətin maskulinlik və feminlik dərəcəsinin tədqiqi” metodikası | Androgen | 36% | 11,40% | 49% | 33,70% |
| | Femin | 41% | 12,90% | 38% | 25,70% |
| | Maskulin | 23% | 7,40% | 13% | 8,90% |
| Xəyallar | Sosial | 37% | 11,70% | 33% | 22,60% |
| | Mənəvi | 63% | 20% | 67% | 45,70% |

***Cədvəl 5.***

| Tədqiqata qatılan yeniyetmələrin sorğu nəticələri | | Estetik | | Qeyri estetik | | P dəyəri |
|---|---|---|---|---|---|---|
| | | n | % | n | % | |
| Mənəvi | Kişi | 16 | 32,7% | 55 | 45,5% | 0,91 |
| | Qadın | 33 | 67,3% | 66 | 54,5% | **-1,22** |
| Sosial | Kişi | 14 | 66,7% | 29 | 60,4% | **-0,40** |
| | Qadın | 7 | 33,3% | 19 | 39,6% | 0,29 |

# THE ROLE OF ARTIFICIAL INTELLIGENCE IN PSYCHOLOGICAL COUNSELING SERVICES

**Guliyeva Raziya Elkhanovna**

**Institute Of Education Of The Republic Of Azerbaijan**

https://orcid.org/0000-0002-4762-6778

email: guliyeva.raziya@gmail.com

**Rəyçi:**

**Məmmədova Aytəkin Telman qızı,**

**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

The purpose of this study is to delve deeper into the potential of artificial intelligence (AI) in revolutionizing psychological counseling services and to address the multifaceted ethical challenges that come with its integration. AI, with its growing capabilities in natural language processing, sentiment analysis, and machine learning, holds promise for transforming the mental health sector by providing personalized support and enhancing service accessibility. The research examines AI's applications, including chatbots and virtual therapy platforms, assessing their potential to serve as supplementary or alternative solutions to traditional mental health services. Key research methodologies employed in this study include theoretical analysis and comparative analysis, aiming to capture a comprehensive understanding of AI's impact on psychological interventions.

**Key words:** Artificial intelligence, psychological counseling, ethical issues, personalized support, privacy and security, therapeutic relationships

# РОЛЬ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В УСЛУГАХ ПСИХОЛОГИЧЕСКОГО КОНСУЛЬТИРОВАНИЯ

**Кулиева Разия Эльхановна**

**Институт образования Азербайджанской Республики**

https://orcid.org/0000-0002-4762-6778

email: guliyeva.raziya@gmail.com

**Резюме**

Целью данного исследования является углубленное изучение потенциала искусственного интеллекта (ИИ) в преобразовании услуг психологического консультирования и рассмотрение сложных этических вопросов, связанных с его внедрением. С ростом возможностей ИИ в области обработки естественного языка, анализа настроений и машинного обучения, эта технология обещает преобразовать сектор психического здоровья, предоставляя персонализированную поддержку и повышая доступность услуг. Исследование рассматривает приложения ИИ, включая чат-ботов и виртуальные платформы для терапии, оценивая их потенциал в качестве вспомогательных или альтернативных решений традиционным услугам по психическому здоровью. Основные методы исследования, используемые в данной работе, включают теоретический и сравнительный анализ, что позволяет получить полное представление о влиянии ИИ на психологические вмешательства.

**Ключевые слова:** Искусственный интеллект, психологическое консультирование, этические вопросы, персонализированная поддержка, конфиденциальность и безопасность, терапевтические отношения

# PSİXOLOJİ MƏSLƏHƏT XİDMƏTLƏRİNDƏ SÜNİ İNTELLEKTİN ROLU

**Quliyeva Raziyə Elxanovna**

**Azərbaycan Respublikası Təhsil İnstitutu**

https://orcid.org/0000-0002-4762-6778

email: guliyeva.raziya@gmail.com

Süni intellektin psixoloji məsləhət xidmətlərində istifadəsi son illərdə dünya miqyasında aktual bir mövzuya çevrilmişdir. Rəqəmsal texnologiyaların geniş yayılması və psixi sağlamlıq xidmətlərinə olan tələbin artması ilə süni intellekt əsaslı terapiya və dəstək platformaları zaman keçdikcə daha çox diqqəti cəlb etməkdədir. Bu yenilik, xüsusilə, psixoloji dəstək xidmətlərinə əli çatmayan və ya maliyyə, coğrafi maneələr səbəbilə ənənəvi terapiyaya çətin çıxış imkanı olan şəxslər üçün böyük əhəmiyyət kəsb edir. Süni intellekt əsasında yaradılmış çatbotlar və virtual məsləhət platformaları fərdi ehtiyaclara uyğunlaşdırılmış xidmətlər təqdim etmək gücünə malikdir, bu isə psixoloji dəstəyin əlçatanlığını artırır.

Bununla belə, süni intellektin psixoloji xidmətlərə tətbiqi etik məsələlər və terapevtik effektivlik baxımından müəyyən suallar doğurur. Empatiya və şəxsi münasibət kimi insan terapevtlərin təmin etdiyi dəyərləri süni intellekt vasitəsilə yaratmaq bir qədər mürəkkəb ola bilər. Həmçinin, məlumat təhlükəsizliyi, alqoritmik qərəzlik və istifadəçi müstəqilliyi kimi etik məsələlər bu sahədə diqqət mərkəzindədir. Beləliklə, süni intellektin gücündən tam istifadə etməklə yanaşı, müştərilərin maraqlarını qorumaq üçün texnologiyanın tənzimlənməsi və etik qaydaların tətbiqi üzrə hərtərəfli yanaşma tələb olunur.

Süni intellektin (Sİ) psixoloji konsultasiyaya inteqrasiyası psixi sağlamlıq xidmətlərinə artan tələbatı həll etməklə yanaşı, eyni zamanda unikal problemlər və etik aspektlər təqdim edərək, bu sahədə əhəmiyyətli bir inkişafa səbəb olur. Xüsusilə COVID-19 pandemiyası kimi qlobal böhranlardan sonra psixoloji dəstəyə ehtiyac artdıqca, psixi sağlamlıq xidmətində əlçatanlığı və səmərəliliyi artırmaq üçün çatbotlar və danışıq agentləri də daxil olmaqla, süni intellekt texnologiyaları təklif edilmişdir (Lai, 2023; Yurayat & Seechaliao, 2022). Süni intellektlə idarə olunan bu vasitələr, xüsusən də coğrafi təcrid və ya yardım axtarmaqla bağlı mənfi baxış kimi ənənəvi terapiyalarda maneələrlə üzləşə bilən əhali üçün təcili emosional dəstək təmin edə və məsləhət proseslərini asanlaşdıra bilər (Putri, 2024; , Yurayat & Seechaliao, 2022).

Psixoloji məsləhət xidmətlərində süni intellektin səmərəliliyi onun terapevtik şəraitdə çox vacib olan empatik qarşılıqlı əlaqəni simulyasiya etmək qabiliyyəti ilə vurğulanır. Tədqiqatlar göstərir ki, Sİ sistemləri simpatiya və empatiya ifadə etmək və bununla da istifadəçilərə emosional dəstək vermək üçün dizayn edilə bilər (Xu və digərləri, 2021). Bu xüsusiyyət xəstələrin tez-tez əhəmiyyətli psixoloji narahatlıq keçirdikləri onkologiya sahəsində xüsusilə faydalıdır (Xu et al., 2021). Bundan əlavə, Sİ tətbiqləri müxtəlif demoqrafik qrupların, məsələn karyera rəhbərliyi və emosional məsləhət üçün rəqəmsal platformalara üstünlük verə bilən Z nəslinin xüsusi ehtiyaclarını ödəmək üçün uyğunlaşdırıla bilər (Putri, 2024). Bununla belə, bu texnologiyalar bir sıra üstünlüklər təqdim etsə də, məxfiliyin qorunması, məlumat təhlükəsizliyi və emosional işarələrin yanlış təfsiri ilə bağlı vacib etik məsələlər yaradır (Erlin, 2024; Fulmer və digərləri, 2021).

Etik məsələlər süni intellektin psixoloji məsləhət xidmətindəki rolunun vacib bir aspektlərdən

biridir. Müxtəlif ədəbiyyatlar göstərir ki, psixi sağlamlıq mərkəzlərində Sİ texnologiyalarının inkişafı və tətbiqini tənzimləyən etik çərçivələrə ehtiyac var. Effektiv məsləhət təcrübələrinin xüsusiyyətlərini əks etdirən insan ünsiyyətinin Sİ tərəfindən nə dərəcədə təmin edilə biləcəyi ilə bağlı narahatlıqlar da geniş yayılmışdır (Fulmer və digərləri, 2021; Farmer, 2024). Terapevtik birlik konsultasiyada müsbət nəticələrin əsas proqnozlaşdırıcısı olduğu üçün terapevtik münasibətlərdə insanların bir-biri ilə əlaqənin saxlanmasının vacibliyi vurğulanır (Amari, 2020; , Farmer, 2024). Bundan əlavə, etik qaydalar şəffaflıq, hesabatlılıq, Sİ alqoritmlərinə xas olan və göstərilən dəstəyin keyfiyyətinə təsir edə biləcək qərəzli məsələləri həll etməlidir (Farmer, 2024; , Morley et al., 2019).

Süni intellektin psixoloji məsləhət xidmətində istifadəsi zamanı aşağıdakı etik məsələlər meydana çıxa bilər və onların düzgün tənzimlənməsi istifadəçilərin təhlükəsizliyi üçün vacibdir:

Məlumat təhlükəsizliyi və məxfilik: istifadəçilərin şəxsi məlumatlarının qorunması əsas prioritet olmalıdır, çünki şəxsi və emosional məlumatlar təhlil edilir. Məlumatın sızması və ya icazəsiz istifadəsi istifadəçilərin etibarını zədələyə bilər.

Qərəz və bərabərsizlik: Sİ alqoritmləri qərəzli məlumatlarla təlim oluna bilər, bu da qeyri-bərabər və ya təhrif olunmuş nəticələrə səbəb ola bilər.

Emosional dəstəyin keyfiyyəti: Süni intellektin empatiya və emosional dəstək bacarığı hələ də məhduddur. İnsan terapevtlə müqayisədə bu dəstək məhdudiyyətlərə malik ola bilər.

Təhlükəsizliyin qorunması: Sİ tətbiqləri potensial olaraq həssas vəziyyətlərdə, məsələn, psixi sağlamlıq böhranları və ya intihar riskləri zamanı qeyri-peşəkar təhlillərlə ciddi nəticələrə yol aça bilər.

Süni intellekt psixoloji məsləhət xidmətlərini təkmilləşdirmək üçün innovativ imkanlar təqdim etsə də, onun inteqrasiyasına ehtiyatla yanaşmaq vacibdir. Sİ-in imkanlarından faydalanmaq və məsləhət xidmətlərindəki əsas insan elementlərini qorumaq arasındakı tarazlıq səmərəli və etik psixi sağlamlıq xidmətlərinin təmin olunması üçün çox vacibdir. Gələcək tədqiqatlar güclü etik standartların hazırlanmasına və Sİ-in terapevtik münasibətlərə və psixi sağlamlıq nəticələrinə uzunmüddətli təsirlərinin qiymətləndirilməsinə yönəlməlidir (Fulmer, 2019; Farmer, 2024; Morley və digərləri, 2019).

Süni intellekt texnologiyalarının psixoloji məsləhət xidmətlərində tətbiqi əhəmiyyətli potensiala malikdir, bu isə terapevtik xidmətlərə çıxışı genişləndirmək və fərdiləşdirilmiş dəstək vermək imkanını artırır. Lakin bu texnologiyaların istifadəsi zamanı etik qaydaların və çərçivələrin yaradılması vacibdir, çünki terapevtik münasibətlərin mahiyyətinin qorunması və məlumat təhlükəsizliyinin təmin edilməsi əsas prioritetdir. Tədqiqat göstərir ki, Sİ dəstəyi ilə psixoloji xidmətlər ənənəvi terapiyaya dəstək və ya alternativ ola bilər, lakin insan təması ilə balanslaşdırılmalı və yüksək etik standartlarla təmin olunmalıdır. Gələcək tədqiqatların süni intellektin psixoloji məsləhət sahəsində uzunmüddətli təsirini və terapevtik effektivliyini öyrənməsi bu sahənin daha da inkişafına töhfə verəcəkdir. Mövzu ilə əlaqədar aşağıdakılar tövsiyə olunur:

Məlumat təhlükəsizliyi, şəffaflıq və hesabatlılıq kimi məsələlərə xüsusi diqqət yetirməklə psixi sağlamlıq sahəsində süni intellektin tətbiqinə dair etibarlı etik qaydalar hazırlanmalıdır.

Süni intellekt texnologiyaları ilə idarə olunan platformalarda peşəkar psixoloqların nəzarəti təmin edilməli, lazım gəldikdə müdaxilə etmək imkanı yaradılmalıdır.

Süni intellekt mütəxəssisləri və psixi sağlamlıq sahəsi üzrə mütəxəssislər arasında qarşılıqlı

əməkdaşlıq təşviq olunmalıdır.

Süni intellektin tətbiqini sınaqdan keçirmək üçün pilot proqramlar təşkil edilməli, onların effektivliyi, istifadəçi məmnuniyyəti və etik problemlərlə bağlı məlumat toplanmalıdır.

**Ədəbiyyat:**


Amari, N. (2020). Counseling psychology practice as the pursuit of the i–thou relationship.. The Humanistic Psychologist, 48(4), 410-426. https://doi.org/10.1037/hum0000155

Erlin, A. (2024). Ai benefits in mental health counseling. BICC_Proceedings, 2, 170-175. https://doi.org/10.30983/bicc.v1i1.92

Farmer, R. (2024). Artificial intelligence in practice: opportunities, challenges, and ethical considerations.. https://doi.org/10.31234/osf.io/6hn4f

Fulmer, R. (2019). Artificial intelligence and counseling: four levels of implementation. Theory & Psychology, 29(6), 807-819. https://doi.org/10.1177/0959354319853045

Fulmer, R., Davis, T., Costello, C., & Joerin, A. (2021). The ethics of psychological artificial intelligence: clinical considerations. Counseling and Values, 66(2), 131-144. https://doi.org/10.1002/cvj.12153

Lai, T. (2023). Supporting the demand on mental health services with ai-based conversational large language models (llms). Biomedinformatics, 4(1), 8-33. https://doi.org/10.3390/biomedinformatics4010002

Morley, J., Floridi, L., Kinsey, L., & Elhalal, A. (2019). From what to how: an initial review of publicly available ai ethics tools, methods and research to translate principles into practices. Science and Engineering Ethics, 26(4), 2141-2168. https://doi.org/10.1007/s11948-019-00165-5

Putri, A. (2024). The influence of addiction to using artificial intelligence (ai) in generation z in guidance and counselling. BICC_Proceedings, 2, 159-164. https://doi.org/10.30983/bicc.v1i1.122

Xu, L., Sanders, L., Li, K., & Chow, J. (2021). Chatbot for health care and oncology applications using artificial intelligence and machine learning: systematic review. Jmir Cancer, 7(4), e27850. https://doi.org/10.2196/27850

Yurayat, P. and Seechaliao, T. (2022). Undergraduate students' attitudes towards online counseling since the covid-19 pandemic. Higher Education Studies, 12(1), 72. https://doi.org/10.5539/hes.v12n1p72

# THE SOCIAL-PSYCHOLOGICAL ANALYSIS OF THE INFLUENCE OF NATIONAL SELF-AWARENESS TO ECOLOGICAL CONSCIOUSNESS IN MANAGEMENT

**Hajamova Zeynab Ahmed**

**ANAS Institute of Philosophy and Sociology**

**https://orcid.org/0000-0001-5886-0984**

**zeynebhecemova1990@gmail.com**

**Rəyçi:**

**Mirzəyeva Sevər Sərvət qızı,**

**Psixologiya üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

The main goal of the research is to conduct a socio-psychological analysis of the impact of national self-awareness issues on the environmental awareness of the society in the field of governance in Azerbaijan and the state-people unity from an ideological point of view. Completely new ideas and assumptions were included in the study. It is known that state building is a rather complex and multifaceted activity. The purpose of this report is to shed light on the impact of national self-awareness on environmental awareness in Azerbaijan in the post-war period and the real realities based on the logical paradigm. The influence of national self-awareness issues on the phenomenon of environmental consciousness in management is of ideological significance from a socio-psychological point of view as it forms the material and moral discourse of the society. Management is the activity of managers referring to relevant regulatory documents and regulates the service safety of the structure regardless of the scope of authority determination in management. This approach applies to all areas of management. It is known that the international COP29 event was held in Azerbaijan. In such a period, the investigation of the logical source of the functional activity taking place in the field of management in the country in the direction of the influence of national self-awareness on environmental consciousness is the result of very relevant observations.

**Keywords:** national self-awareness; management; environmental education; environmental awareness; state support

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ ВЛИЯНИЯ НАЦИОНАЛЬНОГО САМОСОЗНАНИЯ НА ЭКОЛОГИЧЕСКОЕ СОЗНАНИЕ В УПРАВЛЕНИИ

**Хаджамова Зейнаб Ахмед**

**Институт Философии и Социологии НАНА**

**https://orcid.org/0000-0001-5886-0984**

**zeynebhecemova1990@gmail.com**

**Резюме**

Основная цель исследования – провести социально-психологический анализ влияния вопросов национального самосознания на экологическое сознание общества в сфере управления в Азербайджане и единство государства и народа с идеологической точки зрения. В исследование были включены совершенно новые идеи и предположения. Известно, что государственное строительство – достаточно сложная и многогранная деятельность. Целью данного отчета является пролить свет на влияние национального самосознания на экологическое сознание в Азербайджане в послевоенный период и на реальные реалии, основанные на логической парадигме. Влияние вопросов национального самосознания на феномен экологического сознания в менеджменте имеет идеологическое значение с социально-психологической точки зрения, поскольку формирует материальный и нравственный дискурс общества. Управление - это деятельность руководителей с использованием соответствующих нормативных документов и регулирующая безопасность эксплуатации структуры независимо от объема определения полномочий в управлении. Этот подход применим ко всем сферам управления. Известно, что в Азербайджане прошло международное мероприятие COP29. В такой период исследование логического источника функциональной деятельности, происходящей в сфере управления в стране в направлении влияния национального самосознания на экологическое сознание, является результатом весьма актуальных наблюдений.

**Ключевые слова:** национальное самосознание; управление; экологическое образование; экологическое сознание; государственная поддержка

# İDARƏETMƏDƏ MİLLİ ÖZÜNÜDƏRKİN EKOLOJİ ŞÜURA TƏSİRİNİN SOSİAL-PSİXOLOJİ TƏHLİLİ

**Həcəmova Zeynəb Əhməd**

**AMEA Fəlsəfə və Sosiologiya İnstitutu**

**https://orcid.org/0000-0001-5886-0984**

**zeynebhecemova1990@gmail.com**

**İdarəetmədə milli özünüdərk məsələlərinə sosial-psixoloji baxış.** Müasir dövrdə Azərbaycanda baş verən sosial-mədəni inkişaf proseslərinin fonunda milli özünüdərk problemlərinə marağın artması müşahidə olunur. Milli özünüdərk humanist ideoloji dəyərlərin carçısı olaraq cəmiyyətin inkişafında müstəsna rol oynayır. O inkişaf ki, bütünlükdə Azərbaycan xalqının təfəkkür və davranış tərzində tarixi iz salmışdır. Dünyada qloballaşma proseslərinin güclənməsi şəraitində Ulu öndər Heydər Əliyevin siyasi və ideoloji irsinin layiqli davamçısı olan İlham Əliyevin müstəqil, modern və suveren idarəçilik konsepti Azərbaycanın qüdrətli dövlətə çevrilməsində həlledici rol oynamışdır (Məmmədzadə və Bünyatov, 2023). Prezident seçildiyi dövrdən etibarən Cənab İlham Əliyev Azərbaycanın siyasi inkişafının əsas şərtini milli özünüdərkdə gördüyü üçün elmi alternativlərin müəyyənləşdirilməsi sahəsində müvafiq qurumlar qarşısında ciddi vəzifələr təyin etmişdir. Bu məşəqqətli işin nəticəsidir ki, hal-hazırda Azərbaycanda ölkənin dinamik sistemlərlə idarə olunmasının optimal məntiqi xalqda passionar düşüncə tərzinin formalaşdırılması ilə tənzimlənir. Bunun nəticəsidir ki, Azərbaycanın igid oğulları 30 il ərzində düşmən tapdağında olan əzəli torpaqlarımızın 44 gün ərzində işğaldan azad edilməsi uğrunda canlarından keçdilər! Bəli, Azərbaycan xalqı artıq öz həqiqi qəhrəmanını tanıyır, qarşısında duran məqsəd və vəzifələri aydın şəkildə dərk edir və ölkənin inkişafı naminə xalq birliyi nümayiş etdirir. Hər kəs dərk edir ki, dövlətin rifahı üçün cəmiyyətin ilk növbədə inkişafyönümlü ideoloji təfəkkürə malik olması vacib şərtdir. İdeoloji təfəkkür isə kütləvi şüurun mövcudluğundan xəbər verir (Hüseynov, 2023). Hazırda Azərbaycanda kütləvi şüurun milli özünüdərk əsasında möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülür – silsilə tədbirlər keçirilir, dəyərli elmi nəşrlər dərc olunur, gənclərin dünyaya çıxışını təşkil etmək üçün dövlət proqramları təsdiq edilir və s. Bütün bu proseslər əbəs yerə həyata keçirilmir. Milli özünüdərk təzahür xüsusiyyətlərinə görə sosial, siyasi, iqtisadi, psixoloji və fəlsəfi xarakter daşıyır. Beləliklə də, vahid bir nəzəriyyə adlandırıla bilən milli özünüdərk məsələləri mühüm idarəçilik səciyyəsi də kəsb edir (Xəlilov, 2023). Milli özünüdərk idarəçiliyin tərkib hissəsidir. Qeyd edilən fərziyyəni elmi cəhətdən əsaslandırmaq üçün filosof İmanuel Kantın dərketmə barədə fəlsəfi qənaətlərinə istinad etmək istərdik. Kant deyir ki, *“Öz biliyindən və ağlından istifadə edəcək qədər cəsarətli ol!”*. Öz ağlından istifadə etmək insanı mənəvi azadlığa çağırır, lakin bu azadlıq ictimai və əxlaqi normalara xidmət edən idarəçiliyə əsaslanmalıdır. Məlum olur ki, insan idarəetmənin tərkib hissəsi olsa da, özünəməxsus düşüncə tərzinə də malik olmalıdır. Yəni, zehni azadlığı seçməlidir. Zehni azadlığı seçən şəxsiyyət özünü dərk edir və təsir altına düşmür. Belə bir insan tipi idarəetmədə rəhbər və ya icraçı olduqda adekvat şəxsiyyətlərarası qavrayışa yüklənir. Adekvat qərar vermək qabiliyyətinə malik olan insan isə cəmiyyətin xilaskarına çevrilir. Hər bir insan öz fəaliyyətində nümunəvi davranış sərgiləsə, idarəetmədə funksionallıq, etibarlıq və sistemlilik təmin olunar. Təcrübi biliklərin refleksiyası yaranar və kütlədə milli özünüdərketmə reallığı dominantlıq təşkil edər. Milli özünüdərketmə idraki fəaliyyət olaraq cəmiyyətin davranışında və düşüncə tərzində inikas edir. Davranış düşüncə tərzindən asılıdır.

Düşüncə tərzinin formalaşması isə elmi cəhətdən öz təsdiqini tapan praktiki ehtimal və yanaşmalara əsaslanır. Elmi mümkünlüyün daxili passionarlığa inteqrasiyasını ehtiva edən strukturu növbəti şəkildə sistemləşdirmək olar: ***elmi mümkünlük – humanist yanaşma – daxili refleksiya – kütləvi senzibilizasiya – milli özünüdərk – zehni şüur***. Zehni şüur mövcudluğun təminatçısı olaraq xalqın silsilə inkişafını şərtləndirir.

**Milli özünüdərkin ekoloji şüura təsiri məsələləri və prioritetlər.** Məlum olduğu kimi milli özünüdərk sosial-psixoloji cəhətdən cəmiyyətin mənəvi şüurunun əsas aspektlərini təşkil edir. Eyni zamanda mədəniyyətlərarası qarşılıqlı əlaqələrin və xalqın mənəvi mədəniyyətinin məzmununda obyektiv əhəmiyyətə malik bir dəyər kimi tədqiqatımızın əsas qayəsini nəzərdə tutur (ETSN, 2024). Mədəniyyətlərarası qarşılıqlı əlaqə milli özünüdərk prosesində ictimai-tarixi təcrübəyə əsaslanan real ənənələri ehtiva edir və siyasi, əxlaqi, iqtisadi, ekoloji və s. komponentlərdən ibarətdir. Sosial-psixoloji cəhətdən yanaşdıqda ekoloji komponent xüsusi əhəmiyyət kəsb edir. Ekoloji stabillik planetar aktuallığa malik olduğundan bütün bəşəriyyətin mövcudluğunun səbəbkarıdır. Bu baxımdan ekoloji problemlərin həlli bütün dünya ölkələrinin diqqət mərkəzindədir. Mədəni əlaqələrin qurulmasında da xüsusi yer alan ekoloji məsələlər milli özünüdərk fenomeninin gerçəkliklərinin nəticəsidir. Ekoloji problemlərin ahəngdar həlli isə ekoloji şüur və ekoloji tərbiyənin sistemli inkişafından asılıdır. Xüsusilə də, gənc nəslin tərbiyəsində obyektiv təsəvvürləri zəruriləşdirən ekoloji tərbiyə şəxsiyyətin formalaşmasının hərəkətverici qüvvəsidir. Gənc nəsli ekoloji biliklərlə silahlandırmaq bu tərbiyənin əsas prinsiplərindəndir. Ekoloji tərbiyənin əsasını təbiətə sevgi və onun mühafizəsi işi təşkil edir (Hüseynzadə, Əzizova, Əliyev, Verdiyeva, 2021). Ana təbiətə olan milli təəssübkeşlik və Vətən sevgisinin bariz nümunəsidir ki, Ölkə başçımız Cənab İlham Əliyevin apardığı uğurlu siyasət sayəsində Azərbaycanda ekoloji durum dövlət qayğısı ilə əhatə olunmuşdur. Respublikada ekoloji durumun yaxşılaşması ilə bağlı Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılan təməl (Hüseynov, 2023) möhtərəm Prezidentimiz Cənab İlham Əliyev tərəfindən daha da möhkəmləndirilir. Heç kəsə sirr deyildir ki, Azərbaycan qlobal əhəmiyyətli ekoloji problemlərin həllində regional və beynəlxalq səviyyədə geniş fəaliyyət göstərir. Ölkənin iqtisadi potensialı artdıqca işğaldan azad edilmiş ərazilərdə təbii ehtiyatların və ətraf mühitin mövcud vəziyyəti araşdırılır, məhv edilmiş ekosistemlərin bərpası üzrə proqramların icrası və təbii resursların ölkə iqtisadiyyatına reinteqrasiyası üzrə tədbirlər həyata keçirilir (AMEA, ETN, ETSN, MBİ, 2024). Əməli isbat olaraq qeyd edə bilərik ki, **BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29**) 12-24 noyabr 2024-cü il tarixində Azərbaycanda keçirilmiş, ekoloji problemlərin həlli istiqamətində mühüm qərarlar qəbul edilmişdir. Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi ekoloji problemlərin fəsadlarına qarşı mübarizəyə öz layiqli töhfəsini verməyi öz öhdəsinə götürmüşdür. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri *"Təmiz ətraf mühit və yaşıl artım ölkəsi"* kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması da prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur (Bayramlı, 2021).

Bəşəriyyətin gələcəyi ekoloji mədəniyyətlə bağlıdır. İnsan kiçik yaşlarından dərk etməlidir ki, torpağın, havanın və suyun çirklənməsi insan həyatı üçün təhlükə yaradan ekoloji fəlakətə səbəb ola

bilər. Hər bir insan dərk etməlidir ki, ətraf mühitin çirklənməsinin aradan qaldırılması onun ekoloji tərbiyəsi və təhsilindən asılıdır. Ekoloji təhsilin tədrisi pedaqoji və psixoloji olmaqla uşaqlarda ekoloji mədəniyyətin inkişafına yönəlmiş sistemli fəaliyyət hesab edilir. Ekoloji şüurun və dərketmənin inkişafı təbiətə qarşı ekoloji həssaslığın inkişafına səbəb olur (Qurbanov, 2021).

Yekun olaraq idarəetmədə milli özünüdərk məsələlərinin ekoloji şüura təsirinin sosial-psixoloji interpretasiyasını tədqiqat zamanı aparılan dövri müşahidə metodu vasitəsilə əldə edilən nəticələr, o cümlədən Frederik Uinslov Teylorun "Teylorizm" nəzəriyyəsi, İmanuel Kantın özünüdərketmə ilə bağlı fəlsəfi fikirləri, Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının təməlində duran humanizm və Prezident İlham Əliyevin milli dövlət fəlsəfəsinin bariz prinsipləri (Məmmədzadə və Bünyatov, 2023) əsasında vermək istərdik. Cəmiyyətin quruculuq ideyasını təşkil edən milli özünüdərk ideoloji baxımdan idarəçiliyimizin identikliyini müəyyənləşdirən mühüm amildir (Robbins, Koulter və Desenzo, 2019). Özünü dərk edən və tanıyan insanın düşüncəsi milli mənsubiyyət çalarları, etik davranışı isə nəzərəçarpan əxlaqi keyfiyyətlərlə səciyyələnir. Bu tip insanlar öz daxili aləmi ilə barışıq, şəxsiyyətlərarası münasibətlərdə isə effektiv, səmərəli və konfliktsiz nümunə göstərirlər. Onlar cəmiyyəti hər kəsin bəşəriyyətə yararlılıq mənbəyi olaraq qəbul edirlər. Hər bir cəmiyyətin özünəməxsus etik kodeksi vardır. Azərbaycanda bu kodeks ideoloji mənsubluğun qorunması və inkişafı üzərində qurulmuşdur. Belə ki, özünün milli mənsubluğunu dərk edən şəxs inkişafyönümlü fəaliyyəti prioritet olaraq qəbul edir. İnkişaf yönümlü prioritet isə sahib olduğun hər bir nemətə qarşı hörmətlə yanaşmağı tələb edir. Ekoloji məsələlər bu nemətlər içərisində əsas yer tutur. Ekoloji stabilliyin qorunması hər bir azad vətəndaşın milli və mənəvi borcudur. Yalnız sağlam psixoloji imkanlara malik olan insanlar bu qarşılıqlı əlaqəni dərk edir və ekologiyanın qorunması istiqamətində fenomenoloji əhəmiyyəti ilə seçilir. Nəticə etibarilə qeyd edə bilərik ki, ***ekoloji şüurun formalaşmasını tənzimləyən ən əsas xüsusiyyət milli özünüdərk ola bilər və ya ekoloji şüur elmi cəhətdən obyektiv təzahür xüsusiyyətlərinə malikdirsə, milli özünüdərk bu xüsusiyyətləri stabilləşdirən prinsiplərin vəhdətidir.***

**Ədəbiyyat:**


Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu. (PDF) *"Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu"* mövzusunda elmi-praktiki konfransın materialları. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://science.gov.az/uploads/pdf/894_1729081067.pdf. Bakı: Elm. s.123-125 (2024, 23-24 May).

AR Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi internet səhifəsindən əldə edilmişdir (2024). https://eco.gov.az/az/ekoloji-siyaset/azerbaycan-respublikasinin-ekolojisiyaseti.

Bayramlı, E. (2021, Avqust). *Ekoloji problemlər: səbəbləri, nəticələri və çıxış yolları.* Sia.az veb səhifəsindən əldə edilmişdir. https://sia.az/az/news/social/887816.html. (Avqust 19, 2021).

Hüseynzadə, R.L., Əzizova, Z.M., Əliyev, S.H., Verdiyeva, Ü.M. (2021). *Pedaqogika.* Bakı: Mütərcim. s.316-317.

Hüseynov, B. (2023, May) *Heydər Əliyev və Azərbaycan təbiəti.* https://sia.az/az/news/politics/1055022.html veb səhifəsindən əldə edilmişdir.

Xəlilov, S.S. (2023). *Fəlsəfi yazmalar: Vəhdət.* Bakı: Zərdabi nəşr MMC. s.42-43.

Qurbanov, S. (2021, Sentyabr). *Ekoloji tərbiyə və biliklər*. Azərbaycan müəllimi veb səhifəsindən əldə edilmişdir. https://www.old.muallim.edu.az/news.php?id=17421. [Sentyabr 21, 2021].

Məmmədzadə, İ., Bünyatov, A. (2023). *Milliliyin, milli özünüdərkin qeyri-səlis məntiq kontekstində epistemoloji xüsusiyyətləri*. Bakı: Elm və təhsil. s.11-316

Robbins, S., Koulter, M., Desenzo, D. (2019). *İdarəetmənin əsasları* (ingilis dilindən tərcümə). Bakı: Teas-Press Nəşriyyat evi. s.67-80.

# SOCIAL-EMOTIONAL LEARNING THEORY AS A CONTEMPORARY TEACHING METHOD AND COMPETENCY

**Mehraliyeva Gunay Alfi**

**State Security Service Academy of Azerbaijan named after Heydar Aliyev**

**https://orcid.org/0000-0003-4923-8004**

**gunay-m2014@yandex.com**

**Rəyçi:**

**Mirzəyeva Sevər Sərvət qızı,**

**Psixologiya üzrə fəlsəfə doktoru, dosent**

## Abstract

The goal of this report is to look at the competencies and skills employed while applying social-emotional learning theory to the teaching process. Social-emotional learning is the process by which an individual obtains and applies knowledge and abilities to grow into a healthy person, which includes emotional regulation, empathy, and interpersonal skills. Social-emotional learning consists of five competencies: *self-awareness, self-management, responsible decision-making, relationship management, and social awareness*. Each competency contributes to the development and improvement of certain skills. In terms of specific abilities, SEL can help students acquire crucial interpersonal communication skills that will help them succeed both inside and outside of the classroom. Furthermore, social-emotional learning has an impact on improving students' cooperative skills as well as the development of social skills like empathy and self-regulation.

**Key words:** social-emotional learning, self-awareness, self-management, decision-making, social awareness

# ТЕОРИЯ СОЦИАЛЬНО-ЭМОЦИОНАЛЬНОГО ОБУЧЕНИЯ КАК СОВРЕМЕННЫЙ МЕТОД ОБУЧЕНИЯ И КОМПЕТЕНТНОСТЬ

**Мехралиева Гюнай Альфи**

**Академия СГБ имени Гейдара Алиева**

**https://orcid.org/0000-0003-4923-8004**

**gunay-m2014@yandex.com**

**Резюме**

Цель этой статьи — изучить компетенции и навыки, используемые при применении теории социально-эмоционального обучения в учебном процессе. Социально-эмоциональное обучение — это процесс, посредством которого человек приобретает и применяет знания и навыки для развития как здорового человека, и включает в себя эмоциональную регуляцию, сочувствие и навыки межличностного общения. Социально-эмоциональное обучение включает в себя пять компетенций — *самосознание, самоуправление, ответственное принятие решений, управление взаимоотношениями и социальную осведомленность* — и каждая в отдельности помогает развивать и совершенствовать определенные навыки. Что касается конкретных навыков, социально-эмоциональное обучение также может помочь учащимся развить важные для них навыки межличностного общения как в классе, так и за его пределами. Кроме того, социально-эмоциональное обучение влияет на улучшение навыков сотрудничества учащихся, развитие таких социальных навыков, как эмпатия и саморегуляция.

**Ключевые слова:** социально-эмоциональное обучение, самосознание, самоуправление, принятие решений, социальное осведомленность.

# SOSİAL-EMOSİONAL ÖYRƏNMƏ NƏZƏRİYYƏSİ MÜASİR TƏDRİS ÜSULU VƏ SƏRİŞTƏ KİMİ

**Mehrəliyeva Günay Əlfi**

**Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası**

**https://orcid.org/0000-0003-4923-8004**

**gunay-m2014@yandex.com**

Sosial-emosional öyrənmə sağlam sosial və emosional səriştələrin, həmçinin, özünü idarəetmə, məsuliyyətli qərar qəbul etmə, müsbət münasibətlər və sosial şüurun inkişafını dəstəkləyən bilik, bacarıq və münasibətlərin əldə edilməsi və tətbiqi prosesi kimi təhlil olunur. Sosial-emosional öyrənmənin eyni zamanda öyrənənlərə öz emosiyalarını anlamaq və idarə etmək, başqaları ilə uğurlu əlaqələr qurmaq, məsuliyyətli qərarlar qəbul etmək, çətinliklərin və stresin öhdəsindən səmərəli şəkildə gəlmək bacarığını inkişaf etdirməyə kömək etmək üçün nəzərdə tutulması onun tez-tez təhsil proqramlarına və kurikulumlara inteqrasiyasına şərait yaratmışdır. Çünki, sosial öyrənmə tələbələrin təkcə akademik nailiyyətlərini deyil, həm də onların ümumi rifahını və həyatda uğurlarını gücləndirdiyinə inanılır (Roffey, 2014). Beleləliklə, sosial öyrənmə üsulu son illərdə bütün dünyada təhsilin vacib komponenti kimi mühüm rol oynamağa başlayır.

## Sosial-emosional öyrnmənin tarixi

Sosial-emosional öyrənmə nəzəriyyə kimi 1960-70-ci illərdə humanist psixologiyanın bir hissəsi kimi meydana gəlib və yeni cərəyan kimi şəxsi inkişafda özünə hörmət və özünə dərketmənin vacibliyinə toxunulurdu. Daha sonra bu cərəyanı inkişaf etdirərək tədqiqatçılar nəinki həyatda, həmçinin, akademik nailiyyətlərdə sosial emosional bacarıqların rolunu araşdırmağa başladılar. Bu tədqiqat təhsil müəssisələrində sosial-emosional öyrənmənin təşviqinə yönəlmiş proqramların hazırlanmasına şərait yaratdı. Beləliklə, 1990-cı illərin sonunda sosial-emosional öyrənmənin yayılmasını təşviq etmək, bu nəzəriyyə üçün standartlar, təlimatlar hazırlamaq üçün Sosial və Emosional Öyrənmə üzrə Əməkdaşlıq Təşkilatı yaradıldı.

Akademik, Sosial və Emosional Öyrənmə üzrə Əməkdaşlıq təşkilatı sosial-emosional öyrənməni uşaq, yeniyetmə və ya böyüklərin əldə və ya müraciət etdiyi, emosiyaları anlamaq, idarə etmək, məqsədlər qoymaq, başqalarına münasibətdə empatiya göstərmək, müsbət münasibətlər qurmaq üçün lazımi bilik, bacarıq və vədişlərin mənimsənilməsinə yardım edən proses kimi müəyyən edir. Bundan əlavə, son dövrlərdə sosial-emosional öyrənmənin tərifi aşağıdakı şəkildə verilir;

*"Sosial-emosional öyrənmə irqindən, sinfindən, gender kimliyindən, cinsi oriyentasiyadan, öyrənmə ehtiyaclarından və yaşdan" asılı olmayaraq güclü əlaqələrə işarə edən bərabərlik yanaşmasını özündə birləşdirir."*

## Sosial-emosional öyrənmənin səriştələri və bacarıqları

Sosial-emosional öyrənmə hər yaşda olan tələbələrə öz emosiyalarını daha yaxşı anlamağa, bu emosiyaları tam şəkildə hiss etməyə və başqalarına empatiya nümayiş etdirməyə kömək edən metodologiyadır. Bu öyrənilmiş davranışlar daha sonra tələbələrə müsbət, məsuliyyətli qərarlar qəbul etməyə, məqsədlərinə çatmaq üçün çərçivələr yaratmağa və başqaları ilə müsbət əlaqələr qurmağa kömək etmək üçün istifadə olunur.

Orta və ali təhsil müəssilələrində təhsil alanlar üçün müsbət nəticələr əldə etməyə kömək etmək məqsədiylə yaradılan və təhsil alanlara və pedaqoqlara hərs olunmuş bir təşkilat olan Akademik, Sosial və Emosional Öyrənmə üzrə Əməkdaşlıq Təşkilatı sosial-öyrənmənin sinifdə və ya sinifdənkənar tədbiqindən asılı olmayaraq özündə beş səriştəni birləşdirdiyini qeyd edir. Bu səriştələri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. ***Özünüdərketmə*** **-** Duyğularınızı və düşüncələrinizi və onların davranışınıza necə təsir etdiyini başa düşmək. Özünü dərk etmək daxili təcrübəmiz haqqında təkrarlanan düşüncə və maraqla qurduğumuz bir bacarıqdır. Özündən xəbərdar olanlar, özləri haqqında hər şeyi bildiklərini zənn etmədən özlərinə sual verməyə və cavabı düşünməyə meyllidirlər. Nadir hallarda özümüzü həqiqətən tanıyırıq. Özünü dərk edən insan etiraf edir ki, öyrənmə həmişə, hətta özünə münasibətdə də mümkündür. Bu, fərdlərə sağlam əlaqələri qorumağa və sosial adətlərə uyğun hərəkət etməyə kömək edir. Məsuliyyətli qərar qəbul etmək etik prinsipləri nəzərə almaq, özünün və başqalarının fiziki və əqli rifahını üstün tutmaq və hər bir hərəkəti rasional qiymətləndirmək bacarığıdır. Bu, müxtəlif mənşəli insanlarla şəxsi davranış və qarşılıqlı əlaqələr haqqında konstruktiv seçimlər etməkdir. Bacarıqlara aşağıdakılar daxildir: *emosiyaları müəyyən etmək, özünü dərk etmək, güclü tərəfləri dərk etmək, özünə inam və özünə effektivlik.*
2. ***Sosial maarifləndirmə*** **-** Başqalarının perspektivini qəbul etmək və onlarla empati qurmaq bacarığı. Bacarıqlara daxildir: *empatiya, fərqləri qiymətləndirmək və hörmət.*
3. ***Özünü idarəetmə*** **-** Fərqli vəziyyətlərdə duyğularınızı və davranışlarınızı tənzimləmək və hədəflər təyin etmək və ona doğru işləmək bacarığı. İcra funksiyası və özünü tənzimləmə bizə planlaşdırmağa, diqqəti cəmləməyə, təlimatları yadda saxlamağa və bir çox işi uğurla həll etməyə imkan verən zehni proseslərdir. Beynimiz diqqəti yayındıran amilləri süzgəcdən keçirmək, tapşırıqları prioritetləşdirmək, məqsədlər qoymaq və onlara nail olmaq və impulsları idarə etmək üçün bu bacarıq dəstinə ehtiyac duyur. Özümüz haqqında çox şey bilmək ilk addımdır. Özünü idarəetmə "Bununla bağlı nə edəcəyik?" sualını verən ikinci addımdır. Bacarıqlara aşağıdakılar daxildir: *icra funksiyası və özünütənzimləmə, stressin idarə edilməsi və özünü nizam-intizam.*
4. ***Münasibətlərin idarə edilməsi*** **-** Başqaları ilə sağlam və mənalı əlaqələr qurmaq və saxlamaq bacarığı. Bacarıqlara daxildir: *aydın ünsiyyət qurmaq, dinləmək, əməkdaşlıq etmək, mənfi təzyiqlərə qarşı durmaq, münaqişələri həll etmək və bir-birini dəstəkləmək.*
5. ***Məsuliyyətli qərarlar qəbul etmə*** **-** Müsbət seçim etmək, müsbət və mənfi nəticələrə görə məsuliyyət daşımaq bacarığı. Bacarıqlara aşağıdakılar daxildir: *problemləri müəyyən etmək, vəziyyətləri təhlil etmək, problemləri həll etmək və düşünmək.*

Sosial-emosional öyrənmə tədris olunan siniflərdə təhsil alanlar dərsdə daha aktiv iştirak edir. Sosial-emosional səriştələrin tədris olunmadığı siniflərdə isə istər orta, istərsə ali təhsil müəssisələrində təhsil alanlar təhsil müəssisələrini sevmir, verilən tapşırıqları zəif yerinə yetirir və tədris prosesindən yayınmağa çalışırlar. Buna görə də müasir tədris metodu kimi sosial emosional öyrənmə mühüm rol oynayır.

Təhsil səviyyəsindən asılı olmayaraq, aşağıda qeyd olunmuş tapşırıqlar və ya aktivitilər sosial və emosional bacarıqları öyrətmək və onların yaxşı mənimsənilməsi üçün tədris prosesində istifadə oluna bilər:

- ***incəsənətin köməyi ilə dərsin təşkili;*** məsələn, musiqi, rəngləmə, rəsm və ya digər incəsənət vasitələrin köməyi dərsin tədrisi. Bu zaman yaşından asılı olmayaraq bütün təhsil alanlar hissələrini daha sağlam və müsbət baxımdan sərbəst ifadə edə biləcəklər. Dərsin belə tədrisi zamanı sosial-emosional öyrənmənin özünüdərketmə bacarığı daha da inkişaf edir.

- ***parkitiki tapşırıqlar*;** hər bir tapşırıq üçün müxtəlif qrafik, cədvəl və yardımçı təlimatlardan istifadə. Bu zaman məsuliyyətlə qərar qəbuletmə və özünüidarəetmə bacarıqları inkişaf edir.

- ***kitab oxumaq*;** özünü dərketmə və özünü idarəetmə bacarıqları. Bu təhsil alana özünü və hisslərini daha rahat ifadə etməyə imkan yaradır.

- ***"buzqıran" aktivitiləri;*** özünü dərketmə, münasibət qurmaq bacarığı. Bu təhsilalanların özləri haqqında qısa məlumat verə bilmələri üçün əyləncəli üsuldur. Eyni zamanda təhsilalanlara qarşılıqlı ünsiyyət qurmağa şərait yaradır.

Bu gün sosial-emosional öyrənmə təhsilin mühüm komponenti kimi getdikcə daha çox tanınır və qəbul edilir. Müasir dövrdə sosial-emosional öyrənmə orta və ali təhsil müəssisələrində akademik performansı təkmilləşdirmək, müsbət sosial nəticələr əldə etmək, təhsil alanların diqqətinin artırılması, inkişafı və eyni zamanda peşə həyatına hazırlıq kimi səbəblərdən tədris olunur. Daha dəqiq desək, sosial-emosional öyrənmə tələbələrə akademik və ya əmək bazarında uğur qazanmaq üçün lazim olan motivasiya, özünü idarəetmə və ya ünsiyyət qurmaq kimi lazımi bacarıqları qazanmağa kömək edə bilər. Bəzi tədqiqatçılara görə isə sosial-emosional öyrənmə tələbələrə müxtəlif istiqamətlərdə hərəkət etmək üçün lazım olan sosial kontekstlərdə və müxtəlif mənşəli insanlarla effektiv qarşılıqlı əlaqədə olmaq kimi mədəni səriştələri inkişaf etdirməyə kömək edə bilər.

**Ədəbiyyat:**


Adelman, H., & Taylor, L. (2000). Moving prevention from the fringes into the fabric of school improvement. Journal of Educational and Psychological Consultation, 11, 7–26.

Badiyyah Waajida, Pamela W. Garner and Julie E. Owenba (2013). Infusing Social Emotional Learning into the Teacher Education Curriculum". The International Journal of Emotional Education Volume 5, Number 2, November. pp 31-48 (www.um.edu.mt/cres/ijee)

CASEL briefs "Background on Social and Emotional Learning (SEL)" Collaborative for Academic, Social, and Emotional Learning (www.CASEL.org), December 2007

Gay, L. R. (1987). Educational research competencies for analysis and application (3rd ed.). London: Merrill Publishing Company.

Social and Emotional Skills "Well-being, connectedness and success". OECD 2, rue André Pascal 75 775 Paris/Cedex 16. FRANCE. edu.contact@oecd.org

Zins, J. E., Weissberg, R. P., Wang, M. C., & Walberg, H. J. (Eds.). (2004). Building academic success on social and emotional learning: What does the research say? New York: Teachers College Press."

"New Vision for Education: Fostering Social and Emotional Learning through Technology". (2016). Prepared in collaboration with The Boston Consulting Group.

# IMPLEMENTING GREEN ENERGY IN EDUCATION: NEW TEACHER SKILLS AND SUSTAINABILITY STRATEGIES

**Ibishova Shahla Habib**

**Gazi University**

**https://orcid.org/0000-0001-5056-1429**
**sehlaibisova@mail.ru**

**Rəyçi:**

**Məmmədova Aytəkin Telman qızı,**

**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

**Abstract**

In modern times, education systems should not consist solely of teaching academic knowledge. Climate change, resource depletion, and environmental problems are serious concerns worldwide. In this context, the integration of green energy and sustainability concepts into education plays an important role in developing future generations as environmentally responsible and conscious citizens.

Green energy promotes the use of alternative and renewable energy sources, which not only reduce environmental impact but also increase economic efficiency. Implementing green energy in education requires teachers to acquire new skills; these skills are crucial for educating students about energy efficiency, ecosystem protection, and the principles of sustainable development.

The purpose of this study is to investigate the impact of implementing green energy in education on teachers' new skills and how these skills are integrated with sustainability strategies. The study will evaluate the role of teachers in green energy education, the use of student-centered approaches, and interactive teaching methods.

This study aims to expand the existing knowledge base on the implementation of green energy in education and to provide effective strategies for the development of teachers' skills.

**Keywords** Green energy, teachers, skills, sustainability.

# ВНЕДРЕНИЕ ЗЕЛЕНОЙ ЭНЕРГИИ В ОБРАЗОВАНИЕ: НОВЫЕ НАВЫКИ ПЕДАГОГОВ И СТРАТЕГИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ

**Ибишова Шахла Хабиб**

**Университет Гази**

**https://orcid.org/0000-0001-5056-1429**

**sehlaibisova@mail.ru**

**Резюме**

В наше время системы образования не должны состоять только из преподавания академических знаний. Изменение климата, истощение ресурсов и экологические проблемы вызывают серьезную озабоченность во всем мире. В этом контексте интеграция концепций зеленой энергетики и устойчивого развития в образование играет важную роль в формировании будущих поколений как экологически ответственных и сознательных граждан.

Зеленая энергетика способствует использованию альтернативных и возобновляемых источников энергии, которые не только уменьшают воздействие на окружающую среду, но и повышают экономическую эффективность. Внедрение зеленой энергии в образование требует от учителей приобретения новых навыков; эти навыки необходимы для обучения студентов принципам энергоэффективности, защиты экосистем и устойчивого развития.

Цель данного исследования заключается в изучении влияния внедрения зеленой энергии в образовании на новые навыки учителей и в том, как эти навыки интегрируются со стратегиями устойчивого развития. В ходе исследования будет оценена роль учителей в области зеленой энергетики, использование личностно-ориентированных подходов и интерактивных методов обучения.

Это исследование направлено на расширение существующей базы знаний о внедрении зеленой энергии в образование и предоставление эффективных стратегий для развития навыков учителей.

**Ключевые слова:** Зеленая энергия, учителя, навыки, устойчивое развитие.

# TƏHSİLDƏ YAŞIL ENERJİ TƏTBİQİ: MÜƏLLİMLƏRİN YENİ BACARIQLARI VƏ DAVAMLILIQ STRATEGİYALARI

**İbişova Şəhla Həbib**

**Qazi Universiteti**

**https://orcid.org/0000-0001-5056-1429**

**sehlaibisova@mail.ru**

Yaşıl enerji, bərpa olunan enerji mənbələrinin istifadəsini təşviq edən bir konseptdir. Bu enerji növləri arasında günəş, külək, hidro və biomasadan əldə edilən enerji formaları yer alır. Yaşıl enerji mənbələri, karbon izini azaltmaq və ətraf mühitin qorunmasına kömək etmək üçün vacibdir. Bu cür enerji mənbələrinin istifadəsi, ekosistemlərin mühafizəsi və qlobal iqlim dəyişikliyi ilə mübarizə üçün əhəmiyyətli bir addımdır.

Təhsildə yaşıl enerji tətbiqi, şagirdlərə enerji istehsalı və istehlakının ətraf mühitə təsirlərini başa düşmək imkanı tanıyır. Araşdırmalar göstərir ki, yaşıl enerji təhsili, tələbələrin ekoloji şüurunu artırır və onların dayanıqlı inkişaf prinsipini mənimsəmələrini dəstəkləyir (Hüseynov, 2021; García & Ramírez, 2021). Məsələn, tələbələr yaşıl enerji mənbələrinin istifadəsi ilə bağlı praktik təcrübələr və laboratoriya işləri vasitəsilə enerji istehsalının ekologiyaya təsirini birbaşa müşahidə edə bilərlər.

Bununla yanaşı, təhsil sistemləri yaşıl enerji konsepsiyalarını öz müfredatlarına daxil edərək, gənc nəsillərin enerji səmərəliliyini artırmağa və ekoloji məsuliyyət hissini gücləndirməyə çalışmalıdır. Müəllimlərin yaşıl enerji ilə bağlı bilikləri, onların tələbələrə ekoloji problemləri anlamaq və həll etməkdə kömək edə bilər (Hodge vd., 2020). Müəllimlər, enerji istehsalı və istehlakı ilə bağlı müasir məsələlər haqqında geniş məlumatlı olmalıdırlar ki, şagirdlərə praktiki həll yolları təklif edə bilsinlər.

Təhsildə yaşıl enerji anlayışının tətbiqi, yalnız şagirdlərin biliklərini artırmaqla kifayətlənmir, eyni zamanda onların tənqidi düşünmə bacarıqlarını da inkişaf etdirir. Şagirdlər, real həyatda yaşıl enerji tətbiqinin faydaları və çətinlikləri haqqında müzakirələr apararaq, öz fikir və baxışlarını formalaşdırma imkanı qazanırlar. Eyni zamanda, yaşıl enerji layihələri, şagirdlərin komanda şəklində işləmə və problemləri birgə həll etmə bacarıqlarını inkişaf etdirir.

Nəticə olaraq, yaşıl enerji təhsili, müasir cəmiyyətin ekoloji çağırışlarına cavab vermək və gənc nəsilləri ekoloji cəhətdən məsuliyyətli və şüurlu vətəndaşlar kimi yetişdirmək üçün əhəmiyyətli bir vasitədir. Bu yanaşma, gələcək nəsillərin davamlı inkişaf prinsiplərini mənimsəmələrini təmin edəcək və ekosistemlərin mühafizəsi üçün yeni ideyaların yaranmasına yol açacaq.

## Müəllimlərin yeni bacarıqları: Yaşıl enerji və davamlılıq

Müəllimlərin rolu yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır; onlar həm də tələbələrin yaşıl enerji və davamlılıq prinsipləri ilə bağlı anlayışlarını formalaşdırmaqda əhəmiyyətli bir rol oynayır. Müəllimlər, yeni pedaqoji yanaşmalar, texnologiyalardan istifadənin artırılması və interaktiv tədris metodları ilə tələbələri motivasiya etməyə hazır olmalıdırlar (Liu & Wang, 2019; Quliyeva, 2022).

Yaşıl enerji sahəsində yeni biliklərə yiyələnmək, müəllimlərin professional inkişafı üçün vacibdir. Müəllimlər, yaşıl enerji tətbiqi, ekoloji problemlər və dayanıqlı inkişaf mövzularında

mütəmadi olaraq təlimlər keçməli və bu sahədəki ən son inkişaflarla tanış olmalıdırlar (Becker & Park, 2018).

Müəllimlər yaşıl enerji və davamlılıq prinsipləri ilə bağlı məlumatları sadəcə ötürməkdən daha çox tələbələrin bu sahələrdə fəal iştirakını təmin etməli və onlara tənqidi düşünmə bacarıqları aşılamağa çalışmalıdırlar. Bu kontekstdə, müəllimlər dərs prosesində tələbələrin aktiv şəkildə iştirakını təmin edən layihə əsaslı öyrənmə və problem həll etmə metodlarına üstünlük verə bilərlər. Bu metodlar, tələbələrin yaşıl enerji və davamlılıq mövzularını daha dərindən anlamaqlarına, eyni zamanda real həyatda rast gəlinən ekoloji problemlərin həlli üçün praktik yollar tapmalarına şərait yaradır (Smith & Johnson, 2020; Əliyeva, 2023). Beləliklə, yaşıl enerji təhsilində müəllimlərin yenilikçi tədris yanaşmaları ilə bərabər, tələbələrə ekoloji dəyərləri və sosial məsuliyyət hissini aşılamaq rolu da vacibdir.

**Davamlılıq strategiyaları: Müxtəlif yanaşmalar**

Davamlılıq strategiyaları, məktəblərin ekoloji və sosial məsuliyyətlərini yerinə yetirmək üçün istifadə olunan yanaşmalardır. Bu strategiyalar, enerji istifadəsinin optimallaşdırılması, tullantıların azaldılması və ekosistemlərin qorunması kimi aspektləri əhatə edir (Orr, 2017; Əliyev, 2023).

Təhsil sistemləri, davamlılığı təşviq etmək üçün bir sıra fərqli yanaşmalardan istifadə edə bilərlər: ekoloji layihələr, şagirdlərin iştirakını artıran proqramlar və lokal icmalarla əməkdaşlıq. Bu yanaşmalar, yalnız ekoloji şüuru artırmaqla qalmayıb, həm də şagirdlərin liderlik bacarıqlarını inkişaf etdirir (Sterling, 2010; Mustafayeva, 2021).

Davamlılıq, eyni zamanda, tədris planına inteqrasiya olunmalı və müəllimlərin yeni bacarıqlara yiyələnməsini təşviq edən bir mühit yaradılmalıdır. Müxtəlif disiplinlər arasında əməkdaşlıq, yaşıl enerji və davamlılıq anlayışlarının daha geniş bir kontekstdə öyrənilməsinə imkan tanıyır (Leal Filho et al., 2018).

Davamlılıq strategiyalarının məktəb mühitinə inteqrasiyası, eyni zamanda, şagirdlərdə həyat boyu davamlı inkişaf dəyərlərini formalaşdırır. Bu istiqamətdə məktəblər ekoloji izlərinin azaldılmasını məqsəd qoyan enerji səmərəliliyi proqramları, suyun qənaətli istifadəsi və təkrar emal layihələri kimi konkret təşəbbüslər həyata keçirə bilərlər. Belə təşəbbüslər, şagirdlərə ekologiyaya olan təsirlərini anlamaq və onlara fərdi davranışların qlobal miqyasda əhəmiyyətli təsir edə biləcəyi fikrini aşılamaqda mühüm rol oynayır (Gülay & Mammadov, 2022; Palmer, 2019). Eyni zamanda, məktəb rəhbərliyi və müəllimlər davamlılıq hədəflərinə nail olmaq üçün ailələr və lokal icmalarla sıx əməkdaşlıq etməklə, məktəbdənkənar ekoloji təhsil imkanlarını genişləndirmək və davamlı inkişaf təcrübələrini daha geniş kütlələrə yaymaq üçün zəruri şərait yaradırlar.

**Ədəbiyyat:**


Becker, K., & Park, K. (2018). *Teacher Professional Development and Environmental Sustainability Education*. Environmental Education Journal, 25(4), 291-308.

Əliyev, M. (2023). *Təhsildə davamlılıq strategiyaları və onların məktəb mühitinə inteqrasiyası*. Ekologiya və Davamlı İnkişaf, 12(3), 44-57.

Əliyeva, L. (2023). *Ekoloji problemlərin həlli və davamlı inkişaf prinsiplərinin tədrisi*. Bakı Təhsil və Ekoloji İnkişaf İnstitutu.

García, M., & Ramírez, J. (2021). *Renewable Energy Education and Its Impact on Student Awareness*. Renewable Energy and Sustainability Journal, 15(2), 202-214.

Gülay, N., & Mammadov, R. (2022). *Ecological Footprint and Student Behavioral Changes Through School-Based Sustainability Programs*. Ecological Education Review, 17(2), 101-119.

Hodge, R., et al. (2020). *Educational Systems and Renewable Energy Curriculum Integration*. Education for Sustainability Review, 19(1), 67-79.

Hüseynov, İ. (2021). *Yaşıl Enerji və Dayanıqlı İnkişaf: Təhsil İnteqrasiyaları*. Bakı: Azərbaycan Ekoloji Təhsil Nəşriyyatı.

Quliyeva, S. (2022). *Təhsildə Yaşıl Enerji və Ekoloji Şüurun Formalaşması*. Bakı: Təhsil və Davamlı İnkişaf Jurnalı.

Leal Filho, W., et al. (2018). *Sustainability in Education: Cross-disciplinary Collaborations for a Sustainable Future*. International Journal of Educational Research, 26(4), 321-335.

Liu, Y., & Wang, J. (2019). *Innovative Teaching Methods for Renewable Energy Education*. Journal of Educational Innovation, 11(3), 243-260.

Mustafayeva, N. (2021). *Liderlik Bacarıqlarının Təhsildə Ekoloji Layihələr Vasitəsilə İnkişafı*. Davamlı İnkişaf və Ekologiya, 9(2), 153-169.

Orr, D. W. (2017). *Environmental Literacy and Sustainable Education*. Environmental Education Research, 15(1), 123-138.

Palmer, J. (2019). *Environmental Impacts and Student Awareness through Sustainability Education*. Global Sustainability Journal, 28(1), 198-209.

Smith, A., & Johnson, M. (2020). *Project-Based Learning and Problem Solving in Green Energy Education*. Journal of Science and Education, 14(5), 72-88.

Sterling, S. (2010). *Ecological Literacy and Sustainability Leadership in Education*. Journal of Environmental Education, 29(2), 30-45.